KƏRİMBƏYLİ ŞİRİN XANIM

ŞADİMAN

Bu kitabı ömrünü, gününü balalarının fitravan və rahat həyatına həsir etmiş və yetmiş iki yaşında dünyasını dəyişmiş, hələ də yoxluğu ilə barışa bilmədiyim və müqəddəs ruhu qarşısında baş əydiyim əziz atam Ağabala Məmməd oğluna ithaf edirəm!

AĞILA BƏHƏR DÜNYA
ÜRƏYƏ QƏHƏR DÜNYA

BAKI – 2006

ÖN SÖZ

ZİRVƏLƏRDƏ OLAN TANRI

QURANDA ŞAİRLƏR HAQQINDA AYƏ

Şairlər surəsi şəfəqdi Ayə,
İki yuz iyirmyeddi ayəbəayə.
***
Quranda şairlər haqqında ayə-
Deyir haqq yolunda düşsəndə vayə,
Əgər salmasalar sözünü sayə,
Zənn etmə gedibdi əməyin zayə,
Ol, düzlük yolunda sağ ikən dayə,
Axsa da göz yaşın dönsə də çayə,

Yetişər çaldığın qələmin hayə,
Mən sənə vermişəm ilhamı qayə,
Eylə ömrün boyu haqqı himayə!
Əyrini vəsf edən şeytandır, ayə,
Şərdən yoğrulubdu kökündə mayə!
Səvabı, günahı vur günə, ayə,
O haqq dünyan üçün dönəcək sayə.
Yükləmə günahı belinə tayə,
Yüklədin nə qalar səndən dünyayə?!…
Şadiman, dönübdü qəm oxa, yayə,
Haray sal, ahını aləmə yayə!
Saldığın harayın tutar daş-qayə,
Dirikən zavallı, yetiş ah-vayə!
Pirallahı; 6.X11.2006

İLAHİ, DÜNYANI QORU

İlahi, dünyanı şeytan, iblisdən,
Vicdanın paraya satandan qoru.
Beyni zəhərləyən min cürə hissdən,
Hər qəlbdə, ürəkdə yatandan qoru.

Gücsüzün göz yaşı dəryadı, çaydı,
Haqsızlıq basılmaz min-min alaydı,
Dörd yanım hıçqırıq, nalədi, vaydı,
Haqqı ayaqlara atandan qoru.

Alıb-aldatmaqdı bəndənin işi,
Haramı halaltək doğrayır dişi,
Savaşı, qırğını, gethagedişi…
Əcəlin belinə çatandan qoru.

Kökündən qırılır gündə min ürək,
Dolur bulud təki dağılır dilək,
Pislik çox ürəkdə min donlu mələk,
Yamanı yaxşıya qatandan qoru.

İlahi, Şadiman sənə daməndə,
Mat qalıb addımda feilə, fəndə,
Nicat axtaranın ümidi səndə,
Onu çirkablara atandan qoru.
10. 01. 1991

ZİRVƏLƏRDƏ OLAN TANRI

Zirvələrdə olan Tanrı,
Dərmanımız səndən gəldi.
Mehrin könlə salan Tanrı,
Ünvanımız səndən gəldi.

Qanad verdin mələklərə,
Könül açdın diləklərə,
Elə düşdün ürəklərə –
Peymanımız səndən gəldi.

Hər can içrə çıraq oldun,
Paklıqlardan soraq oldun,
İnsanlığa yaraq oldun,
Ümmanımız səndən gəldi.

Bəşər əhlin tox etməkçin,
Sevincini çox etməkçin,
Vəhşiliyi yox etməkçin,
Kamanımız səndən gəldi.

Hey titrətdin yer üzünü,
Həm gecə, həm gündüzünü,
Göstərmədin heç üzünü,
Qatladıqca şər dizini,
Amanımız səndən gəldi.

Eşqi cana amal etdin,
Başda necə kamal etdin?
İnsanı xoşcamal etdin,
Loğmanımız səndən gəldi.

Ömrə qurdun vaxtımızı,
Çox laxlatdın taxtımızı,
Sınadıqca baxtımızı,
Zamanımız səndən gəldi.

Sünbülümüz dənə keçdi,
Can ağrısı tənə keçdi,
Kitabımız önə keçdi,
İmanımız səndən gəldi.

Şadimanı nə çalxatdın?
Könlünə od, atəş atdın,
İlhamıyla qəm yaratdın,
Divanımız səndən gəldi.

9. 01. 2003

OYMA ÜRƏYİMİ, OYMA , İLAHİ

Günəşin atəşi sinəmə hopub,
Buludlar, şimşəklər köksümdən qopub,
Bu can hüzurunda varlığın tapıb,
Əzaba dözənlər haqqına dahi,
Oyma ürəyimi, oyma, İlahi.

Var olub, dünyaya sarılıb bəndə,
Düşübdü ağılı min cürə bəndə,
Nə yazıq, canını üzüblər təndə,
Əzaba dözənlər haqqına dahi,
Oyma ürəyimi, oyma, İlahi.

Acılar, fəryadlar dünyanı tutmaz,
Niyə daş qəlbləri fəqan oyatmaz?!
Əllər dərgahında, bu səsim çatmaz,
Əzaba dözənlər haqqına dahi,
Oyma ürəyimi, oyma, İlahi.

Dağılıb aləmə odum-ocağım,
Sinəmdən aləmə fəqandı ağım,
Sənsən, ey Yaradan, yalnız dayağım,
Əzaba dözənlər haqqına dahi,
Oyma ürəyimi, oyma, İlahi.

Dünyaya gələli sail olmuşam,
Acıya şəkərtək qail olmuşam,
Düşməni dost bilib mail olmuşam,
Əzaba dözənlər haqqına dahi,
Oyma ürəyimi, oyma, İlahi.
07.03. 1994

ODU DAHİ, UCA YARADICI

Odu dahi, uca Yaradıcı,
Tapılmaz əlaca Yaradıcı,
Şöhrətə, həm taca Yaradıcı,
Varlıya, həm aca Yaradıcı,
Bəşərə haqq diləyən Allahdı,
Hər şeyi xəlq eləyən Allahdı.

Onun ilhamıdı gəzir ərzi,
Naləsi hər saat əzir ərzi,
Varına, yoxuna nəzir ərzi,
Göndərir ərşinə üzür ərzi,
Adəmi hey ələyən Allahdı,
Hər şeyi xəlq eləyən Allahdı.

Odu dinləri beyinlərə salan,
Odu Əzrayıl ilə can alan,
Kainatla bir, əbədi qalan,
Odu, tənləri məzara salan,
Bizdən adil, biləyən Allahdı,
Hər şeyi xəlq eləyən Allahdı.

Odu bəşərə verən də canı,
Həm nəş'ə həm qəm edən də anı,
Həm yerdə, həm göydə ünvanı,
Odu məhşərə qoyan divanı,
Könlə düzlük bələyən Allahdı,
Hər şeyi xəlq eləyən Allahdı.

Odu qoruyan haqqın dəbini,
Hər kəsə qıymayır can təbini,
Sevdiyi könlə salar həbini,
Tutar ilhama elə qəlbini,
Vicdan ilə mələyən Allahdı,
Hər şeyi xəlq eləyən Allahdı.

Ona pəyandaz olub Şadiman,
Onun dərgahına elər iman,
Ondan ilhamına gələr fərman,
Göndərər könlünə təbi dərman,
Qəlblərə nur çiləyən Allahdı,
Hər şeyi xəlq eləyən Allahdı.
03.03.2003

EY XUDA

Mum etdin hər sirini,
Açmadın heç birini,
Həm ölü, həm dirini,
Qoydun qəflət yuxuda,
Ey Xuda.

Bizi Məcnun eylədin,
Eşqə cunun eylədin,
Təni unun eylədin,
Sındı dünya oxu da,
Ey Xuda.

Hökmündə bəşər ömrü,
Dilində haqq əmiri,
Yuğurursan xəmiri,
Qalıb əldə çoxu da,
Ey Xuda.

Hər bədən açmış gülün,
Aləm gözünə tülün,
Oxur həyat bülbülün,
Burnu min bir qoxuda,
Ey Xuda.

İtirib bəşər özün,
Boyayıb şərlə üzün,
Qapına dizin-dizin…
Gələr qara-qorxuda,
Ey Xuda.

Gecəmi şam eylədin,
Təbimlə kam eylədin,
Əhdi ilham eylədin,
Əqlimi tam eylədin,
Ərşə qaçıb yuxu da,
Ey Xuda.

Şadimanı var etdin,
Canın qəmə zar etdin,
İlhamıyla yar etdin,
Bu aləmə car etdin,
Eşqin könlümə qida,
Ey Xuda…
19.02.2003

ƏN BÖYÜK YARADICI

Ən böyük yaradıcı Allahdı,
Onun nurudu tutan dünyanı,
Göyün və yerin tacı Allahdı,
Odu başda yaradan röyanı.

Allahın nuru könlüvə yarsa.
Təb gəlir ürəyə axın-axın.
Harda yaradıcı bəndə varsa,
Olur cövürlə dərgaha yaxın.

Salır riqqətə ürək telini,
Yaradan bəndəsinə hay veir
Coşdurur ilhamının selini,
Sevdiyi insanına pay veir.

Camaat yaradıcı adama,
Hər zaman da edibdi paxıllıq.
Qoyarlar qəlbini həsrət kama,
Görə bilməz ölüncə xoşqılıq.

O cümlədən də gəl, ey Şadiman,
Könlüvə qoyma girə məlalı,
Sanma, etsələr ilhamına man,
Sənintək yoxdu başıbəlalı.

03.03.2003

ÇARƏ TAPAR LOĞMANIMIZ

/Allahşükür Paşazadə həzrətlərinə /

Quranı çox baha qiymətə satır dükanımız,
Allahın kitabını almağa yox imkanımız.

İstəyiriksə, əgər, saçsın işıq İslamı biz,
Düşüb əldən itməsin haqqa gedən sükanımız.

Millətin içində var bir para kütləmiz, hənuz,
İsaya üz çevirib düşüb şərə məkanımız.

İndi pulsuz-parasız İncili satır sektalar,
Allahın lənətinə gəlib yenə imanımız.

Bir zamanlar məscidi od vurub yandırdı fücur,
İndi də yetib, müdam dindən dönmək zamanımız.

Niyə biz də yaymayaq Quranı pulsuz xəlqə?!
Bəs nə vaxt şölə saçar böylə ədəb-ərkanımız?

İsaya üz çevirən sektalar bəxşiş də alır,
Lənətə gəlmişlərə tapılmayır fərmanımız!...

Ölüsü düşənə yox bir balaca köməyimiz,
Mollalar soyur cibi, ərşə çıxır amanımız.

Məzara yetişməyin özü hələ müşkül olub,
Yer pulu, qəbir pulu heç ağramır vicdanımız.

Bu kimi dərdlərimiz əzir milləti büsbütün,

Necə gün keçirə, de, bəs mətləbi qananımız?!

Nə zaman işlərə əncam olacaqdı görəsən?
Ki, haçan acımıza çarə tapar loğmanımız?!

Bir para dərdimizin yarısını yazdım hələ,
Çün bilir cümlə -Vətən murdarlanır ünvanımız.

Etməsin tənə, yetən bu Şadiman biçarəyə,
Göz görür, fəryad edir tənə bağlı bu canımız…
11.05.2003 / Pirallahı

SİRRİNİ HİFZ ELƏYƏR ALLAHIM

Bəşərin ömrü gedir fənaya,
Salıb insanın özün çox vaya,
Nə üzlə dönər ruhu Xudaya?!…
Etdiyi günahlar gəlməz saya,
Adəmə haqq diləyər Allahım,
Sirrini hifz eləyər Allahım.

Hər şey ötübdü əndazəsini,
Arayır pisliyin təzəsini,
İlahi yazsa can ərzəsini,
Tuşlasa bədənə nizəsini,
Ərzə ölüm bələyər Allahım,
Sirrini hifz eləyər Allahım.

Açmayar kainat heç üzünü,
Gizləyər gecə və gündüzünü,
Qatlayar adəmin lap dizini,
İtirər bu dünyadan izini,
Yeri, göyü ələyər Allahım,
Sirrini hifz eləyər Allahım.

Canımız tənimizdən uçandı,
Xudanın haqqına yol açandı,
Günahı günəş təki saçandı,
Kim bilir axır günü haçandı?!…
Hər kəsin taxtin əyər Allahım,
Sirrini hifz eləyər Allahım.

Baş cəfa çəkər bədənə görə,
Tamah hədd aşar gödənə görə,
Ölüm görk, canı güdənə görə,
Yoxdu bir şəfa gedənə görə…
Fələklə başa döyər Allahım,
Sirrini hifz eləyər Allahım.

Çox mənəm deyən düşər ayağa,
Fırtına divan tutar mayağa,
Həmişə dəyir cida dayağa,
Verər bəndə bir-birin ayağa,
Əcəli canla öyər Allahım,
Sirrini hifz eləyər Allahım.

Sırqa et, Şadiman, Rəbb əmrini,
Yaradan sayla verib ömrünü,
Torpaq edər bədən xəmrini,

Batırar əbədi səs-səmrini,
Təni sünbültək üyər Allahım,
Sirrini hifz eləyər Allahım.

18.02.2003

RƏBBƏ ŞÜKÜR

Könlümü tutdurubdu atəşə,
Verir min cövrü-cəfa Günəşə,
Çağlayır sinəmdəki qəm, nəş'ə,
Ürəyi kama salan Rəbbə şükür,
Təbi ilhama salan Rəbbə şükür.

Hər şeyin ölçüsünü etmədədi,
Ələmin axırına yetmədədi,
Ruhuyla ərş bağına getmədədi,
Gecəni şama salan Rəbbə şükür,
Təbi ilhama salan Rəbbə şükür.

Üzünün ayə çəkir şuvası,
Dilinin haqqa çatır duvası,
Canımın zinətidi yuvası,
Zərrəni tama salan Rəbbə şükür,
Təbi ilhama salan Rəbbə şükür.

Tapmadı itirənlər həyanı,
Paklığı insanların həyanı,
Kim apardı özüylə dünyanı?!..
Zülümü dama salan Rəbbə şükür,
Təbi ilhama salan Rəbbə şükür.

Şadiman çəkmədə can cövrünü,
Yaşayır hər bəşər öz dövrünü,
Ürəyin atəşə köz dövrünü,
Qəmi axşama salan Rəbbə şükür,
Təbi ilhama salan Rəbbə şükür.

17.02.2003

GÖYÜ, YERİ YARADAN

Çəkmə gəl zülmü başa, ey qafil,
Vurma bəxtini daşa, ey qafil,
Çıxaran işi boşa, ey qafil,
Qurtaran hər bəladan Allahdı,
Yeri, Göyü yaradan Allahdı.

Hər işin sonuna bir xitəmi,
Hər evə, hər ocağa matəmi,
Dünyanı xəlq eləyən hatəmi,
Nur gəlirsə haradan…? Allahdı,
Yeri, Göyü yaradan Allahdı.

Baharı döndərən zimistana,
Bərəkət gətirən göy bostana,
Səhranı çevirən gülüstana,
Geydirən al xaradan Allahdı,
Yeri, Göyü yaradan Allahdı.

Qoparan qəlbin içindən şəri,

Addımının adama düşəri,
Qoruyan qoltuğunda bəşəri,
Hifz edən, can arıdan Allahdı,
Yeri, göyü yaradan Allahdı.

Dünyanı ya boşaldan dolduran,
Diriyə ölüyçün saç yolduran,
Qönçəni budağında solduran,
Götürən tez sıradan Allahdı,
Yeri, Göyü yaradan Allahdı.

Varı, sərvəti verən də odu,
Aləmi yuyub-sərən də odu,
Ərşidən bizi görən də odu,
Edən üzü qaradan Allahdı,
Yeri, Göyü yaradan Allahdı.

Ayı zülmətlərə şam eyliyən,
Zərrədə min cürə kam eyliyən,
Dərdi hər sinədə dam eyliyən,
Paranı cövürlə tam eyliyən,
Ne'məti heç-puç və şam eyliyən,
Tökən nurun oradan Allahdı,
Yeri, Göyü yaradan Allahdı.

Şadiman, at könüldən cidanı,
Xaliq sevməz Rəbbinə ədanı,
Bizlə həyata verir qidanı,
Eləmə vara belə sevdanı,
Aparan can aradan Allahdı,
Yeri, Göyü yaradan Allahdı.
17.02.2003

NƏ BİLƏYDİM FƏLƏYİM AH İMİŞ ?!

Nə biləydim fələyim ah imiş ?!
Bu ahı görmək bir günah imiş,
Nəş'ə və qəm verən sabah imiş,
Könlümüz dərdlərə ürcah imiş,
Qəlbimiz hər qəmə yetdi, Allah,
Ömrümüz ölümlə bitdi, Allah.

Sən bizə arzunu imkan etdin,
Torpağı əbədi məkan etdin,
Zamanı anlara sükan etdin,
Yaranıb-ölməyi zəkan etdin,
Sübhümüz açılıb ötdü, Allah,
Ömrümüz ölümlə bitdi, Allah.

Sən tənin canını vaxtla qoydun,
Bədəni min bir mərəzlə oydun,
Nə zaman bəşər felinə uydun,
Başımızdan keçəni sən duydun,
Hər şeyi ağlımız etdi Allah,
Ömrümüz ölümlə bitdi Allah.

Biz sənə dönəcək qullarınıq,
Dünyaya uzanmış qollarınıq,
Haqqına çəkilmiş yollarınıq,

Ərzinə səpilmiş pullarınıq,
Kim deyər haqqı-say itdi, Allah ?!
Ömrümüz ölümlə bitdi, Allah.

Bağrımız naləyə al-qan oldu,
Bizi hər zülümə atan an oldu,
Könlümüz atəşə büryan oldu,
Bu dünya nə şirin röyan oldu?!…
Zamana bürünüb getdi, Allah,
Ömrümüz ölümlə bitdi, Allah.

Şadiman canbir olub qəm ilən,
Gözünü çeşmə edib nəm ilən,
Zili sevdaya düşüb bəm ilən,
Təb elə şam eləyir dəm ilən,
Dilimiz bülbültək ötdü, Allah,
Ömrümüz ölümlə bitdi, Allah.
15.02.2003

HƏR NƏ VARSA ALLAHDANDI

Ərşi, kürşü ram eyləyən,
Acılarla kam eyləyən,
Hər ağrını dam eyləyən,
Yamanlıqlar günahdandı,
Hər nə varsa, Allahdandı.

Dizimizi bükən də o,
Gözdən yaşı tökən də o,
Biçən də o, əkən də o,
Bəlanı verən ahdandı,
Hər nə varsa, Allahdandı.

Zülmətləri işıq edən,
Haqqı qaşıq-qaşıq edən,
Bu dünyanı aşıq edən –
Göyün nuru sabahdandı,
Hər nə varsa, Allahdandı.

Bu Şadiman Tanrı qulu,
Gəldi gedər üzüsulu,
Atdan düşən ömür çulu –
Əcəl açan silahdandı,
Hər nə varsa, Allahdandı.
14.02.2003

SAXLA GÖYDƏ HƏLƏ DAŞI, ALLAH

Qarışıb bu dünyanın əhvalı,
Dəyişib yerin, göyün də halı,
Zaman da fırlanır lap dal-dalı,
Düşür haqq kitaba qeylü-qalı,
Ağlayır gözlərin yaşı, Allah,

Saxla göydə hələ daşı, Allah.

Bəşərin üzü dönüb Xudadan,
Qurtula bilməyir heç ədadan,
Əskik olmur nə, başı qadadan?
Batıb göyün qulağı sədadan,
Qanmayır etdiyin naşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Mələşir ac-yalavac adamlar,
Qəm ilə, ah ilə dolu damlar,
Söndürülür çox bədəndə şamlar,
Çatmayır məramına heç kamlar,
Bəladı insana başı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Hər işin kəmi-kəsiri olur,
Yalanlar haram qəsiri olur,
Tamahkar varın əsiri olur,
Yoxsulun bircə həsiri olur,
Görməyir ocaqda aşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Çoxunun gözlərini qan tutur,
Qorxmayır əzrayıldan can tutur,
Ömrünü uzatmaqçın an tutur,
Yer üzün su yerinə qan tutur…
Dəbdədi ölüm tələşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Yaratdın bu dünyanı qalmağa,
Bəni-bəşər ilə yer dolmağa,
Payızında əcəllə solmağa,
Etmədin şər yuvası olmağa ?…
Gəl, bu qurduğunu daşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Bəşərin batıb özü ahına,
Bulaşıb etdiyi günahına,
Guman yoxki haqqın sabahına,
Yalandan quldu səcdəgahına,
Çox çəkib dünyanın başı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Yetimin, yoxsulun şəfası yox,
Bilirsən, bəndənin vəfası yox,
Vallahi, cahanın səfası yox,
Zülmkarın niyə cəfası yox?
Zülümlərdə boğulan ası çox,
Əcəli sanır sirdaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Dönübdü dinlər əldə uşağa…
Yalanlar axır başdan-aşağa,

Bağlanıb zər-zibatək qurşağa,
Göy ilə yer arsı qovşağa,
Bilinmir hiylənin yaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Xaçpərəst müsəlmanla öcəşir,
Düşür lap araya hər gün həşir,
Əzrayılın ürəyin ah deşir,
Dinlərin bağrını zülüm eşir,
Tanımır qardaş-qardaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Qadirim, ruzini verən, sənsən,
Hər canı tənindən dərən, sənsən,
Bədəni torpağa sərən, sənsən,
Həm göydə, həm yerdə ərən, sənsən.
Qurmusan harda bardaşı, Allah?
Saxla göydə hələ daşı, Allah.

Yer adlı mənzilimiz vay olur,
Yalana, fitnəyə bir hay olur,
Gözümüzdə yaşımız çay olur,
Bəndələr Əzrayıla tay olur,
Bu dünya salır çaşbaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Ruhumuz məzarımıza gülür,
Bu fələk azarımıza gülür,
İç dolu ah-zarımıza gülür,
Qəbirə güzarımıza gülür,
Olubdu bəşər daşbaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.

Şadiman sanki düşüb röyaya,
Mat qalıb bəşərdə bu xülyaya,
Peşiman, gəldiyiçün dünyaya,
Sığınıb sən verdiyin həyaya,
Çatılıb ələmdən qaşı, Allah,
Saxla göydə hələ daşı, Allah.
Saxla göydə hələ daşı, Allah.
01. X11. 2002

CANI TƏNDƏ BƏSLƏYƏN RƏBB

Canı təndə bəsləyən Rəbb-
Onu haqqa qul eylədi.
Bu həyatı sananlar dəb-
Vicdanını pul eylədi.

Hər sınanada ömür qabı,
Sahibi ah-zara düşdü,
Kəsiləndə qəlbin tabı-
Harda idi, hara düşdü ?…

Bəndə özün Allah sandı,

Hər günahı min ah etdi.
Pozdu haqqa olan andı,
Təmiz gəldi, çirkli getdi.

Fələk özü bir sitəmkar,
Bacalarda tüstü boğar.
Hər gələni edər inkar,
Bir öldürər, min bir doğar.

Hər ürəyi üzən Tanrı,
Verdiyini alar bir-bir,
Şüurlarda gəzən Tanrı,
Ömrü taxtdan salar bir-bir.

Gedənləri kül eyləyər,
Gələnlərə gözüm deyər.
Canı təndə tül eyləyər,
Hər bədənin başın yeyər.

Sanma, dünya sənə bazar,
Bazar Rəbbin, məzar Rəbbin.
Hamıya bir ömür yazar…
Ah-zar Rəbbin, gülzar Rəbbin.

Ey Şadiman, könül qala,
Uçdu, qondu ilham ora.
Sıx qəlbinə, yet vüsala,
Qoyma ömrü zaman yora.

06.01.2003

ALLAH

Sorulur hər yanda məzlumun qanı,
Dünyada höküm edir min suç, min günah.
Sən öz qüdrətinlə bəndən insanı,
İçi boş başlardan uzaq et, Allah.

Baş kəsən yüzdürsə, baş kəsdirən min,
Oyuncaq edilib hər etiqad, din,
Salınır bəxtlərə gündə yüz düyün,
Hardasan, bircə yol dada yet, Allah?...

Ürəklər, diləklər yoxsullanıbdı,
Vicdanlar, qeyrətlər lap qullanıbdı,
Dünyanın belinə qəm çullanıbdı,
Gəl, zülmün evinə bir yol yet, Allah.

24-25. X1.1990

SEVGİLİ ALLAH

Ey hər şeyə qadir, sevgili Allah,
Əfv elə, qulunam, var isə günah,
Ey ağlın, ürəyin, könlün sultanı,
Sənsən bəxş eləyən bizlərə canı,
Bizə səndən gəlir hər istək, dilək,
Sənin dövürəndə fırlanır fələk

Onu canımızın sən etdin yarı,
Nəfəsin olmasa bitərmi darı?…
Sənin qulunuq biz, sənin kölənik,
Nurunla doğulub sonra ölənik,
Yerlərin, göylərin, ey Qibləgahı,
Gəl, sil sinəmizdən dikələn ahı.
Sənin ocağınla qızınır Günəş,
Bağrımı yandıran bu od, bu atəş,
Adəmə verdiyin sevdalarındı,
Varlığda nə varsa nidalarındı…!
Ey hər şeyə qadir, sevgili Allah,
Sənin əlindədi gecə və sabah,
Kainat nurunu səndən götürür,
Sonra da sevdiyin cana ötürür,
İblisə, şeytana nuş etmə bizi,
Endirmə uzalı bu əlimizi,
Bizim ağlımızın açarı səndə,
Verdiyin can yaşar, var olan təndə,
Çağlat eşqimizi, sinədə artır,
Vara hərisliyi əbədi batır…
Bu kor şüurların gözünü açdır,
Tamaha qul olan hər bəndə acdır!
Ey hər şeyə qadir, sevgili Allah,
Biz səni bilirik könlə səcgəgah,
Bizi var edən də, yox edən də sən,
Varmı yerdə, göydə de sənlə tən?
Hansı mərtəbəyə ucalsaq da biz,
Dönüb hüzürüna çökəcəyik diz,
Səndən güclü sanan özün dünyada,
Ruhunu əbədi atıbdı oda,
Sənə rica edib, yalvaran da biz,
Gözünü yaşlarla suvaran da biz,
İşığın olmasa batar bu cahan,
Səndən rizasını alır gələn an,
Bütün canlıların havası səndə,
Hər canın əbədi yuvası səndə,
Bizi günahlardan hifz elə barı,
Ağıla, ürəyə nufz elə barı,
Bəşərdən al, götür vəhşi xisləti,
Olmasın iblisin əldə aləti!
Sən bizə kitablar, dinlər yolladın,
Haqq imtahanıyçın günlər yolladın.
Bizim xilasımız sənə bağlıdı,
Sağ ikən sirr qapın üzə bağlıdı…
Hər başda nurlarla çağlat ağılı,
Bitsin günahlarsız həyat nağılı.
Lütf eylə, ürəyə yol tapmasın ah,
Ey hər şeyə qadir, sevgili Allah…

02. 03. 2004

DUALARIMDA MƏN SƏNİ TUTDUM

Dualarımda mən səni tutudum,
Bütün varlığımla özümü unutdum.
Pirlərdən, ölüyalardan uca Tanrım,
Eşqim, Məhəbbətim, Sevgilim, Arım…
Ey peyğəmbərlərin tacı,
Ey hər dərdin əlacı.
Ey səmavi kitablardan soraq,

Ey gözlərimizə çıraq.
Ey bütün dərdlərin açarı-
Ümidsiz qoyma naçarı.
Ey müqəddəslərin aynası,
Ey əbədilik dünyası!…
Sənsiz açılarmı sabahım?
Hər kəsdən, hər şeydən ulu Allahım.
Göylərdən asılıb fəryadım,
Sənə yetməzmi imdadım?…
Ey kainatın siri,
Bütün canlıların fövqündə diri!
Dualarımda mən səni andım,
Həm gecə, həm gündüz oduna yandım,
Ey vardan yox, yoxdan var olanım,
Ən ülvü məhəbbətlə könlə dolanım.
Bəşər adlı bir varlığa gülənim,
Onun hər addımını bilənim.
Yığdığı varını ələdin,
Tənini torpağa bələdin…
Canını aldın,
Cismini dar məzara saldın…!

Ey həm gecə, həm gündüz səcdəgahım,
Ey hamıdan uca Allahım!
Canım sənə yetməkçin yol gedir,
Cismimi canbəsər edir.
Tələsməyə lüzum varmı?
Ömür bu qədər darmı?
Dualarımda mən səni gəzdim,
Həsrətinlə özümü üzdüm.
Ey bütün varlıqlardan uca,
Sən özün yardım et möhtaca.
Həddini aşanın yolunu bağla,
İnsan olana gün ağla.
Ömür bir içim su,
Dünyadan gəlir qan qoxusu…
Bizi hər bəladan hifz elə,
Ümidimizi vermə yelə.
Gecəbəgündüz özümü unutdum,
Dualarımda mən səni tutdum…
30. 06 .2005

YA QURAN

Ya Quran, Rəbbimizin təkliyin e'lan elədin,
Bunu inkar edənin könlünü nalan elədin.

Ya Quran, cövhərini can ilə verdin bəşərə,
Bütə səcdə edənin ağlını talan elədin.

Ya Quran, atəşinə nur elə şam eşqimizi,
Çox sirri hifz eləyib yolunu dalan elədin.

Ya Quran, Mühəmmədə(s) vəh ilə açdın sehiri.
Böyük Allahımızı qəlblərə dolan elədin.

Ya Quran, hər kəlamın üzümüzə nurdu saçır,
İman əhlinə şərin mehrini yalan elədin.

Ya Quran, Şadimanın könlünə saldın odunu,
Hər vəch ilə canını bu eşqə qalan elədin.

25. 02. 2004

YA İLAHİ, ÜRƏYİM SİNƏ DOLU QAN OLDU

Ya İlahi ürəyim sinə dolu qan oldu,
Çəkən hər könlə cəfa, dərdə düşən can oldu.

Ya İlahi, halıma olmadı heç halı-yanan,
Nə ki, yandı bağırım şam təki büryan oldu.

Ya İlahi, mənə heç yoxmu fələkdən şəfa?
Ərşə doldu fəqanım aləmə e'lan oldu.

Ya İlahi, canımı eyləmisən tənimə yar,
Niyə bəs bu ürəyim ah ilə nalan oldu?

Ya İlahi, ələdin könlümə hicran acısı,
Cuşə gəlib fəraqım təb ilə bəyan oldu.

Ya İlahi, əlacım qalmadı bir çarə umam,
Mən dilizarə elə qəm özü həyan oldu.

Ya İlahi, Şirini görmədi dünyadə fələk,
Qopdu candan fəqanı dərdinə əyan oldu.

28. 02. 2004

İSLAM *SƏADƏTDİ*

(Danimarka qəzetləri Məhəmməd (s) peyğəmbəri təhqir edən rəsimləri çap etdi. Avropa qəzetlərinin əksəriyyəti bu rəsimləri qəzetlərində dərc etdi .Bir müsəlman qadını kimi mənim də ürəyimdən bu şeytan xislətlilərə nifrət qopdu. Görəsən «mədəni» Avropa bu dünyanı hara aparır?…)

İslam səadətdi, islam iftixar,
İslamın içində Təkallahlıq var.
Allahın elçisi Məhəmməd-salam,
Onun vəhindəndir Qurani-kəlam,
Odur, bu dünyaya haqq nur çiləyən,
Odur, insanlığa sevda ələyən.
Surələr içində ayələr parlar,
Hər ayə insanın ruhunu alar.
O qanun kitabı bəşərə qida,
Müsəlman olanın qəlbinə nida.

Ey canında şeytan, qələmi cəfəng,
Müqəddəs İslamla edirsənmi cəng ?
Səmavi kitablar Allahdan səda,
Dini olmayana dindən nə fayda ?
Çəkdiyin rəsmlər iyrənc niyyətin,
İblisin önündə səmimiyyətin.
Əgər xaç inancın varsa İsaya, (s)
Daha öz könlünü salma ah-vaya.
İslam Məryəmi (s) də müqəddəs sandı,
Var onun İsaya peyğəmbər andı.

Məhəmməd peyğəmbər (s) Allahdan elçi,

Bu eşqlə titrəyir dünyanın içi.
Bir milyard insanın ruhuna çıraq,
O Böyük Allahdan o verdi soraq.
Bizimçin Məryəm (s) də, İsa (s) da nurdu,
Hər bir müsəlmana onlar qürurdu.
Onlar da Allahın elçisi olmuş,
Bədəndə canları bu eşqlə dolmuş.
Ey islama yağı, sənin dinin yox,
Sən öz varlığınçın İlahidən qorx.
Hər səmavi kitab Allaha sirdaş,
Onların önündə səcdədədir baş.
Mən sənin dininə eyləmədim şəkk,
Müqəddəs Qurandan gəl əlini çək.
Məhəmməd (s) peyğəmbər bizim canımız,
Adıyla bağlıdır din-imanımız.
Müsəlman olana o qapı açdı,
Quranla bərabər özü nur saçdı.
İslam bir ədəbdi bəşəriyyətə,
Nədir sizi çəkən bu bəd niyyətə?
Dünyanın islammı olmaq qorxusu?
Ondan gözünüzün qaçıb yuxusu?
Cırtdan Danimarka İslama neylər?
Hər kəs yamanlıığı qəlbinə eylər.
Hər pislik qayıdıb dönər özünə,
Onda o Avropa vurar dizinə.
Allahın səbiri daşarsa əgər,
Bəşər dayanarmı önündə məgər?
İslamın içində Təkallahlıq var,
Odur könlümüzə, ruhumuza yar.
İslam səadətdi, islam iftixar,
Ona kəm baxanı Rəbb edəcək xar.

20. 02. 2006

ALLAH, HİMMƏTİN OLUM

İblis insan içində,
Hiylələri biçində,
Gözlər niyə-neçində?
Hünər ver mətin olum,
Allah, himmətin olum.

Sir dolu aləmlərin,
Qəlb partladan qəmlərin,
Nə eşqlidir dəmlərin?
Ən xoş niyyətin olum,
Allah, himmətin olum.

Qəlblər bir belə naçar,
Zülümə hər gün düçar,
Dərdin özünə açar,
Çəkdir zillətin olum,
Allah, himmətin olum.

Könlüm açan gül təki,
Eşqli bülbül təki,
Oxuyan bir dil təki,
Sevda qüdrətin olum,
Allah, himmətin olum.

Gecəm gündüzə möhtac,
Zaman vermir ona bac,
Ömür də insana tac,
Parlat heyrətin olum,
Allah, himmətin olum.

Dünya silahla ötdü,
Günümüz ahla ötdü,
Min bir günahla ötdü,
Zaman sürətin olum,
Allah, himmətin olum.

Şadimana nə zillət?
Çökdü bağrına illət,
Görmədi haqq-ədalət,
Güc ver şöhrətin olum,
Allah, himmətin olum.
24. 04. 2006

BU DÜNYA ÖTÜŞƏN QƏM KARVANIYMIŞ

BU DÜNYA QƏM ÇEŞMƏSİ

Hər taleyə bir ömür, hər ömrə bir həyat var,
İnsanın ağılında açılmaz neçə qat var,
Şüurun fəqanından ürəkdə min cür çat var,
Bir tərəfdə göz yaşı, bir tərəfdə büsat var…
Ağrılara qul oldun-taleyin yatıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Sabahın naləsinə gecənin ahi-zarı,
Hiylədən hiylə doğur bu insanlıq bazarı…
Hər beyində açılmaz haqqın müdrik gülzarı,
Bəşərin əməlinə layiqdi öz məzarı,
Bədən canın libası libasın atıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Hər ağrının öz ahı, hər ahın min fəryadı,
Dildə boğulur qalır ürəklərin imdadı,
İnsana rövnəq verir gözəl həyatın dadı,
Göz qızır, ağıl çaşır, unudulur Rəbb adı,
Ölən ömrün əzabın belinə çatıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb qedir.

Hər duyğunun baharı, hər baharda qış olur,
Allah xofu olmayan sinə, ürək daş olur
Ağıldan nalə qopur göz içində yaş olur,
Fitnəyə rəvac verən iblisə qardaş olur,
Qəlbində şeytan olan aləmi qatıb gedir.
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Ağrılara əyilən əzabların quludu,
Doğulanın həyatı bir imtahan yoludu,
Ömrümüz keşməkeşlə, fəqanlarla doludu,
Boynumuza sarılan mələklərin qoludu,
Hansı doğulan insan tam kama çatıb gedir ?!…
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

Sitəmlərin içində min agrı, min acı var,
Hər doğulan bəndənin pak olmaq əlacı var,
Cahanın başı üstə Rəbbin şahlıq tacı var,
Könlü odda qovuran iblisin şər sacı var,
Dilәkləri sinədə fitnəyə satıb gedir,
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

İnsanın vaxt açarı fələyin boğçasında,
Bahar payıza tacdı ömürün bağçasında,
Canımızın rəfi var, Yaradan taxçasında,
Dil divara çalınır haqq-hesab mıxçasında,
Zaman ömur atını dalınca dartıb gedir…
Bu dünya qəm çeşməsi, üzməyən batıb gedir.

17. X1. 2003

CAN AĞLAYIR

Bu qədər zülümlərə dözmək olarmı, Allah?
Dünyanı çalxalayır edilən min cür günah,
Nalədən üsyan edir açılan hər bir sabah,
Yeri, göyü yandırır sinələrdən qopan ah,
Ürəyim qan ağlayır,
Hər zülümə can ağlayır.

Haqsızlıqlar talayır beyinlərin içini,
Gedir bəşər içində vicdanların biçini,
İnsan yamanlığıyla sürür ömür köçünü,
Bir qurda yem edirlər min biçarə keçini,
Çəkir binəva dünya yamanlığın suçunu,
Ötüşən an ağlayır,
Hər zülümə can ağlayır.

Açılan sabahların köksündə qan izi var,
Xətaların əlində qatlanan mərd dizi var,
Bəşərin sinəsində şeytanın şər bizi var,
Edilən fənalığın dəryası, dənizi var,
Yalan ad-san ağlayır,
Hər zülümə can ağlayır.

Könüllərdə alışan duygular üsyan edir,
Sübhədək gözümüzdə uyğular üsyan edir,
Beyinlərlə atışan qayğılar üsyan edir,
Layiqsizə yar olan sayğılar üsyan edir,
Pay olan şan ağlayır,

Hər zülümə can ağlayır.

Bəşər öz ülfətini şərə edib ərmağan,
Dünyanı süngüləyir hər yerdə haqqıboğan,
Çırpınır qan içində günbatanla-gündoğan,
Göylərin gözlərindən su deyil, qandı yağan!…
Tökülən qan ağlayır,
Hər zülümə can ağlayır.

Nədir belə, İlahi, bu qədər işgəncələr ?
Ahı ərşi yandırır, həm gündüzlər, gecələr,
Parçalayır şüuru niyələr və necələr ?
Bu suallar içində ürək necə dincələr ?
Düşünən baş önündə ömür teltək incələr,
Sübhünə dan ağlayır,
Hər zülümə can ağlayır.

Bağrımı didir, Allah, içimdən qopan – kədər,
Bu aləmlər içində könlümü tapan – kədər,
Bütün ümidlərimi od təki qapan – kədər,
Sinəmin ağrısından misralar yapan – kədər,
Ürəyim qan ağlayır,
Hər zülümə can ağlayır.
15. X. 2003

BU DÜNYA ÖTÜŞƏN QƏM KARVANIYMIŞ…

Bu dünya ötüşən qəm karvanıymış…
Ağrını, acını günlə qurudur.
Gözüm zümrüdləyən nəm ünvanıymış,
Kipriyim ahlıyır, bəbək qan udur.

Haqqım ürəyimə sancılan oxum,
Yarası sızlayır səhərə qədər.
Gözümdən göylərə çəkilir yuxum,
Dərdim yol arayır qəhərə qədər.

Peşiman diləyim gendən boylanır,
Sonsuz ümidlərim gumana qalır.
Könül ah içində qəmdən oylanır…
Sinəmin fəryadı imana qalır.

Dilim ağı deyir hər müşkülünə,
Əllərim uzalı qalıb göylərə.
Bürünüb ürəyim dərdin tülünə,
Ağılım mehrini salıb göylərə.

Bu dünya ötüşən qəm karvanıymış…
Sarvanı əzəldən yollar yorğunu.
Div təki şüşədə qalan canıymış,
Alar Yaradanı sonda sorğunu.

Haqqına əyilən cahan qan ağlar,
Nadanın əlinə düşəndə baxtı.
Zalımlar felində bu dövran ağlar,
Enər zülümkarın əlində taxtı.

Hər gələn dərdini basıb bağrına,

Harayı dilində yanıb qovrulub.
Ümidin ulduztək asıb bağrına,
İçinin naləsi göyə sovrulub.

Bu dünya ötüşən qəm karvanıymış…
Dağdan dərəsinə enməyə nə var ?
Ömür də Allahın sevda anıymış,
Onun dərgahına dönməyə nə var ?
26. X. 2003

DÜNYA ŞEYTAN İÇİNDƏ

Ərşi, kürşü ram edən,
Acılarla kam edən,
Qəlbə dərdi dam edən,

Bədənlərlə şam edən,
Zalımlar can biçində,
Dünya şeytan içində.

Yıxılıb haqq guşəsi,
Kəsir nahaqq tişəsi,
Sınır ürək şüşəsi,
Artır iblis nəş'əsi,
Hamı niyə, neçində?
Dünya şeytan içində.

Yerdən göyə fəryaddı,
Can bədəninə yaddı,
Ağızlarda imdaddı,
Şər hər işdə abaddı,
Bəşər köçə-köçündə
Dünya şeytan içində.

Can üzülür ah ilən,
Vicdanlar günah ilən,
İllətlər sabah ilən,
Zaman keçə-keçində,
Dünya şeytan içində.

Rəbbim bizi yaratdı,
Canı bədənə atdı,
Vəhləri ağla qatdı,
Ondan kitab ucaltdı,
İmtahanı həyatdı!
Varı olan heçində,
Dünya şeytan içində.

İnsan qocalır niyə?…
Əllər uzanıb göyə,
Başına döyə-döyə,
Əzrayıl gəlir iyə,
Fələk seçə-seçində,
Dünya şeytan içində.

Şadiman, adəm yolu,
Fitnə-feyillə dolu,
Bağlanıb haqqın qolu,
Zaman bilmir sağ, solu,
Qanlar içə-içində,
Dünya şeytan içində.
30. X. 2003

CAHAN İBLİSLƏ DOLU

Hamı hamına ası,
Alır candan qisası,
İçir qan dolu tası,
Hər gün bəşərin yası,
Bağlanıb haqqın yolu,
Cahan iblislə dolu.

Çoxunun gözü qızıb,
Yolunu çoxdan azıb,
Haqqa quyular qazıb,
Özünü Allah yazıb,
Görməyir sağı, solu,
Cahan iblislə dolu.

Bir qisim ağlın öyür,
Acın başına döyür,
Haramı dəntək üyür,
Halal cibini yiyir,
Zənn etmir tikan kolu,
Cahan iblislə dolu.

Zalım çapır atını,
Göyün yeddi qatını,
Zamanın saatını,
Bilmir bata-batını,
Uzundu əli, qolu,
Cahan iblislə dolu.

Rəbb niyə səbrin basa?
Haqqı gözündən asa,
Bulud ağlar göy tasa,
Tökür göy leysan, dolu,
Cahan iblislə dolu.

Haqq qıranda qəfəsi,
Kəsilir şər nəfəsi,
Artır canın həvəsi,
Təzələnir səhfəsi,
Bəşər Allahın qulu,
Cahan iblislə dolu.

Ey Şadiman, nədir bəs?
Can eyləyir cana qəsd!
Ağlımız olmur sərbəst,
Edir bizi ömür məst,
Gəlib gedirik sərməst,
Bilmirik dünya ulu,
Cahan iblislə dolu.
31. X. 2003

AGILA BƏHƏR DÜNYA

Gələnə mehman olar,
Hamını bağra salar,
Kamıyla könlü alar,
Axıra özü qalar,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

Bəxtinlə avazlayar,
Sinədə pərvazlayar,
Girib qəlbdə yazlayar,
Qocaldın nasazlayar,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

Könlə sevdanı tapar,
Tale atınla çapar,
Büdrədin yolun sapar,
Əlindən canı qopar,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

Açdırar gül bağını,
Gətirər xoş çağını,
Qopardar can tağını,
Puç edər növrağını,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

Bədəndə canı güdər,
Ölənlə qəbrə gedər,
Hamını suçlu edər,
Hər ömrə ölçü, qədər,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

Bəşərin can dastanı,
Açılan gülüstanı,
Taxtdan salar sultanı…
Uru edər bostanı,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

İdraklarla savaşdı,
Gözdə qaynadı, daşdı,
Naqislə həddi aşdı,
Hər bədənə bir başdı,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

Gələnin suçu oldu,
Gedənin puçu oldu,
Ömrün son ucu oldu,
Vaxtın şər qıçı oldu,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.

Ey Şadiman, ömrü tut,
Töküldü başına tut,
Sevdanı yaşına tut,
Çək gözün yaşına tut,
Ağıla bəhər dünya,
Ürəyə qəhər dünya.
15. 03. 2003

HAQQA NECƏ YETİRİM?

Alışıram içimdə kor olmuş istəklərə,
Ürəyim ağı deyir can verən diləklərə,
Dönürəm qasırğalı, davakar küləklərə,
Cəhd edirəm yetişim ünyetməz mələklərə,
Səsimi, nəfəsimi asimana ötürüm,
Bu dünyanın harayın haqqa necə yetirim?

Özümü kökləyirəm buludların zövqünə,
Çapır o xəyal atım səmaların fövqünə,
Çırpınır köks içində könül həyat şövqünə,
Alışır dəli ürək atəşinin sövqünə,
İstəyirəm cahandan əbədi əl götürüm.
Bu dünyanın harayın haqqa necə yetirim?

Gözümün çeşmələri qəlbimi boğur, eyvah,
Ürək həyat eşqinə yeni can doğur, eyvah,
Bədbəxtlikmi görəsən, yoxsamı uğur, eyvah?
Təzə canın eşqinə gəl təni yuğur, eyvah,
Könlümün bağçasında bir gülüstan bitirim,
Bu dünyanın harayın haqqa necə yetirim?

Mən səadət içində açılarkən solmuşam,
Sinəmin harayına tikan basmış yolmuşam,
Qəlbimin tellərini fəqanımla yolmuşam!
Öz amalı yolunda bir kəsilmiş qolmuşam,
Ürəyimin ağrısın hara salım itirim?
Bu dünyanın harayın haqqa necə yetirim?

İçimdə acılarım baş-başa verib yaşar,
Cahanın əzabıyla sinəmdə hicran daşar,
Bəşərin müsibəti gəlib başımdan aşar!
Ürəyimlə köksümdə əbədi qoşalaşar,
Özümdən min qat ağır dərdi hara götürüm?
Bu dünyanın harayın haqqa necə yetirim?

Canım tənimdən ası, tənim canımdan ası,
Bacarıb ala bilmir bir-birindən qisası,
Nə zamandı tutubdu ürək onlara yası?
Qalmışam aralıqda vallah sözün qisası,
Göylərə əl açıbdı hər misram, hər sətirim,
Bu dünyanın harayın haqqa necə yetirim?

Qaçım ağrı-acıdan mən hara daldalanım?
Bir fincanlıq su təki hansı kola calanım?

Nə qədər əzabların atəşinə qalanım?
Nə qədər öz içimdə zülümlərlə talanım?
Rəbbim, izn ver canı hüzuruna yetirim,
Bu dünyanın harayın haqqa necə yetirim?

Qəlbimin pəncərəsin qəhərlərim öpürlər,
Ürəyimin içinə niskillərin səpirlər,
Özlərin dəl-deşikdən içəriyə təpirlər,
Ömürün yollarına düşür izlər, ləpirlər,
Könlümə kölgə tutub mənim tale çətirim,
Bu dünyanın harayın haqqa necə yetirim?

Elə doğulan gündən dərdlə sevdalanmışam,
Ələmin süfrəsindən min cür qidalanmışam,
Ağrıma sultan olub, sanki ədalanmışam,
Ahım götürüb ərşi dərdə sədalanmışam,
Bürüyübdü aləmi qəmə nəş'ə ətirim,
Bu dünyanın harayın haqqa necə yetürüm?

Fəqanlarım dolaşır canla tən arasında,
Çırpınır saatlarım acı mən arasında,
Qəfəsdən uçan quşam, suyla dən arasında,
Ürəyim azıb qalıb duman, çən arasında,
Əzaba qul olmaqdan doyub daha xətirim,
Bu dünyanın harayın haqqa necə yetürüm?

Şadimana gah gülür, gah ağlayır bu tale,
Gah saralır tökülür, gah çağlayır bu tale,
Gah zülmətin içində çıraqlayır bu tale,
Gah ömür kitabını varağlayır bu tale,
Qoymur ki, can sevdasın sona qədər bitirim,
Bu dünyanın əzabın haqqa necə yetirim?

14. 03. 2003

GÖZÜNDƏN YAŞ TÖKÜR DÜNYA

Gecənin üzü yaman qara,
İçimdən qopan aman qara,
Ömrü sovuran zaman qara,
Qaranı ağa bükür dünya,
Gözündən yaşı tökür dünya.

Heyrət dondurub həyatımı,
Anlar titrədir saatımı,
Çapır taleyim can atımı,
Qəm ayağına çökür dünya,
Gözündən yaşı tökür dünya.

Qəmə qısılıb qaldım, eyvah,
Haqqdan asılıb qaldım, eyvah,
Dərdi sinəmə saldım, eyvah
Aha sinəsin sökür dünya,
Gözündən yaşı tökür dünya.

Könül damına qəsirim var,
Damın içində həsirim var,
Ona deyəcək bir sirim var,
Bəşərin ağrısın çəkir dünya,
Gözündən yaşı tökür dünya.

Qurduna quzu biş-düşüdür,
Göydə ulduzu can üşüdür,
Ömrü doğrayan zaman işidir,
İnsanla dolu – məkir dünya,
Gözündən yaşı tökür dünya.
15. 03. 2003

HEÇ KƏSLƏ YIXILIB ÖLMƏDİ DÜNYA

Gələni bəslədi, gedəni uddu,
Rəbbin göndərdiyi can sirri tuttdu,
Axan göz yaşını, vayı unutdu,
Heç haqqa, insafa gəlmədi dünya,
Heç kəslə yıxılıb ölmədi dünya,

Bəşərin o tamah dişini dartdı,
Belinə zamanın dərdini çatdı,
Axşamı baş qoyub gecəylə yatdı,
Ağrını, acını bilmədi dünya,
Heç kəslə yıxılıb ölmədi dünya

Dərdi ürəklərdə közə çevirdi,
Uca sarayları düzə çevirdi,
Ölümün üzünü bizə çevirdi,
Gözdən axan yaşı silmədi dünya,
Heç kəslə yıxılıb ölmədi dünya.

Acını canlara əta eylədi,
Şeytana ruh verdi, xəta eylədi,
Ömrü yiyəsinə buta eylədi,
Fələyin bağrını dəlmədi dünya,
Heç kəslə yıxılıb ölmədi dünya.

Yaxdı hicranlarda peşimanını,
Ağlatdı buludtək asimanını,
Atmadı ayağa öz imanını,
Heç niyə ürəkdən gülmədi dünya,
Heç kəslə yıxılıb ölmədi dünya.

Solğun yanağlarda nohurlandı yaş,
Ərşə haray çəkdi zülümlərdən baş,
Sinələrdə gəzən ürəkmi ya daş?
Ömür xalısına ilmədi dünya,
Heç kəslə yıxılıb ölmədi dünya.

Şadiman, nədəndi bu cahan böylə?
Sinəsi içində taxt qurub hiylə,
Dərdini gah göyə, gah yerə söylə,
Kimsəylə acını bölmədi dünya,
Heç kəslə yıxılıb ölmədi dünya.
18. 04. 2003

YAR BİLDİM DÜNYA

Səni kor könlümə yar bildim dünya,
Ağrımı, acımı sazaq eylədin,
Üşüdüm, qoynunu qor bildim dünya,

Bəxti vəfalardan uzaq eylədin.

Qoydun ürəyimi möhnət içində,
Qəmimi oturtdun zinət içində,
Gəldim məkanına möhlət içində,
Mənə səadəti yasaq eylədin.

Saatı haxladım zamana yetdim,
Ahımı ovladım amana yetdim,
Cahanı aradım imana yetdim,
İmanı içimdə zağ-zağ eylədin.
14. 04. 2003

VERMƏDİ YAĞI ZAMAN İRAQA

İblisi, şeytanı lap çoxdu yerin,
Yamanı haqq deyənə oxdu yerin,
Haram yeyəni hələ toxdu yerin,
Yaxşısına yananı yoxdu yerin,
Yaradan ahından qorxdu yerin,
Bəşərini məzəra çaxdı yerin,
Etmədi kimsə aman İraqa,
Vermədi yağı zaman İraqa.

Kərbəla, Nəcəf üzür qan ilən,
Qoca Bağdad əlləşir can ilən,
Şah gözü tül eyləyib şan ilən,
Özünü Rəbb sayır ad-san ilən,
Ölümlər savaşır hər an ilən,
Sübhünü bomba açır dan ilən,
Olubdu güllə duman İraqa,
Vermədi yağı zaman İrağa.

Ahı, naləsi göyə şam oldu,
Bu necə ömürdə xoş kam oldu ?
Kərkükün acıları dam oldu,
Gündüzü bombayla axşam oldu,
Uçulan saray, binə, dam oldu,
İblisin fitnəsi nə tam oldu?
Ağlayır haqqı umman İraqa,
Vermədi fələk zaman İraqa.

Vertalyotlar havada şellənir,
Bombanı başa tökən tellənir,
Zərbədən bütün dünya yellənir,
Sönür evin ocağı, küllənir,
Göz yaşı bəbəklərdə sellənir,
Bədənə dəyən güllə millənir,
Yetmədi haqqdan mehman İraqa,
Vermədi yağı aman İraqa.

Mesopatomya tamam uçulur,

Beşiyində yaralar açılır,
Göydə güllələr odtək saçılır,
Yenə də ədalətdən qaçılır,
Şeytanın şər qapısı açılır,
İblisin fitnələri quculur,
Kəm baxır fələk yaman İraqa,
Vermədi yağı zaman İrağa.

Buludlar göydən tökür göz yaşı,
Ağladır bu dərd dostu, sirdaşı,
Artır dunyanın yenə tələşı,
Meydan oxuyur bəşərə naşı,
Demək olmur var göz üstə qaşı,
Tökülür haqq başına şər daşı,
Neyləsin təbib, loğman İraqa ?
Vermədi yağı zaman İraqa.

Cahanı özünə sanan dalan,
Dilindən çıxan sözlərin yalan,
Savaşda ölmür ki, əziz balan?
Bəsdir, ölkələri etdin talan,
Aləmi qana, qırğına salan,
Sənin ki, varın, sərvətin kalan,
Dünyada kimdi axıra qalan ?
Oxdu şər nə fərman İraqa ?
Vermədi yağı zaman İraqa.

Yaman dillərə belə ağlandı,
Yenə də sinədə ah dağlandı,
Fələyin kor qapısı bağlandı,
Elə şər dilin sözü çağlandı,
Necə də möhür, imza yağlandı ?
Zülümlə məmləkət çırağlandı,
Yas tutub indi kaman İraqa,
Vermədi yağı zaman İrağa.

Şadiman, nədir iblisin fe'li ?
Tökülür gözdən yenə qan seli,
Qırılır qəlbin xoş həyat teli,
Görməyir bir gün dünyanın eli,
Əsdirir başda iblis, şər yeli,
Qırılır haqqın uzanan əli,
Ağlayır vicdan, iman İrağa,
Vermədi yağı zaman İrağa.

03 / 04. 04. 2003

DÜNYANIN ÜZÜ BOZDU

Hamını bomboz görür,
Dünyanın üzü bozdu.
Hər bədəni toz görür,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Yığar dərdləri çin-çin,
Ağlayar için-için,
Zəmisində gur biçin,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Əllərdə səadəti,
Hesabsızdı qiyməti,
Zamanı haqq sürəti,
Hər cana qiyaməti,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Haqqı ayaqda qalar,
Əli dayaqda qalar,
Min bir bayraqda qalar,
Sözü varaqda qalar,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Alıb qaçar canları,
Axıdar al qanları,
Unudar ünvanları,
Qəminə dəm anları,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Kimsəni əzizləməz,
Vicdanı təmizləməz,
Nəş'əsi dənizləməz,
Ömrü vaxtı gözləməz,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Çəməni dərya gəzər,
Gözləri röya gəzər,
Hər şeydə xülya gəzər,
Hər üzdə həya gəzər,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Yaxşını pis eyləyər,
Haqqı xəbis eyləyər,
Ocağı his eyləyər,
Min cürə hiss eyləyər,
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

Şadimanı şad etdi,
Ünvanını ad etdi,
Gah içdə fəryad etdi,
Gah fəryada dad etdi!
Təni ölümə yozdu,
Dünyanın üzü bozdu.

22 . X11. 2002

QALX AYAĞA , QOCA ŞƏRQ

Qalx ayağa, Qoca Şərq, sinənə dağ çəkillər,
Qanadırlar yaranı üstündən yağ çəkillər,
Öldürürlər haqqını üzünə ağ çəkillər,
Qədim Mesapatomya İraqın keçmişidir,
Muzeyləri dağıtmaq vəhşilərin işidir!…

Hər işğaldan talandı cahanın can tarixi,
Basqınlar, savaşmalar, qırğınlar qan tarixi,
Ölkələrdə qorunur dünyanın şan tarixi,
Qalın-qalın kitablar əsrləri yaratdı,
Biliyə baş vuranı nur dəryasına atdı.

İraq şanlı dünyanın keçmişindən xatirə,
Sığmır onun tarixi nə misraya, sətirə,
Hansı şahın haqqıdı ədaləti itirə?
Zamanın dolayları Mesapatomyaya yar,
Batırır bu cahanı xəyanətlər və ah-zar.

Muzeylərdi cahanın qan yaddaşından soraq,
Qədim mədəniyyətin beşiyidi, o İraq,
Tarixin taxçasına gəlin tutağın çıraq,
Dünyanın qaynaqları o torpaqdan köklənir,
Diz çöküb, Şərq ayağa şər önündə təklənir.

Ey savaşı qaynadıb beyinlərə salanlar,
Ürəklərdə başlarda vüs'ət alıb talanlar,
Sarılıb şuürlara çalın-çarpaz ilanlar,
Vicdanları qaynadır, könülləri bişirir,
Ölkə-ölkə dünyanı zülümlərə düşürür.

O torpaqda Füzuli « Leyli Məcnun » yaratdı,
Məhəbbətin fəqanı bütün şərqi oyatdı,
İlahi sevgisiylə sözlə heykəl ucaltdı,
Orda Kərkük elləri qan qardaşıdı bizə,
Boğulubdu harayı, yetməyir dilimizə.

Ey dünyanı zülümə, ixtilafa satanlar,
Millətlərin içində özün uca tutanlar,
Şeytan-iblis qoynunda gecə-gündüz yatanlar,
Bu atılan silahlar İlahiyə tuşlanıb,
Yerin, göyün gözləri bəsdi qanla yaşlanıb.

Tarixi kor qoydunuz muzeylər çapılanda,
Düşmən gülləsi ağır, sinəyə sapılanda,
Nəcəfin, Kərbəlanın pak üzü qapılanda,
Cümlə müsəlmanlara xəyanətdi, bu işğal,
Cahangirlər, cahana cinayətdi, bu işğal.

Ulu Şərq, qalx ayağa, nədir başına gələn?
Hansı iblis, şeytandı o gül sinəni dələn?
Dünyanı güclə, zorla min bir qisimə bölən,
Ən böyük işğalçıdı özgə torpağı basan,
Haqqı çarmıxa çəkib, dini boğazdan asan.

Mən güclüyəm, deyənlər ən güclü Allahımız,
Sellər təki coşmada hər addım günahımız,
Bilmirik nə gətirər açılan sabahımız ?
Puluna, sərvətinə uyan axırın ölüm,
Bəs nədəndir hər addım eylədiyin bu zülüm?

Çox cahangir dünyadan ötdü, getdi ürəksiz,
Qaldı tacı və taxtı son məqamda dirəksiz,
Ey kürrəni çalxadan, sanma canı fələksiz,
Sənin də sonun çatar, məzara yar olarsan,
Cahanın yaddaşında qəsbkartək qalarsan.

2. 05 2003

YAPON XALQI

Bir ölkə var – sakit okean sularında, adalarda,
Ömrü keçib müsibətdə, fırtınada, qadalarda,
Tarixini, keçmişini yaşatdı pak odalarda,
Döyülsə də, əyilmədi, üzülmədi yapon xalqı,
Cəsarəti dünya gəzdi, əzilmədi yapon xalqı.

Rusiya bu məmləkətə bir yelkənli gəmi qurdu,
O al günəş ölkəsinə, sanki haqdan gün doğuldu,
Min səkkiz yüz əllilərdə yaponlarçın bir uğurdu,
Əlli ildən sonra hərbi donanması qalxdı, durdu.
Güc topladı, qüdrətləndi, Rusiyanın özün vurdu,
İradəsi hesabına öndə getdi yapon xalqı,
Qartal təki zirvələrə uçdu, yetdi yapon xalqı.

Hitlerin qan savaşında qəsibkar da oldu bir vaxt.
Bir çox Asiya torpağını işğal etdi, qurdu o taxt,
Dərk eylədi işğallarla ola bilməz Vətən xoşbaxt,
Oz daxili qüvvəsiylə vara çatdı yapon xalqı,
İmperyalıq arzusunu başdan atdı yapon xalqı.

Amerika işlədəndə ona nüvə silahını,
Qan eylədi Xerosima, Naqasaki sabahını,
Əritdi saf ağlı ilə yağıların günahını,
Bükülmədi, əyilmədi, xar etmədi Allahını,
İçindəki qorxulara üsyan etdi yapon xalqı,
Kişiliyə, insanlığa ruhla yetdi yapon xalqı.

İmperyalar tapdadılar bir zamanlar ölkəsini,
Qılıncladı haqq bilməyən hökümdarlar kölgəsini,
Çalışdılar batırsınlar, qul etsinlər gur səsini,
Əyilmədi heç bir millət önündə də yapon xalqı,
Qaldı əziz məsləkində, dinində də yapon xalqı.

Yoxdu ounun nə sərvəti, nə heç nefti, nə filizi,
Ağılı ilə, idrakıyla, şüuruyla qoydu izi,
Zülmətinin başı üstə doğdu parlaq, al gündüzü,
Fəth eylədi həyatını kamalıyla yapon xalqı,
Aşdı bütün sərhədləri amalıyla yapon xalqı.

Rəbb onlardan əsirgəyib o maddi sərvətləri,
Ölkəsinin torpağını sevməkdir pak qüdrətləri,
Onlara baş verdi Allah, yıxıb aşdı qüvvətləri,
Aclıqları, əzabları puç eylədi yapon xalqı,
Bütün müdhiş qorxuları heç eylədi yapon xalqı.

Əyilmədi heç bir xalqın qarşısında müti kimi,
Atılmadı öz ovunun üstünə bir suiti kimi,
Daraşmadı başqa yurdun canına can biti kimi,
Qüdrətiylə taleyini ağ eylədi yapon xalqı,
Yağısının ürəyini dağ eylədi yapon xalqı.

Xırda-xırda cihazlarla fəth eylədi o əsri,
Tikdi idrak dünyasında ən zirvədə saf qəsiri,
Alimlərin kəşflərinin candan oldu, o, əsiri,
Sildi kasıb həyatından əbədilik kəm-kəsiri,

Ölkəsinin başı üstə Günəş oldu yapon xalqı,
Okeanın ürəyinə atəş oldu yapon xalqı!

Hazır yeyən heç bir zaman baş işlətməz bu dünyada,
Sərvətini, torpağını barat edər dosta, yada,
Yatar qalar xəyallarla ömrü boyu hey röyada,
Güclülərdən imdad istər gəlsin kara, yetsin dada,
Heç bir xalqa əyilmədi, ömrü boyu yapon xalqı,
Qorudu bu yer üzündə kökü-soyu yapon xalqı.

Sevməyir heç demək onu – kimə Allah sərvət verir ?
Bu sərvəti o ölkəyə əbədilik zillət verir,
Böyük-böyük dövlətlərinçin dünyaya qul millət verir,
Əbədilik taleyinə ölüm, qırğın, illət verir.
Tanrı verən sərvətləri dərmədi heç yapon xalqı,
Başqa xalqa qul olmağı görmədi heç yapon xalqı.

Dövlət üstə oturanın heç vaxt olmaz dinc qulağı,
Olar qoluzorluların ya tez, ya gec, o, ulağı,
Çağlasa da İlahinin verdiyi sərvət bulağı,
Qapısından, bacasından girəcəkdir azğın yağı,
Öz başıyla ölkəsinə sərvət oldu yapon xalqı,
Qul olmağı ar sayan bir millət oldu yapon xalqı.

Bu millətin dilində heç yoxdu bircə söyüşü də,
İşləməkdi, çalışmaqdı imperyalıq döyüşü də,
Vətənini ucaltmaqdı bu dünyaya yürüşü də,
Həyatına örnək edər ağlını yapon xalqı,
Ərklə yazar insanlığın nağılını yapon xalqı.

İmperator titulunu qoruyurlar məmləkətdə,
İmperyalıq eşqi ilə bulunmazlar fəlakətdə,
Millət tapıb səadətin şüuruyla hərəkətdə,
Ağıl başda olsa əgər, adam tapar bərəkət də…
Birincidi zəhmətini daşımaqda yapon xalqı,
İnsan kimi çalışmaqda, yaşamaqda yapon xalqı.

Mədəniyyət işləyibdi yaponların iliyinə,
Kamilliyi əbədilik yuva qurub biliyinə,
Qoymaz başı dəysin bir an bu cahanın çəliyinə!
Dəyə bilməz qara əllər şərəfinə, mənliyinə,
Günəş təki ölkəsində doğasıdı yapon xalqı,
Bu dünyada öz evinin ağasıdı yapon xalıq.

23. X11. 2002

AMERKA PREZDENTİ CORC BUŞ CƏNABLARINA MƏKTUB

/ İraq xalqının başına bomba tökmək üçün
ABŞ prezdenti Corc Buş Səddam Hüseyinə
48 saat vaxt verib…/

Cənab Buş, dunyaya məsləhət yetər,
Bir gün tökdüyün qan sinəndə bitər,
Sən ey iraq xalqın aha batıran,
Dollarla dünyanın haqqın yatıran.
Könlündə Allahın rəhmi yox imiş,
Gözündə insanlıq fəhmi yox imiş.
Şeytanın, iblisin ruhudu ruhun,
Gəl ərşə qaldırma cahanın ahın.
Orda körpələrin xoş nəfəsi var,
Orda anaların fəqan səsi var!
Bəsdir bu dünyaya ağıl verdiyin,
Tarixə çox qanlı nağıl verdiyin!…
Xalqları min yerə parçaladığın,
Fikiri düşüncəni haçaladığın.
Allahı, İslamı şərləmək yetər,
Artıq bu fitvalar, qırğınlar bitər.
Tək Səddam deyil ki, İraqda bəşər,
İçində fitvalar hardan yerləşər?
Neyləyibdi sənə islam adamı?
Bəsdir, ürəklərdə ağlatdın kamı.
Dünyada qadasız ötüşməyirsən,
Niyə bir yol haqqa yetişməyirsən?
Atan da qırğından alırdı vüs'ət!
Qan tökmək ona da olmuşdu sənət!
Sən fitva etdikcə terror da artır,
Dinlər bir-birini ölümə atır.
Yaradan deyilsən can aldırasan,
Aləmi məhşərə hey saldırasan.
İçində vicdanı atdın qəfəsə,
Girdin şeytan ilə yenə də bəhsə,
Batırma İraqın harayın belə,
Uçurma insanlıq sarayın belə.
Qıyma könül açan o gülzarlığa,
Çevirmə bu yurdu sən məzarlığa.
Dağıtma evlərdə odu, ocağı,
Qanlarda üzməsin ana qucağı.
Sənin öz ölkən var, öz yurd, yuvan var,
Şeytana, iblisə neçə duvan var ?
Amerka xalqına bəla gətirmə,
Onların özünü aha yetirmə.
Hər atdığın bomba bir təzə terror,
Qanları çıxardar bil üzə terror.
Səndə heç adəmin həyası yoxdur,
Xəmrində bəşərin mayası yoxdur!
Dünyanı çalxatma qan dənizində,
Əbədi deyilik bu yer üzündə!
Bəşər tarixinə savaşla düşmə,
Harda sərvət gördün ora ilişmə.
Qanlı müharibə könlünə qida,
Sənə eşqmi verir bu cəng, bu cida?
Hamımız cahanda bəşər övladı,
Qoyma qalxsın ərşə onun fəryadı.
Göydə buludlardan qan-yaş tökülür,
Dərddən bu dünyanın beli bükülür.
Bomban körpələrin düşər başına,
İblis çevrilməsin can sirdaşına.
Analar gözündə tələşa bax bir,
Hamımız adəmik qanı, canıbir.
Nə kürdə qardaşsan, nə türkə qardaş,

İblisdən yaranıb işlətdiyin baş.
Salma bu cahanı əzaba, zora,
Günəşin istisi bişirər qora…
Bəsdir, qəpik, quruş etdin xalqları,
Murdar dollarınla ötdün xalqları.
Dünyanı qırğına çəkmə, amandı,
Allahın məhşəri sonda yamandı!
Sənin nə dinin var, nə də imanın,
Yel kəsər kələyin gələn dumanın.
Haqq-hesab çəkirsən əgər Səddamla,
Hünərin çatırsa tut onu damla,
Ona da hünərin çatsa bir zaman,
Yaddan yad ölkəyə yetişməz iman!…
Orda qadın, uşaq, qoca, xəstə var…
Hər tökülən qanlar sənə olmur ar.
Sən höküm etdikcə beyinlər qızır,
Bu axan qanları çiyninə yazır.
Ocağın çevirmə göyə İrağın,
Hərdən bir ölkədən gəlir sorağın.
Bəsdir, plan cızıb yol göstərdiyin,
Xoşun gəlməyənə kol göstərdiyin.
Sənin silahın var onun cihadı,
Könlünü əsdirir o İslam adı.
Cənab Buş, bir düşün bunun sabahın!
Haqqı çəkiləcək hər bir günahın.
Rəhm eylə amerka xalqına, ey şah!
Dünyada özünü sanırsan Allah.
Allah ayağına gələndə başın,
Dəryanı boğacaq qanlı göz yaşın.
Bəşəri qanlara çəkirsən özün,
İblis fitvasıyla yağlanıb gözün.
İçində şeytanın qapısın bağla,
Ağla, sabahının gününə ağla.
Orda axan qanlar mənim də qanım,
O xalqla bir yerdə döyünür canım.
İraqın köksünə dəyən bir bıçaq,
Mənim ürəyimdə açacaq ocaq…
Sən ey bu dünyanı xətaya salan,
Nəfəsin, həvəsin, istəyin yalan.
Gətirmə ölümü, qanı Bağdada,
Hər atdığın addım ölüm, qan-qada.
Ey ağlı, kamalı, düşüncəsi dar,
Səndən Amerkaya olmaz hökümdar!
Terrorla suçladın bütün bəşəri,
Sənsən bu cahanda yaradan şəri.
Ədalətsizlikdən doğubdu terror,
Dünyanın nəş'əsin boğubdu terror.
Güclüyə çatmasa gücsüzün gücü,
Olur intiqamçın terror ülgücü!…
Güclüdən də güclü Allahımız var,
Allahdan asılı sabahımız var.
Odur hər bir işi yoluna qoyan,
Mənəmmənəmliyə, fitnəyə uyan,
Onun qarşısında diz çökər bir gün,
Açılar dünyanın köksündən düyün…

***

Ey müsəlman əhli, haqqını anla,
Sənin kimliyini yudular qanla!
Dünən Əfqanıstan, bu günsə İraq,

Düşdün bir-birinin qəmindən iraq.
Ərəb, türk, balkanlar, çeçen, azəri,
Niyə kənarlaşıb haqqın nəzəri?
İslam ellərinə tökülən qandan,
Niyə qılınclanır İslam hər yandan?
Müsəlman tuş gəlir qanlı savaşa,
Dünyanın ürəyi dönübmü daşa?
Hamımız cahanda bəşər övladı,
Hamımıza bəlli adəmin adı.
Dinlərlə bölənlər məmləkətləri,
Artırır günbəgün fəlakətləri.
Buş bu gün İraqı boğazdan asır,
Ərəb ölkələri dilini qısır.
Tökür şər-Amerka qardaş qanını,
Ərəblər qoruyur şirin canını…
Artırır qisasçın şiddəti terror,
Qeyrətli qəlblərdə hiddəti terror.
Amerka suçlayır bütün dünyanı,
Özü tökə-tökə dünyada qanı…

***

Cənab Buş, nigaran yurdunu düşün,
Qan tökməyə gedən ordunu düşün.
Əgər belə çəksən cahanın dərdin,
Çəkib qutarmazsan bu qanın dərdin.
Otur öz-özünə qapan və düşün,
Sənin də əzilər bir gün fil dişin…
Gətirmə İrağa ölmü, qadanı,
Yad et kainatı və Yaradanı.
Gözünü tutmasın varın, sərvətin,
Gözünə kül atma sən həqiqətin.
Terrordan qurtulmaq istəyən, ey kəs,
Savaşın ayağın bu dünyadan kəs!
Axmasın cahanın gözündən yaşı,
Cənab Buş, ətəkdən gəl tök sən daşı.
Hamımız yer əhli - kitabımız var,
Ulu Yaradana hesabımız var.
Dünyanı çevirmə bir ərasətə,
Son qoy biabırçı bu siyasətə!
Cənab Buş, ətəkdən tökməsən daşı,
Yanar yer üzünün torpağı, daşı.
Daşdırma Allahın böyük səbrini,
Dünyanın qazıma belə qəbrini.
Sülhün carçısıdır ərəb salamı,
Hamıya öyüddür o pak kəlamı.
İncil, Tövrat, Zənbur, Quran eşqinə,
Dünyanı yaradan, quran eşqinə,
Axıtma cahanın gözündən yaşı,
Cənab Buş, ətəkdən gəl tök sən daşı…

18. 03. 2003

ERMƏNİ FİTVASINI *DÜYNYAYA* FAŞ EYLƏMİSƏN

/ " Ermənistan terrorçu " Xiristian" ölkənin gizlinləri " kitabının müəllifi Səmyuel A. Uimz əsli şotland – amerkalıdır. Kitabı Amerkada çap etdirəndən bir ay sonra müəmmalı şəkildə vəfat edib. Bu şe'ri onun ruhuna minnətdarlıq hissiylə həsr edirəm !

Əsli şotland, dini xaç, alimi hünər oldu,
Yazdığı bu kitabla dünyaya bir ər oldu,
Həqiqət aşiqi olmaq da dərdi-sər oldu,
Bəşəri-könlü ilə necə dərbədər oldu,
Qəlbimi oda salıb, ğözümü yaş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Sənin Amerikada cahi-cəlalın var idi,
Vicdanı haray çəkən əcəbcə halın var idi,
Xeyri, həqqi düşünən yaxşı kamalın var idi,
Üzünün nuru – cünəş, kişi cəmalın var idi,
Bizə şər söyləyənin başına daş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Sən bizim ağrımızı çəkdin ürəkdən, eyvah,
Doğulan bu kitabın gəldi diləkdən, eyvah,
Erməni şərdi tamam, çünki bələkdən, eyvah,
Sənə rəhmət deyirəm mən ki, fələkdən, eyvah,
İki yüz illik zülümü dərdlərə baş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Açdıqca səhfələri sinəmi ah-vay tutdu,
Könlümün vulkanını gör necə də hay tutdu,
Gözümün gurşadını həm bulaq, həm çay tutdu,
Qələmin Allahına yaxşı haqqı-say tutdu,
Şəri bəşərə – bəla, içini boş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Həqqə çaldın qələmi, bəs ölümün gəldi niyə?
Pisə lənət oxuyan, ya Rəbbim, öldü niyə?
Dünyanı bu fələyim xeyrə-şərə böldü niyə?
Nahaq qanlar tökülür, hər tərəfdə göldü niyə?
Ərzi gəzən yalanı göz üstə qaş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Qanı bizdən olanın çoxları xoş can qoruyur,
Evinin içini və birdə ki, boş şan qoruyur,
Gizləyir soy-kökünü, ömrə düşən an qoruyur,
Erməni adıyla əcnəbidə san qoruyur…
Bəşəri qeyrətini zinətə qaş eyləmisən,
Erməni fitvasını dünyaya faş eyləmisən.

Şadiman müəmmalı ölmünə hiddət eləyir,
Qələmi düzə çalan ağlına qüdrət eləyir,
Ruhuna səcdə edir, xeyrə ibadət eləyir,
Ümidin həqqi güdən Allahına qət eləyir…
Dödağımda alışan min cürə kaş eyləmisən!
Erməni fitvasını dünyaya faş eyləmisən.
Ermən fitvasını dünyaya faş eyləmisən.

19. 05. 2004

EY HƏYATI QAN EDƏNLƏR

Ey həyatı qan edənlər,
Bu qanlardan doymazsızmı?
Şəri könlə şan edənlər,
Şərin bağrın oymazsızmı?

Hicran düşür qəlb içinə,

Gedir ömur də biçinə,
Fələk gülür can köçünə,
Bunu bir yol duymazsızmı?

Atın sürür gedir dünya,
Öz bildiyin edir dünya,
Bizi canda güdür dünya,
Ömrə xoş gün qoymazsızmı?

Hər qadanı verən xalıq,
Bədəndən can dərən xalıq,
Könlümüzü görən, xalıq,
Dərgahına uymazsızmı?

Hər fitnəni var etdiniz,
Könlümüzə yar etdiniz,
Bir-birini xar etdiniz,
Haqq əmrini saymazsızmı?

Səsim batıb dil içində,
Bəmim yatıb zil içində,
Ömrə çatıb il içində,
Fəqanımı duymazsızmı?

Ədaləti pul etdiniz,
Hökmünüzə qul etdiniz,
Ömrünüzə çul etdiniz,
Dərisini soymazsızmı?

Şadimanın könlü varaq,
Haqq evindən verər soraq,
Ürəyimi etdiz çıraq,
Ona atəş qıymazsızmı?

5. 03. 2003

BU DÜNYA HEÇ KƏSƏ QALMAZ

Ağıl başda vara dartar,
Var əllərdə qalar olar.
Ayağların hara dartar ?
Çamur könlü bular olar.

Dodaq qaçar, dil oynayar,
Köz üstündə kül oynayar,
Bülbül uçar, gül oynayar,
Əqli başdan alar olar.

Şərab dolar, qədəh çağlar,
Gözlər gülər, kiprik ağlar,
Ürək eşqə könül bağlar,
Sinəyə od qalar olar.

Zaman əldə sükan təki,
Yardı sənə zəkan təki,
Dil ağızda tikan təki,
Ürəkləri dalar olar.

Bu dünya heç kimə qalmaz,
Bir kimsəni qəlbə salmaz,

Gedənlərin könlün almaz,
Öz-özüylə qalar olar.

Ey Şadiman, bu nə hicran?
Oyuncaqdı fələyə can,
Ömür keçər, bağrın şan-şan,
Təni qəbrə salar olar.

13 / 14. 02. 2003

DÜNYA İÇİ TALAN OLDU

Dünya içi talan oldu,
Talanlığı kimə qaldı?
Gəlib gedən yalan oldu,
Yalanlığı kimə qaldı?

Qəh-qəh çəkdi üzümüzə,
Ahın verdi özümüzə,
Sahib çıxdı közümüzə
Kalanlığı kimə qaldı?

Səhər durdu, axşam yatdı,
Bədənlərdə can yaratdı,
Həm yatırdı, həm oyatdı,
Kölgəsində başı qatdı,
Dolanlığı kimə qaldı?…

13. 02. 2003

TAPILA BU DÜNYANIN ÇARASI

Bu bəşər hiyləyə sirdaş oldu,
Fitnələr hər əməldən baş oldu,
Yerin, göyün gözündə yaş oldu,
Əzrayıla adəm qardaş oldu,
Sağala köz bağlamış yarası,
Tapıla bu dünyanın çarası.

Dilimiz ağzımızda bağlandı,
Könlümüz, ürəyimiz dağlandı,
Verilən fərmanlar da çağlandı,
Kürsüdə oturanlar yağlandı,
Söylə bir salamatdı harası?
Tapıla bu dünyanın çarası.

Yoxdu heç ürəyinə mehmanı,
Bəşərin azalıbdı imanı,
Bürüyüb yeri küfür zamanı!
Taci-təxtdə oturub yamanı,
Yaxılır yalanların qarası,
Tapıla bu dünyanın çarası.

Gülməyir çoxunun üzü indi,
Soyuyub qəlblərin közü indi,
Bəşər Əzrayıldı özü indi,
Keçməyir Allahın sözü indi,
Sazdı yalanla şərin arası,
Tapıla bu dünyanın çarası.

Hərənin bir başı, bir dili var,

Qəlbinin həm bəmi, həm zili var,
Ömrümüzün qırılan ili var,
Bəşərin məzarlarda gili var,
Gülüzlü torpaq həyat xarası,
Tapıla bu dünyanın çarası.

Doğulub ölmək çox cəfalıdı,
Həyatın xoş üzü səfalıdı,
Yaradan bəndəyə vəfalıdı,
Cahan ki, Allahın dəm balıdı,
Kimsəyə qalmayıb heç parası,
Tapıla bu dünyanın çarası.

Varmı öz gözündə tiri görən?
Milyonun içində biri görən?
Allahın özündə siri görən?
Ölənin ruhunu diri görən?
Ağarmaz heç ürəyin qarası,
Tapıla bu dünyanın çarası.

Ağladır sinəni hicran dərdi,
Bədəni tərk eləyən can dərdi,
Zamanın bağrın edən qan dərdi,
Ömürdən qopub düşən an dərdi,
Gedirik ölümmüzə candərdi…
Batıbdı aha yerin arası,
Tapıla bu dünyanın çarası.

Bürünüb günaha dövranımız,
Hiylədi, fitnədi hər yanımız,
Qanların əlindədi anımız,
Əbədi məzardı ünvanımız,
Pozulubdu bəşərin sırası…
Tapıla bu dünyanın çarası.

Şadiman, bu cahana yar demə,
İnsanın varlığına var demə,
Ağlayan ürəyinə zar demə,
Puç olan saatlara xar demə,
Hər adam Rəbbin ciyərparası,
Tapıla bu dünyanın çarası.

02. X11. 2002

BU FANİ DÜNYANIN
VƏFASI YOXDU

Bu fani dünyanın vəfası yoxdu,
Gələni, gedəni saya salmayır.
Doğulan cahanın ahından qorxdu,
Hansı bir ürəyi vaya salmayır?

Dərəni uçurdar selə çevirər,
Ağılı başlarda yelə çevirər,
Ürəyi qırılan telə çevirər,
Hansı can yiyəsin haya salmayır?

Kəkliyi, turacı ova döndərir,
Ocağın közünü qova döndərir,
Adamı boş sözə-sova döndərir,

De, hansı dərəyə qaya salmayır?

Qurdu qova-qova tülkü eyləyir,
Ürəkdə min qorxu-hürkü eyləyir,
Havanı tovlayıb bürkü eyləyir,
Dovşanı qovlayıb çaya salmayır?

Bu fani dünyada gələn gülməyir,
Xəzanı çatanda kim tökülməyir?
İlahi önündə can bükülməyir,
Kimi vaydan qabaq toya salmayır?!

Bir ömür veribdi bizə bu qədər,
Onun yarısını eyləyir kədər,
Kimin doğulandan ölənə qədər
Canını ah-ufa, oya salmayır?!…

24. X11. 2002

SONRADAN BAŞINA DÖYMƏDİ DÜNYA

Bəndətək boynunu əymədi dünya,
Sonradan başına döymədi dünya.

Hamına qoynunda yerin saxladı,
Biz zülüm etdikcə qopdu, laxladı,
Son anda ölümlə ömrü haxladı,
Bəşərtək özünü öymədi dünya,
Sonradan başına döymədi dünya.

İnsanın dərdini, qəmini uddu,
Özünün varlığın tamam unutdu,
Rəbbin əmri ilə adəmi tutdu,
Biztək tərəzini əymədi dünya,
Sonradan başına döymədi dünya.

Bu insan övladı nə qəlbidaşdı?
Bəndə gündən-günə həddini aşdı,
İçində hiylələr qaynadı, daşdı,
Heç kəsin könlünə dəymədi dünya,
Sonradan başına döymədi dünya.

Bürüdü ömrünü hicran naləsi,
Bağrı qan ağlayan çöllər laləsi,
Tutubdu əlində qan piyaləsi,
Heç kəsin dirəyin əymədi dünya,
Sonradan başına döymədi dünya.

İnsanlıq adında bazarı gördü,
Əliylə saldığı gülzarı gördü,
Tənləri bəzəyən məzarı gördü,
Kimsəni izinsiz üymədi dünya,
Sonradan başına döymədi dünya.

Sultana, şaha da bir ömür verdi,
Xaliqdən yetişən haqq əmir verdi,
Adəmi doğuran nə xəmir verdi?
Qapını izinsiz döymədi dünya,
Sonradan başına döymədi dünya.

Ürəyi min cürə dona saldırdı,
Bəndənin həyatın cana saldırdı,
Ən uca zirvəyə onu qaldırdı!
Zirvə təpəsindən yerə saldırdı,
Bizimtək haqqını öymədi dünya,
Sonradan başına döymədi dünya.

Şadiman, istətdi bizə canını,
Necə əzizlədin ötən anını?
Kəsdi ölüm-dirim, illət yanını,
Tanrı qoyan yola dəymədi dünya,
Sonradan başına döymədi dünya.
08. 01. 2003

BU DÜNYA NƏ SƏNƏ,
NƏ MƏNƏ QALMAZ

Eşq ilə bəşərin könlünü alar,
Puluyla başlara qələbə çalar,
Köçəndən xatirə bir məzar qalar…
Əbədi heç kəsi qoynuna almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Sevdası şirindi, ömrə bəs etməz,
Sonadək kimsəylə yola da getməz,
Varından bir zərrə heç kimə yetməz,
Gözü qamaşdıran bir parlaq almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Dağların, daşların tarixin açmaz,
Zamantək anlara qoşulub qaçmaz,
Can təki bədəni tərk edib uçmaz,
Ömrün son nəğməsin fələksiz çalmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Hər başı ağradır keşməkeşiylə,
İnsanı üzdürər çətin işiylə,
Kəsər ömürləri iti dişiylə,
Özü bəşər kimi saralıb solmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Suyundan içənlər sağlıq tapmadı,
Kimin ürəyini qəmlə qapmadı?
Həyat bağçasını soyub-çapmadı?
Canı aparmasa can qabı dolmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Əsiri olanı əsir eyləyir,
Varından, pulundan qəsir eyləyir,
Daşından, başından yesir eyləyir,
Haqqını deyənnən arası olmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Usa sarayları uçurtdu, tökdü,
Çox taxtın özülü əbədi çökdü,
Əlinlə tikdirdi, əliylə sökdü,
Fələkdən izinsiz bir təni almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Bəndənin üzünü iki eylədi,
Ömrünü zamanın tükü eylədi,
Bəşəri torpağın yükü eylədi,
Heç zaman qolunu boynuna salmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Can deyib yapışma anlardan heç vaxt,
Sənə əbədilik verilmib bu baxt,
Qırılar öhdənə buraxılan vaxt,
Bədənin canına qələbə çalmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Bulma, ey Şadiman, könlü nəş'ədə,
Fələk canımızı bəslər şüşədə,
Keçirmə ömrünü boş bir guşədə,
Çağlat ilhamını hey əndişədə,
Üzülər tənindən duyğusu olmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.
06. 01. 2003

DONDUM, DÜNYA, BORANINDAN

Dondum, dünya, boranından,
Atəşinə güman hanı?
Kor olmuşam toranından,
Günəşinə zaman hanı?

Anların nə yox oldular?
Bu ömürdən tox oldular,
Ürəyimə ox oldular,
Əlindəki kaman hanı?

Mən çaxdıqca, sən qovladın,
Əl-qolumu cilovladın,
Odumu candan qovladın,
Tutub vaxtı hey qovladın,
Ötüb keçən zaman hanı?

Dünya, mənə can demişdin,
Atəşinə yan demişdin,
Mələlıma qan demişdin,
Söz verdiyin aman hanı?

Qatışıbdı elə ara,
Yetən ağa, deyir qara,
Yaxılanda haqqa qara,
Çıxartdığın fərman hanı?

Ömür vaxta quldu getdi,
Əl-əl gəzən puldu, getdi,
Təbiblərin buldu getdi,
Dərdlərinə dərman hanı?

Şadimanı yaz könlünə,
Dünya, gətir yaz könlünə,
Eylə sitəm az könlünə,
Haqq göndərən iman hanı?
04. 01. 2003

HƏR KƏS ÖZ GÖZÜYLƏ
BAXIR DÜNYAYA

Gah şəri, gah kiri yaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Cahan bir zinətdi bəşəriyyətə,
O, çağlayar, coşar ən saf niyyətə,
Salırlar yuvasın min əziyyətə,
Sonradan düşürlər, sanki heyrətə,
Gah şəri, gah kiri yaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

O, özü naz sevən ülfət istəyir,
Bəndədən yalnız xoş sifət istəyir,
Eşqini pak tutan afət istəyir,
Bu cəh-cəlalına iffət istəyir,
Hiyləni şimşəktək çaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Biri sərvətini yuvası sanır,
Biri Vətənini havası sanır,
Biri İlahini duvası sanır,
Biri haqq evini qəvvası sanır,
Gələn öz yükünü yıxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Ölkələr, sərhədlər üz-üzə durur,
Silahlar havalı göz-gözə durur,
Şahlar mənəm deyir, söz-sözə durur,
Alışır yer üzü, köz-közə durur,
Bəşər qan-yaşını sıxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Kimi əl donduran qışını söyür,
Kimi torpağını, daşını söyür,
Kimi bilinməyən yaşını söyür,
Dərdini, qəmini taxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Hər gələn cahanı bazar eyləyir,
Yurduna qan tökür, məzar eyləyir,
Gah da saray tikir, gülzar eyləyir,
Duyan könülləri yazar eyləyir,
Hərə öz dinini oxur dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Qəmini, ahını duyan tapılmır,
Dəli sevdasına uyan tapılmır,
İblisin, şeytanın oyan tapılmır,
Könlünü yolunda qoyan tapılmır,
Bəndənin ağrısı axır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Hamı nəyi isə qoparmaq istər?
Cahanın yarısın aparmaq istər,
Bağrını, köksünü nə yarmaq istər?
Razı qalan varsa bir onu göstər,

Gələnlər baxdılar axur dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Kimsə öz gözündə tiri görməyir,
Cahanı özündən iri görməyir,
Qəlbinin içində kiri görməyir,
Onun varlığını diri görməyir,
O haqq böyüklüyün, siri görməyir,
Tökür min cürə hiss, paxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Bəşərin əlində din-dinə yağı,
Allah evləriylə dolu sol-sağı,
Çox baş sahibinin dili bayağı,
Hey qana, qırğına gedir ayağı,
İnsan az, çoxusa naxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

Şadiman, cahanı sanma acıdı,
O ki, insanlılığın həyat tacıdı,
Bizim əlimizdə bircə ucudu,
Haqqa yetişməyin tək əlacıdı,
Hər kəs elədiyin çaxır dünyaya,
Hər kəs öz gözüylə baxır dünyaya.

7. 01. 2003

VAY HALINA

Bu dünyanın iç üzünü,
Görənin vay halına.
Qatlayaraq şər dizini-
Sərənin vay halına.

Namərdləri ərşə çıxır,
Yerin, göyün bağrın yıxır,
Bir çobana min bir naxır-
Ərənin vay halına.

İtirib baş çox arını,
Aşıb keçir şər barını,
Haqq bağından can barını-
Dərənin vay halına.

Evlər yıxıb – axıdan qan,
Günahlarçın məhkumdu can!
Bir gün Rəbbin qapısından-
Girənin vay halına…

9. 01. 2003

ƏDALƏTİ QUL EDİRLƏR...

Qoca Şərqi diz çökdürüb iblislərin sitəmləri,
Bürüyübdü yer üzünü millətlərin matəmləri.

Bir zamanlar Şərqdən gəldi mədəniyyət, səadət də,
Yaradana, İlahiyə, Tanrımıza itaət də,
O səmavi kitablara gecə-gündüz ibadət də…
Savadı da, biliyi də, elimi də, o bəslədi,
Yer üzünü cəhalətdən yeniliyə, o, səslədi.
Uca-uca minarələr, kəlisalar ondan doğdu,
Sındırıldı büt allahlar, mövhümatı idrak doğdu.
Bir zamanlar peyğəmbərlər beşiyidi o pak diyar,
Torpağına qarış-qarış İlahidən möcüzə yar.
Qoca Şərqin keçmişini məzarladı, bu zalım Qərb,
Hegomonluq havasıyla azarladı, bu zalım Qərb.
Oğurladı ululaın keçmişini, hər işini,
Döndü sonra yırtıcıya, hey qıcıtdı sərt dişini,
Oğurladı ululaın beyinini, ağılını,
Bu dünyaya himin etdi hegomonluq nağılını.
Qoca Şərqi diz çökdürdü hiyləsinin ayağına,
Millətlərin qanı batdı o ucalan bayrağına.
Ehramlardan qopdu nalə, sultanların goru batdı,
Əbədilik bu dünyada Qoca Şərqin bəxti yatdı.

***

Bu cahanın ələmləri yığın-yığın qəlbə axar,
Ürək sınar, könül ağlar, göylərində matəm çaxar.
Böyük-böyük dövlətlərin hökümləri nə şahanə?
Qan tökülər yer üzünə, alov düşər bu cahanə!
Kiçik xalqlar xırdalanar əllərində oyuncaqtək,
Hiylələri tonqallaşar, ərşə qalxar gur ocaqtək.
Ədalətdən dəm vurarlar, kürsülərdə alışarlar,
Demokratiya pərdəsiylə bir-biriylə yarışarlar.
Qatilləşər hökümdarlar, qan tökdükcə, ev yıxdıqca,
Haqdan dönüb kiçik-kiçik millətlərə kəc baxdıqca,
Aclıq artar, yer üzünü dilənçilik dolaşar hey,
İlahini öyə-öyə, əllər qana bulaşar hey.
Dinləri də siyasətə çevirərlər, o qansızlar,
Yaradanın hüzuruna yetənədək divansızlar.
Neçə-neçə körpələrin bələkləri qanla dolar?!
Dünya dözməz bu zülümə öz əliylə saçın yolar.
Kiçik xalqın yurdu belə taleyitək girov olar,
Ömrünün hər fəsli tufan, ayaz, şaxta, qırov olar.
İmperyalı həvəskarlar millətlərə verməz aman,
Neçə-neçə eli boğar, ölüm, illət, dərd, ah-aman?!
Kürsülərdə birləşərlər az xalqlara zillət üçün,
Bu birliklər fəlakətdi hər kiçik bir millət üçün.
Yardımları pərdə çəkər insanların gözlərinə,
Harınlaşıb varlandıqca vurularlar özlərinə.
O dilənçi paylarıyla yardımlaşır məmləkətlər,
Hər gün artır yer üzündə ürək üzən fəlakətlər.
Ədalətdən dəm vururlar, ədaləti qul edirlər,
Tərəzini əyə-əyə, haqqı üyüb pul edirlər.
Elə kiçik millətlərin harayını boğur şahlar,
Yurdlarına qan tökülür, unudulur bu günahlar.
Mənəm deyir – Avropanın, Amerkanın hakimləri,
Xırda-xırda dövlətlərdi əbədilik məhkumları.
Demokratya deyə-deyə dinlərini yeridirlər,
Millətlərin mənliyini, şüurunu əridirlər.
İş tapmayan, pul tapmayan insanlar üz tutur ora,
O imkansız dövlətlərin dili, dini düşür zora.
Düşüncəli başları da ölkələrdən qoparırlar,
Böyük-böyük millətlərin sabahıyçın aparırlar.
Gedir kiçik dövlətlərin gələcəyi məhviyyata,

Qul olmaqçın gəldi, Allah, az millətlər bu həyata!

***

Qurdlar yeyir quzuları, mənimkidir deyir ruzi,
Hər ikimiz Allahınıq, haqdan gələn xeyir-ruzi.
Xaçpərəstə, müsəlmana parçalanıb bu yer üzü,
Qan tökülər, yurd dağılar, fələyin də ağlar gözü.
Güclü, zəif – bölünübdü bu dünyanın insanları,
Bəbəkləri qan tutubdu, axır kədər leysanları.
Xaçpərəstlər varlandıqca müsəlmanı əzir, döyür,
Sərvətini, dövlətini, silahını hər gün öyür.
Azərbaycan işğal altda, torpaqları qan içində,
Müsəlmanlar xaçpərəstin əliylə divan içində.
Nə Rusiya, nə Avropa, nə Amerka görmür onu,
Güclülərin əyinində üstbəüstdən hiylə donu.
Ədaləti İsa təki çarmıxa da çəkir onlar,
Guya ki, bu yer üzünün dərdlərini çəkir onlar.
İkiüzlü ermənin işğalına göz yumurlar,
Parampapça məmləkətdən yağıya torpaq umurlar.
Hələ din də gətirirlər ölkəmizi xaç etməkçin,
Uzadırlar hey qanları, bu milləti ac etməkçin.
Balkanlarda, çeçenlərdə, əfqanlarda qanlar axır…
Bu amansız hökümdarlar qəh-qəh ilə durub baxır.
Ərəblərin, yəhudinin, İraqın da ağlar günü,
Harınlaşmış dövlətlərin əlindədi haqq düyünü.
Öz elində qaçqın olan millətlərin zülümünə bax,
Dövlətləri parçalayan hökümdarlar bölmünə bax.
Müstəqillik verildi pay, getdi əldən torpağımız,
Harınlaşır ağaların dəstəyilə qul yağımız.
Ədalətin çırağını söndürüblər kitabsızlar.
Axır günü tanımayan, gözləməyən bu tabsızlar.
İlahinin özünə də yalan satan imansızlar,
Ölümünü bir an belə yad etməyən zamansızlar.
Bu dünyanın kasıb, yoxsul dövlətlərin vay edirlər,
Qırğın salır ölkə-ölkə, qanlarını çay edirlər.
Məxsusdu zor dövlətlərə müstəqillik, azadlıq da,
Millətinə, sərvətinə, hörmətinə abadlıq da.
Az xalqların beyinini, ağılını qul edirlər,
İlhamını, mənliyini, şərəfini pul edirlər.
Allahdan da böyük sayır özlərini hökümdarlar,
Səyyarənin sinəsini qabar edib ahi-zarlar.
Bilən yoxdu sonu haçan çatacaqdı zülümlərin?
İnsanları parçalayan ləyaqətsiz bölümlərin…
Budur dunya xəritəsi, toxlar acı selə verir,
İncili də, İslamı da, kitabı da yelə verir.

***

Bu cahanın beşiyinə haram düşüb binəsindən,
Vurulubdu küt xəncərlə ədalətin sinəsindən.
Sağalmayan yarasından qan tökülür yer tasına,
Xilas yolu yoxmu, Allah, bu insanlıq dünyasına?
İslamı sən göndərdinsə güc ver, cəsur hümmət elə,
Ya yox eylə bizi tamam, ya bizi də millət elə!
Ey YARADAN, dərgahına göndərirəm diləyimi,
Ya abad et bu dünyanı, ya al apar ürəyimi…

18.X11.2002

BU ZALIM ZAMAN

Bu zalım zaman,
Edər ah, aman,

Heç verməz aman,
Kəsər qapını,
Qırar sapını.

Başa dərd açar,
Eyləyər naçar,
Haqqa əl açar,
Alar əmrini,
Kəsər ömrünü.

Elə naz edər,
Könlü yaz edər,
Qırıq saz edər,
Min avaz edər
Qatlar dizini,
Pozar izini.

Doğulmaq vardı,
Dünyaya yardı,
Sonu ah-zardı,
Hər bədən gülzar,
Axırı məzar…

Həm nəş'ə, həm qəm,
Kiprik örtür nəm,
Ömür bəxtə dəm,
Hər alna yazı,
Kim qalıb razı?

Sorma, Şadiman,
Niyə sirdi can?
Nə söyləyir an?
Bəndə hesabı,
Allah kitabı.
14 / 15. 02 . 2003

KƏDƏRLƏ DOLU DÜNYA

Kədərlə dolu dünya,
Kədərinə ah çatmaz.
Qədərin yolu dünya,
Qədərinə ah çatmaz.

Ağlayan gözlərinin,
Yaşların dərya tutmaz.
Hicran dənizlərinin,
Qəmi səni oyatmaz.

Bir aləmin sevincin,
Bir sabaha yar etdin.
Ya küs məndən, ya inci,
Bizi yoxdan var etdin.

Nəfsimizi aldadıb,
Altunlara qul etdin.
Tənimizdən bal dadıb,
Könlümüzü çul etdin.

Təamı şirin, dünya,
Sağ ikən hər gün yedik.
Açmadı sirin dünya,
Sehrinə qüdrət dedik.

Bizi canda bəslədi,
Hər canda ünvan etdi.
Əzrayılı səslədi,
Bədənə divan etdi.

Hər başda ağıl gəzdi,
Tərəzidə çəkməkçin.
Taledə nağıl gəzdi,
Dastanlara çəkməkçin.

Şadimana gül, dünya
Ətrin hicran qoxuyur.
Ey nazilən tül dünya,
Tülünü kim toxuyur?
18. 02. 2004

HAQQININ QULU BƏŞƏR

Hər ömür bir şam oldu
Sönərkən axşam oldu,
Bəs bu necə kam oldu?
Zamanın çulu bəşər,
Haqqının qulu bəşər.

Zirvələrlə yarışdın,
Duyğularla alışdın,
Yanıb oda qarışdın,
İblisin pulu bəşər,
Haqqının qulu bəşər.

Can üstə can aradın,
Zamandan an aradın,
Arıtək şan aradın,
Ağızsulu bəşər,
Haqqının qulu bəşər.

Başdan tacın alarlar,
Ayağlara salarlar,
Qol-qanadın yolarlar,
Danar sağ-solu bəşər,
Haqqının qulu bəşər.

Doğuldu özün görməz,
Ağızda sözün görməz,
Büküldü dizin görməz,
İtirər yolu bəşər,
Haqqının qulu bəşər.

Canıyla durub qəsdə,
Özü bilmir nə üstə?
Yerin şər, xeyir üstə,
Kəsilən qolu bəşər,
Haqqının qulu bəşər.

Bağına gül xülyanın,
Ömrü şirin röyanın,
Bu şər, xəta dünyanın,
Qırılan kolu bəşər,
Haqqının qulu bəşər.

Ey Şadiman, nə ülfət?
Rəbbi yaradan afət,
Hər üzdə min bir sifət…
Ağlına ulu bəşər,
Haqqının qulu bəşər.
18. 02. 2004

DÜNYANIN NƏZƏR NÖQTƏSİ

Avropa, dünyanın nəzər nöqtəsi,
Üzdə azadlığın müqəddəs səsi.
Varıyla, puluyla öyünən məkan,
Əlindən çıxıbdı çoxdan haqq sükan.
Özünü birinci dünyada sayır,
Üçüncü dünyaya azadlıq yayır.
Guya ölkələrin edib firavan,
İşləri yolunda gedir lap rəvan.
Xaç inancı ilə Allah sevərlər,
Özləri bilmədən günah sevərlər.
Rəqs meydançası, kazino, qumar,
Sanki yollarını ediblər hamar.
Hürriyyət veriblər qadın, kişiyə,
Bütün heyvanlara itə, pişiyə.
Başgicəlləndirən dərmanları dəb,
Bunlar gah satılan, gah əkilən həb.
Min bir pozğunçuluq baş alıb gedir,
Bütün beyinləri çaş salıb gedir.
Silahı, içkisi, eşqi azaddır,
Onun dünya ilə məşqi azaddır.
İslam ölkələri yalnız sürünür,
Lap müqasiyədə miskin görünür.
Avropa hər şeydə keçibdir onu,
Gözü qamaşdıran azadlıq donu.
Sanki demokratya çöküb köksünə,
Aynada dəlitək baxır əksinə.
Ah, necə parlaqdır bu görüntülər?
Ali cəmiyyətdən yan üzüntülər.
Hər yerdə, hər şeydə birinci olmaq,
Bu böyük dünyada bir inci olmaq.
Fəqət, incidimi Avropa görən?
Haqqın, azadlığın qolunu gərən.
O qədər hüriyyət sevən olublar,
Özlərin sağalmaz dərdə salıblar.
Ölçüdən, çəkidən çıxıb düşüncə,
Basılıb həqiqət əbədi küncə.
Avropa ömrünü kəsir yarıda,
İtirir vicdanı, düz ilqarı da.
Böyük, kiçik yeri yox olub çoxdan,
Həqiqət aramaq olarmı yoxdan?
Ailənin özülü uçub, tökülüb,
Namus hasarları tamam sökülüb.
Oğul ata saymaz, qız isə ana,
İman deyə-deyə yaddı imana.

Öz qanunlarıyla yaşar islamı,
Avropa zənn edir cinayət damı.
Tapdanır hər yerdə islam adamı,
Batır ürəyində arzusu, kamı.
Əfqanstan, İraq, Çeçen, Fələstin,
Yardımla örtürlər qanların üstün.
Torpağı işğalda Azərbaycanın,
Neftini sorurlar, alırlar canın.
Həyanın, abırın beşiyi islam,
Onların ayağı altındadır tam.
Avropa qəsd edir haqq, ədalətə,
Fəqət özü düşür tam fəlakətə.
Orda millətlərin sayı azalır,
Başının üstünü müsibət alır.
Varın çoxluğundan sərxoş insanlar,
Beyni robotlaşan bu boş insanlar,
Cahana azadlıq dərsi keçirlər,
Düz yolu çaş salıb, tərsi keçirlər.
Fəqət, anlamırlar bu zaman ələk,
Dünyanı ələyir əlində fələk.
Ələk ələndikcə saf çıxır üzə,
Günəş bər-bəzəkdi gecə-gündüzə.
Ayı zülmətinə o mehman edir,
Haqqın ölçüsünə o iman edir.
Bu göz qamaşdıran dəbdəbələr puç,
Böyük Yaradanın qarşısında suç.
Şeytana, iblisə uyan Avropa,
Tutub bu dünyanı söz ilə topa.
Çıxıb məhvərindən din-imanı da,
Gəlib yetişibdi son zamanı da.
Narko-mafya, spid, hər cür pozğunluq,
Birinci dünyanı izlər pis sonluq.
Bir zaman yetişər… Avropa çökər,
Bu robot azadlıq bağrını sökər.
Onda Avropada ağıllı başlar,
O şeytan yuvasın əliylə daşlar.
İslamın adına dönüb gələrlər,
Allahın eşqiylə könlü bələrlər.
Qurana üz tutar bəşərdən olan,
Enər ayaqlara hər şərdən olan.
İslam çiçəkləyər, dünya nur saçar,
Bu adəm övladı haqq qapı açar.
Torpağın qanlardan qurtular canı,
Bir səadət tapar yazıq insanı.

***

Cahana müsəlman doğulan bir kəs,
Niyə edilməli varlığına qəsd?
Biz ki, bir dünyanın övladı olduq,
İnsantək anadan bir gün doğulduq.
Avropa duymasa bu həqiqəti?
Sonda puç olacaq çirkin niyyəti.
Axı ağlın şehi gözə ələnir,
Təb dilə gələndə sözə ələnir.
Hər kim ki, zirvəyə alüdə olar,
Özünü dərənin içinə salar.
Zirvə sevənlərin axırı puçdu,
Dərə su axıtdı, zirvələr uçdu.
Şərqi qan içində boğan Avropa,
Çətin ki, özünü axırda tapa.

31.X.-1.X1.2004

NİSKİLLƏRİ ÇOX DÜNYANIN

Niskilləri çox dünyanın
Dərdi başdan aşar olub.
Qəmi könlə ox dünyanın,
Ağrıları yaşar olub.

Yamanını dadmaq çətin,
Əzabını udmaq çətin,
Bilmək olmur heç niyyətin,
Dəmi dəmə qoşar olub.

Tufanları basıb keçər,
Öz bəxtindən küsüb keçər,
Səbirimi kəsib keçər,
Təbim kimi coşar olub.

4. X1. 2004

AXIR Kİ, OXUNDAN ÇIXDI BU DÜNYA

Axır ki, oxundan çıxdı bu dünya,
Namərdlər əlində sınağa döndü.
Duyğulu qəlbləri yıxdı bu dünya,
Ağıllı başlarda qınağa döndü.

Qanayan yarası bitişmədi ki,
Başından qan-qada ötüşmədi ki,
Bir ağrısız günü yetişmədi ki,
Ayağlar altında çanağa döndü.

Yandı ürəklərdə bir atəş kimi,
Batdı ölənlərçin o günəş kimi,
Qaldı məzarlarda soyuq nə'ş kimi,
Göz yaşı sığmayan yanağa döndü.

Axır ki, oxundan çıxdı naqəfil,
Yükünü çəkməkdən tükəndimi fil?
Fələyin önündə çarəsiz tifil,
Özü də bizimtək qonağa döndü.

15. 02. 2005

HAQDAN YAXŞI ZAMAN OLSUN

Ey dünyanı yıxıb-sökən,
Allahına iman olsun.
Savaş üçün qanlar tökən,
Sinəndə ah-aman olsun.

Yaradana bağlıdı can,
İlahinin ağlıdı can.
Ömrün həyat nağlıdı can,
Sabahına guman olsun.

Cavanlıqda həvəs həyat,
Qocalıqda qəfəs həyat,
Məhəbbətə nəfəs həyat,
Ürəyində peyman olsun.

Çox mətləbi hasil etdik,
Təni ölmə vasil etdik,
Bəşəri pis nəsil etdik,
Zəkamıza dərman olsun.

Haqqı dara çəkənlərə,
Beyində şər əkənlərə,
Ağızları tikənlərə,
İlahidən fərman olsun.

Çökür bəşər təməlimiz,
Tərəzidə bəd əlimiz,
Yaxşı-yaxşı əməlimiz,
Beynimizdə umman olsun.

Pislik bizə başdan gəlir,
Hər işimiz daşdan gəlir,
Baharımız qışdan gəlir,
Bəyaz tülü duman olsun.

Hər günün öz qayğıları,
Vaxtı udan uyğuları,
Ürəyin pak duyğuları,
Sinəmizdə azman olsun.

Can nəfisdən bal daddımı?
Alıb könüldən atdımı?
Hər kim atsa şər addımı,
Axır günün uman olsun.

Biz nəçiyik, Rəb önündə?
Ağıl quldu dəb önündə,
Şadimana təb önündə,
Haqqdan yaxşı zaman olsun.

18. 01. 2004

ÜRƏYİMDƏ HƏZİN DÜYĞU

Ürəyimdə həzin duyğu, həzin səs,
Deyir dünya deyildir bir boş qəfəs.
O, həyatın diləklərin dadıdı,
Yamanlığın, yaxşılığın adıdı,
Onda vardı göz yaşları, gülüşlər,
Boş xülyalar, boş fitnələr, boş işlər.
Dünya ilə dil tapmaq çox asandı,
Onu qana boyayan da insandı!
O, ilahi sevdasından doğulmuş,
Bəs nədəndir, zülüm içində boğulmuş?
Şərqdən Qərbə qan tökülür hər yana,
Dünya özü ev deyilmi insana?
O dəryalar içində bir qaladı,
Allah bizi o qalaya caladı.
Yaratdıqca şər zəkalar silahı,
Çoxaltdılar can içində günahı.
Fitnə artdı, dünya hər gün döyüldü,

Qələmlərlə, kağızlarla söyüldü.
Top-tüfənglə dağıtdılar sinəsin,
Uçurtdular milyon illik binəsin.
Yaradandan gəlirsə bu kitablar,
Niyə itib Rəbbə haqqı-hesablar?
Bir teatr eyləyiblər dünyanı,
Min yol qana bələyiblər dünyanı.
Hamı dindən, ibadətdən dəm vurur,
Baş yiyəsi ədalətdən dəm vurur.
Qan tökəndə, öldürəndə nə iman?
İlahidən doğulmayır şər fərman.
Pis xislətlər insanların dühası,
Hər zəkada vardır şeytan kahası.
Yaradan bir rəhm eləyə bəşərə,
Divan tuta ağlında kor şərə,
Dünyamız da gəlin təki nazlana,
Hər doğulan bəşər də pərvazlana.

3. 04. 2004

ŞAD ETDİN KİMİ DÜNYA ?

Haqla dövran eylədin,
Canda cövlan eylədin,
Ömrü viran eylədin,
Hər könlün simi dünya,
Şad etdin kimi dünya?

Ağlatdın can yiyəsin,
Sındırdın an tiyəsin,
Bilmədin şər mayəsin,
Fələyin himi dünya,
Şad etdin kimi dünya?

Diləkdə hiss yaşatdın,
Başda nəfs yaşatdın,
Ürəyi pis yaşatdın,
Uddu kim-kimi dünya?
Şad etdin kimi dünya?

Ağılda üsyan etdin,
Damladan leysan etdin,
Bədənlə ehsan etdin,
Vaxtın həkimi dünya,
Şad etdin kimi dünya?

Şadimanı sorma gəl,
Ürəyini yorma gəl,
Canla ara vurma gəl,
Rəbbin tilsimi dünya,
Şad etdin kimi dünya?

14.07.2005

DAHA BU DÜNYAYA SƏBRİM ÇATMAYIR

Ağrım qol götürüb oynayır mənə,
Bu haray-həşirə gözüm yatmayır.
Bütün yamanlıqlar qaynayır mənə,
Daha bu dünyaya səbrim çatmayır,

Səhərim açılır gün döyüşüdü,
İnsanın ağlında kin döyüşüdü,
Allahı şərləyən din döyüşüdü,
Daha bu dünyaya səbrim çatmayır.

Yerlərdən göylərə zülüm hayqırır,
Ürək parçalanır, dilim hayqırır,
Qəlbim ocaq çatıb, külüm hayqırır,
Daha bu dünyaya səbrim çatmayır.

Şeytanla insanın bir ibadəti,
Haqqı yamanlamaq vicdan adəti,
Budurmu bəşərin can səadəti?
Daha bu dünyaya səbrim çatmayır.

Fikirlər öcəşir haray içində,
Günlərin möhnəti hər ay içində,
Ağıl xofa düşüb saray içində,
Daha bu dünyaya səbrim çatmayır.

Bir görən yoxdurmu can üzən ahı?
Zülmətin bağrından qopan sabahı,
Bir kimsə bilməyir içdə günahı?
Daha bu dünyaya səbrim çatmayır.

8. 02. 2006

SƏNDƏN BAŞLAR, Ğ ÖZƏL VƏTƏN,
ALLAHIMA İBADƏTİM

EY VƏTƏN

Ğah sinə odumsan, gah könül odam,
Sənsiz bu dünyada aham, fəryadam,
Vətənsiz kol-kosdu, bir heçdir adam,
Yarandın ürəkdən, qandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Gəl basım bağrıma ağrı-acını,
Tanrı zirvələrdə tutsun tacını,
Tapsın tapılmayan hər əlacını,
Qurtarsın hiylədən, qandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

O dilbər eşqinə kənizəm, qulam,
Sənsiz bədənindən üzülmüş qolam,
Gəl keç sinəm üstən mən sənə yolam,
Yarandın bəlkə də candan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

O hicran atəşin könlə qubardır,
Həsrət dalğasını kədər qabardır,
Hər acı möhnətin xoş günü vardır,
Qoy bəxtin çağlasın andan ey Vətən,
Səni çox sevirəm candan ey Vətən.

Təbrizdən - Dərbəndə könül avazım,
Tale gülzarında ətirli yazım,
Bayatım, dastanım, ozanım, sazım,
Tənim əynindəki, dondan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Əsir Qarabağın kül oldu getdi,

Bu duman dağlara tül oldu ğetdi,
Başımıza yaman kül oldu getdi…
Sinəm kabab oldu şandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Qaytar o qul olmuş vüqarı qaytar,
Qaytar əsir düşmüş, o arı qaytar,
Qaytar, övladına ilqarı qaytar,
Əksilmə şərəfdən, şandan, ey Vətən,
Səni çox sevirəm candan, ey Vətən.

Şadiman könlünə bar sanır səni,
Ey mələk baxışlım, yar sanır səni,
Küllü məmləkətə var sanır səni,
Heç vaxt qopmayasan sandan ey Vətən,
Səni çox sevirəm candan ey Vətən.

28.X11. 2003

AZƏRBAYCAN

Azərbaycan! Köksündəki yaraları zaman-zaman,
De, unuda bilərmi heç torpağının havasıyla vuran ürək ?
Sən qaladın çox odlara, atəşlərə günün yaman,
Saysız-saysız düşmənlərin oldu zirək.
Bir zamanlar o atəşlər diyarında əsdi külək.
Puç oldu hər arzu, dilək.
Həm şimalın, həm cənubun əsarətə düçar oldu,
İmperyalar – əllərində açar oldu.
Boğulmadı bircə an da qaranlıqlar rəzaləti,
Keçdi xalqın boğazına zülmətlərin ətaləti.
Qadir əllər, qadir səslər, qadir ellər,
Məhv eləyə bilmədi ki, cəhaləti.
Əbədilik me'yar oldu arzumuza sabahımız,
Könüllərdə cövlan etdi qəlb ahımız.
Pozulmayan təməl oldu diləklərdə,
Ağrı qaldı şüurlarda, əməl oldu ürəklərdə.
Zəkalarda boğulmayan,
Xainlərin kamalında doğulmayan,
Vəhdət oldu varlığımız,
Kölə təki alnımıza damğalandı yarlığımız.

***

Ey od yurdum, günəş yurdum, bahar yurdum – Azərbaycan!
Ürəyimdən əksilmədi odun bir an.
Şəhidlərin başın qoydu ayağına,
Qan verdilər bayrağına.
Dodaqlardan qopanda can,
Sənin acı halətinə ağladı an.
Dinləyərkən könüllərin təranəsin,
Mən eşitdim azadlığın atəş səsin.
Xoşbəxtliklə səadətlə el-obanda yuvan yoxdu,
Qatilinin ciyərini ovan yoxdu.
Fəqət, yenə Cənub dərdi,
Millətinə yazılan bu nə qədərdi?

Xəyalımda çiskin, duman,
Zəkalarda doğan iman,
Bir zamanlar xainlərin obasına, oylağına od tökəcək,
Ey Cənubum!
Məlunların, haqsızların bir vaxtlar qanın içəcək,
Ey Cənubum!
Keçər zaman, Azərbaycan,
Gələr o an…
Parçalanmış torpağının o tayında yanar Günəş,
Namərdləri odlar Günəş.
Çox çəkməyib parlayacaq,
Öz haqqını anıb bir gün ayılacaq Cənubun da,
Bu Vətən dünyasının bir qutubu sayılacaq Cənubun da.
Azərbaycan bilir cahan, bilir umman,
Hicran dəmi yaman olur,
Torpağını bürüyəndə həsrət qəmi tufan olur,
Ürəyimdə aman olur.
Söylə görüm, Odlar yurdu, ana torpaq,
Səbəb nədir cənubunun səmaları duman olur?
Sən bilirsən elim, yurdum obam, sobam,
Zalımların hiyləsinə sinə gərən ədalətin yolu babam,
Baş əymədi bir zamanlar cəlladlara,
Cavanşirim, Səttarxanım, Babək babam!
İgidlərin, ərənlərin nəş'ələnmiş atəşindən, alovundan,
Hey çırpındım çıxmadım ki, imperyalar tilovundan.
Şimalında ah bir zaman ağarar dan…
Gələcəkdir bir gün o an…
Bəs kim etdi ayrılığın sərhəd dağı xan Arazı?
Nədən oldu de bu yazı?
Qəm tökülür, ah tökülür avazından,
Kim ayırdı Savalanı Qafqazından?
Beyinlərdən silinməyən qanlı çağı,
Xain düşmən, azğın yağı,
Kəsiləydi şər ayağı.
Bir zamanlar parçaladı torpağını,
Aha tutdu sol-sağını.
Qisas aldı,
Könülləri oda saldı.
Qan eylədi Arazını,
Qışa döndərdi yazını.
Azərbaycan!
Gəl, bir götür canımdan can.
Səmalara yüksələndə fəryadların, ağıların,
Bayram etdi, kama yetdi yağıların.
Göz yaşların dəryalara döndü, Vətən,
Elə bil ki, Cənubunun o alovu, o atəşi söndü, Vətən.
Bu haqsızlıq, bu fəlakət o zamandan parçalayır ürəkləri,
O zamandan tufan edir yurdun xəzri küləkləri.
Nə olaydı, Şimalın da, Cənubun da azadlığa keçə barı ?
Əbədilik ətaləti, cəhaləti biçə barı.
Anam Tomris, Həcər, Nigar oylağısan, Azərbaycan!
Koroğlunun, Səttarxanın, Cavanşirin,
Cavad xanın yaylağısan, Azərbaycan!
İgidlərin dühasıyla yaşayır bu nəsillərin,
Bir-birindən niskillidir fəsillərin.
Azərbaycan, ana Vətən, xoşbəxtliklər, səadətlər –
Pak eşqinə ibadətlər,
Gül qoynuna yayılaydı,
Adın, sanın sayılaydı!

Car olaydı gül niyyətin!
Kaş əbədi millətin də cəhalətin,
Səfalətin yuxusundan ayılaydı…

Düşmənlərin əbədilik bayılaydı.
Qoy çevrilsin məhvərindən bu nadanlıq,
Ey Vətənim! Sən xəyala dal bir anlıq…

6. 02. 1977 / Yasamal

NAZLI BAKI

Nazlı Bakı, gülüzünü görəndə könlüm coşur,
Ürəyimin diləkləri ürəyimə qovuşur.
Göy xəzərin sinəsində sərin yellər əsəndə,
Başındakı ağrılardan zamanlarım sovuşur.

Xiyabanlar uzandıqca otların tumarlanır,
Sinəndəki niskillərin gecənlə hamarlanır,
Uca-uca binalardan heyrət yağar aləmə,
Şığıyarkən küləklərin sükutun qamarlanar.

Nazlı Bakı, sən əsrlər, tarixlər yola saldın,
Bə'zən mə'sum körpə təki yaman əllərdə qaldın,
Dilin nədən layla çalır, o ağlayan könlünə?
Oda tutdum varlığımı, məni xəyaldan aldın.

Bağrındakı o qanlardan sinən parə-parədir,
Hər ağrının əzabları köksünə dübarədir,
Vətən adlı bir dünyanın bədənindən qopmusan,
Aç sinəni göstər mənə qəlbində nə yarədir?

Nazlı Bakı, Xəzər ipək tellərini varaqlar,
Coşar könlün duyğuların gülsinəni varaqlar,
Atəşlərin, alovların sevdasından doğuldun,
Harda olsam bu ürəyim səni arar, soraqlar.

O hay-küylü gecələrin çil-çıraqlar içində,
Həm ayrılıq, həm vüsal var köz bağlamış içində,
Zülmətlərin tacı-taxtı sübhünə dayaqlanıb,
Küləklərin haray salır dili niyə, neçində?

Bağlarında lal qumrular, göyərçinlər dənlənər,
Bülbüllərin gül başına dolandıqca şənlənər,
Tutulanda asimanlar mələk üzün qaralar,
Buludların dolar göydə başın üstə çənlənər.

Nazlı Bakı, göy Xəzərin yalayar sahilini,
Tufan qalxar, külək qopar talayar sahilini,
Rüzgar qatar qabağına əlinə nə keçdisə,
Qəzəblənən dalğalarla calayar sahilini.

Keçmişinə çıraq tutar dar İçərişəhərin,
Min bir qaygı beşiyində laylalanar səhərin.

Şəhidinin, itənin xatirəsi sinəndə,
Boğazında kilidlənib-yatıb qalıb qəhərin.

Sən tarixlər aynasından baxırsan öz-özünə,
Qaranlığa çıraq tutub gəlirsən gündüzünə.
Bu dünyanın hər zərbəsin çəkdin ömrü uzunu,
Atəşinə ocaq çatıb qızınırsan közünə.

Nazlı Bakı, ey paytaxtım, Vətənimin dayağı,
Günəş təki heç sönməsin gözlərinin çırağı,
Səndən qopur duyğularım, sinəm üstə köklənir,
Açıb yenə qapısını hüsnünə könül bağı.

İlham adlı bir diyarın yollarında çapıram,
Hissi, eşqi, həyacanı gül bağında tapıram,
Şadimanın atəşinə bir sərinlik gəl, gətir,
Dilə gəlir ehtizazım, təb sarayın yapıram.

19. / 20. X1.2003

SƏNƏ NİYƏ BELƏ ZÜLÜMLƏR OLDU ?

Sənə niyə belə zülümlər oldu?
Bağrının başında dilimlər oldu,
Zindana atıldın ölümlər oldu,
Hər gün tayfalaşdın, bölümlər oldu,
Torpağı, sərvəti talan millətim,
Əzablar içində qalan millətim.

Sən ellər içində - el idin axı?
Coşanda çağlayan sel idin axı?
Dumana düşəndə yel idin axı?
Bir mizrabı vuran tel idin axı?
Özün müsibətə salan millətim,
Əzablar içində qalan millətim.

Bir zaman kölәlik daşını atdın,
Qorxunu, gözünün yaşını atdın,
Meydana düşünən başını atdın,
Yenə tayfalaşdın, yuxuya yatdın,
Ey cəhənnəmi pay alan millətim,
Əzablar içində qalan millətim.

Azadlıq deyərək bir gün çağladın,
Oğlun şəhid düşdü, candan ağladın
Yağı yurdu basdı – sinə dağladın,
Ümidi, Tanrıya haqqa bağladın,
İndi saçlarını yolan millətim,
Əzablar içində qalan millətim.

Bugün işğal altda Qarabağın var,
Sinənə çəkilmiş min bir dağın var,
Minüzlü, hiyləgər, azğın yağın var,
Əsir yurdlarında kor çırağın var,
Könlü parçalayan ürək ağın var,
Dərdləri üst-üstə kalan, millətim.

Əzablar içində qalan millətim.

Əskərin, polisin, ordun da bizim,
Yad ayağı altda yurdun da bizim,
Hər çaqqalın, tülkün, qurdun da bizim,
Özün öz boynunu vurdun da bizim,
Acından, soyuqdan solan millətim,
Əzablar içində qalan millətim.

Övladın səpilib dünya üzünə,
Güzəran axtarır bugün özünə,
Özgələr qızınır niyə közünə?
Məhəl qoyan yoxdu niyə sözünə?
Özü öz canına ilan millətim,
Əzablar içində qalan millətim.

Aldığın məvacib qarın doydurmaz,
Ac qalan mədəni yuxu uydurmaz,
Könlü qalınları ahın duydurmaz,
O yatmış ağlından nədən huy durmaz?
Haqqı yadlara qul olan millətim,
Əzablar içində qalan millətim.

O Milli Məclisin quyuruq yedi,
Haqqına xor baxan buyuruq yedi,
Sənin halına çox uyuruq dedi,
Ziyayıq, hər şeyi duyuruq dedi,
Diliylə Allaha nalan millətim,
Əzablar içində qalan millətim.

Şadimanın üzü pərişanədi,
Hər misra ilhamdan bir nişanədi,
Ürəyi ahından şanə-şanədi,
Qəminin oxuna qəlb nişanədi,
Hələ xəyallara dalan millətim…
Əzablar içində qalan millətim.
11. X1, 2003

MÜSTƏQİLİK

Gedib əldən Qarabağ gülzarı, bizlərə nə var?
Artıb kasıb-kusubun azarı, bizlərə nə var?
Ya çadır, ya da ola məzarı, bizlərə nə var?
Çıxıb ərşə yetimin ah-zarı, bizlərə nə var?
Torpağı yağıya verdik, özümüz müstəqilik,
Dünyaya çatır daha hər sözümüz, müstəqilik.

Əslimiz gədə-güdə, sərvətimiz başdan aşır,
Kütləni əzmək üçün qüvvətimiz başdan aşır,
Millətə elitayıq – hörmətimiz başdan aşır,
Hər yerə gedib çıxan izzətimiz başdan aşır,
Nə olar yurd-yuvamız əsir olub, müstəqilik?
Pulumuz bəxtimizə qəsir olub, müstəqilik.

Erməni qoy Şuşada özünə cəlal açsın,
Xan qızı Nətəvanın ruhuna məlal açsın,
Qarabağı elədik yağıya həlal açsın,
Xalqımızın dilini eyləmişik lal, açsın,
Tanıyır dünya bizi, indi daha müstəqilik,

Batsa da ac-yalavac kasıb aha, müstəqilik.

Əcnəbi banglərə də doldurmuşuq dolları biz,
Açmışıq Amerkaya, Avropaya yolları biz,
Etmişik azad daha qandallardan qolları biz,
Tacımız çiçəkləyir – azadlığın kolları biz,
Cibimiz pulla dolu yoxdu azar, müstəqilik,
İndi çox şairimiz bizə yazar – müstəqilik.

Xarici maşınların yoxdu sayı-hesabı heç,
Daha süfrəmizə də qoymarıq ucuz qabı heç,
Yoxsulun dözümü çox kəsilməyir ki, tabı heç,
Bizlərə yazılmayıb din və qanun kitabı heç,
Tökürük sağa-sola varımızı, müstəqilik,
İndi pul həl eləyir arımızı, müstəqilik.

Çoxdu ki, torpağımız Qarabağı neyləyirik?
Savaş etsək görərik sinə dağı, neyləyirik?
Hökmümüz, fərmanımız, qanlı çağı neyləyirik?
Çadıra binə olan desin ağı, neyləyirik?
Kasıba kahada bəs, pul-parmız müstəqilik,
İndi çox dövlət ilən saz aramız, müstəqilik.

Nefti xammal eləyib çıxarmışıq bazarlara,
Düşsün ac millətimiz min cürə qoy azarlara,
Pul basıb cibimizə, baş vururuq gülzarlara,
Kütlənin çox hissəsi ölüb düşsə məzarlara,
Tək sağ olsun canımız, külfətimiz, müstəqilik,
Artır hey dollar ilə ülfətimiz, müstəqilik.

Torpaq kasıba gərək, bizlərə pul-para yetər,
Millət ağzını açа, yaxarıq çox qara yetər,
Böyüyər uşağımız hər əli min vara yetər,
Çəkərik danışanın dilini lap dara yetər,
Eyləsin kasıblığın ellərimiz, müstəqilik,
Necə şad xürrəm olub illərimiz, müstəqilik.

Beynəlxalq kürsülərdə bülbültək cəh-cəh vururuq,
Qudurdub var da bizi özümüzə qəh-qəh vururuq,
Əyləşib meyxanada canlara pəh-pəh vururuq,
Doldurub qədəhləri bu günə bəh-bəh vururuq,
Arzumuz çiçək açır-kamı bilir, müstəqilik,
Düşmüşük cəh-cəlala hamı bilir müstəqilik.

Bakıda, xaricidə bir neçə adda evimiz,
Bağı bir yana hələ, gör neçə qatdda evimiz,
Göygöldə, Şüvəlanda, lap Batabatda evimiz,
Bizə şöhrət gətirir pullu həyatda evimiz,
Hələ Ulduzları da fəth edirik, müstəqilik,
Ayı Günəş eləyib mədh edirik, müstəqilik.

Xarici maşınlarla hey keçirik bir-birini,
Gözümüz qızır hələ çaş seçirik bir-birini,
Ali məclislərə də baş seçirik bir-birini,
Hərdən paxıllıq edib lap biçirik bir-birini,
İndi zirvəni dəlir dirbaşımız, müstəqilik,
İşləyir cibimizə pak başımız, müstəqilik.

Candan artıq sevirik biz Azərbaycanımızı,
O bizim pullu edib gör necə də anımızı,
Artırır sərvətiylə zirvələrə şanımızı,
Qurbandı min Qarabağ, tək qoruyaq canımızı,
Millətin səbri böyük, dözür hələ, müstəqilik,
Düşməz ki, bir belə fürsət də ələ, müstəqilik.

Şadiman hər nə qədər cəhd eləsə yazmamağa,
Təb ilə dilbir olub, əhd eləsə yazmamağa,
Ağlını qəlbinə sərhəd eləsə yazmamağa,
Od tutan şe'rinə bir həd eləsə yazmamağa.
Girir şeytan ürəyə deyir, bala, müstəqilik…
Cala beyti-beyitə, eylə qala müstəqilik.

20. 07. 2003

« QAN İÇİNDƏ »

Ramiz Rövşənin " Qan içində "
ağısına…

Qardaş qardaşa düşmən,
Könüllər başa düşmən,
Bəbəklər yaşa düşmən,
Canlar sirdaşa düşmən,
Ah gəlir an içində,
İmanlar « qan içində ».

Yerlər, göylər hayqırır,
Düşünəni hay qırır,
Ürəkləri vay qırır,
At, eşşəyi tay qırır,
Ağrılar can içində,
Peymanlar « qan içində ».

Ocaq közünə yağı,
Görən gözünə yağı,
Dillər sözünə yağı,
Millət özünə yağı,
Nadanlar şan içində,
Vicdanlar « qan içində ».

Yerdən göyə ah çıxır,
Gecədən sabah çıxır,
Hər başdan günah çıxır,
Bəndədən Allah çıxır…
Üzür ad-san içində,
Gümanlar « qan içində ».

Bakıya qan töküldü…!
Yolu, izi söküldü,
Başımıza nə küldü?
Düşmənlər bizə güldü,
Şeytan insan içində,
Amanlar « qan içində ».

Əskərə nə hiss gəlir?
Qardaş üstə pis gəlir,
Bu yandan polis gəlir,
Ağıla küsə-küs gəlir,
Bacamıza his gəlir,
Fəryadı an içində,
Fərmanlar « qan içində ».

Kül olub ağrılara,
Ah dolub bağırlara,
Zindanlar doğrulara,
Tacı-taxt oğrulara,
Şərdi hər yan içində,
Zamanlar « qan içində ».

Ey Şadiman, ahlama,
Şeytanı günahlama,
Bu dərdə Allahlama,
Yat qəmə sabahlama,
Ox qalıb dan içində,
Kamanlar « qan içində ».
29. X. 2003

YARAŞMAZ ŞƏNİNƏ NALƏ, VAY ŞƏHİD

*7 avqust 2002 - ci ildə ön xətdə hərbi tapşırığı yerinə yetirərkən yağı gülləsindən şəhid olmuş baş leytinat **Babayev Kamal Baris oğlunun** şərəfli ölümünə!*

Çökdü arzularla həyatın damı,
Söndü əbədilik ömrünün şamı,
Qaldı gözlərində vüsalın kamı,
Şəhidlik önünüdə baş əyir hamı,
Min-min ölən deyil sənə tay şəhid,
Yaraşmaz şəninə nalə, vay şəhid.

Rəbb bu mərtəbəni qıymaz hər kəsə,
Qorxağın canına yardı vəsvəsə,
Ölümün əskiklik verər nakəsə,
Fələklər ağlayar naləyə, səsə,
Vətən fəryadına verdin hay şəhid,
Yaraşmaz şəninə nalə, vay şəhid.

Sənin qeyrətinə səcdədə Vətən,
Sənin bərabərin olmaz hər yetən,
Məzarın önündə baş əysin ötən,
Ziyarətə gəlir min-min ruhi-tən,
Onlara haqqından çatmaz pay şəhid,
Yaraşmaz şəninə nalə, vay şəhid.

Sən cənnət quşusan haqq dərgahında,
Sinəsin partladar ölüm ahın da,
Bağrından qan axar al sabahın da,
Fəryadı göy yıxar o Allahın da!…
Buludun göz yaşı olar çay, şəhid,
Yaraşmaz şəninə nalə, vay şəhid.

Atan, anan tutsun məğrur, başını,
Onlar itirsə də can sirdaşını…
Vətən qucaqlayar məzar daşını,
Tökər ölümünə hicran yaşını,
Basar bağırına səni, ay şəhid,
Yaraşmaz şəninə nalə, vay şəhid.

Nə tez xəzəl oldu ömrün bostanı ?!
Soldurdu xar yağı gənc gülüstanı,
Yazılsın tarixə qeyrət dastanı,
Ağlar Suraxanı məzəristanı…!
İtirməz bu torpaq haqqı-say şəhid,
Yaraşmaz şəninə nalə, vay şəhid.

Şadiman diz çökər qəbrinin üstə,
Olubdu millətin səbrinə xəstə,
Sənə layla deyən dili ahəstə,
Axar qeyrətinə misralar pəstə,
Düşmənə qurular nə vaxt vay, şəhid?
Yaraşmaz şəninə nalə, vay şəhid.
9. 08. 2002

İSTİQLALIN SORAĞI

İstiqlalımızın Öndəri Məmməd Əmin Rəsulzadəyə…

Azərbaycan davasıyla gəzdin ölkəbəölkə,
Hər cür ağrı-acılara dözdün ölkəbəölkə,
Pak bağrını əzablarla üzdün ölkəbəölkə,
İstiqlalı ürəyində yaşatdın, Məmməd Əmin,
Qəlbdə şanlı heykəlini ucaltdın, Məmməd Əmin.

Ey millətin fədaisi, ey başı uca öndər,
Köləliyə usyan dedin, düşdün yurddan dərbədər,
Yaratdığın cumhüriyyət sanma ki, oldu hədər,
Könlümüzün şərəf dolu havası Məmməd Əmin,
O himin ki, dilimizin duası, Məmməd Əmin.

O üç rəngli ay – ulduzun başımızın üstündə,
Ucalacaq bu torpaqda heykəlin də, büstün də…
Keçdin hər cür qan-qadadan bu Vətənin üstündə!…
Mirvari ki, parlaq olar sədəflə, Məmməd Əmin,
Taprixlərə düşdü adın şərəflə, Məmməd Əmin.

Ey taleyi məhkum olmuş Məmləkətin övladı,
Avropada aha döndü dilinin haqq fəryadı,
Sən qorudun kişiliylə o müqəddəs, pak adı,
Qürbətlərdə Vətən dedin, alışdın ,Məmməd Əmin,
Bağrımızın atəşinə qarışdın Məmməd Əmin.

O qurduğun istiqlalın havası başımızda,
Çəkdiyimiz sitəmlərin ahı göz yaşımızda,
Kölə olduq, qana batdı hər zərrə daşımız da,
Öldü min bir savaşlarda bacı, qardaşımız da,
Əsirliyi dada-dada qul olduq, Məmməd Əmin,
Selə düşmüş çay daşı tək oyulduq, Məmməd Əmin.

Əyilmədin, qul olmadın yağılara heç zaman,
Qulpərəstlər təki, Öndər, diləmədin ah-aman,
İman əhli olanları tərk eləyərmi iman?
Ey imanı kamil başçı, yağı hiyləsi yaman,
Didərginlik fəraqına tuş oldun, Məmməd Əmin,
İstiqlalın mayağıtək faş oldun, Məmməd Əmin.

Azərbaycan istiqbalın dünyaya e'lan etdin,
Dağıtdılar amalını sonadək nalan etdin,
Üçrəngli pak bayrağı, himnini balan etdin,
İyirmi üç ay hür tarixin o könül qalan etdin,
Qəlbimizin səmasında Günəşsən, Məmməd Əmin,
Azadlığın ocağına atəşsən, Məmməd Əmin.

O qurduğun cumhüriyyət yenidən ucalıbdı,
Sevmədiyin köləliyə millət zəfər çalıbdı,
Başıbəlalı məmləkət öz haqqını alıbdı,
Adın, ey ulu Öndərim, tarixlərdə qalıbdı,
Ruhun azad uça bilər Vətəndə, Məmməd Əmin,
Pak olur qəlbdə hüriyyət bitəndə, Məmməd Əmin.

Səni tarix yaşadacaq böyük əməllərinlə,
İstiqlal yoldaşlarınla hür qurdun əllərinlə,
Qaldın tarix səhnəsində üsyankar illərinlə,
Ürəyində yara açdı dərd kölə ellərinlə,
Məzarın türk torpağında qalıbdı, Məmməd Əmin,
Ruhun ana Vətəndə yurd salıbdı, Məmməd Əmin.

Novxanıdan qanadlandın istiqlal səmasına,
Könlümüzdə bir ocaq var o günəş təmasına,

Tuş olubdu çox diləklər taleyin əmmasına…
İlahi də imza qoyub köləliyin yasına,
Əsir olmuş torpağımız alına, Məmməd Əmin,
Şanlı Himin qul Şuşada çalına, Məmməd Əmin...

Bu Şadiman, ey Öndərim, istiqlala can deyir,
Öz qanını azadlığın yolunda qurban deyir,
Sənə arxa çevirənə savaş deyir, qan deyir!
Yumruq boyda ürəyinə haqq yolunda yan deyir!
Bayrağımın, himinimin çırağı, Məmməd Əmin,
İstiqlalın on səkkizdən sorağı, Məmməd Əmin!…

21.01.2002

MUSTAFA KAMAL ATA TÜRK

Bir zaman yağıların eylədi işğal Vətəni,
Saldı min bir əzaba gör necə bu hal Vətəni,
Qoydu qara günlərə, etdi halbahal Vətəni,
Atdı ağrı-acıya öylə qeylü-qal Vətəni,
Oldu millətə dirək – Mustafa Kamal Ata Türk,
Böyük yurduna ürək – Mustafa Kamal Ata Türk.

Yığışıb cəm olaraq diddilər Osmanlını,
Min yerə parçalayıb ütdülər Osmanlını,
Elə zənn eylədilər ötdülər Osmanlını,
Sanaraq qul sayağı etdilər Osmanlını,
Millətə oldu çıraq – Mustafa Kamal Ata Türk,
Açdı tarixə varaq – Mustafa Kamal Ata Türk.

Gah rus, gah ingilis, gah da fransız gəldi,
Yurdu ram eyləməyə neçə amansız gəldi?
Dövlətə xain çıxan erməni qansız gəldi,
Yağlı kökə arayan bir çox imansız gəldi,
Xalqı xilas elədi – Mustafa Kamal Ata Türk,
Millətə hür dilədi – Mustafa Kamal Ata Türk.

O ki, türk dünyasının özünə Günəş oldu,
Yaralı torpağının könlünə atəş oldu,
Biçdi düşmənlərini – yerində küləş oldu,
Önündə yağıları hey tökülüb qəş oldu,
Aldı silahı ələ – Mustafa Kamal Ata Türk,
Xəbəri düşdü elə – Mustafa Kamal Ata Türk.

Həm Vətən, həm Bayraq dedi, atıldı savaşa,
Son qoydu ana, bacı gözündəki qanlı yaşa,
Əymədi millətini, vermədi rəvac tələşa,
Tökdü ərlər qanını kişi təki dağa, daşa,
Oldu millətə çıraq – Mustafa Kamal Ata Türk,
Açdı tarixə varaq – Mustafa Kamal Ata Türk.

O türkün namusunu qoymadı yensin ayağa,
O böyük tarixini vermədi ensin ayağa,
Döndü qara dənizin sinəsidə mayağa,
Gətirdi qüdrətiylə şan və şərəf bayrağa,

Titrətdi Avropanı – Mustafa Kamal Ata Türk,
Sandı Vətəni canı – Mustafa Kamal Ata Türk.

Kəsdi Xaç yürüşünün qarşısını qüdrət ilən,
Getdi düşmən önünə pələng kimi həddət ilən,
Şərəfi dünyaya düşdü elə bir vüs‘ət ilən,
Qaldı həqqi sevənin sinəsində izzət ilən,
İslama nur çilədi – Mustafa Kamal Ata Türk,
Yaraları bələdi – Mustafa Kamal Ata Türk.

Döndü Çanaqqalanın döyüşü bir dastana,
Düşdü yağıların ürəyi zimistana,
Osmanlı torpağını çevirdi gülüstana,
Vermədi xəzan gələ baharında bostana,
Ərdi, türk övladına – Mustafa Kamal Ata Türk,
Çatdı Ata adına – Mustafa Kamal Ata Türk.

O Fərid Sultanı da qoymadı çöksün yada,
Olmamaqçın təslim atdı özünü oda,
Dedi: - « tək taxtına yox, bu Vətənə bir qada »,
Yetdi vaxtında igid millətinə imdada,
Elə işıq oldu – Mustafa Kamal Ata Türk,
Yurda aşiq oldu – Mustafa Kamal Ata Türk.

Şadiman, bu igidi vəsf eləyər zamanlar,
Onu səcdəyə gələr haqq arayan imanlar,
Gülər tarix adına, edər ona peymanlar,
Hələ hər gün doğular bu şərəfə fərmanlar…
Anadan təkdi belə – Mustafa Kamal Ata Türk,
Doğmayıb ana hələ – Mustafa Kamal Ata Türk !...

19. 05. 2004

EY BÖYÜK ŞAİRİM

İstiqlal şairimiz Əhməd Cavadın ruhuna!

Elə yaşamalı həyatda insan…
Dünyadan köçəndə yeri görünsün.
Onun yoxluğundan xəbər versin an,
Adamlar içində diri görünsün.

Yüz illər keçsə də əməli qalsın,
Adına baş əysin yaxınlar, yadlar.
Ürəklər içində zirvəni alsın,
Çün həyatda qalır layiqli adlar.

Dirikən ölülər çoxdu dünyada,
Varlığı zəhərli kol-kosa bənzər.
Var ikən elə bil yoxdu dünyada,
İçi qanla dolu bir tasa bənzər.

Sən ey böyük şair, Vətən aşiqi,
Ölükən dirisən, ruhun ucadı.

Adınla nur saçır haqqın işığı,
Hər misran, hər sözün Rəbbə bacadı.

Sən « Göygöl » şerinlə suçlandın bir vaxt,
Şerin də adıntək uludu indi.
Etdisə ömrünü zalımlar bədbaxt,
Amalın istiqlal yoludur indi.

Onlar ölü idi, sağ ola-ola,
Səninsə dirilik haqqın əbədi.
Şairim, qandalı vurdular qola,
Sağ ikən ölünün qandalı nədi?

İndi də paxıllıq edirlər sənə,
Çünki himnimizdə yaşayır adın.
Hər misran, hər sözün, özün təntənə,
Əbədi yaşardı təbi ustadın.

Ömrünü qırdılar qəlbi kösövlər,
Qanında, canında istiqlal vardı,
Ürəyi kir ilə min cürə növlər,
Təbli həyatını əzaba sardı.

Cisminlə yox ikən, ruhunla varsan,
Adınla Vətəndə dirisən, şair.
Ziyasan, işıqsan, haqqa vüqarsan,
Millətin qeyrətli ərisən, şair.

Sağlığında ölü çoxu həyatda…
Əbədi ölməzlik qazanıb getdin.
Hər kəs qala bilməz əbədiyyatda,
Sən bunu dəhşətli zamanda etdin!…

Ey böyük şairim, ey Əhməd Cavad,
Sənin qeyrətinə baş əyirəm mən.
Vicdanı olana əzizdir bu ad,
Sənintək ucalmaq istəyirəm mən.

16. 04. 2003

QAN - QADALI MƏMLƏKƏTİM

Azərbaycan – dərdi böyük, şəhidlərin yurdu diyar,
Hıçqırığın boğazında kilidlənib ürək oyar,
Yadellilər azğınlaşıb əleyhinə imza qoyar,
Sərvətini talayanlar, hər nəyin var satar, sovar,
Yığdığını gizlədənlər yığdığından nə vaxt doyar?…
Varlığına qənimlərin gül hüsnünə haçan uyar?
Səndən başlar, Gözəl Vətən, Allahıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

İçindəki göz yaşını boğub, susub dayanmısan,
Fitnələrdən, fəsadlardan al qanına boyanmısan,
Qollarında qandalların ya yatıb, ya oyanmısan,
Alışmısan ocaq üstə, atəşlərə çox yanmısan,
Ağızımın dadı, Vətən, təbim, ruhum, bərəkətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sən səadət arayarkən, səadətin öldü getdi,
Düşmən gəldi torpağını tikə-tikə böldü getdi,

Xainlərin, bədxaxların hey üzünə güldü getdi,
Atəşini sovurdular, ocaqların küldü, getdi,
İzlərində, cığırında niyə donub hərəkətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Sənə canı qurban dedim, qurbanını götür apar,
Atıl savaş meydanına titrət ərzi, tufan qopar,
Əliqanlı cəlladların içdə, çöldə bağrı çapar,
Ürəyim od tutub yanar dərdlərinə misra yapar,
Harda itib, harda batıb milli hissə nəzakətim?!
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Düşmən çapır yurd-yuvanı övladların susur, durur,
Döşənibmi ayaqlara bəy babama layiq qürur?
Cəlladların Qarabağda ağac çapır, yuva qurur,
Öz ağlımız içimizin atəşini suya vurur,
Dodaqlarım kilidlənib cövlan edir sükunətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Cavidimin, Cavadımın, Mümtazımın ahı səndə,
Məmməd Əmin amalını batırdınmı duman, çəndə?
Övladının gəzdirdiyi ürəkmi, ya daşmı təndə?
Ölülərin dirilərə ağı deyir bu Vətəndə!!!…
İqtidarım – müxalifim susub, öndə fəlakətim…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Al canımı birdəfəlik, canım sənə fəda olsun,
Başın üstə bu sonuncu itgi olsun, qada olsun,
Dikəlt əyilən qəddüvü, dur savaşa səda olsun,
Ayağının altın qazan övladların gəda olsun,
Düşməninə, satqınına bu mərtəbən əda olsun,
Xain çıxsam quşlarının yemi olsun təndə ətim!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Səndən əziz kimim var ki, de cahanda ulu yurdum?
Ürəyinin atəşindən bu könlümə ocaq qurdum,
İçimdəki qorxuları kötüklədim, boynun vurdum,
Alacaqmı işğalçıdan torpağını MİLİ ORDUM?
Bu məramla mən yuxumda gecəgözlü şəri yordum,
Səndən başlar Qanunuma, Kitabıma ibadətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Qarabağın qıfılına düşməyirmi heç bir açar?
Şəhidimin məzarının goru çatlar, yerim qaçar,
Bədənimin əti gedər, vücudumdan dərim qaçar,
Eyləmişik özümüzü qul fikirli qəmə düçar,
Əri olan bir ölkənin yurdu qalmaz düzdə naçar…
Boğulubmu kişi həddim, ər dözümüm, dağ cürətim?
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Bizi tarix dolaylarda min bir yerə çapdı keçdi,
Sinəmizin aynasına qara çirkab yapdı keçdi,
İtdişlilər ağzımızdan sözümüzü qapdı keçdi,
Övladların ocağını kül eylədi, sapdı keçdi,

İçimizdən xain çıxdı, oldu xara qul heyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Dağlar başı duman olar, yel dumanı qovar gedər,
Sel coşanda bənd-bərəni, çal-çəpəri ovar gedər,
Gözdən axar qan yaşlarım yanan könlü suvar gedər,
Sinəmizdən qorxuları gurşadların yuvar gedər,
İçimdəki sərsəmlərə üsyan edər can qeyrətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Nədir belə qoruyuruq canımızı tən altında?
Kürsülərə aşiq olduq, hiss boğuldu mən altında,
Ağlımızı ovxalayır iradəmiz çən altında,
Sərçələrin sürüləşib, qartalların dən altında…
Öz gözümün güzgüsündən gözəl görünür surətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

KərküküməˌTəbrizimə, Dərbəndimə ağı Vətən!
Övladların özü oldu yurd-yuvana yağı, Vətən!
Getməz qeyrət hissi olan sinədən el dağı, Vətən!
Vuruşmasaq, döyüşməsək, bitməz işgal çağı,Vətən!
Dur ayağa çalxat yeri, qopart göydən tağı, Vətən!
Kəs Xətayi qılıncınla əllərindən bağı, Vətən!
Ürəyimdə yaram sızlar, təbib bulmaz bir illətim,
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.

Şadimanın bağrı partlar, dözməz sənin möhnətüvə,
Qarabağın əldən gedib, düşmən gülür möhlətüvə,
Dodaqların dilin tutub, mat qalmışam millətüvə,
Pardaqlanır yağlananlar, fərman verir zillətüvə,
Qolun harda qopub düşüb nə olubudu qüvvətüvə?
Tanrı özü təkan versin donub qalan sürətüvə,
Haçan qalxar ayaqlardan ucalığa ləyaqətim?!…
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.
Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim…

3. 05. 2003

QALDI DİLLƏRDƏ

/ Məmməd Əmin Rəsulzadəyə /

Mötəbər bir yerə düşdü güzarım,
Döydüm təmkin ilə açdım qapını.
Zirvə qartalıtək artdı vüqarım,
Titrətdi şəkilin könül sapımı.

Divardan diritək baxırsan mənə,
Düşündüm nə yaxşı on səkkiz olub…
Salsa da xainlər könlünü çənə,
O ğündən bü günə dönməz iz olub.

Yaşatdın millətin azadlığını,
Dəhşətli illərdə iyirmi üç ay,
Düşündün Vətənin abadlığını,
Birsəslə məmləkət verdi hürrə hay.

Divarda şəkilin, sanki diridi,
Haqqın təmizliyi qonub üzünə.
Adın sinələrdə qeyrət yeridi,
Ölməzlik sarayı yapdın özünə.

Sən varsan mədəni xalqıq demək biz,
Əbədi tarixə həkk etdin onu.
Çökdürdün önündə köləliyi diz,
Tikdin Vətənmizə istiqlal donu.

Millətlər içində varmış haqqımız,
Demək, təbiətən qul olmamışıq.
Bugünki günlərə yarmış haqqımız,
Biz ki, xırdalanan pul olmamışıq.

İyirminci illər və otuz yeddi,
Südün üzündəki qaymaq yığıldı.
Necə ziyalılar o zaman getdi…
Millətin düşünən beyni dağıldı.

Sonuncu Qarabağ savaşı vaxtı,
Qeyrətli oğullar şəhid oldular.
Bu dərdlər ağlayan ürəyi yıxdı,
Analar ah ilə saçın yoldular!

Şəkildən diritək durub baxırsan,
Qürurun işıqdı millətə, Öndər,
Zirvələr fövqünə varıb baxırsan,
Düşsən də sağ ikən zillətə, Öndər.

O vaxt qaymağımız yeyildi, hayıf,
Südün altındakı su maya tutmaz.
Ürəklər zədəli, beyinlər mayıf,
Nə qədər atsan da, daş – qaya tutmaz.

İndi ziyamızın nuru azalıb,
Özünə ziyalı deyir hər yetən.
Haqq bostanımızda uru azalıb,
Sənsən məmləkətin könlündə bitən.

Azərbaycan adlı ey dürr aşiqi,
Vətənin yolunda ömrü əritdin.
Şanlı cumhüriyyət, ey hür aşiqi,
Zəncirli qollardan dəmri əritdin.

Qürürla şəklinə baxıb coşuram,
Nə yaxşı sən varsan, bayrağımız var.
Səni düşündükcə cilalaşıram,
Dünyada adınla sorağımız var.

Millətin istiqlal zəfərin çaldın,
O qanlı-qadalı, o şər illərdə,

Pak müstəqilliyi tarixə saldın,
Məmməd Əmin adı qaldı dillərdə!…
17. 04. 2003

NƏ BİLSİNLƏR?

Vətən, sənin qeyrətini –
Çəkməyənlər nə bilsinlər?
Göz yaşıyla heyrətini –
Tökməyənlər nə bilsinlər?

Selə verib dərd-acını,
Bayraq edib baş tacını,
Bağına bir ağacını
Əkməyənlər nə bilsinlər?

Hərb edilə göz yaşlarda,
Ağıl ola boş başlarda,
Yağı bağrın savaşlarda
Sökməyənlər nə bilsinlər?

Ah ağladır fələkləri,
Alışdırır dilәkləri,
Bu yıxılan ürəkləri
Tikməyənlər nə bilsinlər?

Şadiman, qəm sol-sağında,
Qoyma əysin bu çağında,
Bülbül təki təb bağında,
Səkmiyənlər nə bilsinlər?
13. 03. 2003

SATIRAM

/ " Ay alan!…Məmləkəti – Rey satıram "
M. Ə. Sabir /

Qoymuşam məmləkəti bazara,
Vətən övladı düşsün azara,
Ya ki, dönsün evi məzara,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Verin fabrik, zavodu həraca,
Bunun ki, bir xeyri yoxdu aca,
Xəlqdə ki, var tüstü, həm də baca,
Qoymayın ümid qalsın əlaca,

Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Şükürliyəm necə istiqlala ?
İstiqlal çatdırar istiqbala,
Acam deyib hay-küy salma, bala,
Ötürüm mal-mülkü bala-bala,
Qoy dönsün lap camaat hambala,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Qızıldan qiymətli torpağımız,
Meyvələri sapsarı bağımız,
Əcnəbiyə çatsın bu çağımız,
Nə ağzı var kəm baxa yağımız ?
Firavanıq, daha yox dağımız,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Ac uşaqlar küçədə dilənsin,
Ocağımız sönərək küllənsin,
Kəhrizimiz qurusun küllənsin,
Qarnımız lap acından dillənsin,
Sobada boş qazanlar yellənsin,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Neft və qaz Vətənin cah-cəlalı,
Haram yeyənlərin yox məlalı,
Nə illət tapacaqdı hələlı?
Deməyin ki, başımız bəlalı,
Yetdik mərama azad olalı,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Tökmə çox bəbəkdən yaşı belə,
Neyləsin ac qazanda aşı belə?
Tökə göydən Rəbbim daşı belə,
Heç sanma özünü naşı belə,
Hiddətindən çatma qaşı belə,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Cəmi bir şəhərlik millətimiz,
Niyə olsun bu qədər zillətimiz?
Dollara bağlı hər hörmətimiz,
Öz evimizə yetər qeyrətimiz,
Xalqın ki, dərdi deyil illətimiz,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.

Vallah, bu xəlq mənə canı verər,
Ürəyindən axan qanı verər,

Ömründən ən şirin anı verər,
Evinin içini, hər yanı verər,
Rəbbim hələ xoş dövranı verər,
Vətəndə çoxdu bərəkət, satıram,
Ay alan, gəl, məmləkət satıram.
7. 02. 2002

EY ŞƏHİD ANASI

Ey şəhid anası, dik tut başını,
Tökmə gözlərindən kədər yaşını,
Bilirəm itirdin can sirdaşını,
Qeyrətin yolunda şəhiddi oğlun,
Millətin yolunda şəhiddi oğlun.

Olsun qürüründa dağlar vüqarı,
Namuslu kişilər millətin varı,
Göz yaşını qurut, etmə ah-zarı,
Şərəfə, papağa şəhiddi oğlun.
Vətənə, torpağa şəhiddi oğlun.

Ey şəhid anası, yurdunun nuru,
Savaşa atılan ordunun nuru,
Şər parçalayan boz qurdun nuru,
Yağı vuran dağa şəhiddi oğlun,
O qanlı bayrağa şəhiddi oğlun.

At qara örtüyü qara bizə xar,
Düşməni savaşda haqqımız yıxar,
Qatilinin canı səngərdə çıxar,
Gələn fələkətə şəhiddi oğlun,
Ulu məmləkətə şəhiddi oğlun.
17. 04. 2003

YAĞI ƏLLƏ QƏMƏ BATDI EL, VƏTƏN

Yağı əllə qəmə batdı el, Vətən,
Allah, gördüm nahaq qanlar, ölmədim.
Yurd istədi hər torpaqsız, hər ötən,
Şəhid oldu min-bir canlar, ölmədim.

Azərbaycan yüz yol belə döyüldü,
Dəyirmanda yerli-yersiz üyüldü,
Haqqın dedi, bir qul kimi söyüldü,
Quduz imiş bu insanlar, ölmədim.

Hər tərəfdə baxdım qara əl gördüm,
Köksümüzə balta çalan dil gördüm,
Qanımızdan don geyinmiş il gördüm,
Başsız qaldı çox ünvanlar, ölmədim.

Cavanşirlər susduruldu yerində,
Div dözümü varmış, Allah, yerin də,

Evi zindan hər igidin, ərin də,
Qara geydi qəmsiz anlar, ölmədim.

Qana batdı çox körpələr bələkdə,
Halımızdan saçın yoldu fələk də,
Taleyimiz çox ələndi ələkdə,
Haqq bilməyən nə dil anlar, ölmədim.

Bağrı para Salatınlar şəhiddi,
O Allahsız qəvi düşmən qəlb diddi,
Çörək verdik, ocaq verdik, haqq itdi,
Hanı şahid o zamanlar, ölmədim?

Dərd yandırdı diri-diri hər təni,
Qan içində hey qoydular Vətəni,
İrşəsindən nə üzüldü haqq dəni?
Ərşə qalxdı ah-amanlar, ölmədim.

Dünya yoxmuş başbilənin, böyüyün,
Çox sinəyə damğa basdı körüyün,
Qanlar tökür haqdan deyən bölüyün,
Dəbdən düşüb çox fərmanlar, ölmədim.

Ey Şadiman, gəl inanma peymanə,
Çəkdi kamə səni haqsız zamanə,
Könül xəstə, yetən hanı amanə?…
Yaram közdü, yox dərmanlar, ölmədim.

28. 03. 1991

BİZ HEÇ VAXT, A MİLLƏT, TÜRK OLMAMIŞIQ

Türkükmü? Heç vaxtı türk olmamışıq!
Kimə əyilməyib oyulmamışıq?
Biz gah rusa çökdük, gah da ki, farsa,
Qorxu hissi bizi batırdı yasa,
Heç kəsə basılıb türk qul olmadı,
Heç kəsin belinə o çul olmadı,
Biz kimə atəşkəs elan eylədik?
Şərəfi, qüruru nalan eylədik.
Torpaq oğurusu – cırtdan ölkəyə,
Saldıq ağlımızı bəlkə-bəlkəyə,
O birinci cahan savaşı vaxtı,
Çökdü Osmanlının o uca taxtı.
Bütün Avropa yürüdü ora,
Vurmaq istədilər köksünə yara.
Türkə Xaç yürüşü başlanan zaman,
Xalqın bağırından qopdu ah-aman,
Millətin köksündən çıxdı Ata Türk,
Qoymadı qul olub dərdə bata türk.
Biz ikiyüz il qabaq da tayfalar idik,
Tayfa əzabından ölüm, qan yedik.
İyiriminci ildə müstəqil olduq,
Çoxumuz ağıldan bir zəlil olduq.
Yarımız ruslara can atdıq o vaxt,
Eylədik milləti yetmiş il bədbaxt.
Onda da tayfaydıq, ində də tayfa,
Canımıza dondu bax bu qiyafa.
Gah biz farscanlıyıq, gah ruscanlıyıq,
Özümüz-özümüzə nə divanlıyıq?

Biz heç vaxt, a millət, türk olmamışıq,
Türk təki anadan doğulmamışıq.
Türk heç vaxt əyilmib başqa millətə,
Salmayıb ölkəsin bu fəlakətə!
İndi də birləşə bilmirik yenə,
Yaralar vururuq yurdun köksünə.
İşğala düçardı bu Vətən, millət,
Düşməndən dilərik hələ ədalət.
Bu yazıq Vətənin yarısı onda,
Nifrəti püskürür yağının qanda.
Biz də atəşkəsə getdik onunla,
Milləti təslimçi etdik onunla.
Gündə bir partiya, gündə bir həvəs,
Yağıya qisası sayırıq əbəs.
Millətin ruhunu öldürdük elə,
Biz türkük deyirik, qalxırıq zilə.
Vətən erməninin işğalı altda,
Necə yaşayırıq biz bu həyatda?!
İqtidar-müxalif lazımmı indi?
Savaş meydanına bu bir düyündü…
Bu ağır zamanda böldük milləti,
Gətirdik şüura küt ətaləti.
Erməni xofundan qorxub durmuşuq,
Başımıza necə qapaz vurmuşuq?
Qorxaqlıq dərsini keçirik hər gün,
Qəlbdə də inamı biçirik hər gün.
Yurdumuz, yuvamız işğal içində,
Çoxumuz bəslənnik yağ-bal içində.

Torpaq əsirdirsə xalqa nə dövlət?
Yağılar əlində olacaq alət.
Türk təki anadan doğulmamışıq,
Biz heç vaxt, a millət, türk olmamışıq.

20. 05. 2004

ELOĞLU

/ Şəhid Vətən oğlu Naxçıvan elindən Oktay Vəliyevin ruhuna… /

Ey laydivar, mərd baxışlı igid ər,
Tarixlərə yazılacaq bu hünər,
Bir gün yağı qılıncları da enər,
Tanrı şərə qəbr qazar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Savaşlarda şimşəklərtək alışdın,
Döyüşlərdə qurğuşunla yarışdın,
Al qanınla Qarabağa qarışdın,
Əzrayıl da yolun azar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Torpağımız vallah, bölüm-bölümdü,

Ər igidlər itirmək də zülümdü,
Şəhidlik ki, ən şərəfli ölümdü,
Bunu Allah mərdə yazar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Künc-bucaqda gizlənənnən nə kişi?
Qorxağların döyüşlərdə nə işi?
Bu imtahan, bu ki, Tanrı gərdişi,
Hansı nadan haqqı pozar, eloğlu ?
Zirvələrdə şəhid məzar eloğlu.

Bir tərəfdə qaçqın düşmüş el-elat,
Bir tərəfdə bər-bəzəkli bir həyat,
Bir tərəfdə savaş, səngər, dəmir at,
Çoxlarına Vətən bazar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Son gedişin oldu o gün savaşa,
Gəlin ərə, bacı həsrət qardaşa,
Dəydi ata, ana kamı da daşa,
Qəlb içinə nə qan sızar, eloğlu?
Zirvələrdə şəhid məzar, eloğlu.

Aman fələk, sinəmiz dərd qalası,
Şəhid düşüb min-min Vətən balası,
İşğalardan yurdu nə vaxt alası?…
Dünya bir gün olar yağıya ası…

Bu savaşı haqqa yozar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.
7. 03. 1994

ATA YURDUNU KOR QOYAN OĞUL

Məzarlar ağı deyir gününə,
Fələklər haray çəkir ününə,
Qəriblikdə elinin günü nə?
Yağı əlində gor qoyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Ağlayır Vətən acı sitəmə,
Yaş tökür ana, bacı sitəmə,
Dözürsən necə belə matəmə?
Məğlub adına ey uyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Sərvətin aşsa, daşsa başından,
Zinətin axsa üstü-başından,
Zəfəran iyi gəlsə aşından,
Qarının deyil ki, doyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Bu aləm necə sənə baxacaq?
Düşmənin məkri çoxmu yaxacaq?
Bağrından qara qanlar axacaq,
Millətin köksün ay oyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Hekayətimiz cardı ağıza,
Vallah yerləşmir heç bir kağıza,
Gah farsa, bənzərik, gah oğuza,
Yuxudan ayıl, qalx, oyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Ölübdü içdə niyə qurdumuz?
Gedibdi əldən bir-bir yurdumuz,
Hay sala göyə, yerə Ordumuz,
Qorxağı olmaz heç sayan oğul,
Ata yurdunu kor qoyan oğul.

İl ötər dərdi elə üzlərik,
Özgədən kömək necə gözlərik?
İçimizdə alışıb közlərik,
Nə zaman mənimizi bizlərik?
Axtarma yaddan sən həyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Əvvəli, sonu varmı dünyanın?
Hiyləsi könlə yarmı dünyanın?
Namusu, arı varmı dünyanın?
Bizə hiyləsi zarmı dünyanın?
Nə oldu üzdə o həyan oğul?
Ata yurdunu kor qoyan oğul.

Su axar lil bürüyər yarğanı,
Başına çək beləcə yorğanı,
Özünə tapsan əgər darğanı,
Olarsan adınla bəyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Satmısan eli söylə neçəyə?
Düşmüsən diyar-diyar küçəyə,
Oxşayır ağlın metal külçəyə,
Bənzədirlər səni-qul beçəyə,
Qul olub yad əmrə dayan oğul,
Ata yurdunu kor qoyan oğul.

Həyatın hər üzünü dadmışıq,
Zamanı zəhər kimi udmuşuq,
Vətənə niyə belə yadmışıq?
Yer üzünə bir quru admışıq,
Ey özü kök-soyun soyan oğul,
Ata yurdunu kor qoyan oğul.

Şadiman salıb ərzə harayı,
Uçubdu dərddən könül sarayı,
Gözləyirsən hələ ili, ayı,
Utanma, min rəngə boyan oğul,
Ata yurdunu kor qoyan oğul.

18. 02. 2003

GÖZLƏRDƏ AĞLAYAN QAN -YAŞA BAX

Gözlərdə ağlayan qan-yaşa bax,
Bəbəklə can olan sirdaşa bax,
Ürəyi partlayan bu başa bax,
Hər tərəf dolu qəlbi daşa bax,
Qazanını daşıran aşa bax,
Köz üstündə çatılan qaşa bax,
Qardaşa kəc baxan qardaşa bax,
Ömür vəfa eyləsə yaşa bax,
Hər dərdə üzülən millətimiz,
Tapdanan, əzilən millətimiz.

Öz halal torpağında günü yox,
Batırıblar sədasın, ünü yox,
Aclıqdan evdə toy-düyünü yox
Bir yaxşı üst-başı əyini yox,
Talayıblar zehni eynini yox,
Haqqına səcdə edən beyni yox,
Ələkdən süzülən millətimiz,
Tapdanan, əzilən millətimiz.

Hər əsrdə sərvətin qal oldu,
Əcnəbinin dilinə bal oldu,
Yağlı ağalara nə yal oldu?
Dərdin ciyərinə bir xal oldu,
Evin düşmənlərə nə zal oldu?
Ya özün, ya fələyin kal oldu?
Ürəyin qəmə halbahal oldu,
Vücudun xainlərə nal oldu,
Dözümü nazilən, millətimiz,
Tapdanan, əzilən millətimiz.

Yenə cibində yellər oynayır,
Tərifin qulu dillər oynayır,
Ömrü puç edən illər oynayır,
Gözlə-bəbəkdə sellər oynayır,
Şərə əl açan əllər oynayır,
Gözə tuşlanan millər oynayır,
Ocaqda soyuq küllər oynayır,
Könlü titrədən tellər oynayır,
Kəndiri üzülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Harayın oyatmayır Xudanı,
Dünya nə vaxt duyacaq sədanı?
Göstərə bilmədin heç ədanı,
Görürəm sənə dəyən qadanı,
Açmısan hər kəsə can odanı,
Unut mindillilərə sevdanı,
Talayıb dağıtdılar adanı,
Gülləyə düzülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Sənə heç can deyəni görmədim,

Dərdlərini döyəni görmədim,
Haqqlarını öyəni görmədim,
Haqsızını söyəni görmədim,
Düşmənini əyəni görmədim,
Şər işinə dəyəni görmədim,
Əldə iblis yüyəni görmədim,
Bucağa büzülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Hey sənin haqqını alçatdılar,
Belinə dərd yükünü çatdılar,
Başını hiylə ilə qatdılar,
Daşını, torpağını satdılar,
Özünə hələ böhtan atdılar,
Oduvun istisində yatdılar,
Yağılar diləyinə çatdılar,
Haraylar qulaqlarda batdılar,
Ağrısı çözülən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Həkimsiz, dəvasız ölənin çox,
Alçalmış qeyrətə gülənin çox,
Varını, yoxunu bölənin çox,
Bu acı qəmləri bilənin çox,
Süfrənin başına gələnin çox,
Gözünün yaşını silənin yox,
Cəfası sezilən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.

Şadimanı yandırır əhvalın,
Ağladır ürəyimi bu halın,
Nə zaman yetişəcək vüsalın?
Səni tərk eliyə qeylü-qalın,
Dünyaya faş oldu bu zavalın,
Qopmadı işğal altdan mahalın,
Nəş'ənə oynamadı qavalın,
Fırlanır yağı əlində valın,
Varlığı bezilən, millətimiz,
Tapdanan, əzilən, millətimiz.
02. 02. 2003

SAPMA HAQQ YOLU

Siz, ey yaxşılığı bayraq edənlər,
Şəri ürəyindən iraq edənlər,
Ali diləklərə soraq edənlər,
Pak əməl ulu,
Sapma haqq yolu.

Siz, ey duyğularda duyğu yaşadan,
Könüldə Vətənə qayğı yaşadan,
İnsana, bəşərə sayğı yaşadan,
Gecədən sabaha uyğu yaşadan,
Adəm Rəbb qulu,
Sapma haqq yolu.

Siz, ey bu dünyanı beşiyi sanan,
Düzə külüng vuran, düzə dayanan,
Şərə üsyan deyib üzə dayanan,

Sübhün yuxusundan xeyrə oyanan,
Dikəlt əl-qolu,
Sapma haqq yolu.

Siz, ey yaradanı unudan qafil,
Varıyla, puluyla öyünən tifil,
Çox mənəm deyənlər olubdu səfil,
Qüvvədə özünü zənn etsən də fil,
Ol dəli-dolu,
Sapma haqq yolu.

Siz, ey iblisliyi uca sayanlar,
Göyü öz damına baca sayanlar,
Dolmuş mədələri aca sayanlar,
Bu fəna dünyanı taca sayanlar,
Tanı sağ-solu,
Sapma haqq yolu.

Siz, ey hər addımda səhvə gedənlər,
Şeytanın evinə tövhə gedənlər,
Onun marağına əfvə gedənlər,
Hər iki dünyada məhvə gedənlər,
Qırma can kolu,
Sapma haqq yolu.

Siz, ey Şadimanda hay duymayanlar,
Hıçqıran könlündə vay duymayanlar,
Misrasın qələmə tay duymayanlar,
Bəndənin çoxunu say duymayanlar,
Qəlb yağmur-dolu,
Sapma haqq yolu.
15 . 03. 2004

BAYIL ZİNDANI…

Dəmir barmaqlıqlar içində qalıb,
Millətin dərdini anan oğullar,
Dərdi öz boyundan bir boy ucalıb,
Köz kimi alışıb yanan oğullar-

Nə axır qanı?
Bu oğul canı,
Arif ol tanı,
Bayıl zindanı…

İqtidar-müxalif bu Vətən bizim,
Könlüm qan ağlayır, bükülür dizim,
Başımdan boy verir hicran dənizim,
Amandı, tufanda itməsin izim…

Ara peymanı,
Atma imanı,
Eyləmə manı,
Bayıl zindanı…

Biz ki, tuş olmuşuq çox qəfəslərə,
Hava ver, işıq ver, gəl nəfəslərə,
Uyma guman edən xoş həvəslərə,
Qulaq as içlərdə batan səslərə.

Etmə qadanı,
Danma sevdanı,
Saxla ədanı,
Eşit nidanı!…
Bayıl zindanı…

Ömrümüz ötməsin divanələrtək,
Yan haqqın eşqinə pərvanələrtək,
Bayquşu bəsləmə boş xanələrtək,
Duyğuda can ara peymanələrtək.

Didmə insanı,
Ömrü bir sanı,
Ölmüyən hanı?…
Bayıl zindanı…

Hər zülmətin sonu al sabah olur,
Zülüm dağ olanda qəlbdə ah olur,
Vicdanlar susanda çox gunah olur,
Böyük cəza verən tək Allah olur!

Kəsmə amanı,
Vermə zamanı,
Ara yamanı,
Bayıl zindanı…

Qəfəsdə qalanlar işığa möhtac,
Vermə fitnələrə, fəsadlara bac,
Heç kəsin başında çox qalmayır tac,
Doymaz yamanlıqdan ağılları ac.

Gətir loğmanı,
Eylə dərmanı,
Rəbbin fərmanı,
Bayıl zindanı…

Biz ki, bu dünyaya gəlmişik qonaq,
Allahın verdiyi vaxt bizə sınaq,
Vətən bir od olub – bir yerdə yanaq,
Azğın yağılara olmayaq qınaq.

Dağıt viranı,
Ağlın divanı,
Udar dövranı,
Bayıl zindanı…

Hər kəsin könlündə bir kəhkəşan var,
Müti olmayanda haqqa nişan var,
Bu gidi dünyadan çox pərişan var,
Bə’zən Allahla da, bil, yarışan var.

Ara hər yanı,

Tap Şadimanı,
Öləmdi şanı,
Bayıl zindanı…

20. 04. 2004

EY QEYRƏTLİ VƏTƏN OĞLU

Qalx ayağa, Vətən oğlu,
Qeyrətinə qurban olum.
Qurda gərək kişi ağlı,
Cürətinə qurban oğlum.

Dərdlərimiz ucalanıb,
Namusumuz haçalanıb,
Yurdlarımız parçalanıb,
Qamətinə qurban olum.

Vicdanınla divan eylə,
Haqqı ora ünvan eylə,
Yağılara divan eylə,
Sürətinə qurban olum.

Vətən oğlu, fəryadımız,
Ləkəlidi pak adımız,
Mərd sayılmaz övladımız,
Hörmətinə qurban olum.

Küt qılıncı şan-şan edək,
Düşmənlərə nişan edək,
Haqqımızı gəl şan edək,
Şöhrətinə qurban olum.

Məğlubu heç dünya saymaz,
Şər tökdüyü qandan doymaz,
Ər bu qanı yerdə qoymaz,
Qüdrətinə qurban olum.

Vətən oğlu, bu dərd acı,
Düşüb başdan şərəf tacı,
Sən etməsən bir əlacı,
Ağlar qalar ana, bacı,
Xislətinə qurban olum.

Yurdlar əsir, sinə yara,
Düşmən hara, iman hara?
Ər olan bac verməz xara,
Yetməsən, kim yetər kara?
Vüsətinə qurban olum.

Şadimanı qınaq etmə,
Mənliyini sınaq etmə,
Bu sitəmə qonaq etmə,
Yağı pisdi, tova getmə,
Millətinə qurban olum.

22. 02. 2004

VƏTƏNİ XİLAS EYLƏYƏK

Hünərimiz düşsün dilə,
Zəfər çalsın eldən-elə,
Qorxunu, gəl, verək yelə,
Yağılara yas eyləyək,
Vətəni xilas eyləyək!…

Torpaqsız dövlət olmayır,
El, tayfa, millət olmayır,
Düşmənə zillət olmayır,
Xainə qisas eyləyək,
Vətəni xilas eyləyək!…

Bəsdir, tökdük başa daşı,
Axıtdıq gözdən qan-yaşı,
Yurdu bilək can sirdaşı,
Biz bunu əsas eyləyək,
Vətəni xilas eyləyək!…

Hücüm edək diləymizə,
Tufan salaq küləymizə,
Pasa düşmüş ürəymizə,
Yurd eşqin həssas eyləyək,
Vətəni xilas eyləyək!…
25. X11. 2004

DİLİMİZ VARSA, YAŞAR VARLIĞIMIZ

Dilimiz varsa, yaşar varlığımız,
O bizim bu həyata yarlığımız.

Hər yerin öz dili, öz sözü keçir,
Dili atsaq olacaq darlığımız.

Yad olan dillərə heç uymayağın,
Uyarıqsa olacaq xarlığımız.

Çox dili bilməyimiz şanlı uğur,
Olmasın dilimizə sarlığımız.

Anamızın dilidi yurda qida,
Bu dili qorumaq vüqarlığımız.

Bu Vətən bizlərə məkandı, əgər,
Anamızın dili – baharlığımız.

Bağçası xəzan olan bağa dönər,
Onu biz bəsləməsək - karlığımız!

Ey Vətən övladı, sev öz dilini,
Tükənib bitməyə qoy barlığımız.
17.02. 2005

BU YAZIQ XALQA QALAN BOŞ,

QURUCA ZƏHMƏT OLUR

Talanır sərvətimiz xarici işbazlar üçün,
Nədir millət amalı ağlı dayaz qazlar üçün?
Banglərə dollar yığılır hər diləyi sazlar üçün,
Vətənin eşqi niyə sözləri avazlar üçün?
Nə ki var, var-yoxumuz yadlara bir ne'mət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sorulur neftimizin ən dərin qatları belə,
Aranır, axtarılır qatların çatları belə,
Təki başdakıların olsun büsatları belə,
Çağlasın min neçə cür haram həyatları belə,
Başımızda nə ki var, əcnəbiyə alət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Torpağın tən yarısı işğala möhtac edilib,
Millətin çoxu hələ qarnı tamam ac edilib,
Bu kimi işlərimiz taleyə amac edilib,
Varsa imkan qapısı, xariciyə bac edilib?
Bizlərin bəxtlərinə düşən hələ zillət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Sözə gələndə elə min cürə cəh-cəh vurulur,
Daşınan varımıza gör necə qəh-qəh vurulur.
Damağı çağlar üçün badələr pəh-pəh vurulur,
Əlləri əllərinə nəş'ədən bəh-bəh vurulur,
Əzilən kütlələrə bəxş edilən illət olur,
Bu yazıq xalqa qalan, boş quruca zəhmət olur.

Bayrağa, həm himnə nə zatlar fərman eləyir?
Yazıq istiqlal hələ yadlara dərman eləyir,
Gopu min dağlar aşan dillərə aman eləyir,
Nə qədər imkanı var, hər işi yaman eləyir?
Ayağ altda əzilən yenə də bu millət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Amerka xammalının dəyməyib heç bir qatına,
Sərvəti başdan aşır, nur tökülür həyatına,
Düşmüşük biz də elə taleyin bata-batına,
Baxırıq Avropanın gözqamaşan busatına…
Səsimiz çıxsa əgər, lap böyük bir qələt olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Əlimiz başımıza kül eyləyir vay-vay ilən,
Gözümüzdən yaş axır dəli-dolu min çay ilən,
Bizə hər nə verilir ölçü-biçi və say ilən,
Nəyimiz var daşınır bankələrə lap tay ilən?
Ahı ərşi dağıdan bir neçə cür halət olur?
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Bizim kor bəxtimizə gülmədi heç Xuda niyə?
Diləyimiz çin olur gecələr yuxuda niyə?
Əcnəbinin burunu qalıbdı qoxuda niyə?
Ötüşür günlərimiz bəs qara-qorxuda niyə?
Bizə çor, xariciyə bir o qədər hörmət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Nə ki, Bakı nefti, bölgələr də dəbə düşüb?
Talananlar talanır, ürəklər də həbə düşüb,
Əlində hökmü olanlar nə yaman təbə düşüb?
Binəva millətimiz xariciyə təbə düşüb…
Ölkəyə, ay həzarat, bəs bu necə qiymət olur?
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

Şadiman bir parasın söylədi bu ahımızın,
Doğulanlara görə nəyi var sabahımızın?
Özümüzdə görürəm çoxunu günahımızın,
Yetməyir bizlərə heç haqq nuru Allahımızın!…
Gələcəyi görməyən bəxti qara millət olur,
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.
Bu yazıq xalqa qalan boş, quruca zəhmət olur.

19. 02. 2005

GÖZLƏRİM QANA BAXIR…

“Azad sözün şəhidi,“manitor”
Jurnalının baş redaktoru
Elmar Hüseynova !”

Gözlərim qana baxır,
Bu yurda nə qan axır?
Qanı aləmi yaxır,
Azad sözə şəhid var,
Elmar, Elmar, ay Elmar…

Qarışqa fil öldürür,
Zalımlar dil öldürür,
Ocağı kül öldürür,
Atəşi aləmə car,
Elmar, Elmar, ay Elmar…

Ağlı sözünə yağı,
İblislərə göz dağı,
Kəsilər şər ayağı,
Deyildir ki, dünya kar?
Elmar, Elmar, ay Elmar…

Hara baxır bu Allah?
Zülmətlərdən qopdu ah,
Boyadı için günah,
Dünya da eylədi ar,

Elmar, Elmar, ay Elmar…

Düz söz Qurana ayə,
Bənzəri var ox-yayə,
Mərdliyi gəlməz sayə,
Yetişər aha-vayə,
İblis başlar şərə yar,
Elmar, Elmar, ay Elmar…

Cəllad sinəndən vurdu,
Evində qanın durdu,
Bu necə vurhavurdu?
Güllə ürək qovurdu,
Başımıza aləm dar,
Elmar, Elmar, ay Elmar…

Sözündən haqq axırdı,
Sözü şəri yıxırdı,
Mərd vurulub, axırdı,
Çoxuna yurd axurdu,
Kimə qalır sərvət, var?
Elmar, Elmar, ay Elmar…

Qələm qopardı fəryad,
Etdi zülümlərə dad,
Qalan-yalnız Təmiz ad!
Gec-tez olar zalım xar,
Elmar, Elmar, ay Elmar…

Vətən matəm içində,
Gözləri nəm içində,
Edir sitəm içində,
Kağız-qələmim ah-zar,
Elmar, Elmar, ay Elmar…
6 -7. 03. 2005

ƏCƏB GÜNƏ QALDIQ, ALLAH

“ Manitor ” jurnalının baş redaktoru
Elmar Hüseynovun *əziz xatirəsinə !*

Vicdan pula köklənibdi,
Düşünən baş təklənibdi,
Ürək şərlə görklənibdi,
Zülümlərlə açır sabah,
Əcəb günə qaldıq, Allah.

Ağrılardan qəlb qopmayır,
Şər, yolundan heç sapmayır,
Haqda özün can tapmayır,
Xirtəyəcən çıxıb günah,
Əcəb günə qaldıq, Allah.

Didilir insan xanəsi,
Yanır haqqın pərvanəsi,
Qırılır ömrün danəsi…
Məzarlanır bədəndə ah,
Əcəb günə qaldıq, Allah.

Bir sitəmdə min nida var,
Hər nidada min səda var,
Burda haqqa bir fəda var…
Şəhid düşüb sözə, Vallah,
Əcəb günə qaldıq, Allah.
7. 03. 2005

QOCA QAFQAZ

Qoca Qafqaz sinəsi qəmlə dolu,
Haralardan haraya keçdi yolu?
Möhtəşəm bir sarayı andırır o,
Alışan hər ürəyi yandırır o.
Uca minarələri göyə çatır,
Hər qayanın ucu dumana yatır.
Ocağı atəşi üryan eləyir,
Tüstüsü ərşini büryan eləyir.
Neçə cur dilləri var xalqlarının,
Tarixə illəri var xalqlarının.
Sözü-söhbəti düşüb dil-ağıza,
Nağılı sığışmayır nə kağıza.
Dəlisov igidləri at oynadır,
Meşəsinə hər bulağı aynadır.
Şah dağına yatır ildə təzə qar,
Çıxır hər yolda, yamacda dizə qar.
Çayları dərələrə dava salır,
Qayasında fərəsi yuva salır.
Əzgili, saf qozu, fındıq meşəsi,
Gözü heyran eləyir hər güşəsi.
Qoca Qafqaz neçə karvan ötürüb,
Karvanın başında sarvan ötürüb.
Nizəsi qan qoxuyan silahı var,
Bu yerin bir neçə cür Allahı var.
Özünə kəm baxan insanlarının,
Dərdinə ağı deyən canlarının,
Həm acı, həm toxu çox hicrətdə,
Qoca Qafqaz bulunur həsrətdə.
Yenə qanlar qoxuyur yuvası,
Yenə şərlə xeyirin davası…
Yenə imperiyalar vüsətdə,
Açıb ağzını qalıb heyrətdə.
Qoca Qafqaz ələyir göz yaşını,
Top -tüfənglər dağıdır dağ-daşını,
Çeçeni, inquşu, hər mərdi qoçaq,
Sinələr yara edən dərdi qoçaq.

***

Əcəb imperya alıb ermənini,
Elə fitvaya salıb ermənini.
Varını, yoxunu silaha tutub,
Sinədə nəyi var günaha tutub.
Eləyib azəriyə yağı yaman,
Çəkir ürəyinə yurd dağı yaman.
Hər günü min cürə sövdaya girir,
Naz atır, işvəsi sevdaya girir.
Qoca Qafqaz açıb iblisə qucaq,
Ağlı kəm, zatı qırıq, pisə qucaq.
Arabir titrəşir o sərt qayalar,
Cinlə, şeytanla dolu pərt qayalar.

Hönkürür göylərə Məcnun sayağı,
Şütüyür hər səmitə daş ayağı.
Güllədən sinəsi piltə-piltə,
Ürəyi, baş-gözü şiltə-şiltə.
Dağılır tarixi mə'bədləri,
Artır xirtəyə qədər dərdləri.
Hanı bu yurd-yuvanın mehmanı?
Unudub harda atıb imanı?
Gələ ovsunlaya gözdə yaşını,
Dikməyəsən aşağa sərt başını.
Şəri-şeytanı qova bir gecədə,
Yetə Allaha duva bir gecədə.
Hüsnünü oxşaya ulduzların,
Bağrına çiçək tuta qızların.
O günü görməyən həmrəy ürəyim,
Eyləyir bu diləyə səy ürəyim.
Yenə canlar ala qardaşlığımız,
Ahdı bizə ürəyi daşlığımız.
Şuşanı qaytarmarıqsa geriyə,
Gərək ki, bədən üstə baş əriyə.
Günü-gündən çoxalar zillətimiz,
Köləliyə qul olar millətimiz!

***

Qoca Qafqaz yazıram bunları mən,
Unuda bilməyirəm qanları mən.

2. 01. 2005

VƏTƏN BİR ANASA...

Vətən bir anasa… isti yuvası,
Onun şirin olur suyu, havası.
Anatək baxarsa övlad torpağa,
Onu çıxarmalı ana xoş çağa.
Vətəndən almalı eşq, məhəbbəti,
Canıtək sevməli aşkar, xəlbəti.
Vətən can olmalı hər birimizə,
Sahib ölümüzə, həm dirimizə.
Vətən övlada kin bəsləməyirsə,
Sərvəti övladdan həsləməyirsə,
Qovuşar balası çün səadətə,
Dönər məmləkətdə bu bir adətə.
Vətəndən almalı insan vüsalı,
Vətəndən başlanır düzlük əmsalı.
Vətən ayırırsa övladı fərdə,
Orda doğulanlar düşəcək dərdə.
Kim isə var-dövlət üstə oturar,
Kimiysə ehtiyac tamam batırar.
Ana deyilirsə Vətənə əgər,
Yad eldə balası olmasın ögar!
Tapsın torpağında bəxtiyarlığı,
Yetsin ocağına ixtiyarlığı.
Vətən nə? Doğma ev, isti od-ocaq,
Onunla alışsın ürək, can ancaq.
Gəzsin qürbətləri səyahət üçün,
Qürbət yandırmasın könlünün için.
Dolanşıq, güzəran eşqinə övlad,
Dilinə, dininə qoy olmasın yad.
Yurdundan ucalsın şanı, şöhrəti,
Düşməsin ürəyə qürbət möhnəti.

Vətən bir anasa, biz isə övlad,
Onda övladına o baxmasın yad.
Anatək isitsin oduyla bizi,
Çatdırsın çörəyə qoy əlimizi.
Daddırmasın xalqa qürbət acısın,
Övlad atəşiylə daim acısın.
Tək çətin məqamda bizi anmasın,
Bizi ögey sanıb fərdə yanmasın.
Vətən hamımıza əgər qalasa,
Hər doğulan yurdda ona balasa,
Balanın hamına şirinlik yetər,
Düz bölünməyəndə haqq-hesab itər.
Vətənə sevgi də dönüb heç olar,
Elə adiləşər adı puç olar.
Qarşılıqlı olur sevgi, məhəbbət,
Ondan şaxələnir həyat da, əlbət!
Vətən anadırsa-isti bucağı,
Bütün balalara yetsin qucağı.
Allahın əlində hər cana əmir,
Əbədi deyildir verilən ömür.
Hamı səadətdən pay umur, ancaq
Vətən olmalıdır övlada ocaq.
Onun atəşiylə yansın ürəyi,
Məhz, budur Vətəndən bala diləyi!
Vətən bir anasa… Ana qüdrəti-
Balanın eşqinə bar sədaqəti.

10. 02. 2006

BU VƏTƏN AZADDIMI ?…

Bu Vətən azaddımı?
Dilindəki daddımı?
Millət ona yaddımı?…
Hər yetən övladdımı?

Xəzinəsi talanır,
Talandıqca yalanır,
Elə suyu bulanır.

Hiyləsi dam içində,
Əyrisi kam içində,
Çoxu haram içində…

Millət varlığın danıb,
Dərdin özünə yanıb,
Sanki həyat dayanıb!

Qul olmağı dəb sayır,
Ürəyinə həb sayır,
İlahidən təb sayır.

Çoxalıb işgəncələr,
Həm gündüz, həm gecələr,
Dildən qopur necələr?!…

Rüşvət udur yetəni,
Alıb-satır ötəni,
Bərbad edir Vətəni!

Sağalmazdır mərəzi,
Nədir onun qərəzi?
Hanı nizam-tərəzi? !…

Düşünən baş partlayır,
Sinədə qəlb çatlayır,
Beli bükür, qatlayır.

Əyri saray içində,
Təmizlər vay içində,
Millət haray içində…!

Torpağı yağıya bac,
Adamının qarnı ac,
Yadlardan umur əlac.
Başına qoyduğu tac

Yaman tələ içində,
Nədir ölə içində?
Bir zəlzələ içində!

Hər yetən övladdımı?
Dilində ki, daddımı?
Millət ona yaddımı?
Bu Vətən azaddımı?
8. 05.2006

AH, VƏTƏN, MƏN SƏNİ TƏRK EDƏ BİLMƏM…

Bu nə fəlakətdir, bu nə işgəncə?
Müxalif qəzetlər basılıb küncə,
Millətin taleyi olub əyləncə?
Muxbir öldürülür,döyülür gecə,
Qanunlar yalançı, fərmanlar becə,
Axırı xətadır bu işin məncə…
Anasansa niyə ərk edə bilməm?
Ah, Vətən, mən səni tərk edə bilməm…

Batıbdı ölkəmiz rüşvət içində,
Millət ac, oğrular sərvət içində,
Polis xalqa qarşı qüvvət içində,
Ağlımız can verir xiffət içində,
Mən bu müsibəti dərk edə bilməm?
Ah, Vətən, mən səni tərk edə bilməm…

Bir paça çörəyə möhtacdır çoxu,
Bu bir istiqlalmı, ya ölümə yuxu?
Dili tərpədənə min hədə-qorxu,
Çöküb gözlərimə qorxulu yuxu,
Dəlir sinəmizi İblisin oxu!
Bu dərdi könlümə görk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Qarabağ adında dərdimiz yatır,
Yağı toy-büsatda mərdimuz yatır,
Ətalət tovunda ordumuz yatır,
Gözümüz önündə yurdumuz batır!
Səsimin sədasın bərk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

ANS bağlanır susur bu millət,
Hürrüni içində pusur bu millət,
Qorxudan öz qanın qusur bu millət,
Azadlıq önündə qüsür bu millət,
Qüsürün başına sərk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Oğrunun könlündə təbi görürəm,
Doğrunun dilində həbi görürəm,
Hər bir əyrilikdə dəbi görürəm,
Şeytanı hər işdə nəbi görürəm,
Zindanı özünə börk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Həyacan qəlbimdə, qorxu başımda,
Qan himə bənd olub bu göz yaşımda,
Dözmür bu əzaba can sirdaşım da,
Qaçımmı yurdumdan ahıl yaşımda?
Bu dərdi dünyaya peyk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…

Hər şər olan yerdə xeyrə nə halət?!
Hər bir dövürlərdə qul- olub alət,
Qapısı ağzını kəsib zəlalət,
Mən səvab yazıram, Haqq sanmaz qələt,
Rəbb verən ağlıla şəkk edə bilməm,
Ah, Vətən, mən səni tərk edə bilməm…
Ah, Vətən, mən səni tərk edə bilməm…
28.X1.2006

NİYƏ BU ÖLKƏDƏ DOĞULDUM, ALLAH…

Niyə bu ölkədə doğuldum, Allah?
Nədəndir bu qədər canıma günah?
Niyə bu ölkənin vətəndaşıyam?!
Dilim lal oluubdu, bir çay daşıyam!
Harayım içimdə batıb nə vaxttdı,
Harda məzarlayım bu qara baxtı?
Ətrafım yaltaqla, nadanla dolu,
Nə zaman açılar bəs haqqın yolu?
Gözün gördüyünə ürək alışır,
Ağlım iyrəncliklə, sanki barışır.

Niyə bu ölkədə doğuldum,Allah?
Mən zülmət içində, açılmır sabah.
Sabaha çıxmaqçın yuxu görürəm,
İçimdə div boyda qorxu görürəm!
Qorxudan o yana cəhənnəm durur,
Taxtıını qapımın ağzında qurur.
Yalançı təriflər, şanlı yalanlar,

Bağrı parçalayan dili ilanlar-
Ətrafı dolaşır bir kabus təki,
Özüm ürəyimə edirəm təpki.
Bütün bu dəhşəti duymamaq üçün!
Düşüb bu çirkaba uymamaq üçün!
Mən necə ayırım canı cisimdən?
Mən necə gizlənim addan, isimdən?
Millət olmamışıq bəlkə biz hələ?…
Onunçın qul olub haqqımız belə!
Ağlımız yatıbdı fil qulağında,
Elə yemlənirik şər yalağında.

Niyə bu ölkədə doğuldum Allah?
Hansı günahımçın et məni agah?
Bu canı sən mənə etdin ərmağan,
Xeyrə günbatanmı, şərə gündoğan?
Verdiyin canımı al apar məndən,
Budur son istəyim, diləyim səndən!
Utanıb ölürəm, qala bilmirəm,
Daha bu millətdən ola bilmirəm!
Yeganə ümidim sənədir, Ya Rəbb,
Al apar bu canım, bu ürək, bu təb.
Könlümü heç neylə ala bilmirəm,
Mən bu məmləkətdə qala bilmirəm,
Daha bu millətdən ola bilmirəm!…

İçimdə dağ boyda kədər, qüssə, ah,
Niyə bu ölkədə doğuldum Allah!…
15. X11. 2006

UŞAQLARA ƏRMAĞAN

1 HİSSƏ

VƏTƏNİ CANDAN ƏZİZ SANMALIYIQ

GƏLİN, SEVƏK VƏTƏNİ

Ay uşaqlar, ürəkdən,
Gəlin, sevək Vətəni.
Üstün tutaq çörəkdən-
Yar etməyək yetəni.

Onu sevməyən insan,
Yurduna gərək olmaz.
Yad eldə alsa ad-san,
Elin qəlbində qalmaz.

Vətən halal yerindi,
Qorumasaq yadındı.
Onun eşqi dərindi,
O- özün, övladındı.

Yar edək nidamıza,
O könüldə bitəni.
Can deyək sevdamıza,
Gəlin sevək Vətəni!
16. 02. 2000

ÖZ YURDUNA GƏRƏK OLAQ

Ay uşaqlar, Vətən əziz,
Ona vuran ürək olaq.
Bir sevdadır – eşqi dəniz,
Öz yurduna gərək olaq.

Onunla gur çırağımız,
Odur könül varağımız,
Bu dünyada sorağımız,
Gəlin ona dirək olaq.

Cahan içrə bir cahandır,
Damarlardan axan qandır,
Ocağın aç, odun yandır,
O bədəndə duran candır.
Qorumağa zirək olaq.

Vətən ana, Vətən bacı,
Dərdimizin hər əlacı,
O millətin başda tacı,
Ona ürək-dirək olaq.
16. 02. 2005

HİMNİMİZ - BAYRAĞIMIZ

Himnimiz – Bayrağımız,
Vətənin ürəyidir.
Sabaha növrağımız,
Millətin dirəyidir.

Hər ölkəyə qonaqdır,
Qorumasaq qınaqdır!…
Ömrümüzə sınaqdır,
Ölkənin gərəyidir.

Hər ikisi müqəddəs,
Bunu bilməli hər kəs,
Biz kimik onlarsız bəs?…
Bu dünyanın rəyidir.
16. 02. 2005

ANA DİLİ

Hər dili öyrənmək yaxşıdır, amma-
Öz ana dilini bilməmək günah.
İnsanlıq dünyanın baxşıdır, amma-
Dil ilə açılır həyata sabah.

Bu dillə öyrəndik ana sözünü,
Vətənin hər qarış yerin sevməyi.
Bu dillə tanıdı millət özünü,
Başladı həyatı dərin sevməyi.

Bayatı-laylamız bu dildən gəldi,
Hopdu ruhumuza, canımıza o.
Vətənə məhəbbət odu yüksəldi,
Yeridi damara, qanımıza o.

Keçdi anamızın layla səsindən,
Həkk oldu eşq ilə kamalımıza.
Ürəyi oxşayan xoş nəfəsindən,
Yapdı dil sarayı amalımıza.

Öz ana dilini bilməyən kimdi?
Onun varlığı da Vətənə yaddı.
Bu dil dərmanımız, bu dil həkimdi,
Bu dildə danışan yurda övladdı.
16. 02. 2005

VƏTƏNİ CANDAN ƏZİZ SANMALIYIQ

Vətəni candan əziz sanmalıyıq,
Onun hər istəyinə yanmalıyıq.

O ki, öz eşqinə yar etdi bizi,
Onu səatdə elə anmalıyıq.

Verməyək yağıya heç bir qarışın,
Verəriksə, əbədi donmalıyıq.

O bizə can deyəsi tək anadır,

Bunu biz, ay həzarat, qanmalıyıq!

Ağrısı, acısı olsa Vətənin,
Hər işimizi təmam danmalıyıq.

Yetərək dadına ər balasıtək,
Ocağına od olub yanmalıyıq.

Olub əskər, çəkərək keşiyin,
Səf durub önündə dayanmalıyıq!
Vətəni candan əziz sanmalıyıq!…
16. 02. 2005

MƏKTƏB

Məktəb-həyat kamalı,
Ağlımıza incidir.
Gələcəyin amalı,
Yaşamaq sevincidir.

Kitablarla o bizə,
Dil tapmağı öyrədir.
Düşüb zamanla izə,
Düz çapmağı öyrədir.

Odur ömrün işığı,
Gələcəyin can barı.
Həyatın yaraşığı,
Uşaqlığın nübarı.
16. 02. 2005

MÜƏLLİM

Müəllim – gözə çıraq,
Dilimizə bəzəkdir.
Elimdən verər soraq,
Kitablara – özəkdir.

O səadət işığı,
Bəxtimizin özüdü,
Sabahın yaraşığı,
Xoş həyatın gözüdür.

Onun dilindən qopan,
Hər kəlmə dür, incidir.
Biliklə haqqa çapan,
Dünyanın sevincidir.

Müəllimdir bu günün,
Gələcəyin kamalı.
Ən xoş sədanın, ünün,
Onunladır amalı.
16. 02. 2005

UŞAQLAR

Qış ötüşüb yaz gələr,

Avazlanar uşaqlar.
Günlərin bağrın dələr,
Pərvazlanar uşaqlar.

Səadətlə oynaşar,
Qanlar odla qarışar,
Şadlığı aşıb-daşar,
Nə yazlanar uşaqlar?

Dər-divarı eşərlər,
Torpaqla güləşərlər,
Can deyib dilləşərlər,
Hey nazlanar uşaqlar.

Oynamaqdan doymazlar,
Evə ayaq qoymazlar,
Nə yoruldum duymazlar?
Bəyazlanar uşaqlar.

Dünyaya işıq təki,
Evə yaraşıq təki,
Sinəyə aşıq təki,
Nə sazlanar uşaqlar?
15. 02. 2005

UŞAQ BAĞÇASI

Uşaq bağçası bu gün
Bürünüb al qumaşa.
Hər gülüş xoş səda, ün,
Hər körpə bir tamaşa.

Gülür, oynayır qızlar,
Oğlanlar yallı gedir.
Bu balaca ulduzlar
Adamı heyran edir.

Onlar dostların belə,
Məktəbə yola salır.
Şeirlər axır dilə,
Qızlar piano çalır.

Körpələrin gözləri,
Gülüşdən pərvazlanır.
Tükənməyir sözləri,
Ürəklər avazlanır.

Beləcə bayram edir,
Son bağça günün onlar.
Ayrılıq çatıb nədir?
Ayrılacaq ünvanlar.
15. 02. 2005

TƏZƏ İL

Təzə il, ay təzə il,
Sevinc gətir bizə il.

Uşaqlar pərvazlansın,
Yerlər, göylər nazlansın,
Hər ürək avazlansın,

Təzə il, ay təzə il,
Ömrümüzü bəzə il.

Əsən küləklər həzin,
Nə verər ki, əvəzin?
Qapımızı aç özün,

Təzə il, ay təzə il,
Şadlıq çıxsın dizə il.

Qar ələnsin aləmə,
Qoy yetişək xoş dəmə,
Səadəti qoş dəmə,

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə il.
15. 02. 2005

GƏLİB AXIR ÇƏRŞƏNBƏ

Gəlib axır çərşənbə,
Uşaqlar tonqal çatır.
Tüstü ağappaq pənbə,
Özünü göyə atır.

Küçədə bir hay-həşir,
Dövrə vurub qız-oğlan.
Hər tonqal, sanki bir tay,
Gülür sevinir hər yan.

Uşaqlar papaq atır,
Hər evin dəhlizinə.
Çərşənbədə kim yatır?
Gecə düşür izinə.
15. 02. 2005

NOVRUZ BAYRAMI

Bu gün Novruz bayramı,
Gəlib yurda, yuvaya.
Gülür şadlanır hamı,
Şam atılır havaya.

Gur tonqallar qalanır,
Uşaqlar dövrə vurur.
Göydə tüstü bulanır,
Burum-burum tor qurur.

Əllərdə papaq, torba,
Körpələr qaçışırlar.
Şadlıq edir el, oba,
Ürəklər uçuşurlar.

Novruz bayramı gəlir,
Küsüşənlər barışır.
Hər qəlbi sevda dəlir,
Könül canla yarışır.

Uşaqların sevinci,
Aşıb-daşır sel kimi.
Hər birisi dür, inci,
Qaçışrlar yel kimi.

Bitməsin bu toy, büsat,
Yurdu alsın ağzına.
Qaynasın, daşsın həyat,
Çıxaq ömrün yazına.
15. 02. 2005

YANSIN BAYRAM ŞAMLARI

Yansın bayram şamları,
Gəlsin el adamları
Şö'lələnsin kamları,
Ürəklərdə nur olsun,
Novruzumuz gur olsun.

Tonqalları çatılsın,
Üstündən el atılsın,
Hər ev bura qatılsın,
Sinədə qürur olsun,
Novruzumuz gur olsun.

Qoy yığışıb qış getsin,
Novruz ruhu xoş etsin,
Süfrə açan nuş etsin,
İşimiz uğur olsun,
Novruzumuz gur olsun.

Paxlava, şəkərbura,
Pilovun üstə qara,
Xəbər ver dosta, yara,
Bayram elə cur olsun,
Novruzumuz gur olsun.

Səməni qalaq-qalaq,
Alaq süfrəyə salaq,
Biz canbirqəlbdə olaq,
Söz ağızda dür olsun,
Novruzumuz gur olsun.

Vətənin gözü gülsün,
Gecə-gündüzü gülsün,
Millətin üzü gülsün,
Evdə yur-yuğur olsun,
Novruzumuz gur olsun.

Bu yazın leysanları,
Torpağın ehsanları,
Ay Vətən insanları,
Sübhdən durhadur olsun,
Novruzumuz gur olsun.

Bir kimsə qəm görməsin,
Qəmlə süfrə sərməsin,
Ah qolunu gərməsin,
Qışla vurhavur olsun,
Novruzumuz gur olsun.
20. 03. 2005

ÇOX QİYMƏTLİ İNCİDİ

Uşaqlar – bu dünyaya,
Çox qiymətli incidi.

Bənzərlər coşqun çaya,
Həyatın sevincidi.

Dillərindən bal axır,
Ürəkləri ovlayır.
Könlü yandırıb-yaxır,
Qəlbləri alovlayır.

Uşaqlar – göz işığı,
Ata, ananın canı.
Cahanın yaraşığı,
Gələcəyin ünvanı.

Hər körpənin öz nazı,
Baldan şirin dili var.
Gətirər evə yazı,
Hər qəlbdən dərdi qovar.

Uşaqlar dünyamızın,
Sabahına açardır.
Onlarla xülyamızın,
Dərd qapısı naçardır.

Siz, ey həyat günəşi -
Bapbalaca körpələr.
Gözünüzün atəşi,
Cahana od səpələr.
15. 02. 2005

HƏR İLİN ÖZ SEVİNCİ

Hər ilin öz sevinci,
Öz hikmətli sözü var.
Uşaqlar ondan inci,
Dünyaya od-közü var.

Dilləri bala bənzər,
Dildə-ağızda gəzər,
Əgər eyləsən nəzər,
Ömürlərdə özü var.

İllər fəsillərə yar,
Uşaqlar ömrə bahar,
Sanyələr ana nahar…
Hərənin öz izi var.
16. 02. 2005

QAR ADAMI

Uşaqlar qar adamı,
Düzəldibdilər qardan.
Gülüb-oynayır hamı,
Bu şaxta gəlib hardan?

Yanaqlar qıpqırmızı,
Əllər soyuqdan donur.

Ələnir qar ulduzu-
Qaşa, kipriyə qonur.

Qar adamın başında
Uşaqlar dövrə vurub.
Çəkilmiş göz-qaşında
Bəyaz naxışlar durub.

Bu zaman günəş çıxıb
Boylanır yerə sarı.
Qışın sinəsin yaxıb,
Əridir yağan qarı.

Qar adamı əriyir,
Havanın xoş hovundan.
Gün qüruba yeriyir,
Nəş'ələnir ovundan.

Uşaqlar birdən-birə,
Baxır boylanır göyə.
Səma göndərib yerə
Su, dolu, qar hədiyyə.
15. 02. 2005

QAR YAĞIR DAĞA, DÜZƏ

Qar yağır dağa, düzə,
Qış qonaq gəlib bizə.
Üzə, gözə ələnir,
Aləm qara bələnir.
Külək əsir ahəstə,
Sərçələr də qar üstə-
Qoyur ayaq izini,
Qış göstərir özünü.
Uşaqlar dilləşirlər,
Qar ilə əlləşirlər.
Gülüşlər şaqqıldayır,
Qarğalar qaqıldayır.
Aləmə səda düşür,
Ürəyə sevda düşür.
Uşaqların səsindən,
Quşların nəğməsindən.

Can, könül pıçıldaşır,
Həyat qaynayıb, daşır.
14. 02. 2005

YAZ GƏLİR

Yaz gəlir, sular coşur,
Soyuq buzlar əriyir.
Təbiət nəğmə qoşur,
Gün göylərə yeriyir.

Bağçaların içində
Quşlar cəh-cəh vururlar.

Qışın köçə-köçündə,
İsti yuva qururlar.

Qaranquşlar qürbətdən,
Uçub gəlibdi yenə.
Eşq döyünür xəlbətdən,
Az qalır könül dinə.

Uşaqlar oynaşırlar,
Otların arasında.
Diləklər qaynaşırlar,
Gözlərin qarasında.
15. 02. 2005

11 HİSSƏ

BALALAR BALDAN ŞİRİN

ƏZİZ

Əzizin yeddi yaşı,
Yaman qarışıb başı,
Tutub əldən qardaşı,
Gedir məktəbə sarı,
Ayağlayır ağ qarı.

Bulaşmasın çəkməsi-
Yox oynamaq həvəsi.
Uşaqların gur səsi
Əzizə qanad verir,
Qar topası dad verir.

Çantasın atır qara,
Qızışır bu an ara,
O, qarı yara-yara,
Dostlarına qar atır,
Özüsə yerə yatır.

Necə xoşbaxt bu anlar?
Körpələr nə dil anlar?

Coşur damarda qanlar,
Bu zəngin çox gur səsi,
Tələsdirir hər kəsi.

Çantasın ələ alır,
Özün səhmana salır,
Uşaqlar dalda qalır,
Gedir məktəbə Əziz,
Deyil ki, bəbə Əziz?

21. X11.1997

KƏRİM

Çantasın çiynə çatır,
Özünü çölə atır,
Yenə aləmi qatır,
Məktəbə getmir niyə?
Dərsini etmir niyə?

Dəcəllikdə tayı yox,
Sevir oynamağı çox,
Coşub, qaynamağı çox,
Dincəlməyir heç zaman,
Kərim dəcəldir yaman.

Topun əlindən qoymaz,
Ayağın evə qoymaz,
Bir saat da uyumaz,
Qışqırıb hay-küy salır,
Dərsində dala qalır.

Bu balaca dəcəlin,
Top qabar edib əlin,
Heç kim bilməyir dilin,
Salır hay-həşir hər gün,
Atılıb-düşür hər gün.

15. 02. 2005

ARİFİN YAŞIL TOPU

Arif yaşıl topunu,
Otların üstə salır.
Qəfil itirir onu,
Dərin xəyala dalır.

Qaçır oyan-buyana,
Topdan əsər görməyir.
Yaman ah çəkir cana,
Qəmin qolun gərməyir.

Bu an körpə qızcağaz
Əlində top səslənir.
Arif döyükür bir az,
Ürəyi qəfəslənir.

Yaşıl topunu, görür,

Körpə tutub əlində.
Ürəyi sevinc dərir,
Şadlıq eşqi dilində.

O topa tərəf qaçır,
Qız topu qucaqlayır.
Arif körpəyə acır,
Qız qışqırır, ağlayır.

Arif yaşıl topunu,
Bağışlayır bu qıza.
Uşaqlar görür bunu,
Arif dönür ulduza.
15.02. 2005

CAVİD VƏ QARANQUŞ BALASI

Bir qaranquş balası,
Düşür yerə yuvadan.
Anası qurur yası,
Can asılır havadan.

Qışqırıb hay-küy salır,
Qıy vurub qanad çalır,
Səsə boylanır Cavid,
Yeri haylanır Cavid.

Görür bala qaranquş,
Düşüb eyvanda yerə.
Hey çırpınır ana quş,
Eyvan ona bir dərə!

Cavid quşun balasın,
Qoyur öz yuvasına.
Can tapanda qalasın,
Dil çatır duvasına.

Quş Cavidin başının
Üstündə dövrə vurur.
Tökülən göz yaşının
Sevincinə toy qurur.
15. 02. 2005

GÜLŞƏN

Gülüşü dodaqda bal,
Üzü lalədən də al,
Öldürər canı bu hal,
İncə gülüşlü Gülşən,
Kəklik yerişli Gülşən.

Təzətər ətirlisən,
Aləmdə xətirlisən,
Zülfləri çətirlisən,
Telləri ipək Gülşən,
Gözəllikdə tək Gülşən.

Dilindən bal süzülür,

Şirin sözlər üzülür,
Saçına gül düzülür,
Əlində həna Gülşən,
Gözləri rəna Gülşən.

Tər çiçəksən çəməndə,
Düzlər düşüb kəməndə,
Ananın gözü səndə,
Dəcəllik etmə, Gülşən,
Uzağa getmə, Gülşən.

Kəmərlə çək belini,
Bur qapqara telini,
Hər an şirin dilini
Qat şəkər-bala, Gülşən,
Nə gözəl bala Gülşən?
22. X11. 1997

ƏMİNƏ

Qız, sənin halın gözəl,
Ağıl-kamalın gözəl,
O ay cəmalın gözəl,
Gəl mənə yan Əminə,
Əminə, can Əminə.

Zülflərin qulac-qulac,
Hörüyünü bir-bir aç,
Günlər ötür, yox əlac,
Sənə qurban Əminə,
Əminə, can Əminə.

Bir çiçək üzün, bala,
Telə gül düzüm, bala,
Qalmadı dözüm, bala,
Eyləmə qan Əminə,
Əminə, can Əminə.

Burlaxatuntək boyu,
Şən röyalarla uyu,
Hardan gözəllik suyu-
Dəydi üzə Əminə?
Əminə, can Əminə.

Güllərə sona, qızım,
Bürün ağ dona, qızım,
Olasan ana, qızım,
Gələ o an, Əminə,
Əminə, can Əminə.
22. X11. 1997

BRİLYANT

Hamıdan mehribanım,
Sən mənim şirin canım,

Damardan axan qanım,
Qələm qaşlı Brilyant,
Xoş baxışlı Brilyant.

Qardan bəyaz əlinə,
Bala oxşar dilinə,
Nazik, incə belinə,
Heyran özüm, Brilyant,
Görən gözüm Brilyant.

Nə istidir baxışı?
Əridər qarlı qışı,
Yerin ürəyim başı,
Dadım-duzum Brilyant,
Bəxt ulduzum Brilyant.

Adın üzüklər qaşı,
Sevgi, məhəbbət daşı,
Özün gözəllər başı,
Böyü qızım Brilyant,
Dan ulduzum Brilyant.

Üzüntək bəyaz gecə,
Dilində sözün incə,
Küsmə, incimə becə,
Diləyimsən, Brilyant,
Ürəyimsən, Brilyant.

Gəl, bala, qəlb bağıma,
Sevinc tök otağıma,
Mehman ol ocağıma,
Allahdan bar Brilyant,
Könlümə yar Brilyant.
22. X11.1997

YEGANƏ

Dodağını büzmə gəl,
Ürəyimi üzmə gəl,
Məni gendə süzmə gəl,
Od vurma şirin cana,
Yeganə, can Yeganə.

Ürəkdə sözüm gəlləm,
Çağırsan özüm gəlləm,
Sinəmdə dözüm gəlləm,
Bala, gülsən ummanə,
Yeganə, can Yeganə.

Sarıışın saçın sünbül,
Özün bağçamızda gül,
Dilin nə tuti bülbül?
Kəmalın car hər yanə,
Yeganə, can Yeganə.

O utancaq baxışı,
Ceyran təki duruşu,
Pəri kimi qurluşu,
Gözəllikdə yeganə,
Yeganə, can Yeganə.

Uşağlığın havası,
Dodaqda süd duvası,
Gülsün könül yuvası,
Yet bala, xoş hər anə,
Yeganə, can Yeganə.

Azərbaycan qızısan,
Göylərin ulduzusan,
Ananın nə nazısan?
Qoyma ürəyim yanə,
Yeganə, can Yeganə.
22. X11. 1997

GÜLNAZIM

Sən ki, könül sazımsan,
Mənim nazlı qızımsan,
Göydəki ulduzumsan,
Dilimdə xoş avazım,
Gülnazım, ay Gülnazım.

Çiçəklər telin kimi,
Varmı bal dilin kimi ?
Ağ pəmbə əlin kimi,
Üzü tüldən bəyazım,
Gülnazım, ay Gülnazım.

Qaşların qara qələm,
Gözlərin də bir aləm,
Görməyəsən, dərd, ələm,
İncim, mirvarim, nazım,
Gülnazım, ay Gülnazım.

Çöllərin bənövşəsi,
Bağların külöyşəsi,
Həyatımın nəş'əsi,
Gül hüsnündən nə yazım?
Gülnazım, ay Gülnazım.

Dinlə, ana öyüdüm,
Demə, daha büyüdüm,
Qəmini ver üyüdüm,
Həm baharım, həm yazım,
Gülnazım, ay Gülnazım.
22. X11.1997

TƏHMİNƏ

Dodaqların badamı,
Heyran edir adamı,
Od qarışıb odamı?
Könül qalam Təhminə,
Nazlı balam Təhminə.

Ədəbli yerişinə,
İsmətli gülüşünə,
Layiqli hər işinə,
Heyran ollam Təhminə,
Nazlı balam Təhminə.

Bəxtimizin əzəli,
Özü ellər gözəli,
Hər sözündə məzəli,
Qoyma dolam Təhminə,
Nazlı balam Təhminə.

Ay çiçəklərin şahı,
Ay ömrümün sabahı,
Görməyəsən heç ahı,
Qurban ollam Təhminə,
Nazlı balam Təhminə.

Hər sözü yaraşıqlı,
Binadan yapışıqlı,
Ay üzü nə işıqlı?
Qadan alam Təhminə,
Nazlı balam Təhminə.
22. X11. 1997

GÜLNAR QIZIM

Gözlərimin qarası,
Hər dərdimin çarası,
Ürəyimin parası,
Həyat sənə yar qızım,
Ay mənim Gülnar qızım.

Ürəkdə odum oldun,
Ağızda dadım oldun,
Dünyada adım oldun,
Ömrə, günə var qızım,
Ay mənim Gülnar qızım.

Sən mənim nazım, bala,
Baharım, yazım bala,
Ay alın yazım, bala,
Könlü kaman, tar qızım,
Ay mənim Gülnar qızım.

Məktəbə həvəslə get,
Arzuya, mərama yet,
Sən məni bəxtəvər et,
Ömür yaman dar, qızım,
Ay mənim Gülnar qızım.

Dilində min bir hava,
Ürəyimdən qəm qova,
Dodaqlarında duva,
Allaha nübar qızım,
Ay mənim Gülnar qızım.
21. X11. 1997

LEYLA

Dodaqda süd qoxusu,
Dili dağların balı,
Gəlsə şirin yuxusu,
Qurban dünyanın malı.

Leyla, Leyla, gül Leyla,
Səni oxşar dil Leyla.
Yanağı lalədən al,
Özü qumaş-tül, Leyla.

Baxışı dan ulduzu,
Könlü ovlayar nazı.
Elimin mələk qızı,
Ata, ananın nazı.

Leyla, Leyla, can Leyla,
Qismətin xoş an Leyla.
Böyütsün səni anan,
Sən də ona yan, Leyla.

Ürəkdə yerin başda,
Sən qızlırın tacısan.
Nə şirinsən bu yaşda?
Pərvizə şən bacısan.

Leyla, Leyla, ay Leyla,
Ver həyata hay Leyla.
Evin birdanə qızı,
Olmaz sənə tay, Leyla.

Heç zaman gəlməz saya,
Könüldən qopan fəğan.
Olsun məndən Leylaya,
Bu dastacıq ərmağan.
14. X. 1995

NURİDƏ

Baharın dağ çiçəyi,
Qızların ən göyçəyi,
Vallah, sözün gerçəyi,
Od, atəşdir Nuridə,
Al Günəşdir Nuridə.

“ Qoy eşidilsin sədam,
Şair müqəddəs adam”.
Dedin - ay dili badam?
Qurban dilə Nuridə,
O pak elə Nuridə.

Dadlıdır şəkər sözü,
Baldan şirindir özü,
Tapmaq olarmı düzü -
Heç sənə tay Nuridə?
Nuridə, ay Nuridə.

Baxışı dan ulduzu,
Ev dolusu bir nazı,
Yurdumun nazlı qızı,
Qara telli Nuridə,
Tuti dilli Nuridə.

Hələ altıdır yaşı,
Ananın qəlb sirdaşı,
Vüqarın qız qardaşı,
Gözü mərcan Nuridə,
Nuridə, can Nuridə.

Qoy ellər alsın qadan,
Yandırıb-yaxsın ədan,
Zirvədən gəlsin sədan,
Dadım, duzum Nuridə,
Böyü qızım, Nuridə.
24. 04. 1995

XƏDİCƏ

Saçları qulac-qulac,
Hər hörük başına tac,
Hər telini bağla, aç,
Göylərə ay Xədicə,
Xədicə, ay Xədicə.

Əlində çantası var,

Kitablar könlünə yar,
Oxuyar, etməz ah-zar,
Yox sənə tay Xədicə,
Xədicə, ay Xədicə.

Gözləri par-par yanar,
Qəlbdə duyğu oyanar,
Şadlıqlara boyanar,
Ver könlə hay Xədicə,
Xədicə, ay Xədicə.

Nə gözəl camalı var?
Başında kamalı var,
Arzusu, amalı var,
Yox sənə tay Xədicə,
Xədicə, ay Xədicə.
14. 02. 2005

111 HİSSƏ

HEYVANLAR HAQQINDA MACƏRALAR

KÖRPƏ QUZUNUN VƏ AC QURDUN ƏHVALATI

Biri varmış, biri yox,
Mənzil uzun, sözüm çox.
Yamyaşıl yamac varmış,
Dağlar başında qarmış.
Baharın ilk çağında,
Sürü yox sol-sağında.
Tənhalıqdan üşümüş,
Anadan ayrı düşmüş.
Ağ qoyunun balası,
Anasıının qalası.
Özü ac, yamac yaşıl,
Yatırdı mışıl-mışıl.
Boz qurd da arxayınca,
Ləzətli iy alınca,
Qəfil yoxuşdan çıxdı,
Zənnlə ətrafa baxdı.
Tək balası yanında,
Ov həsrəti canında,
Boz qurd gəldi yamaca,
Yem lazım axı aca?
Gördü balaca quzu,
Çəmənin dadı, duzu,
Yaşıl yamacda yatmış,
Yuxu başını qatmış.
Qurd balasına baxdı,
Könlünü istək yaxdı.
Sükut gördü hər yanda,
O atıılıb bir anda,
İstədi didsin onu,
Olsun quzunun sonu.
Quzu bu an ayıldı,
Qurdu görüb bayıldı.

Yazıq-yazıq büzüşdü,
Canına qorxu düşdü.
Sanki Xaliqdən bir səs,
Öldürdü onda həvəs.
Qurda mərhəmət gəldi,
Könlünün için dəldi.
O, quzudan ötdü yan,
Xilas oldu körpə can.
Baxdı heçnə demədi,
Qurd quzunu yemədi…
9. 04. 2000

SİÇAN BALALARININ HİYYLƏSİ

Siçan gül balaları,
Dünyada şirin varı,
Yığdı başına bir gün,
Qəlbdə kədəri düyün.
Dedi:-bir aya yaxın,
Bizim yuvaya yaxın,
Bir pişik ev tikibdi,
Bağrıma qəm tökübdü.
Canımda var vəlvələ,
Bu olmasın bir tələ.
Ehtiyatlı davranaq,
Bu bir təhlükə, qanaq.
Balalarından biri,
Hamıdan canlı, iri,
Dedi:- ana qəm yemə,
Bizə çəkinin demə.
Viran edib evini,
Bu dünyanın divini,
Qaçırdarıq buradan,
O da çıxır aradan.
Siçanın balaları,
Mənzil böyük, gün yarı.
Çalışıb, vuruşdular.
Sanki lap yarışdılar.
Özülü çox ovdular,
Torpağın sovurdular.
Çökdü pişiyin damı,
Qaçdı siçanlar hamı.
***
Pişik evindən çıxdı,
Çaşqın ətrafa baxdı.
Düşündü zəlzələdi,
Bilmədi bu tələdi.
Başın götürüb qaçdı,
Ayrı yerdə yurd açdı.
Siçan və balaları,

Dəf etdilər ah-zarı.
Yaşadılar firavan,
İşləri getdi rəvan…

Belədir dünya işi,
Əzəldən haqq gərdişi,
Səadət birlikdədi.
Sadə ömürlikdədi.
9. 04. 2002

AYI BALASININ HEKAYƏSİ

Deyirlər ki, cüssəli,
Bir az da coşqun, dəli,
Ayı meşəyə yarmış,
Üçcə balası varmış -
Zirək, Dirək və Yüyrək,
Ata, anaya ürək.
Yüyrək bir qədər çılğın,
Yan qoyardı ayağın-
Anasından kənara,
Edərdi günü qara.
Hara gəldi qaçardı,
Ailəyə dərd açardı.
Yüyrək yenə bir səhər,
Dili acı, bir təhər,
Anasına edib ərk,
Eylədi yuvanı tərk.
Mənzil uzun yol uzaq,
Havada çiskin, sazaq.
Bir cığırı göz etdi,
Düşdü izə və getdi.
Yolda onu tutdu sel,
Sanki qanadlı bir yel,
Yüyrəyi aldı qaçdı,
Başına bəla açdı.
Düşdü gur suya Yüyrək,
Puç oldu arzu, dilək.
Qopdu sinəsindən hay,
Özütək batdı haray.
Gur sularda boğuldu,
Qışqırıığı dağıldı -
Gur suların üstünə,
Sellər durdu qəsdinə.

***

Yüyrək səhv addım atdı,
Azğın daşqında batdı.
Eşitmədi anasın,
Sular da qurdu yasın.
Əgər ayı balası,
Olub anaya ası,
Yuvadan getməsəydi,
Yel olub itməsəydi,
Anasıının dadıydı,
Bəxtəvər övladıydı.
Böyüyün sözü uca,
Layiq şərəfə, taca.
Ağ olarsan üzünə,
Bu qayıdar özünə.
9. 04. 2000

LOVĞA XORUZUN HEKAYƏSİ

Bir səhər xoruz qalxdı,
Toyuqlara tərs baxdı.
Dedi:-səbəb yox naza,
Yığılmışam boğaza.
Sizin söz-söhbətiniz,
Hər cürə qiybətiniz,
Canımda hal qoymadı,
Heç qarnınız doymadı.
Bumu həyatın dadı?
Özümə hin tikəcəm,
Yanında bağ əkəcəm.
Hər gün sizi yoxlaram,
Himayəmdə saxlaram.
Toyuqlar ağlaşdılar,
Xoruza bağlaşdılar.
Atıb bizi hin tikmə,
Sinəmizə dağ çəkmə.
Bapbalaca cücələr,
Tək nə edər gecələr?
Ay xoruz imdad elə,
Atma bizi sən belə.
Bizi tülkü aparar,
Hində tufan qoparar.
Biz qalıırıq yiəsiz,
Çökürük qarşında diz.
Xoruz dedi:-bu əmir!
Çıxarmayın səs-səmir.
Mənəm sizin şahınız,
Yerdəki Allahınız.
Qəlbdə toyuqlara kin,
Toyuq tikdi ayrı hin.
Yanında saldı bir bağ,
Və kefi damağı çağ.

***

Xoruzun tək qalması,
Ayrı məkan salması,
Tülküdən yan keçmədi,
Öylə zaman keçmədi,
Gəldi qaranlıq axşam,
Eyləməkçin tülkü şam,
Gözaltda aldı onu,
Çatdı xoruzun sonu.
Hinin ağzında durdu,
Xoruza tələ qurdu.
Qazıdı dərin çala,
Qurdu özünə qala.
Yol açdı hinə tülkü,
Bilmədi qorxu - hürkü.
Tutub xoruzu yedi,
Özünə əhsən dedi.
Xoruzun bu hikkəsi,
Külfətlə mərəkəsi,
Özünü məhv elədi,
Loğvalanmaq belədi.
Dünyada haqq əbədi.
Bu həyatın mə'bədi -

Daim yaxşılıq etmək,
Can deyib, can eşitmək.
10. 04. 2000

CIRCIRAMA İLƏ QURBAĞANIN DOSTLUĞU

Cırcırama bir axşam,
Hələ eyləməmiş şam.
Bir gölün qırağında,
Kefinin xoş çağında,
Vurdu otlara dizin.
Oxudu həzin-həzin,
Göldən çıxan qurbağa,
Baxdı hey sola, sağa.
Görmədi hes bir kəsi,
Çəkdi içə nəfəsi.
Səs yenə də ucaldı,
Qurbağa çaşbaş qaldı.
Dedi:-məntək oxuyan,
Nəfəsi gül qoxuyan,
Yoxdu bu məkanımda,
Bu mənim imkanımda.
Kimdi belə yanımda?
Necə gözəl sədalı?
Həm işvəli, ədalı.
Cırcırama özünü,
O zərifcə üzünü,
Göstərdi qurbağaya,
O qürurlu ağaya.
Dedi:-məni sal saya,
Gəl, tənhayam yet haya.
Tək sənin mi səsin var?
Belə xoş nəfəsin var.
Məni Tanrı yaratmış,
Səsimə şəkər qatmış.
İstəyirsən dost olaq,
Birgə ərzə səs salaq.
***
Qurbağa çox şad oldu,
Qəlb evi abad oldu.
Səs-səsə verdi onlar.
Alışdı şövqlə canlar.
Necə artdı həvəslər,
Coşdu eşqlə nəfəslər.
Qurbağa, cırcırama,
Dosluqda yetdi kama,
Birgə oxuyub hər gün,
Saldılar gölə səs, ün.
Əhdi peyman etdilər,
Xoş mərama yetdilər.
Siz də yetişin kama,
Əhdi unutmun amma.
Sözündə düz olanın.
Allah qoruyar canın.
10. 04. 2000

SADƏLÖVH MİLÇƏKLƏ HÖRMÜRÇƏYİN HEKAYƏTİ

Öz torun toxuyub hörmürçək bir gün,
Vurdu yuvasının ağzına düyün.
Sakitcə çəkilib o bir kənara,
Düşündü, sükuta qərq olsun ara.
Səbirlə, təmkinlə ovun gözlədi,
Əlini, üzünü çox təmizlədi.
Birdən uçdu gəldi sadəlövh milçək,
Dayandı yuvanın ağzındaca tək.
Hörmürçək milçəyə dedi:-dost olaq,
İstəsən yuvada biz birgə qalaq.
Təklik sıxır mənim könlümü çox vaxt,
Gəl birgə ömür edib, biz olaq xoşbaxt.
Sədəlövh milçəyin artdı heyrəti,
Dedi:- ey hörmürçək, fikirin qəti?
Hörmürçək dilini salaraq işə,
Dedi:- bu peymana etmə əndişə.
İkimiz bir yerdə yaşasaq yaxşı,
Bu tor evimizin gözəl naxıışı.
Milçək ayağını basdı yuvaya,
Gördü ki, tuş olub naləyə, vaya.
Hörmürçək ovundan gəldi ilhama,
Onun bədənini tez çəkdi kama.
Biçarə milçəyin qəfəsi qaldı,
Hörmürçək milçəyin canını aldı.

***

Namərdin dilinə aldanma heç vaxt,
Aldansan qaraya boyanacaq baxt.
Dünyanın gedişi əzəldən belə,
Sadəlövh bəxtiyar olmayıb hələ…

10. 04. 2000

QARIŞQA İLƏ FİLİN ƏHVALATI

Fil öz sürüsü ilə cəngəliyə şah idi,
Ordakı heyvanlara, sanki bir Allah idi.
Səsi çox qüdrətliydi bütün səhranın zəngi,
O yerlərin sultanı, o yerlərin nəhəngi.
Saymazdı heç bir zaman nə şiri, nə pələngi,
Döyüş vaxtı onlarla qurardı qızğın cəngi.
Fil yenə bir talada arxayın dincəlirdi,
Bu zaman nə isə bir şey qulağını dəlirdi.
Tərpədərək başını fınxırdı ilxısına,
Oynadaraq quyruğun çəkdi bircə an qına.
Birdən lap qulağında qarışqa cilvələndi,
Dedi:-səhralar şahı qəzəblənmisən nədi?
Mən sənin qulağında yatıram neçə vaxtdı,
Qurmuşam nə müddətdi orda üzümə taxtı.
Ən sakit, ən qorxusuz yerdi sənin qulağın,
Yerin verməz dünyada mənə heç barlı bağın.
Fil qalxaraq yerindən ləngər vurdu bircə an,
Qarışqanın sözündən oldu ürəyi büryan.
Dedi:-sənin nə həddin yatdın fil qulağında?
Fərmanımın, hökmümümün bu atəşli çağında.
Qarışqa dedi :-ey fil, çatsa əgər hünərin,
Məzaların içində məzarım olsun dərin.
Ayağın altı mənim varlığıma tikandı,
Qulağının içisə ən sakit bir məkandı.
Nə qarışqa qulaqdan bir ayrı yuva bildi,

Nə də fil qarışqanı qulaqdan qova bildi.
Qarışqa heç bir zaman ayrı yerə getmədi,
Fil ilə qarışqanın mərəkəsi bitmədi.

10. 04. 2000

NƏVƏYLƏ PAXIL PİŞİYİN HEKAYƏSİ

Deyirlər ki, nənənin bir nəvəsi var idi,
Taleyinə bəxtinə, sanki o bahar idi.
Nənə öz nəvəsini candan əziz bilərdi,
Onunla əylənərdi, onunla da gülərdi.
Nə zamandı pişik də evə olmuşdu sakin,
Nənənin sevgisinə onda yaranmışdı kin.
Dadlı yeməklərini nənə nəvəyə verər,
Bu da paxıl pişiyin qollarını lap gərər.
O düşündü, imkanım nə vaxt düşərsə ələ,
Könlüm necə istəyir alaram qisas elə.

Bir fürsət axtarırdı bu qızı cırmaqlasın,
Balaca qızcağazın şad qapısın bağlasın.
Nənənin sinəsini yaxşıca bir dağlasın.
Bu istəkli balaca doyunca qoy ağlasın,
Çünki, o, nəvəsini yedizdirir həmişə,
Mənim də ürəyimdə məskən salıb əndişə.
Ən yaxşı yeməklərə tamarzı qoyur məni.
Elə hey yedizdirir, yedizdirir nəvəni.
Alaram qisasımı sonra çıxıb gedərəm,
Onların ürəyini param-parça edərəm.
Düşünərək yaxşıca elə fürsət aradı,
Xainlərin həmişə qəlbi, fikri qaradı.

***

Bir gün nənə bağçada gülləri sulayırdı,
Birdən qəfil səs onu öz işindən ayırdı.
Qaçdı nənə tez evə görsün nə olub orda?
Gördü qızcağaz yazıq, üzü qan, ahı-zarda.
Pişik cırıb nəvənin üzünü qaçıb getdi,
O yediyi çörəyə yaman xəyanət etdi.

10. 04. 2000

YUVASINI İTİRMİŞ ARI BALASININ HEKAYƏTİ

Bir gün arı balası verdi hamın yuxuya,
Qaçdı ki, özün təkcə gül-çiçəyə toxuya.
Bağların, bağçaların arasıyla uçuşdu,
Sarı kəpənək təki ora-bura qaçışdı.
Yuvaya dönmək üçün gəldi məqam yetişdi,
Arının ürəyinə yaman vəlvələ düşdü,
İtirmişdi arılar yaşadığı o mülkü,
Düşdü canına birdən yamanca qorxu-hürkü.
İnilləyib havada anasını səslədi,
Tapmaqçın pətəkləri yenə ümid bəslədi.

Çırpdı arı balası min yol özün sol, sağa,
Sığındı üşüyərək gülləri açmış bağa.
Nəfəsini dərərək yapışdı çiçəklərə,
Solmuş qanadlarıyla toxundu ləçəklərə.
Şeh düşmüşdü hər yana, sanki yağış yağırdı,
Vücudunu bükərək anasını çağırdı.
Ana arı harayı eşidib uçub gəldi,
Balanın ürəyindən ağrı-acını dəldi.
Addığı səhv adddıma bala arı peşiman,
Utandı anasının gözünə baxan zaman.
Dedi:-bir də, ay ana, çıxmaram heç sözündən,
İcazə ver, qoy öpüm bir doyunca üzündən.
Ana gülüb balasın sıxdı qanadı alta,
Bala arı göz açdı lap təzədən həyata.

10. 04. 2000

DƏCƏL KEÇİNİN YİYƏSİNDƏN KÖTƏK YEMƏSİ

Bir dəcəl keçi vardı,
Bilməz ya qış, bahardı?
Gəzib çəməni, düzü,
Doyanadək o gözü,
Dolaşardı yamacı,
Sanki düzlərin tacı.
Sahibin incidərdi,
Ürəyini didərdi.
Cana yığılan yiyə,
Keçini döyə-döyə,
İp salıb ayağına,
Qatdı öz qabağına.
Keçini çox danladı,
Onu lap yamanladı.
Keçi gələrək dilə,
Söylədi ona belə -
Bilirəm, sahibimsən,
Vəfalı rahibimsən.

Heç kəs gəlməz mənlə tən,
Gəzməsəm ölərəm mən.
Bağ, bostan könlüm içi,
Neyləyim adım keçi?…

10. 04. 2000

MEYMUNLA ZÜRAFƏNİN MACƏRASI

Günlərin bir günündə,
Yaz öz toy-düyünündə.
Dərisi şux qiyafə,
Balaca bir zürafə,
Ayrılıb anasından,
İtdi el sırasından.
Yola düşüb düz getdi,

Dərə, təpə, düz getdi.
Ayrı səhraya çatdı,
Könlünə şadlıq qatdı.
Bu yerin pələngi var,
Fil təki nəhəngi var.
Düşündükcə bunları,
Gəldi qorxu anları.
Titrədi lap qıç-qolu,
Azdı gəldiyi yolu.
Cəngəllikdə vəhşilər
Onu oda düşürər.
Birdən bir budaq üstə,
Gördü meymun əhəsiə,
Yaşıl yarpağı yeyir,
Ağzında nəsə deyir.
Meymun da bu ərəfə,
Gördü gözəl zürafə,
Çox çaşqın baxır ona.
Ürəyi yana-yana,
Meymun dedi:- zürafə,
Xoş gəldin bu tərəfə.
Gəl birləşək bu yerdə,
Düşmə bu qədər dərdə.
Sənin boynun uzundu,
Hər budaq ulduzundu,
Mən də ağac başında,
Budaqların qaşında.
Can deyib can eşidək,
Könlümüzü şad edək.
Mən sənə yarayaram,
Hər yerdə arayaram.
Əl-ələ tutuşdular,
Bu yerdən ötüşdülər.
Çıxdılar uzun yola,
Zürafə dola-dola,
Dedi ki, sən qınama,
Apar məni anama.
Bizimlə birgə qalaq,
Bir yerdə məskən salaq.
Onlar razılaşdılar,
Neçə məkan aşdılar.
Uçdular lap yel kimi,
Çay içində sel kimi.
Üz qoydular bir aya,
Başdan-başa səhraya,
Ülfət düşdü araya.
Meymun ilə zürafə,
Getdilər hər tərəfə.
Sonra böyük talada,
Zürafələr orada-
Sürüylə otlayırdı,
Bir ana da sürüdən
Ah-uf edərək birdən-
Gözərini ayırdı,
Onu ölmüş sayırdı…
Birdən zənn ilə baxdı,
Sinəsin atəş yaxdı!
Gördü gəlir balası,
Unutdu dərdi, yası,

Qaçdı balaya sarı,
Gəldi əhdi-ilqarı.
Gördü meymun yanıda,
Ülfət eşqi canında.
Bu dosluğa şad oldu
Ürəyi abad oldu.
Zürafələr sevindi,
Yer, göy nəş'əylə dindi.
Qovuşdu ana, bala,
Bu dosluq bir mərd qala.
Ürəklərində yandı,
Onlar pozmadı andı.

Biz də əhdə yar olaq,
Dünyaya gülzar olaq.
11. 04. 2000

ÖMÜR BƏXTƏ DÜŞƏN DƏMDİ

KÖNLÜ DİRİLTMƏYƏ HAVA ÇATMAYIR…

Bu nə işgəncədi, nə qəmdi, Allah,
Haqqıma yetməyə duva çatmayır.
Ocağımın közü aləmdi, Allah,
Əllərim bir hovur qova çatmayır.

Torpaqdan qaçıram göy məni almır,
Alıb buludunun içinə salmır,
Onsuz da bu dünya heç kəsə qalmır,
Səmadan kimsəyə yuva çatmayır…

Ağrılar dikəlib boy-boy içimdən,

Asılıb ürəyim bir qırıq simdən,
Hər dilək sorğusuz keçir biçimdən…
Şeytanı cəhd edir ova çatmayır.

Karvan-karvan sözüm dillə öcəşir,
Baş bədən üstündə salır hay-həşir,
Qəlbimin qapısın əzrayıl eşir,
Könlü diriltməyə hava çatmayır!

Bu dünya qəm yükü – görənlər bilir,
Xəzan meyvəsini dərənlər bilir,
Şadiman, haqq qolun gərənlər bilir,
Dilləri haqq sözə-sova çatmayır.

30.X.2003

MƏNİ BU ÜRƏKDƏN QURTAR, ALLAHIM

Ağrılar içində çırpınır canım,
Keçməyir ələmsiz dəqiqəm, anım,
Sorsanız yuvamı, qəmdir ünvanım?
Zalım fələkdənmi böylə divanım?
Ələm könlə sitəm tutar, Allahım,
Məni bu ürəkdən qurtar, Allahım.

Əlləri qandallı məhbusam, talan,
Çiynimdə qəm yükü, ah dolu palan,
Bəşərin fitnəsi, yalanı kalan,
Nə gördü dünyaya yolunu salan?
Bəxtim qapımdaca yatar, Allahım,
Məni bu ürəkdən qurtar, Allahım.

Görmədim dünyada könül kamlığı,
Söndü həyatımın tale şamlığı,
Məni aha saldı qəlb ilhamlığı,
Tikdikcə uçuldu ömür damlığı,
Gözüm bağrı selə atar, Allahım,
Məni bu ürəkdən qurtar, Allahım.

Təbimi içimdə boğa bilmədim,
Buludtək dolanda yağa bilmədim,
Düşdüm necə, hansı çağa bilmədim?
Ünüm nə vaxt sənə çatar, Allahım?
Məni bu ürəkdən qurtar, Allahım.

Sanma, Şadimanı dərdə vəfadar,
Hər ahın içində can fəryadı var…
Bürüyüb dünyanı qəm dolu ah-zar,
Oldum əzablardan, zülümdən bezar,
Qəm könlü özünə qatar, Allahım,
Məni bu ürəkdən qutar, Allahım.

26. X. 2003 / Pirallahı

YAŞAMAQ NƏ MÜSİBƏTDİ ?

Haqqımı şər yağı etdi,
Qəminə eşq dağı etdi,

Hər misramdan ağı etdi,
Qandalının bağı etdi,
Sevdiyinə can həsrətdi,
Yaşamaq nə müsibətdi?

Ürəyimdə qəm kotanı,
Səsi qoymaz heç yatanı,
Soldu könül gülüstanı,
Xəzan alıb qəlb bostanı,
Fələklərə bir hiddətdi,
Yaşamaq nə müsibətdi?

Yerdən göyə haray saldım,
Hay içinə min hay saldım,
Yazıq bağra çox vay saldım,
Təbdən qəmə saray saldım,
Yaradana itaətdi…
Yaşamaq nə müsibətdi?

Ömür Rəbbə yanan şammış,
Varlığıyla bəşər tammış,
Ürəklərə qalan kammış,
Həyat qəmlə dolu dammış,
Bir anlıq da səadətdi…
Yaşamaq nə müsibətdi?

Ey Şadiman, susma belə,
Doğulmadın elə-belə,
Çağlat sözü düşsün elə,
Ötən quşlar versin yelə,
Təbin yeri nə xəlbətdi?
Yaşamaq nə müsibətdi?
26. X. 2003 / Pirallahı

GECƏDƏN SÜBHƏ QƏDƏR

Gecədən sübhə qədər
Yuxu getmir gözümə.
Ağrılar yaxmır hədər
Atəşləri közümə.

Duyğularım xəyalla
Daşları yarıb keçir.
Yüklənir qeylü-qalla
Könlümü sarıb keçir.

Gecədən sübhə qədər
Ağrıma qul oluram.
Könlü bürüyür kədər
Yükünə çul oluram.

Hisslərim, duyğularım
Sitəmlərdən qovrulur.
Artır can qayğılarım
Gecəm göyə sovrulur.

Sinəmdəki diləklər
Tel çəkir sabahıma.
Zaman vaxtı ələklər

Bataram günahına.

Günlərimin ağrısı
Ürəyimə iz salır.
Zaman ömrün oğrusu
Qıfılına biz salır…
15. X. 2003

ELƏ DOLMUŞAM Kİ, TƏNHA BULUDTƏK

Elə dolmuşam ki, tənha buludtək,
Ağrımı, acımı yellər üşüdür.
Ürəyim ağlayır yanıqlı udtək,
Mizrabın sızlayan tellər üşüdür.

Könüldən asılı qalıb qəm daşım,
Ağlımın ahına dözməyir başım,
Dəryanı daşdırır acı göz yaşım,
Bəbəyi çağlayan sellər üşüdür.

Bir sevda quşuyam dünya bağında,
Fəraqım dil açır can yarpağında,
Duman tül toxuyur ömür dağında,
Zamanı köç edən illər üşüdür.

Hicrana tuş gələn bəxtim hay çəkir,
Ağlım zülümlərdən hər gün vay çəkir,
Göyün hönkürtüsün dəli çay çəkir,
Gurşadın tənini çöllər üşüdür.

Basıb bağırına qəm, ələm məni,
Ovudur həm kağız, həm qələm məni,
Atır dəryasına bu aləm məni,
Ruhumun sonasın göllər üşüdür.

Saplanıb qalmışam kor zamanıma,
Vicdanım qol-boyun, yar imanıma,
Bir kimsə yetişmir ah, amanıma,
Qəlbin harayını ellər üşüdür.

Şadiman, təb qurub təbimlə sevda,
Onun duyğuları ruhuma qida,
Ağlım bu sevgiyə etməyir vida,
Qələmi titrəyən əllər üşüdür.
12. X1. 2003

ETMƏ KÖNLÜ MƏKAN, QƏMİM

Etmə könlü məkan, qəmim,
Məkanında can ağlayır.
Ürəyimə sükan, qəmim,
Sükanında an ağlayır.

Hər ağrını azar etdin,
Qəlbi elə məzar etdin,
Ömrü, günü bazar etdin
Bazarından şan ağlayır.

Canı sənə peyman dedim,

Tanrı təki iman dedim,
Ağılıma fərman dedim,
İmkanından qan ağlayır.

Qəmim, nədir böylə savaş?
Ürəyimdən asılıb daş,
İnildəyir tən üstə baş,
Təkanından san ağlayır.

Sübhdən göyün bağrı lalə,
Fəraqından çəkir nalə,
Tikanların ərşə qalə,
Tikanından dan ağlayır.

Şadimana dağsan, qəmim,
Ələmlərə çağsan, qəmim,
Damarımda sağsan, qəmim,
Ərkanından qan, ağlayır.
12. X1. 2003

ÜRƏYİMDƏ DİLƏKLƏRİM SELLƏR TƏKİ

Ürəyimdə diləklərim sellər təki daşar keçər,
Könlüm oynar zirvələrdə havalanıb coşar keçər,
Bağrın için yaxar atəş ocağında alışaram,
Xəyallarım kainatın ölçüsünü aşar keçər.

Künəş udar atəşimi teştə düşüb qovrularam,
Hissə-hissə, zərrə-zərrə od içində sovrularam,
Alar könlü ərzin buzu damarımda qanım donar,
Gözlərimin göyü dolar, yanan qəlbi nə sularam?

Bu taleyə qul olandan tale məni ovutmadı,
Zamanımın ağrısını ümidiylə sovutmadı,
Gecələrdən can gizlətdim yuxu başa qəfəs oldu,
Ruhum məni atdı getdi, könlü əldə heç tutmadı,

Can bədəndən üzüləndə hıçqırıqım fəryad oldu,
Dilimdəki ilk sədalar Yaradana imdad oldu,
Hər atəşin öz yanğısı, hər yanğının öz atəşi,
Ömür qaçdı məndən uzaq, saatlarım bərbad oldu.

Sübhün gözü otağıma al günəşin saldı keçdi,
Baxışıyla göz eylədi küskün qəlbi aldı keçdi,
Gözəl sabah şəbnəm səpdi pəncərəmin şüşəsinə,
Sinəmdəki duyğuları kaman təki çaldı keçdi.

Hisslərimin ağuşunda arzularım qanad saldı,
Üzü güldü diləklərin, aman Allah, nə vüsaldı?
Bəmdən zilə, zildən bəmə könül simim havalandı,
Qartal təki qayalarda yenə könlüm yuva saldı.

Ağrılardan qopub düşən əzablara ölçü oldum,
Haqqın hicran qapısının daşı üstə elçi oldum,
Duyuq düşdü yamanlıqlar, Şadimanı yaxdı ahda,
Üzü güldü taleyimin, onun möhnət içi oldum…
20. X1. 2003

ÜRƏYİM BÜRÜNÜB AHA, FƏRYADA

Ürəyim bürünüb aha, fəryada,
Fəqanım göylərdən çəkilmir yerə.
Könlüm asimana saplanmış ada…
Daşı parçalanıb tökülmür yerə.

Kədər buludları qəlbdə çaxnaşır,
Sinəmdə ağrılar qaynayıb daşır,
Zirvədən-zirvəyə neçə dağ aşır,
Qopub sıldırımdan əkilmir yerə.

Mən əzab çəkdikcə qəm cilalanır,
Ağrısı böyüyür, qeylü-qallanır,
Dillərdə taleyim elə hallanır,
Əyilib ikiqat bükülmür yerə.

Dumanın gözünü bəyaz tül açır,
Ocağın közünü, bə'zən kül açır,
Həyatın acısı canda gül açır…
Tən əzaba dözür çökülmür yerə!

Şadiman, bu dünya bir imtahandı,
Ağrıyan ürəkdi, əzilən candı,
Doğulan nə bilsin ömür divandı?…
Hər bədən boş yerə sökülmür yerə.

12. X1. 2003

GECƏNİN SÜKUTUNA DOLAŞIB ZAMANIM

Gecənin sükutuna dolaşıb zamanım,
Könlümü bürüyüb hicran dumanım,
Sapsarı işıqlara bənzər,
Ürəyimi gəzər,
Dünənin xəyalları…
Bütün vücudumu üşüdür qeylü-qalları,
Möhnətə açılıb anlarım,
Bitib tükənməyən gecə divanlarım,
Zülmətin zümzüməsinə ulduzlar göz-göz durub,
Ay o tərəfdə boynunu burub,
Kainat dərin xəyala dalıb,
Bütün duyğuları əlinə alıb.
Mənimlə üzbəüz qalıb…
Sükütla mən,
Gecənin şehli gözündə çən.
Bütün vücuduma ələnir,
Bir körpə uşaq təki ruhuma bələnir,
Qoşulub istəklərimə telləşir,
Qələmim kağızla dilləşir,
Bəbəklərdə hicran yaşları selləşir,
Ürəyim ağrılarla əlləşir…
Təbim cana gəlir,
Qapımı döyür və mən olan ünvana gəlir.
Sevgililər təki qucaqlaşırıq,
Atəşimiz köz olur ocaqlaşırıq.
Duyğunu duyğuya calayırıq,
Sözlərdən tonqal çatıb od qalayırıq.

Gecənin sükutuna dolaşıb zamanım,
Bir dəli eşq ilə qaynayır qanım.
Arzudan arzuya yol açıram,
Əngin səmalara uçuram.
Gecəm mənə cəza,
Mən gecəmə qəza.
Hər ikimiz vadiləşirik,
Bütün zülmətlərə adiləşirik,
Saatım tələsir,
İçimdə rüzgarın acı yelləri əsir…
18. X1. 2003

AĞRILARIM BAŞ-BAŞA

Ağrılarım baş-başa,
Ürəyimə tamaşa,
Bürünüb zər-qumaşa,
Həyatıma ah deyir,
Hər aha sabah deyir.

Yeri-göyü yandır,
Zamanın dayandırır,
Təbimi oyandırır,
Könlümü nişan edir,
Halı-pərişan edir.

Möhnəti candan acı,
Qəlbimdə taxtı-tacı,
Qovurur bağrı sacı,
Tüstüsü ərşi qarsır,
Canı bədəndən asır.

Ağrılarım başa yük,
Dərdi özündən böyük,
Ürəyim əlində tük -
Qırılacaq, Allahım,
Söylə nədir günahım?

Əzabı candan keçir,
Ürəkdən, qandan keçir,
Zamandan, andan keçir,
Ovsunlayır həyatı,
Çapa-çapdadı atı.

Ağrılar can möhnəti,
Qəmi sevir xəlbəti,
Dərd imiş məhəbbəti,
Əzabıma yan deyir,
Qapımda dayan deyir.

Şadimanı odlayır,
İçində fəryadlayır,
Dolayları adlayır,
Qəlbini bərbadlayır,
Kəsib daha amanı,
Öldürməkdi gumanı.
12. X1. 2003

NƏDƏN SIZLAYIRSAN DİVANƏ, BÜLBÜL?

Nədən sızlayırsan divanə, bülbül?
Gəlmirsən bir dinə, imanə, bülbül,
Vermisən ömrünü fərmanə, bülbül,
Uyma gəl hərcayi peymanə, bülbül,
Sənin də mənimtək fəqanın qandı,
Həyatın hər üzü canə divandı.

Sən dərdə giriftar, mən dərdə açar,
Bu könül qapımı yalnız dərd açar,
Qalmışam müsibət əlində naçar,
Qəlbim qopub təndən yanına qaçar…
Ürəyim ələmə, qəmə ünvandı,
Həyatın hər üzü canə divandı.

Bülbül, elə acı zamanlarım var,
Sinəmdə ahlarım, amanlarım var,
Nəş'əyə, şadlığa gumanlarım var…
İlhamım çağlayır ummanlarım var,
Bəlkə bu harayın haqqa dəvandı,
Həyatın hər üzü canə divandı.

Gəl elə oxuma, can yanır axır,
Sinəmin fəryadın yandırıb-yaxır,
Könlüm buludlayır, şimşəklər çaxır,
Səni bura salan eşqə kəm baxır…
Zindan nə zamandan azad yuvandı?!
Həyatın hər üzü canə divandı.

İlhamım əsirdi bu məhəbbətə,
Çəkilək səninlə gedək xəlbətə,
Salmayaq misranı, təbi xiffətə,
Girək bir-biriylə tuti-söhbətə,
Elə vurğun oldum səntək afətə,
Dilinin cəh-cəhi qəmi qovandı,
Həyatın hər üzü canə divandı.

Dəmir sarayının qapısı bağlı,
Çırpınma, təntimə, itirmə ağlı,
Hərəyə bir cürdü həyat nağılı,
Sən dustaq, mən çöldə sinəsi dağlı!
Gözündən axan yaş dərdi yuvandı,
Həyatın hər üzü canə divandı.

Salma Şadimanı həvəsə, bülbül,
Belə eşq göstərmə qəfəsə, bülbül,
Aram et boğaza, nəfəsə, bülbül,
Vermə ürəyimlə səs-səsə, bülbül,
Deyərlər başında dəllik havandı…
Həyatın hər üzü canə divandı.

12. X1. 2003

YIXDI KÖNÜL MÜLKÜNÜ HİCRAN DOLU ƏNDİŞƏ

Yeri, göyu yandıran bu sitəm abad deyil,
Ürəyimin ahına fəqanlarım yad deyil,
Bağırımdan hayqıran imdaddı, fəryad deyil,
Qəlbimi ovutmağa tapmıram sakit güşə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Ömür atına minib zaman məni sürüdü,
Dərd yığıb qoşununu ətrafımı bürüdü,
Titrəyən duyğularım vaxt içində əridi,
Saat quduz qurd təki anları çəkdi dişə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Acıların içindən bəxtimə yol tapmadım,
Qəmimə oldum aşiq eşqə qala yapmadım,
Ömrün dolaylarında sağa-sola çapmadım,

Yar olmadı könlümə nə şadlıq, nə də nəş'ə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Əzablarım tükənmir, bu cahana qaç deyir,
Döyür həyat qapısın gəl qapını aç deyir,
Yan mənim alovuma atəşlərdə saç deyir,
Necə dözüm ömürlə edilən bu gərdişə?
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Şadimanın ahına inildəyir qələmim,
Məndən əvvəl doğulub bu dünyada ələmim,
Siz deyin yerlər, göylər necə imdad diləmim?
Ürəyimi taxırlar kabab təki hər şişə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

16. X. 2003

ÜRƏYİM AĞLAYIR KÖRPƏ UŞAQTƏK

Ürəyim ağlayır körpə uşaqtək,
Onu ovutmağa amanım yoxdu.
Könlümə dolanıb qəmlər qurşaqtək,
Niyə bir xoş gələn zamanım yoxdu?

Hönkürür gözümdə hicran yaşları,
Ağrılar sinəmin can sirdaşları,
Tökülür başıma ələm daşları,
Ondan qurtulmağa gumanım yoxdu.

Səadət bağıma ünüm çatmayır,
Bu yatmış bəxtimi ah oyatmayır,
Dərdləri tutmağa əlim yatmayır,
Zindana atmağa fərmanım yoxdu.

Ağlayıb yapışdım kor taleyimə,
Ahlarım çevrildi hicran neyimə,
Göy, yer tə'nə etdi bu gileyimə,
Mənim ki, qəmlərlə peymanım yoxdu.

Əzəldən sinəmdə dərd dolu teşt var,
Bu ömur yolunda nə keşməkeş var?

Cana bədən adlı kirayəkeş var,
Onun xilasına loğmanım yoxdu.

Siz ey həyatımı aha tutanlar,
Ömur qədəhimə zəhər atanlar,
Qəmimi öyrədib ara qatanlar,
Acı dərdlərimə dərmanım yoxdu.

Şadiman fələklə hər gün davada,
Dilinin harayı haqqa duvada,
Əllərim uzalı qalıb havada…
O könül ünvanım dərdlə yuvada,
Onu ovutmağa səhmanım yoxdu.

13. X1. 2003

MƏN BELƏ YAŞAYA BİLMİRƏM, ALLAH

Canım bədənimdən çıxır neyləyim?
Tənimə yağıtək baxır neyləyim?
Üstümdən qəm seli axır neyləyim?
Aləmi yandırıb-yaxır neyləyim?
Bu yükü daşıya bilmirəm, Allah,
Mən belə yaşaya bilmirəm, Allah.

Gözün gördüyünə göz gah-gah deyir,
Görürkən korluğun bir günah deyir,
Ağrını açılan hər sabah deyir,
Sinəm köz bağlayıb, könül ah deyir,
Yaramı qaşıya bilmirəm, Allah,
Mən belə yaşaya bilmirəm, Allah.

Can dərdə həvəskar, dövran naxələf,
İblis sinələr də haqqına xələf,
Edir ümidləri inamı tələf,
Lalə bitən yeri basır ot-ələf,
Nə deyim naşıya bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Sinəm haray çəkir, ağlım suçlanır,
Haqsız zamanədə ömrüm puçlanır,
Dərdim gillələnir, qəm ovuclanır,
Ağrımın cığırı aha uclanır,
Nə gələr qarşıya bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Buludlar toqquşdu leysanam dedi,
Yerlərə, göylərə lisanam dedi,
Torpağın bağrına ehsanam dedi,
Əfsus ki, hər yetən insanam dedi…
Bu adı daşıya bilmirəm, Allah,
Mən belə yaşaya bilmirəm, Allah.

Bu dünya can yükü – çəkənlər qəmi,
Bağrını nalədən – sökənlər qəmi,
Zülümün ayağına – çökənlər qəmi,

Bu yolda belini – bükənlər qəmi,
Daşmaya, daşa ya bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Ağlımız əsirdi ürək deyənə,
Hər an tərəzinin gözün əyənə,
Can dedik haqq, nahaqq başa döyənə,
Şərin əli keçib çoxdan yüyənə,
Aşmaya, aşa ya bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Şadiman, qəm qəlbə əzəldən qubar,
Könlün baharını etməyə nübar,
Harayım göy yırtıb, dil çalıb qabar,
Sinəmin məkanən təb edir anbar,
Coşmaya, coşa ya bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.
12. X1. 2003

FƏLƏKDƏN GƏLƏNƏ LOĞMAN NEYLƏSİN ?

Döyür qap-bacamı acı rüzgar,
Əsən tufanlara duman neyləsin?
Həyat yollarında qalmışam ögar,
Ağrıya-acıya aman neyləsin?

Bu dünya ah dolu qan çanağıymış,
Haqqın bəndəsinə bir qınağıymış,
Allahın adəmə can sınağıymış…
Bizi candan edən peyman neyləsin?

Dərd içdən boylanır, ağlımsa başdan,
Qurtula bilmirəm gözümdə yaşdan,
Rəbbim yaratmayıb ürəyi daşdan,
Ürəyi laxladan iman neyləsin?

Hər yerdə acı var, hər yerdə sitəm,
Sanki aşiq olub hər dərdə matəm,
Ağrılar verirlər anlara xitəm,
Bir Simurğa dönən zaman neyləsin?

Haqqın dərgahına əlim boylanır,
Sözü kabab olmuş dilim boylanır,
Misralar vərəqlər üstə oylanır…
Qapımda vaylanan fərman neyləsin?

Ürək yataqlarda qalan ahımdı,
İçimdən dikələn can günahımdı,
Tənə höküm verən şər allahımdı,
Bu həyat sandığım dərman neyləsin?

Bulma, ey Şadiman, dərdinə çarə,
Hər yarə içindən açar min yarə,

Gəlməz eylədiyin məlhəmlər karə,
Həkimlər arayan şəfa nəkarə?
Fələkdən gələnə loğman neyləsin?
10. X. 2003

QAYTARA BİLMƏYİRƏM

Hər axşam sübhə qədər çırpınıram, yataqda -
Yuxu gəlsin gözümə bir çarə bilməyirəm.
Gecənin zülmətiylə oynaşırlar otaqda,
Ürəyimi yerinə qaytara bilməyirəm.

Asimana üz tutur ulduzlarla öcəşir,
Göylə yer arasında salır lap haray-həşir,
Kilidlənir boğazım bütün vücudum üşür,
Ürəyimi yerinə qaytara bilməyirəm.

Anlarımın başına döyür dəli zamanım,
Heç bir şeyə qalmayır bu dünyada gümanım,
Əlim üzülür haqdan hıçqırır ah, amanım,
Ürəyimi yerinə qaytara bilməyirəm.

Göylərə əl açıram Tanrıma yalvarıram,
Bütün ümidlərimi saatıma sarıram,
Tənim çırpınır, ahla ələmləri arıram,
Ürəyimi yerinə qaytara bilməyirəm.

Ağlım haray qoparır, fəryadıma can deyir,
Bu necə fırtınadı, bu necə fəqan deyir?
Gəl sinəmin içinə yad yer nə ünvan deyir?
Ürəyimi yerinə qaytara bilməyirəm.

Boşa çsıxır savaşım, donur gözdə qan yaşım,
Əyilib köks üstünə əzabdan dərdli başım,
Qopub təndən, İlahi, axı əziz sirdaşım,
Ürəyimi yerinə qaytara bilməyirəm.
10. X. 2003

QƏM QAPISI BAĞLIDI

Qəm qapısı bağlıdı,
Gəl ona açar salma.
Ömür Rəbb nağılıdı,
Ürəyinə çox alma.

Keçən günü ötürdün,
Qayıtmağı gumansız.
Vaxtını boş itirdin,
Özün oldun amansız.

Ağlını çox yükləmə,
Baş bədəndən balaca.
Ürəyini təkləmə,
Bədən cana bir baca…

Ömür su təki axar,
Tutub saxlamaq olmaz.
Ötən günlər qəlb yıxar,
Dünya heç kəsə qalmaz.

Ağladan güldürmədi,
Ələmə möhtac olma.
Qəm kimi öldürmədi,
Dərdə belə ac olma.

Çoxu bunu unudur -
Hər doğulan öləcək.
Dünya belə qan udur,
Axır zaman gələcək.

Sanma, Şadiman dəli,
Dəyirmanda söz üyür.
Başıma Tanrı əli-
Yazmasam hər gün döyür.
26.05.2002

CAN SƏNƏ BAĞLIDI ELƏ, AY ÜRƏK

Niyə yarı yolda qoyursan məni?
Ağlayıb-sızlama belə, ay ürək.
Dərdimi dağ edib oyursan məni,
Vermə ümidimi yelə, ay ürək.

Mən həyat aşiqi, sən bağrı xəstə,
Qoymusan ömrümü niyə can üstə?
Ağlımı qul etdim mən sənin üstə,
Saldın duyğuları çölə, ay urək.

Hər qəmi əritdin qəlb ocağında,
Hissim düşüb qalıb dar bucağında,
Ağlı atıb-tutdun hey qucağında,
Ahın haray saldı telə, ay ürək.

Arzular könlümə düzülüb çin-çin,
Niyə uçurursan yuvamın için?
Qoyub taleyimi yarıda neçin?
Verirsən ömrümü selə, ay ürək.

Hələ neçə misram ağızda qalıb,
Təbimin dediyi kağızda qalıb,
Yenə ağrılarla üstümü alıb,
Salırsan dərdimi dilə, ay ürək.

Mən sevda gülüyəm bu gülşənlərin,
Dildə şərqisiyəm könlüşənlərin,
Qəfildən üstümü alıb çənlərin,
Bəyaz şeh ələyir telə, ay ürək.

Salma Şadimanı yatağa vaxtsız,
Gətirmə məzarı otağa vaxtsız,
Qoyma xəzan düşsün qəlb tağa vaxtsız,
Can sənə bağlıdı elə, ay ürək.
20. 07. 2003

QƏM TUTDU ƏTƏYİMİ

Ömrün payızı yetmiş bir yarpağa dönmüşəm,

Ovxalanır ürəyim saplağından yağıtək.
Dumanları dönməyən əngin dağa dönmüşəm,
Dərd könlümdən süzülür dodağıma ağıtək.

Yeri, göyün ahını məkan edibdi qəlbim,
Dünyanın fəryadından gör nə çəkir ürəyim?
Zamanı kor bəxtinə sükan edibdi qəlbim,
Anlarımı şir təki dişə çəkir ürəyim.

Çırpınıram könlümün sevda duyğularında,
Hissim sinəmə dustaq, ağlım başıma yükdü.
Çarpışıram özümlə çılğın uyğularımda,
Ürəyimin ağrısı ürəyimdən böyükdü.

Üzülüb əlim yerdən, göylərə əl açıram,
Bu soyuq baxışlardan qorumaqçın gözümü.
Bə'zən elə olur ki, özümdən də qaçıram,
Könlümün alovları közə basır özümü.

Əcabə, nə sitəmdi mənə edir bu fələk?
Çalxadır gözlərimdə yatmış dərya yaşımı.
Sinəmə ocaq çatır hər divanə bir dilək,
Yatağım tonqal olur, hara qoyum başımı?!

Çırpınıram gecəmlə gündüzümün əlində,
Elə bil bu vücudum bəşərdən yaranmayıb.
Gah fırtına, gah həşir ürəyin hər telində,
Hansı ocaq könlümün atəşindən yanmayıb?!

Məni sən yaratmısan, İlahi, bu ah nədi?
Bağrımı silkələyir yerin-göyün naləsi.
Hər əzabdan doğulan bu boyda günah nədi?
Misralardan qan içir təbimin piyaləsi.

Eyləmədin könlümə qismət şadimanlığı,
Boğdun ələm içində hər cürə istəyimi.
Dilim Tanrı söylədi, ürəyim imanlığı,
Mən şadiman dedikcə qəm tutdu ətəyimi…

13. 09. 2003

DİLƏ GƏLDİ ÜRƏYİMDƏ DUYĞULAR

Dilə gəldi ürəyimdə duyğular,
Oxu, könlüm, oxu səsin çağlasın.
Məhəbbətdən sehirləşir uyğular,
Oxu, könlüm, qaranlıqlar ağlasın,
Oxu, könlüm, oxu səsin çağlasın.

Bir tənimdi, bir ruhumdu, bir də sən,
Söylə mənə ya göydə, ya yerdəsən?
Öt bülbültək, əyilmə heç dərdə sən,
Oxu, könlüm, nəş'ə qəmi dağlasın.
Oxu, könlüm, oxu səsin çağlasın.

Səndən əziz, səndən pünhan kimim var?
Təbim adlı dəryalarda gəmim var,
Ürək telin əsdirən bir dəmim var,
Oxu, könlüm, haqq şər yolun bağlasın,
Oxu, könlüm, oxu səsin çağlasın.

Mən sənlə ilhamıma yetmişəm,
Dərin-dərin fəzalarda ötmüşəm,
Ulduzların arasında itmişəm,
Oxu, könlüm, vaxt sənə əhd bağlasın,
Oxu, könlüm, oxu səsin çağlasın.

Əzəldən gündən candı möhnət yuvası,
Ona məlhəm İlahinin duvası,
Getməz başdan eşq, məhəbbət havası,
Oxu, könlüm, xeyr şəri dağlasın,
Oxu, könlüm, oxu səsin çağlasın.

Şadimanı məmnun etdi diləyin,
İlham adlı o şahanə mələyin,
Sevdasından doğulmusan fələyin,
Oxu, könlüm, təb misranı bağlasın,
Oxu, könlüm, oxu səsin çağlasın.

13. 09. 2003

EY ŞAMLAR AŞİQİ

Ey şamlar aşiqi, gözəl pərvanə,
Gəl belə dolanma çıraq başına.
Sinəmdən od tökür könül divanə,
Aləmi hönkürdən varaq başına.

Mən ki, əhli-qələm, sən eşqə sultan,
Qəlbimin atəşin alova tutan,
Ayıltma gecəni uyusun yatan,
Özünü od-közün içinə atan-
İkimiz ocağın duraq başına.

Səni candan əziz sandım özümə,
Səntək oda düşüb yandım özümə,
Demə leylalığı belə üzümə,
Gəl tök atəşindən uyan gözümə,
Bir yerdə dəlitək vuraq başına.

Pərvanə, odlara tutma canımı,
Dəli həsrətimə gəl tut anımı,
Bu düşğün könlümlə qur dövranımı,
Qaldıraq göylərə eşqin şanını,
Bir xəta yetişər iraq başına.

Gələnlər dünyaya divanə gəldi,
Rəbbin ayırdığı ünvanə gəldi,
Gəlib bir-birindən lap canə gəldi,
Etdiyi bəlalar dövranə gəldi…
Könlüm atəşindən imanə gəldi,
Vurma tellərinin daraq başına.

Şadiman sevdana oldu mübtəla,
Qoyma ürəyini haxlasın bəla,
Mən yandığım təki sən də yan hala,
Yapma həsrətindən kədərə qala,
Gəl tökmə aləmi soraq başına.

12. 09.2003

BƏLALI TALE

Başına döndüyüm bəlalı tale,
Niyə ürəyimi pərişan etdin?
Mən necə unudum bu halı tale?
Sinəmə qəm oxun nə nişan etdin?

Ağrılar içində qalmışam naçar,
Ələmin qapımı bağlayıb-açar,
Sonsuz əzabına olmuşam düçar,
Canım tən evindən qırılıb qaçar,
Onu dərdə atdın, dərdi şan etdin.

Əzəldən belədi, bəlkə kainat,
Ağlayana qəmdi, gülənə büsat,
Gah zəhər, gah baldı əfsanə həyat,
Doğuldum zülümə düşdüm neçə qat…
Məni bu dünyada peşiman etdin.

De niyə üzümə, tale, gülmədin?
Ağrım ərşi yaxdı, bilə bilmədin,
Axan göz yaşımı niyə silmədin?
Nə ömrə yar oldun, nə də ölmədin,
Haqqın ətəyində hey iman etdin.

Ağladım, sızladım mən zarı-zarı,
Ələndi başıma ələmin qarı,
Ömrüm çiçəklərdən süd yıgan arı,
Günlərim xəlbirdə ələnən darı,
Üyütdün illəri, vaxta man etdin.

Şadiman biçarə, əlində xəstə,
Nə bəlalar çəkdim mən sənin üstə?
Düşüb yataqlara qaldım can üstə,
Ya mənə həyat ver, ya ömrü istə!
Bəsdir ürəyimi dəyirman etdin.

24. 08. 2003

GƏLDİ ÖMRƏ YUXU KİMİ

Gəldi ömrə yuxu kimi,
Mənim könlüm, mənim könlüm.
Ətri bir xoş qoxu kimi,
Mənim könlüm, mənim könlüm.

Yeri, göyü qan eylədi,
Fələk eşqin şan eylədi,
Dərdə, qəmə şan eylədi,
Mənim könlüm, mənim könlüm.

Acılardan talan oldu,
Ağrı dönüb ilan oldu,
Sitəmlərə elan oldu,
Mənim könlüm, mənim könlüm.

Gəldim yəqin bu dünyaya,
Düşmək üçün aha-vaya,
Fəryadından əydi qaya,
Mənim könlüm, mənim könlüm.

Şadimanı peşman etdi,
Hər günün yaman etdi,
Hər ağrıya iman etdi,
Mənim könlüm, mənim könlüm.
23.08.2003

SİZ EY HARAYIMI DUYAN ADAMLAR

Siz ey harayımı duyan adamlar,
Qəm qəlbi sinədən asdı, neyləyim?
Ürəyə düz qiymət qoyan adamlar,
Dərdə gündüz, gecə yasdı, neyləyim?

Acılar taxtımda sultanım oldu,
Nəş'ənin yerini tutanım oldu,
Kimsə deyə bilməz xoş anım oldu,
Bəxtin dəmir üzü pasdı, neyləyim?

Hər qəmi çəkməyə güc hardan tapım?
Tapıb ələmimin sinəsin çapım,
Beşgünlük ömrümü əlindən qapım,
Bu dəli ürəyə fəryadmı yapım?
Görənlər desinlər rastdı, neyləyim?

Şadiman ahına olub mübtəla,
Tutubdu könlünü dərd tutan bəla,
Getmədi ürəklə heç zaman yola,
Qəlbi tutub küncə basdı, neyləyim?
21. 08. 2003

MƏNİ QƏMƏ TUTAN ZAMAN

Məni qəmə tutan zaman,
Saatıma aman yoxmu?
Başı ahla qatan zaman,
Söylə səndə iman yoxmu?

Dərdim qaya, daş əritdi,
Gözlərimdə yaş əritdi,
Ağla yuva-baş əritdi,
Etmədiyin yaman yoxmu?!…

Ömürləri aldın qaçdın,
Təni qəbrə saldın qaçdın,
Özünlə tək qaldın qaçdın,
Bu dərdlərə dərman yoxmu?

Hey çapırsan göy atınla,
Yelə bənzər saatınla,
Nur çeşməsi həyatınla,
Bəşərə bir loğman yoxmu?!

Yuvan soyuq, canım isti,
Ömrü ötən anlar kəsdi,
Başdan-başa anın nəsdi,
Ayaq saxla qaçma bəsdi,
Heç hökmünə fərman yoxmu?
29. 08. 2003

DƏRD MƏNİ ÇƏKDİ KAMINA

Dərd məni çəkdi kamına,
Döndüm gecələr şamına,
Ağladım dedim hamına,
Könlümü aha bələdi,
Üstümə hicran ələdi.

Hey ağrı doğdu anımdan,
Qəlbə qidamı qanımdan?
Qopa bilmədim canımdan,
Taladı könlü hər qatı,
Bula bilmədim nicatı.

Aləm haraydan oyandı,
Sinəsi qəmə boyandı,
Zaman diksinib dayandı,
Ağrıma sultan olandan,
Mənimtək tənha qalandan.

Dərdə mübtəla olmuşam,
Özünə bəla olmuşam,
Uçquna düşmüş yolmuşam,
Olub zamana araba -
Bayquşlar sevən xaraba.
29. 08.2003 / Gəmidə

ELƏ AĞLAYIRAM DƏRDLƏR İÇİNDƏ

Elə ağlayıram dərdlər içində,
Hali-fəqanıma yananım yoxdu,
Ürəyim hıçqırır niyə, neçində?
Tənhayam, qəribəm amanım yoxdu.

Canın harayına könül ah çəkir,
Hərə bu dünyada bir günah çəkir,
Gecənin zülümün sübh, sabah çəkir,
Daha bir xoş gələn zamanım yoxdu.

Mənə ələm verir bacı, qardaşım,
Axır bağırıma qanlı göz yaşım,
Olmadı həyatda bir can sirdaşım,
Könlümə dərd verdi, of yar-yoldaşım,
Kəsilib taqətim, amanım yoxdu,

Bütün dilәkləri paraladılar,
Səadət yolumu qaraladılar,
Sinəmin içini yaraladılar,
Bağrımın yarasın araladılar
Bu qalan ömrümə gümanım yoxdu.

Göylərə, yerlərə üsyan edirəm,
Ürəyi ahlarla büryan edirəm,
Ağrımı sinəmə həyan edirəm,
Məni sevənlərə bəyan edirəm…
Ürəyim ağlayır loğmanım yoxdu!
7.X1. 2003 / Pirallahı

KÖNLÜMƏ GÖZÜMÜN YAŞLARI AXIR

Könlümə gözümün yaşları axır,
Ürəyim çırpınır sel arasında.
Bağrımda göylərin şimşəyi çaxır,
Mizrabım hıçqırır tel arasında.

Səmaya buludlar axnaşır yenə,
Qəzəbdən şimşəklər çaxnaşır yenə,
Asiman gurşadı dağ aşır yenə,
Duman fəryad çəkir yel arasında.

Rüzgar dönüklüyün göstərir bizə,
Payızın xəzanı çıxıbdı dizə,
Duyğum hicran dolu bir sınıq kuzə,
Loğmanı tapılmaz el arasında.

Bədən doğulanın sağkən can kürkü,
Soyuğu üşüdür, istisi bürkü,
Dünyanı titrədən ömrün yükü,
Qalıbdı kürəklə bel arasında.

Nədir, Yaradanım, verdiyin əzab,
Vücudum dözməyir, eyləməyir tab,
Zamanın əlində zəhər dolu qab,
Qədəhi fırlanır il arasında.

Qopur, ey Şadiman, könüldən səda,
Hər ağrı alışan bağrıma nida,
Canım ürəyimdən tapmayır qida…
Çırpınır dodaqla dil arasında.
2. X11. 2003

QUL ETMƏ MƏNİ

Dərd yıxıb sinəmi taladı, Allah,
Hər ağrı-acıya yol etmə məni.
Könlümə hicranı qaladı, Allah,
Hicranı yumağa sel etmə məni.

Min günah işlədir hər gələn zaman,
Qopur bağırımdan necə ah, aman,
Ömür bir cəngavər, dünya ox, kaman,
Bu oxa-kamana tel etmə məni.

Haqdan o tərəfdə görmürəm həyat,
Günaha batıbdı doğulan min qat,

Anların yükünü çiyininə çat,
Vaxtıma əyilən bel etmə məni.

Duyğum ürəyimə xalı toxuyur,
Saat qulağıma anın oxuyur…
Savaşan rüzgarım lap qan qoxuyur,
İlahi, bu qana göl etmə məni.

Şadiman yalvarır dərd ona yağı,
Qapımdan kəsilməz əli-ayağı,
Səndə tapdım, Rəbbim, könlə dayağı,
Şeytana, iblisə qul etmə məni.
2. X11. 2003

QUŞ OLUB UÇA BİLMİRƏM

Dərd məni sinəmdən asıb,
Quş olub uça bilmirəm.
Özün bu köksümə qısıb,
Əlindən qaça bilmirəm,
Quş olub uça bilmirəm.

Döndərib ağaca məni,
Başında ağ taca məni,
Özünə möhtaca məni,
Əlindən qaça bilmirəm,
Quş olub uça bilmirəm.

Dərd məni çəkib kamına,
Deyir ki, yoxam hamına,
Gözətçi qoyub damına-
Hardadı baca, bilmirəm?
Quş olub uça bilmirəm.

Nəş'əmi alıb gizləyir,
Könlünə salıb gizləyir
Mənimlə qalıb gizləyir,
Ondan baş açа bilmirəm,
Quş olub uça bilmirəm.

Şadiman ahu balası,
Könlümün yandı talası,
Sinəmə zindan - qalası,
Qapısın açа bilmirəm,
Quş olub uça bilmirəm.
26. X11. 2001

GÖZÜMÜN YAŞINI GURŞADLAR YUYUR

Mən qəmə mübtəla, qəm mənə əsir,
Əsir olduğumtək zülüm də kəsir,
Könlümün ağzını müsibət kəsir,
Hər dərd ürəyimdə tufandı uyur,
Gözümün yaşını gurşadlar yuyur.

Azıb səhralarda ömür karvanı,

İtirib tapmayır cana ünvanı,
Bitib-tükənməyir fələk divanı,
Dərdin ağrısını çəkənlər duyur,
Gözümün yaşını gurşadlar yuyur.

Mən miskin olmuşam ona nə vaxtdı?
Qurub ürəyimdə hicranlar taxtdı,
Ala bilməyirəm əlindən baxtı,
Edir ürəyimçin hər dərdə buyur,
Gözümün yaşını gurşadlar yuyur.

Heç nəyi özünə man bilmir dərdim,
Ömrümdən ötəni an bilmir dərdim,
Bu tənin sahibin can bilmir dərdim,
İblis fitnəsinə, fe'linə uyur,
Gözümün yaşını gurşadlar yuyur.
25. 02. 2002

ƏLƏM BOSTANIYAM - XƏZANI GƏLMƏZ

Ələm bostanıyam - xəzanı gəlməz,
Ora qəm tumunu əkən, neyləsin?
Hicran qəlbə düşdü heç və'də ölməz,
Orda dərd sarayın tikən, neyləsin?

Hər yanım fəqandı, hər yanım nalə,
Ürəyim qan içir əldə piyalə,
Bağrım qana batan qırmızı lalə,
Bu ağrı-acını çəkən, neyləsin?

Sitəmlər içində can verirəm can,
Hali-pərişanəm ürək yarımcan,
Tənimdə əsirdi bu biçarə can,
Bəbəyə yaşımı tökən, neyləsin?

Ağladıb güldürür hey zalım zaman,
Bağrım mizrab olub, ürəyim kaman,
Boğur vücudumu, Allah, ah-aman,
Bu könül mülkümü sökən, neyləsin?

Fələk heç bulmadı mən biçarəni,
Vurdu yarə üstdən qəlbə yarəni,
Ötdü il tapmadım könlə çarəni,
Zaman arabasın çəkən, neyləsin?

Binadan olmuşam ələm vurğunu,
Odur ki, çəkirəm öylə ağrını,
Qəm quşu edibsə Xuda bağrını,
Tale bağçasında səkən, neyləsin?

Artır günbəgündən könül divanı,
Uçurdur gurşadlar gözdə yuvanı,
Yollarda yorğundur ömur karvanı,
Üstünə buludtək çökən neyləsin?

Şadiman dərd əkdi, qəm barı oldu,
Hər tağın ələmi nübarı oldu,
Ömür ki, zamana dən, darı oldu-
Həyat tarlasına tökən neyləsin?
24. 02. 2002

SÖZLƏRİM HÖNKÜRƏR

Çiçəyi üşüyən bahardı könlüm,
Günəşi axtarır yel arasında.
Ağrıya, acıya nahardı könlüm,
Gözləri çırpınır sel arasında.

Əsir taleyimə xəzan küləyi,
Elə məcnun edib dərdə ürəyi,
İlham bu sinəmin ülkər mələyi,
Mizrabı hönkürür tel arasında.

Çağladar bu tale, bəxt Şadimanı,
Hər doğulan misra dini, imanı,
Ağlayan sətirlər kəsər amanı,
Sözlərim hönkürər el arasında.
30. 03. 2003

SƏSİ DÜŞÜB BAŞIMA

Könlün yenə səsi düşüb başıma,
Hey sızlayır ürəyimin telləri.
Duman çöküb gözü udan yaşıma
Göy titrədir başım üstə yelləri.

Çin gəzirəm bu ələmi biçməyə,
Axan qanın qurtum-qurtum içməyə,
Dəli təki çırmanıram keçməyə,
Boğur məni gur bulanıq selləri.

Zaman könlün diləyini duymadı,
Qapısından girməyə an qoymadı,
Yalquzaqtək ac qarını doymadı,
Aldı, uddu bu ömürdən illəri.
30. 03. 2003

ÖZÜMÜ HEÇ YERDƏ TAPA BİLMİRƏM

Hər dərdin ağrısı düşüb ürəyə,
Ağrıdan, acıdan qopa bilmirəm.
Arxanın zərbəsi dəyir kürəyə,
Ömür yollarında çapa bilmirəm.

Bəxtimin sarayı titrəyir, əsir,
Şıltaq anlarımtək elə tələsir,
Sübhün qapısını zülmətlər kəsir-
Kərpicin divara yapa bilmirəm.

Kədərim başımdan sel təki aşır,
Aşdıqca bulaqtək qaynayır, daşır,
Bu kor taleyimlə hey pıçıldaşır,
Qoyduğu qanundan sapa bilmirəm

Gecəni gündüzə qatıb gedirəm,
Bu dərdi özünə satıb gedirəm,
Ay təki, gün təki batıb gedirəm,
Özümü heç yerdə tapa bilmirəm.
30. 03. 2003

ÜRƏYİM DOLUBDU YAZ BULUDUTƏK

Ürəyim dolubdu yaz buludutək,
Yağmağa bir məkan, an axtarıram.
Qalmışam könlümlə, qələmimlə tək,
Donmuş damarıma qan axtarıram.

Yanıram şam təki başdan ayağa,
Ömür dəryasında döndüm mayağa,
Dəli duyğularım düşüb ayağa,
Dərdin dağıtmağa şan axtarıram.

Qalmışam ürəklə qəm arasında,
Gözlərim boğulur nəm arasında,
Zülmətim tellənir dəm arasında,
Gecədən qaçmağa dan axtarıram.

Divara yapılmış, döyülmüş daşam,
Buludlar gözündən tökülən yaşam,
Başı bədənindən üzülmüş quşam,
Çırpınan tənimə can axtarıram…

Verib kədərlərim qəlblə baş-başa,
Yenə çarpışmada Şadiman, haşa,
Girib ilhamımla könlüm savaşa,
Araya düşəcək qan axtarıram.
31. 03. 2003

İBLİSİ TAXTINDAN YIXMAQ İSTƏRƏM

İçimdə ələmlər verib baş-başa,
Onun fitvasından qorxmaq istərəm.
Ömür ötəridi, dünya tamaşa,
Ən şiş zirvəsinə qalxmaq istərəm.

Səmanın buludu hönkürən zaman,
Küləklər əlinə alır ox, kaman,
Yağışa, yağmura verməyib aman,
Göydə şimşəklərtək çaxmaq istərəm.

Ürəyin üstünü alanda ələm,
Ərşi ağladanda yanıqlı naləm,

Könül fəqanıma gələndə aləm,
Köksünü yandırıb yaxmaq istərəm.

Sel təki coşanda təbi-təvanım,
Başlar bağırıma dəli divanım,
Haqqa açılanda şeir ünvanım…
Dəryanın qoynuna axmaq istərəm.

Gecələr gözümdə yuxu azanda,
Könlüm uyğulara quyu qazanda,
Misranı qələmə əlim yazanda,
İlhamın fövqünə qalxmaq istərəm.

Axışıb qəlbimə dolan duyğular,
Gətirər sinəmə min bir qayğılar,
Artar zamanıma bitməz sayğılar,
Duyğumu anlara taxmaq istərəm.

Həyat da gözəldi, dünya da gözəl,
Bunların fövqündə Tanrıdı əzəl,
Cahanı yaşadar ağıl və düz əl!
Mən bu gerçəkliyə baxmaq istərəm.

Şadiman, arama zamanda suçu,
Vur, elə sınsın ki, şeytanın qıçı!
İnsana bağlıdı pisliyin ucu…
İblisi taxtından yıxmaq istərəm.
15. 04. 2003

BU DÜNYANI QANAD BİLDİM

Bu dunyanı qanad bildim,
Qanadımı dəldi getdi.
Harayını fəryad bildim,
Ürəyindən güldü getdi.

Zamanına ömrü qoydum,
Surətinə baxdım uydum,
Dərd oxuyla könlü oydum,
Hər acımı bildi getdi.

Doğulmuşam, var olmuşam,
Sevgisinə yar olmuşam,
Duyduqca ah-zar olmuşam,
Günü vaxta ildi getdi.

Saatlarım zor altında,
Duyğum qaldı kor altında,
Ömrüm yandı qor altında,
Ocağımda küldü getdi.

Bəslər qəlbi quzu kimi,
Sevdasının nazı kimi,
Könlün sınıq sazı kimi,
Necə ağlar dildi, getdi?

Dünya haqqın mələyidi,
Ömrün həyat diləyidi,
İnsanlığın ürəyidi…

Hər ölənlə öldü getdi.
14. 03. 2003

ÜRƏYİMİ AHLAR DƏLİR

Ürəyimi ahlar dəlir,
Yaş atılır göz üstünə.
Ahdan sonra hicran gəlir,
Atəş düşür köz üstünə.

Ələmlərlə ulaşıram,
Göz yaşına bulaşıram,
Əzabımla sulaşıram,
Xəzan düşür üz üstünə.

Qəm dağılır saatıma,
Hicran minir can atıma,
Yadlaşıram həyatıma,
Ömür çökür diz üstünə.

Duyğularım qanad açır,
Düzü qoyub dağa qaçır,
Ürəyini mənə açır-
Təbim gəlir söz üstünə.

Aləmlərə soraq edir,
Könlümü ağ varaq edir,
Ay gecəni çıraq edir,
Nur tökülür miz üstünə.

Ey Şadiman, nə vüs'ətdi?
İlham haqdan bir qüdrətdi,
Yıxdı neçə sərhəd, səddi?
Qədəm qoydu iz üstünə.
14. 03. 2003

AXŞAM DÜŞÜR, ŞƏR QARIŞIR

Axşam düşür, şər qarışır,
Gecə yağır vaxt üstünə.
Könlə dərdi-sər qarışır,
Fikir çıxır taxt üstünə.

Gözdə ələm, qəm yaşlanır,
Kipriklərdə nəm başlanır,
Saat üstə dəm başlanır,
Ürək düşür baxt üstünə.

Gün zamanla qucaqlaşır,
Sinədə od ocaqlaşır,
Qəm könüllə sıcaqlaşır,
Dərd gəlir bivaxt üstünə.
13. 03. 2003

DƏLİ BAXTA BAX

Ürəyi eşqli sabahıma,
Candı hicranı günahıma,
Qonaq olubdu hər ahıma,
Dəli baxta bax, dəli baxta.

Qara sükutu ömrü üzür,
Hər bir işimə dodaq büzür,
Ömür yoluna kədər düzür,
Hissi dəmirmi, ya taxta?
Dəli baxta bax, dəli baxta.

Ümidi üzü üstə qoyub,
Könlü yataqda xəstə qoyub,
Dərdlərimi üst-üstə qoyub,
Qırmancla döyür qaçan vaxta,
Dəli baxta bax, dəli baxta.

Elə razıdı özü-özündən,
Ürək alışır od-közündən,
Ələm tökülür üz-gözündən,
Mənə nəş'əni verər saxta,
Dəli baxta bax, dəli baxta.

Dərdin başını tumarlayar,
Anları tutar qamarlayar,
Sarayın sökər hamarlayar,
Lal vücudu damarlayar,
Qanımı tökər laxta-laxta,
Dəli baxta bax, dəli baxta.

Üzü Tanrıya durmaqdayam,
Qəlbin başına vurmaqdayam,
Könül anını qurmaqdayam,

Mənlə sevda qalıb nə vaxta?
Dəli baxta bax, dəli baxta.

15. 03. 2003

MƏNİ ÜRƏYİMLƏ TƏK QOYAN, FƏLƏK

Məni ürəyimlə tək qoyan, fələk,
Könlümün harayı dünyaya yetmir.
Ağrıma, acıma qol qoyan, fələk,
Verdiyin ələmlər heç cürə bitmir.

Ağlayan içimə çölüm toy qurub,
Bağrımın nəş'əsin elə vay qırıb,
Bəbəyin yaşından könlüm çay qurub,
Qəlbin dəryasından fırtına getmir.

Mən cana gəlmişəm bu ələmimdən,
Könlü aha salan qəm aləmimdən,
Tökülür vərəqə qəm qələmimdən,
Fələk öz rəhmini bir mənə etmir!

Sınan ümidlərim budağa bənzər,
Ürək nalə edər, bu dağa bənzər.
Hicranım sıldırım, sal dağa bənzər,
Könlümün səmasın buludlar bəzər…
Qəmimi yumağa gurşadım yetmir.

Ağlar taleyimə gözdə yaş gülər,
Bağrın gileyinə dəli baş gülər,
Sinəm haray çəkər qaya, daş gələr,
Ağrım dağ, dumanı çəkilib getmir.

Şadiman dərdinə tapmaz çarəni,
Salıb əzablara mən biçarəni,
Vurur yarə üstən qəlbə yarəni,
Fələyin qadası başımdan ötmür.

18. 03. 2003

KÖNLÜMÜN DUYĞULARI

Könlümün duyğuları -
Dəryada yolunu itirmiş bərə,
Üz tutur Allaha min kərə,
Ağrılardan sovuşmaq üçün,
Bu tələtümlü dünyaya qovuşmaq üçün.
Fırtınalar döyəcləyir onu,
Yetişmir sahilinin sonu,
Ömür bir su kimi axır keçir,
Süzür duyğuları qədəhinə, içir-
Yenidən sinəmdə diləklər doğulur,
Əsdikcə qasırğalar bir-bir boğulur.
Dəniz könlüm nehrətək yırğalanır,
Fırtına üstündən qopur fırtına,
Minirəm tale atına,
Çapdıqca çapıram vaxtın qanadında,
Zaman saxlaya bilmir saatları yadında,
Gün anla çarpışır,
Yenə bu başıbəlalı ömürdən yapışır.
Könül diləklərə qolu bağlı əsir,
Bilməm, İlahi, nə sir?
Duyğular sinəmdə tapır öz həyatını,
Qurur qəmlərin üstündə büsatını,
Alır əlimdən gecəmi, gündüzümü,
Tuturam Yaradana üzümü…
Dərgahla könlümü ovutmaq üçün,
Gözümün yaşlarını qurutmaq üçün,
Könlümün duyğuları -
Dəryada yolunu itirmiş bərə…

6. 03. 2003

O QƏDƏR DƏRD ÇƏKDİM

O qədər dərd çəkdim bu dünyada mən,
Dərdi götürməyə dözüm çatmadı.
Ağrıdan, acıdan yandı sinə, tən,
Dilin harayına sözüm çatmadı.

Ağlatdı könlümü ötən zamanlar,
Yetmədi bağrımdan haqqa imanlar,
Harada olsam da qəm məni yanlar,

Ocağı kül basdı, közüm çatmadı.

Boğdu bəbəkləri yaş sellər təki,
İllərim qırıldı səf tellər təki,
Getdi qabağımca dərd yellər təki,
Baxışım yoruldu, gözüm çatmadı.

Şadiman əyildi haqqa qul kimi,
Belinə yükləndi ağrı çul kimi,
Ömür xırdalandı elə pul kimi…
Hər dərdi udmağa əzim çatmadı.

13. 04. 2003

ÜRƏK ÜSTƏ GEDƏN KÖNÜL

Nə ağlarsan, nə sızlarsan?
Mənə tə'nə edən könül
Qəm içində payızlarsan,
Bağrım başın didən könül.

Taleyimə qəm ələdin,
Gözlərimə nəm ələdin,
Məni ahdan dəm elədin,
Bu sitəmlər nədən, könül?

Ağrılarda qalan candı,
Ciyərimdə od oyandı,
Atəşinə düşüb yandı,
Köz-köz oldu bədən könül.

Şadimanı etdin çıraq,
Qəlbi açdın varaq-varaq,
Edib qəmi əldə yaraq,
Ürək üstə gedən könül.

14. 04. 2003

ÜRƏYİM AĞLADI

Ürəyim ağladı, gözlərim güldü,
Qəm həyat qapımı daralı qoydu.
Ocağım kül oldu, közlərim güldü,
Fələk kor bəxtimi yaralı qoydu.

Dilim ağı dedi, ürəyim nalə,
Könlüm qanlar ilə dolu piyalə,
Bağrımda göyərən ahlarım lalə,
Qəlbimin bağçasın saralı qoydu.

Çırpındım quş təki dar qəfəslərdə,
Boğuldu istəyim xar nəfəslərdə,
Sinə cövlan etdi nə həvəslərdə?
Könlümü nəş'ədən aralı qoydu.

Dilimdə sözlərim çapıldı getdi,
Sinəmə mizraqlar sapıldı getdi,
Mənə dərd verənlər tapıldı getdi…

Bəxtimin imzasın qaralı qoydu.
14. 04. 2003

ÇIRPINAN DUYĞULARIM

Yenə də duyğularım verir qəlblə baş-başa,
Dəli təki özünü vurur qayaya, daşa,
Dönübdü zamanımla bir sevgili sirdaşa,
Göylərdən al Günəşi aşağıya düşürür,
Yerin, göyün atəşin ürəyində bişirir.

Çırpınır xəyalların içində mələk təki,
Qəfil əsir başımda dəlisov külək təki,
Alıbdı varlığımı əlinə dilək təki,
Gah ələmə baş vurur, gah nəş'əni ovlayır,
Gah könlü asimana, gah da ərzə qovlayır.

Yenə də duyğularım çaylar təki daşmada,
Ağırımla, acımla cantək pıçıldaşmada,
Göyün fövqünə qalxıb kainatı aşmada,
Ulduzları göylərdə şəfəqlərlə bağlayır,
Qoşulub ürəyimə dərdli-dərdli ağlayır.

Alıb yuxularımı qaçırır uzaqlara,
Salır dəli könlümü ayaza, sazaqlara,
Baxmayır fərmanlara, baxmayır yasaqlara,
Uçurur sərhədləri göz önündən qoparır,
Aşır ölkəbəölkə, hər niskili aparır.

Baş qoyub sinəm üstə bir az köksün ötürür,
Vərəqimi masamın üzərinə gətirir,
Qələmi təbə bükür əllərimə yetirir,
Püskürür içimdəki atəşi vulkansayaq,
Sarılır vücuduma məhəbbətli cansayaq.

Yenə də duyğularım itirir irizini,
Qatlayır ələmimin o şahanə dizini,
Ocaq çatır sinəmdə salır ərzə közünü,
Alır ixtiyarımı əlinə sultan kimi,
Könlümün bağçasında açır gülüstan kimi.

Nədən böylə , İlahi, duyğulara əsirəm?
Dəryaların içində tufan döyən qəsirəm,
O mənə şah olandan ayağına həsirəm,
Bu narahat ürəyim öcəşir ahlar ilə,
İlhamım gecələri udur sabahlar ilə.

Şadimanı buludtək coşdurur səhər, axşam,
Könlümün mənzilində zülmətləri boğan şam,
Coşur ilham mələyim hər anımdan alır kam,
Duyğularım boylanır od tökən Günəş təki,
Ürəyimə qor olub ocağa atəş təki.
14. 03. 2003

ÜRƏYİMLƏ YUXLADI

Dərd məni çəkdi şişə,
Neçə yol vurdu dişə,
Aldı qəmimdən nəş'ə,
Ağlatdı zarı-zarı,
Tökdü qəlbə azarı.

Hər ağrımı baş etdi,
Gözlərimi yaş etdi,
Ələmlə sirdaş etdi,
Hicranı çıxdı üzə,
Doldu gecə-gündüzə,

Ürəyimi ovladı,
Haqqımı cilovladı,
Ağrımı alovladı,
Üzümə gülə-gülə,
Odumu atdı külə.

Dərd könlə sultan oldu,
Aləmi qatan oldu,
Qəmə gülüstan oldu,
Taleyimi oxladı,
Ürəyimlə yuxladı…
14. 03. 2003

MÜQƏDDƏS ÜNVANIM ANA

Tanrıya ucalan müqəddəs duvam,
Döyünən qəlbimdə vəfalı yuvam,
Yanan ciyərimə bülurtək havam,
Bütün dərdlərimə dərmanım ana,
Dünyada müqəddəs ünvanım ana.

Ürəyim odunla alışıb yanar,
Sənin həsrətinə ömrüm dayanar,
Bağrımın içindən hicran boylanar,
Paklığım, saflığım, imanım ana,
Dünyada müqəddəs ünvanım ana.

Yanan ciyərimin şəfası səndə,
Bütün sevgilərin vəfası səndə,
Cahanın varlığı, cəfası səndə,
Həyatda ən şirin zamanım ana,
Dünyada müqəddəs ünvanım ana.

Sənin ayağına can pəyandazdı,
Sən olan ömürdə hər fəsil yazdı,
Yolunda qurbanlıq – varlığım azdı,
Ağrıma, acıma loğmanım ana,
Dünyada müqəddəs ünvanım ana.

Ey nurlar beşiyi – könül ocağı,
Qəlbə yuva etdin isti qucağı,
Bütün duyğuların dayanacağı,

Azan ürəyimə səhmanım ana,
Dünyada müqəddəs ünvanım ana.

Səni Kə'bə bildim bu ürəyimə,
Qoymadın toxuna şər kürəyimə,
Çevrildin həyatda can dirəyimə,
İncə mətləblərim , fərmanım ana,
Dünyada müqəddəs ünvanım ana.

Sən möhnət içində böyütdün bizi,
Sən ey İlahinin sevda dənizi,
Tökdün ürəyimə laylanla közü,
Qəlbdən ərşə qalxan amanım ana,
Dünyada müqəddəs ünvanım ana.

Övlad ağrıları sinədən keçir,
Bala eşqi ürək binədən keçir,
Qocalıq ömrünün günlərin biçir,
Eşqinə qurbandı bu canım, ana,
Dünyada müqəddəs ünvanım ana.

Atama həm qadın, həm yoldaş oldun,
Min bir qayğılarla sən sirdaş oldun,
Bütün sevgilərdən mənə baş oldun,
Qəlbimdən niskili yuvanım ana,
Dünyada müqəddəs ünvanım ana.

18.04.2003

BÜRÜNÜB QAÇMAĞA DUMAN GƏZİRƏM

Elə dolmuşam ki, buludtək nalan,
Şıdırğı yağmağa zaman gəzirəm.
Qalıbdı sinəmin fəraqıyla an,
Fələkdən bu qəmə aman gəzirəm.

Qəlbin alışmağın köz deyə bilmir,
Ürəyin harayın göz deyə bilmir,
Daha dərdlərimi söz deyə bilmir,
Könlü ağlamağa kaman gəzirəm.

Dərdim dərya tutub qəminə, eyvah,
Batmışam gözümün nəminə, eyvah,
Düşmədim heç işin çəminə, eyvah,
Qəlbi ovutmağa umman gəzirəm.

Ovuc içi boyda ürəyim naçar,
Düşmür bəxt qapıma heç cürə açar,
Yalnız zalım fələk bağlayıb-açar,
Çəkdiyim ağrıya yaman gəzirəm.

Aradım, axtardım, tapmadım haqqı,
Boynuma yük olub bəxtin nahaqqı,
Yoruldum dünyadan mən allahhaqqı,
Bürünüb qaçmağa duman gəzirəm.

31. 03. 2001

SƏN Kİ, GƏLİB ÇIXMAYIRSAN, EY FƏLƏK

Nə yatmısan şöhrət ilə, şan ilə?
Mənə tərəf baxmayırsan, ey fələk.
Doldurmusan ürəyimi qan ilə,
Sinəmə kam taxmayırsan, ey fələk.

Bağırımda hicranlarım qan ağlar,
Könül uçar, tən ovular, can ağlar,
Fəryadımı eşidən hər yan ağlar,
Göylərimdə çaxmayırsan, ey fələk.

Dərdlər döyür qap-bacamı yel təki,
Gözlərimdən gurşad axır sel təki,
Könül simim haray çəkir tel təki,
Qəmi vurub yıxmayırsan, ey fələk.

Şadimanı zaman saldı hey vaya,
Son qoymadı sinə üzən xətaya,
Ürəyimin meydi düşüb ortaya…
Sən ki, gəlib çıxmayırsan, ey fələk.

4. 04. 2003

GÖZDƏ YAŞIM GİRYAN OLAR

Gözdə yaşım giryan olar,
Harayıma kimsə gəlməz,
Ürək yanar büryan olar,
Bu kar dünya səsə gəlməz.

Bezar olar tən canımdan,
Həzar edər dövranımdan,
Nalə qalxar hər anımdan,
Duman canda sisə gəlməz.

Ağlayaram için-için,
Kədər didər könlün için,
Ah, İlahi, bilməm neçin?
Can bədəndən küsə, gəlməz.

Haray salar dil ağızda,
Fəryad edər söz kağızda,
Dinməz dünya birağız da,
Başda tufan əsə gəlməz.

Öz fəqanım məni boğar,
Gözlərimdən leysan yağar,
Qəmim dərddən hicran doğar,
Nəfəsimi kəsə gəlməz.

Ürəyimə qəm ələnər,
Donmuş dərdim istilənər,
Könlüm yanar, tüstülənər,

Boğar canı hisə gəlməz.

Uzandıqca ömür yolu,
Qandallayar əli, qolu,
Namərdlərlə dünya dolu,
Ölüm də heç pisə gəlməz.

Ey Şadiman, söylə bilim?
Niyə fəryad edir dilim?
Ürək itər ilim-ilim,
Haraylarım nəsə gəlməz?

6. X. 2002

XƏZAN KÜLƏKLƏRİ ƏSİR

İçimdə xəzan külәkləri əsir,
Payızı yetişən çiçəklər təki.
Hicran könlümün qapısın açmağa tələsir,
Nəş'əsi mümkünsüz gerçəklər təki.
Həsrət qapımın ağzında amadə,
Əlində ayrılıq şərabını içmək üçün badə,
Sərxoş olanadək,
Könül bulağı dolanadək içəcək,
Bağrımın sevdasın qıranadək biçəcək.
Kimliyimi sormadan,
Özünü xəyal ənginliklərində yormadan,
Pislik edəcək mənə,
Batıracaq könlümü çənə,
Halıma yanmadan,
Könlün olmağımı anmadan.
İçimi xəzan külәkləri yalayır,
Sevda gülzarımı sarıtikan təki dalayır.
Başsız qalmış ürəyim can sevdasında,
Vurnuxuram həsrətin adasında,
Batıb qalmışam insafsız cahanın ədasında,
Dünyanın sükütu bağrımı sarır,
Könlüm özünə bir həyan arır.
İçimdə xəzan külәkləri əsir…
İti bıçaq təki acıları bağrımı kəsir,
Üyülürəm qəmlə dəm arasında,
Bu eşqə sirr olub-
Gözlərim əsir olub,
Baxışı zindanda döyülən bu ələm arasında,
Tut kimi bəbəklərim yaş tökür,
Dünyanın zülümləri başıma daş tökür!
Qolları baltaya tutulmuş budağam,
Zamanın ağrısından şişmiş dağam,
Qurğuşunlar min bir yerdən dəlib keçmiş bayrağam…
Bağrımda vulkan təki püskürən acılara ağam,
Meşədə kimsəsiz qalmış bir çeşmətək çağlaram,
Bu zaman əlində çapılmış budağlaram…
Özüm öz taleyimə ağlaram…
Ağlaram…

8. 02. 2002

DƏRD ÇƏKƏR KÖNLÜMÜ DARA

Dərd çəkər könlümü dara neyləyim?
Ürək mizrab edər qəmi, ey Xuda.

Bəxtim qara gəldi, qara neyləyim?
Yandırır fəqanım dəmi, ey Xuda.

Zalım zamanənin üzü yamandı,
Dünya ki, gah ahdı, gah da amandı,
Bu nə bəni-bəşər, bu nə zamandı?
Gözlərim çay edər nəmi, ey Xuda.

Nə verdim taleyə, nə də istəyim?
Ürəkdə dil açar min bir istəyim,
Dərdin əllərində qalıb ətəyim,
Bilinmir ömrümün çəmi, ey Xuda.

Dünya badə təki doldu, boşaldı,
Zülümlər, fitnələr hər gün baş aldı,
Niyə zalımların əlində qaldı ?
Bəşərin kəsiri, kəmi, ey Xuda.

Gözündən qan daman bu aləm naçar,
Dolanıb başımın üstündə uçar,
Fələk qapısında bəxtim əl açar,
Ürək zildə boğar bəmi, ey Xuda.

Boğazdan asılan günüm qəhərdi,
Göylər də, yerlər də lap bir təhərdi…
Zalım zamanənin balı zəhərdi,
Bilinmir dünyanın təmi, ey Xuda.

Şadiman şam üstə pərvanələrtək,
Dərviş xislətlidi divanələrtək,
Ürək yasa batıb boş xanələrtək,
Əqli sərxoş edir dəmi, ey Xuda.

6. X. 2002

EY DƏLİ İLHAMIM

Ey dəli ilhamım, mənim halımı,
Könül duyğuları coşanda soruş,
Atəşin sarmasın bu əhvalımı,
Bağrımda sevdalar daşanda soruş.

Eylədin qəlbimi qəmlər əsiri,
Kölənəm, qulunam anlat bu sirri,
Sənin eşqin ilə ürəyim diri,
Adınla zirvələr aşanda soruş.

Niyə sızladırsan mən bəxti kəmi?
Gözümdən qurumur aləmin nəmi,
Gah zili inlətmə, gah da ki bəmi,
Şəninə şərqilər qoşanda soruş.

Getmir ürəyimlə ağılım yola,
Könül tellərini qoyma dərd yola,
Qönçə çiçəyinə hər arı dola,
Arını bal yığan tər şanda soruş.

Ey dəli ilhamım, Şadiman tifil,
Olubdu dünyanın əlində səfil,
Onun hər qəmini götürməz min fil,

Gərçi arasan bu, nişanda soruş.
22. 09. 2002

BİR TƏNHA QAYIĞAM

Bir tənha qayığam dəryalara tuş,
Qalmışam hayqıran sellər içində.
Qanadı qırılmış, sanki qərib quş,
Uçmağım müşküldü yellər içində.

Ömrü elə qovur zamanın atı,
Günün əllərindən alır saatı,
Verir tufanlara elə həyatı,
Harayım boğulur illər içində.

Yaxşı ad öləndən sonra doğular,
Ölümün özü də ahdan boğular,
Sözlərim ürəklər üstə dağılar…
Varlığım köz olar dillər içində.

Ömür axıb gedən bulağa bənzər,
Zamanın sürdüyü ulağa bənzər,
Baş üstə saçlarım yaylağa bənzər,
Ağ çiçəklər açar tellər içində.

Şadiman, qoltuqda arama yuva,
Zirvəyə uçanlar düşərlər ova,
Olarsa bir misram qəlblərə dəva,
Gəzərlər sözümü ellər içində…
6. X. 2002

ÜRƏYİMDƏN QOPAR AHLAR…

Ürəyimdən qopar ahlar, bağrım başı fəqan edər,
Sınar könlüm sitəmlərdən yerə, göyə əfqan edər.
Dildən qopan harayımdan buludlar da sıxar-tökər,
Bu əzabı, bu zülümü can bədənlə birgə çəkər.
Ağlayaram için-isin, fələk bilməz qəmi neçin?
Gözlər üzər qan gölündə bu vəfalı ürək üçün.
İlham qapım bağlı qalar, gəlməz kimsə sorağına,
Misralarım axar sutək bu könlümün varağına.
Oyaq qalar bəbəklərim, yuxularım uçar ərşə,
Üzər məni ah, Allahım, bu həyacan, bu əndişə.
Alışaram, ocağıma düşər bir-bir hicran odu,
Ötməz məndən gecə-gündüz qəlbə düşən bu can odu,
Üzü gülməz Şadimanın ürəyinin cəfasından,
Ömür ötər dadmaz könül bu dünyanın vəfasından.
21. X11. 2002

ƏLACIN TAPMAĞA LOĞMAN GƏZİRƏM

Elə dolmuşam ki, yaz buludutək,
Könlü boşaltmağa zaman gəzirəm.
Gözlərim yaş tökür - islanır ətək,
Ahımı bükməyə duman gəzirəm.

Məni tərk etməyir heç həyacanım,
Ağrıya, acıya tutulub canım,

Yoxdur bir rahat, sakit ünvanım,
Dərddən qurtulmağa aman gəzirəm.

Taleyim ələmlər içində yanır,
Sanki saatlarım durub - dayanır,
İçimdən min cürə kədər oyanır,
Dərdi ağlamağa kaman gəzirəm.

Özümü tapmıram mən bu dünyada,
Batıb duyğularım qalıb röyada,
Qəlblərin rəngi var min cür boyada,
Soyuq vicdanlara iman gəzirəm.

Ələm ovsunlayıb bu həyatımı,
Batırır əzaba hər saatımı,
Büdrədir yollarda tale atımı,
Dərdi qul etməyə fərman gəzirəm.

Qüssənin ömürlə nədir birliyi?
Niyə unudulur haqqın birliyi?
Daim deyil canda o tən dirliyi,
Vaxtsız almamaqçın əcəl dirliyi-
Xəstə ürəyimə dərman gəzirəm.

Soyuq baxışların tufanı əsdi,
Qapımdan girməyə boran tələsdi,
Nədir bu dünyanın mənimlə qəsdi?
Qəmimi udmağa umman gəzirəm.

Şadiman yığılıb dərd dərdin üstə,
Odur ki, bu dünya qalıb can üstə,
Olubdu beyinlər, şüurlar xəstə,
Əlacın tapmağa loğman gəzirəm.

25. X11. 2002

QIYMADIN XOŞ ZAMAN MƏNƏ

Allahım, de bu taleyi-
Niyə etdin yaman mənə?
Qalmadı heç canın heyi,
Oldu min ah, aman mənə.

Sən qovduqca mən yüyürdüm,
Ürəyimdə qəm əyirdim,
Dəyirmandan tən üyürdüm,
Canı etdin yaman mənə.

Alıb atdın bağrı oda,
Yandı külə döndü o da,
Gün görmədim mən, ey Xuda,
Bəxti verdin dərman mənə.

Ha çalışdın ağlatmağa,
Tale yolun bağlatmağa,
Dərdlərimi sağaltmağa,
Bir tapmadın loğman mənə.

Ürəyimin için yedim,
Mən ki, sənə canım dedim,

Allahım, bəs mən nə edim?
Qəm göndərdin umman mənə.

Yuğurduqca can xəmiri,
Mum eylədin, Rəbb, dəmiri,
Bəd hökmün sərt əmiri,
Viran etdi bu ömürü,
Verdin belə fərman mənə.

Şadimanı sən yaratdın,
Dərd içinə necə atdın?
Vurdun yara, hey qanatdın,
Qıymadın xoş zaman mənə.
25. X11. 2002

AH -ZAR İÇİNDƏ

Qoyub muradımı ah-zar içində,
Könül nə divanə cövlan edirsən?
Bir xəzan görünür hər bar içində,
Niyə ürəyimi tərlan edirsən?

Coşdurub qəlbimi min bir diləklə,
Oyun oynayırsan yenə fələklə,
Ələyib duyğumu hər gün ələklə,
Təbimi aləmə elan edirsən.

Mən sənə pəyandaz, sən mənə yağı,
Kəsilmir qapımdan qəmin ayağı,
De necə gəzdirim belə dayağı?
Məni öz canıma nalan edirsən.

Barın, dəli könül, qəlbi ac etdi,
Arzumu, duyğumu qəlbə tac etdi,
Coşmağın yarama nə əlac etdi?
Hər dərdi bağrıma ilan edirsən.

Bir kimsə çəkmədi mən təki zillət,
Əritdi sinəmi qəm dolu illət,
Başımda nəyim var əlində alət,
Mənim varlığımı yalan edirsən.

Sən ey can alanım, Şadiman xəstə,
Öldürüb gəlməkmi qəsdin can üstə?
Ürəyim qan ağlar elə ahəstə,
Onun hər guşəsin talan edirsən.
19. 05. 2003

YANDI KÖNLÜM FƏQAN İLƏ

Yandı könlüm fəqan ilə,
Ağızımda dil üşüdü.
Gün başladı əfqan ilə,
Vaxt qoynunda il üşüdü.

Bağ-bağçama xəzan gəldi,
Könlə bəxti yazan gəldi,
Haqq evindən azan gəldi,
Ürəyimdə tel üşüdü.

Gülzarımda çiçək açdı,
Sübh açıldı ətir saçdı,
Şeh yaxasın yellər açdı,
Bülbül öldü, gül üşüdü…

Gül bağrından qopdu nalə,
Yandı göylər, yerlər halə,
Günəş ərşdə od piyalə,
Batdı getdi, yel üşüdü.

Duman aldı könül bağın,
Əydi külək hər budağın,
Titrətdi çən qəlb yarpağın,
Üzündəki tül üşüdü.

Ey Şadiman, qanan başdı,
Könüllə təb pıçıllaşdı,
Zirvə ötdü, dağ dolaşdı,
Ocağımda közüm daşdı…
Alov altda kül üşüdü.
18. 05. 2003

AĞLATDI KÖNLÜMÜ QƏMİM

Ağlatdı könlümü qəmim büsbütün,
Bu qəmə bir çarə tapılmadı heç.
Çapıldı ürəyim, sanki Büsutun,
Dərdimin sinəsi qapılmadı heç.

Kimsədən bulmadım ağrıma əlac,
Qoydu ələmlərim başa min bir tac,
Mən dərdə bihudə, dərd mənə möhtac,
Düşdüyü yolundan sapılmadı heç.

Gecəm ələminə mehmanə uydu,
Kipriklər ağrımın şehini duydu,
İslatdı yuxumu qəm ilə yudu,
Zülmü daş-divarə yapılmadı heç.

Etdi zalım fələk mənə cəzanı,
Başa qul eylədi ürək əzanı,
Yaradan özüdü verən cəzanı,
Qəmimin qalası çapılmadı heç.

Deməyin Şadiman dərdə peşiman,
Hər ələmin sonu gətirər iman,
Allahdan gəlməsə bəndəyə fərman,
Kimsənin bağırı çapılmadı heç.
18. 05. 2003

SINDI HƏYATIMIN ŞADLIQ KUZƏSİ

Sındı həyatımın şadlıq kuzəsi,

Ürəyim ağlayıb fəqan eylədi.
Qəlbi parçaladı qəmin nizəsi,
Ömrümün hər anın al qan eylədi.

Dadmadım kimsədən bir nəş'əli söz,
Tökdü buludlartək leysanları göz,
Sinəmin içində alışdıqca köz,
Yerlər, göylər mənə can-can eylədi.

Hər ahın fəraqı bağrımı diddi,
Yolumun üstündə tikanlar bitdi,
Anlarım tökülüb əlimdən itdi,
Tale hər dərdimdən bir şan eylədi.

Bitmədi bəxtimin qəm fərmanı heç,
Bir kimsədən gəlməz qəlb dərmanı heç,
Ağrımın, acımın yox loğmanı heç,
Fələk hər yarama min can eylədi.

Çaldı ürəyimi ilantək yetən,
Bəxtimin üstündən xətt çəkdi ötən,
Sinəmin içində ağrıdı bitən,
Yetən könlü qəlbə nişan eylədi.

Şadiman dünyadan bulmadı şəfa,
Oldu ömrü ona qeylü-qal, cəfa,
Gedənlər bilir ki, yox canda vəfa…
Tənə əzrayılı o xan eylədi.

13. 05. 2003

ÜRƏYİMİ OVLAYIR

Duyğularım baş-başa,
Qurub qəlbdə tamaşa,
Bürünübdü qumaşa,
Verir ağrını başa,
Ağlımı alovlayır,
Ürəyimi ovlayır.

Zamanıma yol açır,
Alıb könlümü qaçır,
Başıma bəla açır,
Günəş təki od saçır,
Hisslərimi tovlayır,
Ürəyimi ovlayır.

Duyğularım cəng edir,
Anlarımı dəng edir,
Ömrümü pələng edir,
Vaxtımı çələng edir,
Qəmi candan qovlayır,
Ürəyimi ovlayır.

Taleyimə şah olur,
Gecə padişah olur,
Həyacanı ah olur,

Yatmayır sabah olur,
Günümü söz-sovlayır,
Ürəyimi ovlayır.

Duyğularım bax belə,
Verməz saatı yelə,
Mizrabı vurur telə,
Alıb könlümü ələ,
Ocağımı qovlayır,
Dərdi qəlbdən qovlayır,
Ürəyimi ovlayır.
6. 05. 2003

AĞILIMDA MƏRƏKƏ

Ağlımda hey mərəkə,
Salır könlümü bərkə,
Anın hər biri tikə,
Zaman həzimə çəkə,
Fələyə əyləncədi,
Həyata işgəncədi.

Anlar bağrımın teli,
Əsdirir hicran yeli,
Başımdan aşır seli,
Zülmət, sübh Rəbbin eli,
Ağrıları gecədi,
Həyata işgəncədi.

Zaman atını çapır,
Vaxtı öz yolun tapır,
Ömürdən günü qapır,
Büdrəyən haqqdan sapır,
Saat kövrək, incədi,
Həyata işgəncədi.

Şadiman, an itirmə,
Vaxtını boş ötürmə,
Gün faydasız itirmə,
Boyna günah götürmə,
Sual-cavab necədi?…
Ruhuna işgəncədi.
5. 05. 2003

KÖNÜL AHDAN ÇƏKƏR HARAY

Könül ahdan çəkər haray,
Haray candan sapar gedər.
Sevda tikər qəlbə saray,
Sarayın qəm çapar gedər.

Sultan eşqi həsrət üzər,
Kədər gözdə yaşı gəzər,
Kiprikləri şehlər bəzər,
Dərd ürəyi qapar gedər.

Dildə sözüm yalqızlayar,
Bağırımla bir sızlayar,
Ağrımı qəm tarazlayar,
Mənzilimi tapar gedər.

Nəş'ələrim qəlbi qucar,
Hər duyğuya min yol açar,
Olar eşqi aləmə car,
Könlə qala yapar gedər.

Ey Şadiman, təbim çağlar,
Dərdi bükər, qəm ayaqlar,
Gəzər ərzi bu ayaqlar,
İlahımı göyə bağlar,
Sinədən can qopar gedər.
2. 05. 2003

QƏRİB BİR TALEYİM VAR

Ürəyimə qəm oxuyan susub durmaz neyim var,
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

Həsrət çəkir ağrılarım bu sinəmin ahına,
Əllərim haqq dərgahında duaçı Allahına,
Zülmətlərim qol götürüb oynayır sabahına,
Batıb qalıb ələmlərim etdiyi günahına,
İlhamımın qədəhindən süzülən can meyim var,
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

Gözlərimin şəbnəmləri isladır gecələri,
Bağırımdan min bir sual qəhr edir necələri?
Qəlbin dəli duyğuları diləyin incələri,
Boğur məni idrakımın o pələng pəncələri,
Nə yaxşı ki, ağrılara dözən könül neyim var,
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

Əzabların dəryasında boğulur saatlarım,
Misra-misra, qətrə-qətrə doğulur qəm qatlarım,
Bağırımdan şırımlanır dərman tapmaz çatlarım,
Neçə dəfə peyda olur, boğulur həyatlarım
Ağrılardan nəş'ələnmiş ürək adlı keyim var,
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

Sübhün gözü açılandan sübhə qapı oluram,
Köz bağlamış qəlb yarama cərrah sapı oluram,
Zamanımın at oynadan tarpatapı oluram,
Ürək ovan arzulara qalaqapı oluram,
İç yuvamdan qopub düşən misra adlı neyim var,
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

Kökləyirəm rübabımı inləyir ah-zar üstə,
Varlığıma niskil yağır dil anlamaz xar üstə,
Ürəyimin baharları çiçəkləyir qar üstə,
Təbim zirvələr dolaşır bağçasına bar üstə,
Həyatın dolaylarında yaşamağa səyim var,
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

Qələmimi can göynədir, kağız donur əlimdə,
Kəlmə-kəlmə diləklərim üsyan edir dilimdə,

Alışıram ocağımda köz oynayır külümdə,
Fələyin mizrabı çalır mənim könül telimdə,
Yaman baxan baxışlara şahanə gileyim var…
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

Ey Şadiman, nədir belə sinə yırtan zülümlər?
Dərd götürər xəncərini bağrını nə dilimlər?
Ağlımdan qopub düşər can göydən bilimlər,
Saatlarım sevdalanar hissim, duyğum elimlər,
Ürəyimə qəm oxuyan susub-durmaz neyim var,
Nə yazıq ki, bu dünyada qərib bir taleyim var.

3. 05. 2003

YARALAR GÖZ- GÖZ AĞLADI

Kipriklərim fəqan etdi,
Qaş altında göz ağladı.
Təbim coşdu nə qan etdi?
Dil içində söz ağladı.

Qəlbdən çıxdı duyğularım,
Artdı könlə sayğılarım,
Azdı gecə uyğularım…
Ocağımda köz ağladı.

Şərə məzar qazdım qaldım,
Misra-misra yazdım qaldım,
Yoxuşlarda azdım qaldım,
Ayaq altda iz ağladı.

Ötdüm vaxtı yuxu kimi,
Fələyin qəm oxu kimi,
Yordum yolu çoxu kimi,
Ömür qaçdı, diz ağladı.

Anlarımı tikdim-sökdüm,
Saata qul olub çökdüm,
Gözlərimdən qan-yaş tökdüm,
Vaxtı tikən biz ağladı.

Ey Şadiman, nədir suçun?
Göynəyirsən için-için,
Fələk açdı könlün için-
Yaralar göz-göz ağladı.

18. 05. 2003

TALEYİN YELLƏRİ ƏSDİ BAŞIMDA

Taleyin yelləri əsdi başımda,
Ağlayan göz oldu, alışan ürək.
İndi dərk elədim mən bu yaşımda,
Ömür bir şahanə qanadlı mələk.

O, elə uçur ki zaman atında,
Onu öz yolundan saxlamaq çətin.
Acılı-şirinli az həyatında,
Çox vaxtı tapmayır can səadətin.

Anlar elə uçur, elə uçur ki,

Əlimiz yetməyir saxlamağa da.
Dəcəl uşaq təki elə qaçır ki,
Gül təki ömrü yox qoxlamağa da.

Taleyin göyləri şıdırğı yağır,
Onun yağışları isladır məni.
Fəryad ki yetməyir, ha qışqır, çağır,
Batıb dəryasında könül yelkəni.

20. 03. 2002

NƏ TALESİZ BƏNDƏYƏMMİŞ ?

Nə dilədim döndü puça?
Mən ki, yaman gündəyəmmiş.
Canım qəmdən necə qaça?
Nə talesiz bəndəyəmmiş?

Bəxtim dərin bir quyudu,
Vulkan təki hey uyudu,
Niskilimi qanla yudu,
Nə talesiz bəndəyəmmiş?

Artırdıqca hicranımı,
Kəsdi dərdlə bu canımı,
Unutmadı ünvanımı,
Nə talesiz bəndəyəmmiş?

Ümidimi puç eylədi,
Bilmədi ki, suç eylədi,
Ömrüm təki köç eylədi,
Nə talesiz bəndəyəmmiş?

Şadimandan hər şey aldı,
Onu yaman günə saldı,
Bir quruca canım qaldı…
Nə talesiz bəndəyəmmiş?

9. 04. 2002

NİYƏ ŞAİR DOĞDUN MƏNİ, AY ANA?

Niyə şair doğdun məni, ay ana?
Niyə hamı təki olmadım mən də?
Girir bu ürəyim gündə min dona,
Batır duyğularım dumanda, çəndə.

Alışan könlümə sazaq gəzirəm,
Onun yanğıların soyutmaq üçün.
Mən özüm özümdən uzaq gəzirəm,
Bu dəli ilhamı ovutmaq üçün!

Niyə şair doğdun məni, ay ana?
Heç yerdə özümə məkan tapmıram.
Canım oda salıb məni, ay ana,
Oddan qurtulmağa imkan tapmıram.

Hamının qəm yükü sinəmdə yatır,
Bu ağır dərdlərə dözə bilmirəm.
Fəryadım içimdə boğulur, batır,
Könlü qəm əlindən üzə bilmirəm.

Niyə şair doğdun məni, ay ana?
Qəlbə divan tutur soyuq baxışlar.
Mən göllər pərisi, didərgin sona,
Dondurur sinəmi payızlar, qışlar.

Hamıdan soyuqluq, ögeylik gördüm,
Heç yerdə özümü tapa bilmədim.
Hey tale atımı sağ-sola sürdüm,
Yolum yoxuş oldu qopa bilmədim.

Niyə şair doğdun məni, ay ana?
Bu ağrı-acını çəkə bilmirəm.
Vallah, həyatımdan doymuşam cana,
Sinəmdən məlalı tökə bilmirəm.

Məni də ilhamsız doğaydın sən də,
Dünyaya hamıtək baxa biləydim.
Təbimi beşikdə boğaydın sən də,
Hamıtək ağ günə çıxa biləydim.

Aləmin qəm yükün çəkən könlümü,
Qəmlərin əlindən ala bilmədim.
Bütün kainatda səkən könlümü…
Tutub ürəyimə sala bilmədim!

Niyə şair doğdun məni, ay ana?
Doğulduğum günüm yalan olaydı.
Solaydı ömrümün dəni, ay ana?
Şadiman büsbütün talan olaydı.

6. 03. 2003

AĞLADIR KÖNLÜMÜ SULTAN TƏBİM

Bağrımı odlara atan təbim,
Ağladır könlümü sultan təbim.

Dözürəm hələ də min cövrünə,
Gör necə mən yanıram qövrünə,
Düşmüşəm bu alışan dövrünə,
Bağrımı odlara atan təbim,
Ağladır könlümü sultan təbim.

Hələ mənimlə davadı işi,
Nəş'əmi ələmlə doğrar dişi,
Sitəmdi bağrıma bu gərdişi,
Yorulub sinəmdə yatan təbim,
Ağladır könlümü sultan təbim.

Hər gecə ürəyimi qoparır,
Bilmirəm hansı səmtə aparır?
İtirir, sonra da göyü arır,
Gah çıxıb, gah da ki, batan təbim,
Ağladır könlümü sultan təbim.

Yalvarıb əl açıram Allaha,
Bir məni sağ çıxara sabaha,
Dözmürəm eylədiyi bu aha,
Aləmi hər cürə qatan təbim,

Ağladır könlümü sultan təbim.

Gah üzür dəryada balıq kimi,
Gah ötür hökümlə xalıq kimi,
Gah düşür cəbrinə qalıq kimi,
Hesabın kəsirlə tutan təbim,
Ağladır könlümü sultan təbim.

Elə ki, günəşə, aya dönür,
Daşdırır çeşməni, çaya dönür,
Ürəyimlə aha, vaya dönür,
Ömrümə dərd yükü çatan təbim,
Ağladır könlümü sultan təbim.

Yetməyir Şadimanın dadına,
Yanıram atəş ilə oduna,
Düşməyir əhdi-ilqar yadına,
Məni ilhamına satan təbim,
Ağladır könlümü sultan təbim.

3. 03. 2003

YENƏ KÖNLÜM QUŞU CÖVLAN ELƏYİR

Yenə könlüm quşu cövlan eləyir,
Qəlbimin ahıyla dövran eləyir.
Yenə ötür ürəyim " Şur " ilə,
Təb vurur könlə özün qan eləyir.
Gözümdə cilvələnir yaş dənizi,
Çalxadır qəlbi yarımcan eləyir.
Yenə bağrım savaşır ah ilə,
Qanımı bir dolu fincan eləyir.
Dil açır dadıma tez yetmək üçün,
Yetişir dilimi şan-şan eləyir.
Düşəli bu ürəyim naləyə,
Qəm gəlir könlümü nişan eləyir.
Sığmayır ev-eşiyə ilhamım,
Özünü, məni pərişan eləyir.
Salıbdı zülümə bu Şadimani,
Ömrümü ahıya viran eləyir.

3. 03. 2003

NƏ SIZLAYIB KÖNLƏ SİTƏM EDİRSƏN ?

Nə sızlayıb könlə sitəm edirsən?
Qoyma məni yarı yolda, ürəyim.
Gecə-gündüz ömrü matəm edirsən,
Necə durum mən bu halda, ürəyim?

Toxdamayan arzularım bitməyir,
Tufanları nə müddətdi ötməyir?
Mələllarım yenə candan getməyir,
Qoyma məni qeylü-qalda, ürəyim.

Hələ neçə misralarım söz istər,
Bu həyatım ocağından köz istər,

Hər duyğuma bir işıqlı göz istər,
Tən tapmazsan bu misalda, ürəyim.

Titrəyirsən şaxta vurmuş bucaqtək,
Ağlaşırsan od görməmiş ocaqtək,
Açılmısan haqq dərgaha qucaqtək,
Nə qalırsan belə dalda, ürəyim?

Atma məni qorxuya, sək-səkiyə,
Bölmə ömrü belə tezkən ikiyə,
Dərdlərimi vursan əgər çəkiyə…
Min əzab var hər misqalda, ürəyim.

Şadimanı gəl dolandır başına,
Rəhmini et gözdən axan yaşına,
Hər mərəzi qoyma könlün başına,
Həmdəmim kim, bu vüsalda, ürəyim?

21. X11. 2002

BU NECƏ TALEDİ YAŞAYIRAM MƏN ?

Bəbəkdən tökülür ələm yaşları,
Rəbb niyə yaratdı könlüdaşları?
Kədər ürəyimin can sirdaşları,
Dünyanın ağrısın daşıyıram mən,
Bu necə taledi yaşayıram mən?

Dənizdə fırtına qalxıbdı şahə,
Hər ah da çevrilir yanan günahə,
İçimdə qasırğa bağlı sabahə,
Yer, göyü bürüyüb həm sazaq, həm çən,
Bu necə taledi yaşayıram mən?

Külək yalquzaqtək ulayır elə,
Dalğalar göyləri sulayır elə,
Aləmi bir nalə bulayır elə,
Can ağla söyləyir, şükür eylə sən,
Bu necə taledi yaşayıram mən?

Dəmir direklərdən haray yüksəlir,
Könlümdə qüssədən saray yüksəlir,
Qəlbin üsyanından hər vay yüksəlir,
Üzülür ömrümün anları dən-dən,
Bu necə taledi yaşayıram mən?

Fırtına Xəzəri döyür yad kimi,
Köksü ərşə qalxan ah-fəryad kimi,
Bilməm əsir edib burda kim-kimi?
Can uçur bağrımdan, şivən edir tən,
Bu necə taledi yaşayıram mən?

Nəfəsi kəsilir burda dənizin,
Yox edir qasırğa dalğanın izin,
Rəbbin ayağında su dizin-dizin,
Yalvarır rəhm eylə yerə, göyə sən,
Bu necə taledi yaşayıram mən?

Yuyur dəli Xəzər ağrı-acımı,
Küləklər qurubdu könül tacımı,

Oxşayır tufanlar ehtiyacımı,
Könlümün yarasın qaşıyıram mən,
Bu necə taledi yaşayıram mən?

22. X11. 2002

KÖNLÜM DÜŞÜB ÇOVĞUNA

Könlüm düşüb çovğuna…
Tufana həsrət sazaqlar kimi.
Düşmək olmur yovğuna,
Ünüm yetməyən uzaqlar kimi.
Ürəyimin ağrısı hayqırır mənə,
Hönkürür dönə-dönə,
Qəribi ölmüş dağlar kimi!
Dilimin harayı lal olub,
Qəlbim halbahal olub,
Nəfəsi kəsilən küləklər sayaq,
Bütün gecələrim mənimtək oyaq,
İçimdə başsız fırtınalar çapır,
Könlümü qana həris qurd təki qapır.
Ömrüm dənizin ortasında,
Tufanların sinə cıran yasında-
Dəmir direklərin dustağı,
Dolaşıb dalğalara zamanımın bağı,
Qırılmağa amadədi,
Ürəyimdə bu ağrılar nədi?
Bu dəli-dolu vaxtın əlində,
Mən də acı taleyimlə oturmuşam vaxtın belində.
Xəzər coşanda dalğalar qaldırır məni şahə,
Gumanım qalmır gələn sabahə…
Allahın ətəyindən bərk-bərk yapışıram,
Gecə-gündüz qədərimlə qapışıram.
Əgər bir balaca büdrəsə yıxacaq məni,
Dənizin dibinə taxacaq məni.
Ürəyim fırtına vurmuş qağayıtək çırpınır,
Yenə də Allahına tapınır.
Ahlarıma şükür edə-edə yaşayıram,
Pak, günahlardan uzaq bir insan ömrü daşıyıram!
Bu fələyin mənə yazdığı yazı,
Çağlayır könül sazı…

22. X11. 2002

YANDIRAR KÖNLÜMÜN İÇİN ŞAM KİMİ

Yandırar könlümün için şam kimi,
Kədəri qəlbimi didən taleyim.
Töküldü başıma uçqun dam kimi,
Məni bağrı qarə edən taleyim.

Bir kimsə bilməyir nə çəkirəm mən?
Üzür ürəyimi əzabım dən-dən,
Sənin atəşindən yarandınmı mən?
Fələyin badına gedən taleyim.

Dözə bilməyirəm o sitəminə,
Dirikən dərd dolu o matəminə,
Bağrım kabab olub sənin qəminə,
Ağrılı canıma bədən taleyim.

Gəl gir ürəyimə gör nə gündədi?
Sənin harayına səsdə, ündədi,
Elə açılmayan bir düyündədi,
Söylə, yazıq könül, nədən taleyim?

Əfsus ki, şeytanlar girdi qoynuna,
İti caynağını gərdi boynuna,
Tuş oldun fələyin acı oynuna,
Şahmarı, gürzəni güdən taleyim.

Sənin iztirabın sinəmi tapır,
İti qılıncıyla bağrımı çapır,
Dərdin ürəyimə qalalar yapır,
Olub ağrılara gödən taleyim.

Şadiman bu dərdi çəkdikcə bitməz,
Ölüncə sinəmdən əzabın getməz,
İblis rəhmə gəlib yolundan itməz,
Bu acı ömrümə mədən taleyim.

28. 09. 2002

BİR İNSAFA GƏL BARI

Nədir belə qəm içində üzürsən?
Dalğın-dalğın məni gendən süzürsən,
Ürəyimi ayrılığla üzürsən,
Qəlb içinə iztirablar düzürsən,
Ar bilməzin nə namusu, nə arı?
Aman baxtım, bir insafa gəl barı.

Dünya əzab, suyu zəhər, içi boş,
Fələk kefli, qədəh dolu, nə sərxoş?
Ömür atın zaman atına gəl qoş,
Sarayımdan uçulubdu eşq barı,
Aman baxtım, bir insafa gəl barı.

Kimsə səni öyüb könlə heç salmaz,
İncəyəndə küskün qəlbi eşq almaz,
Hamı təki dünya sənə də qalmaz,
Bağırırsan dərd içində, gün yarı,
Aman baxtım, bir insafa gəl barı.

Saatlarım əldən düşdü töküldü,
Ürəyimə qaranlıqlar çöküldü,
Qəlb sarayım dərd əlindən söküldü,
Üzdü könlü bu dunyanın ah-zarı,
Aman baxtım, bir insafa gəl barı.

Haraylarım bağırımda boğular,
Dağtək şişib, bu sinəmə dağılar,
Ürəyimdən qopar ahla ağılar,
Rəbb əlində zalım bəşər bir darı,

Aman baxtım, bir insafa gəl barı.

Şadimanı kimsə duymaz, anlamaz,
Bir kimsəni fələk məntək danlamaz,
Mənim kimi dərd heç kəsi yanlamaz,
Ömür keçir, mənzil qısa, yol yarı,
Aman baxtım, bir insafa gəl barı.

17. X1. 2002

MƏN ÖZÜMƏ AĞLADIM

Əsdi başımda yellər,
Axdı gözümdən sellər,
Ağardı qara tellər,
Öz sözümə ağladım,
Mən özümə ağladım.

Könlümə varmadılar,
Halımı sormadılar,
Qəmimi yarmadılar,
Od-közümə ağladım,
Mən özümə ağladım.

Dildə qabarım oldu,
Nəş'ə nübarım oldu,
Hicranlar yarım oldu,
Bu dözümə çağladım,
Mən özümə ağladım.

Diləyimi ütdülər,
Məni qəmgin etdilər,
Guya kama yetdilər,
Hey gözümə ağladım,
Mən özümə ağladım.

28. 04. 2002

KƏSİLDİ NİYƏ AMANIM ?

Fələyim, mənə həyatı,
Puç etdin, artdı yamanım,
Döndərdin vaxtı, saatı,
Dayandı yolda zamanım.

Qaçdıqca daldan yüyürdün,
Cəhrəndə yuntək əyirdin,
Özünü elə öyürdün,
Olmadın niyə mehmanım?

Qəmimə oldun təşinə,
Qarışdın könlün işinə,
Çox döydün, əfsus döşünə,
Vurduqca məni dişinə,
Kəsidi ahım, amanım.

Dilimdən dua istədin,
Bağrımdan hava istədin,
Canımdan yuva istədin,
Gəlmişdi sənə gumanım.

Fələyim götür diləyi,
Ruhumun odur mələyi,
Tərpətmə yerdən ürəyi,
Çarəni bulmaz loğmanım.

Dünyamız aha mübtəla,
Cəzanı verən haqq-tala,
Düşübdü bizə hər bəla,
Əlində həyat dərmanım.

Soldurma məni çölümdə,
Batırma kədər gölümdə,
Sənindir dirin, ölümdə,
Ay mənim dinim, imanım.

Şadiman qulundur dedim,
Bu həyat yolundur dedim,
Əzabın bulundu dedim-
Kəsildi niyə amanım?

25. X11. 2002

ÖTƏN GÜNLƏR KEÇDİ GETDİ

Ötən günlər keçdi getdi,
Ha səsləsən, haya gəlməz.
Ürəkdən su içdi getdi,
Etdikləri saya gəlməz.

Çıxıb getməz heç başımdan,
Asılıbdı tələşımdan,
Çeşmə tutan göz yaşımdan,
Dəhnə dolar, çaya gəlməz.

Hər gün təzə başlar gedər,
Xatirəmi daşlar gedər,
Anlar ömrü başlar, gedər,
Nə ilə, nə aya gəlməz.

Vaxt saatı haxlayanda,
Anı gültək qoxlayanda,
Ağıl başda yuxlayanda,
Təbim ucuz paya gəlməz.

Yer titrəyər fəryadımdan,
Ahlar doğar muradımdan,
Adım çıxar lap yadımdan,
Dağlar qopar, qaya gəlməz.

Məni könlə güldürərlər,
Ürəyimdən sildirərlər,

İlhamımı öldürərlər,
Canım bu ah-vaya gəlməz.

Ey Şadiman, tut qələmi,
Sözlə ovut bu aləmi,
İlhamım bir dolu zəmi,
Ha biçərsən, taya gəlməz.
3. 02. 2003

NƏ BAXIRSAN MƏ'LUL- MƏ'LUL?

Nə baxırsan mə'lul- mə'lul?
Məndən üzün döndərən bəxt.
Ürəyimi nəş'ədə bul,
Qəlbimə qəm əndərən bəxt.

Diləklərim ərşə qaçar,
İlahiyə əlin açar,
İçimdə min şö'lə saçar,
Qəlb bağımdan gül dərən bəxt.

Səni cana od sanmışdım,
Alovunla çox yanmışdım,
Bəlkə elə aldanmışdım,
Könlə duman, çən sərən bəxt.

Ürəkdə çox sözüm qalıb,
Hələ təndə közüm qalıb,
Yollarında gözüm qalıb,
Ol ömrümə ər, ərən bəxt.

Ağladırsan dinməyirəm,
İnadımdan dönməyirəm,
Sularından enməyirəm,
Dəryada yox heç bərən bəxt.

Çıxartmırsan səs-səmiri,
Etdi ahın mum dəmiri,
Verib ömrə sərt əmiri,
Qəm evinə göndərən bəxt.

Şadimanı al bağrına,
Sevgilitək sal bağrına,
Tökmə qeylü-qal bağrına,
Məni düşmən, ay görən bəxt.
24. X11. 2002

YENƏ KÖNLÜM TƏBLƏ CÖVLAN ELƏYİR

Yenə könlüm təblə cövlan eləyir,
Sinəmdə ah ilə dövran eləyir,
Nəş'əmi qəlbimə bir an eləyir,
Girir bağrın için al qan eləyir,
Tapıbdı hər bəla dünyada məni,

Gör necə atıbdı fəryadə məni?

Yanıram cövr ilə atəş oduna,
Necə ki, yandı göy günəş oduna,
Ürəyim etmədə hey qəş oduna,
Olubdu vücudum küləş oduna,
Sandı zatən niyə o sadə məni?
Gör necə atıbdı fəryadə məni?

Yenə könlüm elə həsrətdə gəzir,
Alıb ilhamımı vüs'ətdə gəzir,
Qoymağa ruhumu heyrətdə gəzir,
Səmanı seyr ilə sürətdə gəzir,
Haxlayıbdı elə bil qadə məni,
Gör necə atıbdı fəryadə məni?

Döndərir könlü gülüstanə elə,
Ya da ki, tarlaya, bostanə elə,
Çevirir sözümü dasatanə elə,
Ürəyi qoydu zimistanə elə,
Salmadı eşq ilə heç yadə məni,
Gör necə atıbdı fəryadə məni?

Dolaşır könlümü ah, başa vurur,
Qoparır şivəni göz - qaşa vurur,
Bəbəyi coşdurur hey yaşa vurur,
Özünü dəlidi, dağ-daşa vurur,
Bənzədir yağı kimi yadə məni,
Gör necə atıbdı fəryadə məni?

Can atır sitəmi çala qanadı,
Könlümün göyünü ala qanadı,
Köçünü zirvədə sala qanadı,
Olubdu bağrıma qala qanadı,
Səsləyir hay ilə imdada məni,
Gör necə atıbdı fəryadə məni?

Elə çəkir canı bu qəmə tərəf,
Baş vurur o sirli aləmə tərəf,
Düşürür gözümü hey nəmə tərəf,
Gəlməyir heç cürə xoş dəmə tərəf,
Qoyubdu ahimə, amadə məni,
Gör necə atıbdı fəryadə məni?

Yenə könlün təbi uçur haraya?
Yetməyir mən dili - zarə haraya,
Gəlməyir sinəmə çarə araya,
Ülfəti varmı söylə can saraya?
Buraxıb zülmünə azadə məni,
Gör necə atıbdı fəryadə məni?

Qəmləri hər anda min bar elədi,
Ürəyim zülümünə qubar elədi,
Dərdimi eşq ilən nübar elədi,
Könlümü ahlara anbar elədi,
Gəzdirir hər gecə röyada məni,
Gör necə atıbdı fəryadə məni?

Şadimanın nə görür çəkdiyini?

Bağrını başına qəm əkdiyini,
Gözünün yaşını hey tökdüyünü,
İlhamın önününə diz çökdüyünü,
Eləyib ağrıya bəyzadə məni,
Gör necə atıbdı fəryadə məni?

17. X11. 2002

ÖMÜR BƏXTƏ DÜŞƏN DƏMDİ

Bu ürəyim qalıb, Allah,
Canla tənin arasında.
Diləklərim çəkir min ah,
Bağrım sızlar yarasında.

Duyğularım dodaqda mey,
Axar qəlbdən edər giley,
Dəli könlü aradım hey,
Buludların sırasında.

Həzin-həzin titrər sinə,
Girər kədər, qəm köksünə,
Zaman qaçar səsə, ünə,
Ömrü anım harasında?

Dərdim, sanki mey – içərəm,
Sərxoş təki yol keçərəm,
Ahı əkib qəm biçərəm-
Gözlərimin qarasında.

Söndürməsin Rəbb şamımı,
Ağlatmasın heç kamımı,
Qoruyaram ilhamımı,
Ürəyimin parasında.

Ey Şadiman, nə qələmdi?
Bəmi zildi, zili bəmdi,
Ömür bəxtə düşən dəmdi…
İlahinin çarasında.

24.X11.2002

BİR DÜNYALIQ HƏSRƏTİM VAR

Bir dünyalıq həsrətim var,
Qucağından atılaydım.
Hicranda can surətim var,
Ocağına çatılaydım.

Dərd sinəmi yıxıb tökdü,
Vüsalımın gözün tökdü,
Ümidlərim yaman çökdü,
Kaş nəş'əyə qatılaydım.

Hey gizlətdim ürəyimi,
Tapıb çapdım diləyimi,
Tutdu oxa kürəyimi,
Əzabından qurtulaydım.

Bir dünyalıq həsrət naşı,
Könlümdəki qəm tələşı,
Tapıb qəlbə can sirdaşı,
Sevdasına satılaydım.
10. 01. 2003

İLHAMIMI GÖRƏN ALLAH

İlhamımı görən Allah,
Bu sinəmə sözün saldı.
Atəşimi verən Allah,
Ocağıma közün saldı.

Hey atışdım günahlarla,
Könlüm doldu nə ahlarla?
Gəldi haqqım sabahlarla,
Yollarıma izin saldı.

Üz tutduqca Yaradana,
Hey işlədi ətə, qana,
Aldı üstü, yetdi cana,
Ürəyimə özün saldı.

Kəmalımı görmək üçün,
Bağrımdan bar dərmək üçün,
İblisimi görmək üçün,
Şüuruma közün saldı.

Yaratmadı Rəbb qəlbi daş,
Qəmi gözlə etdi sirdaş,
Eyləmədi rəsmini faş,
Lal üzümə özün saldı.

Duyğuları basdı küncə,
Öyüd verdi gündüz, gecə,
Yaradanım incə-incə,
İçimdə haqq düzün saldı.
9. 01. 2003

BİR SƏDAQƏT OCAĞIYAM

Bir sədaqət ocağıyam,
Sədaqətim heç solmasın.
Ülfətlərin qucağıyam,
İtaətim heç solmasın.

Könlüm təblə yuvadadı,
Hissimlə bir havadadı,
Dilim haqqa duadadı,
İbadətim heç solmasın.

Gecə-gündüz yandım oda,
Düşdüm ahdan hey fəryada,
Əyilmədi dilim yada,
Ədalətim heç solmasın.

Hey ürəyə paklıq yapdım,
Atəş güdüb, odu qapdım,

Gah itirdim, gah da tapdım,
Qəm adətim heç solmasın.

Dəli sellər təki coşdum,
Həm qaynadım, həm də daşdım,
Saray oldum - dünən daşdım,
Bu qüdrətim heç solmasın.

Ey Şadiman, can piyalə,
Salma əldən, etmə nalə,
Rəbb bağında ömür lalə,
Təbiətim heç solmasın.
10. 01. 2003

KÖNLÜMÜN DUYĞUSUN İNLƏT, EY ŞEİR

Könlümün duyğusun inlət, ey şeir,
Yenə də qəlbimi dinlət, ey şeir.

Səndə ürəyimin aynası parlar,
Əriyər sinəmdən boranlar, qarlar,
Sənsiz varlığımı hicran məzarlar,
Gəl qopsun bağrımdan bu ahi-zarlar,
Könlümün duyğusun inlət, ey şeir,
Yenə də qəlbimi dinlət, ey şeir.

Səni duyan da var, duymayan da var,
Mələyim, eşqinə uymayan da var,
Başını qəlbinə qoymayan da var,
Ülkər varlığını saymayan da var,
Bütün vücudumu titrət, ey şeir,
Tanrıdan əbədi fitrət, ey şeir.

Bağında qönçələr açdıqca açar,
Ürəyim qapını hər gecə açar,
O mələk simanın yanına qaçar,
Sənlə birlikdə bu könlüm uçar,
Duyğulu başlarda heyrət, ey şeir,
Allahın verdiyi qüdrət, ey şeir.

Sevginlə, eşqinlə qanadlı quşam,
Ağlayan gözündən tökülən yaşam,
Sənin üzüyünə parlayan qaşam,
Lal olduğun zaman, mən də bir daşam,
Qəlbimin başını göynət, ey şeir,
Ağrını könlümə söylət, ey şeir.

Mən dilsiz səhrayam gəl küləyim ol,
Saysız duyğulara bir ələyim ol,
Səcdənə gəlmişəm pak mələyim ol,
Eşqi diləndirən şad ürəyim ol,
Götür zamanımtək sürət, ey şeir,
Eyləmə könlümə minnət, ey şeir.

Ağlayan ruhuma şirin layla çal,
Qopar ürəyimi bu sinəmdən al,

Əbədi təbimin sarayında qal,
Həsrətin bağrıma qoy salmasın xal,
Sən ey həyatıma zinət, ey şeir,
Xaliqi haqq edən xilqət, ey şeir.

Qapımı döyəndə dildar oluram,
Sənin mö'cüzənlə hey yar oluram,
Sənin işığında mən var oluram,
Yığışıb gedəndə dilzar oluram,
Gəl könlüm eyləsin izzət, ey şeir,
Məni ürəyində gizlət, ey şeir.

Mən çağlayan bulaq, sən coşqun sel ol,
Bağrımın simini titrədən tel ol,
Məni göylərində uçuran yel ol,
Günəştək şəfəqlən, açıl tel-tel ol,
Coşdur vücudumu, ağlat, ey şeir,
Məni də özünlə çağlat, ey şeir.

Sənə dodaq büzən ürəksizmidi?
Bir parça qayadı, diləksizmidi?
Bəşərin özünə gərəksizmidi?
Allahsız, sevgisiz, fələksizmidi?
İlahi göndərən sən'ət, ey şeir,
Bütün pisliklərə lənət, ey şeir!

Səni Alahınmı mənə can edib?
Solan damarıma coşqun qan edib,
Eşqin bağırımı lap büryan edib,
Şadiman qəlb verib, bəlkə qan edib?
Rəbbimdən ürəyə dəvət, ey şeir,
Ömrümə, günümə qüvvət, ey şeir.

6. 01. 2003

BİR DOLU ÇEŞMƏYƏM

Bir dolu çeşməyəm suyum çağlayar,
Ürəyim dəlisov küləyə bənzər.
Özümdən xəbərsiz könlüm ağlayar,
İlhamım utancaq mələyə bənzər.

Xəyalım dolaşar gəzər dünyanı,
Acını, ağrını azaltmaq üçün.
Könlümə şah edər gecə röyanı,
Yuxuma əlimi uzatmaq üçün.

Nə üzüm xəyaldan qopa bilmirəm,
Nə yuxum gözümə yığışmaz müdam.
Nə canı bədəndə tapa bilmirəm,
Nə duyğum ürəyə sığışmaz müdam.

Mən atəş olaram gur ocaqlara,
Tufanlar içində külüm sovrular.
Ürək qopub düşər künc-bucaqlara,
Zərrəsi odumda yanıb qovrular.

Bütün vücudumu titrədər təbim,
Bağrımı özünün qulu eyləyər.
Duyğular tapılmaz dərmanım, həbim,

Loğmanı, həkimi, pulu neyləyər?

Elə kövrələrəm bir uşaq kimi,
Şirin xəyallara çıraq tutaram.
Dolanar boynuma təb qurşaq kimi,
Sığınıb köksünə səssiz yataram.

Bir dolu çeşməyəm qurumaz gözüm,
Çağlaram meşələr, çöllər içində.
İlhamım coşmasa arımaz gözüm,
Dilim ötüşərmi dillər içində?

Şadiman çapdıqca xəyal atını,
Duyğudan-duyğuya çox cilalaşır.
Nəğməyə tutubdu bu həyatını,
Onunçın zirvədən-zirvəyə aşır.

7. 01. 2003

NƏ QANAD AÇMISAN SEVDALI ÜRƏK?

Nə qanad açmısan sevdalı ürək?
Gəzirsən diləkli çağlar içində.
İşvəli, qəmzəli, ədalı ürək,
Fələk peymanını bağlar içində.

Dolub boşalırsan buludlar təki,
Əyilmək bilmirsən palıdlar təki,
Düşübdü üstünə ən ağır çəki,
Dünyanın sitəmi ağlar içində.

Hey haray çəkdikcə, bağrı taladın,
Üstümə min acı-ağrı qaladın,
Sən ki, basılmayan uca qaladın,
Nəş'əni bəs nədir dağlar içində?

Yerləri, göyləri hey dolaşırsan,
Sellərə qoşulub aşıb-daşırsan,
Yenə kainatla pıçıldaşırsan,
Qalmısan meşələr, bağlar içində.

Qəlbi zamanımdan niyə qopardın?
Özünlə zirvəyə, dağa apardın,
Bir vaxt bu sinəmdə tufan qopardın,
İndi də küləyin çağlar içində.

Səni tapmaq üçün mən gedim hara?
Gəzirəm dünyanı nə sora- sora?
Özün de dərdimə eyləyim çara,
Qoyma gözlərimi ağlar içində.

Keşikçi olmusan göyün üzünə,
Dönmüsən buludun axan gözünə,
Necə salım səni bu yer üzünə?

Asılıb qalmısan tağlar içində.

İlahi eşitmir bu dil duvamı,
Ürək, necə udum sənsiz havamı?
Tərk edib getmisən könül yuvamı,
Səni necə tapım sağlar içində?

9. 01. 2003

NƏ GƏZİRSƏN ZARI-ZARI

Nə gəzirsən zarı-zarı?
Könül, sənə baxan yoxmu?
İlhamının var qubarı,
Qəmi yerə çaxan yoxmu?

Nə əsmərsən tüllər təki?
Açılmısan güllər təki,
Köz üstündə küllər təki,
Bağrına od yaxan yoxmu?

Mən atəşəm, yan tüstümə,
Qəm kor olsun, qoy tüstümə,
Götür qələm, gəl üstümə,
Sənə ögey baxan yoxmu?

Könül, ələm guşəsiyəm,
Mən kədərin nəş'əsiyəm,
Həqqın vuran tişəsiyəm,
Əllərini sıxan yoxmu?

Sevdaların ötüşərlər,
Ürəyimlə bitişərlər,
İmdadıma yetişərlər,
Acıları yıxan yoxmu?

Könül, sənin dadın məndə,
Duyğulara adın məndə,
Batdın qaldın duman, çəndə,
Qənşərinə çıxan yoxmu?

Şadimanı al köksünə,
Təbimizdən yer diksinə,
Nə söyləyir yad əksinə?
Ağza qıfıl taxan yoxmu?

9. 01. 2003

QƏLBİM HƏMDƏM ARAR DİLLƏR İÇİNDƏ

Tənhalıq – nə qədər ağırdı bu ad?
Qoparar içərdə min cürə fəryad,
Gözlərim arayar könlümə imdad,
Qalarsan ağrılı illər içində,
Qəlbin həmdəm arar dillər içində.

Bağrına tökülər dünyanın qəmi,
Ahın lərzə gələr tutar aləmi,
Sənə kədər verər ömrün hər dəmi,
Qalar odun, közün küllər içində,
Qəlbin həmdəm arar dillər içində.

Tənhalıq evinin yayı qış olar,
İnsan hənirtisi bir alqış olar,
Bu ömür bəxtinə nə qarqış olar?
Ürək haray çəkər tellər içində,
Qəlbin həmdəm arar dillər içində.

Saatlar tarıma çəkər əsəbi,
Hönkürər uşaqtək könlünün təbi,
Düşər gözlərindən yaşamaq dəbi,
Sükutun qırılar çöllər içində,
Qəlbin həmdəm arar dillər içində.

Ağlarsan hər gecə kor taleyinə,
Batarsan ələmin sərxoş meyinə,
Yer, göy nalə çəkər bu gileyinə,
Harayın qırılar yellər içində,
Qəlbin həmdəm arar dillər içində.

Dolanar belinə ələm qurşağı,
Dərd səni bürüyər başdan aşağı,
Əgər qismət olsa qocalıq çağı…
Sonatək batarsan göllər içində,
Qəlbin həmdəm arar dillər içində.

Tənhalıq, Şadiman, gəlməyir becə,
Boğar ürəyini həm gündüz, gecə,
Zərif könlün təki duyğular incə,
Qalarsan əlində sükutun necə?
Saralıb solarsan güllər içində,
Qəlbin həmdəm arar dillər içində.

8. 01. 2003

BİR OCAĞAM , KÖZ ÜSTÜNDƏ

Bir ocağam, köz üstündə,
İçimdəki külüm ağlar.
Alışaram söz üstündə,
Ürək zülüm-zülüm ağlar.

Sızlayaram dərdə, qəmə,
Ürək dözməz bu aləmə,
Düşər könül zilə, bəmə,
Ağzımdakı dilim ağlar.

Fəqanımı duymaz fələk,
Fəryadıma uymaz fələk,
Mənə nəş'ə qıymaz fələk,
Sinəmdəki telim ağlar.

Yazaram kor divanlardan,
Nalə çəkən ünvanlardan,
Haqqı satıb-sovanardan,

Qələm tutan əlim ağlar.

Ömür bəxtə bir zinətdi,
Vaxt əlində nə sürətdi?
Dünya cana bir minnətdi,
Bağrı dilim-dilim ağlar.

Ey Şadiman, ömür qaçar,
Əlimizdən anlar uçar,
Qalar qəlbin elə naçar,
Ötüb keçən ilin ağlar.
9. 01. 2003

QIRILIBDI QƏLBİN SİMİ

Qırılıbdı qəlbin simi,
Mizrab düşüb tel üstünə.
Ürək gözlər bircə himi,
Göz yıxılsın sel üstünə.

Dolub könlün asimanı,
İtiribdi din-imanı,
Yenə çəkib ox-kamını,
Bulud cumur yel üstünə.

Duyğularım oymaq-oymaq,
Altı pendir, üzü qaymaq,
Arzulardan olmur doymaq,
Səda düşüb el üstünə.

Canlar alan dünya nəçi?
Hardan-hara gedir köçü?
Karvan tutub könlün içi,
Yük əyilib bel üstünə.

Arzularım yolun azır,
Şadimana namə yazır,
Dərdlərimə məzar qazır,
Torpaq çıxıb bel üstünə.
3. 02. 2003

GÖR İLHAM NƏ FƏRMAN EDİR?

Bulud-bulud diləklərim,
Baş içində duman edir.
Qopanda sərt küləklərim,
Rüzgarımı yaman edir.

Ömür uçur anlar üstə,
Oda düşür canlar üstə,
Hərdən zildə, hərdən pəstə,
Nə müddətdi olub xəstə,
Ürəyim ah-aman edir.

Fikirlərlə dolaşıram,
Qanadlanıb dağ aşıram,
Ayla, illə yollaşıram,
Hər nə edir zaman edir.

Ömür-həyat bir nağıldı,
Başa – sultan, şah ağıldı,
Sabah gəldi, gün dağıldı,
Vaxt saatla peyman edir.

Cana məlhəm xoş günümüz,
Şadlığımız, düyünümüz,
Batsa içdə səs-ünümüz,
Ürək Rəbbə iman edir.

Ey Şadiman, külə köz ver,
Misralara görən göz ver,
Qoyma yansın dilə söz ver,
Gör ilham nə fərman edir?

3. 02. 2003

NƏ NAZİLDİN TELLƏR TƏKİ

Nə nazildin tellər təki?
Qoyma ömrü yolda, könül.
Rüzgar güdən yellər təki,
Qalma qeylü-qalda, könül.

Gəldin mənə yuxu kimi,
Məst eləyən qoxu kimi,
Fələyin kam oxu kimi,
Çıxıb qalma kolda, könül.

Qəlbdən qopan aha döndün,
Gah alışdın, gah da söndün,
İlhamımla bir döyündün,
Gəzdin sağda, solda, könül.

Can mülkümü əsdirirsən,
Sevda yolun kəsdirirsən,
Vüsalımı küsdürürsən,
Gözüm qalıb yolda, könül.

Səni tənə mələk bildim,
Atəşini dilək bildim,
Hər qəmzəni kələk bildim,
Olma min bir halda, könül.

Canıma ah sarıyarsan,
Qəmə düşüb qarıyarsan,
Şadimanı arıyarsan-
Arı təki balda, könül.

2. 02. 2003

ÜRƏYİ AĞLADIR İÇİN-İÇİN…

Sinəmdə talan olmuş ürəyim,
Başımın üstündə naləsi viran edən fələyim.
Bağrımın odunda alışıb yanan ilham mələyim,
Pərən-pərən duyğularım baş-başadır,
Bu beşğünlük ömür mənə tamaşadır.
Dünyanın acıları könlümdən keçir,
Bağrımın başını oraq zəmi biçən təki biçir.
Bütün kədərlər ürəyimdən qan içir,
Ağladır məni hönkür-hönkür,
Duyğuları qüssələrə bükür.
Bilməm, qədərim nədən könlümü belə yaratdı?
Onu fırtınalar içinə atdı.
Niyə bu adamlar kimi ola bilmirəm?
Göründüyüm təki qala bilmirəm.
Üzüm gülür, qəlbim ağlayır,
İçimdə kədər acıları çağlayır.
Viranə duyğular könlümə dolaşır,
Qəlbimin göyləri bulaşır.
Bir məkan arayıram tənhalığa qapılmaqçın,
Özümlə, sözümlə birlikdə yenidən tapılmaqçın.
Əlçatmaz, ünyetməz göylərə əl açıram,
Hərdən özümdən də qaçıram…
Bu başsız diləklərdən qurtulmaqçın,
Dünyanın nəş'ələrinə qatılmaqçın.
Ürəyimi ağlamaq tutur,
Canımı atəşə atır,
Adamların kədərlərinə,
Sinələri viran edən qədərlərinə,
Vaxtsız gələn ölümlərə,
Dünyanı parçalayan bölümlərə,
Üsyan dolaşır içimdə,
Kimsə kədər görməyib bu biçimdə.
Zamanın ahlarından qurtulmaqçın,
Yenidən cahana atılmaqçın,
Canım qalmayıb,
Elə bir ünvanım qalmayıb,
Qəmlərə bulaşmayım,
Ağrı-acıyla ulaşmayım.
Kədərsiz dünyanın dadı yoxdu, bəlkə,
İlahi salır adamı bərkə,
Sınağa çəkmək üçün,
Təmizləmək üçün insanın için-
Ürəyi ağladır için-için…

24. X11. 2002

ƏRİDİ KİPRİKLƏR İÇİNDƏ YAŞIM

Əridi kipriklər içində yaşım,
Necə buz ocaqda əriyən kimi.
Bir dinclik tapmadı bu qara başım,
Duydum dünya çəndi, yeriyən kimi.

Bütün səadətlər söndü gözümdə,
Həyat öz yolundan döndü gözümdə,
Diləklər mələyim endi gözümdə,
Qəm məni dumantək bürüyən kimi.

Ahım şəfəqləndi lap şö'lə təki,
Eyləyə bilmədim mən ona ərki,
Əyildim dərdimə bir kölə təki,
Yıxıb ürəyimi sürüyən kimi.

Şadiman, sinəmdə fəryad doğular,
Qopub bağırımdan şişib dağılar,
Gələnə fələkdən həyat doğular,
Gedəni həyatdan kürüyən kimi…
9. 04. 2002

SABAHIN ZÜMZÜMƏSİ GÜNAHLARA BƏND OLAR

Sabahın zümzüməsi günahlara bənd olar,
Ağlar könlün ahları nidaların içində.
Hökmü fələk oxuyar an zamana bənd olar,
Cana duyğudur şəfa qidaların içində.

Hər ürəyin öz simi, şirin zənguləsi var,
Göz yaşını çalxadan bəbəyin giləsi var,
Qəlblərdə fəqan edən vüsalın eşq səsi var,
Hicranı tufan salar sevdaların içində.

İnlədər sinələri dillərdən qopan duva,
Uçar bədəndən, sanki can bilməz təni yuva,
Vurar özün dəlitək min kərə oda, suva,
Batar ahı, naləsi sədaların içində.

Adəm zənn edər özü Allahından ucadı,
Bilməz bədəndə canı Yaradana bacadı,
Cismini torpaq edən dünya ondan qocadı,
Özün itirib bəndə ədaların içində.

Halal, haram bilməyir tutubdu gözünü qan,
Etdiyi əməlləri olub özünə divan,
Unudur o sağ ikən hara əbədi ünvan?
Çırpınır bəşər hər gün cidaların içində.

Ey Şadiman, nədir bəs içdə könlün harayı?
Qurubdu yerə, göyə tükürpədən ah-vayı,
Daşları bir-bir düşür, uçur könlün sarayı,
Can bədəni tərk edir vidaların içində.
10. X1. 2005

«YANIQ KƏRƏM »*

«Yanıq Kərəm » –
« Əsli, Kərəm » dastanın qəm havası,

İki qəlbin İlahiyə eşq duvası,
İki canın ovsunlanmış dərd yuvası,
Dövranına, zamanına can davası…!

«Yanıq Kərəm » –
Sevdalanmış könüllərin müsibəti,
Yandı ürək həm aşkarda, həm xəlbəti,
Göz yaşıyla axıb dolan qan səbəti,
İki gəncin bəxti qara məhəbbəti.

«Yanıq Kərəm » –
Məhəbbətin Rəbb sevdası, cana qida,
Səadəti qara gəlmiş iki qəlbdən qopan nida.
Barmaqları sarı simə haray salan dəli sevda,
İki gəncin alışdığı eşqə vida…

«Yanıq Kərəm » –
« Əsli, Kərəm » dastanın can fəryadı,
Bir millətin iki dində nalə dadı,
O xaçpərəst Albanyanın İslam adı,
İsa (s) ilə Mühəmmədin(s) Rəbb imdadı!…

«Yanıq Kərəm » –
Əsrlərin o tayında din savaşı,
Bir millətin gözlərindən axan yaşı,
İslamını tutan Kərəm dərdə naşı.
O xaçpərəst Əsli ilə can sirdaşı.

«Yanıq Kərəm » –
İki gəncin bir məhəbbət sinfonyası,
Bir tayfanın iki dində hicran yası,
Kərəm deyib yanan qızın qız həyası,
Külə dönən iki gəncə dövran ası.

«Yanıq Kərəm » –
Əsrlərin o tayının vicdan ahı,
Dinə müti o keşişin din günahı,
Lal eyləyib bu müsibət al sabahı,
Fəryad edir yerin, göyün tək Allahı…

«Yanıq Kərəm » –
Sarı simə toxunaraq dinsin sazlar,
Oynamaqçın, ay adamlar, çox avazlar,

Bu havanın sədasıyla qaynamazlar,
Bu faciə havasında oynamazlar!…
Bu faciə havasında oynamazlar!…

12. X1. 2005

(Şe'rdə "Əsli və Kərəm" dastanından götürülmüş saz havasından söhbət gedir.)*

GECƏ, AY MEHMAN GECƏ

Gecə, ay mehman gecə,
Hər işi səhman gecə.
Süd təki ay işığı,
Üzünün yaraşığı.
Göydən yerə nur tökür,
Dünyaya şəfqət çökür.
Küləkləri əsirlər,
Göyün bağrın kəsirlər.
Ləpələri odlayır,
Dənizi fəryadlayır.
Qışın oğlan çağında,
Tufanlar sorağında.
Soyuğu qılınc təki,
Ağ qarı balınc təki.
Ayağ altda xışıldar,
Bəyaz tültək parıldar.
Göy yerə çıraq tutub,
Zülmətlər soraq tutub.
Sığınıb qaranlığa,
Ay düşmən toranlığa.
Gecə, çıraqban gecə,
Sevdalıdır can, gecə.
Mənə laylalar oxu,
Gəlsin gözümə yuxu.
Gözdolusu bir yatım,
Qəlbdən möhnəti atım.
Dinim, imanım gecə,
Gecə, mehmanım, gecə.

7. 02. 2006

ELƏ DÜŞMÜŞÜK OYNA

Nə gəzirsən fikirli?
Bəxtin dolaylarıyla.
Hicran elə məkirli,
Can alır vaylarıyla.

Taleyi bulma ahda,
Ahı min bir günahda,
Həsrət ölüb sabahda-
Qan axır çaylarıyla.

Zülmətin üzü bəddi,
Əymə qaməti, qəddi,
Kim ki, bilmədi həddi-
Batacaq haylarıyla.

Fikirlər haçalanır,
Ürəyə qor calanır,
Dünya elə talanır,
Dolu saraylarıyla.

Dərd gəlir axın-axın,

Onu yandırıb yaxın,
Yaradan bizə yaxın-
Qanlı haraylarıyla.

Zaman özü bir ayna,
Bax ona elə oyna.
Elə düşmüşük oyna-
Bu ömrün aylarıyla.
8. 02. 2006

GECƏMİN NALƏSİNƏ QAPANDI KİPRİKLƏRİM

Gecəmin naləsinə qapandı kipriklərim,
Bəbəklərim ah dedi ürəyimin səsinə.
Qapımdan girən qəmə sapandı, kipriklərim,
Doğulub məhbus oldum bu dünya qəfəsinə.

Zülmətlərin içindən səhəri harayladım,
Sabahın iztirabı axşama qovdu məni.
Ulduz-ulduz göylərin sinəsində vayladım,
Qaranlığın mehləri sovurdu, sovdu məni.

Dünyanın pəncərəsi bağlandı gözlərimə,
Dərin quyuya düşdü ümidlərim bir anda.
Diləklərim çırpıldı tale dənizlərinə,
Ağrılarım əbədi boğulub qaldı canda.

Püskürdü ürəyimin atəşləri aləmə,
Odu dünyanı sardı, özümü isitmədi.
Çökdüm pənah sandığım əlimdəki qələmə,
Vərəqləri ağlatdı, ağrılarım bitmədi!

Demə, doğulmaq özü işgəncəymiş nə bilim?
Nəş'ə ilə ələmsə əbədi çarpışmada.
Bütün yamanlıqlara haray qopardı dilim,
İnsan bədənində can şeytanla tapışmada.

Gecənin naləsinə sükut etdi ürəyim,
Bu sükunət haqqıma bir açılan qapıymış.
Sarılarkən boynuma çılğın ilham mələyim,
Əllərində tutduğu ömrün hicran sapıymış.
8. 02. 2006

DİLƏKLƏRİM HAVADA

Diləklərim havada,
Dilim haqqa duvada.
Atəşə köz olmuşam,
Çeşməyə göz olmuşam,
Sevdalanıb uçuram,
Mən özümdən qaçıram.
Duyğumu bahar etdim,
Nəş'əmlə nahar etdim.
Hər sözümdə bilməcə,
Həm gündüz, həm də gecə,
İlhamıma yar oldm,

Hicranıma zar oldum.
Eşqindən cana gəldim,
Arıtək şana gəldim.
Hər çiçəkdən bal çəkdim,
Hər cür qeylü-qal çəkdim.
Özümü yanladılar,
Sözümü danladılar.
Közümü anladılar,
Biri can dedi mənə,
Mini yan dedi mənə.
Odu su bildim içdim,
Neçə atəşdən keçdim?
Qəmi gün ilə biçdim,
Yandım hər səhər-axşam,
Mənə tən gəlmədi şam.
Gah dağtək dumanladım,
Ahladım, amanladım.
Söz məndən yan keçmədi,
Təbimdən can keçmədi.
Birgə sevdalandılar,
Elə birgə yandılar.
Atəşləri qor oldu,
Bu ömrümə zor oldu.
Bu məhəbbət bitmədi,
Ürəyimdən getmədi.

10. 02. 2006

VAXT UÇUR YELTƏK

Vaxt uçur yeltək,
Çaylarda seltək.
Ömrə baxmayır,
Anı yaxmayır.
İl-ili qovur,
Hey satır, sovur.
Sözdən boylanır,
Közdən boylanır.
Başa haylanır.
Hesabı yoxdu,
Həmişə toxdu.
Ömrü qaldadır,
Sanki bal dadır.
Gəlir dad ilə,
Min fəryad ilə.
Ağlı tovlayır,
Qəlb alovlayır.
Günü ovlayır,
Həm səadəti,
Həm qəm adəti.
Vaxt uçur elə,
Dən salır telə.
Ömrü qocaldır,
Özün ucaldır.
Sanki hörmürçək,
Hər toru çiçək.
Hər vaxtın dadı.
Hər ömrün adı.

10. 02. 2006

DÜZ DÜZDƏ QALAR

O adam batdı
Dil haqqı daddı,
Canına yaddı.
Həyatı solar,
Düz düzdə qalar.

Haqdan qaçanlar,
Zirvə açanlar,
Göylə uçanlar,
Dünyanı alar,
Düz düzdə qalar.

Hər göz tərəzi,
Şöhrət mərəzi,
Zirvə qərəzi,
Dil var bal yalar,
Düz düzdə qalar.

Ömür bir yuxu,
Bir güllük qoxu,
Taleyin oxu,
Ürəyi çalar,
Düz düzdə qalar.

Düşmə tələşa,
Həyat tamaşa,
Güc vermə başa,
Ağıldan olar,
Düz düzdə qalar.

Yanma boş yerə,
Hər dağa dərə,
Anla bir kərə,
Canı dərd salar,
Düz düzdə qalar.

Dünyanın içi,
Can biçhabiçi,
Şadiman nəçi,
Rəbsiz qəlb dola?
Könlə od ola?
Böylə məsəl var,
Düz düzdə qalar.
10. 02. 2006

AY DİLİMİN LAYLASI

Ay dilimin laylası,
Olma könüldən ası.
Sən canımın havası,
İsti beşiyim, ana,
Evim-eşiyim, ana.

Dodaqların bal dadır,
Ürək sənsiz qaldadır,
Bilsən can nə haldadır?
Əhdimə peyman, ana,

Dərdimə dərman, ana.

Qürbət məni aldatdı,
Dilimdə haray batdı,
Səsim aləmə çatdı,
Sənə yetmədi, ana,
Hicran bitmədi, ana.

Gəlirəm üzəm yolu,
Yolun uzundu qolu,
Ortada hicran kolu,
Kolu biçərəm, ana,
Biçib keçərəm, ana.

Eşqin haqqın siridi,
Xəyalların diridi,
Nəfəsin can dürüdü,
Ürəkdə közüm, ana,
Ey görən gözüm, ana.

Varlığın ünvanımdı,
Həsrətin divanımdı,
Sənə bağlı canımdı,
Canıma ürək, ana,
Dünyama mələk, ana.

Şadimanı yaratdın,
Yaradıb oda atdın,
Sinəsinə təb çatdın,
Təbim-təvanım, ana,
Eşqi-rəvanım, ana.
10. 02. 2006

UZUN YOLUN YOLÇUSU ADAM…

Uzun yolun yolçusu adam…
Başının üstə göy adlı ağır dam,
Ürəyində başa çatmamış neçə kam?
Zaman möhnətdə içintək,
Tumara yatmayan göyərçintək,
Günün saatların uçurdursan,
Ömrü əldən qaçırdırsan.
Uzun yolun yolçusu adam,
Ömür kirin-kirin yanan şam,
Dinclik tapmadın nə gündüz, nə axşam,
Arzudan arzu doğdu.
Bə'zən içini həsrət boğdu,
Bə'zən də diləklər,
Səni oynatdı və ağlatdı fələklər.
Yerdə, göydə tapmadın özünü,
Səpdin ömrünə ürək közünü.
Bildiyintək,
Bir gün fələk aparar səni gəldiyintək.
Axı, öz istəyinlə düşmədin bu dünyaya,
Tuş oldu bəxtin, gah toya,
Gah da vaya.
Qismətinə həm güldün,

Həm də payıztək saralıb töküldün.
Yaxından, uzaqdan iraq,
Tutdun Yaradana çıraq.
Ümidlərin qaynadı,
İstəklərin oynadı.
Sevdalı mələklər kimi,
Dünyaya gəlmək başına sərkimi?
Uzun yolun yolçusu adam,
Demə ki, suya düşmüş odam,
Odu suda da yandırarlar,
Səni var ikən usandırarlar.
Həyat özü hicran,
Əlində asi can.
Hiylədən uzaq ol,
Fitvalara sazaq ol.
Yoxsa titrəyər yer,
Haqqa qulaq ver.
Uçar tökülər göy dam,
Uzun yolun yolçusu adam.

11-12. 02. 2006

ÇIRPINDI BƏDƏNDƏ GÖYƏRÇİNTƏK CAN

Könlümdə qaynadı şirin duyğular,
Duyğular içindən min bir qayğılar,
Vətənə, dünyaya, eşqə sayğılar,
Aldı ürəyimi apardı hər an,
Çırpındı bədəndə göyərçintək can.

Ağlım qərar tutub dincəlmədi heç,
Rahat məkanıma bir gəlmədi heç,
Düşüncə içində necə keçhakeç,
Qapısın göylərə açdı bu ünvan,
Çırpındı bədəndə göyərçintək can.

Sevdalı ömrümə günlər yetmədi,
Narahat könlümdə hicran bitmədi,
Nə havalı eşqim başdan getmədi,
Nə də fırtınadan yan keçmədi qan,
Çırpındı bədəndə göyərçintək can.

Ürəyim alışıb yandı od kimi,
Qopdu yuvasından qəlbə yad kimi,
Sinəmdə iz qoydu ah, fəryad kimi,
Qəminə diz çökdü pəjmürdə hər yan,
Çırpındı bədəndə göyərçintək can.

Gecəmə səhərim peymanə gəldi,
Hıçqıran könlümə dərmanə gəldi,
Yenə zalım fələk fərmanə gəldi,
Bütün duyğularım oldu yarımcan,
Çırpındı bədəndə göyərçintək can.

Şadiman diləklər içində coşdu,
Hər ağrı ürəyə bir kotan qoşdu,

Demə, şırım açdı, açdığı boşdu,
Oldu hər cığırı, hər izi şan-şan,
Çırpındı bədəndə göyərçintək can.
9. 03. 2006

AH, ÖMÜR AĞACIM PAYIZA DÜŞÜR

Ah, ömür ağacım payıza düşür,
Saralıb tökülür yarpaqlar bir-bir,
Saat əqrəbiylə anlar döyüşür,
Zaman gün ələyir əlində xəlbir.

Dəmlər ulduz-ulduz parlayır sönür,
Hər ulduz içindən bir atəş çıxır.
Süd təki səhərlər gecəyə dönür,
Vaxtı öz taxtından öz əli yıxır.

Gah şirin, gah acı min bir xatirə,
Beynimə yük olur, dilim dolaşır.
Sığmayır vərəqə, nə də sətirə,
Xəyallar çeşmətək qaynayıb daşır.

Ömür bir yellənçək oturan uçur,
Hər anın içindən min zərbə çıxır.
Dəvətək yol gedir, tər puçur-puçur,
Yollar yox, o özü yolları yıxır.

Dünyaya gələli rahatlığım yox,
Doğumnan ölümün arasındayam.
Sevinc bir zərrədi, əzablarım çox,
Bilmirəm, dünyanın harasındayam?
10. 03. 2006

MƏN DƏ MİLLƏTƏ SAY OLDUM

O vaxt ki, mən uşaq idim,
Ürəyi, könlü dağ idim,
Kefi-damağı çağ idim,
Hələ vicdanı ağ idim,
Təbibsiz sapasağ idim,
Kör kimlərə tay oldum,
Mən də millətə say oldum.

Ötdü ömrüm, yamanım,
Düşdü suya samanım,
Açdı gözümü zamanım,
Batıb çirkaba amanım,
Getdi əldən din-imanım,
İllər ötükcə zay oldum,
Mən də millətə say oldum.

Qəlbimin küdrəti artdı,
Kinimin qüdrəti artdı,
Pisliyə niyyəti artdı,
Əlimin qarəti artdı,

Neçə hiyləyə çay oldum ?
Mən də millətə say oldum.

Haramı harama qatdım,
Hər arzu-kamıma çatdım,
Elə pul-paraya batdım,
Özümü çirkaba atdım,
Neçə cür qala ucaltdım,
İblisin içində yatdım,
Dillərə əcəb hay oldum,
Mən də millətə say oldum.

Cavanlıq keçdi yel kimi,
Çağladım dəli sel kimi,
Qırıldı günüm tel kimi,
Düşdüm əllərə bel kimi,
Baharım ötdü yay oldum,
Mən də millətə say oldum.

Payızım keçdi qabağa,
Son qoydu kefə-damağa,
Düşdüm yaxşıca ayağa,
Qalmadı guman dayağa,
Can getdi təndən vay oldum,
Mən də millətə say oldum.

Atdım Dərgaha əlimi,
Kəsdi danışan dilimi,
Sovurdu göyə külümü,
Soldurdu bağda gülümü,
Güldürdü mənə elimi,
Qəbirlə taybatay oldum,
Mən də millətə say oldum.

İndi lal ruhum qan ağlar,
Ötən illəri varağlar,
Mələklər haqqı sorağlar,
Çəkilər canıma dağlar,
Cənnəti üzümə bağlar,
Sağ ikən raybaray oldum,
Mən də millətə say oldum,

Şadiman indi biçarə,
Eləyə dərdə nə çarə?
Sala vicdanı açarə,
Gün hanı aha düçarə?
Günəş idim bir ay oldum,
Mən də millətə say oldum.
26. 04. 2006

ŞEYTAN ÖZÜ PULDU, PUL

Salır insanı oda,
Gətirir cana qada,
Ondan gəlir hər əda,
Verir hər şeyi bada,

Çatmaz heç kimə nida,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Hər saat qan eyləyir,
Düzdür hər san eyləyir,
Şansıza şan eyləyir,
Lap yarımsan eyləyir,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Salır dərdə insanı,
Başının tükü sanı,
Edir halbahal canı,
Qeylü-qaldı hər anı,
Əsir olmayan hanı?
Agıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Savaşı nə bitməyir,
Nə ürəkdən getməyir,
Nə başından ötməyir,
Hər ələ də yetməyir,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Salır dunyaya şivən,
Heç olur onu sevən,
Kim desə ona güvən,
Olacaq cana güvən,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu pul.

Eləyir min cür günah,
Qoparır sinədən ah,
Bir çoxuna qibləgah,
Açmayır onsuz sabah,
Agıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Eyləsən başa əta,
Yetirər ona xəta,
Aləmi qoyma qata,
Qatdı ki, aləm bata,
Qoymaz dadına çata,
Qan-qadadı saata,
O ziyandır həyata,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Batdın günaha əgər,
Ürəyi min cürə gər,

Yığ qızıl, çək üzə zər,
Göyə, yerə Haqdı ər,
Dadına yetər məgər?
Sanasan özünü nər,
Tökəsən nalənə tər,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Kişi saxla gödəni,
Fələk döyür gedəni,
Üzülsə haqqın dəni,
Cəhənnəm udar səni,
Yetirmə cana çəni,
Məzar alacaq təni,
Alçatma belə məni,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Salma qəmə yetəni,
Rüşvət udar Vətəni,
Çoxdu ölüb-itəni,
Çalma-çapma ötəni,
Allah ütər ütəni,
Bəşər qəbrin bitəni,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu, qul,
Şeytan özü puldu, pul.

Şadiman çox ah-zarı,
Əgər kim yığsa varı,
Gətirər çoxlu darı,
Cana düşməndir, barı,
Ağıl qəlbə çuldu, çul,
Adam ona quldu qul,
Şeytan özü puldu, pul.
25. 04. 2006

ƏYİLİB DÜNYADA NİZAM-TƏRƏZİ

Əyilib dünyada nizam-tərəzi,
Heç kəs öz yükünə ağır deməyir.
Aləmi yıxmaqdı şeytan qərəzi,
Bir kimsə haqqını çağır deməyir.

Göyün bağırında açılıb yarə,
Yaradan ah tökür daşa, divarə,
Təmiz vicdanlarda qalıb avarə,
Heç kim göydən nalə yağır deməyir.

İnsan itiribdi özünü çoxdan,
Çıxıb yer kürəsi fırlanan oxdan,
Bizi ölçüyə sal, İlahi, yoxdan,

Nəfsə qul cib soyur, fağır deməyir.

Şadiman əllərin tutub dərgaha,
Onu batırmasın iblis günaha,
Sinədə ürəyi dönübdü aha,
Qanı fəvvarəyə bağır deməyir.
27. 04. 2006

GÖR NECƏ VAR OLMUŞAM ?

Dəmlərim həsrət dolu,
Lap biqərar olmuşam.
Bağlanıb ümid yolu,
Dərdimə yar olmuşam.

Bəbəklərim fəvvarə,
Axır daşa-divarə,
Edib qəmi avarə,
Nə günü zar olmuşam?!

Ürəyim ovalandı,
Ağrıya yuvalandı,
Dodağım duvalandı,
Əcəbcə xar olmuşam.

Zaman uçur yel kimi,
Ovxalanır tel kimi,
Axıb gedir sel kimi,
Mən ona dar olmuşam.

Hicranın üzü qarə,
Açıb könüldə yarə,
Yoxmu bir ona çarə?
Zarına kar olmuşam.

Şər oynayır Allahla,
Toyun qurur sabahla,
Ey Şadiman, bu ahla
Gör necə var olmuşam? !…
8.05.2006

HARAM YEYƏN BAŞDADI

Haram yeyən başdadı,
Hər günü daş-başdadı,
Şeytanla sirdaşdadı,
Allahla savaşdadı.

Rüşvətdən imarəti,
Xəzinəni qarəti,
İblisə itaəti…!
Millət onun aləti!

Yoxdu dini-imanı,
Tərs fırladır zamanı,
Məkirlidir fərmanı,
Zəhərlidir dərmanı.

Kütləri hovlayır,
Sürü təki qovlayır,
Dilbiləni tovlayır,
Dilbilməzi ovlayır…!

Özü şarlatan kimi,
Aləmi qatan kimi,
Hər kəsə atan kimi,
Şeytanla yatan kimi.

Haram-halal bilməyir,
Bir özgə hal bilməyir,
Özünü mal bilməyir,
Başını kal bilməyir.
Hamıdan dal bilməyir.

Bu xalqın gözü ağlar,
Qalıb qapısı bağlar,
Hər kəs canın soraqlar,
Şükür eyləyər sağlar.

Bir çoxu qullaşıbdı,
Şeytanla yollaşıbdı,
Cibləri pullaşıbdı,
Dili noğullaşıbdı.

Vətən batabatdadı,
Ağrıyla həyatdadı,
Taleyi min qatdadı,
Millət yatayatdadı,
Hiyləgər büsatdadı.

Rüşvət cibi daşdıırır,
Ağlı-huşu çaşdırır,
Vicdanı bulaşdırır,
Əyrini pullaşdırır,
Aləmi savaşdırır.

Belə olur sadəlik,
Millətə azadəlik,
Varlığına gədəlik,
Kökünə « bəyzadəlik »,
Halallığa yadəlik.

Ey Şadiman, nə sirdi?
Təb füsnükar qəsirdi,
Ürək ona əsirdi,
Kağız-qələm yesirdi,
Mənliyimiz həsirdi…!
Hər bir işdə kəsirdi!
8.05.2006

İBLİSDƏN OLAN

İblisdən olan,

İblisə qalan,
Ey nifaq salan,
Zənində talan,
Dünyaya yalan,
Eyləmə zəhmət,
Şərə nə rəhmət?

Rəbbi unudan,
Haramı dadan,
Dadıbda udan,
Özünə qadan,
Qazandın lənət,
Şərə nə rəhmət?

Cahana xata,
Xislətin bata,
Nəfsin kaş yata,
Dərddi həyata,
Cəhdinə əta,
Sanma ki, qismət,
Şərə nə rəhmət?

Min bir günahın,
Suçdu sabahın,
Pul qibləgahın,
Qopacaq ahın,
Hanı Allahın?
Yox namus-ismət,
Şərə nə rəhmət?

Zən et əbədi,
Yap min məbədi,
Haram – dəbədi,
Halal – təbədi,
Bəs bəşər nədi?
Bilməyir həddi,
Rəbbə tə'bədi
Hər can əmanət,
Şərə nə rəhmət?

Rəbb qoyan qayda,
Əməl dünyada,
Sənə nə fayda?
Sən ki, nə hayda?-
Varını sayda,
Ömürün zayda,
Taparsan vayda,
Cəhənnəm nemət,
Şərə nə rəhmət?

Sən kefi elə,
Ver ömrü yelə,
Haram sal ələ,
Var fürsət hələ,
Şəkər qat dilə,
Bu dünya cənnət,
Şərə nə rəhmət?

Gün gəlib yetər,

O ömrün ötər,
Bir xəbər-ətər,-
Qalmaz, can itər,
Ölümün betər,
Qarşında bitər…
Eyləməz minnət,
Şərə nə rəhmət?

Bu Şadimanı,
Ey aləm tanı,
Şeytan hər yanı,
Tökküllər qanı,
Alıllar canı !
Bu yer insanı-
İçi xəyanət,
Başı cinayət,
Rəbb, et inayət!…
Sənin ki, qüdrət,
Eyləmə hörmət,
Şərə nə rəhmət? !
25. 06. 2006

KOR TALEYİM

Niyə məni kor taleyim heç üzümə gülmədi?!
Mən çəkdiyim əzabların heç birini bilmədi.
Mən min dəfə can verərkən, o bir dəfə ölmədi,
Usanarkən, çırpınarkən bu sitəmli dünyada,
O heç zaman diksinmədi bu can üzən fəryada!

İçimdəki diləklərim hönkürdü dağ selitək,
Əsib keçdi neçə kərə yanan səmum yelitək,
Ümidlərim qırılarkən ürəyin qəlb telitək,
Göylər, yerlər haray dedi tük ürpədən imdada,
O heç zaman diksinmədi bu can üzən fəryada!…
10.09.2006, Pirallahı

ÖMÜR KEÇDİ YUXU KİMİ…

NEÇƏ GÜNDÜR YATIRSAN O QARA TORPAQDA ATAM

Neçə gündür yatırsan o qara torpaqda, atam,
Qoymusan könlümüzü qəm dolu bir çağda, atam.

Halını sormağa gəldim lal məzarın üstünə,
Görmədim pak üzünü ya solda, ya sağda, atam?

Ürəyim dolu sitəmlər ilən yox çarə ona,
Bülbülü xəzana döndərdi fələk bağda, atam.

Könlümün dünyada səndən savay həyanı hanı?…
Qoydu fələk canımı dərd dolu növrağda, atam.

Ey mənim səcdə evim, tək sənə vurğundu qızın,
Gəldi əzrayıl qəfil, de hansı yarağda, atam?!

Aradım xiffət ilən dərdinə çarə eləyim,
Qaldı bu dil-dodağım loğmanı sorağda atam.

O soyuq qəbrinə mən, gözdən axıtdıqca yaşı,
Batdı binəva balan buz üzlü sazağda, atam.

Yetmədim dilinə heç soruşam əhvalını bir,
Necə həsrət ürəyim ruhuna irağda, atam.

Bu qədər dərdi mənə eylədi rəva qədərim,
Ki, çəkim hicrini mən cövrlə fərağda, atam.

Mən qəribin harayın eşit başımın tacı,
Qoydu zalım fələyim könlümü ayağda, atam.

Sən şam oldun dilinin duvasıyla Xudaya,
Alnın möhür izi nurdu nə çırağda, atam?

Əfv elə bu balanı yetə bilmədi dilinə,
Necə qalsın ürəyim dərd dolu bu tağda, atam?

Quranın eşqi ilə məscidə tutdun üzünü,
Tapmadın eldə onu aradın uzağda, atam.

İslama diləyini bildi, bəyəndi, o Xuda,
Necə ki, gördü cahan İslamı bayrağda, atam.

Elə apardı səni dünyadan zalım əcəlin,
Qoydu balalarını qəm dolu bu dağda, atam.

Həsrətəm, indi sənin acı bir sözünə belə,
Səsinin avazı var, gəzdiyin otağda, atam.

Nə qədər ağır imiş övlada görsün bu günü,
Ki, onun tacıdarı can verə yatağda, atam.

Tökdürür Şadimana gözündən hey yaşı fələk,
Bağrümın qanı mürəkkəb kimi varağda, atam.

23. X. 2002

BAŞIMIN TACI ATAM

Başımın tacı atam, mən səni harda arayım?!…
Uçdu min fəqan ilən ahımdan könül sarayım.

Çəkərək xiffətini qəminə düşdüm fələyin,
Dəldi ərşin sinəsin bu tükürpədən harayım!

Sənin qara xəbərin bağrımı yandırdı tamam,
İndi könül siminin telini necə darayım?…

Neçə gündür ürəyim fəqan edir qəm ilən,
Bəs mən İlahi verən ömrümə necə yarayım?…

Ağlayır Şadimanın səsinə yoxdu cavabın,
Başımın tacı atam, mən səni harda arayım?!…

23.X. 2002

RƏBB EDİR BƏŞƏRİ NAKAM, ATA

Qaldı könlündə neçə kam, ata,
Rəbb edir bəşəri nakam, ata.

Qara torpaq necə aldı səni?
Ayırdı cövr ilən candan təni,
Bu imiş sonu həyatın yə'ni ?
Ovuda bilməyir ruhun məni,
Qaldı könlündə neçə kam, ata,
Rəbb edir bəşəri nakam, ata.

Fələk vurdu sinəyə yarəni,
Ki, tapa bilməyək heç çarəni,
Ağladır indi ciyərparəni-
Ağ edir gözdəki o qarəni,
Sən idin dünyamda bir şam, ata,
Rəbb edir bəşəri nakam, ata.

Dərd göndərən özü rəhmi etməz,
Nurlu üzlərə heç fəhmi etməz,
Şeytana, iblisə zəhmi etməz
Əbədi dünyaya bir kimsə yetməz,
Olmaz sənsiz ürəyim tam, ata,
Rəbb edir bəşəri nakam, ata.

Gözümün yaşına batmışam gəl,
Bu yaşı qanıma qatmışam gəl,
Özümü bu qana atmışam gəl,
Ah ilən o ərşə çatmışam gəl,
Üstümdə dərd dolu bir dam, ata,
Rəbb edir bəşəri nakam, ata.

Dərdinə aradım çarə tapam,
Ya dərdin ürəyin öylə çapam,
Sənin pak təninə qala yapam,
Günəştək dolanıb çəni qapam,
Bəlkə də bu dünya ehkam, ata,
Rəbb edir bəşəri nakam, ata.

22. X. 2002

KÖNLÜ PAK, ÜRƏYİ MƏLƏK ATAM

Dedilər, köçdü atan dünyadan,
Sanki ayrıldım o dəm röyadan,
Qopdu duyğum, diləyim xülyadan,
Hayqıra bilmədim heç həyadan,
Səsimi eşidə fələk, atam,
Könlü pak, ürəyi mələk, atam.

Qədərim eyləmədi hörməti,
Qaldı göydə dilimin minnəti,
Başımın tacı, könül zinəti,
Göstərdi bizə də bu zilləti,
Puç oldu gör necə dilək, atam?
Könlü pak ürəyi, mələk, atam.

Qət etdim yolları hey adına,
Yetişə bilmədim imdadına,
Yığışıb gəldi elim dadına,
Üç qızın çatmadı fəryadına,
Necə dözsün qəmə ürək, atam,
Könlü pak, ürəyi mələk, atam.

Gördüm ortada cənazən durur,
Əzrayıl özü dizinə vurur,
Fələyin əmrinə etmir qürur,
Rəbbinin hökmünə matəm qurur,
Sındı bağrımdakı dilək, atam,
Könlü pak, ürəyi mələk, atam.

Tapşırıldın o gün də torpağa,
Hey xəzan düşdü bağa, yarpağa,
Necə dözsün balalar bu dağa?…
Qəmə batdım ki, başdan ayağa,
Qopdu bağrımda bir külək, atam,
Könlü pak, ürəyi mələk, atam.

Ağırdı insanın son səfəri,
Tənin ruhuna don səfəri,
İlahi saxlamaz bir nəfəri -
Bu dünya binə olandan bəri.
Fələyin əlində ələk, atam,
Könlü pak, ürəyi mələk, atam.

Taleyin qəm tökdü əhvalına,
Ağladı fələklər də halına,
Kim yetər ölüm qeylü-qalına?
Əcəlin yetişdi vüsalına,
Xudanın əmrin nə bilək, atam?
Könlü pak, ürəyi mələk, atam.

Bəslədin sən bizi quzu kimi,
Bəxtinin oğulu, qızı kimi,
Dilinin şəkəri, duzu kimi,
Taleyin ömrə ulduzu kimi,
Elə dərd yoxdu bu yazı kimi…
Bəs necə bu evə gələk, atam?
Könlü pak, ürəyi mələk, atam.

Əzrayıl hər baş üstə dolaşır,
Fələk ilən tən deyib dalaşır,
Qaraüzlü ölümlə ulaşır,
Can alarkən də aha bulaşır,
Ömür doğulana kələk, atam,
Könlü pak, ürəyi mələk, atam.

Yaranandan başla qəlb vuruşur,
Sərvətə pul-paraya sarışır,
Bu bəşər bir-biriylə yarışır
Axır qara torpağa qarışır…
Yorulur baş, bədən, bilək atam,
Könlü pak, ürəyi mələk, atam.

Haqqını verməyə gücüm çatmaz?!
Bu balan eşqini qəlbdən atmaz,
Bu ağır itgiyə gözüm yatmaz,
Fələyin qəminə kimdi, batmaz?
Qəbiri bədənə bələk, atam,
Könlü pak, ürəyi mələk, atam.

Əzrayılın məramın biləydim,
O ağır anlarına gələydim,
Əcəlin kor qapısın dələydim,
Kaş sənin yerinə mən öləydim…!
Bu Şirin xanımın hələk, atam,
Könlü pak, ürəyi mələk, atam.

22. X. 2002

SƏNİ İTİRDİM, ATA

Səni itirdim , ata, sındı ələmdən ürəyim,
Partlayır əzab ilə bir belə qəmdən ürəyim.
Deyirəm əzrayılın hökmü yalan olaydı kaş,
İnciyib, üz çevirib, sanki aləmdən ürəyim.
Sığmıram ev-eşiyə, gözlərim səni arayır,
Batıb bir gəmi kimi dəryada nəmdən ürəyim.
Nə qədər güclü imiş o atalıq məhəbbətin,
Ağlayır zarı-zarı hər gələn dəmdən ürəyim.
İlahi, bu itginin ağrısına yoxdu dözüm,
Zilim hayqırtı salır, partlayır bəmdən ürəyim.
Ey belə yazı yazan görən varmı insafın?
Dözməyib bu itgiyə ağlar naləmdən ürəyim.
Biçarə Şadimanın dərdini e'lan eliyən,
Qəminə çarə arar kağız-qələmdən ürəyim.

3. X. 2002

ÖLÜNCƏ MƏN SƏNİ GƏZƏRƏM, ATA

Daha heç kim verməz sənin yerini,
Duman necə tutsun çənin yerini?
Torpaq verə bilməz tənin yerini,
Necə sənsizliyə dözərəm, ata?
Ölüncə mən səni gəzərəm, ata.

Yarpağın saplağı budaqda qaldı,
Könlüm, ey cərvərim, bu dağda qaldı,
Dilimin harayı dodağda qaldı,
Harda ata görsəm süzərəm, ata,
Ölüncə mən səni gəzərəm, ata.

Uca dağlarımı tufanlar aldı,
Könlümü ilanlar, şahmarlar çaldı,
Dünya başdan-başa nə qeylü-qaldı?
Düşüb qəm dəryana üzərəm, ata.
Ölüncə mən səni gəzərəm ata.

Bəlalı ömrümə pənahın idin,
Qara zülmətimə sabahım idin,
Sən Kə'bəm, Nəcəfim, Allahım idin,
Göz yaşı kükrəyən Xəzərəm, ata,
Ölüncə mən səni gəzərəm, ata.

Nə yaman yandırdı bu fələk məni?!…
Alıb əlçatmaza apardı səni,
Məzarın içinə qoydurdu təni…
Qəbrinə çiçəklər düzərəm, ata,
Ölüncə mən səni gəzərəm, ata.

Ürəyim ağlayır əlimdə qələm,
Dünyanı yandırır bu dəli naləm,
Mənə qan içirdir həyat piyaləm,
Ömrü yuxularla bəzərəm, ata,

Ölüncə mən səni gəzərəm, ata.

Qırılıb, İlahi, qolum-qanadım,
Batıb ulu dünyam, şərəfim, adım,
Yetmir, əzəbkeşim, sənə fəryadım,
İndi xəyalları üzərəm, ata,
Ölüncə mən səni gəzərəm, ata.

Dağdan ağır imiş bu ölüm mənə,
Eylədi yoxluğün nə zülüm mənə?
Sənə yox, verəydi Rəbb ölüm mənə,
Könlümü ahlarla əzərəm, ata,
Ölüncə mən səni gəzərəm, ata.

Can alan bilmirmi bala dadını?
Saldı müsibətə bu övladını,
Bağrıma bükmüşəm o pak adını,
Bu müdhiş ölümə həzaram, ata,
Ölüncə mən səni gəzərəm, ata

Qurtar müsibətdən Şadimanını,
De, əzrayıl alsın onun canını,
Dondursun damarda coşan qanını,
Onu ilk gəlişdən sezərəm, ata,
Ölüncə mən səni gəzərəm, ata.
20. X1. 2002

ALDI TƏNDƏN FƏLƏK CANI

Aldı təndən fələk canı,
Sən tərk etdin bu dünyanı,
Nə müdhişmiş ölüm anı?…
Ata, mənə sitəm oldu,
Sənsiz dünya matəm oldu.

Ağlayıram için-için,
Belə qəfil getdin neçin?
Ələm basıb könlün için,
Ata, qəmin üst-üstədi,
Bu ürəyim bir xəstədi.

Qəm başımdan ötüşmədi,
Ağrı-acı bitişmədi,
Əlim sənə yetişmədi…
Ata, dərdin dağdı mənə,
Göylər daştək yağdı mənə!

Başım tacı balan ağlar,
Qəm sinəmdə elə çağlar,
Əzrayılın çəkdi dağlar,
Ata, düşdün ah-zarına,
Qurban olum məzarına.

Haylayıram gəlmir səsin,
Qeyb olubdu xoş nəfəsin,
Lal qəbirin dar qəfəsin,
Ata, ağlar gözdə yaşım,
Ayrılığın can sirdaşım.

Niyə məni ölüm almaz?
Sənin təki qəbrə salmaz?
Ey dünyama parlaq almaz!
Ata, sənsiz günüm qara,
Könül başdan-başa yara.

20. X1. 2002

KAŞ AÇILMAYAYDIN, EY SABAH MƏNƏ

/ 18. X. 2002 – ci ildə bütün arzularımın şahı, qibləgahım, səcdəgahım, yerdə Tanrım, mənimçin dünyanın ən müqəddəsi - atam dünyadan köçdü…/

Kaş açılmayaydın, ey sabah mənə,
Mənim bu günümü qara gətirdin.
Saldın həyatımı dumana, çənə,
Könlümün içinə yara gətirdin.

Aldı tacidarı fələk əlimdən,
Düşdü arzu, murad, dilək əlimdən,
Gəldi ah, fəryada ürək əlimdən,
Onu bu dünyada zara gətirdin.

Ey sabah, bəs niyə nəş'ədən qaçdın?
Döndün Əzrayıla şö'lətək saçdın,
Atamın üzünə məzarı açdın…
Onun pak tənini hara gətirdin?!…

Etdin gözlərimi yaşa mübtəla,
Aldı başım üstün elə dərd, bəla,
Ey sabah, necə mən dözüm bu hala?
Əzrayıl bağını bara gətirdin…

Bu gündən dəyişdi dünya mə'nasın,
İtirdi gül bədən o can rə'nasın,
Yaxdı ürək teli qara hənasın,
Yamanca könlümə çara gətirdin.

Ey sabah, Şadiman ağlar qübarə,
Gözlərim qəm uddu – səndən nübarə,
Çəkdin ürəyimi dərdə, qubarə
Könül gülüstanın xara gətirdin.

20. X1. 2002

QƏFİL GƏLDİ BU ƏCƏLİN

Gülbanı bibimin əziz xatirəsinə!

Qəfil gəldi bu əcəlin,
Dil içində sözüm ağlar.
Qardaşına yetdi əlin…
Alışmamış közüm ağlar.

Ala gözlü xanım bibim,

Köküm, soyum, canım bibim,
Fəryad edir anım, bibim,
Bu dərdlərə gözüm ağlar.

Əzizlərim köçür bir-bir,
Fələk ömrü biçir bir-bir,
Məzar evin seçir bir-bir,
Ürəyimdə dözüm ağlar.

Ey atama ana, bacı,
Nə tez düşdü ömür tacı?
O dünyanın dərdi acı…
Səbri qıran əzim ağlar.

Ata dərdim soyumadı,
Qəmi qəlbdə uyumadı,
Fələk məni oyumadı,
Canım titrər, özüm ağlar.

Əcəl dönüb nə yağına?
Düşdün qardaş ayağına,
Yetdi ölüm sorağına…
Yer titrəyər, dizim ağlar.

Gəlib çıxdım məzar üstə,
Qəlbim, hissim, könlüm xəstə,
Zaman durub niyə qəsdə?
Yer hıçqırar izim ağlar.

Şadimana əziz bibim,
Canı, ruhu təmiz bibim,
Əzrayıla ov biz bibim,
Bəbək donar, gözüm ağlar.

07. 09. 2004

AYRILIĞIN BİR UCU DƏ ÖLÜMMÜŞ…

Yoxluğuna qara geyib ürəyim,
Uçdu, atam, tamam könül dərəyim,
Arxasını itirdi bu kürəyim,
Ah, bu ilim nə amansız il imiş?
Ayrılığın bir ucu da ölümmüş...

Yerə, göyə haray salıb ağlaram,
Ümidimi xəyalına bağlaram,
Getdin, atam, indi necə çağlaram?
Fəryadına ağı deyən dilimmiş,
Ayrılığın bir ucu da ölümmüş…

Hicran məni yaman yerdə haxladı,
Fələk necə sitəmiylə yoxladı?
Uçdu könlüm, binəsindən laxladı,
Mənə qalan közü keçmiş külümmüş,
Ayrılığın bir ucu da ölümmüş…

Fələk məni səndən ayrı qoydu oy,
Ürəyimi həsrətinlə oydu oy,
Kim deyər ki, bu əzrayıl doydu oy?
Qapımızı nə vaxtdandı bilimmiş,

Ayrılığın bir ucu da ölümmüş…

Bu ağlayan ürək qaldı aralı,
Atam, ömrüm hicranından saralı,
Bu balan ki, min bir yerdən yaralı,
Qəmin necə fəqan edən zilimmiş?
Ayrılığın bir ucu da ölümmüş.

Sən köçmüsən indi o haqq dünyaya,
Ürəyimi yollamışam röyaya,
İndən belə inanmaram xülyaya,
Kor bəxtimi döyəcləyən əlimmiş,
Ayrılığın bir ucu da ölümmüş…

Şadimanın ağlar ahı içində,
Zalım fələk səhər-axşam biçində,
Bu Əzrayıl can alar kam üçində…
Əzizindən ayırılmaq nə zülümmüş?
Ayrılığın bir ucu da ölümmüş…
30. X1. 2002

HARAYIM YETMƏYİR SƏNƏ, ATAM

Asılıb indi könül röyadan,
Qopa bilməyir necə xülyadan,
Əbədi getdin elə dünyadan,
Gözlərim qaldı, sanki ziyadan,
Ötən günlər yenə dönə, atam,
Harayım yetməyir sənə, atam.

Hər sözün, söhbətin can dərmanı,
Fələyin pozulaydı fərmanı,
Könlümün ey təbibi, loğmanı,
Qaytara bilməyirəm zamanı,
Necə dözsün ürək çənə, atam?
Harayım yetməyir sənə, atam.

Məzarın sinəmi ovutmayır,
Bu yanan köksümü sovutmayır,
Gözlərim yoxluğuna yatmayır,
Fəryadım niyə ərşə çatmayır?
Dünya qəm çeşməsi mənə, atam,
Harayım yetməyir sənə. atam.

Gedişin könlü yaman sındırdı,
Ciyərimin başını yandırdı,
Yoxluğun lap məhşəri andırdı…!
Qul olub qənşərimdə an durdu,
Lal olmuş Əzrayıl dinə, atam,
Harayım yetməyir sənə, atam.

Necə verdi Xuda bu əmiri?
Çıxmadı kor fələyin səmiri,
Yuğrulub qəmlə bəşər xəmiri,
Ölümün əydi daşı, dəmiri,
Rəbb məzarı qıydı tənə, atam,

Harayım yetməyir sənə, atam.

Dilimin ovunmayan duası,
Bağrımın ey dirilik havası,
Ürəyimin cavahir yuvası,
Könlümün təbib, loğman dəvası,
O ruhun göylərdən enə, atam,
Harayım yetməyir sənə, atam.

Ağlayır Şadiman bu cəfadan,
Əzrayıl kam aldı o səfadan,
Tanrının qismətiylə vəfadan,
Dünya doyub fələk bivəfadan,
Gələ sənli dəmlər yenə, atam,
Harayım yetməyir sənə, atam.
30. X1. 2002

SƏNSİZ TALANAM, ATA

Ölüm Allah işidi,
Fələyin gərdişidi,
Əzrayıl vərdişidi,
Canı tənsiz eylədi,
Məni sənsiz eylədi.

Dözmərəm yoxluğuna,
Qədərin oxluğuna,
Ələmin çoxluğuna,
Atam, ürəyim ağlar,
Getməz ölüncə dağlar.

Sən mənim canım idin,
Ən pak ünvanım idin,
Həyat sarvanım idin,
Ömrə necə yarayım?
Səni harda arayım?

Dilimin dadı gedib,
Könül imdadı gedib,
Həyat ustadı gedib,
Hamıdan ucam yoxdu,
Tanrıya bacam yoxdu.

Ölümün acı, atam,
Ömrün əlacı atam,
Könlümün tacı atam,
Səni deyib gəzərəm,
Sənsiz necə dözərəm?

Fələk yaman qan etdi,
Ölmünü bir an etdi,
Tənini sarvan etdi,
Məzara ünvan etdi,
Köçdün məlaldı, ata,
Nə acı haldı, ata?

Gözlərim tökər yaşı,

Dərdin əyibdi başı,
Ağlar könlümün başı,
Sənsiz talanam, ata,
Ağlar balanam, ata.

Ata deyib ağlaram,
Qəbrinə qəlb bağlaram,
Çalın-çarpaz dağlaram,
Pozulubdu növrağım,
Qan ağlayır varağım.

Nə deyim bu həyata?
Fələyi durmub yata,
Yəqin çatdı büsata,
Bu acılar solaydı,
Ötən günlər olaydı,

Zaman nə qansız imiş?
Ölüm ünvansız imiş,
Fələk divansız imiş,
Qəlbdə tufan qopardı,
Səni aldı, apardı,

Atam, doğranır sinəm,
Gözümdə vay qurub nəm,
Mənə ahdı gələn dəm,
Sən balana işıqdın,
Ömrünə yaraşıqdın.

Məzarını qoxlaram,
Ürəyimi oxlaram,
Ölüb burda yuxlaram,
Əzrayıl almır canı,
Dəyişəm bu ünvanı.

Ata, dirəyim idin,
Vuran ürəyim idin,
Sanlı gərəyim idin,
Niyə tərk etdin məni?
Harda axtarım səni?!…
21. X1. 2002

GÖZDƏ YAŞIM SELƏ DÖNDÜ

Gözdə yaşım selə döndü,
Bu ayrılıq yelə döndü,
Könül tuti dilə döndü,

Daha həyat yalan, atam,
Sənsiz qaldı balan, atam.

Acılara yol olmuşam,
Qılınc vurmuş qol olmuşam,
Məzarına qul olmuşam,
İndi dünyam talan, atam,
Sənsiz qaldı balan, atam.

Atasızlıq nə sitəmdi,
Yer-göy mənə bir matəmdi,
Şəkər dadsam acı təmdi,
Könlüm yaman nalan, atam,
Sənsiz qaldı balan, atam.

Bu Əzrayıl acmış cana,
Bələd imiş hər ünvana,
Salar təni hey divana,
Ölüb-itən kalan, atam,
Sənsiz qaldı balan, atam.

Ürəyimin ağlar sözü,
Kül altında qalar közü,
Nə biləydim dünya özü -
Rəbb dalında palan, atam?
Sənsiz qaldı balan, atam.

Gözlərimdə yaş göyərdi,
Fəryadımdan daş göyərdi,
Dərdi çəkən baş göyərdi,
Məni qəmə salan, atam,
Sənsiz qaldı balan, atam.

Bir həyatmış səbrin mənə,
Daha yetməz əlim sənə,
Kə'bə oldu qəbrin mənə,
Orda yuva alan, atam,
Sənsiz qaldı balan, atam.

Şadimanın, gəl, ahına,
Qara geymiş sabahına,
Hamı dönər Allahına,
Kimdi sona qalan, atam?…
Sənsiz qaldı balan, atam.
19. X1. 2002

YOXLUĞUN SİNƏMƏ ÇƏKDİ DAĞLARI

Yoxluğun sinəmə çəkdi dağları,
Xəzana tuş oldu ömrün bağları,
Qaytara bilmirəm sənli çağları,
Gəl ovut, tacidar, sən bu ağları,
Atalar içində ay mələk, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

Gözümdə yaşımı bulud ovutmaz,
Bu yanan köksümü heç nə sovutmaz,
Qəlb sənə bərabər kimsəni tutmaz,
Daha bu əllərim əlinə çatmaz,
Qırıldı sinəmdə şah dilək, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

Sən getdin mənimçin dünya boşaldı,
Ayrılıq at çapdı, həsrət baş aldı,
Gurşadlar çaxnaşdı gözü yaş aldı,
Uçdu qəlb sarayım, könlü daş aldı,
Çökdü arzu dolu hər dilək, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

Apardın özünlə həyat dadını,
Eşit bu balanın gəl fəryadını,
Könlümdən qopara bilməm adını,
Neyləyim fələyin bu inadını?
Əsdirdi sinəmdə bir külək, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

Barışa bilmirəm kor taleyimlə,
Özüm ağlayıram bu gileyimlə,
Kəsilib taqətdən düşən heyimlə,
Könül fəqan edir sızlar neyimlə,
Necə yazılanı biz bilək, atam?
Sənsiz ağlar qaldı bu ürək, atam.

Gözümdə aynadır o lal surətin,
Necə müqəddəsmiş, pakmış xilqətin,
Övlada şahanə, pak məhəbbətin,
Artırdı yerin və göyün heyrətin,
Necə qədəminə bəs gələk, atam?
Sənsiz ağlar qaldı bu ürək, atam.

İlahi uçurtdu həyat damını,
Qoydu bu bağrımda arzu, kamını,
Söndürdü əbədi nəş'ə kamını,
Ağlatdı mənimtək kor ilhamımı,
Özün də könlümtək nə hələk, atam?
Sənsiz ağlar qaldı bu ürək, atam.

Hönkürür, gözümdə yaşlar sel olur,
Əriyir ahımdan daşlar sel olur,
Sinəmin fəryadın duyan tel olur,
Ömür tufanında anlar yel olur,
Bəs necə qəlb yaşın, de, silək, atam?
Sənsiz ağlar qaldı bu ürək, atam.

Hər şeyin dadını itirdim daha,
Atalı ömrümü bitirdim daha,
Əzrayıl səbəbmiş sağalmaz aha,
Tacidar, and olsun Böyük Allaha,
Donubdu əl-ayaq, qol-bilək, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

Fərmansız heç yola çıxarmı fələk?
Kimsənin evini yıxarmı fələk?
Hamıya birgözlə baxarmı fələk?
Sinələr yandırıb-yaxarmı fələk?
Əcəl can almaqda nə zirək, atam?
Sənsiz ağlar qaldı bu ürək, atam.

Əzablı ömrümə sən yaraşıqdın,
Qatı zülmətimə nurlu işıqdın,
Sən ki, hər balana yanan aşıqdın,
Ağlayan könlümə bir sarmaşıqdın,
Qurdu kor bəxtimə dərd kələk, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

Ölüncə sənsizlik yandırar məni,
Atalı günləri andırar məni,
Ata nə xilqətmiş qandırar məni?
Ayrılıq günləri dondurar məni,
Həsrətin könlümə bir bələk, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

İlahi, bu dünya nə acı imiş?
Yanan bağrımızın od sacı imiş,
Ata-ömrümüzün şah tacı imiş,
Çəkilməz dərdlərin əlacı imiş,
Bəs hara söykənsin bu kürək, atam?
Sənsiz ağlar qaldı bu ürək, atam.

Şadiman zülümə düşdü neyləyim?
Qollarım yanına düşdü neyləyim?
Bağırım həsrətdə bişdi neyləyim?
Ölüm Əzrayıla işdi neyləyim?
Əlindən düşməyir heç ələk, atam,
Sənsiz ağlar qaldı bu ürək, atam.

17. X1. 2002

QARA TORPAQDI EVİN…

Bu gün qırxına yığışıb elim,
Gözüm axtarır, arayır dilim,
Səni bizdən ayırdı ölüm,
Elədi balalarına zülüm,
Necə sənsiz ovulur an, ata,
Qara torpaqdı evin can, ata.

Yoxluğun sinəmə bir ox oldu,
Fələyin qəhri mənə çox oldu,
Bir gün gələn, bir gün də yox oldu,
Haçan Əzrayıl gözü tox oldu ?
Saldı könlümə fələk qan, ata,
Qara torpaqdı evin can, ata.

Ürəyim ağlıma üsyan edir,
Gözümdə bulud buludu didir,
Bəbəkdən qan ilə leysan gedir,
İnsan öləndəmi artır qədir? !…
Mənə kədər, qəmdi hər yan, ata,
Qara torpaqdı evin can, ata.

Sənsizlik sinəmə bir dağ basdı,
O ayrılığın könlümü asdı,
Əzrayıl bu evə qədəm basdı,
İndi dünyam mənə bütün yasdı!
Mənimçin sökülməyir dan, ata,
Qara torpaqdı evin can, ata.

Deyən Əzrayıl kamına çatdı,
Səni də soyuq məzara atdı,
Min ilin ölülərinə qatdı,
Elə bil işıqlı ömrüm batdı,
Qəminə bağırım şan-şan, ata,
Qara torpaqdı evin can, ata.

Gözümdə o nurlu surətin var,
Könlümdə ata məhəbbətin var,
Övlada dürlü sədaqətin var,
Rəbbimdən şahanə xilqətin var,
Getdi sənlə elə şan, ata,
Qara torpaqdı evin can, ata.

Ay ellər, çox dərd götürmüşəm mən,
Bir nurlu ata itirmişəm mən,
Məzarıstana ötürmüşəm mən,
Atalı ömrü bitirmişəm, mən,
Sənə qurban bu quru can, ata,
Qara torpaqdı evin can, ata.

Nə deyim bu fələyin işinə?
Keçirir hər bəndəni dişinə,
Dünyanın divanə gərdişinə,
Zamanın hey iti gedişinə,
Yuxumda bir gəl məni san, ata,
Qara torpaqdı evin can, ata.

Cahanın zaman çəksini gördüm,
Bir qiyafədə iksini gördüm,
Hayana baxdım əksini gördüm…
Əcələ nişan köksünü gördüm,
Dondu damarlarımda qan, ata,
Qara torpaqdı evin can, ata.

Ata, sənsiz könlümün talan oldu,
Mənə bütün dünya yalan oldu,
Ürəyi partlayan balan oldu,
Qəminlə nalədə qalan oldu,
Bu dərdli halıma qalx yan, ata,
Qara torpaqdı evin can, ata.

Mənim bu ürəyimdə dərdim çox,
Kədərin bağrından bar dərdim çox,
Ömrümün yollarına sərdim çox,
Neyləyim, könlə qəm namərdim çox?
Eyləyir kor bəxtimə man, ata,
Qara torpaqdı evin can, ata.

Bağırım partlayır kədərinə,
Ağlayır nainsaf qədərinə,
Ölümün işlədi lap dərinə,
Mən öləydim kaş sənin yerinə…!
Atalar içində ay xan, ata,
Qara torpaqdı evin can, ata.

Heç ölüm məni belə əymədi,
Könlümün sarayına dəymədi,
Ürəyimin başına döymədi,
Sındırıb qəlbi, özün öymədi,
Qalx ayağa, ölümü dan, ata,
Qara torpaqdı evin can, ata.

Bu evə daha gələ bilmirəm,
Sən yoxsan, vallah gülə bilmirəm,

Qəmimin bağrın dələ bilmirəm,
Mən də bir yolluq ölə bilmirəm,
Əzrayılın dedi: qan-qan, ata,
Qara torpaqdı evin can, ata.

Ay dünya, mədən niyə dolmadı ?!…
De, oxun hansı köksü oymadı?
Əzrayılın bircə an uymadı,
Bir kimsəni gözdən qoymadı,
Ölümü Rəbb eləyib an, ata,
Qara torpaqdı evin can, ata.

Qırxını bağlamağa gəldim oy,
Bu günü ağlamağa gəldim oy,
Ata, sənsizlik nədi bildim oy?
Dözmürəm yoxluğuna öldüm oy,
Nola gəl bu balanı an, ata,
Qara torpaqdı evin can, ata.

Şadiman ağlayır için-için,
Rəbb bizdən ayırdı səni neçin ?
Gedir bəşərdə hər saat biçin…
Yandırır Tanrı ürəyin için,
İnsanla ölüm anbaan, ata,
Qara torpaqdı evin can, ata.

4. X. 2002

SƏNSİZLİK NƏ İMİŞ …

Sənsizlik nə imiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

Adına nurlu məhəbbətimiz,
Yox səni qaytaran qüdrətimiz,
Atalı günlərə həsrətimiz,
Sənsizlik nəimiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

Düşübdü dağa, daşa səsimiz,
Ayrılıq ürəyə qəfəsimiz,
Ölübdü hər şeyə həvəsimiz,
Sənsizlik nə imiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

Bu həyat niyə belə qəmlidir?
Əzizin itirmək ələmlidir,
Rəbbdənmi insan bəxti kəmlidir?
Sənsizlik nə imiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

Gecələr yuxumuza gəlirsən,
Atalıq eşqinə yüksəlirsən,
Qəminlə könlümüzü dəlirsən,
Sənsizlik nə imiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

Atalılar, pak ata sərvətdi,
Başa tacdı, arxadı, hörmətdi,

Övladın varlığına izzətdi,
Sənsizlik nə imiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

Bir ildə göz yaşını tökmüşük,
Dərdinlə bağrımızı sökmüşük,
Məzarına qul olub çökmüşük,
Sənsizlik nə imiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

Şadimanın ah olub ünvanı,
Ruhunun yanına gedib canı,
Məzara atdı fələk yuvanı…
Sənsizlik nə imiş bildik, atam?
İlinə yığışıb gəldik, atam.

8. X. 2003

SƏN NİYƏ DƏRDİNİ GİZLİ SAXLADIN ?…
/ Əmim qızı Hüsniyyə Hacıağa qızının vaxtsız vəfatına!…/

Sən niyə dərdini gizli saxladın?
Bu gizli dərdinə peyman qalmadı.
Cavan həyatını dərdlə yoxladın,
Harayın boğuldu aman qalmadı.

O qara xəbərin bağrımı çaldı,
Mənim ürəyimi zülmə saldı,
Muradın gözündə yarımçıq qaldı,
Ağrını udmağa dərman qalmadı.

Çox erkən tərk etdin sən bu həyatı,
Qırıldı yollarda ömrün saatı,
Nə yaman büdrədi taleyin atı?
Əlacın bulmağa loğman qalmadı.

Qoydu gözlərində arzu, kamını,
Çökdürdü başına tale damını,
Yarımçıq söndürdü ömür şamını,
Bu zalım fələkdə iman qalmadı.

Əzizim, könlümdə şimşəklər çaxır,
Gözümün yaşları bağrıma axır,
Ölmün ürəyimi yandırıb, yaxır,
Bizə toxunmamış yaman qalmadı.

Dərdini heç kəsə car eyləmədin,
Düşdüyün ağrıya yar eyləmədin,
Heç vaxt mənliyini xar eyləmədin,
O bəy qüruruna zaman qalmadı.

Atamın ölmündən ağırdı ölmün,
Səni bu dünyadan çağırdı ölmın…
Sinəmdə fırtına doğurdu ölmün,
Viranə könlümdə səhman qalmadı.

Şadiman qul olub könül ahına,
Tökür gözlərindən yaş sabahına,
Əbədi dünyaya gedən ruhuna…

Demə, bu dünyada mehman qalmadı.
19. 02. 2004

SƏNİ ARAMARAM DAHA HEÇ YERDƏ

Səni aramaram daha heç yerdə,
Gəlib məzarını qucaram, ata,
Dözərəm fələyin verdiyi dərdə,
Elə yoxluğuna acaram, ata.

Dönüb evimizə gəldiyim zaman,
Titrək xəyalınla görüşərəm mən.
Qoparar ürəyim elə bir aman,
Canımın ahına fəryad edər tən.

Özümdən xəbərsiz ağlar gözlərim,
Gördüyüm hər şeydən əksin boylanar.
Boğar bəbəkləri yaş dənizlərim,
Xatirən başına əksin haylanar.

Geriyə qaytara bilsəydim vaxtı,
Ötən çağlarıma çırağ olardım.
Qurardım uşaqlıq dövründə taxtı,
Qayğısız illərə sorağ olardım.

Ölümün eylədi bağrımı talan,
İşığı azalıb bu həyatımın.
Qəlbinə axıdır göz yaşın balan…
Qanadı qırıldı tale atımın.

Nurlu işığınla uçurdum, ata,
Ürəyim adınla qidalanırmış.
Könül sarayımı uçurtdun, ata,
Bu ömrüm adınla nidalanırmış.

Demə aramıram, buna acizəm,
Ey başımın tacı, gedişin sitəm.
Ruhuna yetməkdi indi möcüzəm,
Könlümün evini bürüyüb matəm.

Səni yuxularda gəzirəm neylim?
Ümidim qalıbdı uyğularıma.
Elə tənhalığa qapılıb meylim,
Ayrılıq dağ çəkir duyğularıma.

Səni aramıram daha heç yerdə,
Gəlib məzarını qucaram, ata…
Dözərəm fələyin verdiyi dərdə,
Elə yoxluğuna acaram, ata.
19. X11. 2002

NƏ YAMAN TƏLƏSDİN …

Atamın nəfəsini, səsini mənə andıran
ömrü boyu ağrı-acılarla çarpışan qardaş,
bacı dərdidən ürəyi parmparça olmuş
baba evimin son yadigarı, bəxti qara
Səkinə bibimin əziz xatirəsinə…!

Ey baba evimin son yadigarı,
Nə yaman tələsdin getməyə, bibim?
Sən necə dağladın bağrı, cigarı?
Getdin əzizləri ötməyə, bibim.

Ölmün ürəyimə eylədi sitəm,
Yandırdı bağrımı bu qəfil matəm,
Fələk nə tez verdi ömrünə xitəm?
Tələsdin qardaşa yetməyə, bibim.

Beləymiş cahanda əzəldən qayda,
Ağrını verənə dərddən çox fayda?
Sən ki, gün görmədin heç bu dünyada,
Can atdın məzarda bitməyə, bibim.

Əzrayıl heç bizə aman verməyir,
Ömrü son etməyə zaman verməyir,
Dərd verir, dərdinə dərman verməyir-
Təbiblər bir əlac etməyə, bibim.

Ey üzü gülərim, ey mehribanım,
Sənsiz ərşə çıxıb ahi-amanım,
Qayıtmaz geriyə ötən zamanım,
Bu dərdi səmumtək ütməyə bibim.

Elə Şadimanı üzübdü nalə,
Bağrının yaşları gözündə lalə…
Dözmür fələk salan bu qeylü-qalə,
Can çırpınır təndən itməyə bibim.
Pirallahı, 11.06.2006

AÇILAN HƏR SABAHA SÖVQLƏ XOŞ AN ATADIR

Açılan hər sabaha sövqlə xoş an atadır,
Həm qızın, həm oğulun canına min can atadır.

Eyləyər sinəsini hər bəlaya sipər o,
Dəysə xətər balaya ürəyi nişan atadır.

Qəlbini nuş eləyər ömrü boyu sevdaya,
Döysə qapını kədər hali-pərişan atadır.

Hifz edər ailəsinin namusu-şərəfini,
Hər əzaba tab edən nəfəsi şan-şan atadır.

Vəfa çeşməsi axar könlünə övladının,
Ruhi-canı isidən sinəsi al qan atadır.

Şadiman, salsa fələk qəlbini hər cəfaya,
Başa tac, ömrə bəzək, arzuya min şan atadır.
17. X1. 2004

ÖMÜR KEÇDİ YUXU KİMİ

Ömür keçdi yuxu kimi,
Ətri şirin qoxu kimi,
Zamanın sərt oxu kimi,
Ürəyimi dəldi keçdi,
Qaça-qaça gəldi keçdi.

Ha səslədim bir dönmədi,
Elə yandı heç sönmədi,
Qəlbim təki döyünmədi,
Əzabıma güldü keçdi,
Qaça-qaça gəldi keçdi.

Ömür Rəbbin an ölçüsü…
Hər bədənin can ölçüsü,
İlahinin haqq elçisi,
Hər bəxtə gün böldü keçdi,
Qaça-qaça gəldi keçdi.

Duyğuları əzizlədi,
Hər diləkdə dənizlədi,
Zaman üstə vaxt gözlədi,
Saatları sildi keçdi,
Qaça-qaça gəldi keçdi.

Yaradanın əksinə don,
Bilinməyir əvvəl, ya son,
Odunda yan, buzunda don,
Duman üstə tüldü keçdi,
Qaça-qaça gəldi keçdi.

Bu xaliqdə nə hikmətdi?
Yaratdığı nə surətdi?
Surət içində sürətdi,
Açılan bir güldü, keçdi,
Qaça-qaça gəldi keçdi.

Ey Şadiman, Tanrı yazdı,
Yazdığını bir gün pozdu,
Doğulanı heçə yozdu…
Ömür tənlə öldü, keçdi,
Qaça-qaça gəldi keçdi.

18. 02. 2004

ÇƏKİL GET, QARA BULUD...

CIRDI KÖYNƏYİNİ DOLAN BULUDLAR

Cırdı köynəyini dolan buludlar,
Dəli şimşəkləri sərdi üstünə.
Bir-birin ilantək çalan buludlar
Günəşin qanadın gərdi üstünə.

Yerə haray saldı səmanın ahı,
Ayıltdı yuxudan yatan sabahı,
Yumaqçın torpaqdan qanı, günahı
Göylərin göz yaşın sərdi üstünə.

Göylər qaşqabağın tökdü səhərdən,
Partladı ürəyi, sanki qəhərdən,
Ələm badəsini tutdu zəhərdən
Gətirdi qəm dolu dərdi üstünə.

Yağış qəh-qəh çəkdi dəlilər sayaq,
Dedi: Yatan çoxdu, varmı bir oyaq?

Görəsən taparmı bu cahan dayaq…
Gələrmi dünyanın mərdi üstünə.
13.03. 2003

BULUDLARI YEL QOVUR

Buludları yel qovur,
Yağış qalxır zil üstə.
Göyün bağrın ah ovur,
Şimşək uçur mil üstə.

Axan yaşlar sellənir,
Külək əsir tellənir,
Təbim elə dillənir,
Söz alışır dil üstə.

Yerdə, göydə bir vuruş,
Qəlb eyləmir heç duruş,
Ötən ömür uçan quş,
İl atılır il üstə.

Bulud göyün uşağı,
Belində göy qurşağı,
Odum küldən aşağı,
Gəl oynama kül üstə.

Bulud ərşə sarıldı,
Göyün gözü darıldı,
Gülün bağrı yarıldı
Bülbül öldü gül üstə.
13. 03. 2003

YAĞIŞLAR MİRVARİ DƏNƏSİ

Yağışlar mirvari dənəsi,
Göylərin çağlayan sinəsi,
Dolanar səmanın belinə qurşaq təki,
Elə hönkürər uşaq təki.
Buludlar bir-biriylə qucaqlaşarlar,
Ovunmaq bilmədən ağlaşarlar.
Gözlərindən od tökülər şimşəklərin,
Yuxusunu qaçırar mələklərin.
Göy üzünə şaqqıltı salarlar,
Qırmızı köynəkləri ilə səmadan asılıb qalarlar.
Buludları atəşə bükərlər,
Başlarına od tökərlər.
Yağışlar mirvari dənəsi təki yer üzünə yağar,
Könlümü əlinə alan lal sükutu boğar.
Ürəyimin telləri əsər,
Sinəmdən qopub göylərə tələsər,
Özünü yumaq üçün,
Bu gözəlliyə uymaq üçün.
İslanar könlümün düzləri,
Fikir dənizləri məni qoynuna alar,

Qəlbimə mehman qalar.
Çəkilərəm pəncərəm önünə,
Düşərəm mən də yağışın gününə.
Göz yaşımla isladaram özümü,
Atəşə bükərəm közümü.
Yağışla yuvaram ilhamımı,
Qələm kağızdan alaram həyat kamımı.
Yağışlar göylərin mirvari dənəsi,
Necə eşqlə çağlayar sinəsi.
18. 03. 2003

DUMAN QALIB TÜL İÇİNDƏ

Duman qalıb tül içində,
Xəzər üstə nəm tökülür.
Hər günü bir il içində,
Kipriyindən qəm tökülür.

Sükut könlü naxoş edib,
Ələmini nə xoş edib?
Yel dənizi sərxoş edib
Baxışından dəm tökülür.

Qağayılar lal uçurlar,
Dalğaları hey qucurlar,
Qanadların gen açırlar
Al sabaha bəm tökülür.

Ey Şadiman, gözəl Xəzər,
Ürəyində təblə gəzər,
Ləpələrə et bir nəzər,
Dilindən xoş təm tökülür.
6. 03. 2003

GƏLSİN ALƏM ÇAĞ ÜSTÜNƏ

Səhər-səhər, şeh, nə gəlib?
Oturmusan bağ üstünə.
Ürəyimi hicran dəlib,
Səp qəlbimin yağ üstünə.

Qaralıbdı könlün üzü,
Tutulubdu al gündüzü,
Tut sinəmdə dağı, düzü
Çək tülündən ağ üstünə.

Qəm qapıma heyran olub,
Ürək ona seyran olub,
Dəli könül ceyran olub
Qoyma qaçsın dağ üstünə.

Şeh, üzümü yu çəninlə,
Ortaq olum lap çəninlə,
Suya dönüm mən səninlə
Gəlsin aləm çağ üstünə.
14. 04. 2003

AÇ QAPINI FƏLƏK GƏLİR

Dil danışır könül çaşır,
Təbiətə mələk gəlir.
Duyğularım dağlar aşır,
Təbim qəlbə kələk gəlir.

Yellər əsir xumar - xumar,
Göy otların üzü hamar,
Bulud üstə şimşək cumar,
Bahar əldə ələk gəlir.

Ürəyimdə sözüm coşur,
Yaza vurğun gözüm coşur,
Səbrim daşır dözüm coşur,
Mənzilimə külək gəlir.

Pəncərəmi döyür quşlar,
Şüşə üstə şehli yaşlar,
Yerdə, göydə həyat başlar,
Zaman üstə dilək gəlir.

Sinəm coşur köz içində,
Təb çırpınır söz içində,
Ağrı-acı göz içində,
Ürək könlə hələk gəlir.

Ey Şadiman, həyat şirin,
Tanrı bizdən gizlər sirin…
Açа bilən yoxdu birin…
Aç qapını fələk gəlir.

16. 04. 2003

KÜLƏK ƏSİR HƏZİN-HƏZİN

Külək əsir həzin-həzin,
Bulud göyə yığışmayır.
Dalğa, şahı bu dənizin,
Məcrasına sığışmayır.

Yağış yağır dəli kimi,
Yeri-göyü yuyur sellər.
İlhamımın əli kimi,
Xumarlanır əsən yellər.

Göy Xəzəri döyür dolu,
Bulud-bulud göy ovlaşır,
Qağayının titrək qolu
Suya dəyir, su çağlaşır.

Sevdalanır qırçın ləpə,
Çırpır özün dirəklərə.
Şahə qalxır göyü öpə,
Riqqət verir küləklərə.

Pıçıldayır kövrək dəniz,
Nağıl deyir taleyindən.
Yerə, göyə ürək dəniz,
Nə söyləyir gileyindən?

Diləklərin üstə çağlar,

Ötüb keçər hər bir günüm.
Misralara ah varaqlar,
Allahımdan gələr ünüm.

Külək əsir leysan yağır,
Bürüyübdü ərşi yağış.
Ey Şadiman, coşur bağır,
Misra olur naxış-naxış.

21. X11. 2002

ULDUZLAR TANRININ ALMAZ DAŞLARI

Ulduzlar Tanrının almaz daşları…
Zülmətin bağrından tökülən göz yaşları,
Kainatın sevgili sirdaşları,
Asimana yaraşıqdı,
Bu qış gecəsinə aşiqdı.

Səmaların titrək mələkləri,
Göylərə səpilmiş əlçatmaz ulduzların ürəkləri,
İlahinin şahanə fələkləri,
Ərşin sinə-sinə sarmaşıqdı,
Bu qış gecəsinə aşıqdı.

Axşamlar Ayın köksünə çıraq-çıraq olarlar,
Buludların çarpışmasından solarlar,
Zülmətin könlünü alarlar,
Səhərlər oyaq qalarlar,
Başları sevdalarına qarışıqdı,
Bu qış gecəsinə aşıqdı.

Ulduzlar uzaq planetlərdi, parlayarlar üzümüzə,
Öz sirlərini açmaq istəməzlər bizə…
Bənzəyərlər ocaq içində qıpqırmızı közə,
Göy üzünü bənzədərlər nurlu dənizə,
İşıqları qaşıq-qaşıqdı,
Bu qış gecəsinə aşıqdı.

Tanrım hər gecə parlatsın ulduzları,
Üşütməsin məni könlümün buzları,
Göy üzünün hər axşam işığı olsun,
Bu qış gecələrinin aşiqi olsun,
Zülmətin bağrından tökülən göz yaşlarıdı,
Ulduzlar Tanrının almaz daşlarıdı…

23. X11. 2002

BAŞI ƏRŞƏ DURAN DAĞLAR

Başı ərşə duran dağlar,
Tağlarında duman nədi?
Göylərində bulud ağlar,
Bu qədər ah, aman nədi?

Yar-yoldaşı unutdunmu?
Özgələri yar tutdunmu?
Özünü yad tanıtdınmı?
Əğyarına mehman nədi?

Döndüm dəli səyyadına,

Sal əhdini bir yadına,
Tutdun məni gurşadına,
Verməyirsən aman nədi?

İlqarını itirdinmi?
Ömrü başa yetirdinmi?
Yaxşı günü ötürdünmü?
Qəlb inlədən zaman nədi?

Nə sızlarsan könlüm təki?
Ocaq altda külüm təki,
Bağçamdakı gülüm təki -
Bülbül səslər kaman nədi?

Bərbəzəksən gündüzünə,
Qonub işıq, nur üzünə,
Əl açmısan göy üzünə,
Kainata iman nədi?

Qartalların zirvə çalır,
Kəklik özün kola salır,
Turacların harda qalır?
Eyləmisən dərman nədi?

Dağlar, könlü ovutmağa,
Atəşimi sovutmağa,
Təbdən misra de tutmağa-
Verməyirsən fərman nədi?

Bəzəmisən yal-yamacı,
Meşələrin dirlik tacı,
Xəstənin səndə əlacı,
Bağrındakı güman nədi?

Şadimanı eylə qulun,
Tut gurşada, bağla yolun,
Yuva olar ona kolun…
Hər cığırın loğman nədi?

26. X11.2002 / Gəmidə

BİZƏ TƏRƏF GƏLƏN, BAHAR

Bizə tərəf gələn, bahar,
Al, günəşi gətir elə.
Al atlasa bələn, bahar,
Saçsın nurlu ətir elə.

Baharımız çiçəkləsin,
Qızılgüllər ləçəkləsin,
Qış getsin, yaz gerçəkləsin,
Gülüstanlıq bitir elə.

Üzü gülsün insanların,
Nura dönsün leysanların,
Bənövşələr ehsanların,
Bərəkəti yetir elə.

Dağlarının tülünü al,
Ətir saçan qoynuna sal,
Arıların nə şanı bol?
Çək pətəyi ötür elə.

Sevdaları cana yar tut,
Bəhərindən bağa bar tut,
Köynəyinin ucun dar tut,
Sinən açsın çətir elə.

Bahar, nədən gecikmisən?
Buludlara dam tikmisən,
Sel-sulara can sökmüsən,
Gətirmisən xətir elə.
2. 05. 2003

HEYVA AĞACI

Geyinib yamyaşıl yarpaq əyninə,
Gətirmisən yazı, heyva ağaci.
Havanın soyuğu gəlməz eyninə,
Udarsan ayazı, heyva ağacı.

Dəmir dirəklərin üstən boylandın,
Yağışa düşəndə ahdan vaylandın,
Könlümün başına elə haylandın,
Dindi ilham sazı, heyva ağacı.

Tufanlar içində nə baharladın?
Saralan günəşlə sən naharladın,
Yanan ürəyimlə bir aharladın,
Fələkdənmi yazı, heyva ağacı?

Küləklər oynaşır yarpaqlar üstə,
Şehlər pıçıldaşır saplaqlar üstə,
Titrəşən budaqlar düşər üz üstə,
Edər könlə nazı, heyva ağacı.

Buludlar kəsillər göy tağlarını,
Küləklər əzillər budaqlarını,
Yarpaqlar büzüllər dodaqlarını,
Şehlər sübh bəyazı, heyva ağacı.

Qəlbimi ilahi huşa gətirdin,
Xəzərə baharlı guşə gətirdin,
Yanan ilhamımı cuşa gətirdin,
Coşdurdun avazı heyva ağacı.
2. 05. 2003

MƏNİ BULUDLAR AĞLADI

Hicran-hicran gün götürdüm ötüb qaçarkən zamanım,
Ürəyimdə tel titrədi, bu İlahiyə imanım,
Əlimdəki qələm əsdi, gəldi fələkdən fərmanım,

Yerlər, göylər bəyazlaşdı bağrı aşanda dumanım,
Şaqqıldayan şimşəklərin göy qurd ağzını bağladı,
Əhvalıma yandı səma, məni buludlar ağladı.

Zinət verdi üz-gözünə dünyanın şıltaq küləyi,
Hey coşdurdu duyğuları eylədi məcnun diləyi,
Üsyan etdi kainata vurdu hər şeyə kələyi,
Könlü yerdən asimana qaldırdı təbin mələyi,
Ahım qopdu qəlb içindən can aləmləri dağladı,
Əhvalıma yandı səma, məni buludlar ağladı.

Göz yaşımın çeşməsində kipriklər eşqlə yuyundu,
Qəmim matəm libasını isladıb candan soyundu,
Aha batmış fələklər də baxışlarımdan yayındı,
Allahdanmı gəldi höküm, ya təbiətdə oyundu?
Sinəmdəki arzularım yerindən qalxıb çağladı,
Əhvalıma yandı səma, məni buludlar ağladı.

Misralarım sətir-sətir dərdin söylədi üzümə,
Gəlib ilham otağıma qoydu başını dizimə,
Ocağıma çaxmaq vurdu, alovun atdı gözümə,
Hıçqırıqlar qopdu ərşdən söylədi, haray, sözümə!
Boynun bükdü asimanlar həyatıma dərd çuğladı,
Əhvalıma yandı səma, məni buludlar ağladı.

Ey Şadiman, söz bulağın dəli sellərtək daşanda,
Təbim cumub zirvələrə sədləri bir-bir aşanda,
Qəlb bağının bülbülləri cəh-cəh vuraraq coşanda,
Ağlın uyub bu seyirə yolun-ırızın çaşanda,
Ürəyimə dərdin basan həsrət dilini yağladı,
Əhvalıma yandı səma, məni buludlar ağladı.

04. 05. 2003

TƏBİƏTİN GÖZƏL QIZI

Təbiətin gözəl qızı,
Bürünmüsən şala, bahar.
Gətirmisən gözəl yazı,
Yaşıldı çöl, tala, bahar.

Günəş göydə göyçəkləyir,
Ağac, kol-kos çiçəkləyir,
Çinarların ləçəkləyir,
Düşmə haldan-hala, bahar.

Bülbül oxur gül üstündə,
Ocaq çatlar kül üstündə,
Göylər bəyaz tül üstündə,
Boynuna qol sala, bahar.

İlahidən nə qüdrətdi?
Sənə barat şux qamətdi,
Gözəlliyin qiyamətdi,
Get bizimlə yola, bahar.

Göylərində bulud çağlar,

Hönkür-hönkür elə ağlar,
Ürəyimi yaman dağlar,
Getmə qeylü-qala, bahar.

Apar soyuq, buz qışları,
Sal çölə yaz naxışları,
Kaman eylə baxışları,
Mizrab tutub çala, bahar.

Susdur dərdi yazanımı,
Apar qəlbdən xəzanımı,
Daşdır ilham qazanımı -
Könlüm təblə dola, bahar.

Çiçəkləri tök düzlərə,
Günəş gətir gündüzlərə,
Al lalə ol ağ üzlərə,
Dön dilimdə bala, bahar.

Qış bağrıma hicran əkdi,
Ürəyimi qəmə çəkdi,
Hər can üçün ömür təkdi…
Yap bağrıma qala, bahar.

Nərgizlərin nə bəyazdı,
Hər ömürə sevda yazdı,
Şadimanın könlü azdı…
Qaytar onu yola, bahar.

01.04. 2002

SƏNİN GƏLİŞİNƏ QURBAN OLUM MƏN

Sənin gəlişinə qurban olum mən,
Gəlişin çiçəkdi, güldü, Novruzum.
Yaşıl dağlarına mehman olum mən,
Başında ağappaq tüldü, Novruzum.

Ey mənim istəkli, əziz bayramım,
Bütün sevgilərdən təmiz bayramım,
Sevdası, diləyi dəniz bayramım,
Hər tonqal qar üstə güldü, Novruzum.

Coşur bulaqların - qaynayır gözü,
Tonqalın sinəmə od salır közü,
Elə ki, göstərdin o mələk üzü,
Dağdan şaqqıldayan seldi, Novruzum.

Durum sevdalanım gül-çiçəyindən,
Könlümə od salım o ürəyindən,
Bərəkət gətirən hər diləyindən-
Zəmilər yamyaşıl teldi, Novruzum.

Gədiklər, yalmanlar, yamaclar yaşıl,
Ormanlar içində ağaclar yaşıl,
Qış yuxuya gedir hey mışıl-mışıl,
Ömürdə təzə bir ildi, Novruzum.

Buludlar çaxnaşma salar göylərdə,
Şimşəklər bir-birin çalar göylərdə,
Bu işvədən, nazdan dolar göylər də,
İslanan dağ, dərə, çöldü, Novruzum.

Bayram tonqalları dağtək çatılar,
Yanan ürəklərin odu qatılar,
Bütün dərd-bəlamız oda atılar,
Adəti hifz edən eldi, Novruzum.

Yanar ürəyimdə könlümün şamı,
Alar diləklərdən ümidlər kamı,
Sən cuşə gətirdin yenə ilhamı,
Şə'ninə söz qoşan dildi, Novruzum.

20. 03. 2002

SƏNDƏ MƏLƏKLƏRİN GÖZƏLLİYİ VAR

Sən ey təbiətin balası, bahar,
Səndə mələklərin gözəlliyi var.
Yamyaşıl atlasın tüllərdən incə,
Sənin tamaşana gəlir Ay gecə.
Gəlişin könlümün oylağın ovlar,
İçimdən niskili, ələmi qovlar.
Çiçəkli çəmənlər min rəngli xalı,
Yerlərin, göylərin şirin vüsalı.
Kədərə bürünmüş bulaqlar çağlar.
Ömrü sona yetmiş sazaqlar ağlar,
Şəlalə zirvənin başından aşar.
Çaylar məcrasından çıxaraq daşar,
Ağaclar al, yaşıl xara geyinər,
Bülbülün ürəyi güllə döyünər.
Bulaqların gözü açılar buzdan,
Gözlər ovsunlanar bu bahar qızdan.
Bürünər çiçəyə, gülə yal-yamac,
Yurdumun başında nə şahanə tac?

Sən ey təbiətin balası, bahar,
Səndə mələklərin gözəlliyi var.

12. 03. 2002

EY SƏMA DAŞI

Hansı səyyarədən qopub gəlirsən?
Göylər də ahına tökür göz yaşı,
Asiman bağrını oxtək dəlirsən,
Zülməti üzürsən, ey səma daşı.

Çoxları ulduztək zənn edir səni,
Qəfildən axanda gözlər önündən.
Bu gecə heyrətə gətirdin məni,
Ürəyim titrədi ötüşdün gendən.

Kainat içindən qopan möcüzə,
Hansı planetin sirri var səndə?
Ötüşdün zülmətdən nə süzə-süzə?
Fələyin əlçatmaz dürrü var səndə.

Gecənin seyrinə daldığım zaman,
Ox təki parladın, ey səma daşı.
Gözlərim ah dedi, ürəyim aman,
Titrədi heyrətdən o can sirdaşı.

Hansı palanetdən qopub gəlirsən?
Asiman içində alışıb yandın.
Atmosfer köksünə hopub gəlirsən,
Böyük Yaradana bu imiş andın?!…

Deyirlər göylərdə sən alışanda,
Qəlbində bir arzu tutarsa adam…
Hasilə yetişər dilək o anda,
İnsana ruh verir muradı, müdam.

Mənim taleyimmi alışıb yandın?
Asiman bağrında, ey səma daşı.
Heyrətlə səcdənə durdum, dayandım,
Ünyetməz göylərə – ey zümrüd qaşı.

15. X. 2003

ÇƏKİL GET, QARA BULUD

Çəkil get, qara bulud, qəlbə divan eləmə,
Al sabahın sinəsin qəmə ünvan eləmə.

Duyğularım gah göydə, gah yerdə avazlanır,
Ürəyimdə dünyanın min bir dərdi yazlanır,
Kədər mənə ərk edir, bu sinəmdə nazlanır,
Ruhun zənguləsinə təbim yenə sazlanır,
Beyitlərin içində misralar pərvazlanır…
Çəkil get, qara bulud, könlü xarab eləmə,
Mənim fəryadlarıma iblistək tab eləmə.

Yenə açdın köksünü, bağrından nə ah gəlir?!
Sübhün könlündən qopub yurduma sabah gəlir,
Hər sabahın içində səvab və günah gəlir…
Həm yerdə, həm göylərdə ucada Allah gəlir!…
Çəkil get, qara bulud, ərşi aha bürümə,
O mələk küləkləri, gəl arxanca sürümə.

Bu payız səhərində tök ətəyindən daşı,
Təb məni havalayıb, dolub könlümün başı,
Yerdə, göydə tapmıram ruhuma can sirdaşı!…
Elə bilmə fələyin felinə oldum naşı,
Çəkil get, qara bulud, gurşadını ələmə,
Fəqanımı isladıb göz yaşıma bələmə.

Ağlayan duyğulara yer tapmıram gizləyim,
Başına sığal çəkim, elə hey əzizləyim,
Götür üzdən çadranı ilhamla dənizləyim,
Ürəyimi qüssədə, kədərdən təmizləyim,
Çəkil get, qara bulud, sübhümüz xar olmasın,
Tələtümlü varlığım ağrıya yar olmasın.

Küləklərin Xəzərin tellərin daraqlayar,
Duyğularım təbimin kitabın varaqlayar,
Sən gələndə asiman tufanı yaraqlayar,
Bu divanə ürəyim bir sevda soraqlayar…

Çəkil get, qara bulud, qəmimə əl eləmə,
Könül qapısın açıb həsrətə gəl, eləmə.

Şadimanın ağrısı yeri-göyü tutmayır,
Sinəmdən qopan nalə səmalara çatmayır,
Arzularım bir hovur qəlb içində yatmayır,
İntəhasız kədərin sədaları batmayır,
Çəkil get, qara bulud, dünya içi zülümdü,
Ah olan içərimdi, sənə baxan çölümdü!…

15. X1.2003

XƏZƏRİN ÜSTƏ ACI YELLƏR ƏSİR...

Xəzərin üstə acı yellər əsir…
Qapımı payız küləyi kəsir,
Qara bulud karvanı dolaşır yer üzündə,
Dünyanın nəmi dolmuş gözündə,
Qasırğa yeri, göyü vaylayır,
Yatmış ləpələri haylayır,
Dalğalar nehrətək çalxalanır,
Suların dupduru üzü bulanır,
Dalğalar attək kişnəyir, şahə qalxır,
Göylərin, dənizin qeyzinə şimşəkləri çaxır,
Bulud buludu döyür, asimanı od-atəşə yaxır,
Bu od-atəşlər bir sərsəri kimi göydən yerə baxır…
Xəzərin nəriltisi səmanı məst edir,
Bu hıçqırtılar ürəyimə qəsd edir.
Qağayılar küləyin vəhşətinə baş götürüb qaçır,
Tanrıya əl açır.
Buludlar tən yarılır,
Günəş səmaya sarılır,
Fəqət, odu qaranquş karvanıyla getmiş,
İstisini bizdən uzaq etmiş,
Yalnız sarıltısını salır gözümə,
O məsum görkəmiylə baxır üzümə.
Çalxanan dəryanın savaşı bitmir,
Qağayıların ah-vayı qulaqlarımadan getmir.
Mən və duyğularım əsirik direklər üstə,
Zalım külək toy qurub ürəklər üstə.
Meydança yelləndikcə ahım qopur,
İçimdə payızın acı yelləri çapır.
Allaha imdad edirəm,
Qoşulub canıma bu dünyadan gedirəm…
Gedirəm…

20. X1. 2003

DAĞLARA, DÜZLƏRƏ SAF İNCİ, ÇİÇƏK

Dağlara, düzlərə saf inci, çiçək,
İpək tellərində yellər oynayır.
İntizar sinəmin sevinci, çiçək,
Sənin tamaşana çöllər oynayır.

Ana təbiətin əsmər gözəli,
Əl vurdun təmasın titrətdi əli,
Oxşadın duyğumu ruhum əzəli,
Ələnir şəbnəmlər, tellər oynayır.

Otların içindən boylandın incik,
Üşüdü vücudum vaylandın incik,
Çəmənin əlində məsum gəlincik,
Hönkürür gurşadlar, sellər oynayır.

Çiçək görkəmindən mələklik yağır,
Əsdikcə rüzgarlar odlanır bağır,
Qoy ötsün bu günün anları ağır,
Rayihən yayılır, ellər oynayır.

Yenə duyğularım coşur, çağlayır,
Divanə ilhamım söz növrağlayır,
Qəlbim mizrab vurur, simlər ağlayır,
Könül havalanır, dillər oynayır.

Buludlar göylərdə dövrə vurublar,
Mavi örtüklərdən bir tağ qurublar,
O gözəl seyrinə erkən durublar,
Ətəklər sallanır, bellər oynayır.

Çiçək, Şadimana xoş qoxu gətir,
Ruhu məst eləsin can alan ətir,
Sənə avazlanıb hər misra, sətir,
Barmaqlar titrəyir, əllər oynayır.

19. X1. 2003

ƏSİR XƏZRİ KÜLƏYİ

Əsir xəzri küləyi,
Dalğaları talayır.
Ləpələr su mələyi,
Sahilə od qalayır.

Qol götürüb oynayır,
Qağayılar ahəstə.
Ürəkdə təb qaynayır,
Dilə gəlir zil üstə.

Göy sulara yayılır,
Əsən yellərin səsi.
Süküt haydan bayılır,
Artır həyat həvəsi.

Yosunlar sığal çəkir,
Ləpələrin başına.
Ürəyi hicran çəkir,
Can atır sirdaşına.

Dikilib göy Xəzərə,
Buludların gözləri.
Hərdən çapır nəzərə,
Şimşəklərin közləri.

Qığılcımlar atəştək,
Dalğaları odlayır.
Könlüm yanır günəştək,
Ürəyim fəryadlayır.
18. X1. 2003

TƏBİƏT AĞ PALTARDA

Təbiət ağ paltarla
Gəlintək pərvazlanır.
Durna uçur qatarla
Sədası avazlanır.

Yenə həzin yel əsir,
Yarpaqlar pıçıldaşır.
Qapımı payız kəsir,
Niskilim aşıb-daşır.

Ürəyim cuşə gəlir,
Sabahların eşqinə.
Xəyalım huşə gəlir,
Bəs onun bu eşqi nə?

Pəncərəmin şüşəsin,
Tıqqıldadır sərçələr.
Xəzan pozur nəş'əsin,
Yarpaq dolu küçələr.

Könlümdə bu dünyanın,
Sarı yelləri əsir.
Ömür, sanki röyanın –
Sabahına tələsir…
18. X1. 2003

PAYIZ SAÇLARINI TÖKÜB ÇİYNİNƏ

Payız saçlarını töküb çiyninə,
Göylərin seyrinə çıxıb, bu sabah.

Bağ-bağça sarı don geyib əyninə,
Qəlbini bir niskil yıxıb, bu sabah.

Ötür səmalarda durna qatarı,
Hərdən də boylanır arxaya sarı,
Zirvədə taxt qurub dağların qarı,
Qartalın yuvasın yıxıb, bu sabah.

Sübhün gözlərindən tökülür yuxu,
Gecənin zəhmindən qəlbində qorxu…
Yerdən, göydən gəlir xoş şəbnəm qoxu,
Kol-kosün axrına çıxıb, bu sabah.

Tökülən yarpaqlar xalıya bənzər,
Həzin yel əsdikcə aləmi gəzər,
Bu yanda sakitcə ah çəkir Xəzər,
Dalğalar sahilə axıb, bu sabah.

Asiman öz karvan köçünü qurub,
Bulud arxasında al günəş durub,
Titrək baxışıyla boynunu burub,
Səhərin əlini sıxıb, bu sabah.

Şadiman, bu eşqlə ölməyə nə var?
İncə duyğuları bölməyə nə var?
Şər, şeytan olmasa gülməyə nə var? !…
Ömür vəfa qılsa gəlməyə nə var? !
İlhamım üzümə baxıb, bu sabah.

18. X1. 2003

İLAHİNİN NƏ DİLBƏR ŞAHANƏ KÜLƏKLƏRİ ?

Kainatın nazəndə, davakar mələkləri,
İlahinin nə dilbər şahanə külәkləri?

Dəryalara hay salar, dənizləri ağladar,
Duyğuları coşdurar, arzuları çağladar,
Könlü cuşə gətirər – qəm qapısın bağladar,
Bu sinəmin ocağın od, atəşlə dağladar,
İntəhasız eşqinə səsləyər dilәkləri…
İlahinin nə dilbər, şahanə külәkləri?

Aləmlərə hay salar, dənizlərdə toy qurar,
Dalğaların gözündə coşub-daşan çay qurar,
Qaraldar göy suları, ləpələrə vay qurar,
Göylə yer arasında ərzi yaxan hay qurar,
Çalxadar nehrə təki ilhamlı ürəkləri,
İlahinin nə dilbər, şahanə külәkləri?

Bu dünyanın boynuna zəncir salıb fırladar,
Bir tərəfə isti meh, bir tərəfi qarladar,
Dəryalar sahilini tufanlarla darladar,
Əlinə keçənləri əcdaha təki udar…
Naz eyləyər Tanrıya, çərlədər fələkləri,
İlahinin nə dilbər, şahanə külәkləri?

Okeanlar üstündə neçə canlar almısan?!…
Bərələri batırıb gur sulara salmısan,
Gəmilərə vay qurub, ürəyindən çalmısan,

Sonra peşiman olub xəyallara dalmısan…
Hər dəniz qanadının bir uyğu bələkləri,
İlahinin nə dilbər, şahanə küləkləri?

Küsüb getsən cahandan bəşərin baxtı yatar,
Günəş bizi atəşə, yer bizi oda atar!
Kürəmizin əbədi o həyat bəxti yatar,
Dönər yoldan tarazlıq – dünyanın axrı çatar!
Göydən baxan buludlar könlünün ələkləri,
İlahinin nə dilbər, şahanə küləkləri?

Səmaların içində göy saraylar yapırsan,
Gecə-gündüz dünyanın çiyinində çapırsan,
Harda bir nehir gördün ilhamını tapırsan,
Həm isti, həm soyuqla aləmləri çapırsan,
Qollarına sarılıb göylərin biləkləri,
İlahinin nə dilbər, şahanə küləkləri?

Zamanın güzgüsündə tellərini dararsan,
Suda, meşədə, düzdə təninə ruh ararsan,
Baş vurub dəryalara dənizləri yararsan,
Dünyamızı sarsıdıb qasırğanla sararsan!
Ayağına nərdivan səmanın dirəkləri…
İlahiin nə dilbər, şahanə küləkləri?

Mənim də ürəyimdə Rəbbin hicran tufanı,
Əsdirir xəzan yeli, üşüdür buzla canı,
Şadiman fəqan edir, ona səs verən hanı?!…
Coşdurma damarımda alışan, yanan qanı,
Doğum-ölüm bəşərə fələyin kələkləri…!
İlahinin nə dilbər, şahanə küləkləri?

16. X1. 2003

MƏNİM İLHAMIMI ÇAĞLADAN PAYIZ

Mənim ilhamımı çağladan payız,
Qəmin ayağına canı, gətirmə.
Könlümü körpətək ağladan, payız,
Ürək fəqanıma anı gətirmə.

Sən bir küskün pəri, mən qəlbi xəstə,
Duyğum qol götürüb oynayır pəstə,
Bu çılğın ilhamın dili ahəstə,
Qəlbə savaş salıb qanı, gətirmə.

O tutqun üzünü aç, günəş olsun,
Soyumuş sinədə bir atəş olsun,
Qəm zəmisi yansın, lap küləş olsun,
Dərdə xoş növrağı, sanı, gətirmə.

Ey sarışın gözəl, aləmi seyr et,
Bağrımın dağında naləmi seyr et,
Təb bağında bitən laləmi seyr et,
Ələm damarına qanı, gətirmə,

Ey mənim ruhumun dildarı, payız,

Könlümün sevgili şux yarı, payız,
Gəl unudaq birgə ah-zarı, payız,
Dərdimin taxtına şanı, gətirmə.

Ver bu Şadimanın ruhuna qida,
Bugün sitəmlərə deyək əlvida,
Dünyanı titrətsin ah dolu nida!
Ölmüş kədərimə canı, gətirmə!…
16. X1. 2003

DURNALAR

Qərib yolçulartək cəm olubsunuz,
Yığışıb gedirsiz hara durnalar?
Kövrək buludlartək nə dolubsunuz?
Könlü çəkirsiniz dara, durnalar.

Mən də diləkləri quştək havada,
Qəlblə çarpışıram qanlı davada,
Qala bilməyirəm heç bir yuvada,
Gəlmişəm canımdan zara, durnalar.

Sərhədsiz, sorğusuz qatar bağlarsız,
Əngin göy üzündə elə çağlarsız,
Qalıb qürbətlərdə qəmdən ağlarsız-
Qəlbi edərsiniz yara, durnalar.

Hicranlar ağradar sinənin için,
Yuvanı tərk edib gedirsiz neçin?
Sevdası irağa düşmüşlər üçün-
Yardan bir məktubsuz yara, durnalar.

Könlü ovsunlayar o quş dilləri,
Qanadlar günəştək üzər yelləri,
Dumanlar oxşayar pərqu telləri,
Boz tüklər çəkilər tara, durnalar.

Bir Simurğ quşutək məni alaydız,
Titrək qanadların üstə salaydız,
Dərdli ürəyimə layla çalaydız,
Könlə edəydiniz çara, durnalar.

Saman yuvanızda daş-qaşınız yox,
Sərvət savaşına qul başınız yox,
Nə ki, sarayınız, heç daşınız yox,
Dəyərsiz dövlətə, vara, durnalar.

Ölkələr içində qanad açarsız,
Elə səf bağlayıb nazla uçarsız,
Hərgah Şadimantək öylə naçarsız-
Ərz edin yetişim kara, durnalar.
10. 04. 2002

XƏZƏR NƏ NAZƏNDƏ?

Alar ağuşuna məni ləpələr,
Aparar könlümdən çəni ləpələr.
Ovudar istidən təni ləpələr,
Yosunlar dalğalar üstündə xəzəl,
Xəzər nə nazəndə, Xəzər nə gözəl?

Duyğuma, könlümə ilham gətirər,
Ağrılı sinəmə bir kam gətirər,
Canın sarayına ehkam gətirər,
Ruhumun evində hər şeydən əzəl,
Xəzər nə nazəndə, Xəzər nə gözəl?

Yatmış duyğuları uşağa bənzər,
Yeddi çalarlı göy qurşağa bənzər,
Anları dad verən xoş çağa bənzər,
Həzin pıçıltısı ruh oxşar qəzəl,
Xəzər nə nazəndə, Xəzər nə gözəl?

Bəyaz qağayılar duvaqlı gəlin,
Öpər dalğaların utancaq əlin,
Darayar sularda o pərqü telin,
Sanki hüri-mələk, şux şıltaq gözəl,
Xəzər nə nazəndə, Xəzər nə gözəl?

Həzin küləklərə tamarzı sular,
İncik dalğalara çör-çöpü bular,
Çatlamış sahilin bağrını sular,
Qumlar sığal çəkər yelə, deyər gəl,
Xəzər nə nazəndə, Xəzər nə gözəl?

Cadar-cadar olmuş torpaq hayqırır,
Günəşin atəşin köksündə qırır,
İsti sular üstə, sanki toy qurur,
Ey ürək, yuxlama yoluna düzəl,
Xəzər nə nazəndə, Xəzər nə gözəl?

Şadiman dənizdə arar könlünü,
Çılğın ləpələrə sarar könlünü,
Təbi şahə qalxıb yarar könlünü,
Gəzər misra-misra kağız üstə əl,
Xəzər nə nazəndə, Xəzər nə gözəl?

1. 09. 2003

NƏ ƏSİRSƏN SƏHƏR YELİ ?

Nə əsirsən, səhər yeli,
Ürəklə can arasında?
Nə titrəyir könül teli?
Damarla qan arasında?

Buludların göyü qatlar,
Şimşəkləri çəkib atlar,
Hissim coşar, bağrım çatlar,
Saatla an arasında.

Zülmət köçün sürüb gedər,

Çadrasını sərib gedər,
Səslər ərşə sübhü qədər…
Gecəylə dan arasında.

Təb başımı havalayar,
Ürəyimi duvalayar,
Könlümdə qəm yuvalayar -
Arıtək şan arasında.

Xudam məni dərviş edib,
Ahlarıma vərdiş edib,
Sinəmdə qəm gərdiş edib,
Düşübdü qan arasında.

Hər səhərin bir axşamı,
Əsmə sönər ömür şamı,
Şadimanın misra kamı –
Zirvəylə şan arasında.

2. X11.2003

XƏZƏRDƏ NƏ FIRTINA?

Küləklər haray salar,
Dənizi ələ alar,
Dalğa dalğanı talar,
Dili dəryanı yalar,
Döyər göyün sırtına,
Xəzərdə nə fırtına?

Boz sular qalxar ərşə,
Qasırğa alar nəş'ə,
Dözmək olmaz gərdişə,
Ahdan ağlar hər guşə,
Qəm qatar büsatına,
Xəzərdə nə fırtına?

Dişin qıcıdar sular,
Dəniz qurd təki ular,
Lap dəhşət gözün sular,
Dərd yüklər saatına,
Xəzərdə nə fırtına?

Dəmir dirəklər inlər,
Tanrı fəqanı dinlər,
Dərya içində kinlər,
Dalğa bir az da kinlər,
Çıxar göyün qatına,
Xəzərdə nə fırtına?

Buludlar ağlaşarlar,
Səmaya bağlaşarlar,
Ləpələr hey coşarlar,
Su üstündə aşarlar,
Oturar göy atına,
Xəzərdə nə fırtına?

Ey Şadiman, ömürmü?
Yazıq canın dəmirmi?
Çıxarmaz səs-səmirmi?

Haqdan gələn əmirmi?
Qəm qatar həyatına,
Xəzərdə nə fırtına?
22. X11. 2001

ÖMRƏ CALANA - CALANA

Duman dağların başına,
Qondu dolana-dolana.
Baxdım zirvənin qaşına,
Gözüm bulana-bulana.

Uçdu kəkliklər yuvadan,
Gəldi gül ətri havadan,
Bir yanğı qopdu duvadan
Könlə qalana-qalana.

Gədiklərdə meh yelləndi,
O gur şəlalə telləndi,
Dağdan dərəyə milləndi,
Ağzı sulana-sulana.

Qopdu şimşəkdən şaqqıltı,
Saldı buludlar hıqqıltı,
Bir qərib durna qaqqıltı…
Qəlbi talana-talana,

Demə, Şadiman, qış vaxtı,
Bürüyüb duman çən baxtı,
Zaman əlindən an axdı
Ömrə calana-calana.
28. X11. 2001

HİCRAN DÜŞƏR

Yandırırsan yeri, göyü,
Minmisən savaş atına.
Külək, Tanrı ərkəsöyü,
Dəymə bəşər həyatına.

Hey çapırsan sağa, sola,
Gəlməyirsən bizlə yola,
Güc gəlirsən ələ, qola,
Qatırsan şər həyatına.

Külək, yenə dəli əsmə,
Pəncərəmin ağzın kəsmə,
Ruhu oxşa, candan küsmə,
Hicran düşər həyatına.
21. X11. 2001

BU GƏLƏN YAZDI

Əlində sazdı, sazdı,
Bu gələn yazdı, yazdı.

Buludları axnaşdı,
Şimşəkləri çaxnaşdı,
Suları aşıb-daşdı,

Sel demə azdı, azdı,
Bu gələn yazdı, yazdı.

Düzləri ipək geyər,
Yaşıldan örpək geyər,
Gurşad başına döyər,
Gölü ördəkdi, qazdı,
Bu gələn yazdı, yazdı.

Göy üzü gömgöy olar,
Gah boşalar, gah dolar,
Küləklər saçın yolar,
Gecənin ömrü azdı,
Bu gələn yazdı, yazdı.

Dağları əlvan-əlvan,
Ətəyin sellər yuvan,
Yamyaşıldı hər ünvan,
Kef-damağı nə sazdı?
Bu gələn yazdı, yazdı.

Bir əlində Novruzu,
Göy çölü qoyun, quzu,
Göydə ayı, ulduzu,
Baxışı işvə, nazdı,
Bu gələn yazdı, yazdı.

Geyinər yaşıl xara,
Son qoyar şaxta, qara,
Bahar hara, qış hara?
Soyuğa məzar qazdı,
Bu gələn yazdı, yazdı.

Günün ömrü uzandı,
Günəş göylərdə yandı,
Aləm nura boyandı,
Əlində sazdı, sazdı,
Bu gələn yazdı, yazdı.

Fəsillər ağlaşdılar,
Göylərə bağlaşdılar,
Fələklər çağlaşdılar,
Zirvələri aşdılar…
Təbiət şerin yazdı,
Bu gələn yazdı, yazdı.
25. 02. 2002

GƏL AÇIL ÜZÜMƏ, AÇIL, EY SƏHƏR

Yordu qaranlıqlar bu ruhu yenə,
Təkcə, sən duyarsan hər ahı yenə,
Gətir həyatıma sabahı yenə,
Qorxunc zülmətlərdən qaçıl, ey səhər.

Gəl açıl üzümə, açıl, ey səhər.

Nazəndə eşqi var yerin, göyündə,
Gözəldir ağappaq tüllər əyində,
Ey füsnükar mələk, nazlan, öyün də,
Bəyaz şəfəqlərlə saçıl, ey səhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

Tutub zərə, boya dan ulduzunu,
O göyün bağrında məsum quzunu,
Çəkdim həsrətini gecə uzunu…
Gəlmirsən axşamtək uçul, ey səhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

Sən də xiffət çəkmə məntək ağrıma,
Zülmət yataq açıb acı-ağrıma,
Geydirib qaranlıq çulu bağrıma,
Necə də ağırdı bu çul, ey səhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

Dolubdu gözümün yaşları bir-bir,
Hər damla könlümə bir dərin qəbir!
Qov zülmət pərisin, tükənib səbir,
Yapışıb boğazdan cəlladtək qəhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

Sən Tanrı çırağı, İlahi şamı,
İşığlat başımın üstündə damı,
Qəlbim ürəyincə alsın qoy kamı,
Bu zülmət könlümə bir qədəh zəhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

Sabahım, çək könlə bəyaz naxışı,
Dikmişəm çöhrənə heyran baxışı,
Yağır ürəyimə hicran yağışı…
Vurmuşam gecəni başa bir təhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

Gecədən sübhədək yanır qəlb şamım,
Şam sönüb zülmətə bürünüb damım,
Qoyma ürəyimi odlasın kamım,
Yenə atlanıbdı mələk ilhamım,
Bu divanə könlüm bir coşqun kəhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

Parlasın al günəş Xəzər üstündə,
Hər dalğa şəfəqin üzər üstündə,
Şadiman bu nuru bəzər üstündə,
Versin duyğularım bir yeni bəhər,
Gəl açıl üzümə, açıl, ey səhər.

29. X11. 2001

GƏL, EY BAHAR, AÇ QAPINI

Gəl, ey bahar, aç qapını,
Könül quşum dilə gəlsin.
Gəlsən qırma qəlb sapımı,
Təbim uçub telə gəlsin.

Duyğularım necə daşdı?
Duman üstə dağı aşdı,
Gözüm dolub, kiprik yaşdı,
Xəbər elə yelə gəlsin.

Hicranımı zindana at,
Ürəyimə sevdalar qat,
Yuxub azıb qaç ona çat,
Necə gedib elə gəlsin?

Gəl, ey bahar, göyü çalxat,
Şimşəklərə kəmənd qalx at,
Yaşıl geyin, götür göy at,
Gözəl yazın elə gəlsin.

Təbiətin mələk qızı,
Can üzüldü, etmə nazı,
Bas könlüvə telli sazı,
Zəngulələr çölə gəlsin.

Hər tərəfi eylə çiçək,
Atlasını düzlərə çək,
Gül bağçamız ləçək-ləçək,
Bülbül uçub gülə gəlsin.

Şadimanın könlü ceyran,
Gah dağa, gah düzə heyran,
Bu dünyanı eylə seyran,
Təbim dönüb selə gəlsin.

15. 04. 2003

XƏZƏR, MƏNƏ QƏM OXUMA

Pıçıltılar nəyi söylər?
Dalğaları yoldan eylər,
Küləkləri qanad neylər?
Kəmənd atma qəlb oxuma,
Xəzər, mənə qəm oxuma.

Fırtınalar atın çapıb,
Ləpələrin köksün qapıb,
Ürəyimi tutub çapıb,
Dərdə xalı gəl toxuma,
Xəzər, mənə qəm oxuma.

Gecəmi hay-küyə basdın,
Boğazından niyə asdın?
Dünən toydun, bugün yasdın,
Tökdün alov, od yuxuma,
Xəzər, mənə qəm oxuma.

Cırdın mavi, tül donunu,

Etdin bomboz-kül donunu,
Hara atdın gül donunu?
Kür oldun adəm qoxuma,
Xəzər, mənə qəm oxuma.
14. 03. 2003

RUHUMUN SEVDASIYLA PIÇILDAŞAN LƏPƏLƏR

Könlümü layla təki oxşayırsız gör necə?
O zərif pıçıltınız çiçəkdən, güldən incə,
Dadlı röyalarıma gəlirsiniz hər gecə,
Kükrəyən dağ selitək hər an daşan ləpələr,
Ruhumun sevdasıyla pıçıldaşan ləpələr.

Bu ağlağan ürəyim dözməz sərt baxışlara,
Qəlbim elə divanə o gömgöy baxışlara,
Çırpının üz-gözümə, boyanım yağışlara,
Hərdən xəyala dalıb, hərdən coşan ləpələr,
Ruhumun sevdasıyla pıçıldaşan ləpələr.

Gəlin, ilham pərimi alın, aparın məndən,
Bu divanə könlümü bir yol qoparın məndən,
Duyğularım səpilib sular üstünə dən-dən,
Qanadlı bülbül təki nəğmə qoşan ləpələr,
Ruhumun sevdasıyla pıçıldaşan ləpələr.

Xəzər şir pəncəsini dalğalara vuranda,
Könlümün aynasını dəli nərən qıranda,
Fırtınalar at çapıb yolun üstə duranda,
Fələyin fitvasıyla həddi aşan ləpələr,
Ruhumun sevdasıyla pıçıldaşan ləpələr.

Surətiniz qəlbimi gətirər ehtizaza,
O ülkər şıltağınız bənzər gözəldə naza,
Qoymayın duyğularım suların üstə aza,
Xəyalımın içindən gəlib aşan ləpələr,
Ruhumun sevdasıyla pıçıldaşan ləpələr.

Mən gəldim qoynunuzda sinəmi ovutmağa,
Yeddirəng dalğalardan şah beyitlər tutmağa,
Bu alışan bağrıma bir ovuc su atmağa,
Şadiman eşqinizlə olub şan-şan ləpələr,
Könlümün sevdasıyla pıçıldaşan ləpələr.
10. 03 2002

GÖYDƏ BULUDLAR AĞLAYIR

Düşübdü göyə vəsvəsə,
Şimşək özünü dağlayır.
Səhərdən verib səs-səsə,
Göydə buludlar ağlayır.

Küləkdən aman istəyir,
Paltarın duman istəyir,
Tanrıdan fərman istəyir,
Göydə buludlar ağlayır.

Gözündən tökür selləri,
Əsir zamanın yelləri,

Titrəyir könül telləri,
Göydə buludlar ağlayır.

Ərş yerə fəryad eyləyir,
Haqqına imdad eyləyir,
İblisə nifrin söyləyir,
Bəşərə paklıq diləyir,
Göydə buludlar ağlayır.

Zaman qaçağan ceyrandı,
Aləmlər necə seyrandı?
Fələk şimşəyə heyrandı-
Göydə buludlar ağlayır.

Hər ömür bir çöl laləsi,
Hayqırdır yeri naləsi,
Sübhün tökülür jaləsi,
Göydə bulular ağlayır.

Şadiman, könül coşanda,
Gözündə sellər daşanda,
Təbin zirvələr aşanda,
Göydə buludlar ağlayır.
19. 02. 2003

GÜNƏŞ DOĞDU, QARANLIQLAR QAÇILDI

Günəş doğdu, qaranlıqlar qaçıldı,
Sübhün gözü ərşə, ərzə açıldı,
Üzün gülə bülbül necə toxudu?
Səhər-səhər şirin nəğmə oxudu.
Ağacların gözündən şeh töküldü,
Külək əsdi göylərdən meh töküldü,
Kəpənəklər koldan-kola dolaşdı,
Əl-ayağı gül tozuna bulaşdı.
Yeddi rəngli göylər qurşaq bağladı,
Qatar-qatar ağ buludlar çağladı.

Gah yer göyə, gah göy yerə əl etdi,
Duyğuları ürəyimdə yel etdi.
Bağçasını açdı göyə qəlb damım,
Qanadlandı uçdu yenə ilhamım.
2 .03. 2003

TÖKDÜ ATƏŞİ QƏLBƏ

Dan ulduzu son dəfə parladı söndü,
Gecə köçünü yığıb evinə döndü.
Sübh atıldı yuxudan qəfil oyandı,
Doğdu günəş səmalar parladı, yandı.
Göylər ağ örtüyünü çəkdi başına,
Səf buludlar büründü zər qumaşına.
Asimanlar titrədi, yellər oynadı,
Ürəyimin içində sellər oynadı.
Fələyin gözlərindən töküldü şehlər,
Üşütdü can evimi nə nazlı mehlər?
O nazəndə səhərin gəldi vüsalı,
Yerlərin və göylərin xoş oldu halı.
Hər budağın üstündə bir yarpaq açdı,

Havalanıb ilhamım yanına qaçdı.
Eyvanda yuvasını qurdu qaranquş,
Munis oldu könlümə bu köçəri quş.
Mələksima təbiət mənə seyr oldu,
Tökdü atəşi qəlbə, o da şeyr oldu.

2. 03. 2003

AÇILAN HƏR GÜLƏ CAN – QÖNÇƏDİ

Açılan hər gülə can qönçədi,
Sübhü-sabaha ünvan – qönçədi.
Könüldən qəmi qovan qönçədi,
Sinədən dərdi yuvan qönçədi,
Bağa-bağçaya nəfəs,
Gülə-bülbülə həvəs.

Salan ürəyi oda, qönçədi,
Tac olan bu dünyada, qönçədi,
Mehriban dosta, yada, qönçədi,
Könlə edə ixtiyar,
Onla ola bəxtiyar.

Cahana doğulan bala – qönçə,
Səhranın içində tala – qönçə,
Zirvənin başında qala – qönçə,
Ərzi, ərşi eşqə sala – qönçə,
Silə qəlbdən ayazı,
Gətirə könlə yazı.

Hər şeyin yaranışı, qönçədi,
Həyatın dayanışı, qönçədi,
Gözlərin muncuq yaşı qönçədi,
Çayların çınqıl daşı, qönçədi,
Can edə canan canı,
Verməyə boşa anı.

Şadiman, təbi rəvan, qönçədi,
Sinəni ahla ovan, qönçədi,
Qəlbi səhraya qovan, qönçədi,
Dodaqda Rəbbə duvan, qönçədi,
Gələ haqqın əmiri,
Şad edə bu ömürü.

17. 02. 2003

AL GÜNƏŞ ALƏMİ BƏZƏDİ YENƏ

Al günəş aləmi bəzədi yenə,
Sübhün gözü şehlə təzədi yenə.
Səmalar əl-əlvan rəngə boyanıb,
Buludlar necə göz-gözədi yenə?
Bir yanda şimşəklər özünü öyür,
Asiman bağrında nizədi yenə.
Ağappaq buludun rəngi boğulub,
O dolmuş gözləri kuzədi yenə.
Quşların sədası bürüyüb bağı,
Baharın pak üzü bizədi yenə.
Üzlərdə, gözlərdə səadət gəzir,
Ocağın külü köz-közədi yenə.
Şadiman dünyanın bağrından qopub,

Atəşi küllə üz-üzədi yenə.
12. 02. 2003

GƏLƏR GÖYLƏRİN DUMANI

Gələr göylərin dumanı,
Tülünü külək aparar.
Bürüyər çiskin zamanı,
İşığın mələk aparar.

Coşar başında sevdası,
Artar rüzgarın ədası,
Dəyər könlünə, qadası,
Ağrısın ürək aparar.

Dözər asiman gərdişə,
Canımda tapar bir guşə,
Bürüyər qəlbi əndişə,
Sinəmdən dilək aparar.

Dumanın saçı bəyazmış,
Ağzından qopan ayazmış,
Düşdüyü quyu dayazmış,
Köçünü ələk aparar.

Bax, Şadimanın halına,
Söz dönüb misra malına,
Atıb zamanı dalına -
Ömrünü fələk aparar.
12. 01. 2003

ŞİMŞƏKLƏR DƏLİ BİR ÇAXNAŞMA SALAR

Şimşəklər dəli bir çaxnaşma salar,
Mələk asimana göz eyləyəllər.
Buludlar qəmzədən hönkürər dolar,
Dolmuş könülləri söz eyləyəllər.

Ağ gurşadlar ilə sellənər göylər,
Yuyar dağı, düzü tellənər göylər,
Havalı bülbültək dillənər göylər,
Sanki etdiyini az eyləyəllər.

İslanar kənd, şəhər yuyunar kirdən,
Küləklər atlıtək ötüşər birdən,
Təbiət möcüzə yaradıb sirdən,
Dağlar qışdan sonra yaz eyləyəllər.

Məleykə rüzgarın gözü açılar,
Ayazdan, şaxtadan, sisdən qaçılar,
Göyün sinəsindən günəş saçılar,
Küləklər şütüyər, toz eyləyəllər.

Zülmətin bağrında kəhkəşan şam-şam,
Yazın hüzuruna yetişər axşam.
Alar dəli könlüm yerdən, göydən kam,

Ulduzlar gecəyə göz eyləyəllər.

Hilal tonqal çatar göyün üzündə,
Ləpələr alışar, yanar gözündə,
Xəzər ovundurar Ayı dizində…
Bu dəli sevdanı söz eyləyəllər.

İlahi, təbiət nə nazəndədir?
Quşlar mələhətli bir sazəndədir,
Şadiman bahara məftun bəndədir,
Yanan ürəyini köz eyləyəllər.

28. 04. 2002

QIŞ ÇIXIB TAXTINA SULTANSAYAĞ

Qış çıxıb taxtına sultansayaq,
Donur bədəndə necə baş-ayaq,
Tapa bilmir özünə can dayaq,
Nə təhər şaxtanın köksün oyaq?
Donubdu gözümüzdə yaş, baba,
Kəsmisən qapımızı, qış baba.

Hər tərəf bürünübdü ağ qara,
Çəkir şimal küləyi dağ qara,
Batıbdı bağça, bağat, bağ qara,
Bulaşıb çöl və çəmən dağ qara,
Titrəyir həm bədən, həm baş, baba,
Kəsmisən qapımızı, qış baba.

Tökülür hər ağacın yarpağı,
Dondurub bəd ayaz da torpağı,
Şaxtanın başında buz papağı,
Olubdu çöl, çəmənə bir yağı,
Üşüyür çay içində daş, baba,
Kəsmisən qapımızı, qış baba,

Ağaclar budaqların oxşayır,
Bağçalar yaz çağların oxşayır,
Dərələr şiş dağların oxşayır,
Kəkliklər ayağların oxşayır,
Qaralıb qayalarda qaş, baba
Kəsmisən qapımızı, qış baba.

Dondurub ot-ələfi bu külək,
Üşüyür əl və barmaqlar, bilək,
Könlümüz sinədə titrək mələk,
Coşur hey qarın eşqiylə dilək,
Olubdu üst-başımız, yaş baba,
Kəsmisən qapımızı qış, baba.

Təbiət oğlan çağına gəlib,
Küləklər bağça-bağına gəlib,
Rəbbinin sərt növrağına gəlib,
Bərəkət el torpağına gəlib,
Qarğalar qış sorağına gəlib,
Barıdan, dam-bacadan aş, baba,
Kəsmisən qapımızı, qış baba.

Hər fəsilin mələk görkəmi var,

Çöllərin bər-bərəkət dəmi var,
Torpağda taxıl verən zəmi var,
Zamanın həm kəsri, həm kəmi var,
Gəlibdi yaş üstünə yaş, baba,
Kəsmisən qapımızı, qış baba.

Qurd-quşun yer altında yuvası,
Məlhəmdi ürəyə qış havası,
Şaxtalar dil-dodağı ovası,
Yel əsir, qalxır yerin duvası,
Fəsillər bəşərə sirdaş, baba,
Kəsmisən qapımızı, qış baba.

Ayağım altında sərt dalğalar,
Tufanın gücündən pərt dalğalar,
Yerlərə, göylərə dərd dalğalar,
Taleyim ömrümə nərd, dalğalar,
Hər qəfil tufana qaddaş baba,
Kəsmisən qapımızı, qış baba.

Xəzərin üstündə dəmir dirək,
Yerin bağrından güc əmir dirək,

Allaha bağlıdı ömür, dirək,
İlahi etdiyin demir, dirək,
Şadimanı sanma heç daş, baba,
Kəsmisən qapımızı, qış baba.
2. X11. 2002

DAĞ BAŞINA DUMAN GƏLDİ

Dağ başına duman gəldi,
Alıb dağdan qaça yellər.
Könlümə ah-aman gəldi,
Qapısını açа yellər.

Ürəyimi qəm damladı,
Süfrəsində dərd şamladı,
Həsrət qəlbdə axşamladı,
Başımdan bir uça yellər.

Könlüm qəmlə barışmayır,
Bu aləmə qarışmayır,
Odum közlə yarışmayır,
Bir atəşlə saça yellər.

Zaman ötdü yuxu kimi,
Fələyin bəd oxu kimi,
Ömürdən xoş qoxu kimi-
Ətir səpdin saça, yellər.

Dərd üzümə güldü keçdi,
Bağrı niyə böldü keçdi?
Hər doğulan öldü keçdi -
Hər bəxtə yol, haça, yellər.

Şadimanın canı ağlar,

Ürəyini qəm ayaqlar,
Heç qayıtmaz ötən çağlar…
Ömür tikib baca, yellər.
17. X. 2002

GECƏ BATIB AY İÇİNDƏ

Bu dünyanın üzü dönsün,
Könlüm ağlar vay içində.
Namərdinin közü sönsün,
Göz yuyunar çay içində.

Dilləndikcə dilim yandı,
Ömür ötdü, ilim yandı,
Ocaq nədi, külüm yandı?
Qaldı ürək hay içində.

Zaman elə qaça-qaçda,
İşığını saça-saçda,

Ağ izlərin saldı saçda,
Günlər itdi ay içində.

Baharımız açdı, soldu,
Bizə haqdan olan oldu,
Payız gəldi, rüzgar doldu,
İsti öldü yay içində.

Sünbülümüz pardaxlandı,
Dəli yellər adaxlandı,
Ömür ötdü, gün haxlandı…
Dərzi qaldı tay içində.

Nədir belə, ey Şadiman?
Təndən ayrı nə gəzir can?
Yerlə göyə düşübdü qan…
Gecə batıb Ay içində.
17. X. 2002

İLİN SON SAATLARI

İlin son saatları,
Ömrə don saatları,
Qırılır bir tel təki,
Uçub gedir yel təki.
Canı haqqa ucaldır,
Ömrümüzü qocaldır.
Zaman bizə əl edir,
Bizlə birgə yol gedir.
Ötüşür saatımız,
Çağlayır həyatımız.
Hər il keçmişə vida,
Ötən ilə əlvida.
Vaxtımızı səsləyir,
Bizi canda bəsləyir,
Doğulur hər anımız,
An zaman ünvanımız,
Onu saata düzür,

Hər ağrımıza dözür.
***
İlin son saatları,
Ömrə don saatları,
Dəqiqəylə öcəşir,
Sağlığıyçın əlləşir.
Bəxtinə hicran düşür,
Gedir köhnə ilimiz.
Vida deyir dilimiz-
Qaçıb gedən bu ilə,
Həsrəti bilə-bilə,
Hər yeni il diləkdir,
Bəxtimizə ürəkdir.
Necə şıltaq mələkdir?
Əldən sürüşüb gedir,
Bir il də qoca edir.
Bu beşgünlük ömürü,
İlahinin əmiri.
Zaman uçur həyat var,
Ömür də insana yar…
Hər il ya insana son,
Hər il ya insana don.
Salır ömürü işə,
Dərin quyuya düşə…
İllər ömrə büsatdır,
İnsanlığa həyatdır.
***
İlin son saatları,
Ömrə don saatları.
Şirin həyacanımız,
Nə müqəddəs anımız?
Əbədi uçur gedir,
Yeni ilə əl edir.
Təzə ili gətirir,
Öz ömrünü bitirir.
Belə Rəbb qoyan qayda-
Zaman nizam dünyada…
31. X11. 2002

KƏSİBDİ YOLUMU FIRTINA, TUFAN

Kəsibdi yolumu fırtına, tufan,
Qalmışam dəryada dirək üstündə.
Bu məhbus ömrümə bir ildi hər an,
Əzabı çırpınır ürək üstündə.

Sular çırpındıqca könlüm oxlanır,
Bağrımın sarayı qopur laxlanır,
Acımış dalğalar elə toxlanır,
Uçurlar qandallı mələk üstündə.

Dəniz hədələyir qanla adamı,
Öldürməkdi, qəsdi, yıxmaqdı kamı.
Sanki töküləcək göylərin damı,
Ömrüm parçalanır fələk üstündə.

İdrakım əl açır haqqa tapınır,
Misralar hönkürür, təbim çırpınır,
Gözüm bu dəhşətə elə qapanır…

Allah, titrəyirəm ələk üstündə.

Xəzər uğuldayır dalğalar köpür,
Tufan dalğaları köksünə təpir,
Əjdaha ağzından od-atəş səpir!
Çırpınıb qalıram dilək üstündə.

Dənizin harayı gecəni boğur,
Elə tükürpədən bir dəhşət doğur,
Yerlə göy arası bu necə ugur?
Fırtına tor qurub kələk üstündə.

Diləklər ağlayan dəniz uşağı,
Belinə dolanan tufan qurşağı,
Sanki çevriləcək başıaşağı…
Bəlkə qəsdi budu ölək üstündə.

Ey göylər sonası elə əsirsən,
Etmisən sulara bizi əsir sən,
Yamanlıq etməyə nə tələsirsən?
Desinlər ölürlər külək üstündə…

12. 01. 2003

HƏR GECƏM AHDAN DOĞULUB

Hər gecəm ahdan doğulub,
Ahıma çınar olmuşam.
Min bir günahdan doğulub,
Özümü qınar olmuşam,

Keçirmədim boş vaxtımı,
Qurdum zamanla taxtımı,
Dilə tutmuşam baxtımı-
Əhdimi sınar olmuşam.

Təbin sinəmdə sarayı,
Batmaz içimdə harayı,
Eşitmir kimsə bu hayı,
Oduna yanar olmuşam.

Ələmdi könlə hey yağan,
Diləklərimtək çağlayan,
Ürəyim olub ağlayan…
Hər dərddən sınar olmuşam.

10. 01. 2003

XƏZƏR ÜSTƏ BU ÜNVANLAR

Qağayılar qanad çəkər,
Sular üstə qaçışarlar.
Bulud yaşın göydən tökər,
Göy ləpələr acışarlar.

Külək qopar dəli kimi,
Xəzər şahə qalxar elə.
Fələyin sərt əli kimi,
Yeri, göyü yıxar elə.

Günəş sarı çiçək olar,
Boyun bükər qorxusundan.
Göylər qara ləçək olar,
Qış ayılar yuxusundan.

Bumbuz soyuq göy ləpələr,
Vurar özun göyə, yerə.
Yanan ərzə su səpələr,
Dönər damla, sanki zərə.

Donar ərşin-kürşün bağrı,
Şaxta kəsər əl-ayağı,
Qış qoparar acı-ağrı,
Sızlar Xəzər cansayağı.

Fırtınadan ağlar dəniz,
Hər dalğa bir dağa dönər.
Əli-qolu bağlar dəniz,
Küləklər sol-sağa dönər.

Ey Şadiman, ömür göstər,
Kaman təki sızlar anlar.
İlahidən aman istər,
Xəzər üstə bu ünvanlar.

24. X11. 2002

YENƏ DUMAN ALIB DAĞLAR BAŞINI

Yenə duman alıb dağlar başını,
Dumana köç deyim, dağa köç deyim?
Axıdır çeşmələr gözdən yaşını,
Bulağa iç deyim, bağa iç deyim?

Kəklik kol dibindən yamacı oxlar,
Çayların dibindən su içər arxlar,
Buludlar göylərin nəbzini yoxlar,
Şimşəyə keç deyim, göyə keç deyim?

Payızın üzündən qüssə, qəm yağır,
Yağışın örtüyü dumandan ağır,
Hisslərin içində alışır bağır,…
Diləyə seç deyim, qəlbə seç deyim?

Yolur saçlarını dəli küləklər,
Bağa xəzan salar, sölü ələklər,
Bürünər çiskinə, çənə ürəklər,
Aylara heç deyim, ğünə heç deyim?

Könlümdə zamanın yelləri əsir,
Saatın əqrəbi hara tələsir?…
Olmuşam yenə də payıza əsir,
Kədəri biç deyim, qəmi biç deyim?

Dünya doğulana zülüm görünür,
Doğumun sonunda ölüm görünür…
Anlardan daş biçən ömür sürünür,
Dünyanı ölç deyim, günü ölç deyim?…
17. X. 2002

QUŞBAŞI QAR YAĞIR

Təbiət bürünüb ağappaq tülə,
Quşbaşı qar yağır dənizə, düzə.
Boyanıb yer və göy, sanki ağ tülə,
İlahi bərəkət göndərib bizə.

Bəmbəyaz gəlinlik paltara bənzər,
Qışın əynindəki dümağ libası.
Çölləri, düzləri bir saflıq bəzər,
O qar naxışıyla parlar əbası.

Günəş sarıltısın göstərər hərdən,
Buludlar qol-qola tutub oynaşar.
Geyər ağ dənələr bir almaz zərdən,
Havadan asılı durar qaynaşar.

Qurumuş yarpaqlar tökülər bir-bir,
Çılpaq ağacları tutar üşütmə.
Küləklər göylərin əlində xəlbir,
Aləmə soyuqluq qatar üşütmə.

Mirvari dənələr bəmbəyaz inci,
Ələnir üstümə, başıma elə.
Qışmı təbiətin paklıq sevinci?
Dənələr qar olur dolaşır telə.

Qara qarğalar da qatar bağlayır,
Vurur ağaclara, bağlara özün.
Qış hələ girməmiş şaxta çağlayır,
Ocağın, sobanın çatladır gözün.

Yollar buz bağlayıb, qar təpə-təpə,
Sanki, ağ karvanlı səhradır hər yer.
Dəniz şahə qalxır üşüyür ləpə,
Sahildə, limanda bəmbəyaz zər yer.

Quşbaşı qar yağır, torpaq üşüyür,
Təbiət üzünü bozardıb yaman.
Budaq üstə qalan yarpaq üşüyür,
Qış qapını kəsib verməyir aman.

Bakının çöhrəsi bozarır-solur,
Yalın ayaqları donur quşların.
Külək dər-divarda saçını yolur,
Sanki iniltisi qopur daşların.

Göylərin üzündə bir çaxnaşma var,
Bulud qoşun çəkir buludun üstə.
Bütün kainatda, sanki coşma var,
Döyünür dünyanın qəlbi ahəstə.

Quşbaşı qar yağır yer göyə əsir,

Səmanın bağrından inci ələnir,
Qapıdan girməyə külək tələsir,
Dolmuş novulçada buzlar yellənir.

Pəncərəm önündə qar naxışları,
Atəşə bürünür könlün odundan…
Əridir rənkartək o baxışları,
Ürəyim riqqətə gəlir dadından.

Mən Xəzər üstündə donub qalmışam,
Otağım içində dolaşır bu qış.
Ayağım altına qarı salmışam,
Bir xışıltı salır, dalaşır bu qış.

Təbiət nə gözəl, həyat nə şirin?
Ömrə hər fəsili qonaq eyləyir.
İlahi qoruyur adəmdən sirin,
Bizi bu dünyaya sınaq eyləyir.
17.X11.2002

NAZLI XƏZƏR

Gah fırtına, gah küləklər,
Nazlı Xəzər, şux qoynunda,
Cuşə gələr saf ürəklər,
Dalğayla sevda oynunda!
Kainata eşq bələklər,
Ləpələrin şad mələklər,
Nazlı Xəzər, şux qoynunda.

Qağayılar uçuşurlar,
Sularında qaçışırlar,
Ləpə üstə açışırlar,
Tufanların acışarlar,
Nazlı Xəzər, şux qoynunda.

Hüsnün könlə tamaşadır,
Meh laylanla lap qoşadır,
Göylə dalğan baş-başadır,
Məhəbbəti qəlb yaşadır…
Nazlı Xəzər, şux qoynunda.

Sularında əsir oldum,
Tufanına həsir oldum,
Gəl bağrıma, qəsir oldum,
Nağıllaşdım – bir sir oldum,
Nazlı Xəzər, şux qoynunda.

Oxşa mənim nəfəsimi,
Qur bu könül qəfəsimi,
Qaldır ərşə gur səsimi,
İlhamımı, həvəsimi-
Nazlı Xəzər, şux qoynunda.

Duyğularım sənin olsun,

Niskillərim çənin olsun,
Könül nəş'əm tənin olsun,
Yosunların dənin olsun,
Nazlı Xəzər, şux qonunda.

Qoy ürəyi aşıb-daşa,
Tut qəlbimi al qumaşa,
Qıyma gözdə qəmim daşa,
Dön mənimlə can sirdaşa,
Nazlı Xəzər, şux qoynunda.

Ulduzların gecə çıxar,
Zülmətlərin bağrın yıxar,
Sənə kimlər ögey baxar?
Gah göyündə şimşək çaxar,
Gah da köksə Ayı taxar,
Nazlı Xəzər, şux qoynunda.

Şadimanı sıx köksünə,
Al dalğanı yıx köksünə,
Hər dalğanın çıx köksünə,
Yer-göy vurğun o əksinə,
Nazlı Xəzər, şux qoynunda.
22. X11. 2002

BULUDLAR SƏMANIN YANAN NALƏSİ

Buludlar səmanın yanan naləsi,
Gah ağa boyanır, gah da qaraya.
Göyün gözlərinin yaş piyaləsi,
Qoşun çəkib gedir hardan-haraya?

Qaşların zəhimlə çatarlar elə,
Yerləri leysana tutarlar elə,
Sonra da yıxılıb yatarlar elə,
Düşər bir sükunət, sükut araya.

Hərdən gəlin təki tüllər içində,
Necə bəyazlanar tellər içində,
Hərdən də gurşadlar, sellər içində,
Kədər ələyərlər könül saraya.

Buludlar çeşmətək gözdən çağlayar,
Dolmuş üfüqlərə qəlbin bağlayar,
Bir körpə uşaqtək elə ağlayar,
Kainat oynayar bu hay-haraya.

Kəpənəktək uçar səma üzündə,
Üzərlər balıqtək göy dənizində,
Küləklər bükülər yatar dizində,
Bürünər asiman bomboz xaraya.

Yerlərin gözünün yaşın udarlar,
Bəşərin naləsin, ahın udarlar,
Göyə qoşun çəkib onu udarldar,
Baxmazlar üfüqə dəyən yaraya!

Buludlar kainat möcüzəsidi,
Yerdəki suların həyat səsidi,

Ana təbiətin xoş nəfəsidi,
Açarlar tellərin yellər daraya.

Hərdən toqquşarlar aləm diksinər,
Hər bulud göylərdə öz atın minər…
Dəli nərə çəkər, aslana dönər,
Düşər dava-dalaş, savaş araya.

Buludlar könlümtək dolub-boşalar,
İtirər irizin, yaman baş alar,
Qara bəbəklərin elə yaş alar,
Sanki fələklərə eşqlə yarıya.

Şadiman, kainat Tanrı vəfası,
Bəşər ömrü üçün yetər səfası,
Biz zülüm etdikcə artar cəfası…
Sonra üz tutarıq ondan çaraya…
8. 01. 2003

ÇƏMƏN ÇİÇƏKLƏRİ

Çəmən çiçəkləri yuxuya gedər,
Büküb ləçəklərin ürkək yatarlar.
Görənin sinəsin can-bəsər edər,
Zərif röyalara şəkər qatarlar.

Ətiri yayılar düzlərə mehtək,
Utancaq üzlərə tər düşər şehtək,
Könül yuvasına girib fatehtək-
Kədərin başına lap daş atarlar.

Donları cürbəcür sarı, yaşıl, ağ,
Yaza tac bəzəyər həşəmətli çağ,
Səhrayı donunu geyər bağça-bağ,
Təbiət qoynunda kama çatarlar.

Gözün toxunanda – ürkək baxışlı,
Köynəyi əynində min bir naxışlı,
Qoparsan kollardan narın yağışlı,
Buludtək hönkürüb aha batarlar.

Güllər muncuq təki, güllər rəngbərəng,
Çiçəklər üstündə tellər rəngbərəng,
Başında titrəyən yellər rəngbərəng,
Girib ürəyinə könlü tutarlar.

Dadlı duyğularla qəlbi ovarlar,
Bağrında dərdini satıb-sovarlar,
Bütün varlığını eşqə qovarlar,
Sinənin içinə sevda çatarlar.

Çəmən çiçəkləri həyat qoxusu,
Rəbbin bahar adlı sevda yuxusu,

Alıb Şadimanı təndən doğrusu-
Çiçək yağışına, sanki tutarlar.
19. 05. 2002

YENƏ TUTDU YER ÜZÜNÜ

Şəfəq tutdu yer üzünü,
Güldü mələklər, mələklər.
Aldı sübhün gündüzünü,
Gəldi küləklər, küləklər.

Dənizi şahə qaldırdı,
Köçünü suya saldırdı,
Dəli şərqisin çaldırdı,
Gəldi küləklər, küləklər.

Endi göylərdən soraqla,
Telin daradı daraqla,
Əlində min bir yaraqla-
Gəldi küləklər, küləklər.

Dəryada mərcan aradı,
Suların telin daradı,
Bilinmir yolu haradı?…
Gəldi küləklər, küləklər.

Gecədən qaçdı gündüzə,
Dəryadan endi gen düzə,
Dünya əlində bir kuzə-
Gəldi küləklər, küləklər.

Sular mirvari boynuna,
Basar dalğanı qoynuna,
Fələk mat qalıb oynuna,
Gəldi küləklər, küləklər.
9. 01. 2003

MİSRAMI DÜZƏN ULDUZLAR

Göyün üzünü dolaşar,
Mərcantək süzər ulduzlar.
Yanağı nura bulaşar,
Bağrımı üzər ulduzlar.

Gecənin asma çırağı,
Haqdan gətirər sorağı,
Açılar ilham varağı,
Ruhumu bəzər ulduzlar.

Ərşin bağrına taladı,
Zülməti yıxdı taladı,
Hər biri, sanki qaladı,
Yerləri süzər ulduzlar.

Təbim ruhumun dumanı,

Bu canımın din-imanı,

Ərşə dikilər amanı,
Eyləyər nəzər ulduzlar.

Göndər mənə göydən çapar-
Səyyarələrə al apar,
Məni özümdən gəl qopar,
Hər duyğumda eşqin çapar,
İlhamımı haqdan tapar-
Könlümə bəzər ulduzlar.

Ey qəlbim təki pərişan,
Göyə səpilən kəhkəşan,
Verməz özündən bir nişan…
Dodağın büzər ulduzlar.

Gah bir-biriylə gözləşər,
Gah da sinəmdə közləşər,
Gah da ürəyə söz düşər,
Misramı düzər ulduzlar.
12. 01. 2003

BULUDLAR GÖYLƏRİN BAĞRINDAN QAÇIB

Buludlar göylərin bağrından qaçıb,
Səmanı ulduzlar alıb bu gecə.
Ay sarı tülünü üzündən açıb,
Zülmətin sinəsin çalıb bu gecə.

Bürclər pəncərəsin, qapısın söküb,
Asiman üzünə işıqlar çöküb,
Qaranlıq gözünün yaşını töküb,
Dərin xəyallara dalıb bu gecə.

Sirli səyyarələr toy-büsatdadı,
Axşamlar elə bil bata-batdadı,
Kəhkəşan al geyib xoş həyatdadı,
Bütün şadlıqları alıb bu gecə.

Qışın buz yanağı işığa düşüb,
Dodağının qarı qaşığa düşüb,
Bu seyrə alışmaq aşığa düşüb,
Ruhum kainatda qalıb bu gecə.

Əngin üfüqlərin nuru süzülüb,
Bağrımın içinə zümrüd düzülüb,
Ürəyim köksümdən tamam üzülüb…
Köçünü göylərdə salıb bu gecə.
12. 01. 2003

MƏNİ ARAMAĞA XƏZƏRƏ GƏLİN

Məni aramağa Xəzərə gəlin,
Dalğalar üsütndə halal yuvam var.
Ətəyim buraxmır Tanrının əlin…
Onun dərgahına min bir duvam var.

Suların içindən misram boylanır,
Çırpınır ilhamım ləpələr sayaq.
Evimin başına yellər haylanır,
Gecədən səhərə qalıram oyaq.

Xəzər həzin-həzin titrədikcə hey,
Ağlımın evindən qopur sözlərim.
Könlüm sızıldayır zümzüməsi ney,
Gəlir ürəyimi tapır sözlərim.

Diləkdən-diləyə çoşub gedirəm,
Sulartək bilinmir axarım hara?
Bütün dəryaları aşıb gedirəm,
Sanki əsəblərim çəkilib tara.

Vallah, harayıma alışır cahan,
Ümidin içində saray tikirəm.
Könül atəşinə qarışır cahan,
Dünyanın dərdini, sanki çəkirəm.

Könlü aramağa Xəzərə gəlin,
Ürəyim dalğalar içində qalıb.
O zümrüd ləpələr duvaqlı gəlin,
Mənim ilhamıma könlünü salıb.

12. 01. 2003

KÜLƏKLƏR SƏMANIN MƏLƏKLƏRİDİR

Küləklər səmanın mələkləridir,
Göyləri, yerləri yıxıb keçərlər.
Tanrının ilahi diləkləridir,
Buludun qoynundan axıb keçərlər.

Gəzərlər eşq ilə dərəni, düzü,
Tutub ram edərlər gecə-gündüzü,
Birdən qaralanda sevdalı üzü,
Atına min qanad taxıb keçərlər.

Səs-səsə verərlər quştək çağlarlar,
Elə hönkürərlər, bərkdən ağlarlar,
Ülfətin Allaha, haqqa bağlarlar,
Aləmdən şimşəktək çaxıb keçərlər,

Elə şıltaq kimi səs-küy salarlar,
Bütün kainatı ələ alarlar,
Sanki bir-birinin saçın yolarlar,
Əsəbdən nə varsa yıxıb keçərlər.

Küləklər meşəyə, talaya qonar,
Özünü Allahın gücündə sanar,
Hər savaş eşqindən alışıb yanar,
Bəşərin içinə baxıb keçərlər.

Dənizi, dəryanı cuşə gətirər,
Davasın suların üstə yetirər,

Sərhəddən-sərhədə gücün ötürər,
Haqqın dərgahından çıxıb keçərlər.

Bir ildə min cürə don dəyişərlər,
Tufan, qasırgatək dilə düşərlər,
Yerlərlə, göylərlə hey əyişərlər,
Hər şeyin axrına çıxıb keçərlər.

Küləklər səmanın işvəkarıdı,
Göylərin ilhamlı bəstəkarıdı,
Ana təbiətin davakarıdı,
Qovub tutduqları haqqın xarıdı…
Təpəsindən yerə çaxıb keçərlər.
9. 01. 2003

TİTRƏTDİZ HİSSİMİ, QOPARTDIZ TUFAN

Titrətdiz hissimi, qopartdız tufan,
Dəli sevdanıza alışsın bu an,
Şimşəktək göylərdə rəqs eləsin can,
Nazlı ilhamıma ortaq küləklər,
Küləklər, ruhumtək şıltaq küləklər.

Darayın telimi daraqlar kimi,
Döyün pəncərəmi qonaqlar kimi,
Qızının atəşli yanaqlar kimi,
Könlü sizə açdım yataq küləklər,
Küləklər, küləklər, şıltaq küləklər.

Elə qanadlısız tutmaq olmayır,
Elə at çapırsız çatmaq olmayır,
Elə haraylısız yatmaq olmayır,
Dolub səsinizlə otaq küləklər,
Küləklər, ruhumtək şıltaq küləklər.

Donunuz tüllərmi necə bəmbəyaz?
Gətirin qış vaxtı otağıma yaz,
Dolduraq atəşlə ürəyi bir az,
Odu bir-birinə qataq küləklər,
Küləklər, ruhumtək şıltaq küləklər.

Mənim də qəlbimin rüzgarı əsir,
An ana çatmaqçın yaman tələsir,
Sizə qoşulmaqçın heç olmasın sir,
Əngin üfüqlərə çataq, küləklər,
Küləklər, ruhumtək şıltaq küləklər.

Bir şivən qoparın, bir haray salın,
Qara buludların bağrını çalın,
Məni qanadların üstünə alın,
Ərzi bir-birinə qataq, küləklər,
Küləklər, ruhumtək şıltaq küləklər.

Sükutlar könlümə bir ah-zarikən,
Sinəmə bu gecə təbim yarikən,
Mənim də fəryadım içdə varikən,
Uzaq ulduzlara çataq küləklər,
Küləklər, ruhumtək şıltaq küləklər.
10. 01. 2003

HƏYAT GÖZƏL BİR MƏLƏKDİ

Hyat gözəl bir mələkdi,
Ona könlü qıyan olsa.
Ötüb keçən bir küləkdi,
Zamanını duyan olsa.

Gözəlliyi ömrə bəzək,
Allah verən ömrə bəzək,
Daşa, misə, dəmrə bəzək,
Bir eşqinə uyan olsa.

Bənzərsizdi diləkləri,
Vaxtı – zaman külәkləri,
Alışdırar ürəkləri,
Qəlbə yaxın qoyan olsa.

Həyat ömrün açarıdı,
Həqiqətin naçarıdı,
Gec-tez candan qaçarıdı,
Sitəmini oyan olsa.

Həm təbibdi, həm də loğman,
Qədrin bilən olar dərman,
Rəbb yanında tapar iman…
Varlığını sayan olsa.

Hikmət alar əqli dərin,
Ağılsızlar geyər zərin,
Məzarlıqda salar yerin,
Əgər ondan doyan olsa.

Can qoxlayır güllər təki,
Geyər əynə tüllər təki,
Ocaq altda küllər təki,
Atəşinə həyan olsa.

Xeyirə çap qəlb atını,
Zəngin keçir saatını,
Xoş gətirər həyatını,
Allahına əyan olsa.

Ey Şadiman, həyat gözəl,
Dilində o ismi əzəl,
İllər uçur ömür xəzəl…
Qəm dərisin soyan olsa…
9. 01. 2003

AL SABAHIM YETİŞƏNDƏ

Al sabahım yetişəndə,
Qaranlıqlar uçar gedər.
Günəş göylə bitişəndə,
Sübhün şehi qaçar gedər.

Ağ buludlar pərvazlanar,
Ətək-ətək hey nazlanar,
Quşlar elə avazlanar,

Qanadların açar gedər.

Dəli yellər titrəşərlər,
Asimanla pərtləşərlər,
Dodaq büzər, sərtləşərlər,
Bulud göydən naçar gedər.

Qış üzünü bozardanda,
Şaxta yanaq qızardanda,
Günəş göyü qızardanda,
Səmada nur saçar gedər.

Hər fəsilin öz atəşi,
Yerin-göyün bir günəşi,
Yandır könlü, sal küləşi,
Yenə odu qucar gedər.

Təbiətin hər çağı xoş,
Ey Şadiman, yaşama boş,
Titrət təbi, bir nəğmə qoş…
Qəlb qapısın açar gedər.
4. 01. 2003

DAN ULDUZU, DAN ULDUZU

Mən alışdım, sən də yandın,
Dilimdə həkk oldu andın,
Yenə məni eşqlə andın,
Ey göylərin mələk qızı,
Dan ulduzu, dan ulduzu.

Nurun gözdən gəlib keçdi,
Ürəyimi dəlib keçdi,
İlhamımın odun içdi,
Nə edirsən işvə, nazı?
Dan ulduzu, dan ulduzu.

Ol göylərin bağrına köz,
Dinsin qəlbdə oduna söz,
Mənim şıltaq könlümə döz,
Duyğum oldu azmış quzu,
Dan ulduzu, dan ulduzu.

Əsirgəmə baxışını,
Məndən o nur yağışını,
Bu sinəmə axışını,
Diləyimin dadı, duzu,
Dan ulduzu, dan ulduzu.

Səhər-səhər cilvələndin,
Şehtək könlə nə bələndin?
Duman təki nə ələndin?
Sındır qəlbdən o sal buzu,
Dan ulduzu, dan ulduzu.

Qışın soyuq o məlalı,
Hər niskili bir bəlalı,
Gətir bağra cah-cəlalı,
Bəxşiş eylə qışda yazı,

Dan ulduzu, dan ulduzu.

Şadimana ver ilhamı,
Qoy çökməsin könül damı,
Muradımca alım kamı,
Deyim nə xoş haqdan yazı?
Dan ulduzu, dan ulduzu.
4. 01. 2003

SÜBHÜN SİNƏSİNDƏ LALƏ RƏNGLİ QAN

Sübhün sinəsində lalə rəngli qan,
Zülmət əllərində verir, sanki can,
Asiman içini boyayıb al dan,
Gözümü işığa açdın, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Sənin cəmalının aşiqiyəm mən,
Almasın hüsnünü çiskin, duman, çən,
Bağrımı, könlümü tuta bilmir tən,
Yenə səmalara qaçdın, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Söylə həyadanmı qızarıb üzün?
Necə sevdalıdı mələk gündüzün?
Al-əlvan geyinən asiman közün,
Təbimin qapısın açdın, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Sirli kainatın, ey mələk qızı,
Parlar ürəyimdə o dan ulduzu,
Əridi odunla könlümün buzu,
Əcəb qanadlanıb uçdun, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Ağ tülə bürünüb eyləyirsən naz,
Qışın oğlan çağı, çünki gəlib yaz,
Yanağın qırmızı, üzün bəmbəyaz,
Dəli ilhamımı qucdun, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Nədir görkəmində o ilahi sir?
Ruhumun tellərin dinlətdin bir-bir,
Olmusan canımla yenə də əlbir,
Bağrımda lalətək açdın, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Qoyma buludları, üstünü alsın,
Sevdalı evinə yolunu salsın,
O dəli küləklər yuxuya qalsın,
Duyğumda zümzümən zirvəni alsın,
Əlimi-qolumu açdın, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Zülmətlər, kədərim işıq sabahım,
Axşam qolu bağlı əzabım, ahım,
Səni səadətçin verib Allahım,
Qaranlıq varikən suçdun, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

O geniş üfüqlər çarşabınmıdı?
Dodaqda al rəngli doşabınmıdı?
Qırmızı piyalən eşq qabınmıdı?
Göyə sübh zamanı qaçdın, ey səhər,
Könlümdə şö'lələr saçdın, ey səhər.

Şadiman diləklər içində nalan,
Qəmi, nəş'əsini zindana salan,
Sən çıxıb gedəndə oluram talan…
O sultan sübhümə tacdın, ey səhər,
Könlümdə şö'lələr saçdın ey səhər.
7. 01. 2003

ƏSƏN YELLƏR

Əsən yellər söyləyin bir,
Bağrı qana tutmaq nədən?
Olub göylə, yerlə əlbir,
Bu aləmi qatmaq nədən?

Duyğularım dağlar aşır,
Sellər təki aşıb-daşır,
İlhamla can pıçıldaşır,
Girib könlə yatmaq nədən?

Əsən yellər hicran gəlir,
Ürəyimin başın dəlir,
İçdən haray-hay yüksəlir,
Haraya qəm qatmaq nədən?

Dünya üzü bir fırtına,
Rüzgar döyür can sırtına,
Oturmusan göy atına,
Təbə kəmənd atmaq nədən?

Yalayırsan üz-gözümü,
Odlayırsan od-közümü,
İtirmişəm mən özümü?
Ağılı tülə tutmaq nədən?

Əsən yellər gir bağrıma,
Əlac eylə gəl ağrıma,
Gün çevrilib can oğruma-
İçinə od qatmaq nədən?

Bir ilhamım, bir qələmim,
Ona quldu eşq aləmim,
Atəşindən doğur nəmim,
Məni dərdə satmaq nədən?

Əsən yellər bu Şadiman,
Yerlə, göylə edir peyman,
Yaradandan gəlir iman,
Onu dilə çatmaq nədən?
19. 02. 2004

EY SABAH, KÖNLÜMƏ SEVDALAR GƏTİR

Ey sabah, gəlirsən sevdalar gətir,
Könlümə, canıma qidalar gətir,
Dinlət ürəyimin duyğularını,
Unudum gecənin uyğularını,
Səndə həyatımın vəfası gülür,
Sinəmin içinə nurlar tökülür,
Əngin göylərinin parlar günəşi,
Düşüb ayağına zülmətin nə'şi.

Ey sabah, gəl ucalt sədalarını,
Pəritək naz satan ədalarını,
Diləkdən-diləyə ürəyi ovut,
Sinəmin ağrısın, əzabın sovut,
Dünyada zamanın əndişəsi var,
Fələk bazarında can guşəsi var…
Göylərin eşqini yerlərə yönəlt,
Qoy iblis, bəşəri etməsin alət.

Ey sabah, ağlayan ürəyim əsir,
Sənə qovuşmaqçın yenə tələsir,
Gətir ürəyimin tellərin dilə,
Tutum əllərindən mən gülə-gülə.
Qapılım sükutun gözəlliyinə,
Bələdəm dünyanın əzəlliyinə.
Zülmətdən, gecədən cəzanə gəldim,
Gördüm ağ üzünü mən canə gəldim.

Ey sabah, başında ağ tülün bəyaz,
Sənin varlığına qəlb nəzir-niyaz,
Şəbnəmlər axmasın bəbəklərindən,
Mənə də duyğu ver diləklərindən,
Yerləri, göyləri gəzib dolaşaq,
Çılğın çeşmələrtək qaynayıb daşaq,
Gəl apar sinəmdən hicranımızı,
İsidək bir yerdə bu canımızı.

Ey sabah, ürəyim dolu ah ilə,
Məni dost eyləmə sən günah ilə,
Yaradan eşqinə qəlbə işıq ver,
Ötüşən anlara gəl yaraşıq ver.
Süzülsün ürəkdən dodağa şeir,
Könül gülzarını eyləyim seyr.
Ağlayan gözümə bir nicat ara,
Çəkməsin bağrımı saatlar dara.

Ey sabah, bu dünya qeylü-qallıdı,
Gəlib tanış olan can zavallıdı,
Bir gözü ağlayır, bir gözü gülür,
Bilirəm yaranan bir gün də ölür!…
Nəş'əni könlümün ünvanı elə,
Verim bircə anlıq kədəri yelə.
Rəbbin işığından nur yağsın yerə,
Baş əyim bu eşqə mən də min kərə.

Ey sabah, zamanın əliqanlıdı,
Vaxtı, dəqiqəsi nə divanlıdı?

Adəmin niskili çəkilib getmir,
İnsanın əlləri haqqına yetmir.
Dildə yuvalanıb canın fəryadı,
Şərlə bir çəkilir bəşərin adı,
Günahlar içində vurnuxur cahan,
Necə olacaqdı cana imtahan? !…

Ey sabah tülünü götür üzündən,
Ələnsin cahana həyat gözündən,
Qanadlı buludlar qolların açsın,
Qaranlıq diksinib zəhmindən qaçsın.
O zöhrə ulduzu cırsın köynəyin,
Zülmətin gözündən götür eynəyin.
Günəş qoy səhərin qonsun çiyninə,
Qumaş paltarını geysin əyninə.

Ey sabah, sinədə qəlbi pərvazla,
Oynama tufanla, soyuq ayazla.
Onsuz da könlümü üşüdür zaman,
Dilim can söyləyir, ürəyim aman.
Yandır kainatın çırağın bizə,
Dönsün sübhün seli şıltaq dənizə.
Dalğalar içində dalğa yaratsın,
Zülmətin dəryanın içinə atsın.

Ey sabah, yerişin mələktək incə,
Qovub qaranlığı basmısan küncə.
Səmaya sərmisən bəyaz tülünü,
Tutmusan əlində səba gülünü.
Örpəyin altından ulduzlar parlar,
Yellər buludları tutub qamarlar.
Danın ağartısı ruhumu sarır,
Zülmətin sinəsin bıçaqtək yarır.

Ey sabah, Şadiman fəda eşqinə,
Gəlsin bağırından səda eşqinə.
Dolan ilhamının bulağın qaynat,
Ruhumu, canımı götür ora at.
Ürkək sonalartək bir qanad açım,
Yerə vida deyim, göylərə qaçım.
Yol aç, kainata yuva arayım,
Hələ ki, uçmayıb könül sarayım…

30. 01. 2004

RUHUMUN, CANIMIN QİDASI, BAHAR

Yenə də təbiət bəzənib durub,
Qapqara buludlar boynunu burub,
Günəş tellərindən bir çələng qurub,
Göylərin boynuna yeddi rəng vurub,
Gəlibdi dilimin nidası, bahar,
Ruhumun, canımın qidası, bahar.

Çöllərin üstünü bəzəyib jalə,
Yetişib təbiət nazlı vüsalə,
Kollardan asılan şehlər piyalə,
O incə boynunu göstərir lalə,
Sevən könüllərin sevdası, bahar,
Ruhumun, canımın qidası bahar.

Titrəyir ürəyim sənin eşqinə,
Coşqun duyğulara boyanıb sinə,
Yaşıla bürünüb hər yurd, hər binə,
Yelləri gətirdin imanə, dinə,
Ötdü kədərimin qadası, bahar,
Ruhumun canımın qidası, bahar.

Üzündə tüllərin ağ naxışları,
Qovdun təbiətdən qarlı qışları,
Yağdır üst-başıma gur yağışları,
İslat leysanınla sərt baxışları,
Ərisin bəşərin ədası, bahar,
Ruhumun, canımın qidası bahar.

Səndə gəncliyimdən bir xatirat var,
Çırpınan, çağlayan şaqraq həyat var,
Sən varsan, deməli bu kainat var,
Zamandan boylanan dürlü saat var,
Qışın təbiətə vidası, bahar,
Ruhumun, canımın qidası, bahar.

Çaylar pıqqıldaşır, çeşmələr daşır,
Şəlalə zirvənin başından aşır,
Göylər yerlər ilə nə avazlaşır?
Quşlar cəh-cəh vurur, aləm yazlaşır,
Sınıbdı soyuqun cidası bahar,
Ruhumun, canımın qidası bahar.

Dinlət, sinəmdəki duyğunu dinlət,
Könül tellərini kamantək inlət,
Göylərə, yerlərə vermisən zinət,
Küləklər eyləyir eşqinə minnət,
Coşan ilhamımın sədası, bahar,
Ruhumun, canmın qidası, bahar.
2. 04. 2004

BU NECƏ ÜLKƏRDİ ?

Bu necə ülkərdi, bu necə ülkər?
Zülmətin köksünə sarılıb çıxıb.
İlham oynatmağın eyləyib şakər,
Sübhün bağırından yarılıb çıxıb.

O qövsü- hüsnünə vurulub qaldım,
Duyğumu duyğuma caladı, eyvah.
Dağın çeşməsitək durulub qaldım,
Bağrıma atəşlər qaladı, eyvah.

Göylər yeddi rəngə boyadı üzü,
Buludlar bir-birin qovdu həyadan.
Basdı sinəsinə gələn gündüzü,
Ay oldu yuxudan ərzi oyadan.

Bu necə ülkərdi, bu necə ülkər?
Ruhumu sinəmdən qoparıb aldı.
Mələktək səmalar içində səkər,
Gecənin köynəyin əyninə saldı.

Küləklər əsdikcə işığı artdı,
Gecəylə gündüzü eşqə səslədi.
Sübhün sevdasına bir sevda qatdı…
Dünyanın nurunu canda bəslədi.
18. 02. 2004

XƏZƏRDƏ FIRTINADI

Xəzərdə fırtınadı, tökür dəniz göz yaşı,
Göyü, yeri titrədir dalğaların savaşı.
Qağayılar qışqırır vurur özün sulara,
Küləyə üsyan deyir sürtür üzün sulara.
Qaralmış ləpələrin harayı qulaq tutur,
Göydə qara buludlar bu aha çıraq tutur.
Diləklərin üstündə meydançalar yellənir,
Qasırğa özün öyür, Xəzər üstə tellənir.
Taleyimiz asılıb Allahın ətəyindən,
Ölüm qorxusu keçir ağlı olan beyindən.
Bu taxta evciklər də titrəyir dirək üstə,
Dolur havalı təbim yer tapır ürək üstə.
Duyğularım çırpınır, sözlər axır dilimə,
Alıram qələmimi, kağızımı əlimə.
İlhamımla həmnəfəs yerə, göyə qaçıram,
Bu dəhşətli dəmlərin ahından söz açıram…
Mənim də duyğularım sular təki çağlayır,
Qoşulub ürəyimə bu Xəzər də ağlayır…
23. 02. 2004

EY SƏRSƏRİ KÜLƏK

Əsmə, ey sərsəri külək, sən belə,
Buludun gözündə yaş inciməsin.
Ələnir səhərdən ərzə çən belə,
Üzünü bozardan qış inciməsin.

Götürüb harayın yenə aləmi,
Niyə itirmisən irızı-çəmi?
Ayıltdın sinəmdə yatan naləmi,
Ürək cuşə gəlib baş inciməsin.

Qışın fərağından könül buzlanıb,
Gecə də, gündüz də can yalqızlanıb,
Sinəmdə bir sirli duyğu nazlanıb…
Əsən qasırğandan kaş inciməsin.

Ey külək, mənim də tufanlarım var,
Ömürlə döyüşən divanlarım var,
Kainat içində ünvanlarım var…
Səmadan qopanda daş inciməsin.

Yenə dalğaları qaldırdın şahə,
Yenə od qoyursan bu lal sabahə,
Nə tonqal çatırsan sinədə ahə?
Elə çat ,göz üstə qaş inciməsin.

Ey külək, gəl çağlat məhəbbətimi,
Sulara bağladım ibadətimi,
Zamandan qoparma eşq adətimi,
Ömrə qonaq olan yaş inciməsin.

20. 02. 2004

DOLAN BULUD, SƏN YAĞMA

Göz yaşlarım qəlbdən qopan dərd ağım,
Dolan bulud, sən yağma qoy mən yağım.

Ürəyimin yaraları bitməyir,
Əlim nədən haq əlinə yetməyir?
Can evimdən həsrət, hicran getməyir,
Niyə gəlməz zamanıma xoş çağım?
Dolan bulud, sən yağma qoy mən yağım.

Yenə əsir payızın sərt küləyi,
Özü təki ağladır bu diləyi,
Haldan-hala salır yazıq ürəyi,
Tufanında çapalayır növrağım,
Dolan bulud, sən yağma qoy mən yağım.

Göy içində yellər şərqi çalırlar,
Duyğuları tutub məndən alırlar,
İlhamımla bir mərəkə salırlar,
Coşan təbim zamanıma göz dağım,
Dolan bulud, sən yağma qoy mən yağım.

Atəşlərin ocağıma əsirdi,
Kül altından qovum çıxır nə sirdi?
Könlüm dərdin ayağına həsirdi,
Bitməyir heç İlahidən fərağım,
Dolan bulud, sən yağma qoy mən yağım.

Asimanda qara çadır qurmusan,
Şimşəklərdən belə kəmər vurmusan,
Al günəşin nə qəsdinə durmusan?
Misralara sinə döyür varağım…
Dolan bulud, sən yağma qoy mən yağım.

Bu dünyanın əzabına şil oldum,
Ömrün ipin toxumağa mil oldum,
Zərrə - zərrə yandı könül, kül oldüm,
Könül yağın udur tale çırağım,
Dolan bulud, sən yağma qoy mən yağım.

Həyat yükü çiynimdə çox ağırdı,
Ürək başın gərdişində fağırdı,
Guruldadın, dilin məni çağırdı…
Yağışına islanıb əl-ayağım,
Dolan bulud, sən yağma qoy mən yağım.

Əhd eləyək qırılmasın bu peyman,
Dəllik sanıb bunu mənə etmə man,
Demə, ölüb gedər bir gün Şadiman,
Misralardan gələr həyat sorağım…
Dolan bulud, sən yağma qoy mən yağım.

20. X11. 2003

FIRTINA HAY QALDIRIB

Göy Xəzərin üstündə fırtına hay qaldırıb,

Döyür dalğanı dalğa ləpələr vay qaldırıb.
Qağayının sədası boğulub ürəyində,
Naləsi ərzi tutub su üstə dirəyin də.
Səf-səf qara buludlar dövrə vurub oynayır,
Yağış ələnir göydən külək coşur qaynayır.
Boğulub durub zaman dənizin hədəsindən,
Keçirir qızmış dərya ləpəni mədəsindən.
Bu dəhşətin içində çırpınır bir quşcağaz,
Titrəyən dirəyə də qırpınır bir quşcağaz.
Özün vurur taxtalı evciyinin damına,
Çəkir azğın fırtına bu tifili kamına.
Quşun həzin fəryadı ürəyimdən getməyir,
O titrəyən vücudu gözlərimdən ötməyir.
Sitəmkar qasırğanın üzündə qanlar gəzir,
Əlində əsir olan min belə canlar gəzir…
Təbiət sərt üzünü göstərir bu gün bizə,
Dəhşətli fırtınanı tutub atıb dənizə.
Dəlitək əl-qol atır, gur sular oyuldayır!
Titrəyir bütün aləm, qasırğa vıyıldayır.
Bu sinəmə köç edir dünyanın ələmləri,
Təbim çırpınır canda ağladır aləmləri.
Üzülür ümidlərim yerlə göy arasında,
Ürəyimi gizləyim canımın harasında? !…

23. 02. 2004

AY SARI BÜLBÜL

Başına döndüyüm, ay sarı bülbül,
Oxu ürəyimdə tellər titrəsin.
Bu könül eşqinə açılan bir gül,
Oxşa yarpaqların yellər titrəsin.

Səsindən qəlbimə axdıqca işıq,
Ülvi məhəbbətə mən oldum aşiq,
Canım bədənimə, sanki sarmaşıq,
Oxşa ruh evimi dillər titrəsin.

Yenə gözlərimin göyü çaxnaşıb,
Buludlar, şimşəklər ora axnaşıb,
Dəryalar, çeşmələr, dəhnələr daşıb,
Yandır kiprikləri sellər titrəsin.

Bülbül, xoş səsinlə ovut könlümü,
Tutuşub atəşə-sovut könlümü,
İncə duyğulara gəl tut könlümü,
Misram haray çəksin ellər titrəsin.

Pərqü tüklərində gülün ətri var,
Qəlbin dünya boyda sənə xətri var,
Başımda səhərin şəbnəm çətri var,
Sığın barmaqlara əllər titrəsin.

Kəsilib taqətim, amanım sənsiz,
Çəkilib göylərə imanım sənsiz,

Olmayır xoş gələn zamanım sənsiz,
Gəl çılğın anıma illər titrəsin.

Sən ki, Şadimana ülfət edirsən,
Ayrılıq oduna xiffət edirsən,
Könlümü eşqinə afət edirsən,
Gəl gir ürəyimə güllər titrəsin.
19. X11. 2003

KARVAN -KARVAN YOL EYLƏDİ

Karvan-karvan yol eylədi,
Göy üzünü aldı bulud.
Ərşi tutub qul eylədi,
Orda köçün saldı bulud.

Asimanda saray qurdu,
Al günəşlə ara vurdu,
Məlul-məlul baxıb durdu,
Şimşəklə cəng çaldı bulud.

Gözdə yaşın sel edəndə,
Qurşaq tutub yel edəndə,
Küləklərə tel edəndə,
Səmalarda qaldı bulud.

Gah örtüyün qara etdi,
Gah da bəyaz xara etdi,
Göyün günün qara etdi,
Özün əldən saldı bulud.

Tökdü seltək gurşadını,
Yaydı ərzə fəryadını,
Duydurmaqçın imdadını,
Hey tutulub doldu bulud.

Yağışıyla kama çatdı,
Savaş edib ara qatdı,
Sonra hirsi tamam yatdı,
Xəyallara daldı bulud.
7. 01. 2004

YENƏ BULAQLARIN QAYNAYIR GÖZÜ

Yenə bulaqların qaynayır gözü,
Təbiət insana mehmanə gəlir.
Gülür çeşmələrin sevincdən üzü,
Könlüm bu duyğudan imanə gəlir.

Buludlar ağappaq, buludlar bəyaz,
Yamyaşıl donunu geyinibdi yaz,
Quşlar cəh-cəh, vurur duyulur avaz,
Göylər yerlər ilə peymanə gəlir.

Kəkliklər, turaclar koldan qaçışır,

Göllərdə sonalar nazla uçuşur,
Yellərin sevdası başından aşır,
Çağlayan təbiət dərmanə gəlir.

Axır çərşənbənin Novruz əlində,
Otlardan yamyaşıl kəmər belində,
Şəbnəmlər parlayır yumşaq telində,
Bahar qəlbimizi səhmanə gəlir.

Sübhün gözlərindən süzülür şehlər,
Yerə mirvaritək düzülür şehlər,
Oxşayır sabahı növrəstə mehlər,
Kainat nə incə fərmanə gəlir.

Boylanır göylərdən sevdalı günəş,
Yay üçün qovurur sinədə atəş,
Uğunur buludlar, sanki çəkir qəş,
Şimşəklər eşqidən amanə gəlir.

Canda duyğu yatır, duyğuda həyat,
Baharı xoş müjdə verir kainat,
Şadiman, könlündən qüssələri at,
Yaradan dünyanı rəhmanə gəlir.

17. 03. 2004

AĞ BAYRAQ QALDIRIB QARA BULUDLAR

Ağ bayaraq qaldırıb qara buludlar,
Ana təbiətə təslimәm deyir.
Həzin iniltisi yanıqlı udlar,
Bu nalə göylərin qəddini əyir.

Çadrasın üzündən götürən günəş,
Zərin şəfəqlərin saçır hər yana.
Qəlbdə ocaq çatır bu eşqə atəş,
Asiman ruh verir necə insana?

Küləklər yorulub düşübdü əldən,
Qovur buludları göyün üzündən.
Bahar boy göstərir dənizdən, çöldən,
Yerin şəbnəm axır titrək dizindən.

Göyərmiş otların çöhrəsi mə'sum,
Günəşdən azacıq isti diləyir.
Əsir vücudları lap əsim-əsim,
Anasız quzutək, sanki mələyir.

Göyün gözlərindən ələnir şehlər,
Sevincdən bahara göz yaşı tökür.
Səhər toranında gizlənir mehlər,
Sübhün ayağına ağ duman çökür.

Bəyaz qış köçünü sürüb getməmiş,
Quşlar birağızla, yaz gəl, oxuyur.
Soyuğun sevdası hələ bitməmiş,
Havanın nəfəsi Novruz qoxuyur.

Yatmış ağacların yuxusu qaçır,
Çılpaq budaqları tumurcuqlanır.
Təbiət bahara qapısın açır…
Günəşin nurundan yer qıcıqlanır.

Çeşmələr qaynayır, çaylar çağlayır,
Bulaqlar pıçıltı salıb hər yana.
Qış pəncərəsini bərk-bərk bağlayır,
Baharın istisi dəyməsin cana.

Ağ bayraq qaldırıb qara buludlar,
Ana təbiətə təslimәm deyir.
Baş götürüb gedir hara buludlar?…
Təbiət gözəldi, sübhümüz xeyir.

17. 03. 2004

EY SİRLİ KAİNAT

Ey sirli kainat, qapı açırsan,
Göylərin köksündə şəfəq saçırsan,
Necə də parlaqdı o kəhkəşanın?
Hər ulduz səyyarən, dirlik nişanın.
Bizim ağlımızla gəl qur ittifaq,
Adəm quduzlaşıb, dağılır tifaq.
Şeytanın xofunda əlləşir ağıl,
Ona Yaradanın varlığı nağıl…

Ey sirli kainat, aç ürəyini,
Göstər sütununu, saf dirəyini.
Biz də mehman olaq guşənişinlə,
Bəşər övladına nur ver işinlə.
Qoy, idrakımızı gəlsin qapına,
Sənin fövqündəki haqqa tapına.
Zəif ağlı ilə ruhu qalmasın,
Dünyanın içini qana salmasın.

Ey sirli kainat, hər ulduz bir yer,
Bizlərə onlardan nolar soraq ver.
Ağlımız önündə aç dərin qatı,
Dünyada çox gücsüz insan həyatı.
Əlimiz göylərə uzalı qalıb,
Eşqiniz könüldə bir məkan salıb…
Özün gör bəşərin yazıq halını,
Ona məlhəm eylə öz vüsalını.

Ey sirli kainat, bax biz də varıq,
Sənin aləmindən niyə kənarıq?
Dinlər də bəşərə çatmayır elə,
Ağlına, zehninə batmayır elə.
Aç bu zavallıya öz imkanını,
Könüldə hiss etsin Rəbb təkanını.
Hiyləni, fitnəni çəkməsin başa,
Sinədə ürəyi dönməsin daşa.

Ey sirli kainat, sənինsə bu yer,

Adəmə özündən bir az diqqət ver.
Fitnəli gönlərlə rişələnməyək,
Qanlardan kam alıb nəş'ələnməyək.
Sənlə arada varsa ittifaq,
Allah kitabların etməyək nifaq!
Səyyarən çoxdursa, çox həyatın var…
Əhdinə eşqinə biz də olaq yar.

Ey sirli kainat, qəlbi yaxırıq,
Çətinə düşəndə göyə baxırıq.
Əlimiz uzalı qalıbdı sənə,
Yanına dönəcək ruhumuz yenə.
Səndən yarandıqsa bəs niyə sirsən?…
Bizə ün yetməyən bir parlaq dürsən.
Sükutlar içində, sanki uyursan,
Könlü mö'cüzənlə niyə oyursan?
Alışdır qəlbimi o atəşinlə,
Yanım göylərində mən günəşinlə.

Ey sirli kainat, hanı canların?
Yad səyyarələrdə o insanların?…
Yoxdur etibarın yer adamına,
Onda birdəfəlik gəl çək kamına.
Ağlımız zəifsə, ağla işıq qat,

Bizə də açılsın ordakı həyat.
Elmindən, dinindən hali olarıq,
O ulu fövqündə ali olarıq.
Sındırma uçmayan qanadımızı,
İblisə qul etmə bu adımızı.

Ey sirli kainat, par-par yanırsan,
Bu yer adamın da, bəlkə anırsan.
Sənin cazibəndə biz də dururuq,
O pak ürəyinə yara vururuq.
Suyumuz, havamız, könlümüz kirli…
İnsan övladında hər şey məkirli!
Bəlkə ona görə qapın bağlıdır?
Bəlkə beynimizdə şeytan ağlıdır?
Döndərib üzünü susursan elə,
Bizə dağ çəkirsən belədən-belə.
Gün-gündən qısalır adəmin ömrü,
Bəlkə sən vermisən bu müdhiş əmri?!…

Ey sirli kainat, necə susursan?
Dalıb sükutlara qulaq asırsan.
İnsanın bəllidir sənə niyyəti,
Nifrəti, qəzəbi, səmimiyyəti.
Ordakı bəşərin bizdən yuxarda,
Bir aləm yaşayır hər sirli varda.
Onların yoxdurmu torpaq savaşı?
Qırğınla ağramır ürəyi, başı.
Sərhədi, ölkəsi, oğrusu yoxmu?
Könüldə bir zərrə ağrısı yoxmu?

Ey sirli kainat, yolunu göstər,
Ürəyim səninlə göyünü istər,
Nə olar, bir götür tülünü üzdən,
Qoy gövhər axtarım o göy dənizdən.
Açım səyyarələr qapısını mən,
İltifat eyləsin hüzurunda tən.
Dəli ilhamına qonağın olum,
Bu yer övladından sınağın olum.
Götür o göylərin qaşına məni,
Dolandır ərşinin başına məni.

Ey sirli kainat, dildə imdadım,
Niyə yetmir sənə dəli fəryadım?
Şölət könülümdə bu alovları,
Ağlat buludları, yandır qovları.
Külümü göylərə sovur dağılım,
Məni dinc qoymayır hissim, ağılım,
Suallar içində itib-batmışam,
Bütün duyğuları candan atmışam.
Əl açıb durmuşam o dərgahına,
Düşmüşəm dünyanın mən günahına!
Qapını aç, gəlim sirli yuvana,
Məni bəndə etmə haqqı qovana!…

Ey sirli kainat, bağrımda hicran,
Sənin hüzurunun təşnəsində can.
Hönkürt buludları, çalxat göyləri,
Çaxdır şimşəkləri, laxlat göyləri,
Dəli küləkləri əsdir başında,
Təzədən doğulum bu göz yaşında.
Qaldır səmaların fövqünə məni,
Buraxma zamanın zövqünə məni.
Könlümə yer eylə o dərin qatda,
Mən də dərk eyləyim nə var həyatda?!…
Yerdə rahatlıq yox bu Şadimana,
Əgər məxluqunam yetiş amana!…

11. 01. 2003

BAŞINA DÖNDÜYÜM, AY MƏLƏK KÜLƏK

Başına döndüyüm, ay mələk külək,
Əsəndə elə əs, göylər oynasın.
Coşsun ürəyimdə min arzu, dilək,
Könlümə od düşsün qanım qaynasın.

Qopart tufanları, ağlat buludu,
Dəli nəhirlərtək çağlat buludu,
Gözün bulağına bağlat buludu,
Gözlərim üzünə tutsun aynasın.

Sən ey yerdə, göydə nazlanan pəri,
Bu xəzan ayında yazlanan pəri,
Qopar bağırından gəl dərdi-səri,
Ürəyim açılsın, başım aynasın.

4. X1. 2004

EY FIRTINA QUŞU

Ey fırtına quşu, nədən sən belə,
Bu sakit həyatı heç xoşlamırsan?
Qanadın yolunur, verirsən yelə,
Bu dəli vərdişi bir boşlamırsan.

Sancılır dalğalar göylərə oxtək,
Sən elə süzürsən səmada toxtək,
Vücudun qeyb olur sulara yoxtək,
Sılğın istəyini nə daşlamırsan?

Ey fırtına quşu, mən də coşqunam,
Hisslərim çırpınır, elə çaşqınam,
Bir az qorxunc seləm, bir az daşqınam,
Mənimlə savaşa bəs başlamırsan?

Mən seyr istərəm, sən də tamaşa,
O əngin göylərdə gəl süzək qoşa,
Gəlibdi yenə də bu təbim cuşa,
Mürəkkəbim quru, heç yaşlamırsan?

Ey fırtına quşu, gəldim adına,
Götür vücudumu al qanadına,
Qoşulaq fələyin ah-fəryadına,
Bayırda tufandı sən qışlamırsan.

18. X. 2004

EY DALĞA, DÖYƏCLƏMƏ ALTIMDAKI DİRƏYİ

Ey dalğa, döyəcləmə altımdakı dirəyi,
Odur şirin canımın, varlığımın ürəyi.
Axı mənim taleyim gur suların üstündə,
Nə durmusan söylə sən həyatımın qəsdində?
Səhərdən axşamadək hicranını ələrsən,
Axşamdan səhərədək quzu təki mələrsən.
Tufanların əlində əsir olub qalmısan,
Mehri-məhəbbətini qasırğaya salmısan.
Nəfəsini dərmədən əsir soyuq küləklər,
Sən baş qoyub yatanda düşür duyuq küləklər.
Ayıldır harayıyla səni şirin yuxudan,
Hıçqırıb ağlayırsan, bəlkə elə qorxudan…
Göz yumub eşitmirsən qulaq tutan naləmi,
Mən ki, təngə gətirdim fəryadımla aləmi.
Bu titrək duyğularım ağlayır uşaq kimi,
Dolanıbdı boynuma kədərim qurşaq kimi.
Acılarım qor olub bağrıma ocaq təki,
Vücudum qəm əlində cansız oyuncaq təki.
Haqsızlığın içində boğulub-batmışam mən,
Əzabımdan özümə heykəl ucaltmışam mən.
Ey dalğa, döyəcləmə altımdakı dirəyi,
Odur şirin canımın, varlığımın ürəyi…

1-2. X11. 2004

PAYIZ ÇİÇƏKLƏRİ BOYNU BÜKÜLÜ

Payız çiçəkləri boynu bükülü,
Ağlayır yuxulu taleyi üstə.
Yatan çəmənlərin halı mürgülü,
Durubdu sabahın ayazı qəsdə.

Xəzan şəbnəmləri axan göz yaşı,
İsladır üşüyən otları bir-bir.
Olub çəmənlərlə qəm can sirdaşı,
Təbiət ah çəkir ağlayır nə sir?

Hər insan ömrünün xəzanı təki,
Bu çiçəklər niyə payıza düşüb?
Fələkmi eyləyib onlara ərki?
Bəxtləri hər axan ulduza düşüb.

Payız çiçəkləri aman eyləyir,
Amanı heç cürə haqqa yetişmir.
Öz dili qəlbinə min can eyləyir,
Canın fəqanıyla yara bitişmir.

17. 02. 2005

ZAMAN ÇAPIR ATIN YELTƏK

İÇİNDƏ NİFRƏTİN TÜĞYAN EYLƏYİR

İçində nifrətin tüğyan eyləyir,
Nifrəti nifrətə bağlama belə.
Gözlərin könlümü büryan eyləyir,
Sinəmə köz basıb dağlama belə.

Bu dünya at üstə yükü qəm dolu,
Ağrıyla, acıyla bu aləm dolu,
Kimə asan olub həyatın yolu?
Hönkürüb sinədən ağlama belə.

Dərddən qaçanları dərd qovur hər an,
Bədəni özünə heyran edir can,
Doğulub ölməkçin yaranmış insan,
Dərdi zilə çəkib çağlama belə.

Hər kəs doydum demir öz həyatından,
Salsa da fələyi tale atından,
Qəm keçir adamın yeddi qatından,
Ürəyi ahınla çuğlama belə.

Sanma Şadimanı, doğuldu getdi,
Zülümlər içində boğuldu getdi,
Hər can bədənində noğuldu, getdi,
Bədən məzarlarda bağlama, belə…

26. X. 2003 / Pirallahı

GÜNAHIN ŞEYTANIN ÖZÜNƏ QALSIN

Niyə ürəyini salırsan aha?
Ahını küləklər alsın, aparsın.
Dostum, ümidləri yönəlt sabaha,
Könlünü diləklər alsın aparsın.

Sevdalı günlərin bitməsin heç vaxt,
Həyatın hər üzü bizə imtahan.
İncə bülbül təki çağlasın qoy baxt,
Səni ağuşunda bəsləsin cahan.

Qul etmə ağrıya, acıya başı,
Ağlın dediyini ürək yeməsin.

Burax bağırından, dostum, tələşı,
Şəninə yamanlar fəna deməsin.

Hicrana kökləmə saatlarını,
Zamanın gərdişi geriyə dönməz.
Könlünün mirvari dür qatlarını,
Həyata bəxşiş et ucalan enməz.

Niyə ürəyini salırsan aha?
Acını rüzgarlar sazağa salsın.
Onsuz da doğulan batır günaha,
Günahın şeytanın özünə qalsın.
26. X. 2003 / Pirallahı

HƏR BİR BƏLA ACA GƏLİR

Necə qalım bu dünyada?
Ahı dağdan uca gəlir.
Başımızdan ötmür qada,
Şöhrət güdən taca gəlir,
Hər bir bəla aca gəlir.

Ötmür candan ağrı-acı,
Tapılmayır can əlacı,
Düşüb başdan haqqın tacı,
Baca üstdən baca gəlir,
Hər bir bəla aca gəlir.

Titrəyir yer-göy ahımdan,
Əlac gəlmir sabahımdan,
Qurtulmaqçın günahımdan,
Haqq istərəm Allahımdan…
Ələm qaça-qaça gəlir,
Hər bir bəla aca gəlir.

Ömür ötür bəd əlində,
Boğuluruq dərd əlində,
Dünya sərhəd, səd əlində,
Heçnə yoxdur mərd əlində,
Zülüm saça-saça gəlir,
Hər bir bəla aca gəlir.

Bağrımızı qəm üşüdür,
Ağlımızı dəm üşüdür,
Gözümüzü nəm üşüdür,
Zil qovanı bəm üşüdür,
Cahan yaman qoca gəlir,
Hər bir bəla aca gəlir.

Könül, səndə nə əndişə?
Şadimanı çəkir şişə,
Ürəyini vurdu dişə,
Tapmadı ki, pünhan guşə,
Ələm aca-aca gəlir,
Hər bir bəla aca gəlir.
26. X. 2003 / Pirallahı

HEÇ KƏS ARAMAYIR ALLAH İÇİNDƏ

Allahım, günlərin kəndiri uzun,
Min ağrı görürəm bir ah içində.
İpi əzrayılda bu boynumuzun…
Can yatağa düşür günah içində.

Bəşər itaətdə şöhrət tacına,
Dar ağacı qurub tamah acına,
Fərmanlar verməkdə şər əlacına,
Ağrılar asılıb sabah içində.

Göylərə, yerlərə ağlımız qaçır,
Tanrıya ev tikir, haqqa əl açır…
İlahinin odu canda nur saçır…
Heç kəs aramayır Allah içində.

Bulma, ey Şadiman, haqqına duva,
Zəhərdi daddığın çörək, su, hava,
Qan çanağı olmaz hər qəlbdə yuva…
Rəbbin xofu olmaz, hərgah içində.

10. X. 2003

SÖYLƏMƏ TAXSIR BELƏ DÖVRANDADI

Gəlməyir fürsət ələ, dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

Yetənə qul eyləmisən könlüvü,
Hər çatana əyləmisən könlüvü,
Əyə-əyə neyləmisən könlüvü?
Dəli təki səyləmisən könlüvü,
Gəlməyir fürsət ələ, dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

Ürəyüvü boyamısan hiyləyə,
Qarnuva haram verirsən piyləyə,
Ağluva şeytan taxırsan kuyləyə,
Sözüvü hədyən deyirsən iyləyə,
Qoyma könül bağuvu şər iyləyə,
Qisməti vermə yelə, dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

Dünya o dünya dəyişən bizlərik,
Bir-birinə şər deyərək bizlərik,
Xeyrimizə daş ataraq izlərik,
Canımızı sinəmizdə gizlərik,
Atımızı yoxuşa məhbizlərik,
Çox deyərik bu tələ dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

Hey qururuq cahana can tələsəi,
Öz-özünün ömrünə qan tələsi,
Zirvələri çalmağa şan tələsi,
Bizi tutub oxlayır an tələsi,
Ağrı düşən hər telə dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

Ulduzumuz səmanı hey daşlayır,
Sinə yanır gözləri qan yaşlayır,
Dərdə düşən qəlb bizi qarqışlayır,

Fələk qəmlə bəşəri alqışlayır,
Ömrümüzə gün elə dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

Can əyilir Rəbbinə yol açmağa,
Ərzi qoyub ərş üzünə qaçmağa,
Bəxt quşutək əlimizdən uçmağa,
Günəş təki aləmə nur saçmağa,
Təb axıdan söz hələ dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

Şadimanın can bağlı vəfasına…
Dözən çoxdu hər ömrün cəfasına,
Aldanmışıq dünyanın səfasına,
Məlhəm yoxdu ölənin şəfasına…
Hər ağrı-acı dilə dövrandadı,
Söyləmə taxsır belə dövrandadı.

20. 07. 2003

DÜŞÜNƏN BAŞLARA CAN TAB EYLƏMİR

Həyatdan vaxtsız getmiş alim, şair qardaşım
NAZİM RİZVANA !

Dosta, yaxınına, doğmana sirdaş,
Həm şair, həm alim, həm insan qardaş,
Axır bəbəklərdə gilələnir yaş,
Əzrayıl önündə necə sökdü yaş?
Ölmünə yas tutan an tab eyləmir,
Düşünən başlara can tab eyləmir.

O vaxtsız gedişin sarsıtdı bizi,
Ağlar könlümüzdə hicran dənizi,
Pakların həyatdan silinməz izi,
Gecənin fəryaddan qatlanıb dizi,
Sübhümüz hıçqırır dan tab eyləmir,
Düşünən başlara can tab eyləmir.

Neçə kəlmələrin varaqda qaldı?
Könlünün yanğısı çıraqda qaldı,
Nazim, dillərimiz soraqda qaldı…
Səntək istedadlar qıraqda qaldı…
İndi bu ağrıya şan tab eyləmir,
Düşünən başlara can tab eyləmir.

İllərlə sinədə kədər böyütdün,
İmkan ucbatından diləyi ütdün,
Vətən ağrısıyla qəlbi şam etdin,
Oğlundan, qızından nigaran getdin…
Dərdə damarlarda qan tab eyləmir!
Düşünən başlara can tab eyləmir.

Alimin, şairin cəfası böyük,
Millətə, Vətənə vəfası böyük,
Yurdun tarixinə şəfası böyük,
Xalqın sabahına səfası böyük,
Zirvədən boylanan san tab eyləmir,
Düşünən başlara can tab eyləmir.

Hələ altı yaşdan bu həyatını-
Kitabla bağladın hər saatını,
Elmdə axtardın xoş büsatını,
Qardaş, nə tez çapdın ömür atını?
Ola ruh bədənə xan tab eyləmir,
Düşünən başlara can tab eyləmir.

Şadiman bu ölmə fəryad etmədə,
Qəm könül sarayın bərbad etmədə,
Allaha, Tanrıya imdad etmədə,
Pakanə ruhunu təb yad etmədə,
Dost dilindən qopan can tab eyləmir,
Düşünən başlara can tab eyləmir.

15. X1. 2003

ÖMÜR BİZDƏN QAÇIR GEDİR

Zaman çapır atın yeltək,
Günlərimi biçir gedir.
An qırılır saçda teltək,
Saatlarım keçir gedir.

Ağrı-acı at üstündə,
Əzabı min qat üstündə,
Ya yaşa, ya bat üstündə,
Qəlbdən qanı içir gedir.

Başdan qopan fitnə-feil,
Salır yaman könlə meyil,
Ömür gərgin, ürək veyil,
Can evini seçir gedir.

Hər addımda haqq üzülür,
Dodaq yanır, dil büzülür,
Qədəhimə ah süzülür,
Qəmin səhvin keçir gedir.

Hər əzabda vardı zülüm,
Ağıl mülkü bölüm-bölüm,
Doğulanın sonu ölüm…
Can tənindən uçur gedir.

Ağrımızı an üşüdür,
Damarları qan üşüdür,
Tən yiyəsin can üşüdür,
Qəm qapısın açır gedir.

Ömür vaxta çətin yolsa,
Ötən həyat nağıl olsa,
Əgər başda ağıl olsa,
Günəş təku saçır gedir.

Hər adama – can və bədən,
Bu dünyaya gəlmir gedən,
Ey Şadiman, söylə nədən,
Ömür bizdən qaçır gedir?

26. 09. 2003

RƏBBSİZ KÖNÜL EŞQİ TUTMAZ

Uyma canın vəfasına,
Canda vəfa olmaz belə.
Bu dünyanın cəfasına-
Gələn gedər, qalmaz belə.

Saç ağarar sabahlarçın,
İnsan ölər günahlarçın,
Qəlbdə qopan bu ahlarçın-
Fələk telin yolmaz belə.

Diləyini haqqa köklə,
Şeytanı qov, şəri təklə,
Qəm qapını döyər ərklə-
Heç icazə almaz belə.

Hər ürəkdə insaf varmı?
Rəbbdən qeyri bir saf varmı?
Haqqdan dürüst sərraf varmı?
Cövhərində almaz belə.

Təbiəti quran yoxsa,
Haqq əmrində duran yoxsa,
Şərin boynun vuran yoxsa?-
Yer insanla dolmaz belə.

Ey gələnlər, can bəsləmin,
Hər fitvaya həvəsləmin,
Yaxşılığı qəfəsləmin,
Heç bir xeyr solmaz belə.

Vermə günü, anı bada,
Canı tənə etmə fəda,
Yerdən dəyir göyə qada…
Yoxsa bulud dolmaz belə.

Atəşimi qəlb sovutmaz,
Misra gələn can ovutmaz,
Rəbbsiz könül eşqi tutmaz,
Təbə mehr salmaz belə.

Dünya içi ahla birdi,
Hər doğulan aha girdi,
Ey Şadiman, bu can sirdi,
Yoxsa fələk çalmaz belə…

2. X11. 2003

ÖMÜR AĞRISINI YAŞA VERMƏSİN

Ürəyin üstünü ələm alanda,
Qəm öz səhərini başa verməsin.
Gözlərin buludu göytək dolanda,
Bəbək gurşadını yaşa verməsin.

Nə pərvanə imiş hər insan yazı?
Adama ruh verir işvəsi, nazı,
Əsib bağrımızda zaman payızı-
Vaxtsız öz ömrünü qışa verməsin.

Doğulan həyatdan alaydı kamı,
Rüzgar söndürməyə canlarda şamı,
Heç vaxt tükənməsin həyat ilhamı,
Ağıl ağrısını başa verməsin.

Hər duyan zəkanı ahlar izləyir,
Ürəyin içində kədər közləyir,
Kim bilir adamı nələr gözləyir?
Heç kəs bir gününü boşa verməsin.

Zirvədən boylanan qartal vüqarlı,
Zirvənin başında təbiət qarlı,
Dağ öz görkəmiylə təpədən varlı,
Qaya can yerini daşa verməsin.

İnsan ömürünün yazı növrəstə,
Onu xərcləməyə dururuq qəsdə,
Qocalıq ölümə aparır pəstə…
Ömür əzabını yaşa verməsin.

Şadiman, Yaradan verərkən canı,
Ona qul yaradıb bədəni, qanı,
Başdan ayağadək sirdi dövranı,
Zülümün ürəklə qoşa verməsin.

2-3 / X11. 2003

FİKİR QƏLBİN İÇİN KƏSİR

Fikir qəlbin için kəsir,
Ürəkləri edir əsir,
Sinələrdə qurur qəsir,
Ondan əli üzmək olmur,
Nə də ona dözmək olmür.

Ömrümüzdən boylananda,
Başımıza haylananda,
Kök atdıqca vaylananda,
Taleləri çapar keçər,
Hər yuvanı tapar keçər.

O adəmin məkanıdı,
İdrakların dükanıdı,
Ömrün zaman sükanıdı,
Çəkər bizi imtahana,
Kökün atar bu cahana.

Fikir bizdən aralanmaz,
Yaralayar, yaralanmaz,

Ağ taleyi qaralanmaz,
Məzarlayar cisimləri,
Udar bir-bir isimləri.

Ortaq edər öz qəminə,
Bükər bizi ələminə,
Kim tuş deyil aləminə,
Qapısına düşər ürək,
Düşüb ahdan bişər ürək.

Fikir ağlın ağrısıdı,
Qəlbdən nəş'ə oğrusudu,
Əzabların doğrusudu,
Onu candan qovmaq olmur,
Onu satıb-sovmaq olmur.

Özü yoxsa, canda yoxdu,
Zaman, məkan, an da yoxdu,
Bədənində qan da yoxdu,
Fikir başda dönsə aha,
Demək, bəşər yoxdu daha.

Sinəmizdə yanasıdı,
Duyğumuzun sonasıdı,
Hər ömürlə sınasıdı,
O bizimlə doğulubdu,
Şüurumuza dağılıbdı.

Fikirsiz bir insan olmaz,
Hər fikir də asan olmaz,
Hər yağışdan leysan olmaz,
O idrakdan gen düşməyir,
Hansı başla əyişməyir?

Ey Şadiman, fikir başda,
Qoyar könlü dağda, daşda,
Dərviş olar can hər yaşda,
Qopa bilməz ondan neçin?
Üzər könlü için-için.

22. X11. 2001

EY ÜZLƏRDƏ ÜLFƏT GƏZƏN ADAMLAR

Ey üzlərdə ülfət gəzən adamlar,
Bu eşq ilə özün üzən adamlar,
Ürəyinə kədər düzən adamlar,
Könüllərin yoxdursa saf niyyəti,
Dil-dodaqda aramayın hörməti.

Qəlblər əsir onun tuti səsinə,
Hansı bağır istəməz ki, isinə?
Onsuzdakı acılardan qəlb sinə,
Hər duyğunun yoxdursa heç qüdrəti,
Dil-dodaqda aramayın hörməti.

Gəlib-gedən bu dünyadan doymadı,
Bəni-bəşər o dünyaya uymadı,
Can deyəndə can dediyin duymadı,
Eyləməyin hər yetənə minnəti,

Dil-dodaqda aramayın hörməti.

Əgər yoxsa vicdanların harayı,
Uçacaqdır gec-tez haqqın sarayı,
Gələcəkdir bir gün Rəbdən vay ayı,
Hər gün artır yalanların qiyməti,
Dil-dodaqda aramayın hörməti.

Ürəklərin odu, közü sönübsə,
İnsan ki, var Allahından dönübsə,
Şeytan xofu başımıza enibsə,
Pozulacaq adamların nisbəti,
Dil-dodaqda aramayın hörməti.

Qəmin dərin dəryasına batanda,
Gözlər üzü gur yağışa tutanda,
Bəxtin küsüb candan ayrı yatanda,
Donar gözdə bu zamanın surəti,
Dil-dodaqda aramayın hörməti.

Ey Şadiman, salma könlə niskili,
Tanrı bilir bu cahanda müşkülü,
O açdırır, o soldurur hər gülü,
Verir hər an insanlığa qiyməti,
Dil-dodaqda aramayın hörməti.
27. X11. 2001

HƏR CÜRƏ HƏQARƏTƏ

Səni tapdalayırlar,
Könlünü talayırlar,
Sonra od qalayırlar,
Dözmək olmur zillətə,
Hər cürə həqarətə.

Mənliyini soyurlar,
Ürəyini oyurlar,
Yaman günə qoyurlar,
Çevrilir bu adətə,
Dözmək olmur halətə,
Hər cürə həqarətə.

Yalan çıxıb taxtına,
Çox gülür ağ baxtına,
Şahlıq düşüb vaxtına,
Hiylə gəlir riqqətə,
Hər cürə həqarətə.

Bu aləm gülür bizə,
Fitnələr qanlı kuzə,
Əyir başları dizə,
Bəşər dönüb alətə,
Hər cürə həqarətə.

İçimiz ahlayıbdı,
Dünya günahlayıbdı,
Qəmi sabahlayıbdı,
Göz öyrəşib zillətə,
Hər cürə həqarətə.

Əzən əziləndən az,
Əzənin özü dayaz,
Edir öz bəxtinə naz,
Qol qoyur bəd niyyətə,
Hər cürə həqarətə.

Kimi gözdə yaş gəzir,
Kimi başa daş gəzir,
Bu bədən cana nəzir,
Əl öyrəşib qarətə,
Hər cürə həqarətə.

Aləm sinəmdə çimir,
Gecə də etmir çimir,
Xaliqdən gəlsə əmir,
Son qoyar müsibətə,
Hər cürə həqarətə.

Şadiman, gəz dünyanı,
Qəm basıbdı hər yanı,
Divtək şüşədə canı,
Tutulubdu illətə,
Hər cürə həqarətə.
26. X11. 2001

AYRILIQ QÜRBƏTİN HƏSRƏT QUŞUYMUŞ...

Ayrılıq qürbətin həsrət quşuymuş,
Üşüdər könlü can ağlayanda.
Bəbəyi gurşadlar yuyan yaşıymış,
Boğar dəryasında qan ağlayanda.

Qalarsan gözləri yollarda nalan,
Solarsan əzablı hallarda nalan,
Ağrı çinar olar qollarda nalan,
Möhnətə düşərsən an ağlayanda.

Hər ruhun acısı asimanda ah,
Ölənin içində bir dünya günah,
Zülmətin əlində çırpınır sabah,
Göylər buludlayır an ağlayanda.

Ayrılıq cahanın səma qurşağı,
Asar ürəkləri başı aşağı,
Ağzı südsüz qalan anan uşağı,
Yandırar ürəyi şan ağalayanda.
23. X. 2001

GƏLƏN GƏLƏR, QALAN OLMAZ

Ey qəlbləri söküb yıxan,
Bu qədər də talan olmaz.
Həddin aşan, yolun azan,
Gələn gələr, qalan olmaz.

Dünya özü bir kuzədi,
Qan içində göz-gözədi,
Hər addımı bir gürzədi,
Demə, səni çalan olmaz.

Qalarsan ağlar içində,
Sağalmaz dağlar içində,
Kədərin çağlar içində-
Heç könlünü alan olmaz.

Dodaqların ah-fəqanı,
Bürüyübdü bax hər yanı,
Qorusan da şirin canı,
Boynuna qol salan olmaz.

Kim uyubsa şöhrətinə?-
Tanrı gülüb niyyətinə,
İlahinin qudrətinə-
Bəşərdən tay olan olmaz.

Gizlə haqqın tilovunu,
Artır hələ hey ovunu,
Şişirdirsən söz-sovunu,
Bir bu qədər yalan olmaz.

Hər insanın payızı var,
Hər alında bir yazı var,
Son anın da qəm sazı var…
Demə sənə çalan olmaz.

Cahan qopa bilmir şərdən,
Nalə qalxır göydən, yerdən,
Göstər mənə sən bəşərdən
Payızında solan olmaz.

Ey Şadiman dünya belə,
Ağ dən salır qara telə,
Verər ömrü bir gün yelə,
Tənindən heç palan olmaz.

20. X11. 2001

KÖNLÜ QUL EYLƏMƏ AHA, FƏRYADA

Könlü qul eyləmə aha, fəryada,
Qul olan könlü zirvələr almaz.
Hərə bir ad ilə qalır dünyada,
Demə ki, hər ahın niskili olmaz.

Həyatla döyüşmək sürətini tap,
Nə qədər ki, sağsan surətini tap,
Cahanda yaşamaq qudrətini tap,
Tapmasan səadət üstünü almaz.

Hər can, yiyəsinə əzizdən-əziz,
Ömür nə dəryadır nədə ki, dəniz,
Bu kəm həyatımız dünyaya kəniz,
Demə, hər işinə nəzərin salmaz.

Zaman çox ağlatdı bu Şadimanı,
Haqqa yetişməkdi dini, imanı,
Gələrsə ömürün axır zamanı…
Canı bədənində dayanıb qalmaz.
14. 03. 2003

DƏRDİ ŞAH EYLƏMƏ ÖZ ÜRƏYİNƏ

Dərdi şah eyləmə öz ürəyinə,
Hökmünə Rəbb verən ömür yetişməz.
Tanrıdan gəlibsə köz ürəyinə,
İblisin verdiyi əmir yetişməz.

Göz yaşın axıdıb döndərmə çaya,
Qulağı öyrətmə naləyə, vaya,
Ununun suyuna vurmasan maya-
Çörəyin sultanı xəmir yetişməz.

Bağrın qaya deyil balta çalasan,
Ağrı quyusuna qəlbi salasan,
Könül zirehini polad alasan,
Əzib mum etməyə dəmir yetişməz.

Şadiman, diləmə Allahdan səbir,
Səbrin bir ucu gətirər qəbir,
Əlində tutubdu təninə xəlbir…
Etmə ürəyini ələmlə əlbir -
Etsən nə səs, nə də səmir yetişməz.
13. 04. 2003

İLLƏRİ SAXLAMAQ OLMUR Kİ, OLMUR

Vəfasız dünyanın suyuşirindi,
Ömürtək saralıb solmur ki, solmur.
Qəmi bol olsa da. özü şirindi,
İlləri saxlamaq olmur ki, olmur.

Günlər sellər təki axışıb gedir,
Anlar bir-birinə baxışıb gedir,
Ömrümüz dünyadan yığışıb gedir…
İlləri saxlamaq olmur ki, olmur.

Saat elə bil ki, deyingən qarı,
Elə haray salır gün olur yarı,
Zaman bu dünyada bal yığan arı,
İlləri saxlamaq olmur ki, olmur.

Fələk canı alıb tez təni biçər,

Töküb qədəhinə göz yaşı içər,
De hansı bəndəyçin əmrindən keçər?
İlləri saxlamaq olmur ki, olmur.

Dünənki uşaqlıq yaddaşımızda,
Cavanlıq eşqimiz var başımızda,
Zamanın çovqunu göz-qaşımızda,
İlləri saxlamaq olmur ki, olmur.

Hər kəs ötən ömrü salır yadına,
Yetməz keçən gənclik heç vaxt dadına,
Fələk cavab verməz ah-fəryadına,
İlləri saxlamaq olmur ki, olmur.

Qismətsə… Qocalıq qapını döyər,
Halını sormadan, qəddini əyər,
Hər şirin kəlmə də, xətrinə dəyər,
İlləri saxlamaq olmur ki, olmur.

Şadiman fələyin gərdişi belə,
Ondan razı qalan olmayıb hələ,
Alar günlərini sovurar yelə,
İlləri saxlamaq olmur ki, olmur.

8. 04. 2002

EY KÖNLÜ, ŞƏR YUVASI

Ey könlü, şər yuvası,
Dili iblis duvası,
Başında qan havası,
Getməz hələ nəvası,
Salmısan feyli tənə,
Anan ağlasın sənə.

Fitnəyə can deyirsən,
Hamıya qan deyirsən,
Özünə xan deyirsən,
Yalana şan deyirsən,
Atmısan haqqı çənə,
Anan ağlasın sənə.

Üstün qumaşda görən,
Özünü başda görən,
Ürəyin daşda görən,
Gözləri yaşda görən,
Gəlmə imana, dinə,
Anan ağlasın sənə.

İçində hiylə yatır,
Aləmi yaman qatır,
Dilin nə haqqı satır?
Əlin hər yerə çatır…
Sığmırsan ərşə yenə,
Anan ağlasın sənə.

Fələk səni sağ eylər,
Kefini lap cağ eylər,
Hər işini yağ eylər,
Kor bəxtini ağ eylər,

Üzülməz haqdan dənə,
Anan ağlasın sənə.

Başdan əyağa xata,
Şeytan eyləyib əta,
İstərsən dünya bata,
Hiylən aləmi qata,
Gözün fitnəyə yata,
Zamandı yet büsata,
Anan ağlasın sənə.

Demə, Şadiman tifil,
Özütək şeri səfil,
Çəkməyir yükünü fil,
İlhamım gəldi qəfil,
Yenə nur verdi mənə,
Anan ağlasın sənə.

4. 04. 2003

ALIŞAN ÜRƏKDİ, ÇIRPINAN BAŞDI

Alışan ürəkdi, çırpınan başdı,
Mənə zülüm verən qəmlərə nə var?
Sinəmdə əzablar qaynadı, daşdı,
Ömrü alıb qaçan dəmlərə nə var?

Dərdi çəkməyənə, ağrı baş olmaz,
İnsan doğulanın, qəlbi daş olmaz,
Könül alışmasa, gözdə yaş olmaz,
Bəbəkdə çağlayan nəmlərə nə var?

Əzəldən dünyanın işi belədi,
Qarı çiçəkləyən ələm telədi,
Hər doğulan kəsin üzü yelədi,
Bu yolda kəsirə, kəmlərə nə var?

Zülüm dirənibdi ərşi-ələya,
Rəbb göndərən zadıq, gələn bəlaya,
Hey böhtan atırıq Allah-tələya,
Zili zindanlasaq, bəmlərə nə var?

Şadiman, dünyadan keçib getmə, gəl,
Əgər keçəcəksən günah etmə, gəl,
Əyirlik, oğurluq edəcəksə əl…
İçi zəhər dadan təmlərə nə var?

7. X. 2002

DÜNYA ÇUVAL TƏKİ DOLUB BOŞALDI

Dünya çuval təki dolub boşaldı,
Onu min bir yerə bölən bilmədi.
Duyğunun içində fitnə baş aldı,
Qalanın şivənin ölən bilmədi.

Zalım zamanənin arşını uzun,

Sındıra bilmədi könlümün buzun,
Göydən axıb düşən hər bəxt ulduzun,
Sahibi kim oldu, gələn bilmədi?

Ağlımız kəsəndən qəm udduq hələ,
Dərd dağ çəkdi bizə belədən belə,
Ömür yaşandıqca gün döndü yelə…
Ürəyin ağrısın, gülən bilmədi.

Dərdi-sər ağartdı əzəldən başı,
Kamana döndərdi o can sirdaşı,
Acılar doğduqca, gözlərdə yaşı,
Əfsus ki, yanaqdan silən bilmədi.

Nədir, ey Şadiman, ömür töhfəsi?
Kəsilər yollarda bir gün nəfəsi,
Qalar yazılmamış neçə səhfəsi -
Dünyanı öz mülkü bilən bilmədi.

22. 09. 2002

ÜRƏK AĞLAR ZARI-ZARI

Ürək ağlar zarı-zarı,
Harayına çatan olmaz.
Hey üşüdər könül qarı-
Ora atəş çatan olmaz.

Dərd sinədə quduzlaşar,
Ürəklərlə qəm uzlaşar,
Bağır donar, bumbuzlaşar,
Onu oda tutan olmaz.

Göz var ki, nəm olar kədər,
Elə könlü tənbeh edər,
Haraylayar tale, qədər…
Onu dosttək tutan olmaz.

Zaman gözə batan qarğı,
Yol saçını, min yol qarğı,
Yarasına qoymaz sarğı-
Başını heç qatan olmaz.

Dildən düşən ümid mələr,
Ürəyə hey həsrət çilər,
Dərdi verən hardan bilər?-
Dərd qoynunda yatan olmaz.

Hər bir ağrı azar olar,
Ömrə quyu qazar olar,
Ürək qəmdən məzar olar,
Özün ora atan olmaz.

Ad var şənə tə'nə yağar,
Hiyləsindən zülüm doğar,

Haqqı tutub iplə boğar,
Ad da var ki, batan olmaz.

Ey Şadiman, saat ötər,
Haqqı-sayın düşüb itər,
Zaman gələr, ömür bitər,
Ona bir gün satan olmaz.
22 / 23. 09. 2002

TALE MÜRGÜ DÖYSƏ HƏYAT YOLUNDA

Tale mürgü döysə həyat yolunda,
Büdrəsən sinədən kam alan çoxdu.
Elə ki, gördülər qüvvət qolunda,
Şöhrət zirvəsində əl çalan çoxdu.

Deməyin könüldə ağrı-acı var,
Hər bir ağrının da öz əlacı var,
Ömür baharında həyat tacı var,
Bu tacdan ucalan, alçalan çoxdu.

Səadət gətirmir hər kəsə ömür,
Vaxt gələr gün sənə görünər kömür,
Rəbbdən sanmayasan çox dərdi əmir,
Dili ram eləyən ağ yalan çoxdu.

Elə ki, ucaldın zirvə fövqünə,
Yaşa həyatının ruhu şövqünə,
Uyma özgələrin riya zövqünə,
Ucalsan başına kül salan çoxdu.

Nə qədər diqqətdə olsan yıxarlar,
Həyanı nə qanır binadan xaralar?
Həyat gülüstanı verirsə barlar,
Bir sultan ömürdə min talan çoxdu.

Dərdinin əlacın özündə ara,
Nə qədər yaxmıblar könlünə qara,
Nə çoxdur söyləyən hər ağa qara?
Tutma ürəyini boş-boş ah-zara,
Onsuz da araya qəm salan çoxdu.

Deməyin Şadiman özün ovudar,
Bal bilib qəmini zəhərtək udar,
Bu zaman, bu məkan urəyinə dar…
Könül kamanında qəm çalan çoxdu.
23. 09. 2002

MÜƏLLİM, İŞIQSAN, HƏYATSAN BİZƏ

Müəllim, işıqsan, həyatsan bizə,
Səndən ziya dolur kor gözümüzə.
Bir nur çeşməsisən başdan, binadan,
Rəbbin şəfəqiylə gəldin anadan.
Sənə adi təki baxan adamın,

Qoyar ürəyində bu fələk kamın.
Heç adi deyilsən, ömrə çıraqsan,
Elimdən, bilikdən əqlə soraqsan.
Tək səndən oxumaq, yazmaq öyrəndik,
Parlaq şəfəqinin nuruna endik.
O nur çeşməsində yuyunduqca biz,
Zirvədən-zirvəyə uçdu qəlbimiz.

***

Müəllim, nə ülvü səslənir bu ad?
Zəhmətin fövqündə könüllər abad.
Vətən kəlməsini səndən öyrəndik,
Bilik gülzarını bağında bitdik.
Əlimiz titrərkən vərəqlər üstə,
Səbirlə, təmkinlə, necə ahəstə?
Sən bizi kitaba vəfalı etdin,
Hər bir uğurunu cəfalı etdin.
Sultanlar, şahlar da nurdan öc aldı,
Bütün mədəniyyət səndən ucaldı!
Elə sayəndəcə qanadlandıq biz,
Belə qələm tutdu titrək əlimiz.
Ana, kəlməsini yazdıq bir zaman,
Cəhalətə quyu qazdıq bir zaman.
Bizə pak Vətənin özün sevdirdin,
Cümləsin, misrasın, sözün sevdirdin.
Sənətin, sənətlər fövqündə yaşar,
O bilik bulağı qaynayıb daşar.
Mən nə qazandımsa sənə borcluyam,
Saçına səpilmiş çənə borcluyam.
Sən adi deyilsən-mərtəbən uca,
O bilik dünyandan həyata baca-
Açılıb çağlayan başlar üstündə,
Əriyər pak ömrün yaşlar üstündə.
Müəllim, nə böyük, nə ülvi xilqət?
Əqlinlə gül açar hər peşə, sənət.
Hansı ucalıqdan gəlsə səsimiz,
Deyil o zirvələr boş həvəsimiz.
Biz sənin nurundan almışıq şəfəq,
Həyat yollarına salmışıq şəfəq.
Salarsa ömrünü taleyin bərkə,
Qoparsa yolunda min bir mərəkə,
O ülvü adına düşməsin ləkə!
Çünki hər sənətin açarı səndə,
Sönməsin ziyanın günəşi çəndə.
Adının eşqidir bil ki, sinəmdə,
Nurundan həyatın canı var dəmdə.
Məktəbə desəm də bir gün əlvida,
Müəllim adına etmərəm vida!…

23. 09. 2002

ALLAHA İMAN EYLƏYİR

Qoyma gözlərimdə gilələnsin yaş,
Yaş selə dönəndə yaman eyləyir.
Qəlbi rəva bilmə ağrılara baş,
Hər ah nərə çəkir, aman eyləyir.

Dünyanın əzabı sovuşan deyil,
Hər dilək mərama qovuşan deyil,

Bu can ki, bədənə yovuşan deyil,
Ömürdən an doğur, zaman eyləyir.

Qartallar zirvələr başında yazlar,
Ağ tülə bürünən ormanlar nazlar,
Neylər sıldırıma qışda ayazlar?
Dağın fəqanını duman eyləyir.

Ağrıya düşəndə tapmazsan dəva,
Sanma ciyərinə kədəri hava,
Bir gün ürəyində tikdi ki, yuva,
Hər dərd ağrısını umman eyləyir.

Elə haray çəkir gələn sabahlar,
Başının üstündə gəzir günahlar,
Gözlərdən sinəyə süzülən ahlar…
Ürəyi ağlayan kaman eyləyir.

Nədir ki, Şadiman, dünyanın suçu?
Əyilib məzarın tininə ucu,
Bəşər tələsinə düşübdü qıçı…
İndi də Allaha iman eyləyir.

6.X11.2002

BU DÜNYAYA BƏŞƏR QULDU

Bu dünyaya bəşər quldu,
Qəmi çəkən nə oğuldu?
Rəbb əmriylə o doğuldu,
İnsan ömrü bir nağıldı…
Fələyindən gün qopardı,
Gəldi, getdi, nə apardı?

Zaman anı aldı qaçdı,
Boynuna qol saldı qaçdı,
Ömrü yelə qaldı qaçdı,
İlahiyə can yol açdı,
Bir gün yoxdu, dünən vardı,
Gəldi, getdi, nə apardı?

Yaradana sınaq oldu,
Günahları qınaq oldu,
Bəşər haqqa gedən yoldu,
Bu dünyaya Rəbbdən doldu,
Özün canda kim tapardı?
Gəldi, getdi, nə apardı?

Vara təni yataq etdi,
Əzabına ortaq etdi,
Ağlı könlə otaq etdi,
Baş içində şiş tağ etdi,
Necə təndən can qopardı?
Gəldi, getdi nə apardı?

Hər insanı verən xaliq,
Hər bir şeyi görən xaliq,
Canı təndən dərən xaliq,
Adəm pərən-pərən, xaliq,
Vardı, yoldan çox sapardı…
Gəldi, getdi, nə apardı?

İnsan ömrü Rəbbə şərqi,
Canlılardan şüur fərqi,
Göz qamaşar etsə bərqi,
Nədir qəmə olmaq qərqi?
Ahlar uddu, qəm qopartdı,
Gəldi, getdi, nə apardı?

Ey Şadiman, can mübtəla,
Üzdü onu haqdan bəla,
Mən yandım, o yanmaz hala,
Tən üzülər gedər dala,
Hər misram qala yapardı…
Gəldi, getdi, nə apardı?

21. X11. 2002

ÖTƏN GÜNLƏR DÜŞMƏZ ƏLƏ

Ötdü ömrün bahar çağı,
Nə tez soldu gənclik bagı?
Yerə dəyməz vaxt ayağı,
Anlar uçdu döndü yelə,
Ötən günlər düşməz ələ.

Haylasan da səsin çatmaz,
Xatirələr başı qatmaz,
Bir hovur bu zaman yatmaz,
Yağar narın duman telə,
Ötən günlər düşməz ələ.

Ömür budaq üstə yarpaq,
Əzizləri alar torpaq,
Sinədən yol salar torpaq,
Haraylayar dilim elə,
Ötən günlər düşməz ələ.

Çiçək açar yuxularda,
Qızılgültək qoxularda,
Ayrılıq dağ qorxularda,
Dönər gözdə yaşım selə,
Ötən günlər düşməz ələ.

Uşaqlıqdan əsər qalmaz,
Cavanlıqdan kəsər qalmaz,
Bu yer kimi bağra salmaz?
Yaş üstə yaş gələr belə,
Ötən günlər düşməz ələ.

Əl uzatsan qaçıb gedər,
Ürəyə yol açıb gedər,
Elə tezkən uçub gedər,
Zaman keçər əldən-ələ,
Ötən günlər düşməz ələ.

Xoş saatlar anla gələr,
Qara xəbər qanla gələr,
Ayrılıq min canla gələr,
Haray düşər eldən-elə.
Ötən günlər düşməz ələ.

Ey Şadiman, yaş vüsətdi,
Zamanda bu nə surətdi?
Danılmayan həqiqətdi,
Gedən ömür dönmüb hələ…
Ötən günlər düşməz ələ.
4.X11. 2002

İTİRİRİK GÜNÜMÜZÜ ZƏRRƏ-ZƏRRƏ ƏLİMİZDƏN…

İtiririk günümüzü zərrə-zərrə əlimizdən,
Ağ cığırlar salır həyat bəyaz-bəyaz telimizdən.
Lap əzəldən qol çəkib Rəbb, bu cahanda zülümmüzə,
Cümə-cümə yol gedirik üzüqara ölümmüzə…
Rahat rəva bulmadı Haqq yaşamaq ünvanımızı,
Hər iki dünyada qurur Yaradan divanımızı.
Doğulandan xaliq verir necə olmaq əmrimizi?
Başımızın gücü ilə işlədirik ömrümüzü!
Kimi rahat həyatını yataqda yatmaqda görür?
Kimi qəbir evinədək kamala çatmaqda görür?
Kimi insan əzabıyla öz ürəyini kökləyir?
Dərdə-sərə batdıqca, o, dərdi-səri köpükləyir.
Vicdanın ağrısına baxan da var, baxmayanda,
Ağrılarla ürəyini yaxan da var, yaxmayanda.
İtiririk günümüzü diləklərə yetmək üçün,
Gecə-gündüz çalışırıq nəyi isə etmək üçün?
Könlümüzün məramları selləşdikcə şirləşirik,
Özümüzə vuruluruq, içimizdə pirləşirik.
Səhvimizi ağrımıza bələyirik uşaq kimi,
Sarılırıq vaxtımıza yeddi rəngli qurşaq kimi.
Axır gedir əlimizdən saatımız bir su təki,
Özümüzə yad baxırıq, özümüzə ası təki.
Bizi alıb ilimizdən ovsunlayır zamanımız,
İlahinin dərgahına əl uzadır imanımız…
İçimizi zindan edən günahlardan ötüşməkçin,
Yaradanın hüzuruna mələkanə yetişməkçin.
Könlümüzdə paslaşırıq günahlardan gilə-gilə.
Axır günə kim yetir ki, qəh-qəh ilə, gülə-gülə?
Doğulanda, öləndə də ağlayırıq bəxtimizə,
Tanrı əcəl toru salır bu beşgünlük təxtimizə.
Hər şeyin bir sonu təki insana da son yazılıb,
Can vücudun astarıdır, bədən cana don yazılıb.
Bu məramı duymayanlar dünyanı çox çaldı keçdi,
Cəhənnəmi öz əliylə o dünyayçın aldı keçdi.

İtiririk günümüzü, heç gəlməyir əlimizə,
Cümə-cümə yol gedirik, fələk yazan ölümmüzə…

26. X11. 2002

VİCDANLA İNSANIN MÜHAKİMƏSİ

Batırıb insanı qan dənizində,
Qanlarla cahanı boğdurdun, insan.
Hiylələr, fitnələr var bənizində,
Zülümü sabahlardan doğdurdun, insan.

Tamaha qul oldu ağılın hər an,
Sən mənim səsimə qulaq asmadın.
Zirvələr fövqünə çırpınarkən can,
Fənalıq etməkdən doyub susmadın.

Tutdu gözlərini hiylə dumanı,
Bəyaz ürəyini qaraya saldın.
Unutdun Allahı, dini, imanı,
Pisliyin artdıqca bundan kam aldın.

Yığdıqca sərvəti nəfisin artdı,
Şeytanın əlindən qaça bilmədin.
Yamanlıq eyləmək həvəsin artdı,
Şərdən qanad aldın uça bilmədin.

Fərmanlar çıxardıb, hökümlər verdin,
Varın çoxluğundan başın gicəldi.
Vicdanını dandın, haqqını gərdin,
Yıxıldın, varlığın səcdəyə gəldi.

Səni Yaradanı unutdun bir vaxt,
Sanma ciyərinə kədəri hava,
Duymadın bu ömür gəldi-gedərdi.
Bitdi sənə çatan o yazılmış vaxt…
Çatdı bu dünyanı tərk etmək dərdi.

O din kitabları haqqdan söylədi,
Dini adət təki ağla köçürtdün.
Tanrı üsyan etdi fəqan eylədi,
Allaha imanı nağla köçürtdün.

Rəbbin ayağına köçdün bir zaman,
Əzrayıl qapının ağzında durdu.
Sən sağkən, almadı bircə sirr zaman,
Özün ölərikən nəfsin qudurdu.

Elə iki əllə tutdun dünyanı,
Sanki əbədiydi ömrün ülfəti.
Buraxdın könülə şəri, riyanı,
Çəkdi ucbatından cahan xiffəti.

Şahanə dostluğu, sultan hörməti,
Mənə ürəklə yox dillə söylədin.
İblisin qoynunda yatdın xəlbəti,
Şərin tikanını gültək iylədin.

Sənə cəhənnəmi yad etdi Allah,
Etdiyin günahdan çəkinmək üçün.

Tutdu bu dünyanın ürəyini ah,
Bir an iftiradan doymadı için.

Mən sənin vicdanın ola-ola, sən,
İblisə könlündə saray ucaltdın.
Canını aldatdı o parlayan tən,
Ozünü cəhənnəm oduna atdın.

Susub dayanmısan qarşımda laltək,
Qürurun enməyir zirvədən yerə.
Dünya sarmaşıqdı, sənsə vüsaltək-
Hər kəsi torpağa çaxır bir kərə.

Özünə güclütək baxıb öyünmə,
Zərif meyvəsisən bu təbiətin.
Şeytanın göyündə çaxıb öyünmə,
Məni çox alçaldır bu itaətin.

Mən vicdan, sən isə bəlalı insan,
Özünü ciliddən-cilidə saldın.
Təndən qoparılıb ayrılanda can…
Tövbə qapısını kirayə aldın.

Bizim hər ikimiz Allahın qulu,
Mən sənə, sən mənə cavabdeh olduq.
İmandan çox sevdik şeytanı, pulu,
Günah eyləməkçin birgə doğulduq.

Mən də ağrılıyam, sən də ağrılı,
Ağrını çoxaldıb ikiyə böldük.
Gözümüzü tutan çən də ağrılı,
Bəlkə bu dərdlərin ahından öldük.

Mən vicdan, sən isə yağlanmış insan,
Meydan sulayırsan belədən-belə.
Ayıl, ey gözləri bağlanmış insan…
Ömrü günahlarla uçurma yelə.

2. 05. 2003

ÖMÜR DƏ BİR SİYASƏTDİ

Hamı qurur həyatını,
Çapır ömrün bəd atını,
Vaxtın zümrüd, zər qatını,
Açmayana zaman sərtdi,
Ömür də bir siyasətdi.

Cəhd eləyir insan qalxsın,
Əqli şimşək olub çaxsın,
Zirvələrə şöhrət taxsın,
Hər addımın önü sərtdi,
Ömür də bir siyasətdi.

Çalxalayır bizi dünya,
Ömürlərin özü röya,

Ağlımızın üzü xülya,
Doğulmaq Rəbbdən ne'mətdi,
Ömür də bir siyasətdi.

Fələk vermir cana aman,
Çaxır atdan yerə yaman,
Vicdan gəzir başda iman…
Düzü demək qəbahətdi,
Ömür də bir siyasətdi.

Ağlı olan özün tapır,
İdrakına qala yapır,
Könlə uyan yolun sapır,
Bu tamaha itaətdi,
Ömür də bir siyasətdi.

Kim çaşırsa öz yolundan,
Asır qandal, şər qolundan,
Haray qopur sağ-solundan,
Hər doğulan əmanətdi,
Ömür də bir siyasətdi.

Həyatını quranda düz,
El içində ağ olar üz,
Ya nahaqqı, ya haqqı üz,
Hər ikisi ibadətdi,
Ömür də bir siyasətdi.

Ara başı, tap qılığı,
Dəryaya gir, tut balığı,
Hesabında gör qalığı,
Bir neçə an səadətdi,
Ömür də bir siyasətdi.

Kimin ağlı çaşdı, öldü,
Həyat onu iki böldü,
Günlər qısa, zaman göldü,
Üzə bilsən, əymə qəddi,
Ömür də bir siyasətdi.

Ey Şadiman, vaxta nə var?
Yorulmadan səni qovar,
Anlarının burnun ovar,
Könlü elə satar-sovar,
Hər addımda gözlə həddi,
Ömürdə bir siyasətdi.

18. 05. 2003

HƏR ALIN YAZISI MİN AĞRI, ACI

Hər alın yazısı min ağrı, acı,
Dünya qəm çeşməsi içənlər bilir.
Hər başa qoyulmaz həyatın tacı,
Bu tacın yolunu keçənlər bilir.

Səadət insana verilir anla,
Ömür müvəqqəti - oynama canla,
Fələyin hökmünü ağılla anla,
Əzəl idrak yolun seçənlər bilir.

Dağıtma sağına, soluna vaxtı,
Salma şeytan qazan quyuya baxtı,
Çoxu günlərini əldən buraxdı…
Bunu öz zamanın biçənlər bilir.

Hərdən yörənə bax, gör nələr olur?
Haqqı ayaqlayan baş mələr olur,
Rəbbin ayağına can gələr olur,
Dunya ələyində tən ələr olur,
Ömrü boya kəfən biçənlər bilir.

Harayım üzülür canda ağıtək,
Heçnə qövr eləməz könül dağıtək,
Ömür şölə çəkir bəxt çırağıtək,
Asılıb sinədən ürək yağıtək,
Başlara ələnən sis-çənlər bilir.

Hər şeyin ağrısı başa köklənib,
İnsan qalmaqalda ürək təklənib,
Bədənin əməli Rəbbə görklənib,
Dünyadan gözü su içənlər bilir.

Şadiman, fələyin gücü qolunda,
Saralıb çiçəklər tale yolunda,
Həm olum, həm ölüm haqqın yolunda,
Bunu öz canından keçənlər bilir.

13. 05. 2003

UZANIB GEDİR YOLLAR

Uzanıb gedir yollar,
İzində talanı var.
Atını zaman çullar,
Yorulub qalanı var.

Qovlayar ömrümüzü,
Udar səs-səmrimizi,
Batırar əmrimizi,
Gör neçə dalanı var?

Yollarla başlar-həyat,
Gözləri yaşlar-həyat,
Çoxunu daşlar-həyat,
Saralıb-solanı var.

Yoxuşu diz qatladar,
Zamanı tez atladar,
Ürəkləri çatladar,
Saçını yolanı var.

Ömür yollar yorğunu,

Qurar cana qurğunu,
Rəbb eyləyər sorğunu,
Vaxtı çaş salanı var.
6. 03. 2003

CAN ÇƏKƏR CƏFA

Can çəkər cəfa,
Eyləyər vəfa.
Könlə yar olmaz,
Həyat bivəfa.

Ömür ötüşər,
Qəmlə qəlb şişər,
Bir gün son səfər-
Gəlib yetişər.

Saat tələsər,
Ürəyi əsər,
Fələk qapının
Ağzını kəsər.

Can tənə həlim,
Lap çəkər zülüm,
Onu ayırar
Bədəndən ölüm…
5. 03. 2003

SAAT ELƏ QURULUR

Saat elə qurulur,
Zamanların içində.
Axar sular durulur-
Dumanların içində.

Röyam gecədən qaçır,
Gəlib qapımı açır,
Ümidlərim nur saçır-
Gumanların içində.

Göz vurulur aləmə,
Söz yığışmır qələmə,
Ürək batıb naləmə-
Amanların içində.

Can Allahın baxşıdı,
Bu kainat naxşıdı,
Yaxşı elə yaxşıdı-
Yamanların içində.

Könül qəmdən dolmaya,
Xəzan alıb solmaya,
Şərə dəstək olmaya-
Fərmanların içində.

Layiq başa tac ola,

İmdadsıza bac ola,
Hər dərdə əlac ola-
Dərmanların içində.

Şərin köksü oyula,
Puldan, vardan doyula,
İnsan haqqı duyula-
Loğmanların içində.

Həsrət üzə gülməyə,
Hicran qəlbi bölməyə,
Heç bir sevda ölməyə-
Peymanların içində.

Ey Şadiman, haqq ulu,
Bəndə Allahın qulu,
Quru çıxmaz şər çulu-
İmanların içində.
13. 03. 2004

ÜRƏYİN KÖNLÜN ALAR TƏSADÜF

Ürəyin könlün alar təsadüf,
Ömrü səhmana salar təsadüf.

O çəkər bəxtə həyat yolunu,
Həm bağlar, həm də açar qolunu,
Bağçanda saraldar can kolunu,
Günlə xəyala dalar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Hər kəsə bəs eyləyər kitabı,
Günü ötürməyə çatar tabı,
Düşməyə əlindən haqq-hesabı,
Zamana mehman olar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Mələyər yolunda quzu kimi,
Üşüdər zirvənin buzu kimi,
Parlayar tale ulduzu kimi,
Asiman təki dolar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Deyirlər, fələk yazar yazını,
Eləyər hər addıma nazını,
Qırar istədikdə qəlb sazını,
Bizimlə saçın yolar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Elə nizamlayar o vaxtını,
Qurar izdə, cığırda taxtını,
Endirər və qaldırar baxtını,
Rəbbdən xoş günü çalar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Eşqi də, sevgi də bağlı ona,

Sənlə yetirər anı sona,
Girər lap taleyinlə min dona,
Qəmi könlündə talar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Bizi həm qəmə, həm dəmə atar,
Ürəyi küllü-aləmə atar,
Hər bəşərlə də günəşi batar,
Açılan gültək solar təsadüf,
Könlü səhmana salar təsadüf.

Bəndəni yaşadan öz ağlıdı,
Demə ki, haqq qapısı bağlıdı,
Bu dünya Yaradanın nağlıdı…
Göyünün ucu necə tağlıdı,
Könlü odlara qalar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Odu hər insana qıfıl, açar,
Mələkdi başımız üstə uçar,
Nəzərin ötürübsə yan qaçar,
Qapını şərə, xeyrə də açar,
Hər işdə sona qalar təsadüf,
Ömrü səhmana salar təsadüf.

Şadiman, bulma candan şəfanı,
Çəkdirər həyat sənə cəfanı,
Kimə altun eləyib vəfanı?
Canı taledən alar təsadüf,
Ömrü səhmana salar təsadüf.
4. 03. 2003

HƏR KƏSİN KÖNLÜNƏ BİR YAR OLSUN

Hər kəsin könlünə bir yar olsun,
Həsrətin hər günü ah-zar olsun,
Xeyrə açsın qapısın ürəklər,
Ömrünü pak yaşayan var olsun.
Kimsənin bəxtinə düşməsin dərd,
Ələmin qəm bacası dar olsun.
Hiylə ilə keçirən vaxtını,
Küllü-aləmdə görüm xar olsun.
Üzü gülsün bəşərin dünyada,
Hər zaman əqlində gülzar olsun.
Uymaya bir kimsə heç iblisə,
Şeytanın şər qulağı kar olsun.
Verməyə təb bada Şadimanı,
İlhamı hər tərəfə car olsun…
4. 03. 2003

ALIR QAÇIR ZAMANI

Zərrələrdən tam olur,
Hər ağrıdan dam olur,
Ömürdə az kam olur,
Kəsir fələk amanı,
Alır qaçır zamanı.

Dünyalar qəmə tuşdu,

Qəmi könlümə nuşdu,
İnsan köçəri quşdu,
Ömür tale dumanı,
Alır qaçır zamanı.

Ötür əcəlin yeli,
Qırır ürəkdə teli,
Gözdən axır qan seli,
Bilmir yaxşı, yamanı,
Alır qaçır zamanı.

Həyat bağçası çiçək,
Budağı ləçək-ləçək,
Kimiyə ömür göyçək,
Kimiyə ölüm gerçək,
Təzələyir ummanı,
Alır qaçır zamanı.

Dərya ümid leş olur,
Dünya keşməkeş olur,
Oynu da şeş-beş olur,
Sızlayır qəlb kamanı,
Alır qaçır zamanı.

Dərd önündə durarlar,
Başa, gözə vurarlar,
Yaradanı ararlar…
Kəsilər haqq gumanı,
Alır qaçır zamanı.

Bu dünya üzük qaşı,
Açılmayır heç başı,
Bəşərin can təlaşı,
Yox ölümün dərmanı,
Alır qaçır zamanı.

Baş bədənin qanandan,
Ürək vara yanandan,
Adəm haqqı danandan,
Qan-yaş tökür imanı,
Alır qaçır zamanı.

Ey Şadiman, sızlama,
Qəmində ayazlama,
Dərdi belə nazlama,
Fələyin pak fərmanı,
Alır qaçır zamanı.
19. 02. 2003

EY ZALIM ZAMAN

Ey zalım zaman,
Gəl etmə fəqan,
Ömrə nişandı -

Hər dəqiqə an.

Hara qaçırsan?
İşıq saçırsan,
Gah dərə, gah düz-
Yollar açırsan.

Qəm sol, sağında,
Həyat bağında,
Soldurma bizi -
Cavan çağında.

Ömür şirindi,
Vaxtı sirindi,
Dünya əzəldən-
Sənin dirindi.

Ey zalım zaman,
Anların dərman,
Rəbbin quluyuq-
Gətirək iman.

Ötər ömrümüz,
Gələr əmrimiz,
Can alar sahib-
Çıxmaz səmrimiz.

Şadiman nəçi?
Gəl yığma köçü,
İlhamı coşub-
Ağladır içi.
3. 03. 2003

ALLAH BİZİ YAMAN GÜNDƏN SAXLASIN

Yaxşılıqlar itdi getdi yel təki,
Pislik axır üstümüzdən sel təki,
Naqisliklər qazır könlü bel təki,
Qırılmasın bağlılıqlar tel təki,
Namərdlərin dər-divarı laxlasın,
Allah bizi yaman gündən saxlasın.

Gözümüzü islatmasın qəm yaşı,
Unutmasın ürəklər can sirdaşı,
Candan artıq sevsin qardaş-qardaşı,
Buraxmasın sinə qəlbə tələşı,
Rəbb hökmüylə iblis, şeytan yuxlasın,
Allah bizi yaman gündən saxlasın.

Eşqlə ötsün sevənlərin dilləri,
Köz alışsın sovsun göyə külləri,
Fələk bizə xoş gətirsin illəri,
Bağçamızda açsın sevda gülləri…
Tərəvətlə bülbül gülü qoxlasın,
Allah bizi yaman gündən saxlasın.

Üstümüzdən acı yellər sovuşsun,
El bir olub bir-birinə yovuşsun,
O tamarzı diləklərlə qovuşsun,
Şərin ağzı mərd əllərlə ovuşsun,
Xalq birləşib düşmənini oxlasın,
Allah bizi yaman gündən saxlasın.

Ömür Tanrı imtahanı, sınağı,
Adəm Rəbbin olmayaydı qınağı,
İslatmaya göz yaşları yanağı,
Bəni-bəşər bu dünyanın qonağı,
Hər qəlbi ağlı ilə yoxlasın,
Allah bizi yaman gündən saxlasın.

Ey Şadiman, ömrə etmə minnəti,
Vaxt var ikən ver ona sən zinəti,
Zaman salıb üstümüzə qənəti,
Zirvələrə yuva eylə sənəti,
Qoyma şəri, qapımızı haxlasın,
Allah bizi yaman gündən saxlasın.
16. 02. 2003

BU FƏLƏK NƏ YAMAN EV YIXAN İMİŞ...?

Bu fələk nə yaman ev yıxan imiş?
Bəşərə nə yaman kəm baxan imiş?
Sel təki, su təki gur axan imiş,
İnsanın barına od taxan imiş,
Qəlbləri ah etdi,
Özünü şah etdi.

Yetmədi kimsənin dadına heç vaxt,
Ağladı əlində bu binəva baxt,
Gah insan bədbəxtdi, gah da ki, xoşbaxt,
Qurubdu bizlərdən ucada o taxt,
Sübhü sabah etdi,
Özünü şah etdi.

Heç kəsin canına yarımadı ki,
De, kimi darıtək arımadı ki?
Qəlblərin yarasın sarımadı ki,
Bizimtək ömür edib qarımadı ki,
Bizlə günah etdi,
Özünü şah etdi.

Titrətdi məkirlə dirəyimizi,
Qəmbərdən çıxartdı çörəyimizi,
O bildi dünyaya gərəyimizi,
İşlətdi saattək ürəyimizi,
Cana ürcah etdi,
Özünü şah etdi.

Bizləri özündən əziz tutmadı,
Adəmin xəmrini təmiz tutmadı,
Bu insan övladın heç unutmadı,
Məzarda adəmlə birgə yatmadı,
Haqqı Allah etdi,
Özünü şah etdi.

Bu fələk batırdı əcdadımızı,
Ağlatdı sinədə fəryadımızı,
Eşidə bilmədi imdadımızı,
Ürəkdə nə qoydu muradımızı?
Nə səcdəgah etdi?
Özünü şah etdi.

Bir kimsə pozarmı Rəbb əmirini?
Yuğurub hər cana tən xəmirini,
Çıxarmır bu fələk səs-səmirini,
Yazanda insana haqq ömürünü-
İşi mübah etdi,
Özünü şah etdi.

Bitməyir, Şadiman, şikayətimiz,
Sığmayır kitaba hekayətimiz,
Ağlayır bu könül vilayətimiz,
Həm gündüz, həm gecə qəm şayətimiz,
Fələklə vuruşmaq şücaətimiz,
Vaxtı silah etdi,
Özünü şah etdi.

16. 02. 2003

ÖMÜR - BƏXTİN AYNASIDI

Ömür-bəxtin aynasıdı,
Gah ucalar, gah alçalar.
İnsanlığın sonasıdı,
Həm toy qurar, həm əl çalar.

Zirvələrdən enməyi var,
Həm alışıb sönməyi var,
Tanrısına dönməyi var,
Ucalığa qanad çalar.

Yolda izdə, kamı qalar,
Masa üstə şamı qalar,
Sonda uçuq damı qalar,
Xəyallara köçün salar,

Ömür-Tanrı yazan zaman,
Allahından dilər aman,
Dizi Haqqa çökən zaman…
Rəbb bədəndən canı alar.

O bizlərə qoyulan vaxt,
Enən, qalxan, ucalan taxt,
Qısa, uzun belədi baxt,
Hər nəyi var fələk talar?

Ömür-haqdan bir müddətdi,
Ucalığa səadətdi,

Rəbbimizə ibadətdi,
Vaxtı bitdi köçün qalar.

Müddətliyik biz dünyada,
Ey Şadiman, gətir yada,
Gəlməz ələ versən bada,
Əcəl gələr əldən çalar!…
14. 02. 2003

İNSAN ÖMRÜ DOLU BADƏ

İnsan ömrü dolu badə,
İçildi puç oldu getdi.
Kim qalır ki, bu dünyada?
Gələn saçın yoldu getdi.

İlahinin əmri belə,
Can bədənin dəmri belə,
Bu beşgünlük ömrü belə,
Xəzan vurdu, soldu getdi.

Həyat bizə xoş əzabdı,
Gah sevinc, gah iztirabdı,
Əldən ələ keçən qabdı,
Hey boşaldı, doldu getdi.

Onu yazan fələk şahdı,
Bəxtimizə padişahdı,
Yerə, göyə nur-Allahdı,
Hər insan bir yoldu, getdi.

Ey Şadiman, könül almaz,
Şəfəqlərin üzə salmaz,
Ömür keçər sənə qalmaz,
Demə, günün boldu getdi.
21. X11. 2002

BU TALE OYUNUNDA

Hər insan əlçimlənir,
Həyatın qoyununda.
Dərdi qəmdə çimlənir,
Bu tale oyununda.

Can diləyə atlanır,
Günümüz saatlanır,
Bel bükülür, qatlanır,
Bu tale oyununda.

Yıxılırıq, dururuq,
Bir-birini darırıq,
Ömrü başa vururuq,
Bu tale oyununda.

Fələk dizi qatlayır,

Əzrayılı atlayır,
Ürəyimiz partlayır,
Bu tale oyununda.

Ağlayır muradımız,
Boğulur fəryadımız,
Yaddan çıxır adımız,
Bu tale oyununda.

Can dirənər boğaza,
Haray dolar ağıza,
Ələ qalır dərd yaza,
Bu tale oyununda.

Ey Şadiman, bu nə qəm?
Dolur könlə dəmadəm,
Gözdə cilvələnir dəm,
Bu tale oyununda.

24. 04. 2002

TƏRK ELƏYİB BİZİ ELƏ GEDİRSƏN

Tərk eləyib bizi elə gedirsən,
Bilməyirsən zaman, məkan, ay ömür.
Əzizləri qara-böyür edirsən,
Verməyirsən cana imkan, ay ömür.

Nə yarımçıq qoydun arzu, muradı?
Eşitmədin dildən qopan fəryadı,
Sən bədənsiz, cansız etdin hər adı,
Batdın könlə acı tikan, ay ömür.

Boyunbağı oldun uçan zamana,
Heç gəlmədin bizlə dinə, imana,
Səbəb oldun canda aha, amana,
Tutmadın ki, əldə sükan, ay ömür.

Gözdən axan yaşımıza baxmadın,
Qocalmamış yaşımıza baxmadın,
Bu abadan başımıza baxmadın,
Harda qaldı nurlu zəkan, ay ömür.

Öyrənmədin yaratmağı, qurmağı,
Şərin köksün xəncər ilə vurmağı,
Vərdiş etdin yol üstündə durmağı,
Duymayırsan ədəb-ərkan, ay ömur.

Bədənlərin canda etdin yarasin,
Pozmaqdasan insanlığın sırasın,
Demədim ki, aç könlümün arasın,
Əzabından qur bir dükan, ay ömür.

Tez ayrılıb qopma belə canlardan,
Tik zamana saray ötən anlardan,
Məzarlara bulaq etmə qanlardan,
Öz dünyanda eylə təkan, ay ömür.

Yazıq bəşər səndə tapdı sevdasın,
Göstərirsən ona fələk ədasın,

Könüllərə vurdun hicran qadasın,
Heç olmadın ürək tikən, ay ömür.

Bu Şadiman təəccübdü işinə,
Bədənləri çəkdin o qurd dişinə,
Qonaq etdin bizləri biş-düşünə,
Boğazlarda qaldı tikən, ay ömür.

13. 02. 2003

ƏCƏL GƏLƏR – VERMƏZ MACAL

Əldə neçə işin qalar?
Kabab üstə şişin qalar,
Ocaqda biş-düşün qalar,
Ömür olar lap darmacal,
Əcəl gələr – verməz macal.

O tanıyar hər qapını,
Hər gün boya zər qapını,
Demə, tapdı şər qapını,
Harayınla haqqa ucal,
Əcəl gələr – verməz macal.

Bədənini ələkləyər,
Torpağıyla bələkləyər,
Can aldıqca ürəkləyər,
Qur taxtını, taxta tac al,
Əcəl gələr – verməz macal.

Ey Şadiman, haqqı tanı,
Odur verən sənə anı,
Tutar əldə şirin canı,
Saatına min bir bac al,
Əcəl gələr – verməz macal.

14. 02. 2003

DEYİRLƏR Kİ, ÖMÜR SUDU…

Deyirlər ki, ömür sudu,
Həm suya, həm selə dönər.
Qəlb ürəyin sinə odu,
Çıxar təndən yelə dönər.

Zaman iti bir röyadı,
İnsan haqdı, can xülyadı,
Könlü güdən hiss, həyadı,
Hey belədən-belə dönər.

Dilimizin özü dönük,
Həşir salan sözü dönük,
Tanrı sansa bizi dönük,
Bəşər solan külə dönər.

Nə ağlarıq, nə sızlarıq?
Su bulanar dayazlarıq,
Vaxt çatanda payızlarıq,

Ömür qırıq telə dönər.

Bizi-bizdən alan Rəbbdi,
Doğulmaq və ölmək dəbdi,
Zaman cana acı həbdi…
Təni bülbül edən təbdi,
Yanar canda külə dönər.

Şadimanı sanma zalım,
Əlindədi yazıq halım,
Haqdan bitməz bu vüsalım,
Nazildərsən tülə dönər.
14. 02. 2003

İNSAFSIZ FƏLƏYİN İŞİNƏ BİR BAX

İnsafsız fələyin işinə bir bax,
Oduna düşənə aman verməyir.
Allah, əzrayılın dişinə bir bax,
Tutdu ki, bir kəsə zaman verməyir.

Şimşəklər çaxnaşıb göyü ovanda,
Qatıb qabağına ərşi qovanda,
Buludun gözünü gurşad yuvanda,
Nə dağa, nə düzə duman verməyir?

Haqdan kəsiləndə düzün ayağı,
Qiymətdən düşən söz olur bayağı,
Bəlalı nədir ki, ömür sayağı?
Fələk hansı bəxtə yaman verməyir?

Dillərə sutunlu qovğadı yalan,
Ürək gah sərgardan, gah da ki, talan,
Bir-birin zülümə, ölümə salan,
Bilmirmi axıra yoxdu bir qalan?
Niyə Rəbb hamıya iman verməyir?

Şadiman, nə halət ürəkdə qəmlər?
Mənə hicran verdi bu gələn dəmlər,
Gözündə kipriyin hər biri nəmlər,
Kim deyir Rəbb dərdi umman verməyir.
17. X1. 2002

GÜN GƏLİR HƏR AN ÜSTÜNƏ

Gün gəlir hər an üstünə,
Anlar vaxtı dara çəkir,
Fələk qonur can üstünə,
Təndən onu hara çəkir?!

Rəbbə məxsus canın siri,
Bədəndəsə, bədən diri,
Günahların getməz kiri-
İblis qəlbi zora çəkir.

Bəşər əsir tamahına,
Zəhər qatır sabahına,
O binəva, Allahına-
Yara üstdən yara çəkir.

Bədənlərin qulu-ürək,
Ömürlərin pulu-ürək,
Qalmaz üzüsulu ürək-
Hər ahı bir yara çəkir.

Kainatda tay ararıq,
Bəxtimizə pay ararıq,
Sədamıza hay ararıq,
Ölümüzə vay ararıq…
Məzar təni bara çəkir.

Ey Şadiman, ötür saat,
Yaxşı-yaman budur həyat,
Baxış təzə, baxış boyat…
Əsəbləri tara çəkir.
3. 02. 2003

ZƏHƏR VAR ALTINDA YAĞLI DİLLƏRİN

Hər kəsin könlünü sanma cana yar,
Bağrının başını avarə qoyar.
Didər nizəsiylə, könlünü oyar,
Zənn etmə içdikcə qanını doyar,
Qorxusu çox olur əsən yellərin,
Zəhər var altında yağlı dillərin.

Üzünə güləndən qoru özünü,
Gecə alıb udar al gündüzünü,
Tufan ocağından udar közünü,
Aşikar eyləmə ürək sözünü,
Yağış aynasıdır axan sellərin,
Zəhər var altında yağlı dillərin.

Sənə can deyəndən canını həslə,
Düşmə ayağına elə həvəslə,
Zindan zindan olur, yalnız qəfəslə!
Hiylə ciyərinə girər nəfəslə,
Hər kəsə dinlətmə könül tellərin,
Zəhər var altında yağlı dillərin.

Hər ağrı-acının qəhəri olur,
Bal verən arının zəhəri olur,
Hər gələn bəlanın bəhəri olur,
Zamanın bəd çapan kəhəri olur,
Tanrı alır bir-bir ömrün illərin,
Zəhər var altında yağlı dillərin.

Bu canın o cana yolu olmayır,
Canın gizlənməyə kolu olmayır,
Hər dolan buluddan dolu olmayır,

Günahın imzası, qolu olmayır,
Məkri və zikiri çoxdu ellərin,
Zəhər var altında yağlı dillərin.

Çoxu öz canını bağlayar haqqa,
İman qul olubdu bəzən nahaqqa,
Dil fəryad qoparar bağırar haqqa,
Düzlük qiymə-qiymə, haqq şaqqa-şaqqa,
Fitnəsi mərd udur şər əməllərin,
Zəhər var altında yağlı dillərin.

İnsanın varlığı haqqın siridi,
Canı bədəninə parlaq dürüdü,
Hiyləsi, fitnəsi könül kiridi,
O da canlılardan vallah biridi,
Batırıb qanlara çoxdan əllərin,
Zəhər var altında yağlı dillərin.

Başına tumarı çəkəndən qorun,
Könlünün bağında səkəndən qorun,
Ora bir fidanı əkəndən qorun,
Acına göz yaşı tökəndən qorun,
Özülü boş olar bəd təməllərin,
Zəhər var altında yağlı dillərin.

Kül solub gedəndi, köz alışandı,
İnsan taleyiylə çox barışandı,
Ömür zamanıyla hey yarışandı,
Nahaqq, haqq, hər işə o qarışandı,
Fitnəsi dağ yıxar xoş könüllərin,
Zəhər var altında yağlı dillərin.

Bu həyat aləmi hər başa sınaq,
Çalış olmayasan sən ona qınaq,
Gəl can yuvamıza, Şadiman, qonaq,
Allah verən ömrü birlikdə yanaq,
Hər gələn tuşlayır gözə millərin,
Zəhər var altında yağlı dillərin.

6. 01. 2003

GÖZƏLDİR, EY İNSAN, BU HƏYATIMIZ

Gözəldir, ey insan, bu həyatımız,
Kaş sən gözəlliyə baxa biləydin.
Uçaydı xoş ana hər saatımız,
Kədərin ürəyin yaxa biləydin.

Düzlüyə köklənə ömürün yolu,
Tutub bağlamaya ələm əl-qolu,
Nəfsi edərək ağlın qulu,
Zirvədən-zirvəyə çıxa biləydin.

Çataydı günlərin ahına tabın,
Dolub-daşmayaydı o tale qabın,
Qalaydı ayağın altda əzabın,
Kədərin sinəsin yaxa biləydin.

Coşaydı, ey insan, saf diləklərin,
Sevdası olaydı pak ürəklərin,

Kaş titrəməyəydi can dirəklərin,
Nəş'ənin əlini sıxa biləydin.

Heç vurulmayaydın şərə, pisliyə,
Qapın bağlanaydı hər xəbisliyə,
İçinin diləyi feli həsliyə,
Hamıya bir gözlə baxa biləydin,

Zaman surətində ömür bir andı,
Allahdan əmanət bizə bu candı,
Ürəyin yar edə dilinə andı,
Könlünə ədalət taxa biləydin.

Tale tələs deyir nə qulağına?
Anların keşikdə o sağ-soluna,
Əbədi dünyanın saf bulağına,
İncə duyğularla axa biləydin,

Başından ataydı vəhşi savaşı,
Dərya olmayaydı qəlbinin yaşı,
Çiçəyə tutaydın torpağı, daşı,
Bütün sərhədləri yıxa biləydin.

9. 01. 2003

HƏR ADƏM ÖVLADI İNSAN OLMAZ

Elə dərdə düşənə qəm oldu,
Göz görən zülümlərə nəm oldu,
Yel təki ötüb keçən dəm oldu,
Dünyanın işləri asan olmaz,
Hər adəm övladı insan olmaz.

Hay salıb etmə qəlblə nifaqı,
Dağılar hər bədənin tifaqı,
Qura bilsən əgər ittifaqı,
Ürəyin ağrıya şan-şan olmaz,
Hər adəm övladı insan olmaz.

Nə qədər baş əhli zaya gedər?
Özünü dağ bilib haya gedər,
Əqli zora atar, vaya gedər,
Baxanlar hali - pərişan olmaz,
Hər adəm övladı insan olmaz.

Demə, təb könülə güzar etdi,
Sinənin bağını gülzar etdi,
Göy üzü durub elə zor etdi,
Buludlar coşmasa leysan olmaz,
Hər adəm övladı insan olmaz.

Çox ağıl sahibini boş gördük,
Ürəyinin yerinə daş gördük,
Çox gözü dərd içində yaş gördük,
Hər kəsə layiqli ad-san olmaz,
Hər adəm övladı insan olmaz.

Yıxılana da çalarlar balta,
Etməyəsən çalış ömrə xəta,

Et bunu gəl, bəşər, əqlə əta,
Hər verilən təam ehsan olmaz,
Hər adəm övladı insan olmaz.

Niyə könlüm qəmə naçar oldu?
Dərd salan qıfıla açar oldu,
Əzaba günbəgün düçar oldu,
Zamandan qopmasa heç an olmaz,
Hər adəm övladı insan olmaz.

Kəsilib mədələrin amanı,
Toxların aclara yox imanı,
Bəs haçan gələcək haqq zamanı?
Çox "mənəm" deyəndən vicdan olmaz,
Hər adəm övladı insan olmaz.

Mən çəkən dərdi kimsə çəkmədi,
Mən tökən yaşı fələk tökmədi,
Tale bağımı niyə əkmədi?
Eləsə rəhmini ki, qan olmaz,
Hər adəm övladı insan olmaz.

Şadiman, bəşəri həyan bildim,
Dərdini könlümə əyan bildim,
Bəndəni sərvətə uyan bildim,
Bu qədər dərdə dözən can olmaz?
Hər adəm övladı insan olmaz.

6. X. 2002

KÖNLÜ BİHUŞ EDİR CAN MEYİM TƏKİ

Masamın üstündə ağappaq çiçək,
Ağlayır sinəmdə gileyim təki,
Yarpağı bağlayıb bir yaşıl ləçək,
Utanır özündən taleyim təki.

Əyibdi başını güldanın üstə,
Bu əsir bəxtimdən olubdu xəstə,
Nəsə pıçıldayır mənə ahəstə,
Sanki şərqi çalır qəlb neyim təki.

Masamın üstündən boylanıb baxır,
Alışan könlümü atəşə yaxır,
Dəli ilğımları canıma axır,
Tükənib qərarı bu heyim təki.

Onun seyrangahı ətirli bağdı,
Kolundan qopmağı köksünə dağdı,
Qədəhə tökülən şərabtək ağdı,
Könlü bihuş edir can meyim təki.

30. 03. 2003

HARDAN GƏLİR, HARA GEDİR?

Ömür keçir duyğu kimi,
Gözü almış uyğu kimi,
Cana hopmuş qayğı kimi,
İlə, günə sayğı kimi,
Yarısı ah - zara gedir,
Hardan gəlir, hara gedir?

Dilәkləri çapar keçər,
Ürəkləri tapar keçər,
Gah yolundan sapar keçər,
Gah da haqqı qapar keçər,
Dardan çıxıb, dara gedir,
Hardan gəlir, hara gedir?

Ömür bəxtin sonasıdı,
İnsanlığın anasıdı,
Rəbb teştində yanasıdı,
Öz haqqını qanasıdı,
Bir üzündə qara gedir,
Hardan gəlir, hara gedir?

Coşar dəli sellər təki,
Ərşə qalxar yellər təki,
Gah uzanar dillər təki,
Gah qırılar tellər təki,
Sinəsində yara gedir,
Hardan gəlir, hara gedir?

Ömür cana bayraq olar,
Vaxtımıza varaq olar,
İlə, günə çıraq olar,
Bəxtimizə soraq olar,
Bulmaq üçün çara gedir?
Hardan gəlir, hara gedir?

Dağa-daşa səsi düşər,
Ona əsir olub bəşər,
Nə xeyirdi, nə də ki, şər,
Təni qoyar qəbrə qənşər…
Yaxıb haqqa qara gedir,
Hardan gəlir, hara gedir?

Bilmək olmur sonu nə vaxt?
Haçan solar bu yazıq baxt?
Əlində qul olubdu vaxt,
Qurub elə könüldə taxt,
Çox etdiyi xara gedir,
Hardan gəlir, hara gedir?

Ömür canın yüyrəyidi,
O bəşərin gərəyidi,
İnsanlığın ürəyidi,
Bu dünyanın dirəyidi,
Əkdiyi də bara gedir,
Hardan gəlir, hara gedir?

Hər bədənə varıb keçər,
Haqqı dişə vurub keçər,
Fələklə tən durub keçər,

Bəşərə vay qurub keçər,

Yığdıqları vara gedir,
Hardan gəlir, hara gedir?

Zaman düşə o atından,
İnsan doymaz həyatından,
Qurduğu bu büsatından,
Allahın nur saatından,
Günlərini, ara gedir,
Hardan gəlir, hara gedir?

Ömür Rəbdən könlə yuxu,
Haqdan gələn gülab qoxu,
Ölümüylə cana qorxu,
Məzarlarda tənin çoxu…
Gələnlər də ora gedir…
Hardan gəlib, hara gedir?

Nə hikmətdi, bilməm, səndə?
Can güdürsən quru təndə,
Sünbülünün gözü dəndə,
Qamışın bənd olub qəndə,
Hər dəmi min zora gedir,
Hardan gəlib, hara gedir?

Bizdən əvvəl gələn soldu,
Anlarında gün doğuldu,
Can bəşərə bir noğuldu,
Haqq dünyaya gedən yoldu,
Ağlı yora-yora gedir,
Hardan gəlib, hara gedir?

Ey Şadiman, etmə qüssə,
Könül yanar hissə-hissə,
Batıb dünya haqqı sisə-
Nə etsə də fələk pisə?
Ömür candan zara gedir,
Hardan gəlib, hara gedir?
30. X1. 2002

İNSAN DA CANLIDI, HEYVAN DA CANLI

İnsan da canlıdı, heyvan da canlı,
Onları qüdrətli Tanrı yaratdı.
İnsan da qanlıdı, heyvan da qanlı,
Allah hər ikisin dünyaya atdı.

İlahi adamı yaradan zaman,
Başına şüuru ərmağan etdi.
Həm güc verdi ona, həm də ki, iman,
Bəşər ağılıyla çox şeyə yetdi.

Heç nədə heyvandan fərqlənmir insan,
Əgər şüurunun qulu olmasa.
Didmək, parçalamaq, öldürmək asan,
Rəbbinin qoyduğu yolu olmasa.

O kəs ki, qan tökür günaha batır,
Demək, insanlığa od qalayıbdı.
Hər canlı nəfsində vəhşilik yatır,
Qan töküb özünü qalib sayıbdı.

Ağılı bəndəyə verdi ki, Allah,
Onu yaradanı anlasın, qansın.
Etdiyi xətalar sayıldı günah,
Atılan addımın sonrasın ansın.

Heyvan xislətlilər çoxdu dünyada,
Elə heyvan təki yeyib içirlər.
Bir an gətirmirlər Tanrını yada,
Haqqı ayaqlayıb, haqqı biçirlər.

Vəhşitək baxırlar onlar həyata,
Öldürüb yıxmaqdır yalnız xülyası,
Tökürlər bolluca qanlar həyata,
Şüuru olmayanın varmı həyası?

Heyvan öz ovunun üstə atılar,
Acından qurtulmaq, yaşamaq üçün.
Ağlı olmayanlar nəfsə satılar,
Allah bəndəsiyçin deyil bu biçin.

Rəbbini dananlar adammı məgər?
Onlar təbiətcə heyvanın özü.
İnsanı gəzdirən şüursa əgər,
Demək, yaşadacaq bəşəri gözü.

Ağlı itirənə dəli deyirlər,
Ona qan tökmək də cəza sayılmaz.
O yüksək idrakdan gəlir xeyirlər,
Yoxsa, bu bəndələr şərdən ayılmaz.

Onu yaradanı unutsa bəşər,
Ağlı, düşüncəsi yoxa çıxacaq.
Aləmi udacaq ölüm, qırğın, şər,
Dünyanın fırlanan oxu çıxacaq…

İdrakı başında qorusa insan,
Demək, Allahına yolu var hələ.
Şadiman, şüurun deyildir leysan,
Onu sovurma gəl belədən-belə.

20. X11. 2002

DİLƏKLƏRİM DİL AÇIR

Diləklərim dil açır - ürəkdə pərvazlanır,
Duyğumu oda yaxır atəşdə avazlanır,
Bu hikmətə vurulan ağlım, hissim nazlanır,
Əsir olub qalıram haqqın təbiətinə,
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

Üzülən xəyallarım baş qoyub köksə yatır,
Zülmətlərin içindən çıxan ulduzum batır…
Qırılan ümidlərim sinəmdə əl-qol atır,
Vurulur uyğularım gecənin surətinə,
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

Bu sadəlövh ürəyim çırpınır ah içində,
Vaxtımız rövqələnir səvab-günah içində,
Həyatın ətri gəlir açan sabah içində,
Bilmədən qoşuluram anların sürətinə,
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

Hər axşamın içində duyğulu bir an gəlir,
Qəlbi alıb aparan nə sevgili can gəlir?
Ürəyimi qoparan fələkdən ünvan gəlir,
Mən qul olub qalıram gecəmin adətinə,
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

Yeri,göyü titrədir könlümün əndişəsi,
Açır qapısın ərşə sinəmin can guşəsi,
Sınır ahdan, tökülür ümidimin şüşəsi,
Gözlərim qan-yaş tökür qəlbimin möhnətinə,
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

Bir sevgili Allahım, bir canımın yuvası,
Dilimin gecə-gündüz bitməyir haqq duvası,
Yenə dolur başıma təbin dəli havası,
Könlüm uçur bir eşqin gizli məhəbbətinə…
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

Qəlbimin otağında çırpınıram qalıram,
Qapılıram özümə diləkdə köç salıram,
Aləmlərin içində bir aləm ucalıram,
Əllərimi açıram Tanrı itaətinə,
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

Ey Şadiman, təbiət sirrin bizə açmayır,
Bəndənin qarşısından heç bir zaman qaçmayır,
Şükür olsun Xilqətə, zəka başdan uçmayır…
Bəşər tay ola bilməz Yaradan hikmətinə!
Dəmlərim səcdə edir zamanın qüdrətinə.

23 / 24. 02. 2004

İNSAN ZƏKASINDA İFFƏT OLMAYIR

Hər gün at oynadır fitnə, fe'l, şər,
Adamda bir cürə sifət olmayır.
Nədəndir hiyləyə qurşanıb bəşər?
İnsanlar içində ülfət olmayır.

Heç qiymət verilmir yaxşı başlara,
Dünya ürcah olub qəlbi daşlara,
Ağrılar bulaqdı gözdə yaşlara,
Niyə nadanlara nifrət olmayır? !

Pislər yaxşıları üyür dən kimi,
Asılıb naqislik candan tən kimi,
Bürüyüb gözləri hiddət çən kimi,

Başdan doğan fikir afət olmayır.

Bu minval ilə biz hara gedirik?
Ayağmız gəzəndən pislik edirik,
Bir-birin quduztək qəlbdən didirik,
İnsan zəkasında iffət olmayır.

Şadiman, əzabdan titrəyir sinə,
Dərd pilləkan qoyub qalxıb köksünə,
Hər doğulan çıxır haqqın əksinə…
Bu bəni-bəşərdə riffət olmayır.

1.05.2004

EY CANI VƏ RUHU, ÜRƏYİ ŞƏFA

Ey canı və ruhu, ürəyi şəfa,
Sənə pislik edən günaha batır.
İnsan şüurunda axtarma vəfa,
Nə qədər axtarsan qəlb aha batır?

Könlünün əzabı üzündə gəzir,
Zəkanı eyləmə nadana nəzir,
Qibləsin bilməyən, ehkamı əzir!
Gecədən qopan ox sabaha batır.

Ağlı dayazlara məlhəm tapılmır,
Fitnənin qayası, dağı çapılmır,
Fənalıq yolundan bir an sapılmır,
Sinənin fəryadı dərgaha batır.

Qurşanma dünyanın dərdi-sərinə,
Bir az dəlilik qat ağlın yerinə,
Qapılma özünə, enmə dərinə,
Beyni mələkələr gah-gaha batır.

Bax bu Şadimana bir ibrət eylə,
Gəl üzdən getməyi sən adət eylə,
Yalnız öz könlünə ibadət eylə,
Dərrakə yiyəsi hərgaha batır.

1. 05. 2004

AÇ KÖNÜL QAPISIN, ORDA ŞAM EDİM

Mənim ucbatımdan çəkirsən bəla,
Bilməm bu bəlanı necə ram edim?
Dözə bilməyirəm düşdüyün hala,
Dərdinin içində necə kam edim?

Ey ürəyi pakım, qəlbini qoru,
Fələyin dişində zalımın toru,
İlahi sevməyir fitnəni, zoru,
Söylə fənalığı nə ehkam edim?

Gözünün niskili qəlbimi dəlir,
Sinəmdən zülümə fəryad yüksəlir,
Çəkdiyin ağrıdan mənə ah gəlir,
Yığım bu dərdləri harda tam edim?

İkiayaqlıdan, de, hara qaçım?

Quş olub göyünmü tərkinə uçum?
Meşədə, qayada bir yuva açım,
Arayım kahanı cana dam edim.

Ey ürək sultanım, qoru özünü,
Yanan ocağıma ələ közünü,
Rəbb özü qatlayar şərin dizini…
Aç könlün qapısın orda şam edim.

2. 05.2004

EY YAŞANAN ÖMÜRLƏR

Ey yaşanan ömürlər,
Həyat sabahdan gəlir.
Yaradanın əmirlər…
Əcəl Allahdan gəlir.

Xeyirlə şər döyüşür,
Çox insan şərə düşür,
Bədənlərdə can üşür,
Ağrılar ahdan gəlir.

Yoxdu həqiqət yerdə,
Dözürük gələn dərdə,
Şeytan Rəbbdi namərdə,
Pislik günahdan gəlir.

Duyğuda duyğu yaşar,
Hər canda aşıb-daşar,
Bağır yanar, qan coşar,
Can qibləgahdan gəlir.

Haqqa iman edənlər,
Eşqlə peyman edənlər,
İblisə man edənlər,
Haqq səcdəgahdan gəlir.

Könlü qəm tutub damlar,
Şadiman, nədə kamlar?
Ey kitabsız adamlar,
Şübhə gah-gahdan gəlir.

13.03.2004

İNSAN DOĞULANIN QƏLBİ DAŞ OLMAZ

Əgər bir-birini duyarsa bəşər,
Gözlərdə kədərdən qanlı yaş olmaz.
Ağıla, şüura yol tapmasa şər,
Yamanlıq xeyirdən qəlbdə baş olmaz.

Ömür oxdan çıxan bir yaya bənzər,
Zaman sürətiylə eyləsən nəzər,
Dünya nərd taxtası, hər gələnsə zər,
Bəndə haqqı tutsa yolu çaş olmaz.

Hiylələr, fitnələr ərzi tutmasa,

Adəm öz könlünü şərə atmasa
Zülmət sükunətin qəlbə çatmasa,
Sabahın gözündə bu təlaş olmaz.

Yamanlıq, fənalıq nəfisdən gəlir,
Pisliklər tamaha hərisdən gəlir,
Bəla Allahdan yox iblisdən gəlir!
Nöqsanlar - ürəyi xəbisdən gəlir,
İnsan doğulanın qəlbi daş olmaz.
3. 05.2004

EY KÖNÜL SULTANIM, EY ÜRƏK ODUM

Əsdir varlığımda qopsun fırtına,
Qoy alsın tufanlar məni sırtına,
Vursun qamçısını həyat atına,
Yenə çalxalanır içdə fəryadım,
Ey könül sultanım, ey ürək odum.

Məni bu ilhamım canbəsər edir,
Ruhum qopur təndən göylərə gedir,
Qəlbdə tələtümə gələn bəs nədir?…
Niyə dərk etməyir yaxınım, yadım?
Ey könül sultanım, ey ürək odum.

Ağrıda, acıda hikmət görürəm,
Zəkanın içində nemət görürəm,
Can təndən çıxanda qamət görürəm,
Yetişmir kimsəyə hönkürən dadım,
Ey könül sultanım, ey ürək odum.

Çırpınıb qalıram fəqan içində,
Min bir hıçqırtı var hər an içində,
Bədənim ovunmur bu can içində,
Duyğusuz kəslərə çatmır imdadım,
Ey könül sultanım,ey ürək odum.

Demə Şadimanı dərdə xar oldu,
Dilindən kükrəyən bir ah-zar oldu,
Canım ağılıma haqdan yar oldu,
Odur ki, təbimin dilində adım,
Ey könül sultanım,ey ürək odum.
2. 04. 2004

SƏN EY TUFAN MƏHƏBBƏTİM

Sən ey tufan məhəbbətim , küləklərtək əs könlümdə,
Qəmin ağrı-acısının telini tap, kəs könlümdə,
Səmalarda buluda dön, yağdır göydən yağışları,
Sinəmdəki əzabların ilmələnsin naxışları.
Dincliyimə həsrət qalsın həyatıma gələn anlar,
Qoy bitməsin sinəmdəki hicran dolu bu divanlar.
Ürəyimi çalxat seltək, dağa-daşa vursun özün,
Kül altında sovur göyə kirin - kirin yansın közün.
Sən ey tufan məhəbbətim, gözlərimdə yaşı sellət,
Buludlartək dolan könlü qoy üzməsin acı illət.
Zərrə-zərrə, hissə-hissə ağrılarım havalansın,
Dodağımdan qopan səda fələklərə duvalansın.
Şimşəklərtək atəşləri töküm yerin bağırına,

Sən ey tufan məhəbbətim, qoy əriyim ağırına.
Bu ağrıyan ürəyimin şəfasına dəva umma,
Mən çəkdiyim əzabları bir kimsəyə rəva umma.
Başda əsən ağılımı göy üzündə quşa döndər,
Sinəmdəki qorxuları lal sükutlu daşa döndər.
Duyğulansın saatlarım, sellər təki aşıb daşsın,
Hissim qonsun sıldırıma qartallartək zirvə aşsın.
Bu hönkürən xiffətimə toxunmasın soyuq baxış,
Toxunarsa, gətirəcək sabahıma boranlı qış.
Sən ey tufan məhəbbətim, Allahıma iman elə,
Yerdən, göydən küsən cana təbib olub dərman elə.
Əzablardan qurtularaq fələklərtək ucalaşım,
Əl götürüm bu dünyadan əbədilik vidalaşım.

29. 02. 2004

YENƏ DUYĞULARIM KÖPÜRÜR DAŞIR

Yenə duyğularım köpürür daşır,
Dəli sellər təki ünvan görməmiş.
Ürəyim ah çəkir, dilim dolaşır,
Körpə uşaq kimi divan görməmiş…

Ağlım ürəyimə duvalı qalıb,
Çılğın saatlarım havalı qalıb,
Ömrüm zamanıma davalı qalıb,
Sırası pozulub karvan görməmiş.

Hicranım dəmbədəm durur qəsdimə,
Başıma od tökür, baxır tüstümə,
Səf çəkir xəyallar gəlir üstümə,
İtirib yolları sarvan görməmiş.

Can məndən qopduqca tən alovlanır,
Ağılım, şüurum, hissim qovlanır,
Ürək aha düşür, sinəm lovlanır,
Hökümsüz, fərmansız divan görməmiş.

İtmiş dəmlərimi mən necə tapım?
Yavaş çək qırılar, can, könül sapım,
Boşluğa açılır bu ömür qapım,
Evi bərbad olub eyvan görməmiş.

Şadiman dərində aradı qatı,
Çapdı yoxuşları taleyin atı,
Gah qəmdə, gah dəmdə qovdu həyatı,
Öldü tox anları yavan görməmiş…

26. 02.2004

KÖNLÜM QUŞU UÇUB YENƏ HAVAYA

Könlüm quşu uçub yenə havaya,
Titrəməyir dildən qopan duvaya,
Amadədi duyğularla davaya,
Qayıtmayır nə zamandı yuvaya,
Hay salıram harayıma gəlməyir,
Onsuz nələr çəkdiyimi bilməyir?

Buludlartək ağlaşaram dinməz ki,
Uçub-gedib qəfəsinə dönməz ki,

Qanad çalır göydən yerə enməz ki,
Kainatın bağırından yenməz ki,
Ayrılığın ürəyini dəlməyir,
Onsuz nələr çəkdiyimi bilməyir?

Göy içində süzür hicran oxutək,
Gecələrə gəlir qonur yuxutək,
Qeyb olmağı alır ruhu qorxutək,
Bürüyəndə sübhü şəbnəm yuxutək,
Can ayrılıb yazıq tənim ölməyir,
Onsuz nələr çəkdiyimi bilməyir.

Könlüm quşu havalanıb süzəndə,
Ürəyimi acıları üzəndə,
Qəm içində zamanlarım üzəndə,
Səhər-axaşam gözüm onu gəzəndə,
Həsrət yaşın bəbəyimdən silməyir,
Onsuz nələr çəkdiyimi bilməyir.

30. X. 2003

MƏNİM DUYĞULARIM DAĞ ŞƏLALƏSİ

Mənim duyğularım dağ şəlaləsi,
Zirvədən dərəni qucmağı bilir.
Titrəyən çöllərin incə laləsi,
Şəbnəmin bağrında açmağı bilir.

Zərif hıçqırtısı bağrımı əzir,
Göllərin içində sonadır üzür,
Qartaltək qayalar başında gəzir,
Uçrumdan uçruma uçmağı bilir.

Mənim duyğularım qəfəsinə dar,
Sükuta qeyb olmaq həvəsinə dar,
Dünyanın havası nəfəsinə dar,
Qəlbdən səmalara qaçmağı bilir.

Hey könül odlayır, hey sinə yaxır,
Dəli sellər təki nə coşqun axır?
Köksümdən ayrılıb könlümə baxır,
Günəşdək göylərdə saçmağı bilir.

Mənim duyğularım candan boylanır,
Ağlımın başına yertək haylanır,
Gah sevincə batır, gah da vaylanır,
Haqqın qapısını açmağı bilir.

16. 01. 2004

NƏ ŞÖ'LƏLƏR SAÇDIN YENƏ ?

Sən ey könlüm, alovlartək nə şö'lələr saçdın yenə?
Vulkan təki atəşini göyə, yerə açdın yenə.
Şimşəklərtək səmaların sinəsində qəh-qəh çəkdin,

Buludlartək gözlərinin acısını yerə tökdün.
Hicranın fərağından hissə-hissə qanım dondu,
Sən talandın ayazlarda, mənim can ünvanım dondu.
Sən ey könlüm, nə vəhdətdi səni qəmlə ulaşdıran,
Ağrılara, acılara zamanımı bulaşdıran,
Xiffətimin fəqanımı xəzan edən sabahımı?
Nə boğacaq dərya təki köpüklənən qəlb ahımı?
Qətrə-qətrə əzabımdan çeşmələrin gözü daşdı,
Sən ey könlüm, gözlərini suvaşdıran bu nə yaşdı?
Üzü gülməz dəmlərimin avazının bəmisənmi?
Fırtınalı dəryalarda yolun azmış gəmisənmi?
Ləngərlənə-ləngərlənə sahillərə sapılırsan,
Çılğın dalğa çırpır səni gur sulara qapılırsan.
Vurnuxursan dəli təki, xilasına çarə hanı?
Zaman sənə baha satır saatından doğan anı.
Sən ey könlüm, ağrıların olmayanda zar olmuşam,
Kim bilir ki, bəlkə elə mən ağrıdan var olmuşam?

28. 02. 2004

HƏYAT SINAQDI

Təzə il, təzə il – zaman gəlişi,
Qovuşdur əlimə titrək əlini.
Ömrün gah enişi, gah yüksəlişi,
Haqqa bayraq elə hər əməlini,
Düzlüklə, saflıqla qur təməlini,
Ötsün qadamız,
Coşsun sevdamız.

Təzə il, təzə il – qədəmi sərdin,
Yenə köhnə ilin qolların gərdin,
Ömür bağçasından bir il də dərdin…
Yolun zindana sal kədərin, dərdin,
Gülsün çağımız,
Xoş növrağımız.

Təzə il, təzə il – həyat işığı,
Şadlıq evimizin can yaraşığı,
Məhəbbət dünyanın qəlb sarmaşığı,
Olsun beyinimiz Tanrı aşığı,

Ötsün ağımız,
Ömür tağımız.

Təzə il, təzə il – şər qovalansın,
Millətin könlündə cəng havalansın,
Dildə Rəbb sevgisi bir duvalansın,
Qanda Vətən eşqi qoy yuvalansın,
Yağının şər gözü pis ovalansın,
Coşsun bağır, tən,
Əsirdi Vətən…

Təzə il, təzə il – bizə nur gətir,
Könlü diləklərə, amala yetir,

İnsan zəkasında ədalət bitir,
Dünyadan pisliyi əbədi itir!
Ömür imtahan,
Şirindi cahan.

Təzə il, təzə il – Şuşa qan ağlar,
Yanıb külə dönüb bağçalar, bağlar,
Ötüşür ilbəil ayamlar, çağlar,
Qarabağın qəlbi sağalmaz dağlar…
Qalxsın ordumuz,
Əsir yurdumuz.
Təzə il, təzə il – ver izzətini,
Yolla ömrümüzə səadətini,
Görək göz dolusu sədaqətini,
Candan əsirgəmə ədalətini,
Göstər Rəbbimizə itaətini,
Bitsin qəmimiz,
Gözdə nəmimiz.

Təzə il, təzə il – sülhə açar ol,
Bəxtiyarlığınla ələmə car ol,
Bağlı qapıları haqla açar ol,
Zəncirlə, buxovla bağlanmasın qol,
Pisliyi endir,
Yurdu sevindir.

Təzə il, təzə il – ürəyim əsir,
Nazlı gəlişinə yenə tələsir,
Eyləmə nəş'əni, sevinci əsir,
Gəl, könül evində tik uca qəsir,
Kədər yad olsun,
Aləm şad olsun.

Təzə il, təzə il Şadiman naşı,
Dərddən tökür içə qəbi yaşı,
Ömür anlarının – vəfa yoldaşı,
Apar həyatımdan, gəl, bu tələşi!
Həyat sınaqdı,
İnsan qonaqdı…
1. 01. 2004

FƏLƏK , NİYƏ ÜZÜN DÖNDÜ ?

Fələk, niyə üzün döndü?
Məni yada salmadın heç.
Çox ağladım, çox sızladım,
Ürəyimi almadın heç.

Göyə çıxdı hər gün ahım,
Qəmlə doğdu lap sabahım,
Səni sandım qibləgahım,
Bir hayıma qalmadın heç.

Səbir kasam daşdı getdi,
Üstümdən dərd aşdı getdi,
Ömür də bir yaşdı getdi…
Qismət kamın almadım heç.

Həyat parlaq bir aynadı,

Ürək yandı, qəlb qaynadı,
İlham gəldi, qəlb oynadı,
Tellərini çalmadın heç.

Şadimana bu nə sitəm?
Tutub könlüm qəmə matəm,
İstədim ki, sənə yetəm,
Qəmdən dala qalmadın heç.
17. 04. 2004

MƏNİM ÜRƏYİMDƏ YATAN DUYĞULAR

Mənim ürəyimdə yatan duyğular,
Ayılıb qalxanda dövran edirsiz.
Uçuşur mələktək gözdə uyğular,
Sinəmin telində cövlan edirsiz.

Gələndə hövlanak ilhamın dəmi,
Gah zili gəzirsiz, gah da ki, bəmi,
Elə odlayırsız küllü-aləmi,
Yandırıb atəşdə viran edirsiz.

Ya bulud içində yağış gəzəndə,
Ya incə sevdalı baxış gəzəndə,
Ya coşan ürəyə naxış gəzəndə,
Könüldən xəbərsiz peyman edirsiz.

Niyə heç bitməyir hicran davası?
Məni dəli edir təbin havası,
Açılır qapımın haqqa yuvası,
Allaha, Tanrıya iman edirsiz.

Duyğular, bu necə divanəlikdi?
İlhamın şamına pərvanəlikdi?
Biçarə könüllə mehmanəlikdi?
Sinəmin ahından dərman edirsiz.

Könlün bir Tanrısı, bir Allahı var,
Hər zülmət gecənin ağ sabahı var,
Şadiman tifilin nə günahı var?
Onun ürəyinə fərman edirsiz.
20. 02. 2004

EY QANADLI ÜRƏK

Ey qanadlı ürək, havalanırsan,
Coşur duyğuların duvalanırsan,
Ocağın alışır ovalanırsan,
Ağrıya, acıya yuvalanırsan,
Yuvan uçmasın,
Təbin qaçmasın.

Sinəmin içində çırpınma quştək,
Gətirmə boranı evimə qıştək,
Həyat qapısından asılma daştək,

Boğma istəyimi dəryada yaştək,
Ələm saçmasın,
Təbim qaçmasın.

Zaman gülzarında bülbülüm çağlar,
Mənim kədərimə qoşulub ağlar,
Açar sinəsini çiçəkli bağlar,
O ilham pərimi candan soraqlar,
Dərdi qucmasın,
Təbim qaçmasın.

Ey qanadlı ürək, ahım yüksəlir,
Əlçatmaz zirvənin köksünü dəlir,
Könlə qida verən səs, ünü dəlir,
Yenə də bu gecə kədərim gəlir…
Qapı açmasın,
Təbim qaçmasın

Məni dəli edən pak məhəbbətim,
Yerlərə, göylərə can ibadətim,
Dünyaya vurğunluq sevgi adətim,
Böyük Yaradana bu itaətim…
Candan uçmasın,
Təbim qaçmasın.

Ey qanadlı ürək, Şadiman naşı,
İlhamda tapıbdı cana sirdaşı,
Al bağrım başından apar təlaşı,
Boğmasın gözümü zülümün yaşı,
Sən, de, açmasın,
Təbim qaçmasın.
20. 02. 2004

ASILIB ÇİYNİMDƏN ÖMÜR XURCUNU

Hər insan həyatı zamanla yüklü,
Asılıb çiynindən ömür xurcunu.
Min bir arzularla kiçik-böyüklü,
Fələk dolaşdırıb ələ ucunu.

Ağrılar ünündə ürək çökür diz,
Anlarla çarpışmaq çarasındayıq.
Diləkdən diləyə sönür qəlbimiz.
Varlıqla yoxluğun arasındayıq.

Ömür xurcunundan sal günümüzü,
Onun sonrasını Yaradan bilir.
Şeytan elə atır düyünümüzü…
Ağladan əliylə göz yaşı silir.

Elə qamarlarıq bu gen dünyanı,
Öləri deyilik, sanki həyatda.
Ağlımız ovlayır hər gün xülyanı,

Zərrədən pay umduq biz kainatda.

Göyləri, yerləri çalxadan Allah,
Zəkamız önündə açmadı heç nə?
Hər ağlın içində gizləndi günah,
Tanrının gözündən qaçmadı heç nə?

Allahlıq eşqinə düşdü bir çoxu,
Allaha qul olub çökdü-ayıldı.
Kamana möhtacdı əzrayıl oxu,
Hər atılan zaman ərzə yayıldı.

Heç kəs öz xoşuyla gəlmir cahana,
Onun gəlməyinə höküm verən var.
İlahi don verib bədəni cana,
Nəyi ediriksə pünhan görən var…?

Bizdən varlığını gizlədən Xalıq,
Bizə sirr saxladı öz vəfasını.
Təni ölənədək gizlədən Xalıq,
Vermədi ölümün can şəfasını.

Yaramaz işlərdən yapışdı bəşər,
Rəbb bəndələrinə qəh-qəhə çəkdi.
Haqqıyla meydanda qapışdı bəşər,
İblis zəkamızı pəh-pəhə çəkdi.

Pul təki xərclədik verilən ömrü,
Gücümüz tükəndi, Allahı andıq.
Nəgahən enəndə fələyin əmri…
Həyat yuxusundan qəfil oyandıq.

Günahlar içində ey batan ömür,
Xurcunu boş qaldı axır zamanda.
Şeytanın əyininə bir kətan ömür,
Hiyləsi çırpındı haqqa amanda.

Nədir, ey Şadiman, bəs bu çarpışma?
Ağılla ürəyi fəraqa atdıq.
Xeyrə dal çevirib şərdən yapışma,
Köpümüz alındı, məzarda yatdıq.

17. X11. 2003

İLAHİYƏ BAĞLI ÜRƏK

İlahiyə bağlı ürək,
İmanımız heç solmasın.
Yer insana sınmaz dirək,
Peymanımız heç solmasın.

Şər etməsin ağılımız,
Cöşsün həyat nağılımız,
Xeyri tutsun ağılımız,
Fərmanımız heç solmasın.

Hər sinədə bir əhd yaşar,
Diləkləri aşıb daşar,
Şərlə şeytan pıçıldaşar,
Amanımız heç solmasın.

Dərd ürəyə yol tapmasın,
Tapıb qəlbi qəm çapmasın,
Bəndə yolun qoy sapmasın,
Xoş anımız heç solmasın.

Bu həyatı quran da biz,
Onun boynun vuran da biz,
Abad da biz, viran da biz,
Səhmanımız heç solmasın.

Dincəlməyir ürəklə baş,
Göz içində qaynayır yaş,
Çox sinədən asılıb daş,
Dövranımız heç solmasın.

İnsan ömrü çox qısadır…
Qocalanda can əsadır,
Büküldün qəlb yarasadır,
Dərmanımız heç solmasın.

Dünya dönüb sərhəd, səddə,
Gah namərdə, gah da mərdə,
Tuş olmasın kimsə dərdə,
Loğmanımız heç solmasın.

İnsanlıqda – gözəl sifət,
İlham gəlir – nazlı afət,
Ey Şadiman, eylə ülfət,
Mehmanımız heç solmasın.
19. 02. 2004

ÜRƏYİM HARAY ÇƏKİR

Ürəyim haray çəkir,
Küllü-aləm içində,
Göz yaşımı çay çəkir,
Qopan naləm içində.

Eşqə çıraq olmuşam,
Qəm çəkib dağ olmuşam,
Bəs niyə sağ olmuşam?
Bir belə qəm içində.

Haqqdan gələn ilhamım,
Yanan qəlb ilə kamım,
Yarılır bu göy damım,
Hıçqıran nəm içində.

Salmayın dilə məni,
Yaymayın elə məni,
Verməyin yelə məni,
Zilim var bəm içində.

Canda yaram qövr edir,
Ürəyimə cövr edir,
Ömür elə dövr edir,
Fırlanan dəm içində.

Dəmiri zindan döyür,
Osa, gücünü öyür,
Tərəzini əl əyir,
Haqqımız kəm içində.

Can Rəblə pıçıldaşır,
Bə'zən həddini aşır,
Ömür qədəhdən daşır,
Şadiman dəm içində.
13. 03. 2004

EY GECƏLƏR ŞAMI

Oduna yandığım, gecələr şamı,
Sənin atəşindən köz var sinəmdə.
Elə cilvələnir ruhumun kamı,
Hələ deyilməmiş söz var sinəmdə.

Yenə həyacanlar bürüyür canı.
Göylərə, yerlərə sürüyür canı,
Coşur damarının çağlayan qanı,
Təbimi dindirən göz var sinəmdə.

Könlümdə diləklər gəzir havalı,
Sirli kainata qəlbdən duvalı,
Uçuşur saatlar əldə qavalı,
Telləri oynadan saz var sinəmdə.

Varağlar üstündə bağrım ahlanır,
Qələmim susanda can gunahlanır,
Zülmətdən ay doğur, yer sabahlanır,
Bəyaz qışdan sonra yaz var sinəmdə.

Ey gecələr şamı, düşdüm sevdaya,
Döndü ürəyimdə həsrət nidaya,
Şükürlər olsün ki, Böyük Xudaya,
Haqqın cığırına iz var sinəmdə.
22. 02. 2004

YENƏ RUHUM QANADLANIR UÇMAĞA

Yenə ruhum qanadlanır uçmağa,
Günəş təki göydə atəş saçmağa,
Dilәkləri alır candan qoparır,
Özü ilə asimana aparır.
Gah buluda, gah şimşəyə bac verir,
Gah leysana, gah yağmura tac verir,
Zirvələri eşqə salır pərvazı,
Bülbülləri oda atır avazı.

Çeşmə kimi lap qaynayır gözündən,
Alışıram soyumayan közündən.
Qar ələnir, sanki çılğın başına,
İslanıram gözdən axan yaşına.
Niyə sığmaz yuvasına bir dəm də?
Yer tapmayır heç özünə aləmdə.
Hər baxışda bir sədaqət arayır,
Duyğuların tellərini darayır.
Həm gecədən, həm gündüzdən öc alır,
Yaradana hikmətindən güc alır.
Ruhum güldü həyatın can bağında,
Təblə coşur bu divanə çağında.
Yellər əsmiş, an içində dağılmış,
Zaman ondan, o zamandan doğulmuş.

4. 04. 2004

ÖMRÜNÜ YAŞAYIB KÖÇƏNLƏR BİLİR

Bu dünya əzəldən qan çanağıdı,
Allahın insana bir sınağıdı,
Böyük Yaradanın can sınağıdı…
Həyatın suyunu içənlər bilir,
Ömrünü yaşayıb köçənlər bilir.

Canlılar içində qorxulu bəşər,
Qəlbi arasında şeytan yerləşər,
Etdiyi günahla ayağa düşər,
Bunu zülmün yolun seçənlər bilir,
Ömrünü yaşayıb köçənlər bilir.

Cahanın hər işi Tanrıya hali,
Onun nəzərində hər qeylü-qalı,
Bizi xəlq eyləyən bizlərdən ali!
Zaman zəmisini biçənlər bilir,
Ömrünü yaşayıb köçənlər bilir.

Var ikən özünü qüdrətli sayan,
Təamlar yerinə zülümlə doyan,
İblisin fe'linə eşq ilə uyan,
Fitnəli-canında keçənlər bilir,
Ömrünü yaşayıb köçənlər bilir.

Təbiət duyğuda məna arayır,
Doğulan canlıda fəna arayır,
Bu beşdaş oynunda xanə arayır…
Qəlbləri bürüyən sis, çənlər bilir,
Ömrünü yaşayıb köçənlər bilir.

Hər zəka içində arzu çağlayır,
Kamına yetməyən ürək ağlayır,
Fələk bədənlərdə can soraqlayır…
Həyatın yolunu keçənlər bilir,
Ömrünü yaşayıb köçənlər bilir.

Şadiman, dünyada bulma məkanı,
Xaliqin əlində vaxtın sükanı,

Bu həyat əzəldən canlar dükanı,
Varlığdan yoxluğa keçənlər bilir,
Ömrünü yaşayıb köçənlər bilir.
20. 02. 2004

DUYĞUDAN DUYĞUYA COŞUB DAŞIRAM

Duyğudan duyğuya coşub daşıram,
Yeni diləklərlə cilalaşıram,
Təzə arzularım doğur ürəkdə,
Köhnə arzularla vidalaşıram.

Hər dürlü istəkdə dürlü can yatır,
Ruhumun evində aləmi qatır,
Ağlaşır sinəmdə başsız amallar,
Ay təki parlayır, gün təki batır.

Yerin harayından göyə qalxıram,
Dönüb ulduzlara, yerə baxıram,
Bəşərin fe'lindən qan qusur torpaq,
Yandırıb nalədən könlü yaxıram.

Mənim səbirimlə oynayır təbim,
Bulaqtək gözündən qaynayır təbim,
Qapımdan əl çəkmir qəmin ayağı,
Onu öz taxtına şan sayır təbim.

Mən duyğu içində duyğu yaşatdım,
Yeni duyğuları köksümə atdım,
Şadiman könlüylə yatıb baş-ayaq,
Bu dərin yuxudan onu oyatdım.
20. 02. 2004

ÖMÜR GƏLDİ PAK QƏDƏRLƏ

Ömür gəldi pak qədərlə,
Ötən günü aldı getdi.
Gah sevinclə, gah kədərlə,
Ürəyimdə qaldı getdi.

Bədənlərdə can üşüdü,
Vaxt içində an üşüdü,
Tacı-taxtdan şan düşürdü-
Ayaqlara saldı getdi.

Acıları başdan aşdı,
Gödək ömrün qəmi daşdı,
Tərəziyə yatan daşdı,
Saatları çaldı getdi.

Könlə sərxoş hicranıyla,
Tanrı verən dövranıyla,
Təndə mələk, sir canıyla-
Xəyallara daldı getdi.

Rəbbin şirin can payıdı,
Yaradanın harayıdı,
Qocalarkən tən vayıdı,
Başdaşını çaldı getdi.

Gün selləndi, arx talandı,
Nehrə təki çalxalandı,
Kimə, niyə arxalandı?
Tellərinə yoldu getdi.

Ey Şadiman, nə xülyadı?
Ötən günlər xoş röyadı,
Bəlkə ömür bir riyadı –
Ağlımıza doldu getdi?….
10. 02. 2004

HAMIMIZ GEDƏRİYİK, HEÇ KİM ÖZÜN ÖYMƏSİN

Hər anın bir ahı var, hər ahın bir günahı,
Fələk xeyrə açaydı hər açılan sabahı,
Vicdanına qul olan unutmaz heç Allahı,
Bir kimsə, bir kimsənin ürəyinə dəyməsin,
Hamımız gedəriyik, heç kim özün öyməsin.

Pul-paraya, sərvətə, dövlətə çatmaq olar,
Hiyləylə, yaltaqlıqla zirvədə yatmaq olar,
Girib fitnə toruna aranı qatmaq olar,
Rəbbin sevgisi olan tərəzini əyməsin,
Hamımız gedəriyik, heç kim özün öyməsin.

Bu dünya neçə şahlar, sultanlar yola saldı?
Düşürüb tacı-taxtdan qara məzara saldı,
Tikdiyi sarayları torpağın altda qaldı,
Fələk ki, amadədi bassın ölüm düyməsin,
Hamımız gedəriyik, heç kim özün öyməsin.

Bəşərin haqqa bağlı qarası da, ağı da,
Təbiəti quludu öləni də, sağı da,
Doğuldun - xətalara ayna tutur çağı da,
Elə yaşa öləndə gorunu el söyməsin,
Hamımız gedəriyik, heç kim özün öyməsin.

Adəmin can ipini fələk əldə fırlayır,
Artıqca şər işimiz səvablar sıfırlayır,
İnsanın kamal bağı günü-ündən cırlayır…
Bəs necə bu Yaradan başımıza döyməsin?….
Hamımız gedəriyik, heç kim özün öyməsin.

Başın verdiyi cəza ürəyə baha gəlir,
Atılan səvh addımın səsi Allaha gəlir,
Tökülən al qanların haqqı günaha gəlir,
Axır günü düşünən naqisliyə sə'yməsin,
Hamımız gedəriyik, heç kim özün öyməsin.

Rəbb ya odla, ya buzla yandırır torpaqları,
Bostana uru gəlir, saralır yarpaqları,
Öz ömrün başa vurur dünən açmış tağları
Günəş göydə seyr edir şamamanın dəyməsin
Hamımız gedəriyik heç kim özün öyməsin.

Ey Şadiman bir söylə candakı sitəm nədir?
Ürəyim qan ağlayır, bu qana matəm nədir?
Səhərlərin dilində acı-şirin təm nədir?
Təbiətin yazdığı qanuna əl dəyməsin,
Hamımız gedəriyik, heç kim özün öyməsin.

23. 02. 2004

ÖMÜR QAÇIR ƏLDƏN BELƏ

Bu dünyanı sultan sandıq,
Sinəmizə dərman sandıq,
Vaxt önündə özün qandıq,
An qırılır teldən belə,
Ömür qaçır əldən belə.

Duyğuları havaladıq,
Yuxularda yuvaladıq
Ağlı başdan qovaladıq,
İl bac aldı ildən belə,
Ömür qaçdı əldən belə.

Daştək yerə nə çaxıldıq?
Gah büdrədik, gah yıxıldıq…
Künc-bucağa çox sıxıldıq,
Can da düşdü dildən belə,
Ömür qaçdı əldən belə.

Neçə duyğu öldü keçdi?
Bağrımızı böldü keçdi,
Zaman bizə güldü keçdi,
Don geyindi yeldən belə,
Ömür qaçdı əldən belə.

İlahidə ülfət gördüm,
Haqqı gözəl afət gördüm,
Hər insanda sifət gördüm,
Şər düşmədi əldən belə,
Ömür qaçdı əldən belə.

Ey Şadiman, etdiyin nə?
Duyduğuna yetdiyin nə?
Vaxtı qıvraq ötdüyün nə?
Arx üzüldü seldən belə.
Ömür qaçdı əldən belə.

22. 02. 2004

CAN BİRLƏŞİB TƏN İLƏ

Can birləşib tən ilə,
Tənə peyman eyləyir.
Tutur ürəyi dilə,
Ona fərman eyləyir.

Sir qapısı bağılı,
Alır başdan ağılı,
Tükənməyir nağılı,
Vaxta fərman eyləyir.

Gecələr təndən uçur,
Tapıb yuxunu qucur,
Olur röyaları cur,
Könlü səhman eyləyir.

Vicdanları bəsləyir,
Şeytanı qəfəsləyir,
Qəm ilə nəfəsləyir,
Dərdi yaman eyləyir.

Can Rəbbin saf mələyi,
Sevdalıdı diləyi,
Hey coşdurur ürəyi,
Eşqə mehman eyləyir.

Uyur bə'zən iblisə,
Qapılır yaman hissə,
Alır üstünü qüssə,
Dərdi kaman eyləyir.

Gözü verir yuxuya,
Bülbül təki oxuya,
Düşür qara-qorxuya,
Şamı loğman eyləyir.

Can Allahın nidası,
Haqqdan gələn sədası,
Tükənməyir sevdası,
Rəbbə iman eyləyir.

Ey Şadiman, bu dünya,
Haqdan qurtulan röya,
Ya nəş'əyə, ya vaya -
Canı peşman eyləyir.
3. 04. 2004

YA YERDƏ, YA GÖYDƏMİ GİZLƏYİM BU QƏLBİMİ ?

Ürəyimdə dünyanın niskili qucaq-qucaq,
Ömrüm olub zamanın əllərində oyuncaq,
Hissim çaxmaq daşıdı, könlüm alışan ocaq,
Mənə hicran gətirir hər doğulan zalım çağ,
Dövran edən saatlar ömrün kərpic qəlbimi?
Ya yerdə, ya göydəmi gizləyim bu qəlbimi?

Ağlayır duyğularım həyatımın yasına,
Laxta-laxta qan qusur ağlım bağrın tasına!
Bürünüb yazıq sinəm zəkamın həyasına,
İlhamım idrakımın dönübdü qəvvasına,
Vücudumu titrədən Yaradanın təbimi?

Ya yerdə, ya göydəmi gizləyim bu qəlbimi?

Anlar qaçır əlimdən müşkülə düşmüş kimi,
Bəxt bülbülümün meyli yad gülə düşmüş kimi,
Çatdığım tale odu lap külə düşmüş kimi,
Rüzgarımın yelləri ağ tülə düşmüş kimi,
Nizam bilməz ayamlar yaşamağın həbimi?
Ya yerdə, ya göydəmi gizləyim bu qəlbimi?

Hər addım saxtakarlıq, hər addım zülüm, şivən,
Dilindən qandallanır nədəndir haqqı sevən?
Həyatın səhrasında, fələk, ömrümüz dəvən,
Yeyir bədəni pünhan hər can içində güvən…
Bu da haqqdan bəşərə Yaradanın dəbimi?
Ya yerdə, ya göydəmi gizləyim bu qəlbimi?

Ağlayır için-için gözlərim sabahına,
Batır yazıq anlarım saatın günahına,
Bürünübdü zamanım sinələrin ahına,
Əl açmada insanlıq qorxarkən Allahına…
Ömrün qürub çağından çıxan günəş qəlbimi?
Ya yerdə, ya göydəmi gizləyim bu qəlbimi?

Beyinin iblisinə qul olubdu ürəklər,
Başla sinə arası cövlan edir kələklər,
Şüurun dəyirmanı üydüyünü ələklər…
Gah hiyləyə, gah səyə əsir olur diləklər,
Şadimanın könlünü qəm yuyub, dərd bələklər,
Hisslərimə od vuran haqq göndərən nəbimi?
Ya yerdə, ya göydəmi gizləyim bu qəlbimi.

30. X11. 2003

HƏR GƏLƏN SABAHDA MİN HİCRAN YAŞAR

Hər gələn sabahda min hicran yaşar,
Hicrana düşənə ürək neyləsin?
Hər bədən içində sirli can yaşar,
Tənin damı uçsa dirək neyləsin?

Başın ağrısı var beyinimizdə,
Vaxtın dar libası əyinimizdə,
Ömür bir xurcundu çiyinimizdə…
Çiyindən düşəndə kürək neyləsin?

Şeytanla zəkamız savaş içində,
Hər cür ağrı, acı, qəm – baş içində,
Əzabdan gözümüz qan-yaş içində,
Vaxtsız xəzan olan dilək neyləsin?

Anların bağrında girlənir səbəb,
Günümüz boğazdan keçən acı həb,
Hər kiçik sualdan boylanır mətləb,
Günahları yazan mələk neyləsin?

Hamımız dünyanın qərib sakini,
Bitib tükənməyir sinənin kini,
Əldə oyuncaqdı Allahın dini,
Könlə ağrı verən fələk neyləsin?

Yaradan önündə yoxdan acizik,
Bir-birinin qəlbin dağıdan bizik,
Rəbbin qarşısında elə acizik,
Əzrayıl əlində ələk neyləsin?

Küllü-ixtiyarlı sananlar özün,
Tanrıdan gizləyə bilməyir üzün,
Hər kəsin könlünün əyrisin, düzün-
Aşikar eyləyən kələk neyləsin?

Günah çox olanda can ağırlaşır,
Beyindən ürəyə yol cığırlaşır,
Ağıl kökdən düşür çox fağırlaşır,
Əldən qısa olan bilək neyləsin?

Şadiman, sınaqlı hər ömrün anı,
Çalış günahlarla suvarma canı,
Allahdı damarda dövr edən qanı,
Bəxtimizdə əsən külək neyləsin?
19. X11. 2003

NİYƏ MƏNİ DOĞDUN, NİYƏ AY ANA?

Niyə məni doğdun, niyə ay ana?
Ağrıdan, acıdan qopa bilmirəm.
Qəlbimi salmışam soraq hər yana,
Özümü heç yerdə tapa bilmirəm.

Buludlar dolanda könlüm tutulur,
Üstümə dünyanın qəmi atılır,
Dərdin ən ağırı qəlbə çatılır,
Ömür yollarında çapa bilmirəm.

Diləklər hönkürür yaz yağışıtək,
Xəyalım uçunur qız baxışıtək,
Düşürəm çovğuna fəslin qışıtək,
Mən bu müsibətdən sapa bilmirəm.

Havalı misralar candan boylanır,
Ürəyim odlanır, başım haylanır,
Günüm aha düşür, dilim vaylanır,
Ələmi odumla qapa bilmirəm.

Neçin məni doğdun, ay ana, neçin?
Qəm yıxıb dağıdır könlümün için,
Canımı ahlardan qorumaq üçün,
Ruhuma bir qala yapa bilmirəm.
15. 03. 2003

YAXŞI ADAMLARI GƏLİN QORUYAQ

Yaxşı adamları gəlin qoruyaq,
Onların eşqinə durur bu həyat.

Allaha açılmış əlin qoruyaq,
Gah xeyrə, gah şərə vurur bu həyat.

Zalımlar artıqca vicdan kiçilir,
Ağlın hesabına ürək biçilir,
Gözlər baxa-baxa haqdan keçilir,
Şərə tacı-taxtı qurur bu həyat.

Yaxşı adamları sipər eyləyək,
Zülmün qabağına çəpər eyləyək…
Hər cana düzlüyü təpər eyləyək,
Ürəyi heç nədən qırır bu həyat?

Ey bəşər, bir düşün yolun haradı?
Yamanlıq edənlər üzüqaradı,
Hər bir müşkülünə iman çaradı,
Kimə qəm, kiməsə qürur bu həyat.

Yaxşı adamların zəkası bahar,
Dünyanın dərdindən ciyəri ahar,
Könlümün qanıyla qəm edir nahar,
Ağlıyla yuxudan durur bu həyat.

Bədəndə can deyil, mələk gəzdirir,
Haqqı yaşatmaqçın dilək gəzdirir,
Yaradanı sevən ürək gəzdirir,
Qəlbimin səsiylə vurur bu həyat.

Yaxşı adamları gəlin qoruyaq,
Duyğulu sevdasın cana sarıyaq,
Usanıb yaxşıdan pisi arıyaq,
Yoxsa hamımızı qırır bu həyat.

Şadiman tifili sanmayın dəli,
Haqqına uzanıb yetməyir əli,
Şərdən zədələnib insan təməli,
Ona min cür divan qurur bu həyat.

19. 02. 2004

ÜRƏYİMƏ XƏTƏR OLUR

Nədən, Xuda, can möhnəti -
Hər bir dərddən betər olur?
Ömrümüzün an möhləti…
Hər insana yetər olur.

Gün qarışır diləklərə,
Sevda düşür ürəklərə,
Hay yayılır fələklərə,
Dəmlər yeltək ötər olur.

Anlarımdan asılıram,
Qəm ağzına basılıram,

Mən dərdimə qısılıram,
Sevinc düşüb itər olur.

Ağ buludlar yeri alır,
Karvan üstə köçün salır,
Könlüm göydə, yerdə qalır,
Təbə xəbər-ətər olur.

Qəlbim dolur – can yağışı,
Gözlərimə axır yaşı,
Ahım tutur dağı, daşı,
Ürəyimə xətər olur.
22. 02. 2004

ALLAHINA DUVA EYLƏ

Əgər gəldin bu həyata,
Doğulmağın özü xəta,
Şükür eylə hər saata,
Dildə haqqı yuva eylə,
Allahına duva eylə.

Hər kim olsan enəcəksən?
Şamtək yanıb sönəcəksən,
İlahinə dönəcəksən…
Bu hikməti nəva eylə,
Allahına duva eylə.

Coşsun könlün xoş niyyəti,
Başda ağlın ülviyyəti,
Düzdən dönmə, həqiqəti-
Ciyərinə hava eylə,
Allahına duva eylə.

Fələkdəndi hər bir bəla,
İnsan düşür hər cür hala,
Vicdanını gətir yola,
Xəsdədirsə – dəva eylə,
Allahına duva eylə.

Zamanın bəd gərdişi var,
Hər anın öz gedişi var -
Ömrü qıran sərt dişi var…
Cana rəhmi rəva eylə,
Allahına duva eylə.

Şadimanı nədir əyən?
Ürəyinə hər gün dəyən?
Qəlb qapısın kimdi döyən?
Gələn qəmsə dava eylə,
Allahına duva eylə.
22. 02. 2004

NİYƏ TALEYİNDƏN ŞİKAYƏTLİSƏN?

Niyə taleyindən şikayətlisən?
Tale öz-özünə baş alıb getmir,

Bu qədər dillərdə hekayətlisən…
Əllər, dilədiyin haqqına yetmir.

Könlündən, gözündən tökülür ələm,
Sənə əzablıdır açılan sabah.
Fələyin bəxtüvə çaldığı qələm,
Bir ucu savabdır, bir ucu günah.

Ömür hər insana - Xudadan fərman,
Anların ağrısı sinədən doğur.
Canımız bədənlə bağlayır peyman,
Ürəyin dərdini göz yaşı boğur.

Həyatın görünən üzündəyik biz,
Görünməyən üzü bəşərə sirdi…
Zamanın önünüdə ömür çökür diz,
Doğulan varlığa – ölən kəsirdi.

Düzəlt qamətini, əyilmə dərdə,
Dərdə yer verdikcə yersiz qalarsan.
Könül açılmayır qəm olan yerdə,
Gəzdirib ürəyi əldən salarsan.

İnsan sabahının eşqiylə yaşar,
Min aləm içindən bir kam boylanır.
Arzular sinədə qaynayıb daşar,
Ağlın zirvəsinə ürək haylanır.

Bizdən aslı deyil hər gələn saat,
Zəka süzgəcindən keçir duyğumuz.
Əbədi bizlərə bəxş olmub həyat,
Rəbbdən hədiyyədir ömür uyğumuz.

Etmə taleyindən bu qədər giley,
Gileyin bir ucu fələkdən keçir.
Günümüz qədəhə süzülən bir mey,
Zülmü, iztirabı ürəkdən keçir.

Şadiman at üstə çapır sabaha,
Sabah nə gətirər – onu bilən yox?
Gedənlər batırıb özün günaha,
O biri dünyadan hələ gələn yox…

20. X11. 2003

AĞRIYA YOL ETMƏ MƏNİ

Ağrıya yol etmə məni,
Haqqın qulu can əyilər.
Əzaba qol etmə məni,
Vaxt üzülər, an əyilər.

Qaya uçub daş gələndə,
Bədən qopub baş gələndə,
Sübh gözünə yaş gələndə,
Göy sökülər, dan əyilər.

Ürəyə dərd çatılanda,
Könül aha tutulanda,
Ömrə zəhər qatılanda,

Damarlarda qan əyilər.

Həyat cana qida yeri,
Həm hicran, həm sevda yeri,
O, dünyaya vida yeri,
Zirvə uçar, şan əyilər.

Zaman vaxtı qıran əlsə,
Zalım əcəl güclü gəlsə,
Bir gün qəfil ölüm gəlsə,
Gözündə hər yan əyilər.

Bacarırsan ver bir fayda,
Can gizlətmə haya-hayda,
Bu dünyada birdi qayda,
Dəm yetişdi, san əyilər.

Ey Şadiman, il ötüşər,
Gün dönəndə kölgə düşər,
Hər ömürə son yetişər…
Həm kasıb, həm xan əyilər.

20. X11. 2003

YENƏ KÖNLÜM EVİ AHDI

Yenə könlüm evi ahdı,
Açılan aha sabahdı,
Fənalıq qəlbə günahdı,
Günahın üzü qaradı,
Hər qəmə sinə yaradı.

İşlərimiz keçir daşdan,
Bəbəklər boğulur yaşdan,
Can haray eyləyir başdan,
Günümüz yaman qaradı,
Hər qəmə sinə yaradı.

Bəşər cahanın ürəyi,
Əliylə çökür dirəyi,
Və halal, haram çörəyi,
Vəfalıq haqqa çaradı,
Hər qəmə sinə yaradı.

Dünyanı odlara atan,
Ey şərin qoynunda yatan,
Ev yıxıb, aləmi qatan,
Bir düşün yolun haradı?
Hər qəmə sinə yaradı.

Əzilən canımız talan,
Oturub hər taxtda yalan,
Ey doğulub bir gün solan-
Düşünən bəs nə aradı?

Hər qəmə sinə yaradı.

Bədən bizim, can fələyin,
Tutub əlində ələyin,
Kim açа bildi diləyin?
Müşkül işlərə yaradı,
Hər qəmə sinə yaradı.

Bəşəri şam edir iblis,
Sitəmin dam edir iblis,
Ömürlə kam edir iblis,
Hiyləsi hər ah-zaradı,
Hər qəmə sinə yaradı.

Şadiman başı yormasın,
Bağrına kədər sarmasın,
Daha kimsədən sormasın,
Düşdüyu dünya haradı?
Hər qəmə sinə yaradı.

1. 02. 2004

DÜŞÜB ÜMİDLƏRİM ÖZÜ PAYIZA

Düşüb ümidlərim özü payıza,
Buna qəlb göynədən xəzan neyləsin?
Ürəyim yol alıb üzü ayaza,
Bəxtimi ömrümə yazan neyləsin?

Bir kimsə bilməyir nə çəkirəm mən?
Qəlbimin bağında qəm əkirəm mən,
Gözümdən tağına yaş tökürəm mən,
Bu dərdi min yerə yozan neyləsin?

Gah şirin, gah acı qoxuyur həyat,
Aşiq bülbül təki oxuyur həyat,
Hər bəxtə xalılar toxuyur həyat,
Onun naxışların pozan neyləsin?

Sadəlövh olanın qəzası bitməz,
Şeytandan, iblisdən cəzası bitməz,
Ağlın duyduğuna hər ürək yetməz,
Enişdə, yoxuşda azan neyləsin?

Hər kəsin qəlbində ülfəti olmaz,
Təmiz ürək adlı afəti olmaz,
Hər cür yamanlığa nifrəti olmaz,
Dərdi ürəyinə sızan neyləsin?

Günahdı Allahdan cana fənalıq,
An gəldi ömrünə ara mənalıq,
Duyğunun içində cana rənalıq,
Onun özülünü qazan neyləsin?

Can gəlib, can gedir bu Şadimandan,
Onun hər misrasın ara imandan,
Yanğısı Xudadan, haqqa peymandan-
Könlüvə deyilsə ozan, neyləsin?
13. 02. 2004

DƏRD ÜRƏYİMİ YOXLADI

Dərd ürəyimi yoxladı,
Qaldı könüldə yuxladı,
Qəlbimin başın oxladı,
Bula bilmədim dərmanı,
Gəldi fələkdən fərmanı.

Sinəmdə ahım boğuldu,
Ahımdan hicran doğuldu,
Fəryadım ərşə dağıldı,
Qırdı könlünlə peymanı,
Gəldi fələkdən fərmanı.

Duyğularımı üşütdüm,
Zirvədən düzə düşürtdüm,
Bağrımda atəş bişirtdim,
Pozuldu canın səhmanı,
Gəldi fələkdən fərmanı.

Zülümlə vaxtı səslədim,
Büküb qayğımla bəslədim,
Əzabı ondan həslədim,
Ötdü Allahın zamanı,
Gəldi fələkdən fərmanı.

Nə silər qəlbdən acını?
Yolma boş yerə saçını,
Qoyma düşə can tacını,
Odur bədənin mehmanı,
Gəldi fələkdən fərmanı.

Şadiman, qəmi haylama,
Qəmin içində vaylama,
Zəmisin biçib taylama,
Ömrün tutub ox-kamanı,
Gəldi fələkdən fərmanı.
19. 02. 2004

AĞLAR GÖZƏ CAN GÖRÜNMƏZ

Göz üzülər yaş içində,
Ağlar gözə can görünməz.
Hər nə varsa baş içində,
Qəmə düşdün, yan, görünməz.

Sükut alar ürəyini,
Salar qəmə diləyini,
Dərd əsdirər dirəyini,
Ömür ötər, an görünməz.

Bulud gəlib göy dolanda,
Aləmi çaş-baş salanda,
Sübhün gözün yaş alanda,
Göy üzündə dan görünməz.

Duyğularım ötər yeltək,
Gurşad tutar, coşar seltək,
Qalar ürək təb ilə tək,
Gözümə heç yan görünməz.

Can bürünər bədən dona,
Şirin olar həyat ona,
Yetərkən hər ömür sona,
Nə şöhrət, nə şan görünməz.

Dünya dilsiz, insanlar qəlp,
Kərpic hasil eyləyər qəlb,
Savaş edər ağılla qəlb -
Aralıqda qan görünməz.

Şadimanı ey yad edən,
Bədənindən candı gedən,
Sinəsində fəryad edən -
Ürəyi şan-şan, görünməz.

17. 01. 2004

SƏHVLƏRLƏ DOLUDU İNSAN HƏYATI

Səhvlərlə doludu insan həyatı,
Heç səhvsiz həyatdan getmədi insan.
Keçdi əzablarla ömrün saatı,
Qəmsiz, fırtınasız ötmədi insan.

Ahıynan yandırdı dərəni, düzü,
Batırdı qanıyla gecə-gündüzü,
Dərddən və sevincdən ağladı gözü,
Haqq qoyan qanuna yetmədi insan.

Gah ağlı könülə vəfa eylədi,
Gah əğyara dönüb cəfa eylədi,
Qəminə qol açdı, şəfa eylədi,
Öz-özüylə yola getmədi insan.

Tökdü ağrısını dərdini, cana,
Ələm yağışların yağdırdı ana,
Bezdi həyatından yığıldı cana,
Düşdü tufanlara, itmədi insan.

Azdı yoxuşlarda enişi gəzdi,
Həyat dolayında dönüşü gəzdi,
Zirvələr eşqiylə genişi gəzdi,
Zirvədə əbədi bitmədi insan.

Doğuldu vicdandan hər gün Allahı…
Keçdi yeddi qatddan könlünün ahı,
Gecəsi yuxladı, açdı sabahı,
Dünyadan qadasız getmədi insan.

Nəfsi güc gələndə aləmi qatdı,
Çalışdı, şüuruyla qurdu, yaratdı,
Vicdanın savaşın içinə atdı,
Ağlına bir çarə etmədi insan.

O vəhşi xislətdən qopa bilmədi,
Tanrıtək hər yerdə çapa bilmədi,
Ölmünə bir əlac tapa bilmədi,
Heç vaxt Yaradanı ötmədi insan.

Doğuldu, mincürə dinlər yaratdı,
Guya haqq yolunda aləmi qatdı,
Belinə üstbəüst günahı çatdı,
Allahın yanından ötmədi insan.

Duyarkən ölümlü bir həyatdasan…
Ömürün mindiyi tale atdasan,
Haqqına köklənmiş bir saatdasan,
Bəs niyə qırğınlar bitmədi, insan? !…
18. X. 2004

EY DİLİ QAFİL

Mənə yazma deyən, ey dili qafil,
Ürəyim coşanda yazmasam olmur.
Ötkəm duyğuların necə naqafil?
Ömrün tufanında azmasam olmur.

Səadət gətirmir hər gələn səhər,
Birinə nəş'ədi, birinə qəhər,
Vururam günləri başa birtəhər,
Dərdimə məzarı qazmasam olmur.
18. X. 2004

YENƏ DOLUB BOŞALIRSAN

Yenə dolub boşalırsan,
Dəmdən dəmə düşən könül.
Ya coşub, ya yumşalırsan,
Qəmdən qəmə düşən könül.

Yoxuşları azma belə,
Tənə məzar qazma belə,
Günə tufan yazma belə,

Çəmdən çəmə düşən könül.

Ürək əsdi tel üşütdün,
Təb ağladı tel üşütdün,
Gözlərimdə sel üşütdün,
Nəmdən nəmə düşən könül.

Dəm tutmusan harayıma,
Od düşüb can sarayıma,
Dur, gəl daha qəlb vayıma,
Bəmdən bəmə düşən könül.

Ürəyimi çox çalxatdın,
Başda ağlı nə laxlatdın?
Sevinc dərib qəm qoxlatdın,
Kəmdən kəmə düşən könül.

Bu başım qeylü-qaldadır,
Ömür ötür, gün aldadır,
Gah zəhər, gah da bal dadır,
Təmdən təmə düşən könül.

Şadimanı can qoxutmaz,
Bülbültəki dil oxutmaz,
Mənim işim sənlə tutmaz,
Həmdən həmə düşən könül.
6. X. 2004

ÜŞÜYÜRƏM ÇƏN ALTINDA

Üşüyürəm çən altında,
Çənim belə ötüb keçməz.
Ağrılarım tən altında,
Əlim ona yetib keçməz.

Sevda gülün dərmədilər,
Qəmin qolun gərmədilər,
Ürəyimi görmədilər…
Ora düşən itib keçməz.

Dərd gələndə illə gələr,
Gözdə yaşı sellə gələr,
Qəlbə ağrı dillə gələr,
Hə çalışsan bitib keçməz.

Hər ağrıda bir can yaşar,
Yaşadıqca mənalaşar,
Hər doğulan fənalaşar…
Haqq bağrında bitib keçməz.
6. X. 2004

NEFTÇİ MÜHƏNDİSİN YUXUSU

İşdən yorğun gəlir neftçi mühəndis,
Gəlir ürəyinə sanki məchul hiss.
Ötür saatların karvanı belə,
Alır caynağına hər anı belə.
Yeməmiş, içməmiş yatağa keçir,
Yorğun gözləriylə yuxunu içir,

Ayrı bir dünyanın sehrinə düşür,
Gözəl insanların mehrinə düşür.
Yuxuda görür ki, carçı hay salıb,
Səsini sabahdan başına alıb,
Milləti meydana səsləyir şövqlə,
Könlü dilə gəlib dillənir fövqlə.
Elə cuşələnir xəlq bu Vətəndə,
Canları oynayır bədəndə, təndə.
Hamı vicdanına and içir ki, bəs,
Bir kimsəyə rüşvət verməsin bir kəs…
And-amand edilir peyman bağlanır,
Millətin qüruru haqqa çağlanır.
Aylar saatlanır, əyam ötüşür,
İçilən and, sanki yerinə düşür.
Rüşvətin sehiri azalır, müdam,
Adam hiss eləyir özünü adam.
Məmurlar oturub öz kürsüsündə,
Tamah at oynadır qəzəb səsində.
Hey gəlirlər işə hər səhər, erkən,
Qəlblərin bürüyüb nə zamandı çən?
O ümidsiz gözlər qapını pusur,
Rüşvətə açılan qapılar susur.
Fəqət, öz qınına çəkilir millət,
Boğur məmurların ürəyin illət.
Heç kəs vəzifədə olmaq istəmir,
Daha bu şəkildə qalmaq istəmir.
Varlı fakültələr qiymətdən düşür,
Bağları bar vermir, nemətdən düşür.
Kəsilir rüşvətin kökü Vətəndən…
Vicdanlar boylanır şövqüylə təndən.
Haaqa yetmək üçün hamı tələsir,
Bu arzu eşqiylə qəlbləri əsir.
Bütün məmləkətdə haqq çiçəkləyir,
Düzlük, mərdanəlik lap gerçəkləyir.
Yaradan tanıyır Azərbaycanı,
Allahın yanında pak olub canı.
Azalır millətin ahı, naləsi,
Şadlıqla çağlayır can piyaləsi!
Hamının üzündə səadət gəzir,
Bədən şükür edir can haqqa nəzir.
Sevdalar içində yaşayır Vətən,
Bəxtəvər bir həyat daşayır Vətən…

***

Yuxudan oyanır mühəndis qalxır,
Qan tərin içində otağa baxır.
Açır pəncərəni boylanır çölə,
Bir diqqət kəsilir bu xalqa, elə.
Görür həmən hamam, həmənki tasdı,
Görür həmən kəfən, həmənki yasdı…

Əllərin göylərə tutur kədərlə,
Ahi-fəqan adir yenə qədərlə!

16. X1. 2004

RÜŞVƏTƏ PƏRƏSTİŞ

Hər xalq bu dünyada adın daşıyır,
Öz keyfiyyətinin dadın yaşayır.
Bizim xalqın da öz cəhətləri var,

Ağlında min cürə qəhətləri var.
Azalıb mənəvi dünyaya eşqi,
Kasıblardan qopan min vaya eşqi.
İndi bu millətin bədəndə canı,
Oxşayır rüşvətlə kürsü tutanı.
Onun arvadına pərəstiş edir,
Vəzifə adına pərəstiş edir.
Altında maşina pərəstiş edir,
Mənasız yaşına pərəstiş edir.
Toyda, yasda, toyda öyülür adı,
Fəxirlə anılır özü, övladı.
Bütün məclislərdə çəkilir başa,
Gəlir ağızlarda, dillərdə cuşa.
Elə ki, yıxıldı kürsüdən yerə,
Zirvəni qurd təki ovladı dərə,
Baxışlar dikilir təzə məmura,
Əllər çəpik çalır, ağızlar ura!
Təzə rüşvətxorun atı işləyir,
Haram tikələri elə dişləyir.
Az zaman içində ev, maşın alır,
Millətin qəlbinə təzə iz salır.
Yenidən təriflər köklənir, qalxır,
Gözlər gəlişinə həsədlə baxır…
Öyülür maşını, evi bağçası,
Dolur rüşvət ilə dolur boğçası.
Rüşvətə pərəstiş bu xalqın canı,
Aləmə tanıdır Azərbaycanı.
Hər xalq bu dünyada adın daşıyır,
Öz keyfiyyətinin dadın yaşıyır…

16. X1. 2004

BÖYÜK ƏMƏLLƏRİN YAŞAR ELLƏRDƏ

Məşhur xeyriyyəçi Bakıı milyonçusu
Zeynalabdin Tağıyevin ruhuna…

Böyük əməllərin yaşar ellərdə,
Adın nəsil-nəsil gəzər dillərdə,
Sən xalqın, millətin dayağı oldun,
Bu ana Vətənin mayağı oldun.
Yurduna sərf etdin varı, sərvəti,
Küclərə dürtmədin pulu, dövləti.
Atalıq eylədin imkansızlara,
Fəqir-füqəraya çox kamsızlara.
Çəkdin şollar suyun Bakıya bir vaxt,
Su deyən dilləri eylədin xoşbaxt.
O qız gimnazyanın adı ucaldı,
Mövhumat üstündə qələbə çaldı.
Teatr, dəyirman, fabrika açdın,
Millətin qəlbində günəştək saçdın.
İlahi tökdükcə başına pulu,
Sən onun əyilib olmadın qulu…!
Millət atasıtək tanındı adın,
Ucuz təriflərə əsir olmadın.
Şimaldan cənuba gəzdi sorağın,
Yandı məmləkətdə qeyrət çırağın.
Tikdiyin binalar Bakının gözü,
Hər biri tarixdi bunların özü.

***

Ey Vətən aşiqi, millət dayağı,
Varmı xeyriyyəçi sənin sayağı?
Sərf etsin varını, pulunu elə,
Həkk olsun əbədi ağıza, dilə.
Sən ellər atası, ellər sevinci,
Millətin içində parlayan inci.
Pulunla, varınla öyünmədin heç,
Yabançı hisslərlə döyünmədin heç.
Vətənə xidmətdə oldun əbədi,
Qurdun könüllərdə sevda mə'bədi.

***

İmperya çökəndə istiqlal gəldi,
Bayraqlı ulduzlu pak hilal gəldi,
Fəqət bu səadət çəkmədi uzun,
Keçdi caynağına ölkə quduzun…
Vətənin üstünü aldı fəlakət,
Bir gün yasa batdı ana məmləkət.
Torpaq da, diyar da çox qanlar içdi…
Qırmızı terrorun əlinə keçdi.
Varını taladı gədə-güdələr,
Elə çalışdılar zülüm edələr.
Mərdəkanda bağa sığındın o vaxt,
Qaldın cəlladların əlində bivaxt.
Canına toxunub dəyməsələr də,
Üzdə mənliyini əyməsələr də,
Könlünün sutunu uçdu töküldü,
Bütün diləklərin içdən töküldü.
Sən atıb getmədin yurdu, Vətəni,
Qucdu ana torpaq müqəddəs təni.
Məzarın Mərdəkan elində yatır,
İşığın günəşin özünə çatır.
Bir el atasıtək dillərdə qaldın,
Tarixin özünə sən zəfər çaldın.

3. X1. 2004

NƏ YAZ BİLDİN, NƏ QIŞ BİLDİN

Nə yaz bildin, nə qış bildin,
Ağrıya qul olan könlüm.
Hə ağrını tanış bildin,
Bulud təki dolan könlüm.

Quşlar qatar bağlar keçər,
Dolar gözüm ağlar keçər,
Bu tilsimli çağlar keçər,
Xəzan olub solan könlüm.

Nə havalı boylanırsan?
Gah gülüb, gah vaylanırsan,
Çox dövrəmdə haylanırsan,
Məni məndən alan könlüm.

Sevda gülün dər söylədim,

Həsrətimi gər söylədim,
Mən ki, sənə ər söylədim,
Heydən düşüb qalan könlüm.

Hər bədəndə can arama,
Ötən günə an arama,
Pətək yoxsa şan arama,
Heç nə deyil yalan könlüm.

Şadimanı zar etdilər,
Acılara yar etdilər,
Hər fəqanda var etdilər,
Nə titrəyir qalan, könlüm?

BU CANLA MEHMAN ETMƏ

Ey təbib, bu canıma,
Sidqini dərman etmə.
Gəl yetiş ünvanıma,
Özgəni loğman etmə.

Qəm yeli əsdi mənə,
Nə imiş qəsdi mənə?
Səvabın bəsdi mənə,
Dərdinə dərman etmə.

Ey təbib, can ağlayır,
Ahımdan qan ağlayır,
Göydə leysan ağlayır,
Ağrımı səhman etmə.

Yox bir kəsə gumanım,
Kəsilibdi amanım,
Ötmür hicran zamanım,
Kənardan fərman etmə.

Ey təbib, könül siri,
Gah ölü, gah da diri,
Ələnir dərdin kiri,
Onunla peyman etmə.

Bu canın yox əlacı,
Sarınır bağra acı,
Düşübdü başdan tacı,
Gəl ona səhman etmə.

Ey təbib, ruhumu al,
Fələyin qoynuna sal,
Ərisin bu qeylü-qal,
Dərdlərimə şan etmə.

Şadiman aha batıb,
Bağrına ələm qatıb,
Madam ki, bəxti yatıb,

Bu canı mehman etmə.
30. X. 2004

DAĞ DAĞA SÖKƏNƏNDƏ

Dağ dağa sökənəndə
Dağda tufanlar olmaz.
Yer qəfil heykənəndə
Tənlərdə canlar olmaz.

Fələkdən qopan huysa,
İnsan insanı duysa,
Haqqın səsinə uysa
Soyuq vicdanlar olmaz.

Qəlbdən çıxan ah nədi?
Bu qədər günah nədi?
Deyilsə, Allah nədi?…
Haqqı qananlar olmaz.

Yerdən göyə vay çıxsa,
Çox düşüncə zay çıxsa,
Ağıl şərə tay çıxsa,
Xoş gələn anlar olmaz.

İdrakın yolu haqqa,
Edirlər şaqqa-şaqqa,
Dözülməsə nahaqqa
Cana divanlar olmaz.

Hamı bəşər övladı,
İnsan deyilir adı,
Şərin çıxsa fəryadı-
Tökülən qanlar olmaz.
17. X. 2004

BİR DUYĞUDA MİN BİR HİCRAN YAŞAYIR

Bir duyğuda min bir hicran yaşayır,
Həddi böyük, qüdrəti çox, sözü yox.
Hər bədəni gəzdirən can yaşayır,
Ruhu güclü, həddi uca, üzü yox.

Başdan gəlir hər bir hiylə, hər günah,
Ürəklərə o dur verən qüssə, ah,
Gecə yoxsa, hardan gəlir al sabah?
Günəş batsa, bu dünyanın gözü yox.

Bağır qanı torpaqlarda yuvadı,
Ciyərləri dilşad edən, havadı,
Yaman gündə dildən qopan, duvadı,
Yaxşı günə nə astarı, üzü yox.

Ömür bizim arxamızca sürünür,
Gah günəşə, gah dumana bürünür,

Hər zirvəyə bir uçurum görünür…
Uçurumdan xilas üçün düzü yox.

Çox təriflər endi düşdü ağızdan,
Çox yalanlar donun biçdi kağızdan,
Dil ötəndə dodaq tuti, ağız dan,
Qəlb içində yer eyləyən, izi yox.

Yolu vardı ürəklərə qadanın,
Bugünü var, sabahı yox nadanın,
Şadimanın ağlatmayın siz canın…
Onsuz da ki, bu dünyada gözü yox.

17. X. 2004

SEVİNCİN BƏXTİ AZDI

Sevincin bəxti azdı,
Kədərə bac verməyin.
Ömrə bir dəfə yazdı,
Ağrıya tac verməyin.

Duyğuda duyğu yatır,
Könlü dəryaya atır,
Hiss ki, aləmi qatır,
Ona əlac verməyin.

İnsan ömrü çox qısa,
Qoymayın batsın yasa,
Qəlb özün niyə qısa…?
Dərdə rəvac verməyin.

Başdan keçir əzablar,
Könlə edir xitablar,
Qəm çəkən necə tablar?
Zülmə əlac verməyin.

Biz kainat köləsi,
Ağla düşür şö'ləsi,
Hər doğulan öləsi…
Şərə xərac verməyin.

Bu dünyanı sirr bilin,
Hər əzabın kir bilin,
Şadimanı kür bilin,
Təbə me'rac verməyin.

17. X. 2004

YERLƏ GÖYÜN SAVAŞI

Yerlə göyün savaşı,
Axır gözünün yaşı,
Aynamayır heç başı,
Kim aqil, kim də naşı?

Ağrıya baş olmayır,
Heç biri daş olmayır.

Hikkəsi andan çıxır,
Vuruşu qandan çıxır,
Qüruru şandan çıxır,
Fitvası candan çıxır,
Necə tələş olmayır?
Heç biri daş olmayır.

Yerlə göyün şəri çox,
Zinəti bol, zəri çox,
Gönü qalın dəri çox,
Hələ dərdi-səri çox,
Hər gözü yaş olmayır,
Heç biri daş olmayır.

Hər tərəfində dava,
Zəhərlidi su, hava,
Yetmir haqqına duva,
Dağılır min bir yuva…
Dilində kaş olmayır,
Heç biri daş olmayır.

Göyü yerə dam edən,
Hər dam içrə şam edən,
Birini nakam edən,
O biriylə kam edən,
Ah, başabaş olmayır,
Heç biri daş olmayır.

Bitmir şərin zavalı,
Başı olan havalı,
Fırlanır yerin valı,
Nə çalır dəf, qavalı?
Göz üstə qaş olmayır,
Heç biri daş olmayır.

Bitməyir yer, göy qadan,
Zülüm edir can odan,
Yanır haqqını dadan,
Bilmirəm, ey Yaradan,
Tamam təraş olmayır,
Heç biri daş olmayır.
17. X. 2004

ƏLDƏN GETDİ ZAMANLAR

Əldən getdi zamanlar,
Qayıtmağa guman yox.
Dövran məni yamanlar,
Hər kamalda iman yox.

Dilə şələ çatdılar,
Yola tələ atdılar,

Nə aləmi qatdılar?
Taqət gedib, aman yox.

Eşqə bir ünüm olmaz,
Gələn xoş günüm olmaz,
Bu dərddən dönüm olmaz,
Yaxşı batıb, yaman yox.

Bulud qan piyaləsi,
Gurşadı ah-naləsi,
Öldü çölün laləsi,
Halına əl-aman yox.

İnsanın min bir üzü,
Gecənin bir gündüzü,
Necə durur yer üzü?
Yaradana iman yox!…

Başı taca şah edən,
Bu tacla günah edən,
Özünü Allah edən…
Yerlə göyü ah edən,
Ölüm gəldi – dərman yox.

Hər zülüm puçdu, vallah,
Çox taxtlar uçdu, vallah,
Bu necə suçdu, vallah?
Xilasına loğman yox…
17. X. 2004

ÜRƏYİMDƏ PƏRVAZ EDƏN

Ürəyimdə pərvaz edən,
Gah hicrandı, gah da ələm.
Qəmlə min bir avaz edən,
Gah bu candı, gah da naləm.

Yerin, göyün əsiriyəm,
Dərdlərimin qəm siriyəm,
Nə ölüyəm, nə diriyəm?
Gah qəlb yandı, gah da aləm.

Əzablara edam gəlir,
Uzaqlardan sədam gəlir,
Ah içində sevdam gəlir,
Gah tikandı, gah da laləm.

Təbim gəlib çıraq üstə,
Bu Şadiman soraq üstə,
Əlim gəzən varaq üstə,
Gah sükandı, gah da qələm.
17. X. 2004

HAQQ BİLSƏYDİ NƏ ÇƏKİRƏM

Haqq bilsəydi nə çəkirəm,
Belə oda düşməzdi heç.
Gözlərimlə qan əkirəm,
Ümidlərim olubdu heç.

Dərya könlüm haçalanıb,
Tufanına boyanıram.
Yuxum ərşə ucalanıb,
Ah, vay ilə oyanıram.

Hər saata bir ah düşür,
Ağrılara baş oluram.
Gözlərimdən sabah düşür,
Zülmətimə daş oluram.

Başdan aşır həyacanım,
Atəşində qovruluram.
İsinməyir nə bu canım?
Nə də göyə sovruluram?

Zülmət boğur sabahımı,
Diləklərim düşür kökdən.
Axtarıram dərgahımı,
Şimşək qopur göydə bərkdən.

Buludların gözü daşır,
Bəbəklərin yuyur yağış.
Dərdim gəlib başdan aşır,
Ürəyimə salır naxış.

Sıxır məni bu yer, bu göy,
Candan qaçan tən kimiyəm.
Nə taqət var, nədə ki, hey,
Vaxtsız düşən çən kimiyəm.

Haqq bilsəydi nədir həyat?
Bu həyata bar olmazdı.
Hiylə təzə, hiylə boyat,
Binəsindən var olmazdı.

17. X. 2004

ÜRƏYİMDƏ YENƏ HƏSRƏT ÇAĞLAYIR

Ürəyimdə yenə həsrət çağlayır,
Dəryasında bata-bata düşmüşəm.
Ruhum, canım aləmləri bağlayır,
Dövrəsində neçə qata düşmüşəm.

Uçdu getdi istəklərim ün kimi,
Zaman məni çox əyirdi yun kimi,
Dəyirmanda çəkdi daşa un kimi,
Fırlandıqca min bir qata düşmüşəm.

Haqqın gözün çıxardıblar yuxuda,
Qırılıbdı yerin tale oxu da,
Hər anımız elə qara-qorxuda,
Bilməm necə bu həyata düşmüşəm?…

Əzablarım zamanımı suçladı,
Ah daraldı, günüm yaman puçladı,
Dərdin oxu ürəyimi ucladı,
Nişanına yata-yata düşmüşəm.

Ömür ötür ağlımızı hallayır,
Ayağını boynumuza sallayır,
Anı verir sanyələri dallayır,
Bəxtəvərəm, nə büsata düşmüşəm?

Ulduzların köz-köz bağrı çatdadı,
Axşam düşüb zülmət yenə atdadı,
Ay gecənin biləyini qatdadı,
Allah, necə xoş saata düşmüşəm?

Səyyarələr göydən yenə göz eylər,
Ürəyimdə ocaq çatar, köz eylər,
Ah, me'racdan bir səs mənə döz eylər,
Haqq buyurub kainata düşmüşəm.

17. X. 2004

SAAT ƏQRƏBLƏRİ DOLANIR BİR-BİR

Saat əqrəbləri dolanır bir-bir,
Günləri özüylə sürüyüb gedir.
Ömrümün dumanı baxtımla əlbir
Məni çarşabına bürüyüb gedir.

Ağlın tərəzisi çəkir fikrimi,
Haqqımın çiyninə tökür fikrimi,
Bağrımın içinə bükür fikrimi,
Düşür atəşimə əriyir gedir.

An uçur vaxtımın qanadlarında,
Bir həyat duyuram imdadalarında,
İdrakın can güdən fəryadlarında,
Hər nalə könlümü sürüyüb gedir.

Əyilir köksümə dərd çəkən başım,
Göydəmi, yerdəmi bu can sirdaşım?
Ömür qaça-qaça artır tələşım,
Baxtım hara düşdü, yürüyüb gedir?

Qəmdən asılmışam başı aşağı,
Bu qəmlər boynumun yeddi qurşağı,
Ürəyim ağlayan anan uşağı…
Bir ülfət görəndə kiriyib gedir.

17. X. 2004

DÜNYA ÜZÜ NƏ TALANDI?

Dünya üzü nə talandı?
Talana Allah neyləsin?

Dildən qopan söz yalandı,
Yalana günah neyləsin?

İnsan haqqı biçdi getdi,
Öz qanını içdi getdi,
Şeytan yolun seçdi getdi,
Candan çıxan ah neyləsin?

Çoxu şəri nemət sayır,
Düz boynuna qamət sayır,
Tanrısına hörmət sayır,
Hönkürən sabah neyləsin?

Bir hörmətə can dəymədi,
Dəyib pisi heç əymədi,
Yaman başa əl döymədi,
Bəs hövlanak gah neyləsin?

Hər beyində iblis yatır,
Məkirli min növ hiss yatır,
Bacasında çox hiss yatır,
Hər yuvada bir pis yatır,
Şərə qibləgah neyləsin?

Qibləyə boş alın vurma,
Qəlb sındırıb, ürək vurma,
Üzü səcdəyə heç durma-
Dursan səcdəgah neyləsin? !…

Ey Şadiman, haqdan demə,
Haqq gələrmi bu aləmə?
Qalxma zilə, enmə bəmə,
Coşanda hərgah neyləsin?

15. X. 2004

ÇIRPINIB QALIRAM MÖHNƏT İÇİNDƏ

Çırpınıb qalıram möhnət içində,
Möhnəti yuvaya salan olmadı.
Ömrümüz vurnuxur möhlət içində,
Əbədi dünyaya qalan olmadı.

Bir bunu düşünən varmı ki, sağkən?
Çoxu qara deyir çox şeyə ağkən,
Hər canın içində günahı dağkən,
Bundan zərrə qədər solan olmadı.

Çoxu İlahiyə nağıltək baxır,
Yığdığı sərvətə noğultək baxır,
Hər bir mö'cüzəyə ağıltək baxır,
Ağlının sehrinə dalan olmadı.

İnsan varlığıyçın çırpınır hər an,
Min cürə bəladan qırpınır hər an,
Yolunu azanda sarpınır hər an,
Bəs kim ömründə nalan olmadı?

İllərin xəzanlı yelləri əsir,
Biz vaxta qul olduq, anlara əsir,

Hər can-yiyəsiyçin açılmayan sirr…
Hansı bədən sirlə talan olmadı? !…

Doydura bilmədik gödənimizi,
Günahla doldurduq bədənimizi,
Saxlaya bilmədik gedənimizi…
Haqqın mö'cüzəsi yalan olmadı.

Zamanın əlində ömrün yüyəni,
Ağlım yox söyləyir ürək deyəni,
Heçnə düzəltməyir fələk əyəni,
Bu sınıq könlümü alan olmadı.

18. X. 2004

EY SƏADƏT QUŞU, HARDA QALMISAN ? !

Ey səadət quşu, harda qalmısan?
Bəs mənim başıma niyə qonmadın?
Hansı bəxtəvərin könlün almısan?
Gəlib əhvalıma bir dəm yanmadın.

Çalıb qanadları ötdün yanımdan,
Çırpındım dəlitək həyacanımdan,
Çıxmır məhəbbətin, çıxmır canımdan,
Nədən varlığımı heç cür anmadın?

Mən sənin hüsnünün aşiqi ikən,
Tərk edib getmisən könlümü erkən,
Sən ki, saray yapan, sən ki, ev tikən,
Bəs mənim qapımda heç dayanmadın.

Ey səadət quşu, könlüm havalı,
Dəyir hər gün ona şərin zavalı,
Təbim elə çalır dəfi, qavalı,
Onun sədasına bir oyanmadın.

Mən körpə uşaqkən sən qanad açdın,
Neçə yol başımın üstündən uçdun,
Mən hara getdimsə, sən ora qaçdın?
İndi o günləri niyə sanmadın?

Gözlərim göylərin ənginliyində,
Səni arayıram zənginliyində,
Ömrümün, günümün gərginliyində,
Mənim atəşimə bir boyanmadın.

Səni səsləməkdən dildən olmuşam,
Sənə əl etməkdən əldən olmuşam,
Ömürdən olmuşam, ildən olmuşam,
Bu qədər möhnətdən heç usanmadın.

Ey səadət quşu, Şadiman xəstə,
Yüklənib ağrılar ürəyi üstə,
Mənim taleyimlə gəl durma qəsdə,
Heç kəsin varlığın axı danmadın…?

18. X. 2004

RUH -VİCDAN

Bəşər xəlq olandan insan doğulur,
Hər kəsin can sirri içdə boğulur,
Hər ruh hər bədəndə canla ölçülür,
Dontək səvab-günah boyna biçilir.
Adamın ölməyi çəminə yatmır,
Ölümün açmağa qüdrəti çatmır.
Çoxu zənn eyləyir puçdu o dünya,
İdrakın mifində uçdu o dünya.
İnsan dinlərə də şübhəylə baxır,
Ağlının göyündə şimşəklər çaxır…
Müharibə, savaş, qırğın və ölüm,
Vicdan qəh-qəhədə, can bölüm-bölüm.
Zəkanı ağrıdan yalnız vicdandı,
Vicdan dediyimiz bədəndə candı…!
O bizə sağ ikən axtarır çara,
O bizi izləyir qarabaqara.
Bir günah işlədib qəlbə dəyəndə,
Haqqın tərəzisin yana əyəndə,
Qışqırır bağırdan, başdan, bədəndən,
Gözlərdə yaşları çalxadır dən-dən,
Səvab eyləyəndə vicdan çağlayır,
Könül kitabını eşq varağlayır.
Allahın vicdana əmri yetəndə,
İnsanın yaşamaq ömrü bitəndə,
Çırpınır bədəndən uçur can haqqa,
Bəllidir qeyibdən bu ünvan haqqa.
Bir məzar qazılır tən yetir ora,
Bu ölüm sağların köksünə yara.
Qalanların bağrı qəmdən ah olur,
Allah dərgahına gedən ruh olur.
O hələ dərgaha yetməmiş öncə,
Çırpınır boşluqda qırx gün, qırx gecə!
Göylə yer arası hey qanad çalır,
Günahı çoxdursa boşluqda qalır.
Cənnət dediyimiz yer kitabxana,
Hər rəfdə yer vardır hər çıxan cana.
Əgər çıxan canın günahı yoxsa?…
Ölüm, qan törədən min ahı yoxsa?…
Özü rəfdə yerin tutacaq həmən,
Torpağına rahət qovuşacaq tən.
Əgər günahları boldursa, onda
Tufan at oynadıb qopacaq canda.
Çırpınıb qalacaq yer-göy arası,
Ölüm fırtınası, məzar yarası!…
Ruh şər libasından qopmayacaqdır,
Öz yerin heç zaman tapmayacaqdır!
Bax budur, cəhənnəm əzabı, eyvah,
Sağ ikən vicdana yüklənən günah.
Ölərkən ruhunu izləyəcək Rəbb,
Heç nə əzabına olmayacaq həb.
Alışıb yanacaq, gah da sönəcək,
Gah yerin tərkinə düşüb enəcək.
Gah şeytan belində çula dönəcək,
Əbədi dünyada qula dönəcək!…
Heç kəs imdadına yetməyəcəkdir,

Bu ağrı, bu sitəm bitməyəcəkdir.
Peşiman olsa da verməz bir fayda,
Belədir, Allahın qoyduğu qayda!…
16. X1. 2004

OĞRUN - OĞRUN BAXAN TƏBİM

Nədir belə mənə tərəf,
Oğrun-oğrun baxan təbim?
Eyləmirsən qəmləri dəf,
Ürəyimi yaxan təbim.

Gah ağladıb, gah güldürdün,
Ahı ərşə nə bildirdin?
Sağ ikən min yol öldürdün,
Axırıma çıxan təbim.

Çox qaçırtdım canı səndən,
Qopmadı heç eşqin təndən,
İstədiyin nədir məndən?
Ruhu əldə sıxan təbim.

Hardan tapdın ürəyimi?
Varaqladın diləyimi,
Əsdirdin qan küləyimi,
Qələmimdən qorxan təbim.

Şadimanda can arama,
Əl vurma gəl bu yarama,
Nə düşmüsən, de qarama?
Könlü tikib yıxan təbim.
16. X1. 2004

QƏMLƏRİM ÜRƏYİMİN ŞAH MİZRABIN ÇAĞLADIR

Qəmlərim ürəyimin şah mizrabın çağladır,
Səhər-axşam könlümü hönkürtüylə ağladır,
Ümidimin qolların zəncirlədir, bağladır,
Hər ahımın içində bir sabahım açılır,
Asimanın günəşi bağırımda saçılır.

Hikmət dolu təbiət ruhumun açarıdır,
Təbim çıxıb bədəndən göylərə uçarıdır,
Nə zamandı bu canım tənimdən qaçarıdır?
Duyğudan duyğu doğur mənim könül yuvamda,
Yaradanın adı var ərşə çıxan duvamda.

Eşqə düşən ürəyim eşqə nəfəs arayır,
Bütün ağrı-acıya canda qəfəs arayır,
İlhamım cuşə gəlir yeni həvəs arayır,
Sabahımın göz yaşı gecəmdə pərvazlanır,
Könlümə dilək dolur ürəyim avazlanır.

Fırtına, tufan doğur dəryaların içində,
Fikirlər çarpazlanır xülyaların içində,

Gözlərim azıb qalıb dəryaların içində,
Minib xəyal gəmimi düşmüşəm nəhirlərə,
Şeytanı bol dünyanın hər üzü qəhərlərə…

Bunu dərk edirkən mən ağrıma qul olmuşam,
Zəhər dadan dilinə necə noğul olmuşam?
Çapan hicran atına yaxşıca çul olmuşam,
Şadimandan bulmayın bunca şadimanlığı,
Tufanlara tuş olub onun nəş'ə canlığı…
16. X1. 2004

BİR ÇİÇƏKLƏ YAZ OLMAYIR

Bir çiçəklə yaz olmayır,
Yazın könlü açsın gərək.
Bir baxışla naz olmayır,
Gözlər atəş saçsın gərək.

Hər duyğudan hicran baxır,
Hər bədəndən bir can baxır,
Vaxt içindən nə an axır?
Ceyran təki qaçsın gərək.

Xəyallarım söz bilməyir,
Tez alışır köz bilməyir,
Döz deyirəm döz bilməyir,
Candan şərbət içsin gərək.

Hər möhnətə qul olanlar,
Xırdalanan pul olanlar,
Ürəyinə çul olanlar,
Can zəkanı qucsun gərək.

Qoymun şeytan sabah edə,
Hər sabaha min ah edə,
Kim istəmir günah edə?
Şərə dişin qıcsın gərək.

Coşan könül təblə ola,
Dərdi sevən həblə ola,
O can istər Rəbblə ola,
Hər fitnədən qaçsın gərək.

Öz ağlını ziya sayan,
Yaradanı riya sayan,
O dünyanı röya sayan,
Dərgaha yol açsın gərək.

Ey Şadiman, fikir yuva,
Gəlib səni candan qova,
Əlini aç eylə duva…
Çıxıb candan uçsun gərək.
15. X. 2004

HƏR ÜRƏKDƏ ÜLFƏT GƏZƏN

Hər ürəkdə ülfət gəzən,
Ülfətinə çırağ olsun,
Hər baxışda nifrət gəzən,
Nifrət bizdən irağ olsun.

Duyğuları eşqə köklə,
Ürəyinlə dolan ərklə,
Nəş'əni tut, qəmi təklə,
Səadətdən sorağ olsun.

Ey həyatı puç edənlər,
Hər addımda suç edənlər,
Arzu, kamı heç edənlər,
Yaradana marağ olsun.

Ümid doğur göz yaşında,
Şeytan yeri var başın da,
Vicdanla şər savaşında,
Təki idrak yarağ olsun.

Haqq öyənə haqq yar olar,
Fəqət günü ah-zar olar,
Cana düzdən nə zar olar?
Can fitnədən qırağ olsun.

16. X. 2004

OCAQINDA YEL ƏSƏNDƏ

Ocağında yel əsəndə,
Alov ötür, köz sürünür.
İlhamından eşq küsəndə,
Qələm əsir, söz sürünür.

Qəm ürəkdə can girləyir,
Səadəti məngirləyir,
Qəlbdə nə var o kirləyir,
Zaman qaçır, iz sürünür.

Yoxuşları qalxmaq çətin,
Kimi qorxaq, kimi mətin,
Qıçı sınsa qətiyyətin,
Bədən enir, diz sürünür.

Yaltaqların işi asan,
Əyilməyir əsil insan,
Nədən vicdan olub ehsan?
Əyri qalxır, düz sürünür.

İtaəti öyrənən baş,
Köləliklə olur sirdaş,
Cavan, qoca ötsə də yaş,
Ayaqlarda üz sürünür.

1. X. 2004

ZƏKA BULUDLARI E LƏ TOQQUŞUR

Zəka buludları elə toqquşur,
Qalmışam ürəklə can arasında.
Yenə duyğularım qaynayır, daşır,
Ömrün notları var an arasında.

Fikirlər zirehli sərkərdə – çapır,
Neçə yol dalanı, döngəni sapır?
Təbim vəcdə gəlir alovtək qapır,
Qalıb arı kimi şan arasında.

Qayğılı-qayğısız vaxtım haylanır,
Sinəmdən dünyanın qəmi boylanır,
Ürəyim ah səkir dərddən vaylanır,
Bu həyat savaşla qan arasında.

Yenə qatarlanıb zirvə dumanı,
Alır ağuşuna gələn zamanı,
Kəsilib göylərin, yerin amanı,
Dəyərdən aşağı şan arasında.

Boğazdan yuxarı fitnə-fəsad təb,
Haqqı ayaqlamaq naqislərə dəb,
Damarı bədənə sultan etdi Rəbb,
Fəqanı çırpınır qan arasında.

Basıb ətrafımı ot, ələf, qanqal,
Qəlbimin odunda dəmlənir manqal,
Könlüm ocaq çatıb ağlımsa tonqal,
Düşüb alovuna yan arasında.

Gələnin hər işin bu fələk görür,
Gedəni dünyadan Yaradan kürür,
Şadiman, ürəyim elə hönkürür,
Onun dərdlərini an arasında.

28. X. 2004

SABAHDAN AXŞAMA GÜN ELƏ UÇUR

Sabahdan axşama gün elə uçur,
Dalınca qaçıram çata bilmirəm.
Batıbdı qan tərə vaxt puçur-puçur,
Əlimi atıram tuta bilmirəm.

Gecəm qılınc təki kəsir başımı,
Qanlarda isladır bu göz yaşımı,
Ömür sarayımdan sökür daşımı,
Zaman xurcununa ata bilmirəm.

Sanyələr anlara kölətək əsir,
Vaxtım haray çəkir dilini kəsir,
Zülmət hicranıma tikibdi qəsir,
Bu qəsrin içində yata bilmirəm.

Könlümün əzabı sözdən boylanır,
Bağrımda fırtına gözdən boylanır,
Zaman cəbirində ömür saylanır,
Onun ağrısına bata bilmirəm.

Həyat ocaq çatıb saatlarımdan,
Elə qan sızlayır qəlb çatlarımdan,
Çeşmələr yaradır can qatlarımdan,
İçində üzürəm bata bilmirəm.

İllər elə gedir sükuta laldı,
Doğulub – var olmaq nə qeylü qaldı?
Zəhəri can üzür, şirini baldı,
Yükünü belinə çata bilmirəm.

Sanki, duyğularda bir xəyalmışam?
Cəfaya qul olub fikrə dalmışam,
Dünyanın gözündə donub qalmışam,
Özümü aləmə qata bilmirəm.

Bu bəşər mincürə sifət içində,
Duyğusunun çoxu nifrət içində,
Könlümün sarayı xiffət içində,
Düşmüşəm mən hansı qata bilmirəm?…
29. X. 2004

ZEHİNİMDƏ FİKİRLƏRİM

Zehinimdə fikirlərim,
Şimşək təki çaxıb keçir.
Ümidə yar zikirlərim,
Oğrun-oğrun baxıb keçir.

Nə müddətdi küsübdü can?
Can içində bir həyacan,
Ağlımı didən hicran
Ürəyimi yaxıb keçir.

Başda əsən nə yelidi?
Ağlı getmiş bir dəlidi,
Zaman, sanki dağ selidi,
Elə coşqun axıb keçir.

Hər ürəyin öz atəşi,
Rəbb göyündə can günəşi,
Ölür dilək, qalır nə'şi,
Qəlbə oxun taxıb keçir.

Fələk çalır qulağa zəng,
Yükü ağır, yerişi ləng,
Dildən qopan hər cida, cəng,
Varlığımı yıxıb keçir.

Göy buludun qanın əmir,
Rəbb dilindən qopan əmir,
Bir mələkdi ötən ömür,
Əllərimi sıxıb keçir.

Ey Şadiman, bulma haqqı,
Yerdə onun nədir haqqı?
Bəşər kölə edir haqqı,
Fələk başa çaxıb keçir.
29. X. 2004

EY QADADAN QOPAN CANIM

Ey qadadan qopan canım,
Özün haqda tapan canım,
Ümidə qəsr yapan canım,
Bu qəsirdə sapan canım,
İçində ki, nə yaradı?
Düşdüyün bu yer haradı?

Ürəyimi çox nazladın,
Naz içində avazladın,
Bəsdi daha pərvazladın,
Bahar dondun, qış yazladın,
Ah-vay dərdə nə çaradı?
Düşdüyün bu yer haradı?

Ey bədəndə talan canım,
Özün oda salan canım,
Oda düşüb qalan canım,
Ömür röya, yalan, canım,
Yaxdığı sənə qaradı,
Düşdüyün bu yer haradı?

Hər əzabı köz eləmə,
Hər ağrını söz eləmə,
Dərdlərimə göz eləmə,
Mənə belə üz eləmə,
Rəbblə cana yer aradı,
Düşdüyün bu yer haradı?

Sənə etdim zülüm, canım,
Yaxdı səni dilim, canım,
Bağrı dilim-dilim, canım,
Gəlib yetib ölüm, canım,
Yanında üzüm qaradı,
Düşdüyün bu yer haradı?

Nə sızlarsan için-için?

Əldən düşdün belə neçin?
Hər ömürə bir gün biçin,
Əzabları yığdın çin-çin,
Gör köçü hardan-haradı?
Düşdüyün bu yer haradı?

Şadimanı bilmə naşı,
Ürəyimdə həsrət daşı,
Könlə axır gözüm yaşı,
Səndən qeyri yox sirdaşı,
Üz çevirsə nəkaradi?
Düşdüyün bu yer haradı?

29. X. 2004

AY İLƏ DOLANDI, İL DƏ ZAMANA

Ay ilə dolandı il də zamana,
Saatlar su təki nə axdı keçdi?
Könlümüz büründü aha, amana,
Göyündə şimşəklər nə çaxdı keçdi?

Sübhümüz açıldı səda içində,
Gecə köçün sürdü vida içində,
Kim nəş'ə, kimi də qada içində,
Ağrılar ürəyi nə yaxdı keçdi?

Kürəmiz büdrədi dağlar oynadı,
Yerdə bulaq çıxdı gözü qaynadı,
Öz əksin görənə dünya aynadı,
Gələn bu aynadan nə baxdı keçdi?

İllər öz telini vaxtla daradı,
Haqqı dərk edənin günü qaradı,
Axrı çatan bildi dünya haradı?…
Təni Rəbb məzara nə çaxdı keçdi?

Bəlkə bu yer üzü insana qəfəs?
Bəşərə sınaqçın Rəbb verdi nəfəs,
Haqqın dərgahından gəlmədi bir səs…
Bəs şüuru hər başa nə taxdı keçdi?…

Ay ildən bac aldı, il də zamandan,
Dünya qurtulmadı savaşdan, qandan,
Bədən qurtarandan bir quru candan,
Hər kəsin ulduzu nə axdı keçdi?

Şadiman, günlərin qopdu ömürdən,
Çörək hasil olur undan, xəmirdən,
Kainat heç zaman çıxmaz əmirdən,
Rəbb nəyi boşuna buraxdı keçdi?

11. X. 2004

SƏADƏTLƏ OYNAYIRAM

Səadətlə oynayıram,

Səadətim ay dolanır.
Yenə coşub qaynayıram,
Dilimdə ah-vay dolanır.

Dağ dumanın yellər qovub,
Sınığlığın dillər qovub,
Ömrü şirin dillər qovub,
Zamanında say dolanıb.

Qismətimiz budu, getdi,
Onla dedi-qudu getdi,
Həsrət gözü yudu, getdi,
Bəbəyimdə çay dolanır.

Ötən günə əlim çatmaz,
Gözdən axan selim çatmaz,
Ha haylasam dilim çatmaz?
Dodağımda hay dolanır.

Şadiman, ah həyatında,
Nə çapırsan qəm atında?
Zaman ötüb saatında,
Ömürdə hay-hay dolanır…
6. 09. 2004

CANDAN ÇIXMIR AĞRI-ACI

Candan çıxmır ağrı-acı,
Qəlb içinə od qalayır.
Başdan düşür ömür tacı,
Üstündə də qurd ulayır.

Ölçü, çəki baxışladı,
Vicdan onu naxışladı,
Vaxt saatı baxışladı,
Saniyələr an talayır.

Duran zaman qırtdı deyən,
Telini ah qırtdı deyən,
Fələk qarnın yırtdı deyən,
Axan qanın gün yalayır.

Tale başa yaman döyür,
Döyərkən də haqqın öyür,
Sonra durub özün söyür,
Şeytan quyruq nə bulayır?

Şadimana can əyildi,
Əvvəl belə heç deyildi,
Pislik şərə bir meyildi,
Qazanını xar bulayır.
6. 09. 2004

MƏN SƏNƏ NEYLƏDİM?

Mən sənə neylədim, neylədim, fələk?
Uçurtdun könlümü, yuva tapmadım.
Qəlbin naləsindən boğuldu dilək,
Onu diriltməyə hava tapmadım.

Ürəyim hıçqırtdı hamıdan gizli,
Zaman at oynatdı, dünya minüzlü,
Ömrün dolayları nə tikan izli?
Dili ovutmağa duva tapmadım.

Gah yerdən asıldım, gah da ki, göydən,
İçib, dərd qədəhin kefləndim meydən,
Yoruldum, usandım, düşdüm lap heydən,
Ağlayan könlümə dəva tapmadım.

Gözdə çeşmələndi kədərin ahı,
Bəbəklər qəsd ilə açdı sabahı,
Canım imdad deyib gəzdi Allahı…
Haqqa yetişməyə nəva tapmadım.

Ömür bir ağacmış, İlahi, nə sir?
Töküldü ağacdan yarpaqlar bir-bir,
Bu uçan günlərim fələklə əlbir,
Bəs niyə özümdə rəva tapmadım? !

16. 07.2004 / Pirallahı

RUHUMA NECƏ CAN, GECƏ

Ah, gecə, ruhuma necə can, gecə?
Sükutun önündə əsir an, gecə,
Lallığa qapılma, danış, can gecə,
Ulduzlar alışır qoynunda necə?
Mənim istəklərim könlümdə əsir,
Ürəyim səninlə mehrə tələsir…

Ey bəşər xofunu yatıran mələk,
Hər ağrı-acını batıran mələk.
Hissimin başına sığal çək elə,
Versin kədərimin cilovun yelə,
Həyat atəşimi sinəmdə yandır,
Zamanın atını bir an dayandır.
Vaxtın yüyənini əlimə alım,
Uçuşan anları yerinə salım.

Ah gecə, ruhuma necə can gecə?
Ələnən şehini içə can gecə.
Qıyma kədərimin ahı ucalsın,
Könlümə, qəlbimə qələbə çalsın.

Sükutun önündə dincəlir ürək,
Qapılır ağrıya incəlir ürək.

Ovut, atəşinlə onun ruhunu,
Qoparım sinədən kədər ahını.
Ah gecə, ruhuma necə can gecə?…
16. 07. 2004 / Pirallahı

İNSAN ÖZÜN İTİRİB GÜNAHLARIN İÇİNDƏ

Döyərkən acı rüzgar hər gün qapı-bacanı,
Fələk alıb aparır ömürdən can qucanı,
İblislər tənzimləyir şər-şeytana acanı,
Heç kəs görə bilməyir haqq deyilən ucanı,
Nə qədər intizar var sabahların içində?…
İnsan özün itirib günahların içində.

Dodaqdan qopan nalə göylərə pərçim olub,
Həqiqəti dərk edən hər ürək əlçim olub,
Rəb əlində ömrümüz sutək bir içim olub,
Dilim param-parçadır eyvahların içində!
İnsan özün itirib günahların içində.

Göz yaşından yuğrulub yerin torpağı, daşı,
Ağıl dərinə gedir, silkələyir qəm başı,
Çaş-baş olan şüurlar qaçan zamana naşı,
Hönkürür içimizdən haqqa könül sirdaşı,
Çoxu canın axtarır bu ahların içində,
İnsan özün itirib günahların içində.

Zülmə mübtəla bəşər yerdən göyə dil açır,
Ağıl haqqa sığınır Yaradana əl açır,
Şüurun gülüstanda fitnə-fəsad gül açır,
Xəyallar itib gözdən əngin üfüqə qaçır,
Gün əyilir zamana gah-gahların içində,
İnsan özün itirib günahların içində.

Nə müddətdi ah deyib aha qapı açıram?
Ağlıma ismarlanıb ürəyimdən qaçıram,
Ulduz təki parlayıb, günəş təki uçuram,
Hər zəkaya yol tapıb göylərində uçuram,
Nə qədər sitəm yatır agahların içində?
İnsan özün itirib günahların içində.

Canım bədəndən çıxıb səmalarda təklənir,
Ruhum, hissim, varlığım Yaradana köklənir,
Necə ki, diləklərim həqiqətə görklənir?
İstəyim nə puç olur, zamanım hərklənir?
Qəfil bir kədər yatır pənahların içində,
İnsan özün itirib günahların içində.

Ey Şadiman, nə çaşqın boylanırsan dünyaya?
Doğulanan getmisən necə dərin röyaya?
Ömrə alüdə olub aldanmısan riyaya,
Vermə badə canını gələn – gedir xülyaya…
Ağılını tora salma hərgahların içində,
İnsan özün itirib günahların içində.
17. X1.2004

TALEYİN QƏRİBƏ OYNUNA DÜŞDÜM

Doğuludm, dünyanın qoynuna düşdüm,

Taleyin qəribə oynuna düşdüm.
Ötüşdü fırtına içində anlar,
Artdı çəkişmələr, artdı divanlar,
Gecəm sabahıma amanə gəldi,
Həsrətim ahımdan imanə gəldi.
Dodağım könlümün naləsin uddu,
Dilim ağrıların ipini tutdu.
Ömrün əzabları qor oldu getdi,
Nəş'əm qəmə düşdü kor oldu getdi.
Görmədim kimsədən bir pasibanlıq,
Nə anın sevincin, nə mehribanlıq?
Ürəyim züy tutdu hər gileyimə,
Əridi şam kimi canım heyimə.
Könlümün ağrısı gözümdən keçdi,
Ömrün dolayları dizimdən keçdi.
Dərdi-sər içində göynədi qıştək,
Vaxtın civarında buzu naxıştək.
Özümdən, sözümdən doğuldu ahım,
Mənə hicran verdi açan sabahım.
Qüssədən yaratdı məni Allahım,
Bilmirəm, bilmirəm nədir günahım?
Doğuldum, dünyanın qoynuna düşdüm,
Taleyin qəribə oynuna düşdüm.

4. X11. 2004

YENƏ KÖNLÜM CİLVƏLƏNDİ

Yenə könlüm cilvələndi
Cilvəsi hər andan keçdi.
Ürəyimə qor ələndi,
Od-alovu candan keçdi.

Atəşimə yandı aləm,
Gəldi dağdan, daşdan naləm,
İçimdə toy qurdu ələm,
Ağrıları qandan keçdi.

Səadətə çıraq tutdum,
Qəmi ondan qıraq tutdum,
Qələm alıb varaq tutdum,
Üz çevirib yandan keçdi.

Təbim gecəm üstə çökdü,
Sinəsini yırtıb sökdü,
Pətəyimə şirə tökdü,
Arı təki şandan keçdi.

Vaxt zamandan qopan daşdı,
Saniyələr seltək daşdı,
Gün ömrümlə çox savaşdı,
Yenə ağıl qandan keçdi…

Tale durdu yolda şəstlə,
Əl eylədi mənə qəsdlə,

Pıçıldadı elə pəstlə,
Pıçıltı hər yandan keçdi.

Heç yanlışı yox röyanın,
Ömrün qırar qəm duyanın…
Ey Şadiman, bu dünyanın
Üzü min bir dondan keçdi.

4. X11. 2004

ÜRƏKDƏ HİCRAN ƏZABI

Ürəkdə hicran əzabı…
Dildə həsrətin iztirabı.
Gecəm gündüzümün ağrı beşiyi,
Çəkir gözü yaşla dolu ürəyimə keşiyi.
Zülümlər bağrımı dəlir,
Üstümə dünyanın qəm karvanı gəlir.
Saat ağır-ağır yırğalanır.
Ömürdən ötən saniyələri danır.
Sükunət ələnir göydən başıma,
Bürünürəm can tələşıma.
Haqqa minnətçi oluram,
Kipriyindən nəm tökülən bulud təki doluram.
Şimşəklər çaxır sinəmdə,
Elə bu dəmdə,
Oğrun-oğrun ürəyimə boylanıram,
Qəlbimi kabab etmiş ağrılarıma vaylanıram.
Canım boğazdan yuxarı qaçır,
Səmaya yol açır.
Qəmlərimə qırpınır,
Qanadı qırılmış quş təki çırpınır.
Tərk edib getmək istəyir məni,
Tutur yolumu bəxtimin çəni.
Ağrılarıma qul olur,
Xəyalıma çul olur.
Təntiyə-təntiyə vücuduma çəkilir,
Gözümdən ahı tökülür.
Yenidən varlığımla sevdalanır,
Kədərimlə qidalanır.
Ürəkdə hicran əzabı,
Dildə həsrətin iztirabı…

30. X11. 2004

NƏDİR BƏŞƏRƏ QALAN, RƏBB EŞQİYLƏ YANMASA?…

Bu dünya hicran dolu ağrıların açarı,
Dərə-təpəyə salır zülümlərdən naçarı,
Ömrü qılınctək kəsən zaman haqqın uçarı,
Doğulub-ölən bəşər vaxta doğru qaçarı,
Pislik qəlbdən yan keçər qəlb pisliyi anmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Hər dəryanın sevgisi fırtınadan doğarkən,
Qasırğa iblis təki dalğaları boğarkən,
Bu vəhşətdən diksinib şimşəklər qan sağarkən,
Buludun gözlərindən seltək gurşad yağarkən,
Can təndə heyrətlənib bu dəhşəti anmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Hərə dərrakəsinin zəkasından boylanır,
Çox düşünən beyinlər ah içində vaylanır,
Fırlanır gidi cahan vaxt əlində haylanır,
Dünyaya ayaq basan adam təki saylanır,
Bədəndə baş gəzdirən əgər bunu qanmasa…
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Hər zalımın canında günahların gözü var,
Pislik şərdən doğulub şərin min bir üzü var,
Dünyadan gedənlərin bu dünyada gözü var,
Can bədəndən çıxanda ruhun sirli özü var…
Sağ ikən vicdanına qul olub dayanmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Zülüm həddini aşıb dağdan, daşdan ahlanır,
Vicdanı təmiz olan vicdançın günahlanır,
Şişir sinədə ürək ağrıyla sabahlanır,
Yer dözmür əzablara gündə min yol laxlanır,
Zəka qalxıb ayağa haqqına oyanmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…

Bu sərvət, bu cah-cəlal cana yağı kəsilir,
Haqqın qulu, bəndələr, haqqın əli kəsilir,
Ömür canın ölçüsü üstündə nə əsilir?
Dünya elə fırlanır gələn-gedəni silir,
Təb coşmaz, ey Şadiman, ağrıya boyanmasa,
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?…
19. X11. 2004

MƏNİ CANDA GƏZƏN FƏLƏK

Məni canda gəzən fələk,
Canım sənin əlindədi.
Ürəyimi üzən fələk,
Acı-şirin dilindədi.

Hay salaram hayım gəlməz,
Ötən ilim, ayım gəlməz,
Bir yol haqqı-sayım gəlməz,
Hər əzabın əlindədi.

Buludların nə toqquşdu?
Dərdlərimə nəğmə qoşdu,
Şimşəklərin nədən boşdu?
Gurşadların selindədi.

Yerdə, göydə nə bürküdü?
Bu gələn qorxu-hürküdü,
Bədənimdə can kürküdü,
Titrəməsi yelindədi.

Fələk, canı eşq eylədim,
Bu eşqinlə məşq eylədim,
Ürəyimə əşk eylədim,
Hər fəryadı telindədi.

Ağlımızı əsir etdin,
Hissimizə qəsir etdin,
Ruhla bağlı nə sir etdin?

Can yükümüz belindədi.
19. X11. 2004

BÜTÜN ARZULARIM QALDI ÜRƏKDƏ…

Bütün arzularım qaldı ürəkdə…
Ağrıyan ruhuma can tapılmadı.
Diləklər asılı durdu dirəkdə,
Xilasa çırpındım an tapılmadı.

Ağlım ürəyimə fəryad eylədi,
Hər aha düşəndə min dad eylədi,
Yerlərə, göylərə imdad eylədi,
Dondu damarlarım qan tapılmadı.

Hıçqırdı zamanın yoxuşunda baxt,
Qul oldu əmirinin hökümünə vaxt,
Mən bal arısıtək çırpındım hər vaxt,
Onun pətəyinə şan tapılmadı!…
19. 09. 2004

QOPDU ÜRƏYİMDƏ PAYIZ KÜLƏYİ

Qopdu ürəyimdə payız küləyi,
Könlümün atəşin yellər apardı.
Fəryadım oxladı qəlbdə diləyi,
Onun harayını ellər apardı.

Hər anın acısın daddıqca daddım,
Ağrını sinəmin içinə qatdım,
Yatmış duyğuları eşqlə oyatdım,
İztirab acısın tellər apardı.

Can ahdan xoflandı, ürək qüssədən,
Dərd dönüb dağ oldu hissə-hissədən,
Buludlar çaxnaşdı odu busədən,
Şimşəyin alovun çöllər apardı.

Hicranım ah dedi, vüsalım sabah,
Səhərlər içimdən doğdu min günah,
Can bərkə düşəndə dil dedi: « Allah! »
Sinələr fəqanın dillər apardı.

Şadiman, nədir ki, candan ayrılan?
Xəncərtək sıyrılıb qından ayrılan,
Zamandan sıçrayıb andan ayrılan,
Hər insan ömrünü illər apardı.
19. 09. 2004

QADINLAR

Cahanın ən incə, gözəl varlığı,
Dünyanın xoşbəxtlik üzü, qadınlar.
Bütün insanlığın əzəl varlığı,
Hər açan ömiürün özü, qadınlar.

Zərif çiçəklərdi – rüzgardan solar,
Sevincdən çağlayar, kədərdən dolar,
Gözləri ümidin yolunda qalar…
Həyat ocağının közü, qadınlar.

Bəşərin ən ağır yükün çəkərlər,
Hər ağrı-acını qəlbə tökərlər,
Könül bağçasında dilək əkərlər,
Həyatın bəzəyi, gözü, qadınlar.
5. 03. 2004 / Pirallahı

PİSLİK GÜNAHDAN GƏLİR

Pislik günahdan gəlir,
Ağrılar ahdan gəlir,
Əcəl Allahdan gəlir,
Bunu bilən insanın,
Fələk qoruyar canın…
5. 03. 2004 / Pirallahı

DÖYÜRSƏN QAPIMI YENƏ, TƏZƏ İL

Döyürsən qapımı yenə, təzə il,
Üzündə həm kədər, həm nəş'ə vardır.
Nədir müjdələrin söylə bizə il?
Zaman ömrümüzə adınla yardır.
Hyatın hər üzü cana bahardır!

Zamanın çarxları an üstə ötür,
Bədənin varlığı can üstə ötür,
Bəşərin şüuru qan üstə ötür,
Etdiyi günahlar Tanrıya xardır.
Həyatın hər üzü cana bahardır!

Adəm yaranışdan diləyə möhtac,
Ağla inqilab et, tap ona əlac,
Çağlat şadlığıını, qəmə vermə bac,
İnsan Rəbb bağında ətirli bardır.
Həyatın hər üzü cana bahardır..!

Döyürsən qapımı işvə, naz ilə,
Alaram könlüvü xoş avaz ilə,
İnsan zəkasında elə yaz eylə,
Deyilsin bu ilin könlü gülzardır.
Həyatın hər üzü cana bahardır..!

Yaşanan anlarım həyat nağılı,
Xeyrin hesabına çağlat ağılı,
Nədən üzümüzə haqq sirri bağlı?!…
Səadət içində nə ahi-zardır?
Həyatın hər üzü cana bahardır..!

Təzə il ürəyi doldurma ahla,
İnsan ümidləri bağlı sabahla,
Yolun uğurlanır Böyük Allahla,
Bu yolda həm günəş, həm buzlu qardır.
Həyatın hər üzü cana bahardır..!

Təzə il, fitnəyə qapını açma,

Arzuya qanad ver, kədərə qaçma,
Sevda göyərçinim, əlimdən uçma,
Demə şeytanların qulağı kardır.
Həyatın hər üzü cana bahardır..!

İftixar eyləyib haqqa öyündüm,
Mən sənin eşqinlə elə döyündüm,
Zənn etmə qapıma gəldin, deyindim-
Gəlişin hər qışa yeni nübardır.
Həyatın hər üzü cana bahardır..!

Təzə il, bu ürək atəşin qulu,
Necə ki, təbiət günəşin qulu?
Ataq çiynimizdən biz köhnə çulu,
Köhnə il zamanın əyninə dardır.
Hyatın hər üzü cana bahardır!

Hər əzab içində hikmət yaşayır,
Hər hiylə damında möhnət yaşayır,
Ağıllı başlarda nemət yaşayır,
Ağılsız beyinlər dünyaya sardır !
Həyatın hər üzü cana bahardır..!

Təzə il, ağıllı başları bəslə,
Açmasın iblislər qapını nəslə,
Sən bütün bəşəri düzlüyə səslə,
Şeytani işlədən ürək ahardır.
Həyatın hər üzü cana bahardır..!

Hər ağlın içində bir nifrət yatır,
Şeytan qiyafəli bir afət yatır…
Afətin üzündə min sifət yatır,
Hiyləsi yerlərə, göylərə cardır.
Həyatın hər üzü cana bahardır..!

Təzə il, Şadiman, sənin aşiqin,
Ağartsın gecəmi könül işığın,
Zəhər yox, bal dadsın həyat qaşığın,
Deməyim ürəyim yenə qubardır.
Həyatın hər üzü cana bahardır..!

1. 05. 2005

UÇUŞAN RUHUMUN CANISAN, ZAMAN

Uçuşan ruhumun canısan, zaman,
Bu canın eşqinə çağlat günləri.
Donan damarımın qanısan, zaman,
Vaxt çarxı fırlanır yağlat günləri.

Kədərdən ah doğur, sevincdən nəş'ə,
Vurur saat ömrün anların dişə,
Qoyma ki, bağrımı üzsün əndişə,
Zirvələr fövqünə bağlat günləri.

Könlümün bağında bülbülüm oxur,
Zərif qanadların qəlbimə toxur,
Bir sevda bağrımı yandırıb-yaxır…
Vüsalın eşqinə dağlat günləri.

Zaman, nədir belə məni dəng edən?
Canımla, ruhumla belə cəng edən?
Könül tellərinə eşqlə zəng edən?
Ürəyin oduna ağlat günləri.

Şadiman haqqıyla sınağ içində,
Hər ağrı-acısı qınağ içində,
Dünya yaranandan qonağ içində,
Hünərin yetirsə, saxlat günləri.

1. 01. 2005

YER ÖZ ORBİTİNDƏN ÇIXIBDI YAMAN…

Yer öz orbitindən çıxıbdı yaman,
Axır gün yetişib heç kəs görməyir.
Yerlər, göylər edir necə ah-aman?
Şeytanın qolunu kimsə gərməyir.

Hərə öz çaldıığın oynayır bugün,
Dünya çalxanan nehrəyə bənzər.
Başlarda fikirlər qaynayır bugün,
Hiylə yun əyirən cəhrəyə bənzər.

Haqqın kəndirləri zalım əlində,
Bərətək vurnuxur bəşər dəryada.
Qalmışıq ölümlə qalım əlində,
Kimsə diksinməyir qopan fəryada.

Gah zəlzələ olur, gah vulkan, gah sel,
Qırılır insanlar bir milçək təki.
Əsir başımızda fırtınatək yel,
Üşür vahimədən can çiçək təki.

Hər cür haqsızlığa susub dururuq,
Bağırdan, könüldən vicdan qışqırır.
Hiyləmiz çoxalır üzə dururuq,
Qanlar axıdılır, qanlar fışqırır.

Allah bəndəsinin qanını tökən,
Allahın evində duva eyləyir.
Haqqın dərgahına mə'bədlər tikən,
Mə'bədi fitnəyə yuva eyləyir.

Tanrı hədələyir bizi min yolla,
Hədədən tükümüz tərpənməyir heç.
Rəbb necə davranır bu azmış qulla?…
Niyə oyanmıyır bu bağır, bu iç?

Hər an ölür insan qəza-qədərdə,
Ürəyin imtahan eyləmir heç kim.
Min günah yaşayır hər bir kədərdə,
Bunu ağılına söyləmir heç kim.

Hərə bildiyitək dünyaya ağa,
Ölüm silahları artır ilbəil.
Az qalır göylərdən daha qan yağa,
Azğının fitnəsi gedir dilbədil.

Din dinə yağıdır, məzhəb məzhəbə,

Hər kəs inamında haqlıyam deyir.
Yaradana inam çevrilib dəbə,
Hər millət özünü bu yolda öyür.

Qan çıxıb qurşağa, vicdanlar susur,
Heç kəs qan tökəndə Rəbbi saymayır.
İnsan varlıığından gələn bu qüsur,
Kim deyər hiyləsin aləmə yaymır?

Yer öz orbitindən çıxarsa əgər,
Allahın qurduğu nizam pozular.
Dünya hiyləmizdən qorunan səngər,
Səngər dağıdana məzar qazılar…

1. 05. 2005

MƏN ÖZ ÜRƏYİMİN QULUYAM, ALLAH

Mən öz ürəyimin quluyam, Allah,
Ağıldan ürəyə yolum bağlanıb.
Qaçmaq istəmişəm olubdu agah,
Ayağım tutulub, qolum bağlanıb.

Olmuşam əzəldən sevdasına yar,
Sevdası içində hicran çağlayır.
Ağrısı ağlımı, hissimi oyar,
Ötən xatiratı can varağlayır.

Mən öz ürəyimin oldum köləsi,
Kölənin azadə günü olmayır.
Titrəyir bağrımın həzin naləsi,
Sədası sinəyə düşüb solmayır.

1. 01. 2005

GAH SEVİNCDƏ, GAH KƏDƏRDƏ

Gah sevincdə, gah kədərdə,
Gün saçını yoldu getdi.
Dözə-dözə hər bir dərdə,
Vaxt buludtək doldu getdi.

Əzabına son olmadı,
An üşüdü don olmadı,
Nəş'əm artıb on olmadı,
Qəm əlində soldu getdi.

Dilimdən xoş sözüm düşdü,
Ürəyimdən közüm düşdü,
Bilməm, Allah, bu nə işdi-
Ağrım candan oldu getdi?

Sevdalanıb kama düşdüm,
Kəsirlənib tama düşdüm,

Nə qaranlıq dama düşdüm?
Ömür daşlı yoldu getdi.

Hər ürəyi qəm üşütməz,
Hər gözləri nəm üşütməz,
Ah alışsa dəm üşütməz,
Ağrılarla doldu getdi.

Ey Şadiman, can tamaşa,
Həyat oxun dəydi daşa,
Hacət yoxdu heç tələşa,
Fələk hamın buldu getdi…
1. 01. 2005

CİLVƏLƏNSİN HƏYAT QUŞU

Cilvələnsin həyat quşu,
Uçsun bəmdən zilə, eyvah,
Alsın ələ ağlı-huşu,
Düşsün eşqi dilə, eyvah.

Ürəklərdə qalmasın kam,
Kədərəmiz ola nakam,
Şadlıq haqdan cana ehkam,
Alsın könlü ələ, eyvah.

İbadətdə həyat yaşar,
Xəyanətdə pislik coşar,
Şər xeyirlə qoşalaşar,
Zülüm dönər gölə, eyvah.

Həyat quşu hər başda var,
Hər torpaqda, hər daşda var,
Həyat eşqi hər yaşda var…
Mehman olsun elə, eyvah.

Bir-birini az darıdaq,
Sünbülü dən-dən arıdaq,
Gözdə yaşı gəl qurudaq!
Döndərməyək selə, eyvah.

Eyləməyək könlü ahar,
Sevdalansın hər şam-nahar,
Qışdan sonra gəlsin bahar,
Çiçək yağsın çölə, eyvah.

Odu sönsün iblislərin,
At oynadan naqislərin,
Başdan coşan pis hisslərin…
Şər yiyəsi ölə, eyvah!

Dünya tapsın daha nicat,
Heç qalmasın qəmə hacət,
Ey Şadiman, təbi ucalt,

Səda düşsün telə, eyvah.
2. 01.2005

BİR DƏNİZƏM HİDDƏTİM YOX…

Bir dənizəm hiddətim yox…
Tufan atır göyə məni.
Dalğaların qudrəti çox,
Az qalır ki, döyə məni.

Pıçıldayır ağ ləpələr,
Ürəyimə qəm səpələr,
Sularında var təpələr,
Küləklərlə öyə məni.

Hər dalğamda bir hicran var,
Sinəsində neçə can var,
Qəlbdə min cür həyacan var,
Heç saymayır yiyə məni.

Gah ah gəlir, gah intizar,
Qurtarmayır candan azar,
Qəm eyləyib könlü bazar,
Şəkər sanıb – yiyə məni.

Bir buludam göy yanında,
Şimşəyi çox, od anında,
Döyəcləyir zindanında,
Dəmir təki əyə məni.

Bardaş qurub oturub qəm,
Əsir olub əlində dəm,
Eyləməyir fitvanı kəm,
Hər kəsə şər deyə məni.

Öldüm, Allah, gələnim yox,
Bir halımı bilənim yox,
Üzümə xoş gülənim yox,
Dərdlərimi bölənim yox…
Gün fırladır səyə məni.

Ömür düşdü bir röyaya,
Gah nəş'əyə, gah da vaya,
Bilməm, Tanrım bu dünyaya,
Gətiribdi niyə məni?1…
2. 01. 2005

SƏMALARDA BİR HİKMƏT VAR

Səmalarda bir hikmət var,
Fələkləri qoruyağın.
Təbiətdə əzəmət var,
Mələkləri qoruyağın.

Buludları qovub tutan,
Aləmlərdə eşqlə yatan,
Hirsi göyə, yerə çatan,
Küləkləri qoruyağın.

Xeyrə açaq gülsün ağlı,
Qapımızı qoyar bağlı,
Göy sutunu yerə bağlı,
Direkləri qoruyağın.

Dünyamızı əzizləyək,
Onu şərdən təmizləyək,
Yaxşılığı dənizləyək,
Dilәkləri qoruyağın.

Ey Şadiman, can qudrətdi,
Düzlük haqqa ibadətdi,
Yaşamaq da səadətdi,
Ürəkdə qəm bir adətdi…
Ürəkləri qoruyağın.
2. 01. 2005

KÜLƏKSİZ DƏNİZDƏN QORXUR GƏMİLƏR

Küləksiz dənizdən qorxur gəmilər,
Hər sükut içində bir vahimə var.
Dəryaya həyattək baxır gəmilər,
O qırçın ləpələr köksünü ovar.

Yatmış dalğaların mürgüsü azdır,
Mürgülər içindən tufanlar çıxır.
Coşanda gəmilər elə bəyazdır,
Külək qızışanda aləmi yıxır.

Qasırğa qopanda dəniz qaynayır,
Bayaqkı lallıqdan bir əsər qalmır.
Dalğalar rəqs edir, sular oynayır,
Tufan sükunəti eyninə almır.

Küləksiz dənizdən qorxur gəmilər,
Tufanlar sükutdan doğur hər zaman.
Döşünə bayraqlar taxır gəmilər,
Dəryadan bulunmaz uğur hər zaman.

Suların üstündə gəzir astaca,
Ləpələr üzündə keçir həyatı.
Dalğadan diləyir üzür astaca,
Çapır dənizlərdə o tale atı.

Tükənməz sevgisi, eşqi sulardır,
Sularda yaşadır ömürlərini.
Gəmilər sürənin məşqi sulardır,
Sürənlər verərlər əmirlərini.

Küləksiz dənizdən qorxur gəmilər,
Dəniz lal olanda sahilə qaçır.
Ömrünün yazısın oxur gəmilər,
Təkliyə düşəndə bəxtinə acır.

Gecəni gündüzə qatar beləcə,
Dəryadan dəryaya ötüb keçərlər.

Qəmli qismətinə yatar beləcə,
Uzun mənzillərə yetib keçərlər.

Küləksiz dənizdən qorxur gəmilər,
Küləyi könlündə əsir edərlər.
Yaşıl mamırları toxur gəmilər,
Onları əyninə qəsir edərlər.

Üzər dəryaların əginliyində,
Qitədən qitəyə qonaq olarlar.
Ömrün sular üstə gərginliyində,
Bütün dənizlərə sınaq olarlar.

Mayağın işığı gözünə çıraq,
Səhər dumanından çırtlayıb çıxar.
Gecə qaranlığı zirehli yaraq,
Üzərək zülmətdən pırtlayıb çıxar.

Küləksiz dənizdən qorxur gəmilər,
Küləksiz dənizdə fırtına olur.
Aləmi heyrətdə yaxır gəmilər,
Bu heyrət içində gözləri dolur…

3. 01. 2005

ŞƏRAFƏT İTMƏSİN

Ey könlümə vurğun olan,
Könüldən ülfət itməsin.
Qəmdən yorğun-arğın olan,
Üzdə xoş sifət itməsin.

Canı bizə aşıq verən,
Ömrü qaşıq-qaşıq verən,
Ürəklərə işıq verən
Eşq adlı afət itməsin.

Ruh bədəndə işıq saçsın,
Qəm əlindən çıxıb qaçsın,
Duyğumuza süfrə açsın,
Qəlbdə ziyafət itməsin.

Hər axşamın səhəri ağ,
Hamıya can deməyir çağ,
Nə qədər ki, dururuq sağ?
Vicdan, qiyafət itməsin.

Rəbbdi verən camalını,
Atma yelə amalını,
Başında tut kamalını,
Bax bu şərafət itməsin.

22. 02. 2004

SƏN EY AĞRIILARA QUL OLAN KÖNÜL

Sən ey ağrılara qul olan könül,
Ağrını-acını yellər aparsın.
Gah göytək tutulub, gah dolan könül,
O kədər yaşını sellər aparsın.

Qədərim bir ömür pay verib bizə,
Əvvəlin toy, sonun vay verib bizə,
Vaxtımız bitəndə hay verib bizə,
Ürəyin ağrısın tellər aparsın.

Zamanın atında çapdıq sağ-sola,
Rəbbin qanunuyla getmədik yola,
Ömür köç eyləyib düşübdü yola,
Onun zillətini illər aparsın.

Dirikən, sağikən, haqqa kəm baxdıq,
Şöhrətdən gicəldik vaxta dəm baxdıq,
Ölümün üzünə gözünəm baxdıq,
Bu cansız nə'şimi əllər aparsın.

Demə, Şadimana ömrə yük oldu,
Vaxt zaman başında zərif tük oldu,
Könül, haqla olan nə böyük oldu?
Coşqun fəqanımı ellər aparsın.

7. 09. 2004

MƏN BU EŞQƏ YAR OLMUŞAM

Ürəyimdə möhnət yatır,
Mən bu eşqə yar olmuşam.
Ahım yerə, göyə çatır,
Necə dili-zar olmuşam?

Gözlərimdə sel dağ aşır,
Dəryalarla qucaqlaşır,
Hər əzabım ocaqlaşır,
Qəm içində var olmuşam.

Başımıza qul ağıldı,
Ömür yuxu, can nağıldı,
Harayıma qəm dağıldı,
Nə qulağı kar olmuşam?

Əzablarım bitmədi heç,
Əlim haqqa yetmədi heç,
Dərdim çıxıb getmədi heç,
Bu dərdimə xar olmuşam.

Hicran yağır leysan təki,
Gülür üzə insan təki,
Süfrə açıb ehsan təki,
Süfrəsinə bar olmuşam.

Vaxtım əldən uçur gedir,
Qəm qapısın açır gedir,
Gün ömürdən qaçır gedir,
Necə gözü dar olmuşam?

Acışıbdı fələk damı,
Şö'lə saçır həyat şamı,
Kam üstündən verir kamı,
Aləmlərə car olmuşam.

Ey Şadiman, misra axır,

Ürəyimə təb buraxır,
Nə atəşdi könlü yaxır?
Mən bu eşqə yar olmuşam.
22. 02. 2004

NƏ YERDƏYƏM, NƏ GÖYDƏYƏM

Nə yerdəyəm, nə göydəyəm,
Fikirlərim haçalanıb.
Söz köhlənin hara əyəm?
Hara əysəm ucalanıb?

Duyğulardan saray yapdım,
Nə itirdim orda tapdım?
Xəyalla sağ-sola çapdım,
Xəyal atım burcalanıb.

Sevda pərim taxtın qurub,
Qəmə düşüb boynun burub,
Yolunda bir kimsə durub…
İçinə nə od qalanıb?

Ağlım, hissim yanan teşdi,
Hər qığılcım bir atəşdi,
Ürəyimin gözün eşdi,
Gözdən ora su calanıb.

Həsrət qəlbə bir ox atdı,
Oxu gəlib könlə çatdı,
Yarası min birə çatdı,
Qəlbim, hissim parçalanıb.

Yan keç məndən, eşq yiyəsi,
Sənə sözüm yox deyəsi,
Sorma məndən var niyəsi?
Bu ürəyim çox talanıb.
2. 01. 2005

BU ÜRƏYİM DOLMUŞ BULUD

Bu ürəyim dolmuş bulud,
Gurşadları bağlar nədən?
Gah kamandır, gah da bir ud,
Hönkürtüylə çağlar nədən?

Ağılımı oda salar,
Ah içində dada salar,
Cana min bir qada salar,
Sinə için dağlar nədən?

Duyğuları cilovlayar,
Ocağını alovlayar,
Dilə basar can tovlayar,
Yoxuşumu yağlar nədən?

Sızıltısı gələr pəstdən,
Oduma su tökməz qəsdən,
Çəkər hər gün üsbəüstdən,
Dağ üstündən dağlar nədən?

Bu ürəyim – can qurşağı,
Asır könlü başaşağı,
Sərgərdan bir yurd uşağı…
Ovunmadan ağlar nədən?
13. 03. 2005

YADA DÜŞÜR YENƏ GƏNCLİK ÇAĞLARI…

Hər duyğuda neçə giley boylanır?
Xəyallarım dövrə vurur, haylanır,
Ürəyimdə çox niskillər vaylanır,
Yaddaşımda qalan ömrün sağları,
Yada düşür yenə gənclik çağları…

Küləklərtək uçuşardım, qaçardım,
Hər arzunun içindən yol açardım,
Bir quş olub məramlarla uçardım,
Zalım ürək bu sinəmin ağları,
Yada düşür yenə gənclik çağları…

Bağırımın atəşləri köz imiş,
Hər diləkdə od qovuran göz imiş,
Sutək axan o günlər bir söz imiş,
Keçib getmir ürəyimin dağları,
Yada düşür yenə gənclik çağları.

Çox uğurum o illərə ad oldu,
Başda qalan yuxularda yad oldu,
Nə vardırsa ötdü keçdi dad oldu?
Xəzan aldı, soldu ömrün bağları,
Yada düşür yenə gənclik çağları.

Çox mətləbim hasilinə yetmədi,
Zaman ötdü bu gethaget bitmədi,
Heçnə ağlın yaddaşından itmədi,
Qırıldıqca illərimin tağları,
Yada düşür yenə gənclik çağları.

Təbim məni atəşlərdə qovurdu,
Ocaq çatdı küllərimi sovurdu,
Neçə kərə ürəyimdən qəm vurdu?
Üzə gülmür vərəqimin ağları,
Yada düşür yenə gənclik çağları.

Ağ tellərim qara saça gəl deyir,
Pərişanam – sığallasın əl deyir,
Hər əzabı, hər zülümü dəl deyir,
Bu qələmim ilhamımın çağları,
Yada düşür yenə gənclik çağları…
20. 03. 2005

DƏRDİ MƏNƏ ÇIRAQ ETDİN

Dərdi mənə çıraq etdin,
Çırağımı yandır, fələk.
Niyə qəmə soraq etdin?
Məni də bir qandır, fələk.

Ağlamaqdan göz qalmadı,
Deyiləsi söz qalmadı,
Ürəyimdə köz qalmadı,
Daha məndən yan dur, fələk.

Ağılımı çox oynatdın,
İçimdə nə od qaynatdın?
Məni hardan hara atdın?
Hər əməlin qandır, fələk.

Qəm neştərin cana basdın,
Ürəyimi ordan asdın,
Dünən toydun, bu gün yasdın,
Tökdüyün nə qandır, fələk?

Ömür Tanrı ne'mətidi,
İçində haqq zillətidi,
İlahinin qiymətidi,
Fəqan edən andır, fələk.

Bədən canın üstə pərdə,
Alışdıqca enir dərdə,
Ürək hərbdi, baş sərkərdə,
Zülmə düşən candır, fələk.

13. 03. 2005

ŞƏKİLDƏN ŞƏKİLƏ DÜŞÜR TƏBİƏT

Şəkildən şəkilə düşür təbiət,
Buludlar ağlaşır tufan gəlməmiş.
Bağlıdır Yaradan içində niyyət,
Saatlar tələsir zaman gəlməmiş…

Hər kəsin ağlında öz dünyası var,
İndi toy-düyünü, sabah yası var,
Öz ömrünə peşman candan ası var,
Dil ağızdan qopur güman gəlməmiş.

İlahi insanı mələk etmədi,
Onun şüuruna kələk etmədi,
Heç kəsə pisliyi fələk etmədi!
Bəşər yaranmayıb iman gəlməmiş…

Bu ki, müvəqqəti ömrə həyatdı,
Yaradan bizləri qoynuna atdı,
Sonra da çiçəyi, gülü yaratdı,
Loğman olardımı dərman gəlməmiş?

Sevgi də Allahın məhək daşıdı,
Ürəyin ağrısın canda daşıdı,
Hələ ki, əlində zəka naşıdı,
Məhəbbət çağlamır peyman gəlməmiş.

Ömür günahları çəkən tərəzi,
Bizi uçuruma atmaq mərəzi,

Ölüm Əzrayılın deyil qərəzi,
Heç ömrə son olmur fərman gəlməmiş.

Mərdi qova-qova namərd edərlər,
Haqqın dərəcəsin canla güdərlər,
Ağıldan yan keçər ölçü-qədərlər,
Yaxşı yerin tutmaz yaman gəlməmiş.

İnsan Allah qulu, ömür bir yuxu,
Beşikdən məzara izləyir qorxu…
Dəysə də hədəfə taleyin oxu,
Ox öz işin görməz kaman gəlməmiş.

Yer, göy Yaradana minnət içində,
Təbiət huş alan zinət içində,
Hər şeyin ölçüsü Xilqət içində,
Zərrələr yaranıb umman gəlməmiş.

Şəkildən şəkilə düşür təbiət,
Hərənin içində min cürə niyyət,
Çox başda, əfsus ki, kəm mənəviyyət!…
Odur ki, ah doğur aman gəlməmiş.

Şadiman, arama ağılda kamı,
Ürəklə oynayır həyatda hamı,
Allahdı şüura salan ilhamı,
Söz-sözə calanmaz səhman gəlməmiş.
13. 03. 2005

ÇARƏ EYLƏ, EY FƏLƏK

Yoxdu cana bir həyan?
Çəkdiyim sənə əyan,
Ürəyim olub giryan,
Olmaz böylə, ey fələk,
Çarə eylə, ey fələk.

Axır gözümün yaşı,
Dolub könlümün başı,
Qəm mənə can sirdaşı,
Nədən söylə, ey fələk?
Çarə eylə, ey fələk.

Bir günüm olmadı xoş,
Ömür keçdi niyə boş?
Qədəhim ahdan sərxoş,
Acı meylə, ey fələk,
Çarə eylə, ey fələk.

Bu dünya dolu ələm,
Çıxıbdı ərşə naləm,
Fəryad eləyir qələm,
Sözə öylə, ey fələk,
Çarə eylə, ey fələk.

Könlümdən qopan nida,
Ağrıma olur qida,
Düşür aləmə səda,
Uçur göylə, ey fələk,
Çarə eylə, ey fələk.

Hər anın öz əzabı,
Kəsir taqəti, tabı,
Harda haqqın hesabı?…

Gətir səylə, ey fələk,
Çarə eylə, ey fələk.

Şadiman gülmədi heç,
Yandı zülümlərə iç,
Kədər zəmisini biç,
Dərdi əylə, ey fələk,
Çarə eylə, ey fələk.
17. 03. 2005

TALE BÜLBÜLÜM OXU

Ağlayır için-için,
Ürəyim ahla neçin?
Dəlir könlümün için,
Fələyin acı oxu,
Tale bülbülüm oxu.

Vüsal gülüm açmadı,
Qəlb qapımı açmadı,
Bəs bu necə açmadı?
Sevdam bir şirin yuxu,
Tale bülbülüm oxu.

Gözümdə yaş daşıbdı,
Gəlib başdan aşıbdı,
Qəm həddini aşıbdı,
Dözmək olmayır axı?
Tale bülbülüm oxu.

Bir ağrıda min qəm var,
Zamanda neçə dəm var?
Həyat gözündə nəm var,
Göyü, yeri şər qoxu,
Tale bülbülüm oxu.

İman Allahdan deyir,
Açan sabahdan deyir,
Törənən ahdan deyir,
Bilmir günahın çoxu,
Tale bülbülüm oxu.

Vicdanlar qan ağlayır,
Bədəndə can ağlayır,
Təbim söz varağlayır,
Könlümdə qara-qorxu…

Tale bülbülüm oxu.

Uçub qəlbimin quşu,
Aparıb ağlı-huşu,
Ürək ələmin nuşu,
Kədərin olmaz toxu,
Tale bülbülüm oxu.

Hər şey qəlbimə dəyir,
Ürəyimi qəm əyir,
Həyat gülünü əyir,
Bəxtimə xalı toxu,
Tale bülbülüm oxu.

Şadiman dərdə sipər,
Könlünə hicran səpər,
Gəl özündə tap təpər,
Köksünü simə toxu,
Tale bülbülüm oxu…
17. 03. 2005

HƏYATDAN DOYMAYIR GÖZÜ İNSANIN…

Həyatdan doymayır gözü insanın...
Bir andan sonrakı ölümü görmür.
Dünyaya bəladı özü insanın,
Özünə etdiyi zülümü görmür…

Təbiət ağlayır zillət içində,
Tarazlıq pozulub, aləm qarışıb.
Ağıl çapalayır möhlət içində,
Bəndənin zəkası həddini aşıb.

Göyün fırtınası yeri əsdirir,
Zaman saatları işlədir qultək.
Bəndə qaça-qaçla vaxt tələsdirir,
Heçnə ram etməyib insanı pultək.

Kim öz vicdanını satıb-sovmamış?
Hiyləyə, fitnəyə fərman edirlər.
İnsanlar ürəkdən şəri qovmamış
Allahın evinə iman edirlər…

Heç kəsin könlünü oxumaq olmur,
Hərə öz qəlbinin yükün daşıyır.
Ömrün xalısıını toxumaq olmur,
Hər kəs duyduğutək ömrü yaşıyır.

İnsan tamahına əsir olandan,
Əlləri səcdədə, ağılı şərdə.
Göy yer arasında düzlük solandan,
Baş taxtından enib əyilib dərdə.

Ağıl beynimizdən düşüb çirkaba,
Can varkən arayır tən nicatını.

Bəndəni Yaradan yaratmıb qaba,
Özü vəhşət edib öz həyatını.

Bəla tutubsa da adamın için,
İlahinin xofu nə edə bilər?

İnsan cilidində cin, şeytan üçün,
Haqq özü yıxılıb əbədi ölər…
19. 03. 2005

ŞAİRLƏR DÜNYANIN DƏRDİN ÇƏKƏRLƏR

Şairlər dünyanın dərdin çəkərlər,
Bu dərdlər uzanar ömrə sim kimi.
Hər ağrı-acını qəlbə tökərlər,
Ələmdən qopmazlar bir tilsim kimi.

Hicranın divanı qurtulmaz heç vaxt,
Könlü talamağı tufana bənzər.
Qəh-qəhə içində çırpınarkən vaxt,
Canın yiyəsindən eyləyər həzər.

Şairlər ürəkdən keçirər qəmi,
Qəm yıxıb dağıdar ürəyin için.
İki dünya boyda ah dolu dəmi,
Kim ərmağan edib şairlər üçün?

Can bədən içində rahatlıq tapmır,
Şairlər gecəni yuxu bilməyir.
Qəm ruh qapısından yolunu sapmır,
Şair doğulanın üzü gülməyir…
11.07.2005

HƏR CAN YİYƏSİNƏ BİR İMTAHAN VAR

Arama əhdində vəfanı belə,
Hər vəfa içində bir xəta yaşar.
Bəxtə düşən günü sovurma yelə,
Demə ki, ömür də bir sudur daşar.

Göz açıb yumunca ötüşər illər,
Səadət qapını döyməz bulmasan.
Saçında titrəşər şirmayı tellər,
Fələk özü ovar, sən ovulmasan.

Dünya bərbəzəkli gəlintək gözəl,
Ona can verən də, can alan da xar,
Hər ömrün bağçası sonunda xəzəl,
Hər can yiyəsinə bir imtahan var…
14. 07.2005

BİLMİRƏM DÜNYANIN HARASINDAYAM?

Ağıl düşün deyir, ürək yan deyir,
Bu iki məhfumun arasındayam.
Mənim əzabıma ruhum can deyir,
Bilmirəm dünyanın harasındayam?

Titrək duyğularım axır sel təki,
Hər duyğu içində qüdrət görürəm.

Eyləyir zamanım ömrümə ərki,
Bu ərkin fövqündə vüs'ət görürəm.

Ağlın dediyinə ürək biganə,
Yaxır atəşlərə, yaxır həyatı.
Günümdən, anımdan gəlmişəm cana,
Mənə sitəm edir ömrün saatı.

Əsdirir könlümü vaxtın yelləri,
Əlində əsası yol gedir ömür.
Öləyir ələkdə fələk illəri,
Heç kəsin sonunu öncədən demir…

Ağıl düşün deyir, ürək yan deyir,
Zəka atəşlərə düşüb alışır.
Alışa-alışa bir dayan deyir,
Acı taleyinə çöküb barışır.

Yazılan yazıya pozu yox deyə-
Hər kəs öz bəxtinə qul olub gedir.
Hər insan özünü hey öyə-öyə,
Fələyin atına çul olub gedir.

Ağıl düşün deyir, ürək yan deyir,
Bu iki məhfumun arasındayam.
Mənim əzabıma ruhum can deyir,
Bilmirəm dünyanın harasındayam?…

30.04.2005

BU DÜNYADAN CAN QUTARIM

Üz tuturam dərgahıma,
Həyatımdan qan qutarım.
Soraq versin qoy ahıma
Bu dünyadan can qutarım.

Huy vuraram huyum gəlməz,
Hay salaram hayım gələməz,
Bilməm niyə vayım gəlməz ?!
Bu dunyadan can qutarım.

Gün neyləsin dəm əlindən?
Zil boğulur bəm əlindən,
Min bir ağlı kəm əlindən
Bu dünyadan can qutarım.

Səhərlərim haqqa çıraq,
Ürəyimi edib varaq,
Əzrayıldan verin soraq

Bu dünyadan can qutarım.

Açılmayır bir dəm eyin,
Yorulubdu ürək, beyin,
Bu Şadiman öldü deyin-
Bu dünyadan can qutarım.
13.X1.2006

ELƏ ŞİMŞƏK VURAN PALIDAM Kİ, MƏN

Elə şimşək vuran palıdam ki, mən,
Ağrımı, acımı bilmək olmayır.
Bir himə bənd olan buludam ki, mən,
Gözümdən yaşımı silmək olmayır.

Ahım dağlar dəlir, fəryadım qaya,
Yetməyir bir kimsə haraya, haya,
Ürəyim bənzəyir qan tutmuş çaya,
Bu niskil içində gülmək olmayır.

İnsan ağlında cinlər oynayır,
Cinlər fitva verir kinlər oynayır,
Kinlərin əlində dinlər oynayır,
Şeytan ayağında ilmək olmayır.

Dünyanın qüssəsi könlümü əzir,
Hər insan canının əlində nəzir,
Daha əzrayıl da məndən yan gəzir,
Canım boğazımda ölmək olmayır.

Kədərlər oynaşır, zülüm qaynaşır,
Boğazdan yuxarı yalanlar daşır,
Qalxıb zirvələrin başından aşır,
Onu parçalayıb bölmək olmayır.

Şadiman, nə acı zamanlar gəldi ?
Gəlib ürəyimi min yerə dəldi,
Sinəmdən aləmə ahım yüksəldi,
Bu aha bir kələk gəlmək olmayır.
30. X11. 2006

NECƏ YETİM CAN ATINA?

Gözlərimi yaşdı tutan,
Tutub məni oda atan,
Ürəyimdə düşüb yatan,
Gah şimşəkdi, gah fırtına,
Necə yetim can atına?

Bu dəmlərim qəmlə getdi,
Bəbəklərdən nəmlə getdi,
Haraylarım bəmlə getdi,
Düşmüşəm min bir qatına,
Necə yetim can atına?

Sevda yolum haçalandı,
Hicran düşdü, qəm calandı,
Günbəgündən ucalandı,

Heyrət etdim büsatına,
Necə yetim can atına?

Mən dəryada düşüb qaldım,
Təsəllimi ondan aldım,
Sevgilimtək meyl saldım,
Döydü tufan, hey sırtına,
Necə yetim can atına?

Ey Şadiman, de ki, mənə,
Əmanətdi ömür sənə,
Can yuvatək baxır tənə,
Nə sitəmdi həyatına?
Necə yetim can atına?
30. X11. 2006

FƏLƏK MƏNƏ SEVDA VERİB

Fələk mənə sevda verib,
Tellərimi öpə keçə.
Bağçasından çiçək dərib,
Başıma gül səpə keçə.

Atəşini cana sala,
Can içində düşüb qala,
Həm can verə, həm can ala,
Bağrıma od təpə keçə.

Sevda, sanki bala bənzər,
Bal içində şanı gəzər,
Uzaq olsun ondan nəzər,
Nəzərindən ləpə keçə.

Fələk məni sevdalayıb,
Ürəyimə nidalayıb,
Canı canla qidalayıb,
Dağlar aşıb, təpə keçə.

Ey Şadiman, bu qüdrətdi,
Hicranıyla əydi qəddi,
Sədəfində səadətdi,
Mirvaritək ipə keçə.
30. X11. 2006

ÜRƏK, YANMA, YANMA BELƏ

Nə düşmüsən bu atəşə?
Alovunu anma belə.
Səndən keçib od Günəşə,
Ürək, yanma, yanma belə.

Elə nazik tül olmusan,
Gah göyərib gül olmusan,
Gah da yanıb kül olmusan,
Ürək, yanma, yanma belə.

Yetib ömrün qürüb vaxtı,
Qapımdaca qurub taxtı,
Ələk-vələk edir baxtı,
Ürək, yanma, yanma belə.

Bir sevdalıq ömrümüz var,
Haqdan gələn əmrimiz var,
Nə səsimiz, səmirimiz var ?
Ürək, yanma, yanma belə.

Dil boğulur ağzımızda,
Kilidlənib ağzımız da,
Haray yatıb kağzımızda,
Ürək, yanma, yanma belə.

Fələk məndən yan keçmədi,
Həyatımdan can keçmədi,
Savaş etdi, qan keçmədi,
Ürək, yanma, yanma belə.

Şadimandı xiffət edən,
İlhamını iffət edən,
Duyğuların afət edən,
Ürək, yanma, yanma belə.
30. X11. 2006

SƏBRİM QOL GÖTÜRÜB OYNAYIR MƏNƏ

Səbrim qol götürüb oynayır mənə,
Ağlımda bir sızqa dözüm qalmayıb.
Ürəyim dəlitək qaynayır mənə,
Daha bu dünyada gözüm qalmayıb.

Gecəm yataq olub yuxularıma,
Röyama toy quran qorxularıma,
Zülmətə qəsd edən qoxularıma,
Daha bu dünyada gözüm qalmayıb.

Zəkamdan yuxarı Rəbb mənə çıraq,
Əlində titrəyən canım ağ varaq,
Hər misram vicdanım önündə yaraq,
Daha bu dünyada gözüm qalmayıb.

Yerlə Göy arası cəng səsi gəlir,
Dərgahdan Haqqın da ləng səsi gəlir…
O biri dünyadan zəng səsi gəlir,
Daha bu dünyada gözüm qalmayıb.

Yaxınım, uzağım qələmdi mənə,
Bu qələm, sanki bir aləmdi mənə,
Sinəmdə ağlayan naləmdi mənə,
Daha bu dünyada gözüm qalmayıb.

Deməyin, Şadiman nə giley edir ?
Gileyin qədəhə acı mey edir,
Könlünün ağrısın sızlar ney edir,
Daha bu dünyada gözüm qalmayıb.
30-31/ X11. 2006

AĞLAYIR UŞAQ KİMİ

Dünya nə qəmli guşə?
Səkir ürəyi şişə,
Haqq həm ərzə, həm ərşə,
Dolanıb qurşaq kimi,
Ağlayır uşaq kimi.

Zaman irəli qaçır,
Hər ömür bir gül açır,
Açıb gün kimi saçır,
Xəzan alır bağ kimi,
Ağlayır uşaq kimi.

İnsan vara həvəsdə,
Ancaq canı qəfəsdə,
Qopur axır nəfəsdə
Öz kökündən tağ kimi,
Ağlayır uşaq kimi.

Can var ikən havalı,
Ağıl həyat qavalı,
Ürək ilə davalı,
Lap həmişə sağ kimi,
Ağlayır uşaq kimi.

Dünya insana qail,
İnsan şeytana mail,
Şeytan fitvaya hail,
İşi gedir yağ kimi,
Ağlayır uşaq kimi.

Ey Şadiman, qəsdi can,
Hər insana dava, qan,
Gəlib getməyi bir an,
Uçur təndən sağ kimi,
Ağlayır uşaq kimi.
2. 01. 2007

DÜNYAMIZ NAĞIL OLAR

Bu simasız adamlardan, ya İlahi, usandım,
Bu çək-çevir bazarında ağrıları haqq sandım.

Beyinimin fəryadları ürəyimdə alışdı,
Yandı könlüm kül içində əzablara qarışdı.

Bu simasız adamların baxışları zəhərdi,
Yasa batmış aləmlərə bu baxışlar qəhərdi !

Yerdə, göydə qan izi var, hiylə başa çıraqdı,
Bu simasız adamlar da şeytanlardan soraqdır.

Şeytanları adamlardan ayıran ağıl olar,
Bu ağılın zirvəsində dünyamız nağıl olar!
12. 01. 2007

HAQQIMA YOL AÇIRAM

Ürəyim çox ah çəkir,
Ahını sabah çəkir,
Sabahı günah çəkir,
Günahlardan qaçıram,
Haqqıma yol açıram.

Ömrümüz işıq yolu,
İşıq zülmətlə dolu,
Bu bağlı əli-qolu,
Zəncirlərdən açıram,
Haqqıma yol açıram.

Zülümü başa salan,
Ömrünü qışa salan
Gözünü yaşa salan,
Yerdə-göydə uçuram,
Haqqıma yol açıram.

Dikəlib ərşə aman,
Gedib əldən din-iman,
Az qalıb Axırzaman,
Ömrümdən axır zaman,
Öz-özümə acıram,
Haqqıma yol açıram.

Göz axıdan gürşadı,
Ürəyimin fəryadı,
Günəşdi - könlün adı,
Ətrafa nur saçıram,
Haqqıma yol açıram.

Allah, vaya bax, vaya,
Əridir dağ, daş, qaya,
Bilmirəm ey Xudaya?
Canı hara qaçıram?
Haqqıma yol açıram.

Şadiman, etmə vida,
İlhamım ruha qida,
Qoparır min bir nida,
Qələm-kağız açıram,
Təbə ağız açıram,
Haqqıma yol açıram.
13.01.2007

ÜRƏYİMDƏ HAL QALMADI
(Həyat yoldaşım Abdulov Əli Əli oğluna)

Könlüm dolu arı şanı,
Pətəyində bal qalmadı.

Dərdlə bəlli hər nişanı,
Ürəyimdə hal qalmadı.

Çox zillətə göz bağladı,
Təbim coşdu söz bağladı,
Oda düşdü köz bağladı,
Ürəyimdə hal qalmadı.

Əzizlədim varaqları,
Cana düşdü soraqları,
Yandı ömrün çıraqları,
Ürəyimdə hal qalmadı.

Dildə dastan oldu sözüm,
Heç gülmədi bir an üzüm,
Yaş axıtdı elə gözüm,
Ürəyimdə hal qalmadı.

Köz bağladı yarasına,
Bükdüm qəmin arasına,
Hey deyindim qarasına,
Ürəyimdə hal qalmadı.

Ey Şadiman, sitəm budu,
Segah üstə könül udu,
Ocağından keçmir odu,
Ürəyimdə hal qalmadı.
14.01.2007

EŞQİDƏN HƏR DUYĞU MİN CANƏ GƏLİR

ODA SƏCDƏ EDƏN BİR PƏRVANƏTƏK

Oda səcdə edən bir pərvanətək,
Düşüb ocağına qovrulacağam.
Həsrət karvanına tuş divanətək,
Hicran tufanından sovrulacağam.

Cismimi əzrayıl versə yellərə,
Eşqim kəfən olsa sənsiz illərə,
Qapımı bağlamış bu niskillərə,
Alınmaz qalatək dayanacağam.

Bu hicran bağrımı çəksə də şişə,
Eşqimin bağını döysə əndişə,
Vüsalın könlümdə ən gözəl guşə,
Hər an bu atəşlə yuğurulacağam.

Ötəri ümidlər güldürsə məni,
Aləmə Leylitək bildirsə məni,
Amansız ayrılıq öldürsə məni,
Ay təki gecədə doğulacağam.

Zaman niskilləri döysə başıma,
Bürünsə səyyarə bu göz yaşıma,
Fələk neçə sərhəd çəksə qarşıma?
Dəli həsrətinlə boğulacağam.

Ucuz tutanlara eşq oyuncaqdı,
Sənə sevgilərim qucaq-qucaqdı,
Könül atəşinlə yanan ocaqdı,
Üfürsən dünyaya dağılacağam.

Şadiman, gecəndə dönər ulduza,
Gecəli-gündüzlü könlü yalqıza,
Eşqini şeirlə salıb ağıza…
Nəğməylə, şərqiylə yayılacağam.
6. 08.1994

SƏNƏ PAK SEVDALAR, MƏNƏ YAZIQLAR

Sənə pak sevdalar, mənə yazıqlar,
Dolaş bu dünyanı, sən mənsiz dolaş.
Sənə haqq dualar, mənə sazaqlar,
Yeni sevgilərə, eşqlərə ulaş.

Gəl həsrət milini çəkmə gözümə,
Onsuz qor olmuşam bu diləklərə.
Qara geydirmisən al gündüzümə,
Ərşə büləndolub ahım min kərə.

Müddətdi bəbəyi göz yaşım dərib,
Əkdiyim sevincdi, dərdiyim qəmdi,
Dünyanın bir qürbət quşuyam qərib,
Qanadımı gərən sirli alləmdi.

Şadiman zamanın odu, atəşi,
Alışıb yanacaq köksümdə dünya.
Səni itirdiyim sevgimin nə'şi,
O sənli günlərim bir dadlı röya.
7-8. 02.1994

SƏNİ SEVƏ-SEVƏ ÖLƏCƏM AXIR

Elə ovsununa düşüb qalmışam,
Dərdin sarayını satın almışam,
Daha xəyalına mehr salmışam,
Səni sevə-sevə öləcəm axır.

Ürəkdən o yana yoxdu ırız, yol,
Könlüm bu sevdaya niyə olub qul?
Arasan eşqimi hicranında bul,
Gözümün yaşları bağrıma axır,
Səni sevə-sevə öləcəm axır.

Eşqin, məhəbbətim dilimdə andım,
Gecə də, gündüz də mən səni andım,
Bilmirəm, bəs niyə oduna yandım?
Sinəmdə həsrətin şimşəyi çaxır,
Səni sevə-sevə öləcəm axır.

Sən sevda şamısan, mənsə pərvanə,
Başına döndükcə oldum divanə,
Könlün necə dözür de bu divanə?
Hicranın qəlbimi yandırıb-yaxır,
Səni sevə-sevə öləcəm axır.

Bu dəli istəyə könlüm sarışır,

Ürəyim vay salır, ağlım qarışır,
Ayrılıq sinəmin yarasın qaşır,
Ağlın bu sevdaya de necə baxır?
Səni sevə-sevə öləcəm axır.

Qəmin Şadimana çəkdirir cəfa,
Məhəbbət yoxdursa, qəlbdə nə vəfa?
Eşqin ürəyimə bulmadı şəfa,
Gözlərim yoluna həsrətlə baxır…
Səni sevə-sevə öləcəm axır.

31. X. 2003

BU DÜNYADA YOXDU SƏNDƏN, ƏZİZİM

Bu dünyada yoxdu səndən, əzizim,
Sənsiz solar payız təki bənizim,
Əlçatmayan yoxuşlarda pak izim,
Can içində vəfadarım, gəl bəri,
Zirvələrdə bəyaz qarım, gəl barı.

Ürəyimdə diləklərim çağlayar,
Könül sənsiz için-için ağlayır,
Ayrılığın qapısını bağlayar,
Hər əzaba fədakarım, gəl bəri.
Zirvələrdə bəyaz qarım, gəl bəri.

Həsrət məni yaman çəkdi çarmıxa,
Tuş gəlibdi sinəm içi sərt oxa,
Yorulmuşam zülümlərdən, qəlb yuxa,
Qalxıb ərşə ahi-zarım, gəl bəri,
Zirvələrdə bəyaz qarım, gəl bəri.

Sənlə keçən bu zamanım gülümdü,
Ayrılıqlar hər ömürə zülümdü,
Bizə düşən həyat üzü ölümdü…
Acılardan ürək dilim-dilimdi,
Xoş anıma səbəbkarım, gəl bəri,
Zirvələrdə bəyaz qarım, gəl bəri.

Şadimanı min bir niskil bürüdü,
Fələk onu atdan saldı, sürüdü,
Qəm üstünə qoşun-qoşun yeridi,
Səadətə qələmkarım, gəl bəri,
Zirvələrdə bəyaz qarım, gəl bəri.

26.X.2003

TAPA BİLMƏZSƏN MƏNİ

Ahın ərşi dağıdar,
Ayrılığın dağı dar,
Gözlərin yaş dağıdar,
İçinə tökər çəni,
Tapa bilməzsən məni.

Xəyalın qoşun çəkər,
Üstünə qəmi tökər,
Sinəndə hicran əkər,
Əridər həsrət çəni,
Tapa bilməzsən məni.

Sevdalar başdan gələr,
Hər işin daşdan gələr,
Qəmin göz yaşdan gələr,
Güdər ayrılıq səni,
Tapa bilməzsən məni.

Dərdi dastan edərsən,
Qəmə bostan edərsən,
Cana kotan edərsən,
Ələr könlünə dəni,
Tapa bilməzsən məni.

Şadimanı can üzər,
Qəlbinə hicran düzər,
Yuxunda səni gəzər,
Ağlar sinənin məni,
Tapa bilməzsən məni.

26. X. 2003/ Pirallahı

EŞQİN ÜRƏYİMƏ CAN DƏRMANIDI

Eşqin ürəyimə can dərmanıdı,
Dərmanı təbiblər, loğmanlar yazır.
Baxışın sinəmin din-imanıdı,
Sevgini dərgaha imanlar yazır.

Nə canlar gələrək, nə canlar gedir ?
Fələk qapımızda ömürü güdür,
Fəraqın könlümə zülümlər edir,
Hicranın acısın zamanlar yazır.

Gecə yuxulara şam olur könlüm,
Ağrıya-acıya dam olur könlüm,
Dəli ayrılığa kam olur könlüm,
Dərdin taleyimə fərmanlar yazır.

Göz yaşın sellənir – saylar aparır,
Dilimin ağrısı haylar aparır,
Vallah, insan ömrün vaylar aparır…
Sevdan can yarama dərmanlar yazır.

Elə vurulmuşam bu məhəbbətə,
Dərdin ürəyimi çəkib xəlbətə,
Əllərim duada o ibadətə,
Eşqin can sevdama peymanlar yazır.

Sən qəlbi pərişan, mən həsrətə tuş,
Edir duyğuları ələmlərin nuş,
Canım qəfəslərdə çırpınan bir quş,
Bu dustaq könlümə divanlar yazır.

Gəl ey vəfadarım, Şadiman naçar,
Gəlib yuxularda qapını açar,
Ayrılıq fələyin evindən qaçar,
Sinəmdə həsrətə ünvanlar yazır.

12. X1. 2003

NƏ GƏZİRSƏN BU SEVDADA ?

Nə gəzirsən bu sevdada?
Kipriklərin nəmə batar.
Həsrət gəzər hər ədada,
Gözəl vüsal qəmə batar.

Zaman ötüb keçməz belə,
Vermə ömrü getsin yelə,
Hicran mizrab vurar telə,
Zilin düşüb bəmə batar.

Duyğuları dərd eyləmə,
Ayrılığı mərd eyləmə,
Qəlbə sərhəd, səd eyləmə,
Dilin acı təmə batar.

Can ötüşər ah-vay ilə,
Gəlir-gedir bir hay ilə,
Zaman yüklü gün ay ilə,
An üşüyüb dəmə batar.

Şadimana etmə cida,
Eşqimizə nə əlvida?
Ömür ötər, gələr vida,
Hər kəsirin kəmə batar.

20. X1. 2003

SİNƏMDƏ PEYMAN ÜŞÜDÜ

Bu nə sevgidi, Xudaya?
Canımda hicran üşüdü,
Nə oldu düşdüm sevdaya?
Ürək yarımcan üşüdü.

Gecəmdən aləm tökuldü,
Dilimdən naləm tökuldü,
Bağrımın damı söküldü,
Sitəmdən hər yan üşüdü.

Göylədə bitdi amanım,
Gəlmədi xoşbəxt zamanım,
Kəsildi haqdan fərmanım,
Könlümdə iman üşüdü.

Könlümdə ağrım dolaşdı,
Axıb bağrıma bulaşdı,
Ayrılıq qəmlə ulaşdı,
Ötüşən zaman üşüdü.

Sübhümdə sevda duvası,
Başımda eşqin havası,
Buzladı köksün yuvası,
Bağrımda aman üşüdü.

Bu nə sevgidi Xudaya?
Sığmadı heç bir ədaya,
Şadiman düşdü qadaya,
Sinəmdə peyman üşüdü.
20. X1. 2003

VƏFA MƏNDƏN, CƏFA SƏNDƏN

Vəfa məndən, cəfa səndən,
Hər fəraqı at könlümə.
Şəfa məndən, səfa səndən,
Ayrılığı çat könlümə.

Möhnət yükü nə ağırmış?
Qəm içindən qəm yağırmış,
Dərdə dözən bu bağırmış,
Hicranları qat könlümə.

Başımda eşq havasıdı,
Dilimdə haqq duvasıdı,
Qəlbim həsrət yuvasıdı…
Qoy başını yat, könlümə.

Sevda Tanrı azarıdı,
Ayrılıqlar məzarıdı,
Sinəm möhnət bazarıdı,
Gətir eşqi, sat könlümə.

Göy yağmasa dağ qar olmaz,
Hər yetəndə ilqar olmaz,
Qəlb sevməyən can yar olmaz,
Bacarırsan yat könlümə.

Eşqi saldım qəfəslərə,
Dəyməsin yad nəfəslərə,
Düşmərəm boş həvəslərə,
Hünərin var bat könlümə.

Sinəmdən bir sevda uçdu,
Bu sevda da mənə suçdu,
Gözdən axan qan-yaş puçdu,
Gir sellərə bat könlümə.

Dinlə qəlbdən gələn ünü,
Şadimanın nədir günü?
Çatıb yenə qəm düyünü-
Vurma neçə qat könlümə.
16. X11. 2003

EY KÖNÜL MÜLKÜMÜ GƏZƏN DİLDARIM

Ey könül mülkümü gəzən dildarım,
Gəzdiyin yerlərdə həsrət gizlənir.

Dünyada məhəbbət – bu həyat barım,

Ağlayan gözümdə nəm əzizlənir.

Sənsən taleyimin dostu, ilqarı,
Ələnir könlümə hicranın qarı,
Gətir ürəyimə qışda baharı,
Ruhum şahə qalxır, can təmizlənir.

O sevda quşumu uçurma başdan,
Mən necə əl çəkim səntək sirdaşdan?
Eşqimdən yan keçmə, eyləmə başdan,
Baxır yad nəzərlər, sevğim izlənir.

Gəl ey incik düşən, alım qadanı,
Ayrılıq gün verməz vüsal dadanı,
Salma zamanıma möhnət meydanı,
Arada ixtilaf, dava gözlənir.

Demə Şadimanın vəfası yoxmuş,
Sevən ürəklərin səfası yoxmuş,
Sevdaya düşənin cəfası yoxmuş,
Diləklərim coşur, eşq dənizlənir.
18. X1. 2003

DAĞDAN DÜZƏ ENMİŞƏM

Dağdan düzə enmişəm,
Duman, çiskin əlindən.
Demə, hdan dönmüşəm,
Dərd tökülür dilindən.

Ürəyimi yaxmısan,
Canımda hal qalmayıb.
Könlümə kəm baxmısan,
Nə qeylü-qal qalmayıb?

Hər ahın bir amanı,
Hər amanın bir ahı,
Ağır hicran zamanı-
Qəm ğətirir sabahı.

Bu ağlayan bağrımı,
Kiritməyə üzüm yox,
Yer götürməz ağrımı,
Daha məndə dözüm yox.

Aşıb-daşan diləklər,
Xəyalına baş əyir.
Dolur yerlər, fələklər,
Ahı könlümə dəyir.

Şadimanın hayına,
Hərdən səda versənə.

Gəlib qəlb sarayına,
Vüsalımı dərsənə.
18. X1. 2003

TALE BİZİ YOXLAYIR

Mənə vəfasız deyən,
Hicranıma baxsana.
Qəlbin budağın əyən,
Bu qəmi buraxsana.

Gəl, seyrinə çıx bağın,
Hər yarpaqda bir vüsal.
Kəs həsrətin ayağın,
Könlümdən yolunu sal.

Quşlar nəğmə oxuyur,
Sevdamızın səsinə.
Güllər gülab qoxuyur…
Nəfəs ver nəfəsinə.

Gözümüzdə intizar,
Yollarımız aralı.
Üzdü məni ahi-zar,
Dolub qəmin xaralı.

Ağlar diləklərimin,
Fəryadına gəlsənə.
Bağlı biləklərimin,
Ağrısını bilsənə.

Şadimanın gözündə,
Qəm qoşunu yuxlayır.
Axtar məni özündə…
Tale bizi yoxlayır.

18. X. 2003

SEVDA CANIN, CAN SEVDANIN

Sevda canın, can sevdanın,
Məhəbbətə açar oldum.
Dəlisidi qəlb ədanın,
Hicranlardan qaçar oldum.

Qəm düşübdü eşq bağına,
Gəldim möhnət sorağına,
Pərvanəyə çırağına-
Niyə belə naçar oldum?

Duydum eşqin havasını,
Aldım könül duvasını,
Uçurtma can yuvasını,
Qapısını açar oldum.

Dolaşırsan hər ahında,
Gəzmə məni günahında,
Yelə döndüm sabahında,
Başın üstə uçar oldum.

Eşq bağına bir gül ikən,

Ağlatdığın bülbül ikən,
Sən yandırdın mən kül ikən-
Nə bəlaya düçar oldum?!

Şadimandan sorma eşqi,
Gəl üzünə vurma eşqi,
Xəyallarda qurma eşqi…
Qəm qapısın açar oldum.
17. X1. 2003

SƏNİ GƏZƏR ÜRƏYİM

Səni gəzər ürəyim duyğular arasında,
Xəyaların boylanar könlümün yarasında,
Baxışını oxşaram gözümün qarasında,
Söylə mən səni tapım hicranın harasında?
Hər günümü qul edən bu sevdanı səslərəm,
Candan əziz eşqini sinəmdə qəfəslərəm.

Həyatımı kiridən nəş'ələri danmışam,
Oda düşən yağ təki fəryadlarla yanmışam,
Gəlmisən yuxulara səsinə oyanmışam,
Sarıb köksümü hicran atəşə boyanmışam,
Taleysiz məhəbbəti gizli-gizli bəslərəm,
Candan əziz eşqini sinəmdə qəfəslərəm.

Hər gecə qəmlə dolu üstümə karvan gəlir,
Naləmi dara çəkən zülümkar sarvan gəlir,
Elə bil fələklərin hökmüylə divan gəlir,
Bu zülmətlər içində qəlb evim ünvan gəlir,
Oxşaram müsübəti, mən hamıdan həslərəm,
Candan əziz eşqini ürəyimdə bəslərəm.

Bu sevginin yasına gözlərim gurşad tökər,
Ürəyimə dünyanın qaranlıqları çökər,
Könlümdə gecə-gündüz sənin xəyalın səkər,
Sevincdən iraq düşüb qəmlərə etdim şakər,
Qəlbi dara çəkməkçin zamanı həvəslərəm,
Candan əziz eşqini sinəmdə qəfəslərəm.

Mənim ahım göylərdə şimşəkləri çalxadar,
Bir bax yanan bağrıma, gəlib ona arxa dur,
İndi yalnız xəyalın həyatıma arxadır,
Qəlbin həsrət selinin üzü yenə arxadır…
Dünyanın qulağında fəryad dolu səslərəm…
Candan əziz eşqini ürəyimdə bəslərəm.

Şadimanın ahına buludlar ağlaşarlar,
Duyğularda hicranın sevdaları yaşarlar,
Alıb ələ ağlımı zirvələri aşarlar,
Dolub bəbəklərimə sellər təki daşarlar,
Diri ikən ölüyəm, sanki boş nəfəslərəm,
Candan əziz eşqini ürəyimdə bəslərəm.
16. X1. 2003

EŞQİNİ ƏZİZLƏYİM KÖNLÜMÜN HARASINDA?

Yenə gəlib bağrımı atəşlərə atmısan,
O yatmış duyğuları yuxudan oyatmısan,

Hicranın otağında qəmin başın qatmısan,
Bağrıma bu sevdanın od-atəşin çatmısan,
Arzularım çırpınır anla-gün arasında,
Eşqini əzizləyim könlümün harasında?

Havalı diləklərim gözlərimdən sel çəkir,
Ürəyim ürəyinin arasına tel çəkir,
Duman almış xəyalın buladlardan yel çəkir,
Dilə düşmüş sinəmin sədasını el çəkir,
Baxışını bəslərəm gözümün qarasında,
Eşqini əzizləyim könlümün harasında?

Bu istəyi Allahım bizə dustaq eyləyib,
Qəlbimizin içini qəmə ortaq eyləyib,
Ağrıda qalan canı qəmə yataq eyləyib,
İkimizin könlünü dərdə otaq eyləyib,
Məhəbbətin köz bağlar sinəmin yarasında,
Eşqini əzizləyim sinəmin harasında?

Şadimanın hicranı bağrına çıraq tutub,
Qəlbinin fəryadına misralar varaq tutub,
Ağlımın vəfasını vüsala iraq tutub,
Dilim haray qoparıb – ürəyin soraq tutub,
Bu sevgini arama sevdalar sırasında,
Eşqini əzizləyim könlümün harasında?

16. X1. 2003

TƏKCƏ SƏNİ UNUTMARAM

Çıxa dünya, aləm yaddan,
Yatmış könlü oyatmaram.
Əl üzülsə bu həyatdan,
Təkcə səni unutmaram.

Hicran gəlib alsa qəlbi,
Əzablara salsa qəlbi,
İlan təki çalsa qəlbi,
Təkcə səni unutmaram.

Ağrılarım zirvə aşsa,
Qəm gözündən seltək daşsa,
Əl titrəyib, dil dolaşsa,
Təkcə səni unutmaram.

Ey könlümün can sirdaşı,
Sənə bağlı bağrım başı,
Sil ürəkdən o tələşı,
Təkcə səni unutmaram.

Şadimandan dünya doysa,
Ürəyimi həsrət oysa,
Qəm qapıma ayaq qoysa…
Təkcə səni unutmaram.

13. X1. 2003

EŞQİDƏN HƏR DUYĞU MİN CANƏ GƏLİR

Ayrılıq sinədə qoparır min ah,
Gecəm gündüzümə fərmanə gəlir.

Həsrətin könlümdən boylanan günah,
Niyə ürəyimlə peymanə gəlir?

Diksinib qaçıram can saatımdan,
Duyğular qopmayır hicran atımdan,
Gedə bilməyirsən bu həyatımdan,
Xəyalın könlümə imanə gəlir.

Gözümə zindandı baxışın indi,
Mən haray çəkdikcə həsrətin dindi,
Bəlkə Yaradana məhəbbət dindi…
Bu eşqə sevdalar imanə gəlir.

Xəyalın kölgəmə dönür hər səhər,
Könlümü zamana eyləyir yəhər,
Anlar qanadlanır, vaxt olur kəhər,
Sevgin bu qəlbimi səhmanə gəlir.

Günlərim ələnir vaxt ələyində,
Canım dustaq olub can diləyində,
Bəlkə də sevirsən lap ürəyində,
Hər ağrı-acılar peşmanə gələir.

Sanma, Şadimanı eşqində sail,
Ağıldan izinsiz qəlb sənə mail,
Özündən havalı can-cana hail,
Eşqidən hər duyğu min canə gəlir.

10. X. 2003

HƏSRƏTİN GÖZÜNƏ NEÇƏ MİL ÇƏKDİM

Həsrətin gözünə neçə mil çəkdim?
İlantək qıvrılıb yolumda durdu.
Mən səndən bir yolluq əlimi çəkdim,
Xəyalın önümdə boynunu burdu.

Keçdi ömrüm, günüm üzüntülərlə,
Gözümün yaşına islandı ürək.
Açıldı sabahım əzintilərlə,
Mən qəmə batdıqca yaslandı ürək.

Üzdə bəxtiyaram söylədi hamı,
Çox zaman qapımı nəş'ə döymədi,
Uçuldu hicrandan bu könül damı,
Qəmin xatirinə heç vaxt dəymədi.

Baxışım şeh təki üzünə qondu,
Sildin sazaq bilib onu əlinlə.
Sınıq ümidlərim yolunda dondu,
Gəldi vüsalımın sonu əlinlə.

O ötən illərə həsrətlə baxma,
Zamanın təkəri geriyə dönməz.
Könül kəhkəşanın yandırıb yaxma,
Bir daha ulduzum göylərdən enməz.

9. 04. 2002

DİLƏNÇİ DEYİLƏM ƏL AÇIM SƏNƏ

Dilənçi deyiləm əl açım sənə,
O könül qapımda durum yolçutək.
Yoxsa ürəyimi mən açım sənə,
İllərlə boynumu burum yolçutək.

Məhəbbət sevdaya düşənlər üçün,
Hər könül atəşi sevgi sayılmaz.
Dərd verər ürəyə, İlahi, neçin?
Sevənlər bu dəli hissdən ayılmaz.

Sən ki, sevməmisən ömründə heç vaxt,
Ürəyin atəşin göz hardan bilər?
Sönmüş ocağında yellər qurub taxt,
Könlün harayını köz hardan bilər?

Gəl dəli sevdamın yasına baxma,
Onu məzarlayıb illər həsrəti.
Gözünün qan dolu tasına baxma,
Özüm ağlayacam bu məhəbbəti.

Tut məndən aralı baxışlarını,
Könlümün içini ovmayır daha.
Əritdin hicranın sərt qışlarını,
Qəlbimi sinəmdən qovmayır daha.

Tanrının verdiyi üzərlik bildim,
Oyuncaq sanmadım bu həyatımı.
Bu dəli sevdanı təbərlik bildim,
Çapdım sağa-sola tale atımı.

Havayı çalxatma bəbəkdə yaşı,
Gözünün yağışı islatmaz məni.
Ürəyin yerinə asmışam daşı,
Daş necə anlayar ürəktək səni?

Dilənçi deyiləm qapına gəlim,
Səndən bu sevdanı umum paratək.
Donmuş xəyalından yapışıb əlim…
Asılıb qalmısan qəlbdən yaratək.

26. 05. 2002

ÖZÜN QORU BU SEVDANI

Ah, sevgilim, bilməm nədən?
Dəli sevgi alır canı.
Mirvaritək könlüm dən-dən,
Özün qoru bu sevdanı.

Çiçəyimi çən üşütdü,
Bağırımı tən üşütdü,
Sünbülümü dən üşütdü,
Özün qoru bu sevdanı.

Dəniz təki ləpələnir,
Dolur qəlbə təpələnir,

Ürəyimə səpələnir,
Özün qoru bu sevdanı.

Ah, sevgilim, könlüm ocaq,
Köz yığılır qucaq-qucaq,
Sevgin mənə açıb qucaq,
Özün qoru bu sevdanı.

Göz oxşayır qəlb bağını,
Ğedir bağda gül yığını,
Gətir bəxtin dümağını,
Özün qoru bu sevdanı.

Şadimanı naçar sanma,
Hicrana yol açar, sanma,
Bu ülfətdən qaçar, sanma,
Özün qoru bu sevdanı.
26. 05. 2002

ŞAD EDƏK CANI

Axşam zamanı,
Könlün amanı,
Kəsildi zalim,
Pis oldu halim.
Can uçdu ərşə,
Verdi əndişə,
Dinə bilmədim.
Enə bilmədim-
Göyün qatından,
Xəyal atından.
Sirli mələktək,
Şıltaq küləktək,
Gəzdim aləmi,
Uddum naləmi.
Göyü yer bildim,
Ahıma güldüm.
Qəhqəhəm yatdı,
Qəmi oyatdı.
Gecədən qaçdım,
Sübhə əl açdım.
Al günəş üçün,
Bol atəş üçün.
Zamanı tapdım,
Sinəsin çapdım.
Anları tutdum,
Qəmi unutdum.
Vüsal bəxtə yar,
Orda eşqin var.
Hicranı tutaq,
Məzara ataq.
Quraq eşq taxtı,
Şad edək baxtı.
Gəl könlə səs ver,
Ömrə həvəs ver,
Qəmə qəfəs ver.
Cana nəfəs ver,
Bitsin hicranı,
Şad edək canı.

20. 07. 2003

XƏYALIN BAXIŞIM ÖNÜNDƏ İNCƏ

Xəyalın baxışın önündə incə,
Gözündən könlümə eşqin var necə?
Duyğular xalısı naxışlarından,
Səadət tökülür baxışlarından.
Ağladıb könlümü nə güldürürsən?
Məni gah dirildib, gah öldürürsən.
Nədəndir bu qədər işvə, naz səndə?
Könlümün qışını udan yaz səndə.
Zülmətin gözünə işığın yetər,
Mənim əzablarım gecədən betər.
Gəl, ey sevgilərin işvəkar yarı,
Amandır, unutma əhdi, ilqarı.
Gəl, sənə bağlıdı bütün həyatım,
Mənim əlçatmayan dür kainatım.
Ağladır xəyalım könlümü bir bax,
Gəl, onu yandırıb ürəyincə yax.
Ah, səndən başlayır bütün duyğular!
Həyata, bəşərə, eşqə sayğılar.
Səndə zülmətimin eşqi nur saçır,
Sübhün ayağına düşüb əl açır.
Davakar gözlərə qul etmə məni,
Tökmə ürəyimə bu sisi, çəni.
Gəl çağlat könlümün dəli sevdasın,
Quraq ayrılığın əbədi yasın.
Səndə gözlərimin nur şəfası var,
Bütün duyğuların eşq vəfası var.
Gəl, dağıt sinəmdən sən bu hicranı,
Qurtarsın ruhumun zülümdən canı.

18. 07. 2003

SƏN ALLAHIN BƏLASI

Duyğuları oyatdın,
Qəlbdə sevgi yaratdın,
Könlümü dərdə atdın,
Canıma çıxdın ası,
Sən Allahın bəlası.

Çalxatdın diləyimi,
Laxlatdın ürəyimi,
Ağlatdın ürəyimi,
Soldu ömrün talası,
Sən Allahın bəlası.

Hicranın gecə gəldi,
Demə ki, becə gəldi,
Bilmirəm necə gəldi?
Qurdu yuxuma yası,

Sən Allahın bəlası.

Dərdə açdın qucağı,
Qəmi etdin qoçağı,
Çəkdin ələm bıçağı,
Tutdun qanıma tası,
Sən Allahın bəlası.

Hicranın axın gəlir,
Dərd dərdə yaxın gəlir,
Göyün bağrını dəlir
Həsrətimin qalası,
Sən Allahın bəlası.

Tay tutdun məni yada,
Qəmimmi könlə qida?
Tapılmaz bu dünyada,
Şadimanın xilası,
Sən Allahın bəlası.
16. 07. 2003

KÖNLÜMƏ DƏYƏN BİVƏFA

Könlümə dəyən bivəfa,
Bu eşqə peyman arayır.
Qalmayıb bir qətrə vəfa,
Sevgiyə loğman arayır.

Dikəlib göyə qəlb ahı,
Qara edibdi sabahı,
Naləm ağladır Allahı…
Fələkdən fərman arayır.

Hicran yükünü çəkirəm,
Verdiyin dərdi çəkirəm,
Aləmi qəmlə sökürəm,
Sevdaya iman arayır.

Özgələrindi vəfası,
Mənə qalıbdı cəfası,
Əğyarə çarə şəfası,
Könlümdən aman arayır.

Qoymayıb gözdə yaşımı,
Ağradır dərdsiz başımı,
Uçurdub can sirdaşımı,
Öldürüb dərman arayır.

Şadimana qan ağlatdı,
Sevda qapısın bağlatdı,
Sinəmdə qəmi çağlatdı,
Qəlbimə səhman arayır.
14. 08. 2003

KÖNÜL MÜLKÜN YIXAN QAFİL

Nədir belə qəm içində?-
Üzü mənə baxan qafil.
Kiprikləri nəm içində

Ürəyimi yıxan qafil.

Səni könlə yar bilmişdim,
Bu sevdanı bar bilmişdim,
Dönüklüyü ar bilmişdim,
Axırıma çıxan qafil.

Bu könlümü nə inlətdi?
Baxışını dərinlətdi,
Ürək odun sərinlətdi,
Qəlbi ahla sıxan qafil.

Zimistanın sonu bahar,
Bağrı etmə odla ahar,
Gəl sevdamla eylə nahar,
Şimşəklərtək çaxan qafil.

Şadimanın canı səndə,
Nə gəzirsən cansız təndə?
Məhəbbətin durur məndə,
Könül mülkün yıxan qafil.

18. 08. 2003

BÜTÜN ÜMİDLƏRİM QALDI YOLUNDA

Bütün ümidlərim qaldı yolunda,
Baharım qış oldu neçin gəlmədin?
Hicran ürəyimi çaldı yolunda,
Gözümdə yaş oldu neçin gəlmədin?

Ağlatdı gecəmi, sabahımı qəm,
Hıçqırıb, hönkürdü ahımdan aləm,

Bütün yeri, göyü titrətdi naləm,
Qəlbinmi daş oldu neçin gəlmədin?

Mən kədərə məhküm, sən könlü dilşad,
Bir kərə sevdanı eyləmədin yad,
Hər gün saatlarım ahdan etdi dad,
Yolunmu çaş oldu neçin gəlmədin?

Acılar içində edirəm ah-vay,
Gözümdə yaşlarım dərə tutmaz çay,
Səsim dağa, daşa saldı hay-haray,
Qəm qəlbdə baş oldu neçin gəlmədi?

Şadiman əzaba düçar bəxtikəm,
Bir mənim sinəmdən sevinc, nəş'ə kəm,
Könlümü doğrayır zəhər dolu təm,
Elə fəqan etdi həm zil, həm də bəm,
Aləmə faş oldu neçin gəlmədin?

21. 08. 2003

HƏSRƏT YARASI

Vurdun könlə hicran, həsrət yarası,
Can bədəndən ayrı qaldı, neyləyim?

Elə göynər ürəyimin arası,
Qəmin könlə kölgə saldı, neyləyim?

Duyğum hissim sellər təki daşdı hey,
Şəhə qalxdı dağdan, daşdan aşdı hey,
Gözlərimdə ayrılıqdan yaşdı hey,
Eşqi candan həsrət çaldı, neyləyim?

Həyat yolun yaman çaldı ağrımız,
Yandı qəmdən hissə-hissə bağrımız,
Hicran oldu bu sevdada oğrumuz,
Məhəbbətin qeylü-qaldı, neyləyim?

Şadimanı dərdə çəkdi ələmi,
Eşitmədi o ürəyin naləmi,
Misralarım elə yaxdı qələmi,
Bu bəxtimə düşən haldı, neyləyim?

29. 08. 2003 / Gəmidə

BİZİ AYIRMAĞA TƏLƏSDİ ZAMAN

Dəli rüzgar kimi nə əsdi zaman?
Bizi ayırmağa tələsdi zaman.

Sən də əzablara mübtəla, mən də,
Qaldı həyatımız dumanda, çəndə,
Ürəyim çırpınır həsrətlə təndə,
Dəli rüzgar kimi nə əsdi zaman?
Bizi ayırmağa tələsdi zaman.

Baxışın qəlbimin için yandırır,
Həsrətin könlümə ölüm andırır,
Həyat saatımı qəm dayandırır,
Ömür işgəncədi, qəfəsdi zaman,
Bizi ayırmaga tələsdi zaman.

Bəbəyimin yaşı yağışı udur,
Çöhrəmə iz salan naxışı udur,
Titrəyən kipriyin baxışı udur,
Ayrılıq möhnətli qəfəsdi zaman,
Bizi ayırmağa tələsdi zaman.

Dolanıb gəzirəm ürəkdən ayrı,
Allahdan, fələkdən, mələkdən ayrı,
Qəlb necə ovunsun diləkdən ayrı?
Sevdalar bitəndə həvəsdi zaman,
Bizi ayırmağa tələsdi zaman.

Könlümə , canıma , qəlbimə qida,
Bağrımdan suçlanıb bəxtimə nida,
Bizmi eşqə dedik, eşq bizə vida,
Niyə ömrümüzə bir qəsdi zaman?
Bizi ayırmağa tələsdi zaman.

Şadiman, qonubdu sinəmə ağrı,

Yandırır sinəni, yandırır bağrı,
Qəlbə dərd daşının düşübdü ağrı,
Həm sənə, həm mənə nə nəsdi zaman?
Bizi ayırmağa tələsdi zaman…
30. 09. 2003

ELƏ ÜRƏYİMƏ TOXUNDUN YENƏ

Elə ürəyimə toxundun yenə,
Qəlbdə dilə gələn tellər ağladı.
Dünya cəhənnəmi andırdı mənə,
Gözümdə kükrəyən sellər ağladı.

Çaxnaşdı buludla könlümün göyü,
Qalmadı canımın taqəti, heyi,
Süzüldü bağrıma ələmin meyi,
Rüzgarım titrədi, yellər ağladı.

Dilin saatımı yandırdı, yaxdı,
Ağrımı canımdan tənə buraxdı,
Gecəm aha düşdü, ulduzum axdı,
Fəryada oyanan ellər ağladı.

Sanma Şadimanı önündə sail,
Ağılım Tanrıya, can sənə mail,
Etdin sevdamızı heç nəyə zail,
Ağlıma vay dedi, dillər ağladı.
5. X1. 2003

SƏN KÖNÜL, SƏN ÜRƏK, SƏN CAN SİRDAŞI

Duyğudan duyğuya sevdalanmışam,
Ayrılıq kəc baxıb vidalanmışam,
Qəmin üst eləyib qadalanmışam,
Bircə baxışından qidalanmışam,
Qurut gözlərimin, axmasın yaşı,
Sən könül, sən ürək, sən can sirdaşı.

Əqlim yox söyləyir qəlbim isə can,
Arada tufanlar qoparır hicran,
Bu həyat mülkümü eyləmə viran,
Sevgi mərhəmətə gətirir iman,
Eşqinlə köklənib bağrımın başı,
Sən könül, sən ürək, sən can sirdaşı.

Gecəm gündüzünə peymanə gəlib,
Ürəyim qapına divanə gəlib,
Məhəbbət dediyin ünvanə gəlib,
Onun yurd - yuvasın səhmanə gəlib,
Ahım parçalayır qayanı, daşı,
Sən könül, sən ürək, sən can sirdaşı.

Sən olmayan yerdə həyat yox mənə,
Batır ömrüm, günüm dumana, çənə,
Atəşin od tökür buzlayan tənə,
Könlümün göyləri ağlayır yenə,
Qoy coşan sevdanı həsrətə qarşı,
Sən könül, sən ürək, sən can sirdaşı.

Şadiman xəyalın önündə durar,
Sən olan dünyaya təntənə qurar,
Duyğu tellərinə eşq mizrab vurar,
Sevgi dəryasına ruhum baş vurar,
Sanmasın ayrılıq qəlb məsləkdaşı,
Sən könül, sən ürək sən can sirdaşı.
2. X11. 2003

GECƏM AHA GÜLZAR OLUB

Darda qoyma diləyimi,
Dilək candan bezar olub.
Ağlatdıqca ürəyimi,
İçi mənə məzar olub.

Minnətinə könül yaxdım,
Hicran tutdum, qəm buraxdım,
Gizli - gizli gendən baxdım,
Dərdə ahım nə zar olub?

Baxışların sinə çapıb,
Oda dönüb bağrı qapıb,
Dilin yenə yolun sapıb,
Sözü min bir azar olub.

Elə danış, elə savaş,
Ayağına enməsin baş,
Gəzdirdiyin ürək, ya daş?
Bu sevdaya həzar olub.

Bir istəyim , bir də canım,
İnilləyir həyacanım,
Açıb qapı təb ünvanım,
Əlim eşqdən yazar olub.

Şadimanı gəl ağlatma,
Qəmlərini çox çalxatma,
Yatağına dərd bağlatma,
Gecəm aha gülzar olub.
2. X11. 2003

SƏN ÜRƏYİMSƏN MƏNİM

Könül eşqinə bağlı,
Almısan başdan ağlı,
Qoyma qapımı bağlı,
Pak diləyimsən mənim,
Sən ürəyimsən mənim.

Buludsuz çən olarmı?
Buğdasız dən olarmı?
Heç qəlbsiz tən olarmı?
Eşq mələyimsən mənim,
Sən ürəyimsən mənim.

Səndən ayrı canım yox,
Xoş gələn dövranım yox,
Qəmsiz keçən anım yox,
Can dirəyimsən mənim,
Sən ürəyimsən mənim.

Bu sevdadan dönmərəm,
Alışmışam sönmərəm,
Ucalıqdan enmərəm,
Qəlb gərəyimsən mənim,
Sən ürəyimsən mənim.

Sinəmdən şimşək çaxdı,
Odu cana buraxdı,
Şadimanı nə yaxdı?
Əs, küləyimsən mənim,
Sən ürəyimsən mənim.
2. X11. 2003

BU SEVDA NƏ SEVDADI ?

Gecəmi oda yaxır,
Qəmi cana buraxır,
Olmaz dərdinə axır,

Sanki cana qidadı,
Bu sevda nə sevdadı?

Hicranı qəlbdə yatır,
Ahına könlüm batır,
Fəryadı ərşə çatır,
Əlçatmayan adadı,
Bu sevda nə sevdadı?

Siz deyin, ey adamlar,
Tutub könlümü damlar,
Qalar sinədə kamlar,
Axırı qan - qadadı,
Bu sevda nə sevdadı?

Əqlimi alıb başdan,
Əl götürməz savaşdan,
Gözüm ayılmaz yaşdan,
Gah sevgi, gah ədadı,
Bu sevda nə sevdadı?

Hicranı sabah mənə,
Nəş'əsi günah mənə,
Elə verir ah mənə!
Dildən qopan nidadı,
Bu sevda nə sevdadı?

Göydən yerə enməyir,
Elə yanır sönməyir,
Şadimandan dönməyir,
Vüsalında nidadı,

Bu sevda nə sevdadı?
2. X11. 2003

HARDASAN EY YAR

Sənin yoxluğuna üşüyür canım,
Boş qalıb yenə də könül ünvanım,
Bu acı möhnətdən bitməz divanım,
Həsrət ürəyimin başını oyar,
Hardasan, hardasan, hardasan ey yar?

Xatirən gecəmin köksünə təpər,
Hicranın bəbəyə çiskinin səpər,
Özünü könlümün içinə təpər,
Kipriklər gözümdə yaşımı öpər,
Çöhrəmi şıdırığı gurşada boyar,
Hardasan, hardasan, hardasan ey yar?

Dilimdə əsirdi adın nə vaxtdı?
Bu eşq ürəyimi yandırdı, yaxdı,
Xəyalın qurubdu qəlbimdə taxtı,
Könlümü qapında divanə qoyar,
Hardasan, hardasan, hardasan ey yar?

Sevda gülşənindən kəsdin ayağı,
Hicranın gecəmin oldu mayağı,
Hansı dərd ağrıdar həsrət sayağı,
Sənki Şadimana olmusan yağı,
Al qəm xəncərimi ürəyimi yar,
Hardasan, hardasan, hardasan ey yar?
23. X11. 2001

SƏNİN XƏYALLARIN YÜYƏNSİZ ATLI

Sənin xəyalların yüyənsiz atlı,
Könlümü heç zaman tərk eləmədi.
Uçdu qartal kimi elə qanadlı,
Gəlib ürəyimə ərk eləmədi.

Qurdu hicranımla elə ülfəti,
Baş qoydu köksümə məndən xəlbəti,
Atdı ayrılığa bu məhəbbəti…
Heç zaman eşqimi dərk eləmədi.

Sənin xəyalların gecəmə çıraq,
Hicranın telini oxşayan daraq,
Gizli göz yaşımla islanmış varaq,
Gəzdi ürəyimdən elə hey qıraq,
Kədərin ağrısın bərk eləmədi.

Qərib bir durnatək uçdu başımda,
İslanıb qurudu bu göz yaşımda,
Bir buz heykəlinə döndü qarşımda,
Dərdini başına börk eləmədi.

Sənin xəyalların canıma yuva,
Bağrımın içini hey ova-ova,
Döndərdi ürəyin özünü ova,
Oldu ciyərimə bir içim hava,

Bu eşqi könlümə sərk eləmədi.

Sənin xəyalların necə də zalım,
Hönkürdü önündə bu miskin halım,
Döydü dəli təki başa vüsalım,
Demədi ürəyə dərdini alım,
Həsrətə, hicrana görk eləmədi.

22. X11. 2003

SƏN KÖNÜL BAĞÇAMIN ŞEYDA BÜLBÜLÜ

Sən könül bağçamın şeyda bülbülü,
Uçursan budaqla gül arasında.
Salma ayrılığa o mə'sum gülü,
Yanarsan, qalarsan kül arasında.

Əsirkən başımda hicran küləyi,
Qoparır, aparır hara ürəyi?
Xatirən ovutmur vallah ürəyi,
Qalmışam könüllə dil arasında.

Hicran buludunun leysanı yağır,
Bürünüb gurşada bu sinə, bağır,
Hər yağış danəsi səmadan ağır,
Ürəyim çırpınır sel arasında.

Salıbdı könlümdə xəyalın binə,
Gecədən sübhədək əsirəm yenə,
Bəyaz şəfəqlərə bürünüb sinə,
Duyğular gizlənib tül arasında.

Eşqin ürəyimin olub qəvvası,
Dərin dəryalarla bitmir davası,
Dolur vücuduma vüsal havası,
Könül dilə gəlir tel arasında.

Hicranın göylərə qoyub nərdivan,
Uçur səmalarda tanımır ünvan,
Bu mə'sum könlümə qurubdu divan,
Qalmışam rüzgarla yel arasında.

Şadiman zamanı saxlaya bilməz,
Çəkilib könlünə yuxlaya bilməz,
Xəyalı çiçəktək qoxlaya bilməz,
Gün fəryad qoparır il arasında.

29. X11.2001

SƏHƏR - SƏHƏR MƏNƏ ÜÇ GÜL GƏTİRDİN

Səhər - səhər mənə üç gül gətirdin,
Güllər təki ey vüqarlı sevgilim.
Ürəyimdə gülüstanlar bitirdin,
Bu qış günü ey baharlı, sevgilim.

Bu sevdanın ətri elə çiçəkdi,
Sübh zamanı şehə düşən ləçəkdi,
Qəlbin eşqlə tirəməsi gerçəkdi,
Məhəbbətdə düz ilqarlı, sevgilim.

Bu peymanı dəyişmərəm daş - qaşa,
Sirdaş gərək candan yansın sirdaşa,
Başdan - başa könlün, hissin tamaşa,
Varlılardan daha varlı, sevgilim.

Göy Xəzərdə külək döyər dirəyi,
Tər çiçəklər buz suların mələyi,
Bu sazaqda isindirdin ürəyi,
Duyğuları təzə barlı, sevgilim.

Aman, Tanrım, gül kolundan üzülər,
Şeh üstünə mirvaritək düzülər,
Şadimana elə baxma, üzülər,
Hər çiçəyi ey nübarlı, sevgilim.

28. X11.2001

HÖNKÜRÜR KÖNLÜMÜN QAPILARINDA…

Hönkürür könlümün qapılarında,
Qısqanclıq odunda yanan ürəyin.
Dönüb bir utancaq ülkər mələyə,
Hicran buzlarında donan ürəyin.

Soyumuş ocaqdı külü bozarıb,
Ayrılıq odunda güntək qızarıb,
İçinin atəşi üzünü sarıb,
Eşqinə qul olub sınan ürəyin.

Məni kölgəmə də qısqanmaq yetər,
Belə qısqanclıqdan məhəbbət itər,
Sevda gülzarında nifrətlər bitər,
Sərgərdan eşqini danan ürəyin.

Boğur Şadimanı sızlar qəhəri,
Dava, dalaş olub könlə bəhəri,
Biryolluq öldürmür məni zəhəri,
Özünü xilaskar sanan ürəyin.

31. 03. 2003

CAN İÇİNDƏ BƏSLƏRƏM

Səni can içində bəslərəm , ey yar,
Canımı acıya salmağın nədən?
Qapımdan hicranı həslərəm , ey yar,
Bəs məndən könlümü almağın nədən?

Dərdin ki, dərdimə olmuşdu açar,
Hicranı görmədim bir gün də naçar,
Sən olsan bəxtimin evindən qaçar,
Eşqimdən kənarda qalmağın nədən?

Ağladıb güldürdün bu ürəyimi,
Aləmə güldürdün bu ürəyimi,
Min dəfə öldürdün bu ürəyimi,
Bəs orda yurd-yuva salmağın nədən?

Mənim əhvalımı özgədən sordun,
Sanki ocağıma tuşlanan qordun,
Ömür yollarında könlümü yordun,
Ürəyin tellini çalmağın nədən?

Tale bağçasının saralıb tülü,
Sevda ocağının sovrulur külü,
Surətin gözümün ayrılıq tülü,
Gecəmin üstünə salmağın nədən?

Kim ki, məhəbbətə baxdı divanə,
Oldu könlün içi tamam viranə,
Şadiman gəlibdi bu eşqdən canə,
Könlümdə xəyalə dalmağın nədən?

1. 04. 2003

AĞLAR ÜRƏYİMİ SALMADIN YADA

Ağlar ürəyimi salmadın yada,
Düşüb xəyalıma izləmə məni.
Yetişə bilmədin aha, imdada,
Ömür yollarında gözləmə məni.

Mən səni könlümə yar sandım bir vaxt,
Qoydun darmacalda əhdimi bivaxt,
Düşməyir ələ ki, ötüb keçən vaxt,
Zaman ayrıcında bizləmə məni.

Atəşi yamanmış oda düşmüsən,
Hey odlar içində yanıb bişmisən,
Hicran ağrısıyla dərddən şişmisən,
Ömrün yoxuşunda közləmə məni.

Şadiman ağrısın yellərə satdı,
Ürəyin harayın tellərə satdı,
Ötən günlərimi illərə satdı,
Gözünün yaşını sellərə satdı,
Salıb ağızlara sözləmə məni.

31. 03. 2003

KÖNLÜ DƏRDƏ SUÇ EYLƏMƏ

Könlü dərdə suç eyləmə,
Həsrətinə çarə mənəm.
Bu sevdanı puç eyləmə,
Sənsiz günü qarə mənəm.

Dağdan aşan yaz seliyəm,
Güneylərdə çöl yeliyəm,
Gah diriyəm, gah ölüyəm,
Ürəyində yarə mənəm.

Hər avazın bir səsi var,
Ayrılığın nəfəsi var,
Canımda eşq nəfəsi var,
Yar olan ah-zarə mənəm.

Gül bağımı taladılar,
Al qanımla suladılar,
Könlü ahla buladılar,
Əsir düşən xarə, mənəm.

Şadimana etmə cida,
Sultan eşqin qəlbə qida,
Dil dedikcə can əlvida,
Qul olan o yarə mənəm.
14. 03. 2003

HALAL EYLƏRƏM

Düşərsə canın yatağa,
Canımı halal eylərəm.
Bələnsə ahın otağa,
Qanımı halal eylərəm.

Harayın göyü əritsə,
Könlünü yıxıb sürütsə,
Dəmimi qəmə bürütsə,
Anımı halal eylərəm.

Qapımda sevdan mələsə,
Üstümə hicran ələsə,
Atəşə könlü bələsə,
Şanımı halal eylərəm.
14. 03. 2003

ELƏ TAMARZIDI ÜRƏYİM SƏNƏ

Elə tamarzıdı ürəyim sənə,
Xəyalın önündə baş əyir indi.
Bürüyüb könlümü dumana, çənə,
Döyür kipriyimi yaş əyir indi.

Qəlbim bu əzaba necə tablanır?
Dərdin tuluğuna ələm qablanır,
Könül badəsində eşq gülablanır,
Ömür sarayımı yaş əyir indi.

Zaman oturubdu taxtın üstünə,
Saatlar əyilir vaxtın üstünə,
Ələm qoşun çəkir baxtın üstünə,
Qəlbin fəryadına baş əyir indi.

Ayrılıq çeşməsi gözümdə qaynar,
Kədər mağar qurub hicranla oynar,
Nə hissim durular, nə başım aynar,
Gözün gördüyünü qaş əyir indi.

Şadiman kölgənə minnət eyləyib,
Sən gələn yuxunu zinət eyləyib,
Eşqini özünə sən'ət eyləyib,
Dərdin qaya nədi, daş əyir indi?
13. 03. 2003

BAXIŞLARIN NƏ DEYİR?

Baxışların nə deyir?
Ürəklərdən xəbərsiz.
Könlümdə özün öyür,
Diləklərdən xəbərsiz.

Gözlərimlə öcəşir,
Düşür araya həşir,
Bağırıma od düşür,
Kələklərdən xəbərsiz.

Qəlb qapısın açıram,
Yol üstünə qaçıram,
Xəyallarla uçuram,
Mələklərdən xəbərsiz.

Əl açıram illərə,
Ağrı düşür tellərə,
Könlüm dönür yellərə,
Küləklərdən xəbərsiz.

Qurub gözdə qəsiri,
Baxışının nə siri?
Edib qəlbi əsiri,
Fələklərdən xəbərsiz.
16. 03. 2003

QƏLBƏ HARDAN GƏLDİ BU MƏHƏBBƏTİN ?

Qəlbə hardan gəldi bu məhəbbətin?
Mən niyə vuruldum sənə bilmirəm ?
Könlümə baş qoyub yatıb xiffətin,
Göydəyəm, yerdəyəm yenə bilmirəm.

Ürəyin yuvası hara olubdu?
Onu öz yerinə qaytarmaq çətin.
Gözdə bülüdlarım elə dolubdu,
Onun gurşadına dözməyim mətin.

Günüm göy əskiyə büküldü yaman,
Çəkir ağrısını ömrüm minnətin.
Üstümə qəm odu töküldü yaman,
Mənə qismət olub bu səadətin.
18. 03. 2003

SƏNİ YUXULARDA GƏZİRƏM İNDİ

Səni yuxularda gəzirəm indi,

Yuxumun özündən qaçıb getmisən.
Dönüb əfsanəvi simurğ quşuna
Hansı nağıllara uçub getmisən?

Səni çox arayıb, çox axtardım mən,
Yolumun üstündə bitdi duman, çən,
Bağrımın telləri üzüldü dən-dən,
Bəlkə həsrətimə acıb getmisən?

Hər yerdən, hər şeydən şəkilin güldü,
Üstümə dünyanın közü töküldü,
Yanan atəşimə ürəyim küldü,
Lap məhşər odunu saçıb getmisən.

Qəlbim gözlərimə kəsilib yağı,
Gözlərim eşqinin xəyal çırağı,
Silinib getməyir bu könül dağı,
Bəxtimə nə bəla açıb getmisən?

16. 03. 2003

VƏFA UMMA GƏL YETƏNDƏN

Vəfa umma, gəl yetəndən,
Hər sinəyə dola bilməz.
Bülbül təki çox ötəndən,
Könlünə yar ola bilməz.

Yarı canda arayarlar,
Qəlb telinə sarayarlar,
Qalıb eşqlə qarıyarlar,
O ürəkdə sola bilməz.

Ey sevdanı pul edənlər,
Var-dövlətə qul edənələr,
Ayrılığa çul edənlər,
Onu hər kəs bula bilməz.

O Allahdan gələn işıq,
Ömrə, günə bir yaraşıq,
Eşq ürəkdi, can sarmaşıq,
Heç kim onu ala bilməz.

Ürək sevdi, qəmə tuşdu,
Məhəbbətlər qəlbə nuşdu,
Sevgi elə uçan quşdu,
Yel qanadın yola bilməz.

Ey Şadiman, çəkmə xiffət,
Sevda elə nazlı afət,
Göstər ona bir xoş sifət,
Bağrı əqrəb çala bilməz.

6. 03. 2003

EŞİT KÖNLÜN HARAYINI

Nə gəzirsən zarı-zarı?-
Ürəyimin bağçasında.
Büküb çənə sən ilqarı,
Qoymusan can taxçasında.

Eşqi könlə peyman eylə,
Qoy yandırıb kül etməsin.
Bu sevdaya iman eylə,
Hicran qəlbi tül etməsin.

Ürək alıb sorağını,
Uçmaq üçün qanad gəzir.
Aç sinəmin varağını,
Et misramı eşqə nəzir.

Sənsiz dünyam geyib qara,
Zamanımı yaza döndər.
Bulmayırsan əgər çara,
Ömrü qırıq saza döndər.

Sevdan qəlbin əmanəti,
Uçurma eşq sarayımı.
Gir ürəyə, gəl xəlbəti…
Eşit könlün harayını.

1. 04. 2003

ÇİÇƏKLƏR AÇILIB BAĞIMDA EYVAH

Çiçəklər açılıb bağımda, eyvah,
Qoyma ki, soldursun xəzan yelləri.
Könül qapısını gəl aç bir sabah,
Qoy riqqətə gəlsin qəlbin telləri.

Səni candan əziz duydum hər zaman,
Canımı canıma yar demişəm mən.
Sənsən dualarım, könlümdə iman,
Məhəbbət dünyana var demişəm mən.

Gəl, ey sevdiciyim, qıyma qüssəyə-
Bağrımın başını para eyləsin.
Ürək bölünməyir neçə hissəyə…?
Qoyma hicran onu yara eyləsin.

15. 04. 2003

MƏNİM ÜRƏYİMİ YAD EDƏN DİLDAR

Mənim ürəyimi yad edən dildar,
Ürəyin xəzanı yetişməmiş gəl.
Bağrı hicranlarla, ey didən dildar,
Sinəmdə yaralar bitişməmiş gəl.

Hər ağrı-acıyla qurma ittifaq,

Kor edər sevdanı, sevgini nifaq,
Əgər zənn edirsən bu eşqini haqq,
Zamanın illəri ötüşməmiş gəl.

Dərdi ürəyinə ortaq eyləmə,
Qəmi mənzilinə otaq eyləmə,
Həsrəti eşqinə yataq eyləmə,
Ömür xəzanımla öpüşməmiş gəl…
14. 04. 2003

ÜZ ÇEVİRİB GETMƏ MƏNDƏN

Üz çevirib getmə məndən,
Könlüm səndən dönən deyil.
Qurtar qəlbi duman çəndən,
Zirvələrdən enən deyil.

Gözüm gördü, ürək sevdi,
Həsrət sevgi udan divdi,
Eşq qapısı bağlı evdi,
Aç, lal dilim dinən deyil.

Hicran yolu nə diş-dişdi?
Demə, sevda olan işdi,
Atəşimdən yer-göy bişdi,
Könül odum sönən deyil.

Duyğularım baş-başadır,
Gedər ömrü can yaşadır,
Həyat ki, var tamaşadır,
Bir əbədi binən deyil.

Şadimanda can qoymadın,
Qəm yuvasın heç oymadın,
Baxışımı heç duymadın,
O, ağlayan sinən deyil.
18. 04. 2003

NƏDƏN ÜZ ÇEVİRİB GEDİRSƏN BELƏ?

Nədən üz çevirib gedirsən belə?
Ağlayan könlümün dərmanı sənsən.
Vermə ümidimi, sevdalım, yelə,
Bəxtimin hökümü, fərmanı sənsən.

Əsən küləyimsən, doğan günəşim,
Odundan nurlanır ocaq atəşim,
Ulu məhəbbətə səcdədi işim,
Eşqimin həyatda imanı sənsən.

Getmə, sevdiciyim, dünya fanidir,
Zamanın gözündə ömür anidir,
Canı təndən alan ölüm anidir,
Qəlbimin həyatda səhmanı sənsən.

Sevda göylərində, tərlanım, uç gəl,
Ayrılıq İlahi yanında suç gəl,
Ürəyim yollarda qalıbdı quc gəl,
Bu dünyamın ən xoş zamanı sənsən.

Etmə həyatımı hicranlara tuş,
Vaxtımız fələyin süfrəsində nuş,
Saniyə saatın əqrəbində quş,
Gələn hər məqamın amanı sənsən.
18. 04. 2003

DİLİMDƏN DÜŞMƏYİR ADIN BİR AN DA

Dilimdən düşməyir adın bir an da,
Sən yuva qurmusan könüldə, canda,
Eşqin qövr eləyir damarda, qanda,
Allahın sevdası, Tanrı qüdrəti-
Saldı ürəyimə bu məhəbbəti.

Nə qədər sevsəm də zamanım azdı?
Həsrətin vüsala quyular qazdı,
Səni İlahimi bəxtimə yazdı?
Bəlkə mələklərin sevgi vüsəti-
Saldı ürəyimə bu məhəbbəti?

Hicrində yanıram neçə müddətdi,
Əydi ayrılığın qaməti, qəddi,
İtirdim fələyin qoyduğu həddi,
Bir gün məlikəmi gəlib xəlbəti?-
Saldı ürəyimə bu məhəbbəti.

Ağladıb-güldürdü eşqin baxtımı,
Uçurdu hicranın könül taxtımı,
O tale ulduzun göydən axdımı?
Nə imiş fələyin görən niyyəti?
Saldı ürəyimə bu məhəbbəti.

Şadiman hönkürür kor taleyinə,
Dönübdü sevdası könül neyinə,
Sərxoşdu hicranın kədər meyinə,
Hardan peyda oldu sevda xilqəti?
Saldı ürəyimə bu məhəbbəti.
1. 04. 2003

BİR QƏRİB AXŞAMDA DÜŞDÜN YADIMA

Bir qərib axşamda düşdün yadıma,
Zülmətin baxtına düşən şam kimi.
Yetişə bilmədin heç imdadıma,
Qaldın ürəyimdə yazıq kam kimi.

Çağırdım, səslədim ünüm yetmədi,
Səhraya çatmamış yağışlar sayaq.
Bu hicran savaşı bir an bitmədi,
Aradıq bir-birin baxışlar sayaq.

Dikildi gözümüz yola, ırıza…
Dönmədi könlümüz öz yuvasına.
Tələsdi ömrümüz hey qışdan yaza,
Öyrəndik həsrətin cəng havasına.

Qəlbimiz ağladı, üzümüz güldü,
Baxanlar bəxtəvər sandılar bizi.
Payız yarpağıtək günlər töküldü…
Sevdalar hicr ilə andılar bizi.

Bir qərib axşamda xəyalın gəldi,
Bağrımın evinə bir şivən saldı.
Hicranın sinəmdən qopdu, yüksəldi,
Yazıq ürəyimi qoparıb aldı.

8. X. 2002

BƏBƏKDƏN TÖKÜLƏN YAŞLARIM DAMLA

Bəbəkdən tökülən yaşlarım damla,
Damlalar çeşməni doydura bilmir.
Gəl bu həsrətini bir yolluq damla,
Gözümü yuxular uydura bilmir.

Dolanıb xəyala o ötən günlər,
Vurub taleyimə hicran düyünlər,
Ürək segah üstə kamantək inlər,
Ayrılığın qəlbin oydura bilmir.

Əsiri olmuşam sənli dəmlərin,
Söylə şahısanmı bu ələmlərin?
Necə zəngin imiş narın qəmlərin?
Könlüm qəm libasın soydura bilmir.

Həsrət zülmətimə baxışların ay,
Gəl bu Şadimana ver, əzizim, hay,
Könül sarayını açıb taybatay,
Qapıya bir qıfıl qoydura bilmir.

8. X. 2002

KÖNLÜMƏ HİCRAN YAĞIR…

Aləm dumana bürünür gözümdə,
Duman ilan təki sürünür gözümdə,
Əksin bir rəssam təsviritək gözəl,
Sənsən qəlbimə hər şeydən əzəl,
Surətin duman içindən çıxır,
Məhzun-məhzun üzümə baxır,
Yox olur ağır-ağır,
Könlümə hicran yağır…
Bütün vücüdüm iztirab içində,
Aləmin kədərləri ürəyimin nəş'ələrini biçimdə,
Görən hansı duyğulardı içində?
Məndən aralı,
Bəlkə bağrın yaralı?
Könlümə hicran yağır…
Bəmbəyaz qarlartək ağır-ağır,
Əlim sənə çatmaz ki,
Ürəyim bu sevdanı atmaz ki…
Üşüyürəm sazağa düşmüş çiçək təki,
Bu ayrılıq həyatıma girdi gerçək təki.
Hər şeydən üzüldü əlim,
Adını anmaqdan qabar çaldı dilim,
Düşdü zaman ağacından,

Öldü acından-
Yarpaq təki xəzana düşmüş ilim.
Axı hardan bilim?-
Bu sevginin ölməyini?-
Həsrətin qəh-qəh çəkib gülməyini.
Könlümə hicran yağır…
Ocağının odu keçmiş,
Acı göz yaşlarımın suyunu içmiş,
Hər şeyimi əlimdən almış,
Məni əzablara salmış,
Könlümə hicran yağır…
Cəfaları həddindən artıq ağır,
Bütün iztirabları köksümə əkə-əkə,
Ürəyimə qoşulub göz yaşı tökə-tökə.
Ümid sarayımı sökə-sökə,
Paramparça bağır,
Könlümə hicran yağır…

26.05. 2002

BİR GÜN DÖN YARINA

Səni hər şeydən üstün tutdum,
Dəli təki sevə-sevə özümü unutdum-
Və ürəyimi hicranın içinə atdım,
Gecələr o şirin xəyalınla yatdım.
Əksini gözümdən qova bilmədim,
Ayrılığın burnunu ova bilmədim.
Sənə yetmək üçün ümidlərim alışdı,
Könlün ocağına düşüb atəşinə qarışdı.
Zülmətə tuş olanda xəyalların çıraq oldu gözlərimə,
Əksin naxış saldı izlərimə.
Sevgin sevda dənizlərinə düşüb çalxandı,
Sərsərilər kimi məni andı.
Ürəyim çırpındı qəfəsə düşmüş quş təki,
Üzümə çırpıldı qarqış təki.
Bütün vücudumu parampaça etdi,
Köksümdən çıxıb səni aramağa getdi…
Ürəksiz qalan varlığımı titrədi,
Eşqin, sanki fələyin göndərdiyi fitrədi.
Girib həyatıma məni əsir edib,
Məhəbbəti könlümə qəsir edib.
Bu qəsirdən boylanıram yollarına,
Nə olar, əzizim, bir gün dön yarına…?

6. 06. 2002

HİCRAN KƏSDİ YOLUMU

Hicran kəsdi yolumu,
Bağladı əl-qolumu,
Könül sevda qulumu?
Əsir etmisən onu,
Qoyub getmisən onu.

Yoldan yığılmaz gözüm,
Yandırar göyü közüm,
Mat qalmışam mən özüm,
Bumu əhdinin sonu?
Qoyub getmisən onu.

Gəl gözün uyğusuna,
Bat sən də qayğısına,
Könlümün duyğusuna,
Geydirib sevgi donu,
Qoyub getmisən onu.

Şadimana etmə ah,
Könül sındırmaq günah,
Sənsiz inan ki, vallah,
Bəyaz qar – qəlbin donu,
Qoyub getmisən onu.

4. X11.2002

AHDI DUYĞULARI PUÇ MƏHƏBBƏTİN

Mənim dünya boyda duyğularımı,
Sən necə könlümdən qaçaq salmısan?
Eşqinə dürdanə sayğılarını,
Qoparıb sinəmdən niyə almısan?

İndi ürəyimdə qalmıb o istək,
Salım diləklərin içinə səni.
Bağrımın duyğusun almır o istək,
Yenə tələtümə gətirsin məni.

Soyuqluq çuğlatdın sinəm içinə,
Payızı ürəkdən getməyir hələ.
Düşürüb gözləri bu nəm içinə,
Axıtdın bəbəkdən yaşları belə.

Səndən umacağım nədir dünyada?
Götür xəyalını apar könlümdən.
Bağrım qul olmasın qəmə, fəryada,
Sevgini, eşqini qopar könlümdən.

Bu dəli sevdaya düşənlər bilir,
Vəfası olmayır heç məhəbbətin.
Hər zaman üzümə hicranın gülür,
Ahdı duyğuları puç məhəbbətin.

24. X11.2002

BU NECƏ SEVGİDİ?

Bu necə sevgidi, bu necə istək?
Alıbdı könlümü əlinə elə.
Tökür ürəyimə qəm ətək-ətək,
Çəkir duyğuları belədən-belə.

Canımı bağrımdan alıb qaçırır,
Çırpınıb qalıram kədər içində.
Ruhumun göyündə atəş saçırır,
Fırtına qoparır qədər içində.

Sübhün gözü təki gözdən yaş axır,
Bilmirəm sevincdi, ya da ki, ələm?
Dönüb ürəyimə sinəmdən baxır,
Yerləri, göyləri dolaşır naləm.

Bu necə sevgidi, röyama quldu?

Gecələr yuxuma hicran ələyir.
Zülmətə bürünən sirli nağıldı,
Ruhumu, canımı oda bələyir.

Düşür diləklərim elə ovsuna,
Özümdə, sözümdə olmuram daha.
Öldürür ürəyi, gəlir yasına,
Batırır özünü hər gün günaha.

Bu necə sevgidi, bu necə istək?
Canımı, könlümü qoparır atır.
Sığınır sinəmə elə tənha, tək,
Baş qoyub qəlbimin içində yatır.

Ağlım üsyan edir bağrıma hər gün,
Mən onu qəlbimidən ata bilmirəm.
Salıbdı könlümün içinə düyün,
Bu dəli sevgiyə bata bilmirəm.

24. X11. 2002

SƏNİ CANDA BƏSLƏYƏRƏM

Səni canda bəsləyərəm,
Ömrə günə yaraşığım.
Gecə-gündüz səsləyərəm
Taleyimə gur işığım.

Yollarımda izinə bax,
Ürəyimdən keçir gedir.
Eşqin bulaq, gözünə bax,
Bu könlümdən içir gedir.

Həyatıma ələdin şeh,
Üşüyürəm sazağına.
Pəncərəmdə ol sərin meh,
Baxma yolun uzağına.

Bu sərincə yellər təki,
Ürəyimin telin oxla.
Günəş vurmuş çöllər təki,
Gözlərimin selin yoxla.

Bəbəklərə batırıb yaş,
Etdin məni sevda qulu.
Ey əbədi könlə sirdaş,
Sənindir könül yolu.

21. X11. 2002

ƏZABINDAN HAYQIRDIM DOLU VURMUŞ SELLƏRTƏK

Əzabından hayqırdım dolu vurmuş sellərtək,
Ömrümə layla dedim ağı deyən dillərtək,
Uzaqlaşdım könlümdən zaman qovan illərtək,
Ayrılığın küncünə basıldı məhəbbətim,

Ürəyimdən daş olub asıldı məhəbbətim.

Zirvə buludu təki hey qovdum tutam səni,
Alışan ürəyimin oduna atam səni,
Bulağ təki çağlayan eşqimə qatam səni,
Hicranın zindanına qısıldı məhəbbətim,
Ürəyimdən daş olub asıldı məhəbbətim.

Səni canda aradım, canım əlimdən uçdu,
Xəyalını gecələr dəli yuxular qucdu,
Ümidlərim qaçışan anlar əlindən puçdu,
Düşdü göz savaşına pusuldu məhəbbətim,
Ürəyimdən daş olub asıldı məhəbbətim.

Sən sevdalar içində, mən ələmlərə düçar,
Ayrılıq axşam-səhər qapımı bağlar, açar,
Bəxtimin qıfılına bir yol düşmədi açar,
Eşqi hicrana salmaq üsüldu, məhəbbətim,
Ürəyimdən daş olub asıldı məhəbbətim.

Ey Şadiman, şam təki əriyib axma belə,
Həsrətin əzabını qəlbə buraxma belə,
Bu ömür göylərində ulduztək axma belə,
Şər sandığım günaha qüsüldu məhəbbətim,
Ürəyimdən daş olub asıldı məhəbbətim.

2. 05. 2003

AYRILIĞA QALAN SEVDAM

Nə gəzirsən baş içində?
Könlümə qul olan sevdam.
Kiprik qalıb yaş içində,
Ey saralıb solan sevdam.

Qədəmlərin qəlbə qida,
Demə, eşqə sən əlvida,
Məhəbbətə sığmaz əda,
Ürəyimi alan sevdam.

Sənə yetmək imandanmı?
Sevgin cana dərmandanmı?
Hicran eşqə fərmandanmı?
Etmə könlü qalan sevdam.

Ya ağlatdın, ya güldürdün,
Məni elə nə güldürdün?
Ya diriltdin, ya öldürdün,
Hər şey oldu yalan sevdam.

Dedim canı yar eləmə,
İçində ah-zar eləmə,
Könlü belə xar eləmə,
Məni oda salan sevdam.

Şadimanı etdin dəli,
Vurdu başa qəmin əli,
Gözdən axan hicran seli,
Ayrılığa qalan sevdam.

18. 05. 2003

SÖNDÜ ÇIRAĞIMIZ AXŞAM GƏLMƏMİŞ

Söndü çırağımız axşam gəlməmiş,
Verdin ümidimi yelə bilməzdim.
Ağlatdın gözümü heç şam gəlməmiş,
Sənin ürəyini belə bilməzdim.

Bu bahar gecəsi könlü qan etdin,
Qəlbimin evinə nə divan etdin?
Ələmi sinəmə sən ünvan etdin,
Sənin ürəyini belə bilməzdim.

Söndürdün işığı girdin yatağa,
Qaranlıq qəmimlə girdi ortağa,
Heç bayram gəlmədi bizim otağa…
Sənin ürəyini belə bilməzdim.

21. 03. 2002

BAXIR BOYNU BÜKÜK TİTRƏK XƏYALIN

Baxır boynu bükük titrək xəyalın,
Mənim ürəyimin pəncərəsindən.
Könlümü köz kimi yandırır halın,
Heç çıxmaq olmayır qəm dərəsindən.

Nə qoya bilmirəm onu yaxına?
Nə qova bilmirəm özümdən onu?
Tuş olub bağırımın kədər oxuna,
Bu acı həsrətin görünmür sonu.

Gəlir asta-asta hər səhər-axşam,
Tutdurur könlümü qəm yağışına.
Sinəmdə alışır bircə ümid şam,
Düşüb arzularım hicran qışına.

Canım təngə gəlir hərdən həyatdan,
Gedir ürəyimdə xəyal savaşı.
Düşürür günümü saatlar atdan,
Ancaq heç bilməyir sevda tələşı.

Gəlir əndişəylə, gəlir xəyalın,
Ağlayan könlümü ovutmaq üçün.
Bir anlıq həsrəti dəlir xəyalın,
Yanan ürəyimi sovutmaq üçün.

O titrək vücüdün quluyam, qulu,
Mənim sultanım da, şahım da odu.
Sanki ona bağlı bu həyat yolu,
Könlümün buzların əridir odu.

6. 03. 2003

HƏQİQİ EŞQ İBADƏTDİ

Həyatımı salan dəmə,
Dəm içində nə möhnətdi?
Göz tutuşub yanır nəmə,
Gün əndişə, an möhlətdi.

Bülbül uçub gülə gəlib,
Bəmim coşub zilə gəlib,
Bu ürəyim dilə gəlib,
Ayrılığın bir illətdi.

Saatlarım qəmə düşüb,
Kipriklərim nəmə düşüb,
Gözüm sənə demə düşüb,
Bu vurğunluq lap zillətdi.

Açma könlü köz yandırar,
Baxışını göz yandırar,
Təbim coşar, söz yandırar,
Bu yanğıqlıq səadətdi.

Şadimanı sorma gendən,
Gözlərini yorma gendən,
Aramızı vurma gendən,
Həqiqi eşq ibadətdi.

6. 03. 2003

CAN ÇƏKƏR BƏLA ELƏ EQİDƏN

Nə gələr ada belə eşqidən?
Can çəkər bəla elə eşqidən.

Tökdürər ürəyinə cəfanı,
Az olar ki, görəsən vəfanı,
Loğmanlar bula bilməz şəfanı,
Göz yaşın dönər selə eşqidən,
Can çəkər bəla elə eşqidən.

İçdirər dərdini qaşıq-qaşıq,
Oynayar sənlə aşıq-aşıq
Qəmi könlünə olar sarmaşıq,
Çən düşər qara telə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Bölə bilməz ürəyin acını,
Qurar həsrət sinədə tacını,
Tapmazsan heç yerdə əlacını,
Uçar yuxular yelə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Qəlbini dərdlərə mətin edər,
Hər işin dəvasın çətin edər,
Sevgini cana xilqətin edər,
Düşərsən yaman dilə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Qəm səni edər oyuncaq kimi,
Atılıb qalarsan bucaq kimi,
Alışar bağırın ocaq kimi,
Dönər ürək də külə eşqidən,
Can çəkər bəla elə eşqidən.

Şadiman, məhəbbətlə nə cida?
Odu ruhumuza verən qida,
Qoyma hicranı könlüvü uda,
Dəyər fəna gülə eşqidən,
Can çəkər bəla elə eşqidən.
5.03. 2003

YAR , MƏNİ SALDIN ODA

Yar, məni saldın oda,
Eylədin könlə əda,
Bu necə dəli sevda,
Gün görmədim dünyada,
Könül mülkümü aldın,
Məni bəlaya saldın.

Heç bitmədi möhnətin,
Çox uzandı möhlətin,
Artdı eşqə minnətin,
Hicran oldu zinətin,
Məni atəşə atdın,
Qəmlərimi oyatdın.

Yar, belə əzab olmaz,
Ürəklə hesab olmaz,
Hər ağrıya tab olmaz,
Hicran dolu qab olmaz-
Qədəh-qədəh içirtdin,
Həsrətlə gün keçirtdin.

Gəl sovuşsun ahımız,
Gül açsın sabahımız,
Vüsal – qibləgahımız,
Nur versin Allahımız
Bu könül atəşinə,
Dönək eşq günəşinə.
5. 03. 2003

SƏNİN XƏYALLARIN YÜYƏNSİZ ATLI

Sənin xəyalların yüyənsiz atlı,
Könlümü heç zaman tərk eləmədi.
Uçdu qartal təki elə qanadlı,
Gəlib ürəyimə ərk eləmədi.

Qoymadı sevgini gəlsin yaxına,
Sinəmi tuş etdi hicran oxuna,
Vücudum titrədi sevda qoxuna,
Bu eşqi başıma sərk eləmədi.

Həqiqi sevgilər layiq ülfətə,
Tanrı qovuşdurar əbədiyyətə,
Fələk heyran oldu bu məhəbbətə,
Kədərin üstümə bərk eləmədi.

Nə oldu arada itaətimiz?
Qaldı aralıqda səadətimiz,
Dondu dodaqlarda itbadətimiz,
Həsrətə hicrana görk eləmədi.

6. X11. 2001

YAR GƏRƏK KÖNLÜVÜ ALSIN GETSİN

Yar gərək könlüvü alsın getsin,
Qoluvu boynuva salsın getsin.
Oxşasın hər kərə o gül üzüvü,
Aşikar eyləməsin bir sözüvü.
Çəkməsin aləmə car heç özüvü,
Könlüvə ayna eləsin gözüvü.
Eqivü qəlbə çıraqban eləsin,
Canuvu canuva bir can eləsin.
Hər sözü könlüvə məlhəm eləsin,
Ağlını yüz ölçərək cəm eləsin,
Ələmin ömrünü hey kəm eləsin,
Hər zili xatürüvə bəm eləsin.
Könlüvün evinə ensin getsin,
Yar gərək başuva dönsün getsin.

22. 05. 2002

HƏSRƏT ÇƏKİR QƏLBƏ DAĞLAR

Həsrət çəkir könlə dağlar,
Düşər könül nə qadaya?
Gözüm gülər, könlüm ağlar-
Bu sevdaya, bu sevdaya.

Ürəyimin içində ah,
Gəlib çıxmaz nurlu sabah,
Dözməz sinə niyə, Allah?-
Bu sevdaya, bu sevdaya.

Səsləyərəm duyğuları,
Eşqimizə sayğıları,

Çağıraram uyğüları-
Bu sevdaya, bu sevdaya.

Göy hönkürər fəqanımdan,
Köpürər sel-su qanımdan,
Qopar atəş bu canımdan-
Bu sevdaya, bu sevdaya.

Tutar yer-göy harayımı,
Eşidər Rəbb qəlb vayımı,
Açar könül sarayımı-
Bu sevdaya, bu sevdaya.

Saymayın eşqi əyləncə,
Könül səcdə etməz necə?
Pəyandazam gündüz, gecə-
Bu sevdaya, bu sevdaya.

Rəbb, uçurma diləyimi,
Təndə cantək gərəyimi,
Qoydum, Allah, ürəyimi-
Bu sevdjaya, bu sevdaya.

Ey Şadiman, nə hikmətdi?
Misibətdi, qiyamətdi,
Əyilən qəddi, qamətdi
Bu sevdaya, bu sevdaya.
2. X11. 2002

HƏSRƏTİN TUFANA DÖNDÜ

Həsrətin tufana döndü içimdə,
Ağlayan gözümdə yaşı apardı.
Dünyanın atəşi söndü içimdə,
Bu aləm duyğulu başı apardı.

Ürəyim ağladı bu sevdamıza,
Bilmədi sağalmaz hicran ağrısı.
Üfürdün od düşdü qəlb odamıza,
Əlim üzülmədi səndən doğrusu.

Fələyin qisməti dedik, bu eşqə,
Qisməti özümüz taladıq getdi.
Ən təmiz diləklər öydük, bu eşqə,
İçinə atəşlər qaladıq getdik.

Baxdıq bir-birinə vəfasız təki,
Vəfasız ürəkdə nə atəş gəzir?
Eşqidən od umma cəfasız təki,
Göydə sevda yoxsa günəş nə gəzir?

Bir sənin oduna mübtəla ürək,
Ağlayır könüllə qəlb arasında.
Çəkibdi yolunda hər bəla ürək,
Basılır hər duyğum qəlb arasında.

Şadiman oduna alışan şamdı,
Ömrün axşamına düşüb yanmağçın.
Hicranın ürəkdən aldığı kamdı,
Qapının ağzında şad dayanmağçın!
2. X11. 2002

BİLİRƏM NƏDƏNDİR ARADA ÜLFƏT ?

Bilirəm, nədəndir arada ülfət?
Könlü cəfalara sal incimərəm.
Sən ədalı aşiq, mən incik afət,
Yüz yol ürəyimi al incimərəm.

Oxşa saatımı, anımı oxşa,
Tutdursun hicranın gözümü yaşa.
Sevdan havalanıb, kükrəyib daşa,
Sanaram dodaqda bal, incimərəm.

Dinlət duyğuların tellərin bir-bir,
Dözərəm hicrana eylərəm səbir,
Sənsiz ürək mənə bir soyuq qəbir,
Dəli duyğuları çal incimərəm.

Ah, necə şahanə diləkdi eşqin?
Göydən yerə enən mələkdi eşqin,

Vallah, Şadimana fələkdi eşqin,
Canımı gəl qopar, al incimərəm.
29. 04. 2002

TUTULUB ÜRƏYİM SOYUQ QIŞLARA

Tutulub ürəyimin soyuq qışlara,
Boranı, sazağı dondurur məni.
Hicran gözlərimdə bənddi yaşlara,
Həsrətin nə yaman yandırır məni?

Soyuq təsəlliyə dönüb xəyalın,
Könlümü ağladır o qəmli halın,
Yenə yuxulara qaldı vüsalın,
Həsrətin nə yaman yandırır məni?

Zərif ümidlərim sönən şam oldu,
Hicran əzabları saçımı yoldu,
Baxışın sevdalı həyata yoldu,
Həsrətin nə yaman yandırır məni?

Səadət heç hamar gəlməyir başa,
Gözüm könül verib bəbəkdə yaşa,
Döndü ayrılıqlar qəlblə sirdaşa,
Həsrətin nə yaman yandırır məni?
29. 04. 2002

NƏ YAXŞI SƏN VARSAN, MƏHƏBBƏTİN VAR?

Üzü çiçəklərdən, güllərdən incə,
Mənimlə nə dürlü səadətin var?
Bağrımı, könlümü sardın sevincə,
Nə yaxşı sən varsan, məhəbbətin var?

Dünyada hər kəsdən əzizsən mənə,
Təzə açmış gültək təmizsən mənə,
Sevdalım, sirrimi deyirəm sənə,
Nə yaxşı sən varsan, məhəbbətin var?

Eşqinlə boylanıb baxdıq həyata,
Yetirdin könlümü özün büsata,
Sənինçin gəlmişəm bu kainata,
Nə yaxşı sən varsan, məhəbbətin var?

Gözümdə gözünün aynası parlar,
Göllərin üstündə sonası parlar,
Eşqin qədrin bilməz eh, qəlbi korlar…
Nə yaxşı sən varsan, məhəbbətin var?

İtirə bilmərəm bu ülfətini,
Bükmüşəm könlümə səadətini,
İlahi qorusun sədaqətini,
Nə yaxşı sən varsan, məhəbbətin var?
17. X. 2002

BÜTÜN SEVGİLƏRƏ HARAY OLAYDIQ

Bir ana təbiət, bir sən, bir də mən,
Nə hicran qalıbdı, nə çiskin, nə çən,

Alışıb yanaydı cana məcnun tən,
Sevdalar içində saray olaydıq,
Bütün sevgilərə haray olaydıq.

Əhdimiz coşaydı dəli sellərtək,
Nəğməyə dönəydik yanan dillərtək,
Zamanın əmrinə qaçan illərtək,
Xoş müjdə gətirən gün, ay olaydıq,
Bütün sevgilərə haray olaydıq.

Səndən nə gizlədim, ey sevgili yar,
Könlümdə sevdana gülüstanlıq var,
Yağmasın qoy ora qəlb üşüdən qar,
Sussuz səhralara gur çay olaydıq,
Bütün sevgilərə haray olaydıq.

Çaşıb itəydik dərəni, düzü,
Səadət qoynuna alaydı bizi,
Bəxtə düşməyəydi hicranın izi,
Zülməti qovuran bir Ay olaydıq,
Bütün sevgilərə haray olaydıq.

Yolumuz ormandan, dağdan keçəydi,
Yanan dodağımız buz su içəydi,
Dünyanın qəmini Tanrı biçəydi,
Qansız ayrılığa ah-vay olaydıq,
Bütün sevgilərə haray olaydıq.

Şadiman payıza tuş olan lalə,
Bağrını yandırır qəm, kədər, nalə,
Gün zaman əlindən düşən piyalə…
Sevdanın özünə biz tay olaydıq,
Bütün sevgilərə haray olaydıq.

17. X. 2002

İKİ KÖNÜL ARASINDA

İki könül arasında,
Ötə-ötə tel incidi.
Gözlərimdən ürəyimə-
Axa-axa sel incidi.

Nədən oldu hicran gəldi?
Bağırımın için dəldi,
Araya girən nə əldi?
Saldı qanı, el incidi.

Əsdi həsrət tufanları,
Ayrı qoydu ünvanları,
Qəm üşütdü bu canları,
Ağ örpəkli yel incidi.

Axdı günlər bir su təki,
Eşqimizdən ası təki,
Ötən ömrün yası təki,

Hər ağaran tel incidi.
27. 08. 2002

ATDIN ÜRƏYİ QUBARA

Atdın ürəyi qubara,
Könlümü məzar eylədin.
Yaramı eşib dübara,
Sinəmə azar eylədin.

Dağ üstdən çəkdin dağını,
Puç etdin sevda bağını,
Dildə inlətdin ağını,
Əlimi yazar eylədin.

Tapmadın işin çəmini,
Çıxartdın gözün nəmini,
Döndərib ömrün dəmini-
Dərdlə tezbazar eylədin.

İslatdı gözüm çəməni,
Yaşından bitib səməni,
Tutdun buluda tay məni-
Ahımdan gülzar eylədin.

Eşqin könlümün yuvası,
Nədir başının havası?
Yetdi ahının duası-
Günümü ah-zar eylədin.
24. X11. 2002

YAZ KÖNLÜMƏ GÖZ YAŞINI

Yaz könlümə göz yaşını,
De ki, coşdu çaylar təki.
Dağ eylədi dərd başımı,
Axdı qəlbə vaylar təki.

Həsrət qəlbdən aşdı getdi,
Gözlərimdən daşdı getdi,
Məni başıdaşdı etdi,
Uzandı qəm vaylar təki.

Yollarına baxdım durdum,
Ürəyimlə ara vurdum,
Xəyalınla məclis qurdum,
Batdı qəlbdə haylar təki.

Şadimanı etdin qubar,
Görüm qəmi görməsin bar,
İçdə dəli bir sevdam var…
Cəbir etdi saylar təki.
24. X11.2002

AH ÇƏKMƏ, SEVGİLİM

Ah çəkmə, sevgilim, ah çəkmə belə,
Ahın ürəyimin içindən keçir.
Qəm verir adəmin taleyin yelə,
Hər insan ömrü biçindən keçir.

Eyləmə könlünü xəzən bostanı,
Hər kəsin payızı bir gün yetişər.
Qoy sevdalı olsun qəlb gülüstanı,
Onun qəm yarası güldən bitişər.

Hər canın loğmanı, canın yiyəsi,
Onu dərdə salan, dərddən alan biz.
Ürəyi doğrayan qəmin tiyəsi,
Eylər qanımızdan çağlayan dəniz.

Ah çəkmə, sevgilim, ah çəkmə yenə,
Təpədən dırnağa şamam könlünə.
Qoyma ürəyinə hicranın dönə,
Mən başdan ayağa kamam könlünə.

25. X11. 2002

QISQANCLIQDI MƏHƏBBƏTİN AÇARI

Qısqanclıqdı məhəbbətin açarı,
Agah edim bugün səni, sevgilim.
Edir könlü əzabların düçarı,
Qısqan məni, qısqan məni, sevgilim

Sevgi hissi ürəklərə şəfadı,
Hər istəyə bel bağlayan vəfadı,
Həm sevilmək, həm də sevmək cəfadı,
Qısqan məni, qısqan məni, sevgilim.

Təki peyman qəlblərdən gen olmasın,
Hicran yaşı bəbəklərə dolmasın,
Heç bir insan dünyada tək qalmasın,
Qısqan məni, qısqan məni, sevgilim.

Sinəmizin pozulmasın ülfəti,
İtirməsin heç bir sevən şəfqəti,
Ürəyimin, şüurumun minnəti,
Qısqan məni, qısqan məni, sevgilim.

Etibarı azalmasın heç kəsin,
Ayrılığın puç eyləsin qəfəsin,
Nə qədər ki, var dünyada nəfəsin…
Qısqan məni, qısqan məni, sevgilim.

Göylərinə məhəbbətim aynadır,
Könlümdəki duyğuları qaynadır,
Məni eşqin havasıyla oynadır,
Qısqan məni, qısqan məni, sevgilim.

Şadimanın alışıbdı qoruna,

Salıb məni könlün yaman toruna,
Bu səadət bəs nə ilə qoruna?
Qısqan məni, qısqan məni, sevgilim.
10. 01. 2003

SƏNİ ÇOX ARADIM BİR ÇİÇƏK TƏKİ

Səni çox aradım bir çiçək təki,
Çiçəklər çöllərdə soldu, gəlmədin.
Elə əzizlədim bir ürək təki,
Könül hicranınla doldu, gəlmədin.

Saatlar zamanı haxladı getdi,
Diləklər xəyalı qoxladı getdi,
Ömrüm ümidlərlə yuxladı getdi,
Bu gediş nə uzun yoldu, gəlmədin?

Hər gecəm gözünü batırdı yaşa,
Döndü bu dilbilməz ayrılıq daşa.

Batdı arzularım bir-bir tələşa,
Qəlbim ayrılıqdan öldü, gəlmədin.
10. 01. 2003

GƏL BU QƏLBDƏN VƏFA UMMA

Gəl bu qəlbdən vəfa umma,
Vəfa səndə qalan deyil.
Mənə eşqdən cəfa umma,
Cəfa səndə qalan deyil.

Hey ötürdün zamanımı,
Vurdun yerə amanımı,
Ayaqladın gumanımı,
Səfa səndə qalan deyil.

Şadimanı gəl bilmə daş,
Gözdən-gözə axarmı yaş?
Şəfa olsa cana sirdaş,
Şəfa səndə qalan deyil.
9. 01. 2003

TİTRƏK BAXIŞLARIN HÖNKÜRƏN BULUD

Bilirəm sevirsən məni gizlicə,
Titrək baxışların hönkürən bulud.
Mənsiz ömür, günün keçir de necə?
Yəqin ürəyin də sızlayan bulud.

Gecə də, gündüz də könlün ağlayır,
Səni dəli edir mənim xəyalım.
Bülbültək içində həsrət çağlayır,
Ağladır qəlbini bu qeylü-qalım.

Uşaqtək şuluqluq edər gözlərin,

Çırpınar, şıltaqlıq elər kipriklər.
Ələnər qəlbinə həsrət közlərin,
Qəm qəh-qəh içində çalar çəpiklər.

Yandırar baxışın bütün aləmi,
Mənim varlığımı oyatmaz, heyhat.
Fələyin çaldığı hicran qələmi,
Qəmin ürəyini eyləyər rahat.

Elə dağ çəkibdi qəfil ayrılıq,
Öldürür, dirildir baxışlar səni.
Könlün candan ayrı gəzir xoşqılıq,
Ömürdən qoparıb atmaqçın çəni.

Acılar içində tökmə göz yaşı,
Ağlama bəxtinin qəddarlığına.
Çırpanda daşlara tez sınar kaşı,
Məhəbbət neyləsin qəlb darlığına?

O itən yollara dikmə gözünü,
Fələyin yazdığın pozan olmayıb.
Nə qədər öysə də bəndə özünü?-
Hələ öz bəxtini yazan olmayıb…

Gah haray salırsan, gah lal olursan,
Gah da boynubükük gülə dönürsən.
Əfsus, özün boyda sual olursan?
Yanıb əzablardan külə dönürsən.

Bilirəm sevirsən, canında hicran,
Özün öz bəxtini qarqışlayırsan.
Sənə fəryad təki gəlir saat, an,
Həsrət tufanında nə qışlayırsan?

Töküldü üstünə dünyanın qəmi,
Dərd səni dəryadan-dəryaya atdı.
Buludu ağlatdı o ələm dəmi,
Fəryadın dağ üstə min dağ yaratdı.

18. 06. 2002

ELƏ XƏYALIMDAN BOYLANIB BAXDIN

Elə xəyalımdan boylanıb baxdın,
Əgər sir deyilsə niyə gəlmisən?
Könül çeşməsinə qaynayıb axdın,
Yenə üz-üzəyik, bir mən, bir də sən.

Elə titrəyir ki, o baxışların,
Sanki dəli yellər əsir üstündə.
İstisi olmayır qarlı qışların,
Tufanı sal buzlar kəsir üstündə.

Məni hicranına etmisən yuva,
Sanki sığınmağa ocağım yoxdu.
Bir zaman eşqimiz olmuşdu hava,
İndi oxşamağa xoş çağım yoxdu.

Qanatma könlümün gəl yarasını,
Xəyalsan, xəyaltək qal həmişəlik.

Ovladın eşq ilə qəlb arasını,
İndi xatirəni sal həmişəlik.
6. 01. 2003

BU GECƏ QƏLBİMƏ GƏTİRDİN YAZI

Bu gecə qəlbimə gətirdin yazı,
Sənin baharına, yazına qurban.
Boynu bükük qaldı könül ayazı,
Bağrımı titrədən nazına qurban.

Gözümü daşdırdı vüsal selləri,
Uçurtdu başımdan qəmli yelləri,
Yenə nəş'ələndi ürək telləri,
Ruhumu oynadan sazına qurban.

Rəbbim birgə qurdu bu taxtımızı,
Tutdu sevdalara şad baxtımızı,
Keçirək şövq ilə gəl vaxtımızı,
Dil desin, ey fələk, yazına qurban.
6. 01. 2003

CİYƏRİMİN GUŞƏSİ

Ciyərimin guşəsi-
Bitməz sənlə könlümün əndişəsi,
Ürəyim dağılıb şişəsi,
Əgər harayıma gəlməsən,
Müşkülə düşmüş əhvalımı bilməsən,
Qəribliyə atılmış yel təki,
Tufana batmış sel təki,
Ürəyimdən qopmuş tel təki-
Qırılacağam,
Həsrətin bağrına sarılacağam.
Ciyərimin guşəsi -
Sənlə çağlayır könlümün nəş'əsi.
Ağlıyan ürəyimin harayını dinlə,
Söylə, necə qalım bu günlə?
Dilim içində fəryadı boğulmuş kaman,
Düşməz ələ bu zaman.
Gəl onu nazlayaq,
Ömrün payızında yazlayaq.
Ciyərimin guşəsi-
Qəm çəkməkdi könlümün peşəsi,
Baxışların yollarını oymaq-oymaq izləyər,
Həsrətin qəlbimdə dənizləyər.
Səndən ayrı sabahım qan ağlar,
Mənə zülüm gətirər bu çağlar.
Bu acı niskillər bitməz,
Ayrılıq yolumuzdan itməz.
Ümidlərim sabahından boylanar,
Bu dəli sevdanın başına haylanar.
Gəl zamanımızı tarazlayaq,
Könlümüzün diləyin bülbültək pərvazlayaq.
Bu dəli sevda ilə avazlayaq-

Ciyərimin guşəsi…

22. X11. 2002

BİR KÖNÜL QIRMIŞAM…

Bir könül qırmışam çiçəkdən incə,
Rəbbim bağışlamaz bu günahımı.
Zülmətə bürünən ürəyim gecə,
İlahi, sən yetir al sabahımı.

Canımdan, gözümdən əziz sandığım,
Alışıb oduna odsuz yandığım,
Gecəli, gündüzlü eşqin andığım,
Hicranı qaldırar ərşə ahımı.

Bir könül qırmışam bitişməz daha,
Əllərim əlinə yetişməz daha,
Günlərim kədərsiz ötüşməz daha,
Çağırın dadıma siz Allahımı.

Bir baxın, sevdaya yanan adamlar,
Həsrətin zəhəri könlümə damlar,
Gəlib ürəyimdə ayrılıq kamlar,
Çünki itirmişəm qibləgahımı.

Mən ki, o qırdığım könlə əsirəm,
Sevdalar içində sevdaya sirəm,
Həsrət zindanında aha əsirəm,
Qaytarın geriyə səcdəgahımı.

17. X. 2002

BİR QƏDƏH ŞƏRABMIŞ BU MƏHƏBBƏTİN…

Bir qədəh şarabmış məhəbbətin,
Çəkdin ki, başına qəlb sərxoş olsun.
O gündən başladı o müsibətin,
Etdin ki, hicranın ruhu xoş olsun.

Tutdu yeri-göyü ahımın səsi,
Kəsildi bağrımın qəmdən nəfəsi,
Qırdı ki, ayrılıq o dar əfəsi,
Vüsalın könlündə yeri boş olsun.

Hər şeyi ürəkdən silmək üçün biz,
Qoymadıq sinədə duyğulardan iz,
Hicrana kökləndi, vurdu qəlbimiz,
Bu dəli sevdamız qoy naxoş olsun.

Özündən incitdin yaman ürəyi,
Uçurtdun eşqimi tutan dirəyi,
Töküb qədəhinə içdin diləyi,
Bircə sözüm qalır – sənə nuş olsun!

9. 01. 2003

ÜZÜB ÇİÇƏKLƏRİN ƏN GÖZƏLİNİ

Üzüb çiçəklərin ən gözəlini,
Gətirib tökmüşəm yolunun üstə.
Toxundur onlara bir an əlini,

Döyünsün ürəyim eşqlə ahəstə.

Çiçəklər həyatın duyğularıdır,
Götür köksünə tut, iyini qoxla.
Könlümün sevginə sayğılarıdır,
Bağrında hayqıran ruhunu yoxla.

Əgər coşacaqsa qəlbin telləri?
Deməli canımız bir vuracaqdır.
Çəkilib gedəcək hicran yelləri,
Qapımız ağzında eşq duracaqdır.

Mən üzdüm çöllərin çiçəklərini,
Sənə ürəyimi oxutmaq üçün.
İstədim coşduram diləklərini,
Həsrəti, hicranı qorxutmaq üçün.

Gəl, dəli istəklə coşub çağlayaq,
Çəkilək səmaya lap quşa dönək.
Ya dəli sedaya bir gün ağlayaq,
Ya da bu istəklə gəl daşa dönək.

Üzüb çiçəklərin ən gözəlini,
Gətirib gəlmişəm gülzarın olum.
Tutub ürəyimə yanan əlini…
Gəldim ki, könlünə mən yarın olum.

9. 01. 2003

SƏNİ ÜRƏYİMƏ BURAXMAQ ÜÇÜN…

Ürəyimdə şö'lə çəkir diləklərim,
Sinəmdə fəqan edir fələklərim,
Duyğular, sanki qanlı mələklərim,
O dəniz gözlərinə baxmaq üçün,
Səni ürəyimə buraxmaq üçün…

Hər yerdən atəşlər tökülür üstümə,
Yanır sevdalar istimə,
Durur bu könül qəsdimə,
Eşqini atəşə yaxmaq üçün,
Səni ürəyimə buraxmaq üçün…

Xəyalın könlümün divarında əksini qurur,
Gecə-gündüz yanımda durur,
Özünü ora-bura vurur,
Qəlbimin gözünə axmaq üçün,
Səni ürəyimə buraxmaq üçün.

Gecələr yuxuların evimin qonağı olur,
Ağlımın, hissimin qınağı olur,
Bu xəyal saatları bəxtimizin sınağı olur,
Sevda göylərində şimşəktək çaxmaq üçün,
Səni ürəyimə buraxmaq üçün…

Oluram düşüncələrin əsiri,
Eşqin tikir könlümə qəsiri,

Qoruyuram öz qəlbimdən bu siri,
Sevda çırağın sinəmin içinə taxmaq üçün,
Səni ürəyimə buraxmaq üçün…
Bilmirəm neçin, neçin?…

9. 01. 2003

GÖZDƏ YAŞIM ÇAĞLAYAR

Gözdə yaşım çağlayar,
Ürəyi varağlayar,
Gözlərim qan ağlayar,
Diləklərim savaşar,
Həsrətim aşıb-daşar.
Mən uçaram yanına,
O hicran ünvanına.
Xəyalını qucmağa,
Göylərində uçmağa.
Bütün ümidlərimi,
Ah edən illərimi,
Allaha bağlayıram,
Kədəri dağlayıram.
İnanıram sevginə,
Vüsala bağlı günə,
Bilirəm ki, gələrsən,
Könlümə eşq ələrsən.
Həsrəti yandırarsan,
Candan usandırarsan.
Ağladarsan aləmi,
Haray salan naləmi.
Gələr vüsalın dəmi,
Uçuşarıq yel təki.
Çırpınarıq tel təki.
Ağlaşıb barışarıq,
Od olub qarışarıq.
Ünvanımız sehirli,
Ülfətimiz mehirli.
Göylərə quş olarıq,
Eşqə alqış olarıq.
Könlümüzdə məhəbbət,
Hamıdan gizli, xəlbət,
Bir yuvacıq qurarıq,
Səadətə vararıq.
Sevgilim, bu bir xəyal,
Məni də yadına sal.
Tutuşaq sellər təki,
Atışaq yellər təki.
Ağlasın hicranımız,
Düşsün oda canımız.
Bu sevda ünvanımız,
Məhəbbətin işığı,
Yerin, göyün aşığı.
Dünyamızı dolaşaq,
Təmiz eşq ilə coşaq.
Düşsün nəş'ələr izə,
Qibtə eyləsin bizə.
Hicran, həsrət sovuşsun,
Can canına qovuşsun.
Tik könlümə mə'bədi,
Eşq yaşasın əbədi.

8. 01. 2003

SALDI MƏNİ YAMAN ODA GÖZLƏRİN

Oğrun-oğrun niyə belə baxırsan?
Saldı məni yaman oda gözlərin.
Bu sinəmi atəşlərə yaxırsan,
Ürəyimi verdi bada gözlərin.

Həsrətlərə tuş eylədin könlümü,
Acılara nuş eylədin könlümü,
Ay dilbilməz, quş eylədin könlümü,
Dönüb qoşa bir səyyada gözlərin.

Bu cahanı ömrə zindan edibdi,
Ayrılığa zülməti dan edibdi,
Varlığıma hicranı can edibdi,
Vermir mənə gün dünyada gözlərin.

Ocağımın atəş qatır külünə,
Xəzan salır qəlb bağçamın gülünə,
Keçirməkçin ürəyimi əlinə,
Tor qurubdu şiş qayada gözlərin.

Başdan alıb əqli-huşu aparır,
Can mülkündə hər gün tufan qoparır,
Ürəyimi öz kolundan qoparır,
Tüğyan edir rəng-boyada gözlərin.

Rəbb zamanı qovlamasa an olmaz,
Od salmasan ürək heç şan-şan olmaz,
Malım-mülküm, canım, belə qan olmaz,
Rahat qoymur nə röyada gözlərin?

Ayna edib əğyarlara surətin,
Əsirgəmir mələksima qüdrətin,
Şadimandan kəsib əcəb ülfətin,
Nə dəyişir onu yada gözlərin?

29. 01. 2003

QANADIN ÜTMƏ BELƏ

Gəl dolanım mən başına,
Yar, yenə naz etmə belə.
Səbəb olub göz yaşına,
Küsüb məndən getmə belə.

Hicranımı təzələdin,
Ayrılığı tez elədin,
Ürəyimə qəm ələdin,
Yellər təki ötmə belə.

Bir düşün, gəl bu halımı,
Artırma can zavalımı,
Ağlar qoyub vüsalımı,
Həsrətimə yetmə belə.

Dön yağışa selə get ki,
Mizrabı vur telə get ki,

Gedirsənsə elə get ki,
Ürəyimdə bitmə belə.

Ömrümüzün çox əzabı,
Aman vermir iztirabı,
Kəsib səbri, qırma tabı,
Gözlərimdən itmə belə.

Şadimana peyman etdin,
Ürəyinə iman etdin,
Sevda quşun peşman etdin,
Qanadını ütmə belə.

29. 01. 2003

BAXIŞLARIN MƏNƏ ZÜLÜM EYLƏYİR

Baxışların mənə zülüm eyləyir,
Hicranımla duruşuna nə deyim?
Ürəyimi dilim-dilim eyləyir,
Gecə-gündüz vuruşuna nə deyim?

Əsdi xəzan küləkləri bağımda,
Ayaz vurdu tər eşqimi tağımda,
Atdın məni kədərə bu çağımda,
Ayrılıqla yarışına nə deyim?

Əzabların tükənməyir Xudadan,
Qopa bilməz sevməyənlər ədadan,
Keçmək çətin ürək tutan sevdadan,
Əğyarımla barışına nə deyim?

Zənn eylədin Şadimanı bivəfa,
Vəfan yoxkən, məndən umdun sən vəfa?
Tapdın özgə məlhəmiylə bir şəfa,
Könlə tərəf qarışına nə deyim?

4. 02. 2003

BİR DAHA ULDUZUM GÖYLƏRDƏN ENMƏZ

Həsrətin gözünə neçə mil çəkdim?
İlantək qıvrılıb younda durdu.
Mən səndən bir yolluq əlimi çəkdim,
Xəyalın önündə boynunu burdu.

Keçdi ömrüm, günüm üzüntülərdə,
Gözümün yaşına islandı ürək.
Açıldı sabahım əzintilərdə,
Mən qəmə batdıqca yaslandı ürək.

Üzdə bəxtiyaram söylədi hamı,
Bəs niyə qapımı nəş'ə döymədi?
Uçuldu hicrandan bu könül damı,
Qəmin xatirinə heç vaxt dəymədi.

Baxışım şeh təki üzünə qondu,
Sildin sazaq bilib onu əlinlə.
Sınıq ümidlərim yolunda dondu,
Gəldi vüsalımın sonu əlinlə.

O ötən illərə həsrətlə baxma,
Zamanın təkəri geriyə dönməz.
Könül kəhkəşanın yandırıb yaxma,
Bir daha ulduzum göylərdən enməz.
9. 04. 2002

YENƏ ÜRƏYİMDƏ AĞRI BOY ATDI

Yenə ürəyimdə ağrı boy atdı,
Könlümün göyləri çaxnaşdı neylim?
Dərd hicran atının yalına yatdı,
Ağrılar üstümə axnaşdı, neylim?

Gah qəmdən boylandın, gah da hicrandan,
Çıxara bilmədim eşqini candan,
Qəlbimin evinə girdiyin andan,
Gözümün çanağı qan-yaşdı, neylim?

Sükunət içində ovulur anlar,
Ürəyim ağlıma edir divanlar,
Hıçqırır ah dolu sevdalı canlar,
Bağrımda həsrətlə savaşdı, neylim?

Hicran anlamayır mən biçarəni,
De, necə arayım, tapım çarəni?
Sən hardan duyasan qəlbiyarəni?
O hissiz ürəyin nə daşdı, neylim?
5. 09. 2004

ÇIXMADIN HEÇ YADIMDAN

Sən mənim bir dəfə də çıxmadın heç yadımdan,
Xəyalların doğuldu mənim sinə odumdan,
Röyaların boy verdi bu dəli fəryadımdan,
Xatirələr uzandı ötən illərə döndü,
Çırpınan saatlarım ürəyinlə döyündü.

Könlümün harasında gizlədim məhəbbəti?
Bu sınıq taleyimə nələr edim xəlbəti?
Ayrılıq ruha sitəm, eşqin can müsibəti,
Yenə sübh-sabah çağı fəqanıyla öyündü,
Çırpınan saatlarım ürəyinlə döyündü.

Hər yerdən baxışların qoşun çəkir üstümə,
Mən alışıb yandıqca qəh-qəh edir tüstümə,
Buza dönən zamanım ocaq çatır istimə,
Hicranın acısına duyğularım deyindi,
Çırpınan saatlarım ürəyinlə döyündü.

Məndə hicran acısı, səndə könül duyğusu,
Ayrılığa bənd olub zülmətimin uyğusu,
Kəsib başım üstünü zamanımın qayğısı,
Bəxtdənmi, Allahdanmı bilmirəm bu nə gündü?
Çırpınan saatlarım ürəyinlə döyündü.

Sən ey həyat günəşi, qəlbi bülbül eləmə,
Titrəyən vücudumu eşqinə gül eləmə,

Ocaq çatıb sinəmdə bağrımı kül eləmə,

Məcnun sevdana düşən baş içində beyindi,
Çırpınan saatlarım ürəyinlə döyündü.

31. 03. 2004

SƏN GÜNAHLARINI QƏLBƏ GÖTÜRMƏ

Sən günahlarını qəlbə götürmə,
Ayrılıq əzabın belə bitirmə,
Duyğular içində səni yaşadım,
Dilimdən, könlümdən düşməsin adım.
Gecələr göyləri tutsun fəryadım,
Qəlbimin gözünü ahla oyadım.
Bitməsin bu hicran, həsərət, iztirab,
Etməsin dərdinə duyğularım tab.
Zülümü könlümün içinə atsın,
Diləklər közünü aləmə çatsın.
Ağlağan uşağa döndər ürəyi,
Uçsun yerdə, göydə sevda mələyi.
Röya qapısının ağzında dayan,
Baxışım titrəsin atəşimdə yan.
Ötən xatirənə minnətçi düşüm,
Eşqə səcdə olsun bu könül işim.
Səni xəyallarda yaşadım hər an,
İsinsin bu atəş alovuyla can.

19. X11. 2003

BİR SEVDA KÜLƏYİ ƏSİR BAŞIMDA

Bir sevda küləyi əsir başımda,
Nazlı duyğuları yellər oynadır.
Bitkin xəyalıyla durur qarşımda,
Könlə mizrab vurur tellər oynadır.

Ağladan, güldürən mələkdi deyən,
Anları coşduran diləkdi deyən,
Təni nizamlayan ürəkdi deyən,
Bəbəyi titrədir sellər oynadır.

Ağlımın, huşumun olubdu şahı,
Ayrılıq içində gətirir ahı,
Günahın üstündən edir günahı,
Qəlbə sığal çəkən əllər oynadır.

Dağılıb getməyir başdan xülyası,
Gecə yuxuları afət röyası,
Sinəmin içinə düşür ziyası,
Qanları isidir dillər oynadır.

Ruhuma, cismimə yaxın cansayaq,
Yatmayır gecəmlə bir qalır oyaq,
Tutur zamanımı əlində mayaq,
İztirab içində illər oynadır.

Bu sevda küləyi hicrandı yoxsa?
Cismimlə qaynaşan bir candı yoxsa?
Haqdan göndərilən peymandı yoxsa?
Bağrıma od vurur küllər oynadır.

Müddətdi tor qurub bəxtimin üstə,
Durub Şadimanın ömrünə qəsdə,
Düşmüşəm yatağa əlindən xəstə,
Məhəbbət bağında güllər oynadır.

20. X11. 2003

MƏNƏ TƏRƏF GƏLƏN XƏYAL

Mənə tərəf gələn xəyal,
Nə baxırsan yanı-yanı.
Üzdü məni qüssə, məlal,
Aradakı ülfət hanı?

Dil könüldən söz istəyir,
Ocağından köz istəyir,
Nə deyirəm xətrə dəyir,
Sevdiyini yaxşı tanı.

Ömür cana bir sadağa,
Qoyma ora niskil yağa,
Kim dözər mən çəkən dağa?
Qoru bəxtə düşən anı.

4. X1. 2004

MƏNİ HEYRƏTDƏ QOYMUSAN

Məni heyrətdə qoymusan,
Heyrətinə şan ağlayır.
Könlü zillətdə qoymusan,
Zillətinə qan ağlayır.

Sübh gözünü açdı getdi,
Gözdən yuxu qaçdı getdi,
Ürəyim od saçdı getdi,
Elə pərişan ağlayır.

Ağrıdan günüm bükülüb,
Can titrəyib, qəlb tökülüb,
Sarayı nədən sökülüb?
Mülk yıxılıb, şan ağlayır.

Nə şirindi sevda yuxu?
Ətri ağlı alan qoxu,
Nə tuşladın hicran oxu?
Atdığın nişan ağlayır.

Gülə bülbül demə, zalım,
Düşmüsən xoş dəmə, zalım,
Nə müddətdi fəna halım,
Bu bağır şan-şan, ağlayır.

Ümidimi Araz etdin?
Könlü dərdlə taraz etdin,
Ürəklə min avaz etdin,
Nə ki, bədən, can ağlayır.
17. X. 2004

EY ÜRƏKLƏ AVAZ EDƏN

Ey ürəklə avaz edən,
Ürək ahdan şad olmayır.
Hər duyğumla pərvaz edən,
Ayrılıqda dad olmayır.

Sevənlər fərman bilməyir,
Heç nəyi dərman bilməyir?
Qəmi cana man bilməyir,
Könül sevən yad olmayır.

Ürəyimə gəl qulaq as,
Orda qurub kədərin yas,
Əzabımı boğazdan as,
Bu qədər fəryad olmayır.

Ötən zaman düşməz ələ,
Tök xəlbirə untək ələ,
Dünyada bir könül hələ
Hicranla abad olmayır.

Sevdamızı vəfa etdin,
Qəmə düşüb cəfa etdin,
Sandım cana şəfa etdin,
Bu şəfadan ad olmayır.
17. X. 2004

SEVMƏDİN ÜRƏKDƏN MƏNİ

Sevmədin ürəkdən məni,
Sevdamız dillərdə gəzdi.
Qəlbimdə ayrılıq çəni,
Bəyazlıq tellərdə gəzdi.

Əzablar elə ah etdi,
Ahımla günahın etdi,
Acımla sabahın etdi,
Sitəmi illərdə qaldı.

Fəryadım sinələr yaxdı,
Gözümdən qanlı su axdı,
Başımdan şimşəklər çaxdı,
Ümidim sellərdə qaldı.

Ağılım başımdan sapdı,
Axtarıb eşqini tapdı…
Ürəyim sinədən qopdu,
Asılıb yellərdə qaldı.

Məhəbbət harayım oldu,

Hicranı sarayım oldu,
Alışmaq ah-vayım oldu,
Atəşim küllərdə qaldı.
7-8. 09. 2004

GÖZÜMDƏ HƏSRƏT YAŞI

Gözümdə həsrət yaşı,
Qəlbimdə iztirab var.
Nə oldun can sirdaşı?-
Nə ürəyimdə tab var?

Xəyalım umman-umman,
Kəsdi yolumu duman,
Hara qaçır bu zaman?
Axı könlü xarab var?

Aradım səni gözlə,
Dedim eşqimi közlə,
De gəlirsən nə üzlə?
And içində hesab var.

Başın şahı ağlıdı,
Eşqə yolu bağlıdı,
Bu məhəbbət nağlıdı…
Diləyində şərab var.

Etmə könlü didərgin,
Ötür zaman, gün gərgin,
Sinəmdə hicran sərgin,
Sənlə inqilab var.

Həsrətə meydan verdin,
Ahımı vaydan verdin,
Göz yaşın çaydan verdin,
Əlində sınıq qab var.
1. X11. 2004

KÖNLÜMÜ ALIB

Könlümü alıb,
Həsrətim qalıb,
Uzaq ellərdə,
Adı dillərdə.
Necə unudum?
Bu dərdi udum.
Ağrım azalmır,
Qəmim sozalmır.
Daha tabım yox,
İztirabım çox.
Ağlayır gözüm,
Mən necə dözüm?
Bitmir işgəncə,
Hər gündüz-gecə.
Ahım yüksəlir,
Bağrımı dəlir.
Neylim Allahım?
Nədir günahım?
Ötdü qış, bahar,

Sinəmdə ahar,
Qəm zirvə aşdı,
Qaynadı, daşdı.
O qərib sevdam,
Ürəkdə nidam.
Könlümü alıb,
Həsrətim qalıb.
Uzaq ellərdə,
Adı dillərdə…
30. X11. 2004

UNUDA BİLMİRƏM DAHA

Nə səni unuda bilmirəm daha,
Nə səndən o yana yolum yox mənim.
Çıxıram gecədən ahla sabaha,
Ələnir sinəmin içinə çənim.

Gözlərim axtarır hər yerdə səni,
Könlün dediyinə gözüm neyləsin?
Salmısan ömürlük bir dərdə məni,
İndi ürəyimdə dözüm neyləsin?

Xatirən boylanır sabahlarımdan,
Səhərim kədərdən qan qusur, eyvah,
Qəh-qəhə çəkirsən günahlarımdan,
Həsrətin canımı nə pusur, eyvah?

Hicranın od verir hər gün günəşə,
Könlüm qışlarında buzlanır niyə?
Aləmlər alışır qəlbdə atəşə,
Səni sevdiyimə ümid var deyə.

Tökülüb itirsən baxışlarımdan…
Qürurun sevgidən aşağı enmir.
Qəlbə xalı çəkdin naxışlarından,
Eşqin bu xalının üstünə dönmür.

Yaşa xatirəmdə əvvəlki təki,
Məhəbbət puç olar ona əyilsən.
Nə etmə könlümə bir belə ərki,
Nə sən bu sevdaya gələn deyilsən.
30. X11. 2004

GƏL OVUTMA YANAN QƏLBİ

Gəl ovutma yanan qəlbi,
Ovunmağa halət hanı?
Susdurursan coşan təbi,
Dayanmağa möhlət hanı?

Ürəyimdə ocaq közüm,
Səni görür, ancaq gözüm,
Üzüm gəlmir deyəm özüm-
Qəmin təki zillət hanı.

Qanadlanıb quş olmuşam,
Həsrətinə tuş olmuşam,
Hər acına nuş olmuşam,
Dərdin kimi illət hanı?

Uç, sevdalım, qon könlümə,
Mən yanantək yan könlümə,
Eylə fəda can, könlümə,
Ürəyimtək xələt hanı?

30. X11. 2004

NƏ SƏN BU SEVDADAN DÖNƏN DEYİLSƏN

Nə sən bu sevdadan dönən deyilsən,
Nə səni qəlbimdən ata bilmirəm.
Nə eşq ayağına enən deyilsən,
Nə mən ayrılığa bata bilmirəm.

Hicranın könlümü yandırıb yaxır,
Canıma yağıtək uzaqdan baxır,
Könlə möhlətindən qəm seli axır,
Gecəmin qoynunda yata bilmirəm.

Həsrətin üzümə bozarıb durur,
Ürəyim köz tutub qızarıb durur,
Hicran tə'nələrin qəlbimə vurur,
Əzabın belinə çata bilmirəm.

Elə bil bədəndən ayrılıb canım,
Bağırım olubdu kədər ünvanım,
Yoxdu səndən qeyri könlə həyanım,
Özümü bəşərə qata bilmirəm.

Ya xəstə say məni, ya ağıldan kəm,
Xəyalın hər hissdən qəlbimdə ötkəm,
Çıxmaq istəmirsən könüldən bir dəm,
Nə sənə bir yolluq çata bilmirəm…

30. X11. 2004

MÖHNƏTƏ ŞƏFA EYLƏ

Canda möhnət var ikən möhnətə şəfa eylə,
Eşqimi borca sanan minnətə şəfa eylə.
Bil ki, səndən qeyri könlümü almadı ələ,
Qəlbini lə'l edən zinətə şəfa eylə.
Aləmə haqlı bələd can ilə peymanəliyim,
Araya ölçü qoyan möhlətə şəfa eylə.
Mən qərar tutmadayam həsrətə-mülkü abadan.
Ürəyi zülmə salan zillətə şəfa eylə.
Hər qəmin ahı düşür sinəyi-biyabanə,
Bu ahın bəxşeyişi illətə şəfa eylə.
Nə bəla çəkdiyimi kim bilir Rəbbdən qeyri?
Gördüyün mənzereyi-halətə şəfa eylə.
Şadiman biçarəni sormadın illərlə heç,
Ağlının seyrinə bul, qanətə şəfa eylə.

2. 03. 2004

VAXTSIZ XƏZAN DÜŞÜB GÜLÜMƏ SƏNSİZ

Nə vaxtdı saçıma sığal çəkmirsən,
Əllərim dolaşıb telimə sənsiz.
Sinəmdə bir ümid kolu əkmirsən,
Qəm qurşaq dolayıb belimə sənsiz.

Damar dilə gəlir qandan xəbərsiz,
Zamanım boylanır andan xəbərsiz,
Qonubdu könlümdən, candan xəbərsiz-
Bağrımın harayı dilimə sənsiz.

Əsir taleyimdə hicran mehləri,
Ələnir sübhümə kədər şehləri,
Ayrılıq ömrümün qəm fatehləri,
İçim divan tutur çölümə sənsiz.

Yerə, göyə bəyan günümün halı,
Gətirdin bəxtimə bu qeylü-qalı,
Yenə də üz tutub gəlir ədalı-
Hicran sonaları gölümə sənsiz.

Bü ömür yolları heç olmadı düz,
Xəlbət yasa batır, aşkar gülür üz,
Mənə əzab verir gecəbəgündüz,
Toxuna bilmirəm könlümə sənsiz.

Fələk aha salıb mən biçarani,
Haradan arayım tapıb çarəni?
Ayrılıq səd çəkib, tutub arəni,
Düşmüşəm çarəsiz zülümə sənsiz.

Qalmayıb canımda daha amanım,
Təkcə yuxulara gəlir gumanım,
Sitəmlə qapımı açır zamanım,
Bu ağrı aparır ölümə sənsiz.

Ocağım soyuyub oynayır külü,
Şadiman tarlanın yanan sünbülü,
Uçubdu könlümün şeyda bülbülü,
Vaxtsız xəzan düşüb gülümə sənsiz.

17. X11. 2003

BU SƏHƏR ATƏŞLƏR SAÇDIN

Sevgilim, bu səhər atəşlər saçdın,
Könül gülzarının bağına qaçdın,
Onun qapısını ürəklə açdın,

Apardı sevdalar qorxu-hürkümü,
Gəlişin bəzədi ömür mülkümü.

Duyğular içində alışdım, yandım,
Sənin ocağından oda boyandım,
Bu eşqin önündə əfvə dayandım,

Qovdu diləklərim ürək bürkümü,
Gəlişin bəzədi ömür mülkümü.

Ağlım get söylədi, ürəyim dayan,
Baxışın anıma, vaxtıma həyan,
Sən oldun hissimin atəşin duyan,
Çıxardıb atmısan hicran kürkümü,
Gəlişin bəzədi ömür mülkümü.

Şadiman bu eşqə iman etmədə,
Sənin zamanına peyman etmədə,
Könlümün duyğusun kaman etmədə,
Könlünün, sevdalım, könlə ərkimi?
Gəlişin bəzədi ömür mülkümü.

16. 02. 2003

EY KÖNÜL GÜNƏŞİM

Ey könül günəşim, duyğu atəşim,
Sənin ayağına səcdədi işim.
Sən olmayan yerdə görmürəm həyat,
Könlünü könlümün nəş'əsinə qat.
Qoyma həsrət doğsun can gileyimdə,
Tək səni görürəm bu taleyimdə.
Elə ki, gedirsən rüzgar sərt əsir,
Qapımı hicranın yelləri kəsir.
Saatım ağlayır ötən zamana,
Fələyin verdiyi acı fərmana.
Sənin işığında zülmətim qaçır,
Sübhüm doğulmaqçın haqqa əl açır.
Gəl yandır könlümdə ümid şamları,
Bəzəsin duyğumuz qoy axşamları.
Dildən-dilə düşsün səadətimiz,
Hicrana görk olsun eşq adətimiz.
Sənin varlığından canım boylanır,
Könlümə duyğular yertək haylanır.
Sən mənim dünyada sevgi xətamsan,
O dəli eşqinlə aləmdə tamsan!
Mən sənin eşqindən qidalanıram,
Diləkdən-diləyə sevdalanıram.
Məhəbbət göyündə parlar günəşim,
Elə et sönməsin sevgi atəşim.

19. X11. 2003

HİCRAN YÜKÜN ÇƏKƏN QAFİL

Hicran yükün çəkən qafil,
Bu yük cana ağrı verər.
Sinəyə od tökən qafil,
Sevda qəmi doğru verər.

Eşq əzabdı, eşq zülümdü,
Tutuldun ki, bil ölümdü,

Ürək nalan, qəlb dilimdi,
Canın ahın bağrı verər.

Pünhan-pünhan baxma mənə,
Alovunu yaxma mənə,
Şimşək təki çaxma mənə,
Hər xətanı oğru verir…

Tale zövqlə əkər qəmi,
Çuvallara tökər qəmi,
Tərəzidə çəkər qəmi-
Yüngülü yox, ağrı verər.

Şadimana ülfət eylə,
Bu sevdanı afət eylə,
Ya sev, ya da nifrət eylə,
Düzlük həyat uğru verər.
18. 01. 2004

MƏN ƏSİR OLMUŞAM BAXIŞLARINA

Mən əsir olmuşam baxışlarına,
Köləyə, əsirə zülüm nə lazım?
Ocağım çatılıb sərt qışlarına,
Sozalıb atəşim, külüm nə lazım?

Bilmirəm qəlbinin nədir niyyəti?
Məzara salmısan bu məhəbbəti,
Ürəyim ağlayır məndən xəlbəti,
Bağrım haray çəkir, dilim nə lazım?

Bir sən görməyirsən sinə dağımı,
Gözümün gurşadı döyür çağımı,
Xəzanlar alıbdı könül bağımı,
Budağda saralmış gülüm nə lazım?

Niyə bu taleyim belə oldu bəd?
Atdı ortalığa fərmanıyla həd,
Çəkilib araya nə müddətdi səd,
Fələyin qoyduğu bölüm nə lazım?

Yolunda əzaba salıb can məni,
Bağrın dəryasında boğur qan məni,
Öldürür, dirildir bu hicran məni,
Daha Şadimana ölüm nə lazım?
15. 03. 2004

MƏNİ DUYĞULARDA YAŞAT SEVDİYİM

Məni duyğularda yaşat, sevdiyim,
Duyğular insana həyatdı axı?
Könüldən niskili gəl at, sevdiyim,
Nəş'ə ruhumuza qanatdı axı?

Bu necə həsrətdi, bu necə hicran?

Göynəyir bədənin hər yerində can!
Yaramda görünür lalə rəngli qan,
Sənin ayrılığın qanatdı axı?

Məhəbbət insanla yaranıb qoşa,
Gətirir könülü, ürəyi cuşa,
Qoyma gözlərimdə kədərim daşa,
Eşqin zamanıma saatdı axı?

Sanma, xəyalına vurulub qaldım,
Həsrətin boynuna sarılıb qaldım,
Hicran karvanından qırılıb qaldım,
Varlığın ömrümə büsatdı axı?

15. 03. 2004

SALIB KÖNLƏ MÖHNƏTİ

Salıb könlə möhnəti
Könlü qubar eləmə.
Candakı məhəbbəti
Aləmə bar eləmə.

Sevdalı duyğuların,
Bir ömür qayğıların,
Gecənin uyğuların,
Zülümə dar eləmə.

Getmir başdan bu sevda,
Min yol etsən də vida,
Eşqin dilimdə nida,
Aləmə car eləmə.

Ürəyə can sirdaşı,
Tökmə gözündən yaşı,
Gətirib qəlbə qışı,
Könlümü qar eləmə.

Hər canda bir vəfa var,
Məhəbbətdə cəfa var,
Rəbbdən dərdə şəfa var-
Könlünə yar eləmə.

Hicran zəmisi boldu,
Biçdim xırmanım doldu,
Ordan qəlbimə yoldu-
Qəlbi anbar eləmə.

Gülümü bağdan dərib,
Yaz dolu çağdan dərib,
Eşqimi tağdan dərib
Qəmlə nübar eləmə.

Sevgi sayılmaz eyib,

Hicran könlümə dəyib,
Səhər-axşam yar deyib-
Dili qabar eləmə.
18. 01. 2004

BU EŞQ MƏNƏ HAQDAN BƏLA

Bu eşq mənə haqdan bəla,
Mən bəlanı yar etmişəm.
Ürək düşüb haldan-hala,
Gizlində ah-zar etmişəm.

Çox tə'nələr yedi könlüm,
Dərdin pünhan dedi könlüm,
Nəş'əyə şah idi könlüm,
Onu qəmlə xar etmişəm.

Rəbbim verən can möhlətə,
Hər əzaba, hər möhnətə,
Ürəyimə dərd minətə,
Bu dilbilməz məhəbbətə,
Qulağıımı kar etmişəəm.

Alışanda eşqə sinə,
Çəkər hicran, dağ köksünə,
Ələm gəlməz sağ köksünə,
Yolun könlə dar etmişəm.

Əzabıma ortaq olan,
Dərdlərimə yataq olan,
Könlə pünhan otaq olan,
Həsrətini var etmişəm.

Gedin deyin o qafilə,
İmdad etsin mən tifilə,
Verdiyi qəm dönüb filə,
Mən bu qəmdən ar etmişəm.

Hicran qəlbə düşən bürkü,
Oda yanır bu can kürkü,
Talanıbdı könül mülkü,
Bu talanı car etmişəm.

Şadimandan umma sevda,
Özün etdin eşqə vida,
Ruha, cana, könlə qida,
Bu qidanı bar etmişəm.
18. 01. 2004

AH, NECƏ SEVİRƏM

Ah, necə sevirəm, sevirəm səni?
Bu sevda alıbdı qoynuna məni.
Gizli duyğuların titrəməsindən,
Ruhumun çağlayan həyat səsindən
Ərşə çəkilibdi canın qəmləri,

Mələktək gəzirəm hey aləmləri.
Olmusan könlümün ayı, ulduzu,
Hicranın bağrıma salıbdı buzu.
Tufanlar əsdirir coşan qanımda,
Dünyanın nəş'əsi qopar canımda.
Sənինlə başlayar könlümə bahar,
Edibdi sinəmi bu atəş ahar.
Ağlım ürəyimə olubdu əsir,
Tikibdi anıma arzular qəsir.
Diləkdən yeni bir dilək doğubdu,
Kədəri bələkdə tutub boğubdu.
Canım çırpınarkən o görüşünə,
Qapıların açır qəlb gəlişinə.
Həyat qaynayanda göydə və yerdə,
Həsrət dözməz axır düşdüyü dərdə?

***

Ah, necə sevirəm, sevirəm səni?
Sevdan ram edibdi özünə məni.
Yuxumun qapısın açaraq gecə,
Tez qaçır yanıma ruhun gizlicə.
Üz-üzə, göz-gözə, pıçıldaşırıq,
Arzudan-arzuya coşub-daşırıq.
Əllərin telimə sığal çəkəndə,
Sevda gülzarına çiçək əkəndə,
Xəyalın zülmətin bağrını yarır,
Anların içində həyat arayır.
Kədəri salaraq dəmir qəfəsə,
Qalırıq dəmlərlə nəfəs-nəfəsə.
Ötür ömrümüzdən gedir bu anlar,
Taleyə köklənib sevdalı canlar.
Dünəndən qoparmaq olmur saatı,
Qaytaraq geriyə ötən həyatı.
Qurmusan ömrümə səadət taxtı,
Zirvədən-zirvəyə gəzdirir baxtı.

Ah, necə sevirəm, sevirəm səni?
Yaşat olduğuntək əzizin məni.

12. 03. 2004

HİCRAN GÖYLƏRİNİN KAHASI DƏRİN

Hicran göylərinin kahası dərin,
Qanadım qırıldı uça bilmədim.
Səni taleyimə yazdı qədərim,
Mən bu məhəbbətdən qaça bilmədim.

Baxışın od tökdü baxışlarıma,
Düşdüm həsrətimin yağışlarına,
Tuş etdi rüzgarım qəm qışlarına,
Ayağım don atdı qaça bilmədim.

Dilim get söylədi, gözlərimsə gəl,
Girdi aramıza hansı xain əl?
Sən qoydun könlümdə eşqimə təməl,

Ondan qeyri heç nə uca bilmədim.

Qəlbimi göynətdi xəyalın hər dəm,
Məndən səadəti niyə etdin kəm?
Silinib getməyir gözlərimdən nəm,
Bu sirri heç kimə açа bilmədim.

Şadiman ah çəkir, bu aha çarə,
Salma ürəyimi qıfıl, açarə,
Fələk qapı açmaz qəmə düçarə,
Necə ki, mən onu açа bilmədim.
28. 02. 2004

KÖNLÜM SƏNİN YANINDADI

Sorma məndən bu ürəyi,
Ürək hər bir anındadı.
Dəymə uçar can dirəyi,
Könlüm sənin yanındadı.

Bu qədər də sınaq olar?
Öz yerinə qınaq olar,
Səhər-axşam qonaq olar?
Könlüm sənin yanındadı.

Səsləyirəm səda gəlmir,
Can evimdən nida gəlmir,
Ruha ayrı sevda gəlmir,
Könlüm sənin yanındadı.

Baxışında həyat yaşar,
Hissim qaynar, zövqüm daşar,
Canım çıxar, dil dolaşar,
Könlüm sənin yanındadı.

Əzabıma şəfadayam,
Xəyalınla vəfadayam,
Mən özümlə cəfadayam,
Könlüm sənin yanındadı.

Şadlığıma gülmək bilmir,
Göz yaşımı silmək bilmir,
Çağırıram gəlmək bilmir,
Könlüm sənin yanındadı.

Şadimanla etmə cida,
Bir canı var sənə fəda,
Gəl bu eşqə demə vida-
Könlüm sənin yanındadı.
26. 02. 2004

BAXIŞLARIN CANLAR ALIR

Baxışların canlar alır,
Canlar sənə qalan deyil.
Vaxt bazarda anlar alır,
Bu həqiqət yalan deyil.

Eşqin salıb könlə ocaq,

Od istəyir qucaq-qucaq,
Günəş təki atəş saçaq,
Dünya bizə qalan deyil.

Qəlb bağına hicran əkmə,
Əkib onu könlə tökmə,
Bu sevdanı yıxıb-sökmə,
Səadətdə talan deyil.

Ömür cana nə işgəncə?
Tamaşası bir əyləncə,
Bu ürəyim, gülüm, məncə,
Bir kimsənin olan deyil.

Canım üzər nə xiffətin?
Kəsilməsin o ülfətin,
Hər yetən öz məhəbbətin,
Ürəyinə salan deyil.

Hicran qəlbin için oyar,
Qəm verməkdən nə vaxt doyar?
Səndən qeyri, vallah, ey yar,
Heç kim könlü alan deyil.

2. 01. 2005

SƏN MƏNİM KÖNLÜMDƏN ÇIXMADIN HEÇ VAXT

Sən mənim könlümdən çıxmadın heç vaxt,
Vaxtı öldürməkçin an gizlənirmiş.
Məhəbbət oyunu oynadı bu baxt,
Ürəyin içində can gizlənirmiş.

Hər yerdə gözlərim axtardı səni,
Ağlın tə'nəsinə qəlb oyanmadı.
Sanki tilsimlərə salmısan məni,
Könül sevməyindən heç dayanmadı.

Gecələr sinəmdən çıxaraq canım,
Səni aramağa getdi yuxuda.
Alışdı eşqindən könül ünvanım,
Duyğular çırpındı qara-qorxuda.

Mənim öz həyatım, sənin öz yarın,
Bu necə zülümdü düşüb ürək bəs?
Bağlanıb özgəyə əhdi-ilqarın,
Sənin xəyalların mənə edir qəsd.

Əzabdan o yana ırız yox daha,
Yolumun üstündə dayanıb ruhun.
Bəlkə fəryadların yetib Allaha,
Tutubdu qəlbimi sənin günahın?

Könül dilənçisi sanma sən məni,
Bu eşqi tapşırdım qismətə bir vaxt.
Elə yuxularda görürəm səni,
Bilmirəm bədbəxtsən, ya da ki, xoşbaxt?

İndi məhəbbətdən söhbət düşəndə,

Mən özüm-özümə baxa bilmirəm.
Ayrılıq əzabı könlü eşəndə,
Eşqimin üzünə çıxa bilmirəm.

Mənim şüurumda yatıb qalmısan,
Hara gedirəmsə mənimləsən sən.
Sinəmə dərd yükü çatıb qalmısan,
Dumanım, çiskinim, çənimləsən sən.

Ürək can əzabı çəkir hər zaman,
Bir canın ağrısı – bir ömrə çatmır,
Ağlım xəyalıma gətirir iman.
Yatmış ümidimi qüssəm oyatmır.

Saçlarım ağarıb ötüb o illər,
Qəlbim əvvəlkitək eşqinlə vurur.
Gözlərim bağrıma axıdır sellər,
Öz əlim başıma tə'nəylə vurur.

Ürəkdən, könüldən xəbərsiz ürək,
Sənə məhəbbəti yaşadır bugün.
Niyə bəxtimizə salıbdı fələk
Açılası müşkül neçə cür düyün?

Mən el tə'nəsindən qorundum o vaxt,
Eşqimlə həsrətə qədər bu sevgi.
Bizi bir-birinə tay etmədi baxt,
Mənlə qəbr evinə gedər bu sevgi…

3. 01. 2005

HEYRƏT ETMƏ SURƏTİMƏ

Heyrət etmə surətimə,
Surətimdə əksin yatır.
Gəl seyr eylə qüdrətimə,
Qüdrətimdə köksün yatır.

Xəyalların bir tamaşa,
Verir qəlblə lap baş-başa,
Ağlımdan eşq daşa-daşa,
Hər duyğumda hissin yatır.

Ahım batıb an içində,
Qalıb ürək qan içində,
İnanmırsan can içində-
Sənin könül qövsün yatır?

Yolum daşa toxunur ah,
Gözüm yaşa toxunur ah,
Üzdən həsrət oxunur ah-
Hər işimdə nəfsin yatır.

Qınamayın Şadimanı,
Eyləməyin ona manı,
Alıb əldən din-imanı,

Bu eşqidə ovsun yatır.
3. 01. 2005

ZİRVƏ GÜNƏŞİTƏK NƏ PARLAYIRSAN ?

Zirvə günəşitək nə parlayırsan?
Zirvələr içində qar, buz da olur.
Həsrətin yolunu hamarlayırsan,
Hamara öyrəşən yalqız da olur.

Məktublar masamın üstündə nalan,
Məhəbbət sandığım nə riya, yalan?
Bir ürək deyil ki, kədərlə qalan,
Qəmlərə bulaşan kağız da olur.

Dilim ah söyləyir, sözlərim ağı,
Ötüşmür ömrümün bu hicran çağı,
Təkcə başda ağıl çəkməyir dağı,
Fəryadla üzləşən ağız da olur.

Hər kəs taleyinin marağındadır,
Sevdalı eşqinin sorağındadır,
Hər qismət bir ulduz çırağındadır…
Ölüb göydən düşən ulduz da olur.
3. 01. 2005

BU QATAR YAMANCA ŞÜTÜYÜB GEDİR

Bu qatar yamanca şütüyüb gedir,
Qəmimi məktuba büküb aparır.
Özünü mənimtək halbahal edir,
Eşqimin ağzıını tikib aparır.

Üzümdən oxuyur həyacanımı,
Özündə ağladır bu hicranımı,
Qoparıb bədəndən şirin canımı,
Bütün ürəyimi söküb aparır.

Bu qatar verməyir anlara aman,
Tələsir mənzilin başına yaman,
Mən ah eləyirəm, ürəyim iman,
Gözümdən yaşımı töküb aparır…

Səhər mürgüsündən çöllər ayılır,
Çarxlar tıqqıldayır, anlar bayılır,
Qəlbimin fəryadı ərşə yayılır,
Yollara ayrılıq əkib aparır.

Giribdi qəlbimlə əcəb sövdaya,
Qoynunda yer verib niyə sevdaya?
Görmürmü könlümdən qopan nidaya?
Bağrıma qəm dağı çəkib aparır.

Qışın soyuğluğu gəlir səhərdən,
Tutulub boğazı dəmin qəhərdən,
Bütün varlıığımı udan zəhərdən,

Anların çiyninə çöküb, aparır.

Bu qatar bilmirmi qəm adətimi?
Alıb əllərimdən məhəbətimi…!
Nə ki, qərib olmuş səadətimi,
Məni də özüylə çəkib aparır…

3. 01. 2005

BU GECƏ XƏBƏR ET ULDUZLARA SƏN

Bu gecə xəbər et ulduzara sən,
De ki, ürəyimdən gedib duman, çən.
Yenə könlüm evi çıraqban olub,
İncə duyğularla mehriban olub.
Atəşlə alışıb yanır ürək, can,
Sənin həsrətinə nalan olub an.
Dərdimi deməyə qüdrətim çatmır,
Qəmimi çəkməyə vüs'ətim çatmır.
Ürəkdən nə silər bu mələlımı?
Özün yadına sal mənim halımı.
Bu gecə xəbər et, ulduzlar çıxsın,
Mənim atəşimin oduna baxsın.
Sən qəmi verənsən, mən qəmi çəkən,
Səpilsin göylərə ulduzlar erkən.
Yansın inci-inci, yansın şam kimi,
Könlüm cilvələnsin bu axşam kimi.
Hər ulduz taleyin misalı təki,
Sənin surətinin timsalı təki.
Parlasın göylərin sinəsində qoy,
Gecənin zülmətin bu işıqla oy.
Dərdini deməyə həmdəm et məni,
Ya da bu dərdinlə gəlib öt məni!…
Sevdalı günləri salım ürəyə,
Sənin cəmalını alım ürəyə.
Oxşasın ruhumu bu gecə yarı,
Gəl birgə yaşadaq əhdi-ilqarı,
Bir sevda günəşi doğsun başımda,
Batırım ələmi bu göz yaşımda.
Canıma qonaq et ruhunu belə,
Mən də bu zülməti vurum qəm ilə.
De ki, ürəyimdən gedib duman, çən,
Bu gecə xəbər et, ulduzlara sən…

17. 02. 2005

ÜRƏYİMİN TELLƏRİ

Ürəyimin telləri
Titrəyir sənin üçün…
Göz yaşımın selləri,
Axır könlümə neçin?

Gecələrim ah çəkir,
Sevdamızın eşqinə.
Ağrını sabah çəkir,
Qalıbdı yaman günə.

Hicran verir ağrını,
Hicranı bilmə ne'mət.
Qəmə salıb bağrını,

Etmə günə qiyamət.

Hər sabahdan ah doğur,
Sevdamız bir yuxudu…
Məni hicranın boğur,
Sinəmdə qəm oxudu.
Eşqin bir bülbül təki,
Sinəmə nə oxudu?

Ürəyim bir uşaq tək,
Ağlayır için-için,
Qəm dolanıb qurşaqtək,
Boğur könlümü neçin?

Ürəyimin telləri
Titrəyir sənin üçün…
17. 02. 2005

SƏNİ YUXULARDA GÖRÜRƏM YENƏ

Səni yuxularda görürəm yenə,
Yuxular könlümü ovutmur ki, heç.
Alışır həsrətlə bu yazıq sinə,
Bu həsrət könlümü sovutmur ki, heç.

Dərd çəkir, qoşunun gəlir üstümə,
Savaşdan öc alan bir yağı təki.
Durur xəyalların hər gün qəsdimə,
Ələmin sağalmaz qəm dağı təki.

Ümidim qalıbdı gecələrimə,
Səni yuxularda əsir etmişəm.
Ürəyim mat qalıb necələrimə?
Mən bu sualları bir sir etmişəm.
17. 02. 2005

SURƏTİN AY KİMİ DURUB QARŞIMDA…

Surətin ay kimi durub qarşımda…
Həsrətin parlayır bu göz yaşımda.
Edir ürəyimə hicranın sitəm,
Çəkilib getməyir könlümdən matəm.
Hər yerdə görürəm xəyalını mən,
Könlümün telləri qırılır dən-dən,
Ömrümdən boylanır elə iztirab,
Qalmayıb canımda nə taqət, nə tab.
Bitmir ayrılığın acı möhləti,
Naləm əyan edir ərşə haləti.
Surətin ay təki yuxumdan baxır,
Bu baxış könlümü yandırıb, yaxır.
Basır yatağımı bu həyacanım,
İsinmir həsrətin oduyla canım.
Ağrılar içində illət boylanır,
Bütün həyatımdan zillət boylanır.
Gecəm sabahıma dərmanə gəlir,
Ay təki surətin fərmanə gəlir.

Yıxır ümidimin sarayın qubar,
Hər ağrı içində bir işgəncə var.
Soyuq məzar kimi üşüyür canım,
Xəyalın önündə əsirdi anım.
Tütyə sevincim də həsrətdən keçir,
Zülmün qədəhindən ruhum qan içir.
Həsrətin parlayır bu göz yaşımda,
Surətin ay kimi durub qarşımda…

18. 02. 2005

NƏ VAXTDAN BAŞLADIN SEVMƏYƏ MƏNİ?…

Nə vaxtdan başladın sevməyə məni?
Nə zaman könlünü aldı, bu sevda?
Tökdü ürəyinə həsrətim çəni,
Əbədi könlündə qaldı, bu sevda.

Gecələr xəyalım yuxuna gəldi,
Gəlib ürəyini atəşlə dəldi,
Ahın bulud-bulud göyə yüksəldi,
Sinəndə nə məskən saldı, bu sevda?

Sən fəqan qoparan bir aha döndün,
Bu eşq qarşısında günaha döndün,
Günəşi çən almış sabaha döndün,
Önündə süquta daldı, bu sevda.

9. 03. 2005

AH, ÜRƏK, BU NECƏ SEVDADIR MƏNƏ?…

Ah, ürək, bu necə sevdadır mənə?…
Saldın həyatımı dumana, çənə.
Ağrılar içində ömür yaşadım,
Yazıldı həsrətin cövrünə adım.
Könlümü bürüdü acı intizar,
Ağladı saatım, dəqiqəm zar-zar.
Gözlərim yollardan çəkilmədi heç,
Yandı əzabların fəryadında iç,
Bəbəklər yaşını bağrıma tökmüş,
Məhəbbət duyğudan, candan böyükmüş.
Hər yerdə alışan gözünü gəzdi,
Özün qarşımdaykən özünü gəzdi.
Ağlımın evində qurdun taxtını,
Qopara bilmədim candan baxtını.
Bütün vücudumu aldın əlinə,
Batdı ümidlərim hicran selinə.
Ah ürək, bu necə sevdadır aldın?
Məni, özünü də əzaba saldın.
Hər şey öz şəklini dəyişdi getdi,
Günlərim həsrətlə döyüşdü getdi.
Duyğuda aradım səadətimi,
Xəyalla ovutdum ibadətimi.
Gecəm gündüzümü qəmlə üyütdü,
Bütün ümidimi həsrətlə ütdü.
Ömrün xəzanına düşdü büsatım,
Ayrılıq içində keçdi həyatım.
Gəlmədin bir yolluq imana, dinə,
Ah, ürək, bu necə sevdadır mənə?…

13. 03. 2005

GƏL APAR XƏYALINI

Gəl apar xəyalını,
Xəyalla gün sürməzlər.
Gör könlümün halını,
Sevda qolun gərməzlər.

Deyim sözün gerçəyi,
Gül üşüdər dibçəyi,
Sevda qəlbin çiçəyi,
Onu belə dərməzlər.

Eşqimi salma gözdən,
Ocağı daşır közdən,
Gəl oxu onu gözdən,
Qəlbi günə sərməzlər.

Xəyal ağlın işığı,
Ümidin yaraşığı,
Gəl könlümün aşığı-
Hicranla gün görməzlər.
13. 03. 2005

HİCRAN SALIB CANA SİTƏM

Hicran salıb cana sitəm,
Gör nə edib cəfan mənə?
Öylə düşüb könlə matəm,
Çarə etmir səfan mənə.

Tütyə etdin peymanını,
Tutdun ələ səhmanını,
Əritdikcə dərmanını,
Can bulmadı şəfan mənə.

Nə çəkdim mən günüqara?
Ürək ahdan para-para,
Gəl halımı özün ara,
Həsrət verdi vəfan mənə.
13. 03. 2005

KÖNLÜMÜ QIRMA BELƏ

Mən bilirəm qəm oxu,
Dəlib qəlbini belə.
Gəl ürəyimi oxu,
Könlümü qırma belə.

Bu dünya ulu dünya,
Onun hər işi röya,
Bu eşqi duya-duya,
Könlümü qırma belə.

Həyatım əndişədi,
Sanki sınıq şüşədi,

Sevgidə naz peşədi,
Könlümü qırma belə.

Gəl ürəyimi aç bax,
Açırsansa yandır-yax,
Şimşəktək alışıb çax,
Könlümü qırma belə.

Sevda özü uğurdu,
Qəmə batmaq ağırdı,
Oda düşən bağırdı,
Könlümü qırma belə.

Şadimanı dinlətmə,
Həsrətini inlətmə,
Bu sevgini ünlətmə,
Könlümü qırma belə.
17. 03. 2005

SƏNİ UNUTMAQ ÇƏTİN

Ötüb keçsə də zaman,
Alışır bədəndə can,
Bu ürəyimdən bir an,
Çıxmayır məhəbbətin,
Səni unutmaq çətin.

Diləklərim hönkürür,
Ağrıyla ömür sürür,
Zülümü Rəbbim görür,
Nə əzizmiş xilqətin?
Səni unutmaq çətin.

Yalvarıram Allaha,
Könlü salmasın aha,
Can batırır günaha,
Güclü olan – qüdrətin,
Səni unutmaq çətin.

Ürəyim dönüb şama,
Yanmaqla yetir kama,
Naləm düşür axşama,
Həsrətin – əmanətin,
Səni unutmaq çətin.

Sinəmdə qəm çağlayır,
Can qapımı bağlayır,
Ürəyim hey ağlayır,
Bu mənə səadətin,
Səni unutmaq çətin.

Xəyalın könlə çıraq,
Verir eşqindən soraq,
Can candan düşüb iraq,
Ayrılıq əlamətin,
Səni unutmaq çətin.
19. 03. 2005

YENƏ GÖZÜM YOLDA QALIB

Yenə gözüm yolda qalıb,
Dur gəl, könlə əncam elə,
Bağrım başın duman alıb,
Çək dumanı, yet kam elə.

Sinəmi ah ovaladı,
Dərd orada yuvaladı,
Ağılımı duvaladı,
Naləsiylə sən şam elə.

Belə vurma diləyimi,
Yel əsdirər dirəyimi,
Nuş eylədin ürəyimi,
İndi ondan bir şam elə.

Şadimanın fəna halı,
Düzəlmədi heç əhvalı.
İnsaf etsən qeylü-qalı,
Nə gündüz, nə axşam elə.

20. 04. 2005

MƏNƏ VƏFASIZ DEMƏ

Ruhumun gözü yanar,
İçimdə ah oyanar,
Saatlarım dayanar,
Sən gəlməsən könlümə,
Mənə vəfasız demə.

Hər duyğuda bir can var,
Min cürə həyacan var.
Aralıqda hicran var,
Batıb gözlərim nəmə,
Mənə vəfasız demə.

Bir ömür soldu getdi,
Canım oyuldu getdi,
Hər şey duyuldu getdi,
İndi nə halət qəmə?
Mənə vəfasız demə.

Könlü belə çalxatma,
Özülünü laxlatma,
Keçmişlərə ram atma,
Aman vermir dəm-dəmə,
Mənə vəfasız demə.

Şadiman ah içində,
Ahı sabah içində,
Min bir günah içində-
Haray salma aləmə,
Mənə vəfasız demə.

1. 08. 2005

GÖZLƏRİM YOLUNA DİKİLİB QALIB

Gözlərim yoluna dikilib qalıb,

Yollar əvvəlkitək qayıdan deyil.
Göz yaşım bəbəyə əkilib qalıb,
Onu bu həsrətin oyadan deyil.

Xatirən könüldən boylanıb baxır,
Yatmış diləkləri oyatmaq üçün.
Əzabı sinəmdən oylanıb baxır,
Qurtula bilmədim bu ahdan neçin?

Zaman dilənçitək əl açır ona,
Dünənin sevdasın bugünlə boğur.
Ürəyim alışır ah düşür cana,
Hər ələm sinəmdə min nalə doğur.

Gözlərim yolundan qayıtmır, gəlmir,
Ürəyin ağrısın yaşla qovurur.
Mənim ayrılığım könlünü dəlmir,
Sənin əzabların qəlbi sovurur.

16. 04. 2005

MƏN SƏNİN SEHRİNƏ DÜŞMÜŞƏM YAMAN

Mən sənin sehrinə düşmüşəm yaman,
Bu sehir içində əfsunlanıram.
Hicrindən könlümə qopur ah-aman,
Ah-aman içində ofsunlanıram.

Hara baxıramsa səni görürəm?
Gözümdən bir anlıq getmir xəyalın.
Mən belə bəlalı ömür sürürəm,
Könlümə təsəlli etmir xəyalın.

Bu sevda olubdu ömür səyyadım,
Onu uyutmayır ötən saatlar.
İçimdən boyllanan dəli fəryadım,
Billurtək sazaqdan min yerə çatlar.

Mən sənin sehrinə düşüb qalmışam,
Sehirdən oyana qorxu görürəm.
Mən daha sehrinə mehr salmışam,
Bu sehr içində yuxu görürəm.

16. 04. 2005

DÖNMÜSƏN HEYKƏLƏ YENƏ QARŞIMDA

Dönmüsən heykələ yenə qarşımda,
Durub dayanmısan nə xəyal kimi?
Ayrılıq havası gəzir başımda,
Sükutun can üzür niyə lal kimi?

Yenə şimşək təki çaxır baxışlar,
Sevdası od olub çökür könlümə.
Adamı atəşlə yaxır baxışlar-
Həsrəti dumantək bükür könlümə.

Dilindən qopmayır bircə dənə söz,
Əritsin sükütun möhnət buzunu.
Qoparıb dodaqdan hər nidanı göz,
Göylərdən düşürsün can ulduzunu.

Sən necə heykələ dönüb durmusan?
Nitqim kəsilibdi bu iltifata.
Sükutla könlümdə yuva qurmusan,
Bu yuvan hərarət verir həyata.
17. 04. 2005

GÖZDƏ MÖHNƏT ODU, QLBDƏ İNTİZAR

Gözdə möhnət odu, qəlbdə intizar,
Mən yenə yollara baxıb durmuşam.
Ayrılıq bağrımı qoxlayan məzar,
Onunla dil tapıb yuva qurmuşam.

İl ilə dolanır, zaman zamana,
Saatlar heç nəyi təzə etməyir?
Ağılım gəlməyir dinə-imana,
Ürəyim mənimlə yola getməyir.

Bir yolluq qoparıb könlümdən niyə?
Mən möhnət yükünü ata bilmirrəm.
Ümidim xəyalla şad olsun deyə,
Onu həsrətə tay tuta bilmirəm.
17.04.2004

HƏZİN XATİRƏTƏK GƏLİRSƏN MƏNƏ

Həzin xatirətək gəlirsən mənə,
Ötən günlərimə bənzər xəyalın.
Necə də heyrətlə gülürsən mənə?
Məni heyran edir bu həbsi-halın.

Görkəmin qayatək sükut içində,
Gözlərin könüldən dilək ovlayır.
Fırtına başlayıb nədən içində?
Canın sevdalanıb ürək ovlayır.

Həsrətin buz təki əriyib gedir,
Baharı tez gələn yağışlar kimi.
Könlümü atəşlər bürüyüb gedir,
Ocağı köz tutmuş baxışlar kimi.

Həzin xatirətək nidalanmısan,
Xatirən içindən həsrətin baxır.
Əcəbcə, ey gülüm, sevdalanmısan,
Bu sevdan sinəmin içini yaxır.
17. 04. 2005

XƏYALIN BOYLANIR HƏSRƏT İÇİNDƏN

Xəyalın boylanır həsrət içindən,
Əllərin əlimə yetişə bilmir.
Sinəm ocaq tutub möhnət içindən,
Zamanım kədərsiz ötüşə bilmir.

Can hicran havası çalır saata,
Enir ağrıları ən dərin qata,
Uf deyir, ah deyir gələn həyata,
Ürəyin yarası bitişə bilmir.

Zalım zamanənin üzü soyuqmuş,
Ayrılıq qurd təki ova duyuqmuş,

Həsrət ağrısından sinəm oyuqmuş,
Hayandan atılıb, bu tişə bilmir?
17. 04. 2005

DEYİRLƏR GƏLMİSƏN BİZİM TƏRƏFƏ

Deyirlər gəlmisən bizim tərəfə,
Gəlişin könlümü nə şad eylədi?
Tanrıdan bəxtimə bu xoş ərəfə,
Canımı, ruhumu dilşad eylədi.

Ürəkdə duyğular cilvələndilər,
Nəş'əyə sevincə nə bələndilər?
Olub nur çeşməsi tez ələndilər,
Qəmlərin çöhrəsin naşad eylədi.

Dolandı bülbüllər güllər başına,
Sevdalar yetmədi öz sirdaşına,
Döndü ayrılıqlar bir çay daşına,
Selləri çeşmədə gurşad eylədi.

Deyirlər, ürəyin çiçəktək açıb,
Bir sevgi eşqiylə yuvadan qaçıb,
Əllərin bilmədən qapımı açıb,
Qəlbimi könlünə dil ad eylədi.
17. 04. 2005

RUHUMUN QİDASI, CANIMIN YARI

Ruhumun qidası, canımın yarı,
Gələndə könlümü bahar edərsən.
Amandır unutma bu vəfadarı-
Unutsan bağrımı ahar edərsən.

Sinəmdən getməyir eşqi-möhnətin,
Nə qədər uzunmuş hicran möhlətin?
Sənsiz ömür sürmək canıma çətin,
Gəlsən vüsalımla nahar edərsən.

Hər ağrı içində bir işgəncə var,
Hər duyğuda billur, eşqdə incə var,
Hər sual içində dözən necə var?
Gəlsən sitəmimə sən zar edərsən.

Dərd dərdi gətirər, ələm ələmi,
Fələk niyə çalıb dərdə qələmi?
Fəryadım ağladır bütün aləmi,
Gəlsən bu əzaba lap ar edərsən.
17. 04. 2005

MƏN SİLİB ATMIŞAM BAŞIMDAN SƏNİ

Mən silib atmışam başımdan səni,
Bəs niyə könlümdən çıxıb getmirsən?
Sevda dəryasında ömrün yelkəni
Batır fırtınada, aman etmirsən.

Gecələr yuxumu əsir edirsən,
Yuxular ağlıma fəqanə gəlir.
Gündüzlər qəlbimi qəsir edirsən,
Qəlbim zehinimlə min qanə gəlir.

Sən mələk, sən pəri, sən iblissənmi?!
Canımın özüylə sövdaya girdin.
İlahidən gələn gizli hissənmi?!
Möcüzə içində sevdaya girdin.

Beynim fəryad deyir bu bilməcəyə,
Ürəyim təşnədir səni görməyə.
Ağlım layla çalır gündüz-gecəyə,
Heç bəndə mənimtək zülüm görməyə.

Mən silib atmışam başımdan səni,
Baş Allah deyil ki, qəlbə hökm edə.
Hər gün canı alıb öldürmə təni,
Ağlım qul olmayıb qəlbə heç vədə.

15.10.2006; Pirallahı

MƏN SƏNƏ CAN DEDİM…

Mən sənə can dedim, sən mənə zəhər,
Zəhərin könlümə yayıldı getdi.
Boğdu həyatımı qüssə, qəm, qəhər,
Ömrümün günləri bayıldı getdi.

Şadlığa, nəş'əyə qəlb təşnə ikən,
Bu təşnə qəlbimə dərd girdi erkən,
Ələm boğazıma dolanan örkən,
Örkən də qandaltək sayıldı getdi.

Sən məni zənn etdin bir qulabənzər,
Gözlərim yaş tökən buluda bənzər,
Mənim harayıma salmadın nəzər,
Harayım div təki ayıldı getdi.

Canım bədənimdə anasız çağa,
Necə əzablardan gəldim bu çağa,
Sızqa ümidlərim düşdü bıçağa,
Soğan qabığıtək soyuldu getdi.

Nədən Şadimana qıyırsan zülüm?
Bağrım ah içində, can deyir dilim,
Ruhumda şadlıqdı, cismimdə ölüm,
Ürəyim arada oyuldu getdi.

12.01.2007

NƏZM-HEKAYƏ

NAKAM MƏHƏBBƏT

/ Ya onu mənə gətir, /
/ Üa məni ona yetir …/

***

Ey əziz oxucum, təmiz məhəbbət,
Hər zaman yaşayır qəlblərdə əlbət.
Dinlədim ağrıyla bir gənc qadını,
Nakam sevdasının qəlb fəryadını.
Titrək sinəsində duyğular daşdı,
O öz taleyini mənə danışdı.
Eşqin, məhəbbətin azalan vaxtı,
İncə diləklərin sozalan vaxtı,
Bu qadın unutmur ölmüş yarını,
Zəif vücudunun can ah-zarını,
Nəql etdi alışan yanan dil ilə,
Mən bu hekayəni çatdırım elə…

***

Qadın öz dərdini mənə danışdı,
Vərəqlər əlimdə yandı, alışdı…

Bir gün peyman etdik hamıdan pünhan,
Sanki belə eşqi görməmiş cahan.
Candan əziz tutduq biz bir-birini,
Sevdik və gizlədik ürək sirini.
Gizli baxışımız toqquşdu yandı,
Könlümüz alova, oda boyandı.
Sevdamız çevrildi saf məhəbbətə,
Apardı sevgini pak səadətə.
Qovuşdu əhd ilə ürəklərimiz,
Bir dama saplandı diləklərimiz.
Qapımız açıldı, xonça-şamların,
Gəldi evimizə toy adamların…
Taxdın barmağıma nişan üzüyü,
Qızlıq şərəfinə pak şan üzüyü.
Zaman gəlib yetdi toyumuz oldu,
Hicranın ürəyi ahdan soyuldu.
Çalındı bəxtimə vüsal nəğməsi,
Aləmi bürüdü bu toyun səsi…
Hamıdan bəxtəvər sandım özümü,
Məhəbbət alova tutdu gözümü.
Mən elə ürəklə sevirdim səni,
Yalnız eşqin idi yaşadan məni.
Gecəm gündüzümə sidqlə coşurdu,
Fələklər sevgimə nəğmə qoşurdu.
Hər günüm sehirlə ötüb keçirdi,
Dünya ürəyimdən sevda içirdi.
Sənli məhəbbətə gətirdim iman,
Necə xoşbaxt idim, necə o zaman?…
Bir işıq da düşdü bu evimizə,
Tanrı oğul payı bəxş etdi bizə.
Fəqət bu xoşbəxtlik uzun sürmədi,
Oğlum sənsiz qaldı, ata görmədi!…

***

Bir gün eşitdim ki, könlümün quşu,
Alıbdı əlindən ağılı, huşu.
Rusiya ölkəsinə uçub gedirsən,
Məndənmi, eşqdənmi qaçıb gedirsən?…
Fəryadım sinədə boğuldu qaldı,
Gözümdə bu aləm dağıldı qaldı.
Qaytara bilmədim səni o yoldan,
Ümidim qırılıb töküldü koldan.
Gizli röyalara köçdün əbədi,
Bizi bir-birindən ayıran nədi?
Əvvəl inanmadım bu gedişinə,
Fələyin mənimlə sərt gərdişinə.
Zənn etdim cavansan, beyinin qandı,
Səhv duyğu içində xəta oyandı.
Getmisən qayıdıb gələrsən bir gün,
Hicranın bağrını dələrsən bir gün.
Fəqət, elə getdin daha gəlmədin,
Soyuq yatağımda aha gəlmədin.
Aylarım günləri uddu fil təki,
Fələk qapısında can səfil təki.
Ağladı yarımçıq bu sevdasına,
Ağlım haray çəkdi könlün yasına!…

***

Ayişə götürdü qələm və kağız,
Çəkildi bir sakit guşəyə yalqız.
Ağlayan könlünün sözləri daşdı,
Ülvi məhəbbəti hey ucalaşdı.
Tökdü vərəqlərə könül diləyin,
Açdı yalvarışla o saf ürəyin.
Məktublar zərflərdə tapdı yerini,
Qaytarmaq istədi evə ərini…
Bağrından tökülən söz yağışıyla,
Namələr islandı hicran yaşıyla.
Yolandı qürbətə dilsiz varaqlar,
Qəlbində ümiddən yandı çıraqlar.
Hər məktub bir nalə, könül fəqanı,
Dəhşətə gətirdi duyan insanı…

***

BİRİNCİ MƏKTUB

Sənsiz yuxulara mehir salmışam,
Mən sənli dünyada sənsiz qalmışam.
Hər şey öz yerini dəyişib daha,
Gumanım qalmayıb gələn sabaha.
Hər yerdən xəyalın üstümə gəlir,
Qəm qapımı döyür, qəsdimə gəlir.
Sənsiz solğunlaşıb Ayım, Günəşim,
Ey könül alovum, duyğu atəşim.
Vaxtım günlərimi saymaqla keçir,
Əksini bağrıma qoymaqla keçir.
Bu uzun gecələr bir ilə dönür,
Ürəyim odlanır, qəlb külə dönür.
Sükutlar zülməti ovutmur neylim?
İndi röyalara düşübdü meylim.
Hər gecə güldürmək üçün sən məni,
Qovardın üzümdən dumanı çəni.
Min cür oyunlardan çıxardın elə,
Qəlbi oynadardın belədən-belə.

Ya da ki, küsəyən uşaqlar təki,
Gülərdin üzümə, sanki çəpəki.
Bu vaxt incik-incik durub baxardın,
Könlümdə bir sevda qurub baxardın.
İndi röyalara köçmüsən nədən?…
Ey məni eşqiylə bəxtəvər edən?
Hardadı verdiyin o əhd, o ilqar?
Məhəbbət bağına hardan yağdı qar?
Ayrılıq oxuyla gəl oyma məni,
Sən olan dünyada tək qoyma məni…

***

İKİNCİ MƏKTUB

Gəldin həyatıma bir yuxu kimi,
Eşqi məst eylədin xoş qoxu kimi.
Bu cavan ömrümdə açdın gül təki,
Dolandın başıma hey bulbul təki.
Axı bir-birinə möhtac idik biz,
Açır xatirələr ürəyimdə iz.
Necə getmisənsə gəl qayıt mənə?
Ya da ki, bir yolluq mən gəlim sənə.
Niyə qonaq oldun bu həyatıma?
Niyə yas gətirdin de büsatıma?
Səni Ay sanırdım zülmət gecəyə,
Mən dözə bilmirəm bu işgəncəyə.
Dənizim, ulduzum yox olub gedib,
İndi dünya mənə ox olub gedib.
Sanki boş səhraya atıb ah məni,
Yandırır həm axşam, həm sabah məni.
Niyə yaraladın bu ürəyimi?
Zəhərə döndərdin duz-çörəyimi.
Hər səhər yuxudan qalxıram, sənsiz,
Boşalmış dünyaya baxıram, sənsiz.
Üzümü yuyuram göz yaşlarımla,
Qəlbimi döyürəm savaşlarımla.
Deyirəm harada səhv elədim mən?
Məni atıb getdin birdəfəlik sən.
Axı, can deyərdik biri-birinə,
Kimlər qapı açdı bu can sirrinə?
Axır göz yaşlarım soyuq balışa,
Kim tutdu bəxtimi böylə qarqışa?
Hər gecə röyamdan çıxıb gəlirsən,
Həsrətin evini yıxıb gəlirsən.
Gizli sevgilərlə pıçıldaşırıq,
Sevda zirvəsini şövqlə aşıırıq.
Qollarım dolanır boynuna nalan,
Ey mənim qəlbimi eşqiylə alan?
Sənsiz yoxdu mənə bu həyat, bu can,
Qoyma varlığımı olsun yarımcan.
Acı göz yaşlarım könlümə axır,
Ağlımın evində şimşəklər çaxır.
Ələmdən, ağrıdan qəlb parça-parça,
Yükü düşür hər gün ağaran saça.
Qayıt, xilaskarım, gəl dön Vətənə,
Bu müdhiş ayrılıq əzabdı tənə.
Sənsiz sızıldayır könlümün başı,
Qayıt evimizə, ey can sirdaşı.
Qayıt, qəlb yarama məlhəm ol barı,
Ələnir başıma kədərin qarı.

Qayıt, boşalıbdı cahanım, sənsiz,
Qayıt, fəryad edir ünvanım, sənsiz.
Qayıt, röyalardan dön gerçəkliyə,
Qoy mən də əlvida deyim təkliyə!…

***

ÜÇÜNCÜ MƏKTUB

Necəsən, bir söylə könlüm atəşi?
Qaranlıq dünyamın parlaq günəşi.
Qəlbini titrətmir ürək harayım,
Odur ki, sinədən püskürür vayım.
Dağları, daşları ağladır necə?
Mənim əzablarım sənə əyləncə.
Bəlkə də belədir, bəlkə isə yox,
Tural, yalvarıram günahlardan qorx.
Dön gəl komamıza, gurlasın həyat,
Sənin işığında parlasın həyat.
Oğlumuz böyüyür hicran içində,
Mən eşq bəsləyirəm bu can içində.
Nədir cəlb eləyən qəlbini orda?
Hissim, həyacanım atəşdə, qorda.
Uşaq ata deyir, axtarır səni,
O körpə qəlbinə ələmə çəni.
Oğul atasından götürər fayda,
Cahanda belədir əzəldən qayda!
Qayıt, atəşinlə isit körpəni,
Uşaqla dam altda tək qoyma məni…

***

Məktublar yetişdi Turala bir gün,
Fəqət, ürəyində qoparmadı ün.
Oturub, durduğu adamlar onun,
Geydirmiş əyninə hiylə şər donun.
Nəşədən alırdı saf məhəbbətin,
Nəşə əsir etmiş, almış qüdrətin.
Dumanlı beyniylə düşündü xeyli…
Bu sərxoş həyatdan üzmədi meyli.
Məktublar içində sözlər ağladı,
Oxudu, utandı, gözlər ağladı…
O layiq deyildi bu məhəbbətə!…
Bir anlıq özünü çəkdi xəlbətə,
Sızladı gizlicə ötən günlərə,
Ömrün saflığında itən günlərə.
O sevda həvəsi sozalıb getmiş,
Eşqi də ömrüdək azalıb getmiş.
Ürək əvvəlkitək sevmirdi daha,
Onunçın cavabı tapmadı aha.
Məktublar töküldü döşəmə üstə…
Onun məhəbbəti canıtək xəstə.
Sanki, nalə doldu otağa birdən,
Düşdü üzü üstə yatağa birdən…
Hönkürdü, sədası aləmi qatdı,
İlahi, bu necə müdhiş həyatdı?

***

Artıq işləyirdi Ayişə daha,
Ümidlə baxırdı hər gün sabaha.
Atıb öz kəndini gəlmiş şəhərə,
Ürək dözməyirdi, çünki qəhərə.
Deyirdi, yarımdan bir soraq olar,
Həsrətin zəmisi saralıb-solar.

Atasız böyüyən oğul da qəmli,
Baxıışı suallar içində nəmli.
Yollara baxırdı ana və bala,
Gözləri qan-yaşla hey dola dola…

***

Atı yüyrək olur qara xəbərin,
Tökərək sabaha o, alın tərin,
Açdı Ayişənin qapısın qəfil,
Dedi: - öldü Tural, fəryad çəkdi dil!…
Gənc qadın yas tutdu bu müsibətə,
Hönkürdü, ağladı pak məhəbbətə!
Fələk xar eylədi saf niyyətini,
Dəfn etdi məzara səadətini!…

Meyidi gətirən dostu, yoldaşı,
Tökdü gözlərindən bu dərdə yaşı.
Dedilər, peşmanmış tutduğu işdən,
Səninlə etdiyi qanlı gərdişdən.
Ancaq qayıtmağa üzü yox imiş,
Xəstə vücudunda közü yox imiş.
Təəssüflə baxırdı ötən günlərə,
Geriyə qayıtmaz toy-düyünlərə.

Elə səhvlər var ki, düzəltmək çətin,
Ağrısı ölümdü acı niyyətin.
Bədəni bizlərə verən – Allahdı,
Onun can meyvəsin dərən – Allahdı.
Ayişə ağladı öz taleyinə,
Döndü ömrü, günü can gileyinə…

Qaldı yuxulara daha gumanı,
Bitib tükənmədi sevgi ummanı.
Röyalar içində bir saray açdı,
Hər gecə könlünə gizli vay açdı.
Unuda bilmədi eşq cəfasını,
Yuxuda axtardı can şəfasını.
Bircə təsəlləsi oğulu oldu,
Bala sədaqəti könlünə doldu.
Yeganə balası son qoyub vaya,
Elə bənzəyir ki, oğul ataya.
Baxışı, duruşu, yerişi onun,
Qəfil təbəssümü, gülüşü onun.
İlahi sevdanı vay verib ona,
Eşqindən bir oğul pay verib ona.

Ayişə unudub eşqli həyatı,
Qəm ilə çürüdür gələn saatı.
Uşaqda axtarır can qüdrətini,
Röyada yaşadır məhəbbətini…

17-18 / X11. 2003

M A H N I L A R

BELƏ OLMAZ , ZALIM YAR

Bu gecə – uzun gecə,
Dözüm həsrətə necə?
O can alan xəyalın
Çəkilib getməz becə.

Fəna olub halım yar,
Belə olmaz, zalım yar.

Səni könlümə saldım,

Salıb qəlbini aldım,
Əğyara tuş olalı
Dəli sevdanla qaldım.

Həsrətim, vüsalım yar,
Belə olmaz, zalım yar.

Könlüm ulduza dönüb,
Bir sınıq saza dönüb,
Sönüb odum-ocağım
Otağım buza dönüb.

Bu dağlamı qalım, yar?
Belə olmaz, zalım yar.

Düşmüşəm yaman oda,
Başımdan getməz qada,
Səni məndən ayıran
Gün ğörməsin dünyad!

Dərd bəlanı alım yar,
Belə olmaz zalım yar.
6. 03. 2003

MƏN SƏNİ AŞİQ BİLDİM

Mən səni aşiq bildim,
Könlümə işıq bildim,
Qəlbə sarmaşıq bildim,
Gəlmə bizə yar,
Çıxma üzə yar.

Naz ilə ötmə belə,
Qurbanam qara telə,
Vuruldum sənə belə,
Dili badam yar,
Ölür adam yar.

Səni canda bəslərəm,
Gecə-gündüz səslərəm,
Həsrətini həslərəm,
Bənzər gülə yar,
Üzə gülə yar.

Şadiman sənə kölə,
Qoyma dərdindən ölə,
Qəlb yandı, döndü külə,
Yanar adam yar,
Gəl al qadam yar.
6. 03. 2003

CAN İÇİNDƏ CAN BƏSLƏRƏM

Can içində can bəslərəm,
Canı canda gəl arama.
Həsrətini qəfəslərəm,

Ayrılığa tel darama.

Açılmayır müşküllərim,
Ocağımda var küllərim,
Saralıbdı qəlb güllərim,
Hicran deyir nə qarama?

Gəl, əzizim, sevda çağı,
Çək hicrana ələm dağı,
Sevgim olub tut yarpağı,
Sən də ona ol barama.

Şadimana vurma cida,
Məhəbbətin könlə qida,
Qoyma eşqi kədər uda,
Məlhəm eylə bu yarama.

1. 04. 2003

CANIMIN YARI YARIM

Canımın yarı yarım,
Könlümə yarı yarım,
Dünya gözəllə dolu
Mənimlə qarı yarım.

Nazla gəlişə qurban,
Əsmər gülüşə qurban,
Əl vurma sındırarsan
Ürəyim şüşə, qurban.

Ağlatma canı yarım,
Hicrandı yanı yarım,
Həsrəti qonaq edib
Qaraltma qanı yarım.

Dünyanın özü gözəl,
Ocağı, közü gözəl,
Yarın könlü bir yana,
Can alan gözü gözəl.

Canıma can ol yarım,
Qəlbdən qəlbə yol yarım,
Sarmaşıqtək boynuna
Dolanıbdı qol yarım.

Həsrət bir dərin quyu,
İçsən yandırar suyu,
Sənə yastıq nə lazım?
Könlüm içində uyu.

Şadiman sənə aşiq,
Eşqin ömrümə işıq,
Bu sevda şərbətindən
Gəl içək qaşıq-qaşıq.

4. 02. 2003

İKİ QƏLB ARASINDA

İki qəlb arasında
Ziyafətdi, ziyafət.
Dərman var yarasında
Dəyanətdi, dəyanət.

Ürəkdə söz çağlayır,
Duyğum, hissim ağlayır,
Qəlbi eşq varaqlayır,
Ziyarətdi, ziyarət.

Demə könül sovuldu,
Nəş'ələrim ovuldu,
Eşqim qəlbdən qovuldu,
Xəyanətdi, xəyanət.

Hər duyğuda can yatır,
Min bir həyacan yatır,
Arada hicran yatır…
Cinayətdi, cinayət.

Qəlbi ahla dəlmisən,
Ahımla yüksəlmisən,
Sən yuxuya gəlmisən,
Səyahətdi, səyahət.

Qəmimlə oylanırsan,
Bu dərdlə vaylanırsan,
Könlümdən boylanırsan,
Qiyafətdi, qiyafət.

Qopdun ürək odumdan,
Bu dəli fəryadımdan,
Çıxmayırsan yadımdan…
Qiyamətdi, qiyamət.

20. X11. 2004

BƏS HARDASAN, YAR?

Ürəkdə sözüm,
Ağlayır gözüm,
Heç gülmür üzüm,
Könüldə qəm var,
Bəs hardasan, yar?

Sabahım açmır,
Xəyalım uçmur,
Gözümdən qaçmır,
Dünya mənə dar,
Bəs hardasan, yar?

Küləklər əsdi,
Səbrimi kəsdi,
Həsrətin qəsdi-

Etdi könlü zar,
Bəs hardasan, yar?

Əzabım bitmir,
Harayım yetmir,
Hicranım ötmür,
Oldu adım car,
Bəs hardasan, yar?

Ürəyim qəmdə,
Ahım var dəmdə,
Mən bu aləmdə,
Olmuşam səyyar,
Bəs hardasan, yar?

Qəlb qəmə enməz,
Bu yoldan dönməz,
Atəşim sönməz,
Etmə eşqi xar,
Bəs hardasan, yar?

Şadiman sərxoş,
Həsrət ona xoş,
Sanma könlü boş,
Can canı duyar…
Bəs hardasan, yar.
30. X11. 2004

GƏL KÖNÜLLƏ PEYMAN ELƏ

Gəl könüllə peyman elə,
Peymanını can istəyir.
Duyğulara iman elə,
İmanını an istəyir.

Bu ayrılıq necə sitəm?
Salır qəlbə ayla matəm,
Dadsan verir bir acı təm,
Hər gün savaş, qan istəyir.

Əlin məndən üzən zalım,
Ayrı sevda gəzən zalım,
Hicran gəlir bəzən, zalım,
Eşqin əcəb şan istəyir.

Necə tapım dərdə çarə,
Şadimanın könlü yarə,
Gətiribən onu zarə,
Ürəyi şan-şan istəyir.
28. 02. 2004

EY SULTANIM, BİR DÖN MƏNƏ

Ey sultanım, bir dön mənə,
Bu eşq ilə peyman edək.
Cani-dildən deyim sənə,
Əhdi qılıb iman edək.

Ayrılıq çox əziyyətdi,
Onunla gün nə zillətdi?
Ürəyimdə dərd illətdi,
Gəl bir ona dərman edək.

Həyan yoxdu cəlalıma,
Ürək sökən əhvalıma,
Can üşüdən bu halıma,
Gəl bir yerdə aman edək.

Ey sultanım, bu nə suçdu?
Viran könlüm qəmdən uçdu,
Demə, dildə sevgi puçdu,
Qəlbimizə fərman edək.
13. 03. 2005

ÜRƏYİMİ AL APAR

Gəl ey könül diləyi,
Çox incitmə ürəyi,
Sənsən eşqin mələyi,
Canımda tufan qopar,
Ürəyimi al apar.

Duyğumun sədasısan,
Könlümün nidasısan,
Bəxtimin qidasısan,
Bu ruhum səni tapar,
Ürəyimi al apar.

Dilimdə söz ovulur,
Sinəmdə köz ovulur,
Yolunda göz ovulur,
Can sənə tərəf çapar,
Ürəyimi al apar.

Düşmüşəm yaman oda,
Başımdan ötmür qada,
Qəm məni verib bada-
Həsrətə saray yapar,
Ürəyimi al apar.
17. 04. 2005

YAR GƏLSİN

Nə gecəm, gündüzüm,
Gülməyir heç üzüm,
Baxır yola gözüm,
Gün olub dar gəlsin,
Gəlirsə, yar gəlsin.

Sevdalı günlərim,
Sədalı ünlərim,
Hələ düyünlərim,

Vəfası var gəlsin,
Gəlirsə, yar gəlsin.

Gecəmi ah elə,
Ahı günah elə,
Günü sabah elə,
Harayım car gəlsin,
Gəlirsə, yar gəlsin.

Qəmi hicri mənə,
Dərdi mücrü mənə,
Budu əcri mənə,
Ürəyim zar gəlsin,
Gəlirsə, yar gəlsin.
24.10. 2005

MƏNƏ SARI BAXAN YAR

Mənə sarı baxan yar,
Ürəyimi yaxan yar,
Bir kəlmə söz deməmiş,
Şimşək təki çaxan yar.

Qəmimi edam elə,
Könlünü sevdam elə,
Baxışı almaq üçün
Dilini badam elə.

Zaman axır sel təki,
An ötüşür yel təki,
Qırılır saatlarım-
Saçımdakı tel təki.

Üzü bəri gələn yar,
Hər ağrımı bilən yar,
Məni burda tək qoyub
Özgələrlə gülən yar.

Gəl hicrə vida deyək,
Sevgiyə qida deyək,
Ya gülən, ya ağlayan,
Bu eşqə sevda deyək.
25. X. 2005

CANLAR ALAN VƏFADARIM

Canlar alan vəfadarım,
Bir can aldın bəs deyilmi?
Ürəyimdən qopub düşən
Fəqan vurmuş səs deyilmi?

Ayrılığa yol eylədin,
Hicranları bol eylədin,
Dərdə imza-qol eylədin,
Bu könlümə qəsd deyilmi?

Sevdalandım eşqin ilə,
Həsrətinlə düşdüm dilə,
Möhlətin ki, çəkdi ilə,

Qəlbdə başqa kəs deyilmi?

Yar gözünü yolda qoymaq,
Sinəsini qəmlə oymaq,
Əhd eyləyib əhddən doymaq,
Sevdiyinə nəs deyilmi?

Mən ki, səni canım bildim,
Həyatda xoş anım bildim,
Qəlb təki ünvanım bildim,
Bu sevdaya əs deyilmi?
26. 01. 2006

MƏNİM TƏKİ YAN BARI

Mən sənin bu eşqini,
Ürəyimdə bəslədim.
Həm gündüz, həm də gecə,
Elə səni səslədim.

Duyğularım ah dedi,
Sənsiz eşq günah dedi,
Həsrət yar isə mənə,
Açılma sabah dedi.

Bu vəfalı sinəmi
Yüklədim kədər ilə.
Gözdə könlümün qəmi,
Barışdım qədər ilə.

Mən sevdanın üzündən,
Küsdüm öz taleyimdən.
Düşdüm qəlbin gözündən,
Bu qədər gileyimdən.

Gəl bunu bir an barı,
Gedir əldən can barı,
Ömründə bircə dəfə-
Mənim təki yan barı.
26. 01. 2006

ÖZÜNÜ MƏNƏ YETİR

Ürəyim ah içində,
Ahı sabah içində
Dilimdə adın gəzir,
Adın günah içində.

Məhəbbət belə olmaz,
Yoxdursa qəlbə dolmaz,
Xəzan düşməsə bağa
Ordan bir çiçək solmaz.

Dolan gəl bizim elə,

Ayrılıq olmaz belə,
Gözümü gurşad tutdu,
Dolandı döndü selə.

Sevdamız paralanddı,
Sinəmiz yaralandı,
Hicran küləyi əsdi,
İki qəlb aralandı.

Eyvana çıxıb baxdım,
Eli yandırıb-yaxdım,
Gülmədi heç üzümə
Mənim bu qara baxdım.

Ürəkdə hicran bitir,
Gülləri saçır ətir,
Gözüm səni axtarır,
Özünü mənə yetir.
26. 01. 2006

AYRILIQ SALDI YAMAN

Ürəyimdə ah-aman,
Bürüyüb için duman,
Həsrətin üzü dönsün-
Ayrılıq saldı yaman.

Yar ikən əğyar oldun,
Xatirənlə var oldun,
Gözlərim baxa-baxa-
Bəs kimə sən yar oldun?

Alışdım yandım belə,
Alovum düşdü elə,
Sevdanı çəkən bilir-
Çəkməyən bilməz belə.

Dilimdə sözüm yandı,
Ürəkldə közüm yandı,
Gözlərin baxdı gendən-
Alışdı gözüm yandı.

Məhəbbət candan gələr,
Ürəkdən, qandan gələr,
Qədrini bilməyəndə-
Fəryadı andan gələr.

Ürəyimdə ah-aman,
Bürüyüb için duman,
Həsrətin üzü dönsün-
Ayrılıq saldı yaman.
26. 01. 2006

SEVDALIM YAR

Dağlara qar yağdı, gəl,
Sinəmdə qəm dağdı, gəl,
Mən düşsəm də yatağa-
Ürəkdə eşq sağdı, gəl.

Ədalım yar,
Sevdalım yar.

Dilimdə adın gəzir,
Həsrət bağrımı əzir,
Sənin gəldiyin günə-
Eylədim könlü nəzir.

Ədalım yar,
Sevdalım yar.

Həsrətin qürbət ucu,
Ayrılıq salmaq suçu,
Ürəyim qan ağlayır-
Sanma, bu eşqi puçu.

Ədalım yar,
Sevdalım yar.

Dön gəl, bir bizə sarı,
Gün oldu daha yarı,
Ayrılıq salsa nifaq,
Unutma əhd-ilqarı.

Ədalım yar,
Sevdalım yar.
08. 02. 2006

SƏNİ SEVDİM

Düşməyir dildən adın bəs niyə?
Girməyir qəlbimə bir kəs niyə?
Ürəyimə edirsən qəsd niyə?
Səni sevdim, səni sevdim, səni,
Yar, səni sevdim, səni sevdim, səni.

Bu sevdaya bir kimsə düşməsin,
Həsrət ilən heç kim görüşməsin,
Ayrılıq sinəsini deşməsin,
Səni sevdim, səni sevdim, səni,
Yar, səni sevdim, səni sevdim, səni.

Taleyimiz nə qoşalaşıbdı?
Ürəyimə hicran dolaşıbdı,
Çeşmənəlib eşq qəlbdən aşıbdı,
Səni sevdim, səni sevdim, səni,
Yar, səni sevdim, səni sevdim, səni.

Şadimanın qəlbinə girmisən,
Hicranımın qollarını gərmisən,
Sevda gülün de hara sərmisən?
Səni sevdim, səni sevdim, səni,
Yar, səni sevdim, səni sevdim, səni.
10. 02. 2006

NƏ MÖHLƏTDƏ QOYDUN MƏNİ?

Nə möhlətdə qoydun məni?
Möhlət sənin, hicran mənim.
Tökdün könlə çiskin, çəni,
Çox üşütdü bu çən məni.

Gəldin, getdin yuxu kimi,
Gül üstündə qoxu kimi,
Qopdun yayın oxu kimi,
Yaman aldın nişan məni.

Bu sevdaya düşən gündən,
Qəlb qurtulmur heç düyündən,
Həsrət çıxmır bu eyindən,
Edir hər gün şan-şan məni.

Gəl üzünü göstər mənə,
Niyə gərək astar mənə?
Hicran möhnət istər mənə,
Etsin yaxşı ünvan məni.

Şadimanı sanma naşı,
Getmir qəlbdən an təlaşı,
Tök ətəkdən daha daşı,
Sənsiz üzür hər an məni.
12. 02. 2006

NAZLI YARIM

Nə, nazlı yarım, gəzirsən?
Yenə könlümdə, könlümdə.
Var məhəbbətim sezirsən-
Sənə könlümdə, könlümdə.

Nə incidirsən ürəyi?
Coşdur şahanə diləyi,
Sənə tərəf eşq mələyi-
Dönə könlümdə,könlümdə.

Qəlbimin dini, imanı,
Ötə bu həsrət dumanı,
Qoyma, yer versin zamanı-
Çənə könlümdə, könlümdə.

Əsən yelləri oynatma,
Sinəmdə qəmi qaynatma,
Deyirsən, eşqi oynatma-
Mənə, könlümdə, könlümdə.

Ayrılıq aldı nə huşu?
Şadiman olub qəm nuşu,
Ay uçub gələ bəxt quşu-
Enə könlümdə, könlümdə.
20.02.2006

BAXA-BAXA

Bu yar yenə sevdalanıb,
Yaxır elə baxa-baxa,
Niyə görə ədalanıb?
Üzür belə baxa-baxa.

Alıb əldən ağlı-huşu,
Uçub gedib sevda quşu,
Bu ürəyim uçulmuşu,
Verir yelə baxa-baxa.

Dəydi könlə hicran oxu,
Məhəbbətin bir xoş yuxu,
Çiçək təki getməz qoxu,
Düşüb telə baxa-baxa.

Şadimanı bilmə naşı,
Eylə məni can sirdaşı,
Axır qəlbə gözüm yaşı,
Dönüb selə baxa-baxa.

20. 02. 2006

SEVDALI KÖNLÜMƏ DÜŞDÜ MƏHƏBBƏT

Sevdalı könlümə düşdü məhəbbət,
Gah hicran gətirdi, gah da səadət,
Həm səcdə eylədim, həm də ibadət,
Ürəyi çalxatdı tufanlar kimi,
Zülümü çox oldu divanlar kimi.

Mən öz səbirimə heyrət eylədim,
Vədimi tutmağa qeyrət eylədim,
Bu böyük eşqimə izzət eylədim,
Gözümü ağlatdı leysanlar kimi,
Zülümü çox oldu divanlar kimi.

Gecə də, gündüz də anımda oldu,
Mən hara getdimsə yanımda oldu?
O sevgi mələyi canımda oldu,
Aldı vücudumu ümmanlar kimi,
Zülümü çox oldu divanlar kimi.

Sevdalı könlümdən çıxmadı, heç vaxt,
Qoyduğu qanuna baxmadı, heç vaxt,
Könlümtək bir könlü yıxmadı, heç vaxt,
Mənə eşq gətirdi zamanlar kimi,
Zülümü çox oldu divanlar kimi.

10. 03. 2006

UÇUB GEDƏN XƏYALIM

Ruhumun gözü qaldı,

Səni mələklər aldı,
Alıb qoynuna saldı,
Necə olacaq halım?
Uçub gedən xəyalım.

Dağa-düzə hay saldım,
Ürəyimə vay saldım,
Göz yaşımdan çay saldım,
Nə tez ötdü vüsalım?
Uçub gedən xəyalım.

Gecələrim ahladı,
Bu ahla günahladı,
Yatmayıb sabahladı,
Bitmədi qeylü-qalım,
Uçub gedən xəyalım.

İblismi uddu səni?
Ya hara atdı səni?
Yalana satdı səni,
Tükənmədi mələlım,
Uçub gedən xəyalım.

Sən ki, sevda quşuydun,
Onun ağlı -huşuydun,
Niyə belə naşıydın?
Duyğuları həyalım,
Uçub gedən xəyalım.

Şadimanı tutmadın,
Oduna od qatmadın,
Harayına çatmadın,
Mələküzlü misallım,
Uçub gedən xəyalım.
22. 04.2006

AY GECƏ ÜSTƏ SAÇDI YAR

Ay gecə üstə saçdı, yar,
Gözümdən yuxum qaçdı, yar,
Söküldü göydə dan yeri-
Bağçada güllər açdı, yar.

Mən ki, sənə can demişəm,
Ayrılığa qan demişəm,
Çəkdirmə həsrət cəfası-
Bu ürəyə yan demişəm.

Eşqidən ürək güldü, yar,
Həsrət qüssədən öldü, yar,
Göz alıb sevda yuxusu-
Sevinc yaşları göldü, yar.

Baharın xoşdu pəh-pəhi,
Quşların gəlir cəh-cəhi,
Bu ürəyimdə duyğunun-

Zilə çıxıbdı qəh-qəhi.

Dön Şadimana, sevdalım,
Az et nazını, ədalım,
Aləmdə var eşq sədası
Sən də qulaq ver, nidalım.
27. 04. 2006

QOYMA QƏMDƏN ÖLƏK YARIM

Ürəyimdə duyğularım,
Gəl birlikdə bölək, yarım.
Gecə-gündüz qayğılarım,
Tufan salan külək, yarım.

Bu gözlərim pərvanədir,
Baxışına divanədir,
Qəlbim ki, var viranədir,
Həsrət edib ələk, yarım.

Gen dünyada safım, pakım,
Təmizliyə ey hələkım,
Qoyma artsın can mərakım,
Ey işvəkar mələk, yarım.

Dağlar qədər ucalığın,
Könül açan xoş qılığın,
Kəs yolunu qocalığın,
Eylə ona kələk, yarım.

Hər günümü sən eylə şad,
Qoy ürəyi olsun dilşad,
Könlüm çılğın, təbim gurşad,
Bir ilhama gələk, yarım.

Söylə mənə nə divandı?
Atdın qovu – könül yandı,
Ölən ürək, çıxan candı,
Demə edib fələk, yarım.

Şadimanın can sirdaşı,
Gəl ətəkdən tök bir daşı,
Alcalanıb gözüm yaşı,
Qoyma qəmdən ölək, yarım.
7. 05. 2006

YARİ-VƏFADAR

Yari-vəfadar,
Sənsiz dünya dar,
Sənə könlüm var.

Duyğum coşanda,
Nəğmə qoşanda.
Var olur can da
Qoşalaşanda.

Yari-vəfadar,

Sənsiz dünya dar,
Sənə könlüm var.

Yox ömrü-günü,
Dərd ona günü.
Yetməyir ünü,
Gəl aç düyünü.

Yari-vəfadar,
Sənsiz dünya dar,
Sənə könlüm var.

Bu qış qaçdı gəl,
Yaz gül açdı gəl,
Günəş saçdı gəl,
Sevdam acdı gəl.

Yari-vəfadar,
Sənsiz dünya dar,
Sənə könlüm var.

Şadiman yandı,
Rozmadı andı,
Arada qandı,
Bu çıxan candı!

Yari-vəfadar,
Sənsiz dünya dar,
Sənə könlüm var.
9. 05. 2006

EY FƏSLİ-BAHARIM

Ey fəsli-baharım,
Ey çıxdı-aharım,
Ey dünyəvi-varım,
Ey gülüzli-yarım.

Göydən nur ələndi,
Aləm təzələndi,
Canım, ürəyim yar,
Sevgiyə bələndi.

Ey günəş saçıb gəl,
Ey güllər açıb gəl,
Ey könül uçub gəl,
Ey ahı biçib gəl.

Atəşdədi canım,
Artıbdı divanım,
Hey çəkir zabanə
Tən içrə canım.

Ey ömür-zəhərim,
Ey gözdə qəhərim,
Ey könül bəhərim,
Ey sübhi-səhərim.
12. 05. 2006

SƏN EY KÖNLÜMÜN YARI

Gözlərim alışan şam,
Kim həsrət, kim alır kam?
Yandırır səhər-axaşam,
Məhəbbət bir cüt lalə,
Sevda dolu piyalə,
Həsrətdən çəkmim nalə,
Dur gəl, bir bizə sarı,
Sən ey könlümün yarı.

Axşam düşdü gəlmədin,
Göz yaşımı silmədin,
Bir halımı bilmədin,
Qanadlanıb diləyim,
Sevdalanıb ürəyim,
Sən ki, həyat dirəyim.
Burax qəlbdən ah-zarı,
Sən ey könlümün yarı.

Zaman aləmə çıraq,
Bir vermir səndən soraq,
Duyğular varaq-varaq,
Açır sinəmdə çiçək,
Gəlişin ola gerçək-
Eşqin şərbətin içək,
Gecə olubdu yarı,
Sən ey könlümün yarı.
22. 05. 2006

SANIMI ARA, GÜLÜM

Canımı ara, gülüm,
Canımda.(2)
Oxuyur, sevda dilim,
Anımda.(2)

nəqarət
Baxışın canım alır,
Məni kəməndə salır,
Ürəyim düşüb qalır,
Yanımda.(2)

Vurma qəm oxu mənə,
Bir sevgi oxu mənə,
Olmasın yuxu mənə,
Canım da.(2)

Ömürü qovur həyat,
Gah kədər, gah da büsat,
Əzəldən qaynar həyat,
Qanımda.(2)
12. 01. 2007

O TİTRƏK BAXIŞIN GÖZDƏN YAŞ SİLƏ

O titrək baxışın gözdən yaş silə,
Bağrımdan həm ağrı, həm tələş silə.

Oxuya könlümdən keçəni bir-bir,
Hicran acısına etməyə səbir.

Dağıda sinəmdən həsrət buzunu,
Yandıra ömrümdə bəxt ulduzunu.

Coşdura ümidlə diləyimizi,
Haqqa qovuşdura ürəyimizi,

Nə acı çəkirəm anlayıb bilə?
O titrək baxışın gözdən yaş silə.
12. 01. 2007

YOLUNU GÖZLƏMİŞƏM

Yolunu gözləmişəm,
Saatı izləmişəm,
Elə əzizləmişəm,
Qırdın qəm sapını sən,
Açmısan qapımı sən.

Bu Allahın baratı,
İşıq etdin həyatı,
Nurlanıb könül qatı,
Qanad açıb diləyim,
Ey istəkli mələyim.

Nəş'əm tutub aləmi,
Unutmuşam ələmi,
Salıb eşqə qələmi,
Bunu dastan edirəm,
Və gülüstan edirəm.

Vermədin könlə cəfa,
Eylədin eşqə vəfa,
Ey ürəyimə şəfa,
Qalmışam hicran ilən,
Şadiman yar can ilən.
13. 01. 2007

DƏRDLƏRİMİN DƏRMANI

Sinəmdə var diləyim,
Səni gəzir ürəyim,
Ey istəkli mələyim?
Gətir vüsal zamanı,
Dərdlərimin dərmanı.

Bağçadan ayaz qaçıb,
Bağ-bağat da gül açıb,
Sinəmdən könül uçub,
Özün ver bir fərmanı,
Dərdlərimin dərmanı.

Yollardan gələnim var,
Həsrəti bölənim var,
Dərdimdən ölənim var,
Aparıb din-imanı,
Dərdlərimin dərmanı.

Süfrəmiz saçaq-saçaq,
Üzü Günəşə açaq,
Şadiman yanan ocaq,
Kabab, ahı-amanı,
Dərdlərimin dərmanı.
13. 01. 2007

OXUYUR SEVDA QUŞU CANIMDA

Könüldə duyğularım oynayır,
Qəlbimin alovuyla qaynayır,
Niyə bəs ürəyimlə oynayır?
Onun öz sevgisi var qanımda,
Oxuyur sevda quşu canımda.(2)

Gecəmin zülmətinə çıraqdır,
Ağrıdan, əzablardan iraqdır,
Eşqimin ülfətindən soraqdır,
Mən onu görməmişəm yanımda,
Oxuyur sevda quşu canımda.(2)

Vəfalı sevgili yar baratdı,
Bu yarın səadəti həyatdı,
Kim ki, bu dünyada eşqə çatdı-
İlahi diləyi var anımda,
Oxuyur sevda quşu canımda.(2)

Şadiman ağrıya şan verməsin,
Könlünü ona nişan verməsin,
Əzrayıl gəlsə də can verməsin,
Tanrıdan mükafatdı canım da!
Oxuyur sevda quşu canımda.(2)
14.01.2007

GECƏLƏR, AY GECƏLƏR

Yenə edir qeylü-qal,
Tutulur əhvalı-hal,
Doğurur min bir sual,
Qanad açır necələr?
Gecələr, ay gecələr.

Könlü çəkib aparır,
Sanki tufan qoparır,
Ürəyi hicran sarır,
Sinədə qəm gecələr,
Gecələr, ay gecələr.

Ayı-ulduzu çıraq,
Düzülüb varaq-varaq,
Sabahdan verir soraq,
Şehi yuyur küçələr,

Gecələr, ay gecələr.

İlhamım mələk təki,
Dolaşar dilək təki,
Alışar ürək təki,
Ruhum kimi incələr,
Gecələr, ay gecələr.

Gözümdən yuxu qaçar,
Təbimlə birgə uçar,
Gəlib qapımı açar,
Göydə, yerdə dincələr,
Gecələr, ay gecələr.

Şadimana etmə naz,
Oxşasın könlü avaz,
Qəlbimə eşqini yaz,
Sanma ki, əyləncələr,
Gecələr, ay gecələr.
13. 01. 2007

EYVAH, ÜRƏYİM OD TUTUB ATƏŞLƏRƏ YANDI

BAXMAYIIR İNSAFA HEÇ CANDAN ALIR CAN QOCALIIQ

Baxmayır insafa heç candan alır can, qocalıq,
Qoymayır dünyada ki, bir elə ünvan, qocalıq.

Fələyin əmrinə hazırdı sala təni dala,
Elə tən yiyəsi yox etməyə divan, qocalıq.

Düşürüb taxtdan əcəb hakimi-sultanı, şahı,

Eləməz dərdə dəva, işi, gücü qan, qocalıq.

Göz baxar, üz qırışar, taqəti olmaz ürəyin,
Elə naləyə düşər təndə ki, hər yan, qocalıq.

Qalar möhtaca ürək, qəminə çarə edəsən,
Yaraşar sənə elə dünyada ad-san, qocalıq.

Elə hünər yiyəsi de mənə, yıxmasın onu,
Necə haldan düşürər buza dönər qan, qocalıq?

Sənə möhtac olana o səni möhtac eliyər,
Olsa min canın əgər, eyləyər bircan, qocalıq.

Elə zalım fələyin əmrinə əsir olalı,
Ağlayır bəni-bəşər, əlində yaman qocalıq.

Şadimana, ürəyin qanə dönübdü nə edim?
Salıb ata, anavu verməyir aman, qocalıq.

23. 05. 2002

NƏ GƏRƏK Kİ, BU QƏDƏR ÇƏKƏSƏN ƏZABI, BƏŞƏR

Nə gərək ki, bu qədər çəkəsən əzabı, bəşər?
Kəsilibdi ahına yerlə-göyün tabı, bəşər.

Səni Xilqət yaradıb Adəmi qəhr etmək üçün,
Kinin aləm götürüb, dildə zəhər qabı, bəşər.

Ağrına, acına yaşlar axıdır göydə fələk,
Yoxdu bir ürəyinin dünyada heç babı, bəşər.

Min cürə rənglərə tutdun sinənin içini sən,
Qarə görür ya gözün, ya yaşıl, ya abı, bəşər.

Dərd çəkib məzarına aparır hey gündüzünü,
Günün gah atı qovur, gah da axsaq yabı, bəşər.

Tərəzinin gözünü əymisən öz əlin ilə,
İtib ağlından elə Allahın hesabı, bəşər.

Çoxu dinlərə baxır qanlı savaşlar üçün,
Çəkir ərşə fəqanı haqqın hər kitabı, bəşər.

Niyə Xilqətə tərəf baxmayır adəm uşağı,
İmanı kində boğur, başlar olub babı, bəşər.

Kim edib qul zamanın haqqına divanəliyi?
Gələr bir gün yetişər haqqın inqilabı, bəşər…

Şadimanı niyə bəs qoymadı gülməyə həyat?
Göstərə üzünü iblis, ata niqabı bəşər.

21. 08. 2003

YENƏ YAZ GƏLDİ GÜLÜR ÜZÜ VƏFANIN, BƏRİ GƏL

Yenə yaz gəldi gülür üzü vəfanın, bəri gəl,

Etməz heç hicrə sitəm indi cəfanın bəri gəl.

Atəşin könlə düşüb, günəşi heyrətdə qoyub,
Dunyada bir yeri yox nə bivəfanın, bəri gəl?

Səni Xaliq yaradıb eşqini məndə tapasan,
Çəkməyən məlhəmini bilməz səfanı, bəri gəl.

Bizi atəşə salan üzü də verər vüsalı,
Loğmanım yet könlümə, bul bu şəfanı, bəri gəl.

Açma heç qapını sən, dəyişər həsrət donunu,
Biçirlər cövrə düşənlər qiyafəni, bəri gəl.

Şadiman həm gecə, həm sübhü-sabah etdi nəzir,
Xilqətim hifz eləmiş bunca urfanı, bəri gəl.

5. 03. 2003

YENƏ KÖNLÜN İÇİNİ YAR ELƏ SEVDAYA SALIR

Yenə könlün içini yar elə sevdaya salır,
Eləyir eşqini car, könlümüzü vayə salır.

Yanıram atəşinə, çox çəkirəm xiffətini,
Mənə hicran gətirir, ürəyimi vayə salır.

Gecələr ərşə çəkir uyğumu həsrət əzabı,
Necə rəvadı bulur, canımı bu vaya salır?

Eşqə düşənlərə kim tapdı ki, cahanda dəva?
Mən taleyi kəmi yar, bir belə sevdaya salır.

Necə sultan elədi bağrıma hər kədərini?
Qovur can duyğumu ya, dəli axan çaya salır.

Deyirəm könlə, belə fitvasına uyma yadın,
Eləyir dilimi lal, başıma bir qaya salır.

Almayır zövqü-səfa, Şadimana, hicrə düşən,
Çevirib qəmi dağa, hər ahını aya salır.

8. 01. 2003

YENƏ GÖRDÜM ÜZÜVÜ, ÜZÜVƏ QURBAN MƏN OLUM

Yenə gördüm üzüvü, üzüvə qurban mən olum,
Gözüvün atəşi pak, gözüvə qurban mən olum.

Məşğul etmə ürəyi, bu qədər öz eşqin ilə,
Qalmayıb taqətim heç, sözüvə qurban mən olum.

Vurursan dəryaya baş, incimi tapmaq niyətin?
Dilüvün nitqi gözəl, sözüvə qurban mən olum.

Yenə könlüm içini tutmusan atəş oduna,
Elə şö'lə saçırsan gözüvə qurban mən olum.

Eləmə, Şadimana heç vədə hicran cövürü,
Salmısan könlümə iz, izüvə qurban mən olum.

5. 01. 2003

ŞAİR OLANIN, RUHUNA QANAD GƏRƏK OLSUN

Şair olanın ruhuna qanad gərək olsun,
Misrasına, hər sözünə bir dad gərək olsun.

Heç etməyə ilhamını təhqirlərə məruz,
İblisliyə, yaltağlığa qəlb yad gərək olsun.

Allahı verən fitrətə yar etsin ürəyi,
Ya pərvanə başa, ağlı abad gərək olsun.

İslatmaya kağızını mürəkkəbə əbəs,
İnsanlığa hər könüldə imdad gərək olsun.

Milləti düşəndə dərdü-bəlalara nalan,
Səmalara bülbül təki fəryad gərək olsun.

Tutsun Vətənin şərəfini özündən uca,
Hər xeyrinə, həm seyrinə can şad gərək olsun.

Ey Şadiman, misralarının paklığın qoru,
Öləndən sonra yazdığına ad gərək olsun.

2. 02. 2003

EYVAH, ÜRƏYİM OD TUTUB ATƏŞLƏRƏ YANDI

Eyvah, ürəyim od tutub atəşlərə yandı,
Nurlara boyandı.

Canım, ciyərim ah ilə aləmləri sardı,
Cismimə vardı.

Hər dərd çoxalıb könülmü tutdu günah ilə,
Güldü sabah ilə.

Gözdəki yaşım axdı və səhraları tutdu,
Çeşməni unutdu.

Batdı harayım sinədə ulduzlara bənzər,
Qəm canımı gəzər.

İnsandan olan şeytanın hər üzü aşikar,
Qəlbi edər şikar.

Ağladı gözüm, könlümü tutdu acı yaşım,
Dərdi çəkdi başım.

Ruhu bürüyüb ahlara oxşar qara matəm,
Rəbbim bu nə sitəm? !…
Rəbbimi bu nə sitəm? !…

29. 05. 2003

EY SƏBA, HİCRANIMA CANDAN QOPAN AH İSTƏRƏM

Ey səba, hicranıma candan qopan ah istərəm,
Üz tutub dərgahına necə xoş sabah istərəm?

Açılan qönçələrin mə'nası yalnız eşqidir,

Çəkilən eşqə cəfa, nədən ki, günah istərəm?

Ürəyim dərdə batıb yoxdu canımda hünərim,
Ağrıma şəfa bulan ümmanda Allah istərəm.

Qəm odu yaxdı məni, sinəmdə atəş görünür,
Gözlərim haqqı gəzir, bu haqqa dərgah istərəm.

Günə öz dərdi həyan, bir kimsəyə yoxdu ümmid,
Ya eşqi zülüm bilib, ya qəmi, eyvah, istərəm,

Ey səba, bu Şadiman ağrıların əsiridir,
Ağlayan ürəyimə tar üstə segah istərəm.
19. X11. 2004

CAN EDİR CANA BƏLA, CANIVA NƏ CAN YARAŞIR?

Can edir cana bəla, canuva nə can yaraşır?
Getməyir canla yola, ona nə ünvan yaraşır?

Gözdən axan yaşıma olmadı bir çarə, təbib,
Eylədin zənn ürəyə qəm dolu divan yaraşır.

Ahımın naləsinə göydə uçan quş dayanır,
Niyə mən bəxti kəmə zülmü çəkən an yaraşır?

Çəksin öz pərdəsini fələklərdən qarə bulud,
Olmasın təkliyə yar, ki ona karvan yaraşır.

Köç edib harə gedir eşqə düşən dəli könül?
Salmasın qanə canı bu eşqə sarvan yaraşır.

Bulma Şadimana ah, ah canı dustaq eləyir,
Tök ciyərimi çölə daha sənə qan yaraşır!…
20. X11. 2004

EY KÖNÜL, ŞÖVQƏ GƏLİB CANIMA PEYMAN İSTƏDÜN

Ey könül, şövqə gəlib canıma peyman istədün,
Özüvü dərdə salıb, bu dərdə dərman istədün.

Salmadın sayə müdam, ömürdə bir saniyə məni,
Düşərək qövür odüna, sonra da səhman istədün.

Mən canın əsiriyəm, sən də cana yağı nədən?
Niyə öz düşmənüvü tənüvə mehman istədün?

Qarə yeltək əsirsən yox daha axşam, səhərim,
Düşürüb qəmə canı bu cana loğman isdədün.

Şadiman biçarənin Rəbbinə bol məhəbbəti,
Atıb onu alova sən ona iman istədün.
20. X11. 2004

FƏLƏYİN HÖKMÜNƏ BAX, HƏR İŞİ YAMAN ELƏYİR

Fələyin hökmünə bax, hər işi yaman eləyir,
Ağrını canda tapır, ağrıya iman eləyir.

Səf çəkir üstünə qəmlər qoşunu yağı sayaq,
Nə günahı var oxun, yaramı kaman eləyir?

Nəş'əyə yox gumanım, qəm dolu badə içirəm,
Batmışam öylə qəmə, qəm mənə aman eləyir.

Ahı, naləni mənə verməsə olmaz bu fələk,
Çün məni ah yaradıb, ah özü dərman eləyir.

Necə ki, qəm qoşunu viran edib can mülkümü,
Elə də taxta çıxıb, taxtıma fərman eləyir.

Şadiman, cövrə düşən bu ürəyin çarəsi yox,
İçib eşqin şərabın qəm ilə peyman eləyir.

17. 02. 2005

HƏR KƏSİN SEVDİYİNƏ YARİ VƏFADAR OLSUN

Hər kəsin sevdiyinə yari vəfadar olsun,
Könlünü eşqə salan bir gülüzlü yar olsun.

Demirəm, həsrəti çəkdirməyə canına cəfa,
Belə ki, sevdiyinə bu yolda ilqar olsun.

Başa tac etdiyini salmaya əyağa heç,
Çəkə həsrət qoşunun, lap günü ah-zar olsun.

Kimi bir qoydu fələk, nəş'əyə salsın nəzərin?
Qəmi hicranla qoşa verdi, ki o, car olsun.

Bizi atdı Yaradan dünyaya günaha görə,
Yaxa cəhənnəm odun, cənnəti gülzar olsun.

Şadimana, nədi bəs sevdiyinə qəm acısı?…
Tə'n edib könlünə yar, bu yolda bezar olsun.

17. 02. 2005

ÜRƏYİN MÖHNƏTİNİ TƏNLƏ GƏRƏK CAN ÇƏKSİN

Ürəyin möhnətini, tənlə gərək can çəksin,
Eşqə düşənin elə atəşini qan çəksin.

Zamanın hökmü belə ömrə salır ağrısını,
Bu yükü qoşqu təki çiynə salıb an çəksin.

Başda əsdikcə əsir, hər zaman hicrin yeli,
Elə cəfaları bəs, can da yarımcan çəksin.

Ağrının cövhəri var, cövhərə tut üzünü,
Diləyin arı təki çiçəyə min şan çəksin.

Hər zaman Şadimana etmədə zülüm fələyim,
Tutsun hicran gözünü, mənə tərəf qan çəksin.

17. 02. 2005

HƏR KƏSİN SEVDİYİNƏ EŞQİDƏ HİCRAN OLSUN

Hər kəsin sevdiyinə eşqidə hicran olsun,
Çəkə həsrət odunu hər cəfaya can olsun.

Sübhətək qanə düşən könlünə çarə arasın,
Alışan ürəyinin ruhu da büryan olsun.

Dadmayan hicr odunu, bilməz elə eşqi nədir?
O cümlədən də sevən bu dərdə nalan olsun.

Gecə-gündüz alışa ayrılığın əzabına,
Ahı göyləri tuta, aləmə e'lan olsun.

Nə vəfa eyləyər öz sevdiyinə yarı üçün?
Yoxsa hicrə hünəri, o sinə talan olsun.

Şadiman biçarəyə man etmə biganəliyi,
Düşməyib elə qəmə, bu qəmi yalan olsun.

17. 02. 2005

FƏLƏYİN MEHRİNƏ BAX, HƏR ANDA MİN QAN ELƏYİR

Fələyin mehrinə bax, hər anda min qan eləyir,
Ürəyi eşqə salır, bu eşqə hicran eləyir.

Qan olan ürəyimin mə'nası yalnız eşqidir,
Düşürüb çənə onu öylə yarımcan eləyir.

Düşməyən eşq oduna bilməz nədir cəfası?
Kim ki, yandı atəşə ona sitəm can eləyir.

Hər zaman sevdamızın ağrısına yandı könül,
Bəs nədəndir ürəyi hicr odu büryan eləyir?

Bizdən əvvəl də sevənlər yandılar atəşlərə,
Tutuşan qəm oduna ömrünü nalan eləyir.

Sanma, sevdanı hünər, çox bəlaya düçar edir,
Qəmi illərlə verir, nəş'əni bir an eləyir.

Şadimanın bulma gəl dərdinə çarə, ey təbib,
Yoxdu hicrinə əlac, o, qəlbi büryan eləyir.

17. 02. 2005

HƏR KƏSİN QİSMƏTİNƏ DƏHRDƏ BİR CAN YARAŞIR

Hər kəsin qismətinə dəhrdə bir can yaraşır,
Canla peyman eləyən hicr oduna an yaraşır.

Elə sərkəştəliyi qoymamışam cana yovuq,
Ki edə könlə zülüm, hər zülümə qan yaraşır.

Kimsənin eşqi məni yaxmadı səndən savayı,
Parə-parə qəlbimə indi də dərman yaraşır.

Məni divanəliyim saldı məhəbbət oduna,
Bir belə divanəliyə şəfai-loğman yaraşır.

Gəlir həsrət yuxusu gözümə etmir bir əlac,
Gecəni sübhə qədər əhd ilə peyman yaraşır.

Dağ ola çəkməz, əgər bir belə hicran yükünü,
Elə ki, mən çəkirəm bu yükə sərban yaraşır.

Şadiman, sanma belə kimsəni suçlu bu işə,
Özün etdin bunu bəs, etdiyinə man yaraşır.

18. 02. 2005

BİLMƏDİM BİR KİMSƏNİ KÖNLÜMƏ HƏYAN, KİMSƏNƏ

Bilmədim bir kimsəni könlümə həyan, kimsənə,
Düşmüşəm qəm oduna hicrində oyan, kimsənə.

Bir gəlib aha düşən halımı sorsan nə olar?
Hər gecəm atəşimin oduna əyan, kimsənə.

Ağlayan gözlərimin yaşına batdı yatağım,
Kimə bəs mən eləyim bu eşqi bəyan, kimsənə?

Hər səhərim alışır zülmətimin naləsinə,
Gəlginən sor halımı, bu dərdə dayan, kimsənə.

Hər kəsin öz aşiqi, öz könlünün sultanı var,
Nə edim sən olmusan könlümə şayan, kimsənə?

Hicir ağrısı kəsir qəlbimi, min neştəri var,
Gəl ovut sinəmi sən, halıma oyan, kimsənə.

Şadimanı etmədi, aləmdə eşqi bəxtəvər,
Necə ki, mən yanıram, sən də elə yan, kimsənə.

18. 02. 2005

ÖYLƏ BİR SİTƏMDƏYƏM AHIMDAN HİCRAN AĞLAYAR

Öylə bir sitəmdəyəm ahımdan hicran ağlayar,
Tutulub qəm oduna hər ləhzə bu can ağlayar.

Dərdimin çarəsini sormadım kimsədən,Xuda,
O cümlədən elə dərdin özü qan ağlayar!

Çeviribdi fələyim hər işimi tərsə niyə?
Hönkürüb müşgülümə hər səatda an ağlayar.

Dilimin ahına bax, göylərə bir lərzə salıb,
Qoşulub fəryadıma mənimlə hər yan ağlayar.

Məni heç mətləbimə yetirmədi bircə fələk,
Hasil olmayan kamım, ahıma büryan ağlayar.

Demirəm məndən savay bir kimsə yox qəmə düşən,
Bu qəmi mən çəkirəm, kim olsa əyan ağlayar.

Ey bəxtəvər, Şadiman, dərd sənə biganə deyil,
Qoymayır tənha səni könlüvə həyan ağlayar.
17.03. 2005

BAS QƏDƏMİN KÖNLÜMƏ EY RUXSARİ-CANIM MƏNİM

Bas qədəmin könlümə ey ruxsari-canım mənim,
Dili' rəvan, özü pak aləmdə ünvanım mənim.

Nə qədər cövr eləsən eyləmərəm şəkkə nida?
Hicrinlə gəlsə əgər bir öylə divanım mənim.

Səndən qeyri qəlbimi ram etməyi cəhd qılmasın,
Çün səninlə başlayır hər sübhüdə anım mənim.

Dərdə düşən könlümü eşqinlə eylərsən şəfa,
Ağrıyan ürəyimə səndəndir dərmanım mənim.

Canımın ayinəsi boylan bir sevdama sarı,
Səndən gəlir eşqimə pozulmaz fərmanım mənim.

Hər yetəni qəlbimə dünyada heç tay tutmadım,
Olmasan yar könlümə, qəm olar mehmanım mənim.

Şadimanı sanma ki, bir kimsəyə üzün tuta,
Öylə səcdəyə düşüb mehrində imanım mənim.
17. 03. 2005

QAR YAĞIR DUYĞUMU CANDAN ELƏYİR

Qar yağır duyğumu candan eləyir,
Könlümü necə şirin an eləyir?

Yerlə-göy arasına ağ tül atıb,
Üşüdür qəlbdə canı qan eləyir.

Bəyaz ulduzlara bənzər dənələr,
Tökülür başımıza şan eləyir.

Əsdirir ruhumu şimal küləyi,
Könlümə buzları nişan eləyir.

Hər tərəfə bələnib şö'lə təki,
Niskilimi neçə cür can eləyir?

Qarının bənzəri varmış mələyə,
Donunun hər naxışı yan, eləyir.

Şadiman fələklərə dik nəzərin,
Etdiyi möcüzə can, can eləyir.
17. 02. 2005

YENƏ GƏLDİN RUHUMU ŞAD ELƏMƏKÇİN, NOVRUZUM

Yenə gəldin ruhumu şad eləməkçin, Novruzum,

Yenə ağzımda şirin dad eləməkçin, Novruzum.

Sən mənim keçmişimin, tariximin şanlı izi,
Gəlmisən adətimi yad eləməkçin, Novruzum.

Açıb erkən qapımı nur tökürsən üz-gözümə,
Bu viran könlümü abad eləməkçin, Novruzum.

Düşüb sevdam qanıma, canımı atəşə salır,
Canda məhəbbəti gurşad eləməkçin, Novruzum.

Can alan məşəlinin şö'ləsi ərşə dikəlib,
İçdə pisliklərə fəryad eləməkçin, Novruzum.

Yayılır hər tərəfə şamlarının gur işığı,
Gecənin özünə imdada eləməkçin, Novruzum.

Tökürsən ürəklərin sən kini-küdurətini,
Hər cür incikliyi dilşad eləməkçin, Novruzum.

Mənim heç bir təntənə açmadı könlümü belə,
Cəhdi-qıl qəmimi naşad eləməkçin, Novruzum.

Gəl götür hər sinədən yamana nişanəliyi,
Pisliyin özünü bərbad eləməkçin, Novruzum.

Şadiman qüdrətüvün rəhminə verdi könlünü,
Hər zad ağrı-acıya dad eləməkçin, Novruzum.

20. 03. 2005

YANIR ÜRƏYİM AH İLƏ FƏQAN RASINDA

Yanır ürəyim, ah ilə fəqan arasında,
Hər ahıma şivən oxunur, an arasında.

Qanlara düşür, canım evi dərdin əlindən,
Gözdən tökülən yaşlarım al qan arasında.

Qarə gecəmin zülfünə şəbnəm tökülür ah,
Hər sübhümə tə'nə oxunur dan arasında.

Həsrətlərə düçar ürəyə çarə bulmadım,
Zülümlərə düşdün niyə mən can arasında?

Demə, bu Şadimanə heç peymanlığı yoxdu,
Qəlbilə təbi birləşib hicran arasında.

7. 06. 2005

SİNƏM ALIŞIR HİCRİNƏ, EY YAR, GECƏ-GÜNDÜZ

Sinəm alışır hicrinə, ey yar, gecə-gündüz,
Neylim ki, hicrində həyat var, gecə-gündüz?

Hər duyğumu nalə acısı yandırır ahtək,
Bu kürreyi-aləm gözümə dar, gecə-gündüz.

Səf-səf düzülür xatirələr qəlbin evinə,
Edir ürəyim eşqin ilə zar, gecə-gündüz.

Səndən qeyri yoxdu belə könlümə şayən,
Sənsiz ələnir atəşimə qar, gecə-gündüz,

Biganə bilib, Şadimanə arxa çevirmə,
Fəqanuva olub ürəyi car, gecə-gündüz.

11. 06. 2005

YANAR ÜRƏYİM DƏRDİN ƏLİNDƏN DİLƏ DÜŞDÜ

Yanar ürəyim dərdin əlindən dilə düşdü,
Ahım dikəlib ərşi-əladan zilə düşdü.

Fəqan elədim, ömrümə bir çarə arayım,
Dəmdən ötüşüb ağrılarım hər ilə düşdü.

Ağlar gözümün çeşmələrin dəryalar uddu,
Təşnə sinəmə dəryalarından gilə düşdü.

Heyran elədi qəmləri tə'nə milləri,
Çəkdiklərimin zülmü, sitəmi milə düşdü.

Hicran ələyir başıma hey cövrü-cəfasın,
Hər nə sitəm Şadimana dərd ilə düşdü?

12. 06. 2005

AĞLAR GÖZÜMÜN YAŞLARI BİR ÇEŞMƏYƏ BƏNZƏR

Ağlar gözümün yaşları bir çeşməyə bənzər,
Hər çeşmə içində bədənim hüritək üzər.

Səsim bürüyər ərşi-əlanı, qəmi bəla,
Ərşi-əladan ürəyim ruhumu gəzər.

Yerdən göyədək sevdalanıb uçmağa qadir-
Canım, bədənim qanad açıb aləmi bəzər.

Fələk təki heyrətdə olar bütümə mələk,
Ondan da gözəl könlə salar Rəbb özü nəzər.

Qəmə əyilən yoxdu bu Şadimandan savay,
Hər günü yüz yol eyləyər can tənə həzər.

13. 06. 2005

HARAY ELƏYİB SƏSİMƏ BİR XANƏ YARATDIM

Haray eləyib səsimə bir xanə yaratdım,
Hər ahımı, hər fəqanımı xanəyə atdım.

Canı qoparıb tənimi çox vaylara saldım,
Bu vaylar içindən dikəlib aləmi qatdım.

Hissi-bədənim canıma bir şeyda olurkən,
Ağrı-acımı nəş'ələdib bağrıma çatdım.

Göylərdən uca təbimə bir dəva aradım,
Təbin içindən yol açıb cövrünə yatdım.

Hər canın evi mən təki atəşlərə düşməz,
Atəşlər içindən özümün ruhumu daddım.

Hünər yiyəsi, rəhmə gəlib Şirinə söylə-
Hər ömrün özü Rəbbə yetən bir quru addım.
13. 06. 2005

CANIN YİYƏSİN CANIN ÖZÜ GÖRMƏSƏ OLMAZ

Canın yiyəsin canın özü görməsə olmaz,
Canına dəyən hər sitəmi gərməsə olmaz.

Candan tökülən ağrıların çeşməsi boldu,
Ağrı-acını çeşmələrə sərməsə olmaz.

Qəmlər bağının meyvəsi yetdi ki, vüsalə-
Bağın bəhərin bağ yiyəsi dərməsə olmaz.

Hicran acısı çəkməyənə vəfa nə lazım?
Əziyyətini ürəyə göndərməsə olmaz.

Vüsalın özü Şirinə bir hicir qapısı,
Hicran qapısın zülmətə göndərməsə olmaz.
14. 06. 2005

GƏLSƏN ELƏ GƏL KÖNLÜNÜ SEVDAYA TUŞ EYLƏ

Gəlsən elə gəl, könlüvü sevdaya tuş eylə,
Sevda acısın mən təki sən, cana nuş eylə.

Yoxdu elə gün, bir olum hicrində azadə,
Al canımı təndən, dolanan ərşə quş eylə.

Gözdən gələn hər ləhzəni ürəyə aparma,
Qəlbdən gətirib sadəliyi, beynə huş eylə.

Viran olanın könlünü, viranə yarıtmaz,
Ağlar ürəyin halını sor, günü xoş eylə.

Qatlaşmayacaq Şadimanın cövrünə kimsə,
Dərdin kələfin düynünə sal, onu boş eylə.
14. 06. 2005

HİCRAN ACISI KÖNLÜMƏ BİR NALƏ YARATDI

Hicran acısı, könlümə bir nalə yaratdı,
Canın evini nalələrin içinə atdı.

Fəryad elədim eşqin ilən mən gecə-gündüz,
Fəryadlar içində ürəyim sübhünə çatdı.

Hər zülmə düşən can yiyəsi mən təki olmaz,
Zülümlərə vərdiş edən pünhanlığa yatdı.

Azədəliyin cövrü-cəfasın çəkirəm çox,
Azədəliyim qəlbin içində belə batdı.

Hər sübhə xeyir cəhd elədim həsrətə erkən
Həsrətlərimdən sabahım ahı oyatdı.

Sevdalılığı Rəbbi verib Şirinə erkən,

Sevdalılığını ürəyi eşqinə qatdı.

14. 06. 2005

YOXDU SƏNDƏN SAVAYI, KÖNLÜMƏ MUNİS NƏ EDİM?

Yoxdu səndən savayı, könlümə munis nə edim?
Tərk eləmir heç məni hey dəli bir hiss nə edim?

Səni Xuda yaradıb qəlbimi ağlatmaq üçün,
Sanmayırsan bunu sən bircə kərə pis nə edim?

Döndərib, üzümü mən baxmayıram sənə sarı,
Bunu bir tənə təki zənn edirsən, küs nə edim?

Hamı ocağa baxır, atəşinə mehman üçün,
Bürüyübsə onu bəs çəkilməyən his nə edim?

Şadiman hər gecəni naləyə iftar eləyir,
Üzü min rəngə çalan hər sabahı mis nə edim?

24. X. 2005

YERLƏ GÖYÜ AH EDƏN…

Yerlə-göyü ah edən,
Bu ahla günah edən.
Nəş'əni anla verən
Ələmlə sabah edən.
Səndə Rəbb qorxusu yox,
Qəlbində gah-gah edən.
Tutan nahaq işləri,
Şəri qibləgah edən.
Vicdanına güzgü tut,
Sözündə hərgah edən.
Biz ki, Tanrı bəndəsi,
Dilin səcdəgah edən.
İblisə meydan verib,
Könlü mə'bədgah edən.
Yaxşını burda qoyub,
Yamanı Allah edən.
İşinin çəmi kəsir,
Özünü nə şah edən?
Ağlının xislətini,
Şeytana agah edən.
Yoxmu bir cövrünə son?
Pisliyi nəgah edən.
Uyub eşqinə şərin,
Şər ilə nigah edən.
Mərdi ki, darda qoyub,
Namərdə pənah edən.
Bəllidi hiylə donun,
Yetəcək bir gün sonun.
Yerlə-göyü ah edən,
Bu ahla günah edən…

17. 02. 2005

GƏLƏ BİR BAŞA AĞIL, BİZ DƏ BİR HÖRMƏTƏ ÇATAQ

Gələ bir başa ağıl, biz də bir hörmətə çataq,
Günü ağ, işi rəvan bəxtəvər millətə çataq.

Hamı azadəliyi dünyaya elan eləyib,
Biz də azadəliyi nuş ilə şöhrətə çataq.

Haramı dərdə salıb hələla verək rəvac,
Dəxi xalqlar içrə, hər cürə izzətə çataq.

Şeytan olmaq həvəsi hər kəsə ürcah oldu,
Şeytanı dəf eləyib o nurlu Xilqətə çataq.

İmanı dala atıb eyləməyək cana sitəm,
Biz də vicdan deyilən o gözəl nemətə çataq.

Üzü qibləyə sarı – xeyrə tutaq əlimizi,
Canı təndən eləyək, öylə ülviyyətə çataq.

Bir hovur tut başını, bu günün seyrinə dal,
Ya ki, heyvan sayağı ömrü-zillətə çataq.

Şadiman, Rəbbi sevən hər iki dünyaya təmiz,
Eşqə ver ürəyini, qoyma ki, illətə çataq.
8. 05. 2006

GƏRƏK İNSAN ÖZÜNÜ YAXŞIILIĞA SÖVQ ELƏSİN

Gərək insan özünü yaxşılığa sövq eləsin,
Etdiyi yaxşılığı, yaxşılığa zövq eləsin.

Verən o canı bizə, eşqə giriftar etdi,
Olub eşqə şüada, hər işini fövq eləsin.

Tənə can verdi Xuda sirrini izhara görə,
Ki canı verdiyi tək, almağı hər tövq eləsin.

Cəhi-cəlal əsiri olmağa tələsməyin heç,
Üzünü Həqqa tutub, haqqını çox rövq eləsin.

Şadiman, ver təbə öz eşqini bundan sonra,
Gətirib ruhu cana, aləmə min şövq eləsin.
9. 05. 2006

NƏ BƏLA GƏLSƏ CANA MÖHLƏTÜ-HİCRANDAN OLAR?

Nə bəla gəlsə cana möhlətü-hicrandan olar?
Elə bir aha salar, canın özü candan olar.

Bunu eşq əhli bilir, həsrətə bir çarə yox,
Edər ürəyə sitəm, ağrısı hər yandan olar.

Elə bir zülümü olar, fəryadı ahı deşər,
Sanki zaman dayanar, fələk özü andan olar.

Şadiman, eylə zikir, şivənə salma özünü,
Vermə bağrıını bada, çünki o da qandan olar.
9. 05. 2006

GEDƏRƏM HƏR GECƏNİ YUXUDA ALLAHA TƏRƏF

Gedərəm hər gecəni yuxuda Allaha tərəf,

Qovub şər əhli məni, yollamasın aha tərəf.

Dilim həqqı arayır, zülmətə yoxdu ümidim,
Yenə könlü aparır Yaradan sabaha tərəf.
Yanıram sübhə qədər röyaların təşnəsinə,
Ayrılır məndən ruh, gedir qibləgaha tərəf.

Yığıram dərdlərimi ürəyimin guşəsinə,
Yalvarım fikir evimə, atmasın gunaha tərəf.

Şadiman, bu fələyin atəşinə yandı könül,
Qopub təndən beləcə gedir səcdəgaha tərəf.
10. 05. 2006

EYLƏMƏ ZÜLMÜ MƏNƏ, EYLƏDİYİN BƏSDİ DAHA

Eyləmə zülmü mənə eylədiyin bəsdi daha,
Bağrımın rişəsini tişənişin kəsdi daha.

Bu canı çox elədim, yoluna qurban biləsən,
Nə edim, hicranın yetdi mənə qəsdi daha?

Bilirəm qeyrilərin ülfətinə eşqi nədir?
Üzə sevda oxudu, özgələrə əsdi daha.

Sənə amadəliyi, söyləməyə yoxdu dilim,
Məni amadə edən hər diləyin nəsdi daha.

Çoxları mehrə salır o dəli mehmanəliyi,
Eləmə mehrə sitəm, bu sitəm əbəsdi daha.

Zamanım ah ilədi, ahımı yox aha tutan,
Dolaşıb qəmə ilim, hər ilim sərməstdi daha.

Şadiman həsrətüvə, bir alışan şam gecələr…
Şamın atəşi tutub ürəyini, isdi daha.
10. 05. 2006

EYLƏDİM ZİKİR BUGÜN, YARI-VƏFADAR GƏLƏSƏN

Eylədim zikir bugün yarı vəfadar gələsən,
Ürəyim aha düşüb hər günü ah-zar, gələsən.

Məni hicran acısı hər gecəyə şam elədi,
Salıb zülmətə işıq, burda çıraq var, gələsən.

Ay çəkib üzünə tül göz yumub ulduzlar ona,
Eşqi-mehmanəliyi bildirib, ey yar, gələsən.

Şadiman höküm eləyib könlünə bu sadəliyi,
Sən də bu hökmə uyub, bugün harda var gələsən?
10. 05. 2006

BİR ZAMANLAR SƏN İDİN EŞQİ-BAHARIM, HARDASAN? !

Bir zamanlar sən idin eşqi-baharım, hardasan? !
Kabab oldu ürəyim, çıxdı aharım, hardasan?

Bir əlac etməyi layiq saymadın sən özüvə,

Ərşi ağlatdı ahım, ey dili-zarım, haradasan? !

Can deyib, canımı mən eylədim pünhan eşqüvə,
Mənim pünhan eşqimi etmədə carım, haradasan?

Bir məqam yetirə Xuda, bu fəraqın eşqinə,
Nə qədər çəkdim acı, olmadı karım, hardasan?

Gecə-gündüz Şadiman ahi-fəqan etmədədi,
Düşüb könlü zülümə gülüzlü yarım, hardasan?
12. 05. 2006

SÖZÜ DÜZGÜN, ÖZÜ MƏRD, OL BU CƏSARƏTDƏ OĞUL

Sözü düzgün, özü mərd, ol bu cəsarətdə, oğul,
Ağlını qoyma qala şərə əsarətdə, oğul.

Yüz belə hökmü ola, şeytan elə şeytandır,
Onun hiyləsinə bax, qalma ətalətdə, oğul.

Ataya, anaya olsun can var ikən eşqin,
Onların haqqını bil, bunca itaətdə, oğul.

Vətən eşqini danıb, qürbətə etmə sevda,
Babovun saldığı yurd Rəbbə əmanətdə, oğul.

Elimə, biliyə sal meylini, ol gözüaçıq,
Canı et ağla əta, haqqa zəmanətdə, oğul.

Elə sev, sevdiyinin sevdası olsun dürüst,
El içində olasan bunca ədalətdə, oğul.

Şadiman hər yetəni mədh eləməz yaxşı tanı,
Baxma ki, ömrü keçir öylə zəlalətdə, oğul.
14. X11. 2006

DODAQDƏYMƏZLƏR

DİLƏKLƏR NECƏ DƏ ÇİÇƏKLƏDİLƏR?

Diləklər necə də çiçəklədilər?
Harayı cahanı ağzına aldı.
İlin hər ayında ləçəklədilər,
Şaxtası, sazağı qışlara qaldı.

Anda həyat gəzdi, saatda adət,
İstəklər zəkada açan səadət,
Hər ağla Allahdan gələn sədaqət,
Qartaldək sinəyə qanadın çaldı.

Çaylartək şaqqıltı, sellərtək haray,
Titrəyən yer təki zəlzələsi hay,
Tikdi can içində zinətli saray,
Canı ağrıların içinə saldı.

Diləklər gecəyə sarıldı yartək,
Ələndi hər ağla ağ inci qartək,
Açdı talelərdə neçə ilqartək?
Hər ağlı çalxatdı ah, necə haldı?

Gah şirin, gah acı, gah zəhər daddı,
Sinəni titrətdi nə qəhər çatdı?
Hıçqıra-hıçqıra qaynadı, yatdı,
Həyat şərqisini dillərə saldı.

Can ağrı içində, cana nə zilət?
Yaxdı saatları, ağrıdı illət,
Dilək İlahidən insana alət,
Şirini, acısı sinəyə xaldı.

Hər canın eşqinə, hər zəka qəsir,
Ağlın azlığından sarayı əsir,
Hər saat Allahın əlində əsir,
Həyatın zəngini heç nəyə çaldı?

Şirinə can dedi, canı xar edən,
Sinənin içini ahı-zarı edən,
Yazıq kağızlara dərdi yar edən,
Yetirin etdiyi nə qeylü-qaldı?…
11. 09. 2004

HƏYAT AĞRILARI ETDİKCƏ ŞİDDƏT

Həyat ağrıları etdikcə şiddət,
Qara ağa döndü, ağ da qaraya.
Cahan İlahidən cana şəadət,
Xəlq edən insanı saldı haraya?

Saatlar qaçışır qəh-qəhə ilə,
Anlar şərqi deyir cəh-cəhə ilə,
Ağrılar yaşayır əh-əhə ilə,
Sinələr kədərdən nəş'ə yaraya.

Ağlı az zənn etdi, cahana şahdı,
Ağrılar içində çalışan ahdı,
Zinəti artıqca eşqi – Allahdı,
Axırda sinəsi yandı haraya.

İstəklər sel təki çayı haxlayır,
Saniyələr an deyir, ayı haxlayır,
Nalələr hıçqırır cahan laxlayır,

Enər ağrı-acı necə araya?

İnsan yarananda qana hərisdi,
Ağlı əsir edən hər qara hissdi,
Ərşin yaxasından asılan sisdi-
Xilqəti səsləyir ahdan çaraya.
12. X. 2004

ÇİÇƏKLƏR TİTRƏYİR YELLƏR QAÇIŞIR

Çiçəklər titrəyir, yellər qaçışır,
Dağdan qartalların səsası gəlir.
Hər qaya içindən sellər acışır,
Nazənin kəkliyin ədası gəlir.

Enişlər içində cığır izləri,
Şehdən içən lalə qatlar dizləri,
Gecə sərinləşər çatlar dizləri,
İsti səhərlərin qidası gəlir.

Ahəstə şərqilər deyir ağaclar,
Tellərə zinətdi yaşıldan taclar,
Elatın ətrini gətirir saclar,
Yenə tərlanların ədası gəlir.

Gəl qaçaq ağrıdan, acıdan elə,
Salaq atəşləri sinədən dilə,
Anlar nə eşqlidi hər gələn ilə?
Canlara kədərin qadası gəlir.

Çağlayır dağlardan axan şəlalə,
Çəkir cığırlırın sinəsi nalə,
Yenə də kainat gedir xəyalə,
İnsana İlahi nidası gəlir.
12. X. 2004

ATƏŞİ SİNƏYƏ YAXAR DİLƏKLƏR

Atəşi sinəyə yaxar diləklər,
Eşqi haraylayar, anı səsləyər.
İnsan zəkasını elə ələklər,
Dəli sədasına canı səsləyər.

Gecələr həsrətdi yanan çırağı,
Titrək xəyallardı xəncər, yarağı,
Kəsilər içinə hissləri yağı,
Təni həyatlayan qanı səsləyər.

Gizləyər içində eşqi, atəşi,
Enər ayağına kədərin nə'şi,
Gələn ağrılara qıcıyar dişi,
Cahanın zinəti şanı səsləyər.
13. X. 2004

SİZ EY EŞQİ İLƏ QAYĞILANANLAR

Siz ey eşqi ilə qayğılananlar,
Eşqilər sinədən ağıla gəlir.
Tanrı sədasıyla sayğılananlar,
Kainat sirriylə nağıla gəlir.

İnsandı əzəldən cahana cığır,
Ziyası səhərə yağıştək yağır,
Həyat gah nəş'əli, gah da ki, ağır,
Sədası dağıla-dağıla gəlir.

Ağlayır gecələr səhər eşqinə,
Qaranlıq dəlidi qəhər eşqinə,
İlanlar can alır zəhər eşqinə,
Çalarkən yığıla-yığıla gəlir.

Zəkalar qışqırır yara içində,
Sinələr nəş'ədə, xara içində,
Ərş elə sızlayır qara içində,
Yağışlar sağıla-sağıla gəlir.

Ey Şirin nədir ki, candakı səda?
Çağlar diləklərdə neçədir əda?
Yenə İlahidən dikəldi nida,
Hər nida sıxıla-sıxıla gəlir.

13. X. 2004

Y A N Ğ I L A R

***

1.Allah, amandı,
Halım yamandı,
Can-cana yağı,
Bu nə zamandı? !…

***

2.Ömür gülümdü,
Soldu zülümdü,
Hey çalış, vuruş -
Sonu ölümdü.

***

3.Sinəmdə atəş,
Edir qəlbi qəş,
Könlün odundan,
Əriyir günəş.

***

4.Girmə qəlb bağa,
Qəm olub ağa,
Yer-göy ah çəkir,
Bu könül dağa.

***

5.Bükər Rəb dizi,
İtirər izi,
Əzabdı qəbrə
Qoymaq əzizi.

***

6.Qəlb olar ahar,
Qəm edər nahar,
Bir dəfə gələr
Hər ömrə bahar.

***

7.Zilin bəmi var,
Gözün nəmi var,
Hər doğulana
Ölüm dəmi var.

***

8.Ağ teldən gəlir,
Su seldən gəlir,
Qeyrəti olan
Ər eldən gəlir.

***

9.Ağladar gözü,
Söndürər közü,
Girər qapıdan-
Əzrayıl özü.

***

10.Rəbbdəndi sitəm,
Hər evə matəm,

Ömrün dadıdı -
Acı-şirin təm.
***

11. An alar yaşı,
Qocaldar başı,
Zaman sevgili
Ömrün sirdaşı.
***

12.Ötsə də günüm,
Batmasın ünüm,
Qırılar bir gün
Ömür düyünüm.
***

13. Saatlar uçar,
Haqqa əl açar,
Qalar qollarım
Qoynumda naçar.
***

14.Ürək ağrısı,
Ömür oğrusu.
Rəbb imtahanı
Həyat doğrusu.
***

15.Gün gəlib ötər,
Anlarım bitər,
Əzablı həyat
Ölümdən betər!
***

16.Ömrün sabahı,
Səvab, günahı,
Vicdanda ara,
Qafil, Allahı…
***

17.Enmə dərinə,
Batma tərinə.
Kim gora gedib -
Kimin yerinə?!…
***

18. Ver ömürə bac,
Qoy başına tac,
Halbahal edən
Fələk gözü ac.
***

19. Saatlar susar,
Ömrümə hasar,
Fələk qovduqca
Zaman qan qusar.
***

20. Bu həyat barım,
Dildə qubarım,
Loğman sağaltmaz
Ürək qubarım.
***

21. Ah ərşə qalxar,
Yandırıb-yaxar,
Sinəmdən ürək
Qəm ilə baxar.
***

22. Dilimin andı,

Alışdı yandı,
Zaman ahımı-
Mənimtək andı.
***

23. Bu ulduz Dandı,
Qırmızı qandı,
Düşmə göyündən
Yer ki, zindandı.
***

24.Könüldə yara,
Hey çəkir dara,
Fələk ömrümə
Yaxmaya qara.
***

25. Zaman doğrusu-
Günün oğrusu,
Ürəkdən keçir
Canın ağrısı.
***

26. Can düşdü oda,
Aha, fəryada,
Görmədim, Allah,
Bir gün dünyada.
***

27.Gözüm ağladı,
Qəmim çağladı,
Fələk qapımı
Açdı, bağladı.
***

28.Göz yaşım göldü,
Hər günüm öldü,
Həsrət könlümü
İkiyə böldü.
***

29.Gəldik dad təki,
Ömrə ad təki,
Əzrayıl bizi
Aldı yad təki.
***

30.Hər insan çiçək,
Hər an bir ləçək,
Doğulub-ölmək,
Hayıf ki, gerçək.
***

31.Dünya ki, beş gün,
Həm yas, həm düyün,
Rəbbə halidi -
Hər səda, hər ün.
***

32.Kəsmə amanı,
Etmə yamanı,
Şeytantək dala
Atma imanı.
***

33.Göyün buludu,
Səmanın udu,
Elə ağladı -
Yerləri yudu.
***
34.Günəş alışar,
Qəlblə yarışar,
Könlümün odu
Ərşə qarışar.
***
35. Zaman Rəbb atı,
Qovur həyatı,
Alıb belinə -
Bu kainatı.
***
36.Ömür incidi,
Rəbb sevincidi,
Zaman qovduqca
Candan incidi.
***
37. Ahım dağ deşər,
Min yerdən eşər,
Sinə içində
Ağrı yerləşər.
***
38.Könlü dərd tutdu,
Özün unutdu,
Ömrün günləri
Tökülən tutdu.
***
39. Yetişməz dadım,
Dəli fəryadım,
Soyuyan deyil
Bu könül odum.
***
40. Ahlar anından,
Ötər yanından,
Hər paxıl adam
Yeyər canından.
***
41. Ah qəmdi ilə,
Heç gəlməz dilə.
Dünya doludu-
Ev yıxan ilə.
***

***
42.Ömür bəxt atım,
Gələn saatım,
Bağlıdır ona
Bütün həyatım.
11. X11. 2002

***
43.Zülmətdir necə?

Ay doğmur becə.
Alıb qoynuna
Könlümü gecə.

***

44.Şər, yoxmu yiyən?
Ey haqqı yiyən?
Girib köksümə
O xəncər tiyən.

***

45.Qəmim kamladı,
Könlü damladı,
Bəbəkdə yaşım
Damla-damladı.

***

46.Göz yaşı çin-çin,
Tök için-için,
İblis dağladı
Dünyanın için.

***

47.Bəşər ahladı,
Hey gunahladı.
Çətinə düşdü -
O Allahladı.

***

48.Ürək ağlayır,
Dərdlə dağlayır,
Hər bir ağrını
Könlə bağlayır.

***

49.Məzar – hər bədən,
Bəşəri didən,
Bir soraq verməz -
Dünyadan gedən?

***

50. Hicran nə acı?
Sevginin tacı.
Saf məhəbbətin -
Həsrət əlacı.

***

51. Qartal ucada,
Layiq taca da.
Adamı boğan
Tüstü bacada.

***

52.Ömür bir yoltək,
Ya sağ, ya soltək,
Başa ki, çatdı -
Kəsilən qoltək.

***

53.Dünya kaşıdı,
Ağlar başıdı.
Hər doğulana -

Ömür daşıdı.

***

54.Hər gözdə yaş var,
Yaşa sirdaş var.
Ürək çalxadan-
Bədənə baş var.

***

55.Tənə baş imiş,
Ömrə yaş imiş,
Ətlə gizlənən -
Sümük daş imiş.

***

56. Bu yaş yarıdı,
Zirvə qarıdı,
Zaman tez uçdu-
Ömür qarıdı…

***

57.Gün uçdu getdi,
Dünənə yetdi.
Fələk bədəni -
Darməzar etdi.

***

58.Hər dərd yaradı,
Könlü aradı.
Varın yığanın-
Günü qaradı…

***

59. Vaxt başa çatar,
Günə an qatar,
Qopar ömürdən
Əbədi yatar.

***

60. Dolu axuru,
Boldu naxırı.
Zalım bəşərin -
Yoxdu axırı…

***

61. Odun külü var,
Yanan dili var.
Ocaq içində
Qalan külü var.

***

62. Can təndən qopar,
Əbədi çapar.
Gəzər aləmi…
Öz yerin tapar.

***

63.Qəm keçdi məndən,
Eylədi dən-dən.
Qırıldı canım-
Bu yazıq təndən.

***

***

64. Dildə ah deyil,
Ah Allah deyil.
Qiymətli ölmək-
Heç günah deyil.

***

65. Can başın tacı,
Ömrün əlacı.
Qopsa bədəndən-
Ölüm nə acı? !…
15. X11. 2002

***

66.Gəlməz sabahım,
Ürəkdə ahım,
Bu nə ömür, gün?
Öldüm, Allahım!

***

67.Göz yaşım gülər,
Ahımı bölər.
Şadiman min yol,
Doğulub-ölər.

***

68.Dünyanın vayı,
Batıb harayı,
Uçub tökülür,
Bəşər sarayı!

***

69.Gözdə qan yaşım,
Ağrıyır başım,
Hicran olubdu-
Könül sirdaşım.

***

70.Gözüm qan tökər,
Ağrımı bükər,
Dəli ahımdan-
Bu yer-göy hürkər.

***

71. Ay göyə işıq,
Yerə yaraşıq.
Könül onlara…
Mən könlə aşıq.

***

***

72. Haqq nur saçmadı,
Bizdən qaçmadı,
Allahın sirrin -
Bəşər açmadı.

***

73.Həyat mö'cüzə,
Sirr açmaz bizə,
Ömrün son günü -
Sınan bir kuzə.

***

74.Ömür simimdi,
Hayım, himimdi,
Qırılan zaman -
Mənim kimimdi?…

***

75.Ürəyim ağlar,
Sinəmi dağlar,
Görməyib heç kim -
Bir belə dağlar.

***

76.Dünya nə dəmli?
İçi ələmli.
Bir gözü nəş'ə-
Bir gözü qəmli.

***

77.Günüm oynamaz,
Qəlblə qaynamaz,
Mən bəxti kəmin -
Başı aynamaz.

***

78. Bu həyat balım,
Daddım pis halım,
Getməyir yola -
Mənimlə zalım.

***

79. Can dildən ası,
Ömrün qəvvası,
Öz sözü olar-
Bəşərin yası.

***

80. İnsan arıdı,
Yığdı, qarıdı,
Əzrayıl gəldi -
Ömrü arıdı.
16. X11. 2002

***

81. Sinəmdə atəş,
Yer-göy edir qəş,
Könlün odundan
Alıışır günəş.

***

***

82.Rəbbin saatı,
Qurdu həyatı,
Açmaz tam bizə-
Bu kainatı…

***

83.Həyat sultanım,
Ömür dastanım,
Xəzan gələndə -
Solar bostanım.

***

84.Dünya qəm dolu -
Hər ömür yolu.
Rəbbi arayır
Uzanan qolu.

***

85.Həyat – adındı,
Könül dadındı,
Qaldın özünün,
Öldün yadındı.

***

86. Cahanın ahı,
Min bir günahı.
Qanla açıılır,
Gələn sabahı.

***

87. Yaxşı günümüz,
Xoş düyünümüz.
Qəmə ki, düşdük,
Batar ünümüz.

***

88. Kim deyər şaddı?
Qüssəyə yaddı.
Həyat acısı,
Gözdə gurşaddı.

***

89.İnsan taleyi,
Dünyanın neyi.
Sərxoş fələyin-
Dodaqda meyi.

***

90.Səhər açıldı,
Günəş saçıldı,
Göyün üzündən -
Zülmət qaçıldı.

***

91. Can tənə tacdı,
Rəbbinə bacdı.
Bədənlər yeyən -
Bu dünya acdı!…

***

***

92. Bu zalım fələk,
Ərköyün mələk.
Ələyir təni -
Əlində ələk.

***

93.Ağlar gözümüz,
Gülər üzümüz.
Ya yaxşı, ya pis-
Qalar izimiz.

***

94.Bəşər bir yoldu,
Hər cana koldu.
Gəldi xəzanı-
Saraldı, soldu.

***

95.Göz yaşım gülər,
Dolar, tökülər.

Yağar könlümə -
Qəlbə bükülər.

***

96.Bəşər nə candı?
Hey pozdu andı.
Çalxanır içi…
Ya su, ya qandı.

***

97. Zamanın atı,
Beldə saatı,
Qovar ömrü,
Udar həyatı.

***

98.Hər tən özünə,
Yanar közünə.
Qarışar külü -
Bu yer üzünə.

***

99.Dünya yuvandı,
Tənə ünvandı.
Həm ev, həm məzar-
Əcəb divandı.

***

100. Sel dağdan gələr,
Dərəni bələr.
Əlində qalıb -
Bu kol-kos mələr.

***

101.Kəsmə amanı,
Etmə yamanı.
İlahi verib
Ömrə zamanı.

16. X11. 2002

B A Y A T I L A R

***

1. Əzizim Vətəndi bu,
Könüldə bitəndi bu,
Yad ellər yersiz desə,
Dadına yetəndi bu.

***

2.Əzizim dağ olmaya,
Bir qəmli çağ olmaya,
Əsməyə sərt rüzgar-

Xəzanlı bağ olmaya.

***

3.Əzizim gözüm gəzər,
Sinəmdə közüm gəzər,
Ölüb məzara getsəm,
Hər yerdə sözüm gəzər.

***

4.Əzizim günüm qara,
Harayım ünüm qara,
Təbib məlhəmi ilə -
Getməz sinəmdən yara.

***

5.Əzizim dəm ovuldu,
Ağızda təm ovuldu,
Yuyuldu çay daşıtək,
Gözümdə nəm ovuldu.

***

6.Əzizim dağlar məni,
Bu dağlar bağlar məni.
Əzrayıl canım alsa,
Bilməm kim ağlar məni?!

***

7.Əzizim qara gəldi,
Hər işim qara gəldi,
Doğuldum gün görmədim,
Canım zinhara gəldi.

***

8. Əzizim gözdə yaşım,
Dərddən aynımaz başım,
Qəmlər könlümlə bahəm -
Olubdu can sirdaşım.

11 .05. 2002

***

***

9.Mən aşiq dağ dedilər,
Bu dərdə dağ dedilər.
Bulud təki çalxanıb-
Dolutək yağ, dedilər.

***

10.Mən aşiq üzün görüm,
Sinədə közün görüm,
Min məktubu gəlməkdən -
Bir dəfə üzün görüm.

***

11.Mən aşiq bağladılar,
Yolumu bağladılar,
Arxamca gülənlərim –
Üzümə ağladılar.

***

12.Mən aşiq belə dolma,
Buludtək selə dolma,
Öz yurdunda kəniz ol,
Yad eldə qərib olma.

***

13.Mən aşiq gülə bilməz,
Dərd varsa gülə bilməz,

Ömrün son saatını,
Bir kimsə bilə bilməz.

***

14.Mən aşiq qəmim haray,
Gözümdə nəmim haray,
Batmışam dərd əlində-
Küllü-aləmim haray.

***

15.Mən aşiq telim imiş,
Saçımda telim imiş,
Qürbət həsrət yuxusu-
Vüsalım elim imiş.

***

16.Əzizim mərd əlindən,
Çəkinmə mərd əlindən.
Qoru şirin canını -
Daim namərd əlindən.

***

17.Əzizim ilgəsinə,
Keçmə şər ilgəsinə,
Namərd əkən ağacın-
Əyilmə kölgəsinə.

***

18.Əzizinəm çatmasın,
Qəm mərama çatmasın.
Hər gün keçsin xətərsiz -
Kimsə şərə batmasın.

***

19.Əzizim dağım oldu,
Qəmlər oylağım oldu.
Üzümə can deyənlər -
Arxamda yağım oldu.

12. 05. 2002

***

20.Əzizim arxa məni,
Salmısan arxa məni.
Neyləyim ki, qəm sanır-
Özünə arxa məni?!

***

21.Əzizinəm sovuşmaz,
Dərd yaxamdan sovuşmaz,
Könlümdəki diləklər -
Yerə-göyə yovuşmaz.

***

22.Əzizim gözüm ağlar,
İçimdə dözüm ağlar,
Ölsəm məzarım üstə,
Hər misram, sözüm ağlar.

***

23.Mən aşiq bağla məni,
Eşqinə bağla məni.
Ölsəm sevdam yolunda-
Yas tutub ağla məni.

***

24.Mən aşiq qala məni,
Atəşə qala məni.
Hicranı barat etdin -
Saldın nə hala məni?

***

25.Aşiqəm gül üzüvə,
Qor oldum od-közüvə,
Alıb məndən könlümü -
Bağlamısan özüvə.

***

26.Aşiqəm qarasına,
Gözünün qarasına,
Götür məndən bu könlü-
Sal qəlbin arasına.

***

27. Mən aşiq gülə bənzər,
Bu gül o gülə bənzər,
Elə söndürdün eşqi -
Ocaqda külə bənzər.

***

28.Mən aşiq gül dedilər,
Bağçada gül dedilər.
Çəkdilər sinə dağı -
Sonra da gül dedilər.

***

***

29.Mən aşiq talasına,
Od düşüb talasına.
Gəlmə, girə bilməsən-
Könlümün talasına.

***

30.Mən aşiqəm duvamı,
Haqq eşitməz duvamı,
Sənin üçün tikibdi-
Fələk könül yuvamı.

***

31.Aşiqəm dözüm qaldı,
Sinəmdə közüm qaldı.
Elə baxdın üzümə,
Gözündə gözüm qaldı.

***

32.Mən aşiq çəkən olmaz,
Bu dərdi çəkən olmaz.
Sənin təki könlümü-
Özünə çəkən olmaz.

***

33.Mən aşiq yada məni,
Dəyişmə yada məni.
Sinəmdə tonqal çatıb
Atmısan oda məni.

***

34.Mən aşiq göz üşüdü,

Su atdın köz üşüdü.
Məni səndən ayıran-
Ölüm Allah işidi.

***

35.Əzizim gün çatladı,
Tutub vaxtı qatladı,
Atdın hicrana məni -
Sənsiz bağrım çatladı.

***

36.Əzizim könlün axdı,
Axıb sinəni yaxdı.
Gecəmə günəş doğdu,
Gözüm gözünə baxdı.

***

37.Əzizinəm üzündən,
Doymadım gül üzündən,
Qara günlərə qaldım,
Ayrılığın üzündən.

***

38.Mən aşiq gözə məni,
Salıbdı közə məni.
Tuş oldum bədnəzərə -
Gətirdi gözə məni.

***

***

39.Əzizim gülə gəlməz,
Hər bülbül gülə gəlməz.
Boş keçirmə ömrünü,
Keçən gün ələ gəlməz.

***

40.Mən aşiq gül üşüməz,
Od varsa gül üşüməz.
Bu sevda bağçamıza -
Gün düsə, gül üşüməz.

***

41.Mən aşiqəm an ağlar,
Dolar könül can ağlar.
Qoşular hər gün mənə -
İçimdə hicran ağlar.

***

42.Əzizim oda düşdüm,
Hey oddan oda düşdüm,
Mən sənin tərəfindən -
Nə yaxşı yada düşdüm?

***

43 Əzizinəm nəzərə,
Heç düşmədim nəzərə.
Bir kimsəni dünyada
Gəlməsin bəd nəzərə.

***

44.Əzizim doldu keçdi,
Buludlar doldu keçdi.
Nə tez yetişdi payız?
Bu ömür soldu keçdi.

***

45.Əzizim kölgəsinə,
Gün qoymaz kölgə sinə.
Namərdə ürək qızıb-
Sığınma kölgəsinə.

***

46.Əzizim qordu mənə,
Bu sevda qordu mənə.
Allah nəzəri olsa,
Neyləyər ordu mənə? !…

***

47.Əzizim yağ içinə,
Su girməz yağ içinə.
Şeytan səni aldadıb
Çəkməyə dağ içinə.

***

48.Əzizim təbim coşar,
Könül bərəsin aşar.
Ölsəm sözüm göyərib -
Dildə-ağızda yaşar.

***

49.Əzizim ağı mənə,
Dil deyər ağı mənə.
Gəldi ömrün xəzanı,
Oldu göz dağı mənə.

***

50.Əzizinəm gülə mən,
Baxdım gilə-gilə mən,
Alışdım atəşinə,
Yandım döndüm külə mən.

***

51.Mən aşiq butasına,
Əl vurma buta sına.
Kimsə şər adamların-
Düşməsin xatasına?

***

52.Əzizim kola gəlməz,
Qartallar kola gəlməz
Heç zaman qan düşməni -
Söz ilə yola gəlməz.

***

53.Əzizinəm var ilə,
Hal tanınar var ilə.
Kiminə misqal ilə,
Kiminə xalvar ilə.

***

54.Mən aşiq daşdı keçdi,
Dərd başdan aşdı keçdi.
Yandırdı gözün için,
Bu necə yaşdı keçdi? !…

***

55.Mən aşiq qovla məni,
Tut dilə, tovla məni.
Vur qanadım qırılısın,
Sal düzə ovla məni.

***

56.Mən aşiq gölə düşdü,
Sonalar gölə düşdü.
Fələk qəza göndərdi,

Hər ağrı elə düşdü.

***

57.Əzizinəm yan durma,
Yatmışam oyandırma.
Çatıb könlümə ocaq,
Baxışınla yandırma.

***

58.Əzizinəm tən yaxşı,
Bağır yaxşı, tən yaxşı.
Cavankən gəz qürbəti,
Qocaldın Vətən yaxşı.

***

59.Mən aşiq çeşməsinə,
Gözünü eşmə sinə,
Heç qapı tuş olmaya -
Fələyin eşməsinə.

***

60.Əzizinəm yaşına,
Dərd ürəkdən yaşına.
Əzrayıl gəldi ki, var -
Baxmaz kimsə yaşına?

***

***

61.Mən aşiqəm aharı,
Yandım çıxdı aharı.
Hər ömürə bir dəfə-
Gələr tale baharı.

***

62.Mən aşiq göz verməyir,
Od yoxsa köz verməyir.
Fələk hər kəsə ömrü -
Boş yerə söz verməyir.

***

63.Mən aşiq buta sandım,
Hər kolu buta sandım.
Fələyin göz vurmasın,
Bəxtimə xata sandım.

***

64.Aşiqəm sevdasına,
Qoyma bu sevda sına.
Qul eylədin könlümü,
Dilimin ədasına.

***

65.Mən aşiq naçar oldum,
Əlindən qaçar oldum,
Saldın yaman ağıza -
Dilə-dişə car oldum.

***

66.Mən aşiq tova gəlməz.
Ürəyin hova gəlməz.
Düşsəm səyyad əlinə -
Ayağım ova gəlməz.

***

67.Əzizim ilim ağlar,
Alışar dilim ağlar.

Korun-korun qor ollam,
Ocaqda külüm ağlar.

***

68.Mən aşiq qada məni,
Buraxmır qada məni.
Salıb namərd əlinə,
Veribdi yada məni.

***

69.Mən aşiq hicran yaşı,
Axıb əridər daşı.
Niyə bu zalım fələk?
Əyibdi könlə başı.

***

70.Aşiqəm gül üzünə,
Əyilib gül üzünə.
Bülbül hicran yasında,
Çıxmayır gül üzünə.

***

***

71.Aşiqəm vəfasına,
Qoyma ki, vəfa sına.
Bir kimsə tuş olmasın,
Yarın bivəfasına.

***

72.Mən aşiq telə bəndəm,
Zülf içrə telə bəndəm.
Döydü qapımı həsrət,
Bəbəkdə selə bəndəm.

***

73.Mən aşiq can yarası,
Loğman bulmaz çarası.
Eşqimi dustaq edə
Ürəyinin arası.

***

74.Mən aşiq tel qırıldı.
Dağ aşdı sel qırıldı.
Düşdü yağı əlinə
Evində el qırıldı.

***

75.Mən aşiq köz yarası,
Eyləyir göz yarası.
Qanı suyla yumazlar,
Qanın qandı çarası!…

***

76.Mən aşiq Tağaylıyam,
Dərdi necə ağlıyam?
Bilmirəm qəm qapısın -
Hardan açıb bağlıyam? !…

***

77.Əzizim qoşa çinar,
Boy atıb boşa çinar.
Mənim təki ömrünü
Vurubdu başa çinar.

***

78.Mən aşiq keçdi getdi,
Könlümü seçdi getdi.
Ömür qəm zəhərini,
Dövrandan içdi getdi.

***

79.Mən aşiq selnən gələr,
Hər çör-çöp selnən gələr.
Qəm ürəkdən yapışar,
Dərd bəla elnən gələr.

***

80.Mən aşiq sel incidi,
Su axdı sel incidi.
Zaman elə dolaşdı,
Yurd köçdü, el incidi.

***

***

81.Aşiqəm, bağla məni.
De sözü, bağla məni.
Aç ürəyin arasın -
Könlünə bağla məni.

***

82.Bülbül naçar olmasın,
Güldən qaçar olmasın.
Heç kimin qapısını -
Kədər açar olmasın.

***

83.Əzizim sınar bizi,
Saat, gün sınar bizi.
Hicran düşsə ortaya -
Bu aləm qınar bizi.

***

84.Aşiqəm boğçasına,
Qoy könlü boğçasına.
Heç kəsi əkilməsin,
Ələmin bağçasına.

***

85. Bostan alağ eyləməz,
Baxsan qalağ eyləməz.
Fələk sındıran könlü,
Kimsə calağ eyləməz.

***

86.Fələk gün biçməyəydi,
Bu candan keçməyəydi.
Bir kimsənin qapısın -
Heç vaxtsız seçməyəydi.

***

87.Əzizim yordu məni,
Bu zaman yordu məni.
Elə bildim nəş'ədi,
Ələmim sordu məni.

***

88.Mən aşiq təpələndi,
Dərd axdı təpələndi.

Coşdu qəmim dəryatək,
Başımdan təpələndi.

**

89.Əzizim yaxdı məni,
Qəm yaman yaxdı məni,
Aldı başım üstünü-
Daşlara çaxdı məni.

***

90.Mən aşiq gündüzünə,
Düşübdü gün düzünə.
Haq yolun itirənin,
Əyrisi nə, düzü nə?

***

***

91.Aşiqəm bahasına,
Hər işi baha sına.
Şər körpüsün keçməyin,
Gələr qan bahasına.

***

92. Əzizim saldı keçdi,
Dəryadan, saldı, keçdi,
Nazla ötdü yanımdan,
Yaylığın saldı keçdi.

***

93.Əzizim çəkmə, fələk,
Əlini çəkmə, fələk.
Zamanın mili oxdu,
Gözümə çəkmə, fələk.

***

94.Mən aşiqəm yaradı,
Bu könül, can yaradı.
Həsrət bıçağın iti -
Vurduğun qəlb yaradı.

***

95.Əzizim gün əyildi,
Vaxt önündə əyildi.
Polad təki əridi,
Dəmir təki əyildi.

***

96.Mən aşiq kama məni,
Qəm çəkdi kama məni.
Bu insafsız fələyim,
Yetirməz kama məni.

***

97.Mən aşiq qəlbi oxu,
Sözləri qəlbi oxu.
Dəysə sağalan deyil,
Hicranın qəlbə oxu.

***

98.Mən aşiqəm tüstü nə?
Baca varsa, tüstü nə?
Qızınmadım istinə,
Kor olmuşam tüstünə.

***

99.Əzizinəm gecələr,
Zaman enər incələr.
Mənim dəli ilhamım,
Bu sinəmdə gecələr.

***

100.Əzizim naçar məni,
Qəm etdi naçar məni.
İlham girdi könlümə,
Eylədi uçar məni.

***

***

101.Əzizim tel üşüdü,
Sinəmdə tel üşüdü.
Buludun gözü doldu -
Titrəyən yel üşüdü.

***

102.Əzizim gözüm ağlar,
Yel əsər közüm ağlar.
Ölüb məzara getsəm,
Üstümdə sözüm ağlar...

***

103.Əzizim yada məni,
Tay tutma yada məni.
Ya gün ver mənə, fələk,
Gəl qutar ya da məni.

***

104.Əzizinəm ağrayar,
Ürəyimə ağrı yar.
Haqsız söz bıçaq təki,
Alar könlü doğrayar.

***

105.Əzizinəm arası,
Ağrar könlün arası.
Hər dərd sağalıb gedər,
Sağalmaz söz yarası.

***

106.Əzizinəm şam qaldı,
Masa üstə şam qaldı.
Kağızı ovutmağa,
Könlümə axşam qaldı.

13. 05. 2002

***

107. Kim kimi çaldı keçdi?
Nə qeylü-qaldı keçdi?
Zaman elə ötüşür,
Ömrə nə qaldı keçdi?

***

108. Misralar axıb gələr,
Şimşəktək çaxıb gələr.
Alıb məndən ürəyi,
Yandırıb-yaxıb gələr.

***

109.Göy üzün bulud aldı,
Başına çadra saldı.
Elə qəlbdən hönkürdü,
Səsi qulaqda qaldı.

***

110. Bu həsrət bitən deyil,
Başımdan ötən deyil.
Girməsin heç könülə,
Girdi ki, itən deyil.

***

***

111. Atma könlümə daşı-
Atsan göynəyər, naşı?
Elə ağlatdın gözü -
Qurumur hicran yaşı.

***

112.Dərd gələr əyər gedər,
Könlünü döyər gedər.
Gün-gündən quduzlaşar,
Ürəyi döyər gedər.

***

113.Hər cana iman gərək,
İmana peyman gərək.
Ox təki atılmaya,
Olmaya kaman gərək.

***

114.Hər ömür an görünər,
Rəbb önündə sürünər.
Ocaq təki alışar,
Kül olanda kürünər.

***

115.Dərdlə peyman bağlama,
Dərd gəlməmiş ağlama.
Özü durub qapıda-
Dərd dolu bir bağlama.

***

116. Sevdada ülfət ola,
Sevdiyi afət ola.
Ya ömürlük səadət,
Ya da ki, nifrət ola.

***

117.Həyat ömrü nubarlar,
Ürək ahdan qubarlar.
Dərdin min bir bağçası,
Hər fəsilə qəm barlar.

***

118. Bu zaman qaldı keçdi,
Könüldə qaldı, keçdi,
Aldı ömrü atına,
Yollarda saldı keçdi.

***

119.Gözünü yaş eyləmə,
Cana sirdaş eyləmə.

Ömür axar bir sudu,
Gününü boş eyləmə.
***

120. Geymə hiylə donunu-
Birdən alma onunu.
Can verib alan Rəbbdi,
Heç kəs bilməz sonunu.
***

***

121. An gələr günü tutar,
Yolunda başın qatar.
Zaman quştək balalar,
Ömrün qoynunda yatar.
***

122. An saata haylanar,
Vaxt içində vaylanar,
Hər kəsin can qibləsi -
Ağıl başdan boylanar.
2. 02. 2003

***

123. Kimsə bilməz sabahı,
Hey artırar günahı.
Əzrayıl can alanda,
Yada salar Allahı…
***

124.Ölümdən o yana sir,
O da ürəyi kəsir.
Hər bədənin axırı,
Yer ayağına həsir.
***

125.Ömür bir yola bənzər,
Həm sağ, həm sola bənzər.
Bitəndə son saatı,
Kəsilən qola bənzər.
***

126.Hər ömrü biçdi fələk,
Şərabtək içdi fələk.
Dünya binə olandan,
Kimdən yan keçdi fələk?
***

127. Saatlar günü tovlar,
Anı tutub cilovlar.
At üstündə bu zaman,
Hər ömrü tutub ovlar.
***

128. Taleyin qəmi böyük,
Həm zili, bəmi böyük.
Kipriklərdən asılan -
Gözümün nəmi böyük.
***

129.Ağlatdın vüsalımı,
Fəna etdin halımı.
Faş eylədin aləmə-
Hicran qeylü-qalımı.

***

130. Canımın həmdəmisən,
Ən bəxtəvər dəmisən.
Könlü dilə gətirən,
Həm zili, həm bəmisən.

***

***

131. Bağrıma kədər qatma,
Qatıbda onu atma.
Hicran yatır sinəmdə -
Səs eyləyib oyatma.

***

132. Qoyma könül sarala,
Başı üstün sar ala.
İlan təki ələmlər,
Ürəyinə sarıla.

***

133. Salam – hörmət üçündür,
Hörmət – minnət üçündür.
Həyatı rövqləndirən,
Ağıl zinət üçündür.

***

134.Bəşərin zehni kordu,
Cana qurduğu tordu,
Sağkən Allahlıq edir,
Öləndə yeri gordu.

***

135.Gözdə yaşımı tutma,
Tutmusan ona batma.
Xatirən yuxudadı,
Səsə salıb oyatma.

***

136.Dövran puç etdi məni,
Dərdə suç etdi məni.
Sındırdı ərzin çarxın,
Ona uc etdi məni.

***

137.Göz yaşım sel ovladı,
Harayın yel ovladı.
Can alan baxışların-
Ürəkdən tel ovladı.

***

138.Hər anı zilə çəkmə,
Can deyib dilə çəkmə.
Könlünün dediyini -
Ürəkdən dilə çəkmə.

***

1**39.**Fənalıq pisdən gəlir,
Bəlalı hissdən gəlir.
Cahanı ram eyləyən,
Zülüm – iblisdən gəlir.

5. 02. 2003

***

140.Qəm basıbdı damımı,

Söndürübdü şamımı.
Fələyə neyləmişəm?
Qoyub gözdə kamımı?

***

***

141. Ey könlümə yad**,** fələk,
Ol qəmimdən şad, fələk.
Kim görüb ki, edəsən?
Kimsəyə imdad fələk?

***

142.Fələk, nə qəmdi çapar?
Gəlib könlümü tapar.
Bir can vermişdin mənə -
Gəl on da al, apar.

***

143. Sellərtək daşmaq olmur,
Dərdlə savaşmaq olmur.
Sinəmdə qəm dağı var,
Bu dağı aşmaq olmur.

***

144.Dərdim ilmə-ilmədi,
Mən çəkəni bilmədi.
Bu qaragün Şadiman-
Lap əzəldən gülmədi.
25. 01. 2001

145. Dilə çək tovla məni,
Təkləyib ovla məni.
Ocaq çatıb sinəmdə,
Od tök alovla məni.
13. 03. 2004

146.Rəbb etdi ney dərdimi,
Cana giley dərdimi.
Bəxtim özümdən qabaq-
Ağlayır hey dərdimi.

147.Qəm alıb könlüm başı,
Tökür gözümdən yaşı,
Ürəyimə dünyada
Yox belə can sirdaşı.

148. Bu dünya, ulu dünya,
Qəm dolu yolu dünya,
Bilinmir nə zamandı,
Nə sağı, solu dünya?

***

149. Əzizim qubar eylər,
Yrəyim qubar eylər,
Könlümün qəm bağçası
Hər fəsildə bar eylər

***

150. Bu zaman axdı getdi,
Hər qəlbi yaxdı getdi,

Aldı ürəyi ələ-
Dərdlə buraxdı getdi…

***

D Ö R D L Ü K L Ə R

***

1.Sənin atəşinə alışar içim,
İzin ver, ey Vətən, çeşməndən içim,
Canımdan keçərəm istəsə fələk,
Bəs ana torpaqdan mən necə keçim?

***

2.Səadət axtardıq ömrü uzunu
Könül xatırladı mələr quzunu.
Hamını dünyaya gətirən Tanrı,
Hamıya vermədi bəxt ulduzunu.

***

3.Həyat bağçasında güllərtək açdıq,
Hər zaman diləkdən-diləyə uçduq.
Ömrə sitəm etdi ağrı-acılar…
Can cəzanə gəldi ürəkdən qaçdıq.

***

4.Dövran zalımların əlində alət,
Yapışıb boğazdan zülüm, zəlalət.
Nə vaxt öz köçünü sürüb gedəcək?-
Ürəyə zülüm edən bu acı halət.

***

5.Bizdən əl çəkməyir niyə bu zillət?
Verir öz hökmünü illərlə illət.
Kimdən haqq diləsin, İlahi, görən -
Dilənçi kökünə düşən bu millət?

***

6.Hiyləylə suçladıq bu canımızı,
Boyadıq ahlara dövranımızı.
Niyə düşünmədik Yaradan bir gün -
Dəyişər məzəra ünvanımızı?

***

7.Həyat acısını daddıqca daddıq,
Könlü atəşlərin içinə atdıq.
O gün ki, boyadıq cahanı qana -
O gündən dünyanın gözünə batdıq.

***

8.Bir kimsə bilməyir əkdiyi nədi?
Ömür qədəhinə tökdüyü nədi?
Dünyaya lənətlər söyləyən, bəşər,
Əlindən dünyanın çəkdiyi nədi?

***

9.İlahi bəşərlə durub üz-üzə,
Fitnəni, fe'li vurmayır üzə.
Haqqın kitabına yazar günahı,
Özünü heç zaman göstərməz bizə.

***

***

10.Dünyaya gələni bəxtəvər sandıq,
Bilmədik bir ucuz felə inandıq.
Ağrıdan, acıdan tükəndi səbir,
Can dilə gələndə candan usandıq.
25. 04. 2002

***

11. Biz həyat bağında açılan gülük,
Rüzgarlar əlində nazilən tülük.
Əzrayıl eşdikcə ocağımızı,
Sönmüş közümüzə kor olan külük.

***

12. Heç zaman bilmədik qiymətimizi,
Saldıq ayaqlara hörmətimizi.
Haqqın səbirini daşdırdıqca biz,
Sovurur havaya nemətimizi.

***

13. Hamı can istəyir alsın dünyadan,
Nəyisə qoparıb çalsın dünyadan?
Ölümü, Allahı saya salmayan-
İstəyir sonraya qalsın dünyadan.

***

14.İlahi əliylə seçilənlərik,
Şirin canımızdan keçilənlərik.
Ömrün payızında xəzan ki, yetdi-
Əzrayıl əliylə biçilənlərik.

***

15. « Çıxan qan damarda qalmaz », dedilər,
İlana dəyməsən çalmaz, dedilər.
Ömrün son və'dəsi yetişməyincə,
Əzrayıl bir canı almaz, dedilər.

***

16.Məni məftun etdin baxışlarınla,
Könlümə çəkdiyin naxışlarınla,
Doldu gözlərimə hicran buludu-
İslandım şıdırğı yağışlarınla.

***

17. Qaldı yollarında gözüm xəlbəti,
Unuda bilmədim hüsnü, surəti,
Hər şeyi unutmaq olurmuş, Allah,
Unutmaq olmurmuş heç məhəbbəti.

***

18.Səndən can istədim canımı aldın,
İçinə günəştək bir şö'lə saldın.
Verdi ürəyini Şadiman sənə,
Guya qolu bağlı qul, kölə aldın.

***

19.Qəlbdən sevda odum itmədi heç vaxt,
Əllərim əlinə yetmədi heç vaxt,
Könül təlatümə gəldi əlindən-
Hicran fırtınası bitmədi heç vaxt.

***

***

20. Zaman köhlənində ömrümüz çapar,
Özünə duyğudan qalalar yapar,
Harda gizlənsək də günün birində -
Fələk canımızı axtarıb tapar.

***

21. Yaradan heç zaman açmadı sirin,
Birin xəlq eylədi, apardı birin.
Ağrısı, əzabı olsa da bol-bol,
Nə var ki, İlahi, həyatdan şirin?

***

22.Dəryanın göz yaşı dəryada batar,
Vuruşar, döyüşər büzülüb yatar.
Sanki bağrı səkər fırtınalarla,
Fəryadı Xudanın özünə çatar.

***

23.Sən ey ömrümüzü üyüdən, zaman,
Qaçırsan, uçursan belə nə yaman?
Yetir göz qırpımı hər ömrün sonu,
Bədən yiyəsinə vermirsən aman.

***

24. Atəşi sovudan çənə möhtacıq,
Zəmisi yetişən dənə möhtacıq.
Billur saraylartək parıltı verən-
Hər bizi hifz edən tənə möhtacıq.

***

25.Eşqidən o yana peymanəlikdi,
Haqqın dərgahına imanəlikdi.
Hər kəsin başında bir dəlilik var,
Ağıldan o yana divanəlikdi.

***

26. Biz həyata könül bağlayanlarıq,
Haqqın qapısını bağlayanlarıq.
Ölüm yatağında düşüb ayağa -
Acı hıçqırtıyla ağlayanlarıq.

***

27. Dalma bu dünyanın seyrinə belə,
Tutur hər gələni min fəndlə dilə.
Zaman qanadında uçan ömrünü,
Bir gündə uçuran, verəcək yelə.

***

28.Mən sənə ərmağan etdim canımı,
Atdın ayağına hər bir anımı.
Hökmü icra edən əzrayıl təki,
Töküb qədəhinə içmə qanımı.

***

29.Xəyanət dünyanın haqqın üyütdü,
Kəsib qanadların odunda ütdü.
Bəşərin içindən boylanan iblis -
Kitabsız, imansız, zamansız bütdü.

***

***

30. Kabustək dünyanı dolaşır yalan,
Kir təki canlara bulaşır yalan.

Dağları çevirir kəlləsi üstə,
Dəryadan yüyürüb dağ aşır yalan.

***

31. Eşq ilə aləmə sədalanmışıq,
Könül alışdıqca ədalanmışıq.
Saldıqca zülümə ürəyimizi,
Bu dəli istəklə sevdalanmışıq.

***

32.Əssə yel, saxlamaz ocaq közünü,
Batildə gizləyər oğru üzünü.
Özünü Allahdan uca sayanlar,
Axırda yıxacaq bu yer üzünü!…

***

33.Hər kəsə səadət, çıraqdı fələk,
Bəşərin yolunda fəraqdı fələk.
Şadiman, hamını o salır yola,
Zənn etmə könüldən iraqdı fələk.

***

34. Gətirmə, ey Xaliq, yenə axşamı,
Masamın üstündə ağlatma şamı.
O yanır, əriyir, ömrü puç edir,
Qalır ürəyində yaşamaq kamı.

***

35. Niyə güldürməyir Rəbb baxtımızı?
Boyayır qaraya can taxtımızı.
Əridir ocağın üstündə yağtək,
Qızıldan qiymətli bu vaxtımızı.

***

36. Doyunca cahandan almamış kamı,
Əfsus ki, yetişir ömrün axşamı.
Əbədi dünyanı arzulayan yox,
Beşgünlük həyatadan yapışır hamı.

***

37.Göylər Yaradanın saraylarıdı,
Küləklər dərgahın haraylarıdı.
Buludun gözündən axan göz yaşı,
Xilqətin gurşaddan can çaylarıdı.

***

38. Etdiyin Rəbb görməz, zənn edir bəşər,
Guya ki, Allaha fənd edir bəşər.
Bilmədin doğulan insan övladı-
Özün Yaradana bənd edir, bəşər.

***

39.Fələk ovutmayır gözdə yaşımı,
Salıb ağılımla oda başımı.
Alovun içinə atıb, Şadiman,
Mənim könül adlı can sirdaşımı.

***

40.Fələyin qapısın açа bilmərik,
Ruhtək hüzuruna uça bilmərik.
Lap qızıl qəfəsdə qoru canını…
Ölümün əlindən qaça bilmərik.

***

41. Bir qədəh şəraba bənzəyir həyat,
Dilə acısı da, şirini də dad,
Elə sərxoş edir ömrü, Şadiman,
Macal tapmayırsan edəsən imdad.

29. 04. 2002

***

42. Bizi imtahana çəkir bu zaman
Günahı şüura tökür bu zaman.
Elə ki, ayırdı candan bədəni,
Hər cismi məzara əkir bu zaman.

***

43. Dad çəkir ağlayır əlindən ürək,
Asılıb sinədə telindən ürək.
Gözdən qəlbə axan dərd yaşıdır ah,
Çırpınır, boğulur selindən ürək.

5. 05. 2002

***

44. Didir insanlığı acı günahlar,
İçini doğrayır min cürə ahlar,
Bəşərin canına vəlvələ salır,
Sirli ürəyini açan sabahlar.

***

45. Kimsəyə könlünü açmadı fələk,
Hamının bəxtində saçmadı fələk.
Hamıya göstərdi aləm dağını-
Bir kimsə gözündən qaçmadı, fələk.

***

46. Ey adəm övladı, ölüm bir nizə,
Həyata gəldinsə düşəcək izə.
Xaliq can sahibi düşün ki, eyvah,
Əmanət verilib canımız bizə.

***

47. Günahkar saymayır kimsə özünü,
Döndərib Allahdan çoxu üzünü.
Adəmi imtahan eyləyən Xaliq,
Deyəcək hər kəsə axır sözünü.

***

48.Hər başın bədənə töhfəsi olmur,
Həyat məktəbində lövhəsi olmur.
Ömrün kitabəsi yazılan zaman,
Gələcək nəsilə səhfəsi olmur.

***

49. Bizi can yiyəsi saymayır fələk,
Canı bədən təki oymayır fələk.
Alarkən başının üstün əzrayıl,
Kimsəni yaxına qoymayır fələk.

***

50.Nədən, səba yeli, belə əsirsən?
Elə əsdiyintək könlü kəsirsən.
Bəlkə, məni təki qulsan həyata?
Sabahın ağzında, yenə əsirsən.

***

***

51. Heç dinclik tapmadı gələndə bəşər,
Həyatla haqqını bölləndə bəşər.
Dirikən yağıdır biri-birinə,
Baldan şirin olur öləndə bəşər.

***

52.Hər gələn dünyada – azar yiyəsi,
Qəbri öləninə – qazar yiyəsi.
Hər kəsin yığdığı qalar əllərdə,
Allahın quludur – məzar yiyəsi.

***

53.Dərdin təbibliksə yarar öləndə,
Hər əza içinə varar öləndə.
Açmaz bir-birinin qapısın çoxu,
Gələr hüzuruna, arar öləndə.

***

54.Ağratdı könlümü, doymadı fələk,
Qəmimin bağrını oymadı fələk.
Elə bil əhd edib ömrü uzunu,
Məni heç gözündən qoymadı fələk.

***

55.Hər qəmi könlümə tuş eylədilər,
Bir ovuc canımı quş eylədilər.
Hər ötən günümdən aldılar kamı,
Əcabə, ömrümü nuş eyldilər.

***

56.Gələndə cahana kaldı dedilər,
İçi başdan-başa qaldı dedilər,
Min cürə ağrının, qəmin içində,
Gedəndə bəs niyə baldı dedilər?

***

57. Buludlar göylərin döşündən əmər,
Ulduzlar zinətli, qaş-qaşlı kəmər,
Zülmətin bağrına bıçaq, Şadiman,
Gecəni nurlara qərq edən qəmər.

***

58. Zaman yaman çapır ömür atını,
Heç boşa keçirməz can saatını.
Elə şahin təki girəvə gəzər-
Alar, çalar səndən o həyatını.

***

59.Çoxu kor doğulur, gözdə işıqkən,
Can, tifil bədənə böylə aşıqkən,
Neyləsin dünyanı Yaradan görən-
Gözün gördüyünə qəlb sarmaşıqkən?!

***

60.Bəşər həzar edər dünyadan, eyvah,
Niyə ayrılmayır röyadan, eyvah?
Canımız Yaradan əlində quşkən -
Qopa bilməyirik xülyadan, eyvah.

***

***

61. Bizdən əvvəlkilər gəlib getdilər,
Gah səvab, gah günah, gah şər etdilər.
Dünyanı beşdaştək atıb, tutanlar-
Niyə gəlmişdilər? Niyə getdilər?…

***

62. Elə zəhər dadır həyatın dadı,
Hərəyə bir cürə rəng verir adı.

Nəş'əsi fürsətdi bu ömrümüzə,
Ürək parçalayır qəfil fəryadı.

***

63.Hər gözün içinə yaş qoyub fələk,
Hər bədən üstünə baş qoyub fələk.
Səvabdan gen gəzən, şərə can atan,
Kimin məzarını boş qoyub fələk?

***

64.Şərdən doğulanlar şərə can atar,
Hiylənin, fitnənin içində batar.
Bir özü olsaydı qəmə nə hasil?
Minin də özüylə günaha atar.

***

65.Hər ömrün ölçüsü zaman üstədi,
Hər canın bədəni saman üstədi.
Dünyanın oxunu fırladır Xaliq,
Əlləri uzalı kaman üstədi.

***

66.Həyat oyunun zəridi ömür,
Alnın puçur-puçur təridi ömür.
Göyün qapısından büttək asıldı,
Fələk ilğımında əridi ömür.

***

67. Can bədən içində asılıb qalar,
Girib qəlbimizə qısılıb qalar,
Hara ağrıyırsa orda görünər?
Öylə zənn edərik bizimlə solar.

***

68. Can bədən üstündə zaman kimidir,
Dindirsən ağlayan kaman kimidir.
Vücudu bürüyən ağ tülə bənzər,
Çəkilib gedəndə duman kimidir.

***

69. Niyə canımızı üzürük belə?
Sinəmiz içində əzirik belə?
Yatağa düşəndə ağıllanırıq,
Onu qaranəfəs gəzirik belə?

***

70.Özünə Allahtək baxan bəndəyik,
Tanrının yolundan çıxan bəndəyik.
Günahlar səvabı üstələyəndə-
Özü öz evini yıxan bəndəyik.

***

***

71.Məhəbbət zər deyil geyə hər yetən,
Geyib öz-özünü öyə hər yetən.
Qüdrəti olarmı dünyada görən?-
Allah sevgisinə dəyə hər yetən.

***

72.Günümüz qırmızı, gecəmiz qara,
Çəkir əsəbləri acılar tara.
Karsızlar dolubdu hər tərəfimiz,
Az-az adam olur yetişir kara.

***

73.Hərənin öz dini, öz Allahı var,
Hərənin içində öz günahı var.
Canın imtahanı yetişən zaman,
Tənin tükürpədən min bir ahı var…

***

74. Biz canlar içində dolu kamlarıq,
Zaman masasında yanan şamlarıq.
Şam sona yetəndə ömrümüz bitər…
Məzarlar içində hey axşamlarıq.

***

75.Hər kəsin kamını böləndi fələk,
Qəminə qəh-qəhlə güləndi fələk.
Hər can sahibi də zənn edir, eyvah,
Özü ölən təki öləndi fələk.

***

76. Qalıb içimizdə qul adətimiz,
Hər cılız bəndəyə sədaqətimiz.
Şadiman, nədəndir, nədəndir böylə?
Allaha yox, bütə ibadətimiz?!

***

77.Nə qədər sağıqsa – dərdə yarıq biz?
Dərdin sinəsində ahi-zarıq biz.
Dünyanı beşəllə qapmaq istərik,
Ölərkən torpağa nemət, varıq biz.

***

78.O dərya yaşını gözündən soruş,
Sinənin fəryadın közündən soruş.
Xaliqtək qüdrətin var isə, eyvah,
Hər kəsin qismətin özündən soruş.

***

79.Gözləri ağladır qan-yaşla fələk,
Oynayır gah gözlə, gah qaşla fələk.
Hər bədən sahibi dolanır, gəzir,
Tanrının qismәti bir başla, fələk.

***

80.Çəkmişəm illərlə mən xiffətini,
Anlaya bilmədim heç niyyətini.
Arı öz balını qoruyan təki,
Qorudun ürəkdə məhəbbətini.

***

81. Hicranın könüldə bir axşam təki,
Vüsalın seyr edir qəlbi kam təki.
Səndən üzüm dönsə sönsün həyatım,
Əriyən, tökülən, sönən şam təki.

***

82.Sənin vüsalına açılar könül,
Günəştək atəşlə saçılar könül.
Yoxluğun önündə tarimar olub,
Hicran zərbəsindən uçular könül.

***

83.Qəlb neylər acını bölməyənləri?
Məhəbbət yolunda ölməyənləri?
Ən böyük cəzaya layiq bil, ey Rəbb,
Eşqin qədrini bilməyənləri!

***

84.Məhəbbət o deyil evlər yıxasan,
Şərabtək dodaqdan dilə axasan.
Özgə qismətinə qoynunu açıb,

Oğurluq bəxtiylə taxta çıxasan.

***

85. Hiyləyə içində bir məzar qazı,
Atdığı hər addım sanma ki, yazı.
Allahın səbiri olsa da bol-bol,
Pislik edənlərə çəkməyir nazı.

***

86. Başda ağıl yoxsa ürək neyləsin?
Ya ürək içində dilək neyləsin?
Fitnəylə, fəsadla yüklənən, bəşər,
Bəs bütün bunlara fələk neyləsin?

***

87. Bir-birinə qarşı oda getmişik,
Yadlara hay verib dada getmişik,
Kəsib qapımızın ağzını yağı -
Yellərə tuş olub bada getmişik.

***

88. Saçın qarasına şəvə dedilər,
Dövlətdə, sərvətdə dəvə dediləp,
Baladan da şirin sandı görənlər,
Övladdan olana nəvə dedilər.

***

89. Varlının gözündə bu dünya toxdu,
Aclara bir parça çörək də yoxdu.
Haram yeyənlərdə Rəbb xofu harda?
Yenə kasıb-kusub Allahdan qorxdu.

***

90.Rəbb görür hərb ilə çağlayanları,
Haqqın sinəsini dağlayanları.
Məhşər ayağına çəkəcək Tanrı -
Dini siasətə bağlayanları…!

***

91.Dərdin ağrısını bölməzlər heç vaxt,
Ölənlə bir yerdə ölməzlər heç vaxt.
Allah bəlasına gəlmişlər ki, var -
Allahın yolunu bilməzlər heç vaxt.

***

92.Çoxu səbəb olur çox göz yaşına,
Günah olduğunu vurmur başına.
Allahın cəhənnəm odun saymayan,
Kəm baxır dünyada öz dindaşına.

***

93. Biz ki, bir-birini danan canlarıq,
Hiyləni, fitnəni, fe'li yanlarıq
Əzrayıl kəsəndə başımız üstün-
Fəqət, gec olduğun sonda anlarıq.

***

94.Hər kəsə imtahan bu dünya üzü,
Rəbbin əlindədir gecə-gündüzü.
Hər iki dünyada üstümüzdədi-
Bizdən ixtiyarsız Allahın gözü.

***

95. Var yığmaq o qədər səadət deyil,
Allaha, Tanrıya itaət deyil.
Haramla min dəfə Hac ziyarət et,

Vallahi, billahi, ibadət deyil!

***

96.Dünyanın əşrəfi sayılan, insan,
Əbədi deyildir sənə şirin can.
Haqqın qüdrətindən hali olanlar,
Bilirlər can almaq Rəbb üçün asan.

***

97.Həyat uzandıqca çoxu kirlənir,
Altuna, zinətə nə sehirlənir ?
Həyatın hər ucu Tanrı əlində -
Ömür yaşandıqca haqq da sirlənir.

***

98.İblisi heç yerdə axtarma, ey kəs,
Odur yolumuzun üstündə bir nəs.
Bizim ağlımızı ram etmək üçün,
İblis içimizdən boylanmırmı bəs?

***

99.İnsan var – günahla dolu olacaq,
Günahlar cəhənnəm yolu olacaq.
Tanrıdan qüdrətli sanan özünü,
Tanrının bədheybət qulu olacaq.

***

100.O kəs ki, Allahın adını dandı,
Allahlıq eşqiylə alışıb-yandı.
Xaliq gizlətdikcə varlığın, eyvah-
Özünü Xaliqin yerində sandı.

***

101. Heç kəsin üzünə çıxmadı fələk,
Hamıya bir gözlə baxmadı fələk.
Hər kəsin yerini bildiyi üçün,
Boş yerə evləri yıxmadı fələk.

***

102. Batıb göz yaşına qəlb dolu kamlar,
Çoxunun canını gizlədir damlar.
Özünü əbədi sanırlar, müdam,
Allahlıq eləyən nadan adamlar.

***

103. Maddi zənginlik deyil səadət,
O könlü, ürəyi eyləyir qarət.
Gərək doğulandan insan övladı,
Mə'nəvi dünyaya eyləsin adət.

***

104.Vəhşilik bəşərin surəti deyil,
Hər insan olanın qüdrəti deyil,
Mə'nəvi dünyası olan kəslərin-
Qan tökmək, ev yıxmaq adəti deyil.

***

105. Elmdə, maarifdə, bilikdə hünər,
Hər oxuyan özün saya bilməz ər.
Yaltaq adamların oxuduğu da,
Ağılı, şüurutək ayağa enər.

***

106.Hər ali təhsilli ziyalı olmaz,
Ziyası olmayan həyalı olmaz.
Özünə ziyalı deməyən kəslər -
Sözündə, könlündə boyalı olmaz.

***

107. Arxa olmayana çuxa da yoxdu,
O boş tabağına yuxa da yoxdu.

Dartıb ətəyindən salsalar yerə,
Əlini atmağa yaxa da yoxdu.
***

108.Hər kəs halallıqla ucala bilməz,
Layiqsiz şöhrətə öc ala bilməz.
Alçala-alçala qalxan zirvəyə-
Tutduğu o yerdə çox qala bilməz.
***

109.Mə'nəvi saflıqdan dəm vurur hamı,
Haramzadalıqdı çoxunun kamı.
Əyrinin cilovu dünyadan uzun,
Tapdayır, alçaldır adam-adamı.
***

110.Hər uca pillədən enməyin də var,
Şam təki yandınsa sönməyin də var.
Etdiyin Xaliqə halidir, qafil,
Onun hüzuruna dönməyin də var.
***

111. Hiylələr kor edib bəşərin için,
Haqq fəryad eyləyir lap için-için.
Nə din, nə ibadət, nə sitayiş var-
Allahın yolundan çıxmışlar üçün!
***

112.Açılmır naləsiz, fəqansız sabah,
Hər sinə içindən boylanır min ah.
Dünyanın çərxini fırladanlara-
Bir yol kərəmini göstərə Allah…
***

113. Başının üstündə damın var, şükür,
İçində kor olan kamın var, şükür.
Qaranlıq komana bir qismət işıq-
Masanda quruca şamın var, şükür.
***

114.Nə vaxtdı sozalıb saədətimiz?
Bizi lal eyləyib qul adətimiz.
Elə dilimizdən asılıb qalıb,
Allaha, Tanrıya ibadətimiz.
***

***

115.Ağlın kəmliyini huş deyə bilmir,
Harama ağız da nuş deyə bilmir.
Hamının batili zahirdən gizli -
Heç kəs ayranına turş deyə bilmir.
***

116. Bizi kor bəxtimiz taladı keçdi,
Ürəyə atəşlər qaladı keçdi.
Dövran zalımların əsiri, eyvah,
Tulatək quyruğun buladı keçdi.
***

117. Var, dövlət versə də başından ləpə,
Qocaya hay vermə, uşağa pəpə.
Yüz qat imarətin olsa da, qafil,
Gədadan bəy olmaz, küllükdən təpə.
***

118. Canımız bəsləyir bu tənimizi,
Ürəkdə gizləyir qəlb çənimizi.
Millətin kimliyi -Torpaq və Bayraq,

Amandır, satmayaq Vətənimizi!

***

119. Keçir kef-damaqda hər bir anını,
Qoru tən içində şirin canını.
Ey tifil, əfsus ki, Allahdan ancaq,
Gizlədə bilmərsən o ünvanını.

***

120.Hər bir yaxşılığı hiyləylə yormun,
Millətin qanını sorduqca sormun.
Coşanda kütlənin fəryadı yaman,
Onda halınızı kimsədən sormun.

***

121.Dərdimiz sinədə bıçaq kimidir,
Hər yara açmaqda qoçaq kimidir.
Bağlayıb haqsızlıq bənd-bərəmizi,
Fələk də bizlədən qaçaq kimidir.

***

122. Canımız qədəhdə şərabə bənzər,
Elə ki, dəm oldu xərabə gəzər.
Qəlbin ağrısından gəldikcə cana,
Bədən yiyəsinə eyləyər həzər.

***

123. Surəti axtarma batildənqaçan,
Batilsiz surətə bəxt gülər haçan?
Keçə bilməz heç kim ömür atını,
Ondan varmı söylə kim isə qaçan?

***

124.Hər misra könlümün, fəqət can neyi,
Elə yandırır ki, kəsilir heyi.
Axır ürəyimdən dodaqlarıma,
Məni sərxoş edən bu hicran meyi.

***

125.İlhamı axtarır elə təbsizlər,
Şerə dəb gətirir niyə dəbsizlər?
Mayası Allahdan gəlməyən misra-
Sənəti kor qoyar, ey ədəbsizlər?!

***

***

126. Bu qələm, bu kağız nə xoşdu, ürək?
Onlar ki, olmadı naxoşdu ürək.
İlham pərisinin qanadı üstə
Yerləri, göyləri hey qoşdu ürək.

***

127.Ürəyim hicrandan yara bağlayıb,
Acılar könlümdə qara bağlayıb.
Bir kimsə bilməyir, Şadiman, səni,
Dərd çəkib haradan hara bağlayıb?

***

128.Ürəkdə qövr edir min bir qəlb kamı,
Uçulur könlümün bu ümid damı.
Şadiman, misralar edəcək nalan,
Sönüb kül altında ömrümün şamı.

***

129.Ağlı dayazlara yaşamaq asan,
Yalnız əzab çəkir ağıldan insan.
Dəryanın dərini boğur adamı,
Getdin ki, dərinə çırpınacaqsan.

***

130.Bəşərin Tanrıya heyrəti çatmır,
Haqq yolu tutmağa qeyrəti çatmır.
İstər yası olsun, istərsə toyu,
Əlsiz-ayaqsıza xeyrətı çatmır.

***

131. Qoymayaq titrəsin könül damımız,
Düşdüsə sınacaq ömür camımız.
Quyu qazayanda bir-birimizə,
Bilmirik ölərik sonda hamımız.

***

132. Sabahın mehitək əsən kimiyəm,
Ağrımı, acımı kəsən kimiyəm.
Elə incidiblər bu ürəyimi …
Özümdən, sözümdən küsən kimiyəm.

***

133.Ömrün sabahını bilən olmayır,
Əmirsiz, fərmansız ölən olmayır.
O biri dünyaya gedənlər nə çox?
O biri dünyadan gələn olmayır.
5. 04. 2002

***

134.Ömür açan bir şahanə gülümmüş,
Saralanda yiyəsinə zülümmüş.
Hər ciliddə gördü gözüm ayrılıq-
Ayrılığın bir üzü də ölümmüş…
6. X11. 2002

***

135. Bu nədi, ey fələk, məni qəm aldı?
Alıb ağrıların içinə saldı.
Bütün ömrüm boyu çalışdım elə-
Axırda mənə də boş xanə qaldı.

***

RÜBAİLƏR

***

1.Çəkmədi dünya kimsə qəhrini,
İçirtdi hər adama zəhrini.
Gələnlər gördü onun dadını-
Heç kimə qıymadı öz bəhrini.

***

2.Ocağı bəla külündən çəkir,
Bülbülü xəzan gülündən çəkir,
Sanma o zülmü verən qadirdi,
Nə çəkir, hər kim dilindən çəkir?

***

3.Könlü öz qiblənə aldatma, fələk,
Gündüzü gecə bilib yatma, fələk.
Döndərib üzünü bir mənə sarı,
Başımı fe'lə salıb qatma, fələk.

***

4.Hər kəsin üzünə zinətdi həyat,
Ya cəhənnəm, ya da cənnətdi həyat.
Kim ki, göstərmədi qadirliyini-
Dünyadan köçüncə minnətdi həyat.

***

5.Çalış ki, dönməyəsən mayağa,
Zərbənin çoxu dəyir dayağa.
Elə tut mərtəbəni, ey qafil,
Axırda düşməyəsən ayağa.

***

6.Çoxunun dili başından böyük,
Etdiyi fəna yaşından böyük.
Bəşərdən gələn hər yamanlıqlar,
Rəbbin göydəki daşından böyük.

5. X11. 2002

***

7.Mehr ilə hər könlə qalmaz fələk,
Bəndənin qapısın çalmaz fələk.
İlahi verməsə öz hökmünü,
Kimsənin canını almaz fələk.

***

8.Ömür sürətlə qaçar ana tərəf,
Cin təki baş vurar hər yana tərəf.
Yetişər son zamanı insanın,
Əzrayıl sövq eləyər cana tərəf.

***

***

9.Kim olur fitnə, fe'l sultanı?
Bəşərin özü ara qatanı.
Rəbb verən adını salmaz yada-
Fələyin torpaq altda yatanı.

***

10.Ömrünü verən sənə qadirdi,
Canını salan tənə qadirdi.
Üzünü çevir haqqına sarı,
Rəhmi eyləyən yenə qadirdi.

***

11. Demə, Rəbb rəhm eləmir bizə, bəşər,
Tökdüyün qan ki, çıxıb dizə, bəşər.
Sən zülüm edirsən, Tanrı susur…
Vurmayır etdiyini üzə, bəşər.

***

12. Qapına mehri-vəfa salmaz əcəl,
Elə bir saniyə bekar qalmaz əcəl.
Olmasa İlahinin hökmü bil,
Dəni üzülməyəni almaz əcəl.

***

13. Başıma şah elədim ağlımı,
Qatmışam könlə ömür nağlımı.
Elədim ərz-halı Şadimana,
Şadimanlıq qapısı bağlımı?

***

14. Doğulan olmaya daş aləmə,
Salmaya bəlanı baş aləmə.
Üfürüb haqq gözünə şər külü,
Etməyə zülmünü faş aləmə.

6. X11. 2002

***

İKİLİKLƏR

**

Duyğudan qopmasa xeyir əməllər,
Allaha açıla qalacaq əllər…

**

İçində yatmışsa vicdanın əgər,
Bil, əllərin haqqın başına döyər.

**

Qulağın almasa qadir səsləri,
Gözün görməyəcək müqəddəsləri.

**

Tale də insananın öz əlindədir,
İşində, gücündə, əməlindədir.

**

Güclülər həmişə gücsüzü əzir,
Çünki başlarında şeytandı gəzir.

**

Yaradan dünyanı yaratdı qəmlə,
Batırdı ağrını sirli aləmlə.

**

İnsan can sirrini heç vədə bilməz,
Canı yaradanın özüsə ölməz…

**

Naqislər əlində ağlayır bəşər,
Ağlı fəth eləyib əbədi bu şər.

**

Heç kəs yığdığını aparmır gora,
Bəs nədən ağlımız düşübdü tora?

**

Zülmətdən boylanan Ay nura bənzər,
Gecənin boynunu sədəftək bəzər.

**

Hər kəs Yaradanı dərk edə bilməz,
İdrakı deyənə ərk edə bilməz.

**

Zaman saatlara etdikcə əmir,
Çağlayıb su təki hey axır ömür.

**

Nadanlar əlində can olub əsir,
Düzlükdən dəm vuran düzlüyü kəsir.

**

Dünya xəlq olanan qeylü-qaldadı,
Xeyr ayrılıqda, şər vüsaldadı.

**

Gecənin qoynundan al səhər doğur,
Sabah öz ipiylə zülməti boğur.

**

**

Yerlə yeksan oldu bu dünya min yol,
Heç tapa bilmədi haqq evinə yol…

**

Allahın ibadət evinə gedən,
Allahı içində aramır nədən?

**

Dunya həm yas evi, həm toy, həm də ün,
Dağılar hər kəsin xanəsi bir gün.

**

Pislikdən yaranıb yəqin ki, bəşər,
Odur ki, içində bardaş qurub şər.

**

Sındırma heç kəsin qəlbini nahaq,
Canı mühakimə eyləyəcək haqq.

**

Həqiqi məhəbbət dilə gəlməyir,
Yaşayır can ilə heç vaxt ölməyir.

**

Ömür ayağımız altında təkər,
Ağıl dərk eləyər, can ağrı çəkər.

**

Nadanlar dünyanın özünə yükdü,
Dünyanın özündən dərdi böyükdür.

**

Ocağın yanması hislə bilinər,
Yaxşının qədiri pislə bilinər.

**

Üzünə güləndən qoru özünü,
Gülüşlə gizlədər, çünki üzünü.

**

Taleyi boşuna buraxsan, əgər-
Axırda çevrilib başına döyər.

**

Əlacsız qalana yetir əlini,
Allah özü görür hər əməlini.

**

Pisdən ibrət alma, xeyirdən götür,
Demə, hər yamanlıq boş yerə ötür.

**

Hamı qarışdırıb yaxşı-yamanı,
Heç kəs dərk eləmir axır zamanı.

**

Həqiqət çəkilib əzəldən dara,
Odur ki, xilqətin köksündə yara.

**

Nəfsə əsir olan nəfsinə enir,
Axırda nəfsinin quluna dönür.

**

Nə qədər şüurda şər qurubdu taxt,
Dünyanın xilası görünməz heç vaxt.

**

Zaman saatlara vurur naxşını,
Çəkməz üstümüzdən biryol baxşını.

**

Düşünən başların ağrısı böyük,
Dünyanın əzabı çiyinində yük.

**

Hər sədəf içinə mirvari yatır,
Dənələr içində incilər yatır.

**

Nədir bəs könlünü günahkar edən?
Allahın evinə imana gedən?…
**
Sübhün şəfəqləri tor qurub çənə,
Hər şəfəq içində bir bülur dənə.
**
Səadət qapını döyməz boş yerə,
O meyvə deyil ki, tökülsün yerə.
**
Həyanı itirən həyadan deyər,
Həyanın özünü diliylə döyər.
**
Umma namərdlərdən heç zaman vəfa,
Axırda özünə deyər bivəfa.
**
Şöhrətin əsiri olan hər kəsin,
Sonunda şöhrət də kəsər nəfəsin.
**
Eşq – Allahdan gələn ilahi sevda,
Odur ki, həm ruha, həm cana qida.
**
Baş qapsın açır şüura yan deyir,
Ağlın fəryadına ürək can deyir.
**
Zülmə mübtəladı bəşər övladı,
Odur ki, zülümlə çəkilir adı.
**
Günahlar içində əlləşən insan,
Günahın özünə olacaq ehsan.
**
Əzrayıl döyməyən qapı qoymayır,
Yedikcə tənləri gözü doymayır.
**
Həqiqət içindən hikmət boylanır,
Hikmətin özündən nemət boylanır.
**
Kim öz millətinə kəsilsə yağı,
Axırda özü də görəcək dağı.
**
Özgə havasıyla oynayanların,
Sonunda özgələr alar canların.
**
Düzlüklə yuğura bilsən bətini,
İlahi əskiltməz məhəbbətini.
**
Allah dərgahına əl açmaq neçin?
Bizi yaratmayıb dilənmək üçün!
**
Vətən – hər millətin dunya neməti-
Millətin özündən aslı hörməti.
**
Dil bıçaqla kəsər ürək vaylanar,
Ürəyin başına ağıl haylanar.
**
10.X.2005

Qapılıb zehinə enmə dərinə,
Ürək tab eyləməz ağıl yerinə.
**

18. 06. 2006

Qulaq götürür,
Beynə ötürür.

15.10.2006; Pirallahı

***

Dünya əbədidir düşünür hamı,
Allahın əlində dünyanın damı.

***

Hər surət içində bir heyrət yaşar,
Heyrətdən bu həyat qaynayıb daşar.

***

Mənliyi qorumaq ömürdən uca,
İtirdin harayın çatmaz əlaca.

***

İnsan ömrü boyu mərama təşnə,
Məramsa insanı çəkir dişinə.

***

Xoşbəxtlik anlarla, sevdası sonsuz,
Kim yaşaya bilər həyatı onsuz? !

***

Bu dünya seyr evi, gələn doymayır,
Niyə gəldiyini heç kəs duymayır?

***

Çarpıışıb, çalışan, yarışan insan,
Yığdıığın bəs kimə olacaq ehsan?

***

Hər kəsin ağlında bir şeytanı var,
Ömrünə, gününə dəmtutanı var.

***

Günəşin odundan aya pay düşür,
Zülmətin könlünə ahı-vay düşür.

***

Dağ dilə gələndə qayalar çökür,
Bağrının naləsin dərəyə tökür.

***

Qartalın zirvəyə uçmağı fərman,
Sərçənin zirvəyə düşməyi dərman.

***

Haqqın kəraməti azalıb gözdən,
Odur ki, həya da əskilib üzdən.

***

Nə kütlə, nə də xalq millət olmayır,
Millət heç bir əldə alət olmayır.

***

Sədəf mirvarinin isti yuvası,
Onu dəryalardan tapar qəvvası.

***

Məhəbbət ürəyin içində atəş,
Atəşdən od alıb əbədi günəş.

***

Tarix səhnəsində qoyduğu izi-
Bütün dönüşlərdə o xalqın özü.

***

Yaltaqlıq adamı qatil eyləyir,
İnsanlıq adını batil eyləyir.

***

Özgənin cibinə dikmə gözünü,

Çıxarda bilməsən cibdən özünü.
***
Heç zaman könlünü eyləmə əsir,
Bir kimsə olmayıb əsirə əsir.
***
Gül kol-kos içində bitsə zar edər,
Çəkdiyi fəryada özü ar edər.
***
Bir kimsə düşməsin şərə, böhtana,
Allah cəza vermiir hələ şeytana.
***
Bəşər yuvasına isti tən dedi,
Onu bəsləyənə can Vətən dedi.
***
Dünya fırlandıqca zaman ötüşür,
Hər insan bəxtinə bir ömür düşür.
***
Nəciblik hər kəsə qismət olmayır,
Hər baş yiyəsində ismət olmayır.
***
Qənaətsevənə ruzi sel olar,
İsrafagedənə dönüb yel olar.
***
Hər kəsin könlündə bir sevdası var,
Sevdadan ruhuna can qidası var.
***
Dünyanın sirini açan olmadı,
Verdiyi fərmandan qaçan olmadı.
***
Selin hönkürtüsü dəryaya toydu,
Dəryanın başına tacı-taxt qoydu.
***
Dilin ağrısından baş ziyan çəkər,
Ziyana salmağı eyləyər şakər.
***
Məzlumun göz yaşı zalıma nəş'ə-
Göl olsa, kənarın zənn edər guşə.
***
Yaradan hər başa vermədi ağıl,
Ağıldan gələni saydılar nağıl.
***
Bəndə öləcəyin hər gün etsə yad,
Olmaz bəni-bəşər bir-birinə yad.
***
Öylə bir baş yoxdur etməsin xəta,
Bəs bunu kim edib bəndəyə əta?
***
Dağlar əyiləndə düzü incidər,
Ocaq döyüləndə közü incidər.
***
Cahanı isidər göyün günəşi,
Başa qida olmaz qəlbin atəşi.
***
Səhəri düzə aç, günü düz yaşa-
Yoxsa, ömür oxun dəyəcək daşa.
***
Gözün gördüyünə ürək amadə,
Ağıldan ürəyə gəlsə də hədə.
***

Haramdan qaçanın günü qaradır,
Bəs haram yeyənə dünya haradır?…
*** 28.10.2006
Hər hikmət içində min ağrı yaşar,
Hikmət açıldıqca qaynayıb daşar.
***
Dünyaya əbədi olanlar mail,
Bu iştah içində olacaq zail.
***
Vətən ululardan qalan xəzinə,
Qoruya bilməyən vurar dizinə.
***
Göyün göy dərdi var, yerin yer dərdi,
Bəs bu dərd içində nə çəkir mərdi?
***
Hər kəsin başından ağlı boylanır,
Dərinə enəndə ahdan vaylanır.
***
Dərindən qoxutma özünü heç vaxt,
Dayazda burulğan qurur tacı-taxt.
***
Hər kəsin sevdası ülfətə düşür,
Ülfəti yar edən afətə düşür.
***
Dağı dağ eyləyən olsa da dərə,
Dağ təki tutulmub adı bir kərə.
***
Sevdası olmayan könlüsazların,
Sevda nə çarəsi ağlıqazların?
***
Düşüncə sahibi olsan bir qədər,
Addığın hər addım haqqını ödər.
***
Ürək edəcəksə ağlına fərman.
Taleydən gileyli olma heç zaman,
***
Allahı içində aramasan bəs,
Şeytana alüdə olacaq nəfəs.
***

***
Dünyanı danlayıb tənə edənlər,
Dünya özü əkib, özü də dənlər.
***
Bir gün ac olanın - tox məqamı var,
Bir gün var olanın - yox məqamı var.
*** 29. 10. 2006
Həyat – yaşamağın dirilik kamı,
Yandıqca tükənir bu ömür şamı.
***
Sevgi – İlahidən doğan bir Günəş,
Ölüncə ürəyi yandıran atəş.
***
Həqiqi məhəbbət heç vaxt solmayır,

Əfsus, hər ürəyə o heç dolmayır.
***
Başdan ağıl qopur, ürəkdən ağrı,
Bilmirsən hansıdı yandıran bağrı?
***
Zamanın acısı gözdə yaş olur,
Yanan ürək olur, yaman baş olur.
***
Nədir nalə çəkir bu can içində?
Ürəyi ağladan hicran içində.
***
Səadət hər kəsin öz əlindədir,
İşində, gücündə, əməlindədir.
***
Anların fəryadı diləkdən keçir,
Diləyin ağrısı ürəkdən keçir.
***
Həyat zaman ilə verib baş-başa,
Hər insan ömürü ona tamaşa.
***
Nə yerdə, nə göydə deyildir Allah,
O insan içindən edir min bir ah.
***
Hər gün əl açanda dərgaha ahla,
Qayıdır özünə ahın günahla.
***
Ürək candan həzar edər,
Can ürəyi məzar edər.
***
Dünyaya vurulma həddən ziyadə,
Ömür, Rəbb əlində bir içim badə.
*** 31.10.2006

SON SÖZ

Əslində XX1-ci əsir elmin, texnikanın ən yüksək həddə çatdığı dövürdür. Bədi yaradıcılığa marq və həvəs həddindən artıq azalmış və demək olar ki, sönmüşdür. İnsanların beyini komrüterə köklənmişdir. Amma hər bir millət tarix səhnəsində keçdiyi ömür yolu ilə yox, məhz ədəbiyyatı, tarixi, elmi, ümumilikdə mədəniyyəti ilə qalır. Ədəbiyyatı, yazısı olmayan xalq millət ola bilməz və gec--tez tarix səhnəsindən silinib gedər.Allah bizim ədəbiyyatımızı, tariximizi, elmimizi, mədəniyyətimizi qorumaq hissimizi əlimizdən almasın…

Bu kitabın işıq üzü görməsində mənə mənəvi və maddi yardımçı olmuş həyat yoldaşım Abdulov Əli Əli oğluna dərin minnətdalığımı bildirirəm. Böyük Yaradandan Ona və möhtərəm oxuculara can sağlığı diləyirəm.

MÜƏLLİF HAQQINDA

Kərimbəyli Şirinxanım Ağabala qızı / Şadiman / 2 sentyabr 1955 - ci ildə Dəvəçi bölgəsinin /indiki Səyəzən/ Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2№-li orta məktəbi bitirib. Ali təhsilini Bakı Dövlət Universitetində 1979-83 cü tədris illərində başa vurub.Həmin tədris ocağında Kitabxanaçılıq fakültəsini bitirib. 1992 -ci ildə Jurnalistlər birliyinin nəzdində Jurnalist İnistutunu bitirib. 1 fevral 1985-ci ildə Xəzərdənizneftgeofizika trestinin « Neft Daşları » Dəniz Mədən Geofiziki Ekspedisyasında cizgiçi, texnik, hal-hazırda mühəndis işləyir.

Şirin xanım hələ orta məktəbdə və ali məktəbdə oxuduğu zamanlar şe'r yazırdı. Həm tələbə vaxtı universitet qəzetində, həm də sonralar dövrü mətbuatda şe'r və məqalələri çap olunub. 1991-ci ildə « Ürək niyə ağrıyırsan ? » şe'rlər toplusu Azərnəşirdə işıq üzü görüb. 1992-ci ildə Türkiyədə silsilə şe'rləri Zeynalabdin Makasın redaktəsi ilə « Çağdaş Azərbaycan şe'ri Antalogiyası » kitabında çap olunub. 1995-ci ildə Teymur Əhmədovun müəllifliyi ilə buraxılmış « Ensiklopedik Məlumat Kitab »ında müəllif haqqında məlumat gedib. 1999 / 2000 - ci ildə « Çəkənə qəm dünya, Çəkməyənə dəm dünya » adlı 400 səhifəlik, 2002 - ci ildə 565 səhifəlik « Kiminə acı dünya, Kiminin tacı dünya » adlı iri həcimli kitabları çapdan çıxıb. Bu kitablarda müəllif ədəbiyyatımızın müxtəlif növlərində, bayatı, rübai, qəzəl, qoşma, pyeslər və poemalar və s. şe'r nümunələrində qələmini sınayıb. Bu illər ərzində dövrü mətbuatda çıxan kitabları haqqında məqalələr gedib, şe'rləri səslənib. 2005 - ci ildə yenidən Teymur Əhmədovun buraxdığı təzə " Ensiklopedik Məlumat Kitab »ında məllif haqqında və yaradıcılığı barədə məlumat verilir. Şirin Xanımın yeni nəşrə hazırladığı « Ağıla bəhər dünya, Ürəyə qəhər dünya » adlı iri həcimli kitabında son illər qələminin məhsulu olan Allah, dünya, həyat, insanlıq,məhəbbət, vətənlə bağlı şe'rləri, bayatı, dördlük, rübai, qəzəl, qoşma, gəraylı bir çox şe'r forma və növlərində öz əksini tapmışdır. Şairin könül rübabından süzülüb gələn şerləri insanın iç dünyasını silkələyir və onu dərindən düşünməyə vadar edir. Müəllifin fəlsəfi dünyasından doğan bu kitablar müasir Azərbaycan ədəbiyyatında öz sözü və öz yeri olan dəyərli sənət numunələridir. Zəngin yaradıcılığı ilə əlaqədar 23 fevral 2005 - ci ildə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttitifaqı tərəfindən " ARAZ " ALİ ƏDƏBİ MÜKAFATI laureatıdır. Biz nəşriyyatımız adından istedadlı şair Şirin Xanıma yeni-yeni yaradıcılıq uğurları arzulayırıq və bu mükafat münasibəti ilə onu səmimi qəlbdən təbrik edir, sənətdə tutduğu yoldan dönməməyi diləyirik. Qoy onun insanlıq və məhəbbət eşqi ilə vuran qəlbi heç zaman tükənməsin və ömrünün sonuna qədər bu sevgi qəlbini izləsin və ədəbiyyatımıza dəyərli əsərlərini bəxş etməkdən yorulmasın.

Kitab müəllifin atası, 2002 - ci ilin oktyabrın 18 - də dünyasını dəyişmiş Ağabala Məmməd oğluna ithaf olunur.

Kitablarının çapı həyat yoldaşının və müəllifin aylıq məvacivimiz hesabına həyata keçrilib.

MÜNDƏRİCAT

ÖN SÖZ.....

ZİRVƏLƏRDƏ OLAN TANRI

Quranda şairlər haqqında ayə.....
İlahi dünyanı qoru.....
Zirvələrdə olan Tanrı.....
Oyma könlümüzü, oyma, İlahi.....
Odu dahi, uca yaradıcı.....
Ey Xuda.....
Ən böyük yaradıcı.....
Çarə tapar loğmanımız.....
Sirrini hifz eləyər Allahım.....
Rəbbə şükür.....
Yeri, göyü yaradan.....
Nə biləydim bu fələk ah imiş?.....
Hər nə varsa Allahdandı.....
Saxla göydə hələ daşı, Allah.....
Canı təndə bəsləyən Rəbb.....
Allah.....
Sevgili, Allah.....
Dualarımda mən səni tutdum.....
Ya quran.....
Ya İlahi, ürəyim sinə dolu qan oldu.....
İslam səadətdi.....
Allah, hümmətin olum.....

BU DÜNYA ÖTÜŞƏN QƏM KARVANIYMIŞ...

Bu dünya qəm çeşməsi.....
Can ağlayır.....
Bu dünya ötüşən qəm karvanıymış.....
Dünya şeytan içində.....
Cahan iblislə dolu.....
Ağıla qəhər dünya.....
Haqqa necə yetirim?.....
Gözündən yaş tökür dünya.....
Heç kəslə yıxılıb ölmədi dünya.....
Yar bildim dünya.....
Vermədi yağı zaman İraqa.....
Dünyanın üzü bozdu.....
Qalx ayağa, qoca Şərq.....
Yapon xalqı.....
Amerka prezdenti Corc Buş cənablarına məktub.....
Erməni fitvasını dünyaya faş eyləmisən.....
Ey həyatı qan edənlər.....
Bu dünya heç kəsə qalmaz.....
Dünya içi talan oldu.....
Tapıla bu dünyanın çarası.....
Bu fani dünyanın vəfası yoxdu.....
Sonradan başına döymədi dünya.....
Bu dünya nə sənə, nə mənə qalmaz.....
Dondum, dünya, boranından.....
Hər kəs öz gözüylə baxır dünyaya.....
Vay halına.....
Ədaləti qul edirlər.....

Bu zalım zaman……
Kədərlə dolu dünya……..
Haqqının qulu bəşər……
Dünyanın nəzər nöqtəsi……
Niskilləri çox dünyanın……
Axır ki, oxundan çıxdı bu dünya……
Haqdan yaxşı zaman olsun……
Ürəyimdə həzin duyğu……
Şad etdi kimi dünya?……..
Daha bu dünyaya səbrim çatmayır……

SƏNDƏN BAŞLAR, GÖZƏL VƏTƏN, ALLAHIMA İBADƏTİM

Ey Vətən……
Azərbaycan……
Nazlı Bakı……
Sənə niyə belə zülümlər oldu?……
Müstəqillik……
Qan içində……..
Yaraşmaz şəninə nalə, vay şəhid……..
İstiqlalın sorağı……
Mustafa Kamal Ata Türk……
Ey böyük şairim……
Qan-qadalı məmləkətim……
Qaldı dillərdə……
Nə bilsinlər ?……
Satıram……
Ey şəhid anası……
Yağı əllə qəmə batdı el, Vətən……
Biz heç vaxt a millət türk olmamışıq……
Eloğlu……
Ata yurdunu kor qoyan oğul……
Gözlərdə ağlayan qan-yaşa bax……
Sapma haqq yolu……
Bayıl zindanı……
Ey qeyrətli Vətən oğlu……
Vətəni xilas eyləyək……
Dilimiz varsa yaşar varlığımız……
Bu yazıq xalqa qalan boş quruca zəhmət olur……
Gözlərim qana baxır……
Əcəb günə qaldıq, Allah……..
Qoca Qafqaz……
Vətən bir anasa……
Bu Vətən azaddımı?……
Ah, Vtən, mən səni tərk edə bilməm……
Niyə bu ölkədə doğuldum, Allah?……

UŞAQLARA ƏRMAĞAN

1 HİSSƏ

VƏTƏNİ CANDAN ƏZİZ SANMALIYIQ

Gəlin sevək Vətəni……
Öz yurduna gərək olaq……..
Himnimiz -Bayrağımız……
Ana dili……
Vətəni candan əziz sanmalıyıq……..
Məktəb……

Müəllim……
Uşaqlar……..
Uşaq bağçası……
Təzə il……
Gəlib axır çərşənbə……
Novruz bayramı……
Yansın bayram şamları……
Çox qiymətli incidi……
Hər ilin öz sevinci……..
Qar adamı……
Qar yağır dağa, düzə……
Yaz gəlir……

11 HİSSƏ

BALALAR BALDAN ŞİRİN

Əziz……
Kərim……..
Arifin yaşıl topu……
Cavid və qaranquş balası……..
Gülşən……..
Əminə……..
Brilyant……
Yeganə……
Gülnazım……
Təhminə……..
Gülnar qızım……..
Leyla……
Nuridə……
Xədicə……

111 HİSSƏ

HEYVANLAR HAQQINDA MƏCARALAR

Körpə quzunun və ac qurdun əhvalatı……
Siçan balasının hiyləsi……
Ayı balasının hekayəsi……
Lovğa xoruzun hekayəsi……
Cırcırama ilə qurbağanın dostluğu……
Sadəlövh milçəklə hörmürçəyin hekayəsi……
Qarışqa ilə filin əhvalatı……
Nəvəylə paxıl pişiyin hekayəsi……
Yuvasını itirmiş arı balasının hekayəti……
Dəcəl keçinin yiyəsindən kötək yeməsi……
Meymunla zürafənin məcarası……

ÖMÜR BƏXTƏ DÜŞƏN DƏMDİ

Könlü diriltməyə hava çatmayır……..
Məni bu ürəkdən qurtar, Allahım……
Yaşamaq nə müsibətdi?……
Gecədən sübhə qədər……
Elə dolmuşam ki, tənha buludtək……..
Etmə könlü məkan qəmim……
Ürəyimdə diləklərim sellər təki……
Ürəyim bürünüb aha, fəryada……
Gecənin sükutuna dolaşıb zamanım……

Ağrılarım baş-başa……
Nədən sızlayırsan, divanə bülbül?……
Yıxdı könül mülkünü hicran dolu əndişə……..
Ürəyim ağlayır körpə uşaqtək……..
Mən belə yaşaya bilmirəm, Allah…….
Fələkdən gələnə loğman neyləsin?……..
Qaytara bilməyirəm……
Qəm qapısı bağlıdı……..
Can sənə bağlıdı elə, ay ürək……
Qəm tutdu ətəyimi……..
Dilə gəldi ürəyimdə duyğular……
Ey şamlar aşiqi……
Bəlalı tale……..
Gəldi ömrə yuxu kimi……
Siz ey harayımı duyan adamlar…….
Məni qəmə tutan zaman…….
Dərd məni çəkdi kamına……
Elə ağlayıram dərdlər içində……..
Könlümə gözümün yaşları axır…….
Qul etmə məni…….
Quş olub uça bilmirəm……
Közümün yaşını gurşadlar yuyur……
Ələm bostanın xəzanı gəlməz……
Sözlərim hönkürər……
Səsi düşüb başıma……
Özümü heç yerdə tapa bilmirəm……
Ürəyim dolubdu yaz buludutək……..
İblisi taxtından yıxmaq istərəm……
Bu dünyanı qanad bildim…….
Ürəyimi ahlar dəlir……
Axşam düşür, şər qarışır……
Dəli baxta bax……
Məni ürəyimlə tək qoyan fələk……..
Könlümün duyğuları……..
O qədər dərd çəkdim……
Ürək üstə gedən könül…….
Ürəyim ağladı……
Çırpınan duyğularım……
Ürəyimlə yuxladı…….
Müqəddəs ünvanım ana……..
Bürünüb qaçmağa duman gəzirəm…….
Sən ki, gəlib çıxmayırsan, ey fələk……
Gözdə yaşım giryan olar……..
Xəzan küləkləri əsir……..
Dərd çəkir könlümü dara……..
Ey dəli ilhamım……..
Bir tənha qayığam……..
Ürəyimdən qopar anlar……..
Əlacın tapmağa loğman gəzirəm……..
Qıymadın xoş zaman mənə……..
Ah-zar içində……
Yandı könlüm fəqan ilə……
Ağlatdı könlümü qəmim……
Sındı həyatımın şadlıq kuzəsi……..
Ürəyimi ovlayır……..
Ağılımda mərəkə……
Könlüm ahdan çəkər haray……..
Qərib bir taleyim var…….
Yaralar köz-köz ağladı…….

Taleyin yelləri əsdi başımda……
Nə taleysiz bəndəyəmmiş?……
Niyə şair doğdun məni, ay ana?……..
Ağladır könlümü sultan təbim……..
Yenə könlüm quşu cövlan eləyir……
Nə sızlayıb könlə sitəm edirsən?……
Bu necə taledi yaşayıram mən?……
Könlüm düşüb çovğuna……
Yandırar könlümün için şam kimi……
Bir insafa gəl barı……..
Mən özümə ağladım……
Kəsildi niyə amanım?……
Ötən günlər keçdi getdi……
Nə baxırsan mə'lul - mə'lul?……..
Yenə könlüm təblə cövlan eləyir……..
Ömür bəxtə düşən dəmdi……
Bir dünyalıq həsrətim var……
İlhamımı görən Allah……
Bir səadət ocağıyam……..
Könlümün duyğusun inlət, ey şeir……
Bir dolu çeşməyəm……
Nə qanad açmısan sevdalı ürək?……..
Nə gəzirsən zarı-zarı?……
Qəlbim həmdəm arar dillər içində……
Bir ocağam köz üstündə……..
Qırılıbdı qəlbin simi……
Gör ilham nə fərman edir?……..
Nə nazildin tellər təki?……
Ürəyim ağlayır için-için……
Sabahın zümzüməsi günahlara bənd olar……..
«Yanıq Kərəm »*……
Əridi kipriklər içində yaşım……
Gecə ay mehman gecə……
Elə düşmüşük oyna……..
Gecəmin naləsinə qapandı kipriklərim……..
Diləklərim havada……
Vaxt uçur yeltək……..
Düz düzdə qalır……
Ay dilimin laylası……
Uzun yolun yolçusu adam……..
Çırpındı bədəndə göyərçintək can……
Ah, ömür ağacım payıza düşür……
Mən də millətə say oldum……
Şeytan özü puldu, pul……
Əyilib dünyada nizam-tərəzi……..
Gör necə var olmuşam?……
Haram yeyən başdadı……..
İblisdən olan……
Kor taleyim……

ÖMÜR KEÇDİ YUXU KİMİ...

Neçə gündür yatırsan o qara torpaqda, atam……
Başımın tacı atam……
Rəbb edir bəşəri nakam, ata……..
Könlü pak, ürəyi mələk atam……
Səni itirdim atam……
Ölüncə mən səni gəzərəm……
Aldı təndən fələk canı……..

Kaş açılmayaydın, ey sabah, mənə…….
Qəfil gəldi bu əcəlin……..
Ayrılığın bir ucu da ölümmüş……
Harayım yetməyir sənə, atam…….
Sənsiz talanam, ata……..
Gözdə yaşım selə döndü……
Yoxluğun sinəmə çəkdi dağları…….
Qara torpaqdı evin……..
Sənsizlik nə imiş…….
Sən niyə dərdini gizli saxladın? !……
Səni aramıram daha heç yerdə……
Nə yaman tələsdin?……...
Açılan hər sabaha şövqlə xoş an atadır…….
Ömür keçdi yuxu kimi……..

ÇƏKİL GET, QARA BULUD

Cırdı köynəyini dolan buludlar……
Buludları yel qovur……
Yağışlar mirvari dənəsi…….
Duman qalıb tül içində…….
Gəlsin aləm sağ üstünə……
Aç qapını fələk gəlir……..
Külək əsir həzin-həzin……
Ulduzlar Tanrının almaz daşları……
Başı ərşə duran dağlar……..
Bizə tərəf gələn bahar……..
Heyva ağacı…….
Məni buludlar ağladı……..
Təbiətin gözəl qızı…….
Sənin gəlişinə qurban olum mən…….
Səndə mələklərin gözəlliyi var…….
Ey səma daşı……
Çəkil get, qara bulud……
Xəzərin üstə acı yellər əsir……
Dağlara, düzlərə saf inci çiçək……
Əsir xəzri küləyi……..
Təbiət ağ paltarda…….
Payız saçlarını töküb çiyninə……..
İlahinin nə dilbər, şahanə külәkləri?……
Mənim ilhamımı çağladan payız…….
Durnalar……..
Xəzər nə nazəndə?…….
Nə əsirsən səhər yeli?……..
Xəzərdə nə fırtına……
Ömrə calana-calana……
Hicran düşər……..
Bu gələn yazdı……..
Gəl açıl üzümə, açıl ey səhər……
Gəl ey bahar, aç qapımı……
Xəzər, mənə qəm oxuma……..
Ruhumun sevdasıyla pıçıldaşan ləpələr…….
Göydə buludlar ağlayır……..
Günəş doğdu qaranlıqlar qaçıldı……
Tökdü atəşi qəlbə……..
Açılan hər gülə can qönçədi…….
Al günəş aləmi bəzədi yenə…….
Gələr göylərin dumanı……
Şimşəklər dəli bir çaxnaşma salar……..

Qış çıxıb taxtına sultansayaq……
Dağ başına duman gəldi……..
Gecə batıb ay içində…….
İlin son saatları……..
Kəsibdi yolumu fırtına, tufan…….
Hər gecəm ahdan doğulub……
Xəzər üstə bu ünvanlar…….
Yenə duman alıb dağlar başını……..
Quşbaşı qar yağır…….
Nazlı Xəzər……
Buludlar səmanın yanan naləsi……
Çəmən çiçəkləri……
Yenə tutdu yer üzünü…….
Misranı düzər ulduzlar…….
Buludlar göylərin bağrından qaçıb……
Məni aramağa Xəzərə gəlin……
Küləklər səmanın mələkləridi…….
Titrətdin hissimi qopartdın tufan……
Həyat gözəl bir mələkdi……..
Al sabahım yetişəndə……
Dan ulduzu, dan ulduzu…….
Sübhün sinəsində lalə rəngli qan……
Əsən yellər……..
Ey sabah, könlümə sevdalar gətir…….
Ruhumun, canımın qidası bahar……
Bu necə ülkərdi?…….
Xəzərdə fırtınadı……
Ey sərsəri külək……..
Dolan bulud sən yağma……
Fırtına hay qaldıırıb……
Ay sarı bülbül…….
Karvan-karvan yol eylədi……
Yenə buludların qaynayır gözü…….
Ağ bayraq qaldıırıb qara buludlar…….
Ey sirli kainat……
Başına döndüyüm, ay mələk külək……..
Ey fırtına quşu……
Ey dalğa, döyəcləmə altımdakı dirəyi……..
Payız çiçəkləri boynu bükülü……

ZAMAN ÇAPIR ATIN YELTƏK

İçində nifrətin tuğyan eləyir……
Günahın şeytanın özünə qalsın……
Hər bir bəla aca gəlir……
Heç kəs aramayır Allah içində……..
Söyləmə taxsır belə dövrandadı…….
Düşünən başlara can tab eyləmir……..
Ömür bizdən qaçıb gedir……
Rəbsiz könül eşqi tutmaz……
Ömür ağrısını yaşa verməsin…….
Fikir qəlbin için kəsir…….
Ey üzlərdə ülfət gəzən adamlar……
Hər cürə həqarətə……
Ayrılıq qürbətin həsrət quşuymuş……
Gələn gələr, qalan olmaz……
Könlü qul eyləmə aha, fəryada……
Dərdi şah eyləmə öz ürəyinə……
İlləri saxlamaq olmur ki, olmur……

Ey könlü şər yuvası……
Alışan ürəkdi, çırpınan başdı……..
Dünya çuval təki dolub, boşaldı…….
Ürək ağlar zarı-zarı…….
Tale mürgü döysə həyat yolunda……
Müəllim, işıqsan, həyasan bizə…….
Allaha iman eyləyir……..
Bu dünya bəşər quludu……
Ötən günlər düşməz ələ……..
İtiririk günümüzü zərrə-zərrə əlimizdən……..
Vicdanla insanın mühakiməsi……..
Ömür də bir siyasətdi……..
Hər alın yazısı min ağrı, acı…….
Uzanıb gedir yollar……..
Can çəkər cəfa……..
Saat elə qurulur……
Ürəyin könlün alar təsadüf…….
Hər kəsin könlünə bir yar olsun……
Alır qaçır zamanı…….
Ey zalım zaman……
Allah bizi yaman gündən saxlasın…….
Bu fələk nə yaman ev yıxan imiş ?…….
Ömür bəxtin aynasıdı……
İnsan ömrü dolu badə…….
Bu tale oyununda……..
Tək eləyib bizi elə gedirsən……..
Gələr əcəl, verməz macal……
Deyirlər ki, ömür sudu…….
İnsafsız fələyin işinə bir bax……
Gün gəlir hər an üstünə…….
Zəhər var altındıda yağlı dillərin……
Gözəldir, ey insan bu həyatımız……
Hər adəm övladı insan olmaz……..
Könlü bihuş edir can meyim təki……
Hardan gəlir, hara gedir?……
İnsan da canlıdı, heyvan da canlı…….
Diləklərin dil açır……
İnsan zəkasında iffət olmayır……
Ey canı və ruhu, ürəyi şəfa……
Aç könül qapısın orda şam edim……
Ey yaşanan ömürlər……..
İnsan doğulanın qəlbi daş olmaz…….
Ey könül sultanım, ey ürək odum……
Sən ey tufan məhəbbətim…….
Yenə duyğularım köpürür, daşır……
Könlüm quşu uçub yenə havaya……..
Mənim duyğularım dağ şəlaləsi……
Nə şö'lələr saçdın yenə?……
Həyat sınaqdı……..
Fələk niyə üzün döndü?……
Mənim ürəyimdə yatan duyğular…….
Ey qanadlı ürək……..
Asılıb çiynimdən ömür xurcunu……
İlahiyə bağlı ürək……
Ürəyim haray çəkir…….
Gecələr şamı…….
Yenə ruhum qanadlanır uçmağa……..
Ömrünü yaşayıb köçənlər bilir……
Duyğudan-duyğuya coşub, daşıram……

Ömür gəldi pak qədərlə……..
Hamımız gedəriyik, heç kim özün öyməsin……..
Ömür qaçır əldən belə……
Can birləşib tən ilə…….
Ya göydə, ya yerdəmi gizləyim bu qəlbimi?……
Hər gələn sabahda min hicran yaşar…….
Niyə məni doğdun, niyə ay ana?……
Yaxşı adamları gəlin qoruyaq…….
Ürəyimə xətər olur……..
Allahına duva eylə……..
Niyə taleyindən şikayətlisən?…….
Ağrıya yol etmə məni…….
Yenə könlüm evi ahdı…….
Düşüb ümidlərim özü payıza……..
Dərd ürəyimi yoxladı……
Ağlar gözə can görünməz……
Səhvlərlə doludu insan həyatı…….
Ey dili qafil……
Yenə dolub boşalırsan……..
Üşüyürəm çən altında……..
Neftçi-mühəndis yuxusu…….
Rüşvətə pərəstiş……
Böyük əməllərin yaşar ellərdə……
Nə yaz bildim, nə qış bildim?……
Bu canla mehman etmə……..
Dağ-dağa sökənəndə……..
Bir duyğuda min can yaşar…….
Sevincin bəxti azdı……
Yerlə göyün savaşı……
Əldən getdi zamanlar…….
Ürəyimdə pərvaz edən……..
Haqq bilsəydi nə çəkirəm?……
Ürəyimdə yenə həsrət çağlayır……
Saat əqrəbləri dolanır bir-bir…….
Dünya üzü nə talandı?……..
Çırpınıb qalıram möhnət içində……..
Ey səadət quşu harda qalmısan?…….
Ruh-vicdan……
Oğrun-oğrun baxan təbim……..
Qəmlərim ürəyimin şah mizrabın çağladır……
Bir çiçəklə yaz olmayır……
Hər ürəkdə ülfət gəzən……
Ocağımda yel əsəndə…….
Zəka buludları elə toqquşur……..
Sabahda axşama gün elə uçur…….
Zehinimdə fikirlərim……..
Ey qadadan qopan canım……..
Ay ilə dolandı, il də zamana……
Səadətlə oynayıram……
Candan çıxmır ağrı-acı……
Mən sənə neylədim?…….
Ruhuma necə can gecə?……..
İnsan özün itirib günahların içində…….
Taleyin qəribə oynuna düşdüm……
Yenə könlüm cilvələndi……
Ürəkdə hicran əzabı……..
Nədir bəşərə qalan Rəbb eşqiylə yanmasa?……
Məni canda gəzən fələk……
Bütün arzularım qaldı ürəkdə……

Qopdu ürəyimdə payız küləyi……..
Qadınlar……
Rislik günahdan gəlir…….
Döyürsən qapımı yenə təzə il……
Uçuşan ruhumun canısan, zaman……
Yer öz orbitindən çıxıbdı yaman……..
Mən öz ürəyimin quluyam, Allah…….
Gah sevincdə, gah kədərdə……
Cilvələnsin həyat quşu……..
Bir dənizəm hiddətim yox…….
Səmalarda bir hikmət var……..
Küləksiz dənizdən qorxur gəmilər……
Şərafət itməsin…….
Sən ey ağrılara qul olan könül……
Mən eşqə yar olmuşam……..
Nə yerdəyəm, nə göydəyəm……..
Bu ürəyim dolmuş bulud……
Yada düşür yenə gənclik çağları……..
Dərdi mənə çıraq etdin……..
Şəkildən-şəkilə düşür təbiət…….
Çarə eylə ey fələk……..
Tale bülbülüm oxu……..
Həyatdan doymayır gözü insanın……..
Şairlər dünyanın dərdin çəkərlər……..
Hər can yiyəsinə bir imtahan var……
Bilmirəm dünyanın harasındayam?……
Bu dünyadan can qutarım……..
Elə şimşək vuran palıdam ki, mən……
Necə yetim can atına?……
Fələk mənə sevda verib…….
Ürək, yanma, yanma belə……
Səbrim qol götürüb oynayır mənə……..
Ağlayır uşaq kimi……..
Dünyamız nağıl olar……..
Haqqıma yol açıram……..
Ürəyimdə hal qalmadı……..

EŞQİDƏN HƏR DUYĞU MİN CANƏ GƏLİR

Oda səcdə edən bir pərvanətək…….
Sənə pak sevdalar mənə yazıqlar……
Səni sevə-sevə öləcəm axır……..
Bu dünyada yoxdu səndən, əzizim……
Tapa bilməzsən məni……
Eşqin ürəyimə can dərmanıdı……..
Nə gəzirsən bu sevdada?…….
Sinəmdə peyman üşüdü……
Vəfa məndən, cəfa səndən……..
Ey könül mülkümü gəzən dildarım……
Dağdan düzə enmişəm…….
Tale bizi yoxlayır……..
Sevda canın, can sevdanın……
Səni gəzər ürəyim……
Eşqini əzizləyim könlümün harasında?……..
Təkcə səni unutmaram……
Eşqidən hər duyğu min canə gəlir……
Həsrətin gözünə necə mil çəkdin?……..

Dilənçi deyiləm əl açım sənə…….
Özün qoru bu sevdanı……..
Şad edək canı…….
Xəyalın baxışım önündə incə……..
Sən Allahın bəlası……
Könlümə dəyən biväfa…….
Könül mülkün yıxan qafil……
Bütün ümidlərim qaldı yolunda……..
Həsrət yarası…….
Bizi ayırmağa tələsdi zaman……
Elə ürəyimə toxundun yenə…….
Sən könül, sən ürək, sən can sirdaşı……..
Gecəm ahla sızlar olub…….
Sən ürəyimsən mənim……
Bu sevda nə sevdadı?……..
Hardasan ey yar?……..
Sənin xəyalların yüyənsiz atlı…….
Sən könül bağçamın şeyda bülbülü……
Səhər-səhər mənə üç gül gətirdin……
Hönkürür könlümün qapılarında……..
Can içində bəslərəm…….
Ağlar ürəyimi salmadın yada……..
Könlü dərdə suç eyləmə…….
Halal eylərəm……
Elə tamarzıdı ürəyim sənə……..
Baxışların nə deyir?…….
Qəlbə hardan gəldi bu məhəbbətin?……..
Səni yuxularda gəzirəm indi……
Väfa umma gəl yetəndən……
Eşit könlün harayını…….
Çiçəklər açılıb bağımda, eyvah……
Mənim ürəyimi yad edən dildar……
Üz çevirib getmə məndən……
Nədən üz çevirib gedirsən belə?……
Dilimdən düşməyir adın bir an da…….
Bir qərib axşamda düşdün yadıma…….
Bəbəkdən tökülən yaşlarım damla……..
Könlümə hicran yağır……..
Bir gün dön yarına……
Hicran kəsdi yolumu……
Ahdı duyğuları puç məhəbbətin…….
Bu necə sevgidi?……
Səni canda bəsləyərəm…….
Əzabından hayqırdım dolu vurmuş sellərtək…….
Ayrılığa qalan sevdam……
Söndü çırağımız axşam gəlməmiş……..
Baxır boynu bükük titrək xəyalın……..
Həqiqi eşq ibadətdi……..
Can çəkər bəla eşqidən……
Yar məni saldın oda……
Sənin xəyalların yüyənsiz atlı…….
Yar gərək könlümü alsın getsin…….
Həsrət çəkir qəlbə dağlar……
Həsrətin tufana döndü……..
Bilmirəm nədəndir arada ülfət?……..
Tutulub ürəyim soyuq qışlara……..
Nə yaxşı sən varsan, məhəbbətin var?……
Bütün sevgilərə haray olaydıq……
İki könül arasında…….

Atdın ürəyimi qubara……
Yaz könlünə göz yaşını……..
Ah çəkmə, sevgilim……..
Qısqanclıqdı məhəbbətin açarı…….
Səni çox aradım bir çiçək təki……
Gəl bu qəlbdən vəfa umma……
Titrək baxışların hönkürən bulud……
Elə xəyalımdan boylanıb baxdın…….
Bu gecə qəlbimə gətirdin yazı……
Ciyərimin guşəsi……
Bir könül qırmışam……..
Bir qədəh şərabmış bu məhəbbətin……..
Üzüb çiçəklərin ən gözəlini……
Səni ürəyimə buraxmaq üçün…….
Gözdə yaşım çağlayır……..
Saldı məni yaman oda gözlərin……..
Qanadımı ütmə belə…….
Baxışların mənə zülüm eyləyir……
Bir daha ulduzum göylərdən enməz……
Yenə ürəyimdə ağrı boy atdı…….
Çıxmadın heç yadımdan……..
Sən günahlarını qəlbə götürmə……
Bir sevda küləyi əsir başımda……
Mənə tərəf gələn xəyal……..
Məni heyrətdə qoymusan…….
Ey ürəklə avaz edən……
Sevmədin ürəkdən məni……..
Gözümdə həsrət yaşı……
Könlümü alıb…….
Unuda bilmirəm daha……..
Gəl ovutma yanan qəlbi……
Nə sən bu sevdadan dönən deyilsən…….
Möhnətə şəfa eylə……
Vaxtsız xəzan düşüb gülümə sənsiz……..
Bu səhər atəşlər saçdın…….
Ey könül günəşim……
Hicran yükün çəkən, qafil……
Mən əsir olmuşam baxışlarına……
Məni duyğularda yaşat sevdiyim…….
Salıb könlümə möhnəti……
Bu eşq mənə haqdan bəla……..
Ah, necə sevirəm……..
Hicran göylərinin kahası dərin……
Könlüm sənin yanındadı……..
Baxışların canlar alır…….
Sən mənim könlümdən çıxmadın heç vaxt……..
Heyrət etmə surətimə……..
Zirvə günəşitək nə parlayırsan?…….
Bu qatar yamanca şütüyüb gedir……
Bu gecə xəbər et ulduzlara sən…….
Ürəyimin telləri……
Səni yuxularda görürəm yenə…….
Surətin ay kimi durub qarşımda…….
Nə vaxtdan başladın sevməyə məni?…….
Gəl apar xəyalını……..
Hicran salıb cana sitəm……
Könlümü qırma belə…….
Səni unutmaq çətin……..
Yenə gözüm yolda qalıb…….

Mənə vəfasız demə……..
Gözlərim yoluna dikilib qalıb……..
Mən sənin sehrinə düşmüşəm yaman…….
Dönmüsən heykələ yenə qarşımda……..
Gözdə möhnət odu, qəlbdə intizar……
Həzin xatirətək gəlirsən mənə……
Xəyalın boylanır həsrət içindən……
Deyirlər gəlmisən bizim tərəfə……
Ruhumun qidası, canımın yarı……
Mən sənə can dedim……
Nəzm hekayə – Nakam məhəbbət…….

MAHNILAR

Belə olmaz zalım yar……
Mən səni aşiq bildim……
Can içində can bəslərəm……
Canımın yarı yarım……..
İki qəlb arasında……
Bəs hardasan yar?……
Gəl könlümə peyman eylə……..
Ey sultanım, bir dön mənə……..
Ürəyimi al apar……..
Yar gəlsin……
Mənə sarı baxan yar……..
Canlar alan vəfadarım……
Mənim təki yan yarım……..
Özünü mənə yetir……..
Ayrılıq saldı yaman…….
Sevdalım yar……
Səni sevdim……..
Nə möhnətdə qoydun məni?……..
Nazlı yarım……
Baxa-baxa ……
Sevdalı könlümə düşdü məhəbbət……
Uçub gedən xəyalım…….
Ay gecə üstə saçdı yar……
Qoyma qəmdən ölək yarım……..
Yari-vəfadar…….
Ey fəsli-baharım…….
Sən ey könlümün yarı……..
Canımı ara gülüm……..
O titrək baxışın gözdən yaş silə……
Yolunu gözləmişəm……
Dərdlərimin dərmanı……..
Oxuyur sevda quşu canımda……
Gecələr, ay cecələr……..
EYVAH, ÜRƏYİM OD TUTUB ATƏŞLƏRƏ YANDI

Baxmayır insafa heç candan alır can qocalıq……
Nə gərək ki, bu qədər çəkəsən əzabı, bəşər……
Yenə yaz gəldi gülür üzü vəfanın bəri gəl……..
Yenə könlüm içini yar elə sevdaya salır……..
Yenə gördüm üzüvü üzüvə qurban mən olum……
Şair olanın ruhuna qanad gərək olsun……
Eyvah, ürəyim od tutub atəşlərə yandı……
Ey səba, hicranıma candan qopan ah istərəm……..
Can edir cana bəla, canuva nə can yaraşır?……..
Ey könül, şövqə gəlib canıma peyman istədim……

Fələyin hökmünə bax hər işi yaman eləyir……
Hər kəsin sevdiyinə yari-vəfadar olsun……
Ürəyin möhnətini təndə gərək can çəksin……
Hər kəsin sevdiyinə eşqidə hicran olsun……..
Fələyin mehrinə bax hər anda min qan eləyir……
Hər kəsin qismətinə dəhridə bir can yaraşır……
Bilmədim bir kimsəni könlümə həyan, kimsənə……..
Öylə bir sitəmdəyəm ahımdan hicran ağlayır……..
Bas qədəmin könlümə ey rüxsari-canım mənim……
Qar yağır duyğumu candan eləyir……
Yenə gəldin ruhumu şad eləməkçin, Novruzum……..
Yanır ürəyim ah ilə fəqan arasında……
Sinəm alışır hicrinə, ey yar, gecə-gündüz……
Yanar ürəyim dərdin əlindən dilə düşdü……..
Ağlar gözümün yaşları bir çeşməyə bənzər……..
Haray eləyib səsimə bir xanə yaratdım……
Canın yiyəsin canın özü görməsə olmaz……..
Gəlsən elə gəl könlümü sevdaya tuş eylə……
Hicran acısı könlümə bir nalə yaratdı……
Yoxdu səndən savayı könlümə munis nə edim?……..
Yerlə göyü ah edən……..
Gələ bir başa ağıl, biz də bir hörmətə çataq……
Gərək insan özünü yaxşılığa sövq eləsin……..
Nə bəla gəlsə cana, möhlətü-hicrandan olar……..
Gedirəm hər gecəni yuxuda Allaha tərəf……..
Eyləmə zülmü mənə, eylədiyin bəsdi daha……
Eylədim zikir bugün yari-vəfadar gələsən……
Bir zamanlar sən idin eşqi-baharım, hardasan?……..
Sözü düzgün, özü mərd, ol bu cəsarətdə oğul……..

DODAQDƏYMƏZLƏR

Diləkləklər necə də çiçəklədilər?……
Həyat ağrıları etdikcə şiddət……
Çiçəklər titrəyir, yellər qaçışır……
Atəşi sinəyə yaxar diləklər……
Siz ey eşqi ilə qayğılananlar……

YANĞILAR……
BAYATILAR……..
DÖRDLÜKLƏR……..
RÜBAİLƏR……..
İKİLİKLƏR……..
SON SÖZ……
MÜƏLLİF HAQQINDA……